

BÖYÜK İQTİSADİ ENSİKLOPEDİYA

İDEYA MÜƏLLİFİ VƏ BAŞ REDAKTOR
akademik **ZİYAD ƏLİABBAS oğlu SƏMƏDZADƏ**

AZƏRBAYCAN İQTİSADÇILAR İTTİFAQI
BAKI – 2012

BÖYÜK İQTİSADİ ENSİKLOPEDİYA

V

SŞTUÜVYZ

AZƏRBAYCAN İQTİSADÇILAR İTTİFAQI
BAKI – 2012

Baş redaktorun müavinləri

i.e.d., prof. ***Məmmədhəsən Meybullayev***
i.e.d., prof. ***Amil Məhərrəmov***
i.e.d. ***Elşən Hacızadə***

Redaksiya heyətinin üzvləri

ABBASOV ƏLİ
ABBASOV İBAD
AXUNDOV VAHİD
ALIŞANOV ARİF
ALIYEV İSA
ASLANLI RÜFƏT
ATAKİŞİYEV MÜŞFİQ
BƏŞİROV ELXAN
ÇƏNDİRLİ İSKƏNDƏR
ƏHMƏDOV MƏHİŞ
ƏLƏKBƏROV FÜZULİ
ƏLƏSGƏROV AĞASƏLİM
ƏLİYEV AYDIN
ƏLİYEV NATİQ
ƏLİYEV RAUF
ƏLİYEV ŞAHRZA
ƏMİRASLANOV AZƏR
ƏSƏDOV HEYDƏR
ƏSƏDULLAYEV ÇİNGİZ
HACIYEV ŞƏMSƏDDİN
HƏSƏNOV KƏRƏM
HÜSEYNOV TELMAN
İBRAHİMOV ELDAR
İBRAHİMOV İSLAM
İMANOV KAMRAN
İMANOV QORXMAZ
İSMAYILOV ELDAR
KAZIMLI XANHÜSEYN
KƏRİMOV XOSROV
KƏRİMOV QÜDRƏT
QARAYEV FƏRHAD
QASIMOV SÜLEYMAN
QƏRİBOVA FİRUZƏXANIM
QULİYEV ASİF
QULİYEV ELDAR
QULİYEV RÜFƏT
MEHBALIYEV SƏTTAR
MƏDƏTOV MANSUR
MƏMMƏDLİ OQTAY
MƏMMƏDOV FAZİL
MƏSİMLİ ƏLİ
MİRZƏYEV SƏFA
MÖVSÜMOV ŞAHMAR
MUSAYEV AKİF
MUSTAFAYEV ŞAHİN
MÜSLİMOV SƏLİM
NADİROV ASƏF
NOVRUZOV VAHİD
NURİYEV ƏLİ
PƏNAHOV MUSA
RÜSTƏMOV ELMAN
SADIQOV MİRDAMƏD
SADIQOV ŞAHİN
SƏMƏDZADƏ AYTƏN
SƏMƏDZADƏ ELŞAD
ŞAMİLOVA HÜRÜ
ŞƏRİFOV SAMİR
VƏLİYEV ARİF
VƏLİYEV SAMİR
ZEYNALOV VİDADİ

Böyük İqtisadi Ensiklopediyanın V cildinin hazırlanmasına cəlb edilmiş müəlliflər

akad. Z.Ə.Səmədzadə; akad. A.A.Nadirov; i.e.d., prof. M.X.Meybullayev; i.e.d., prof. E.M. Hacızadə; i.e.d., prof. A.K.Ələsgərov; i.e.d., prof. A.F.Musayev; i.e.d., prof. V.T.Novruzov; i.e.d., prof. Ş.Ə.Səmədzadə; Q.Ş.Məmmədov; akad. R.S.Əfəndiyev; g.m.e.d., prof. Ç.Ə.Sultanov; i.e.d., prof. M.C.Atakişiyev; i.e.d., prof. A.M.Məhərrəmov; g.m.e.d., prof. E.N.Xəlilov; c.e.d., prof. V.Ə.Əfəndiyev; t.e.d., prof. K.S.İmanov; i.e.d., prof. B.X.Ataşov; i.f.d. M.A.Mədətov; i.f.d. İ.D.Abbasov; i.f.d. F.H.Qəribova; i.f.d. X.Ş.Kərimov; i.f.d. F.M.Qarayev; i.f.d.Ş.H.Əliyev; A.A.Əliyev; i.f.d. O.Q.Məmmədli; L.V.Abışlı; i.f.d. X.S.Abdullayev; A.Q.Babayev; A.A.Ələsgərov; h.f.d. R.F.Əzizov; i.f.d. H.S.Şamilova; i.f.d. E.Z.Səmədzadə; B.N.Əhmədov; N.T.Şirinov; R.Ə.Hacıbalayev; T.H.Qurbanova; Ü.V.Bağırova; K.Ə.Əzizova; Z.A.Mirzəyev; E.M.Hüseynov; i.f.d. A.Q. Ağayev; i.f.d. Q.S.Bayramov; İ.H.Vəliyeva; E.H.Bəşirov; Ç.X.Mehdiyev; T.F.Cavadov; A.H.Mansurov; Y.A.Məmmədova; i.f.d. A.Ə. Əzizov

Məsləhətçilər

İqtisadi nəzəriyyə, dünya iqtisadiyyatı və milli iqtisadiyyat: L.İ.Abalkin, A.A.Nadirov, V.N.Krasilnikov, A.K.Ələsgərov, M.X.Meybullayev, İ.H.Alıyev, M.A.Əhmədov, M.B.Bağırov, Ə.C.Muradov. **Uçot, audit, statistika, qiymətləndirmə:** S.M.Qasımov, R.A.Səlimov, İ.M.Abbasov, V.T.Novruzov, Q.Ə.Abbasov, C.B.Namazova, Ş.A.Ağabəyov. **Maliyyə fəaliyyəti, dövlət büdcəsi, sığorta və qiymətli kağızlar bazarı:** İ.F.Fətizadə, A.Ə.Bayramov, F.S.Fərəcov, X.İ.Rzayev, N.C.Xəlilov, M.Ə.Məmmədov, V.Z.Zeynalov, V.Ə.Rüstəmov. **Pul-kredit siyasəti, bank fəaliyyəti:** Ç.R.Əsədullayev, E.M.İsmayılov, A.S.Quliyev, C.F.Hacıyev, T.Ə.Paşayev, Z.F.Məmmədov. **Vergi və gömrük məsələləri:** N.Ə.Əmirov, S.N.Ələkbərov, A.Ə.Cahangirov, S.M.Mehdiyev, M.F.Vahabov, Ş.S.Bağırov, Y.A.Kəlbiyev, C.Q.Nuriyev, A.H.Əsgərov, A.Ə.Əşrəfov. **Sahibkarlıq, marketinq və menecment, xidmət sahələrinin iqtisadiyyatı:** R.A.Quliyev, M.Q.Musayev, Z.M.Əzimov, F.H.Şərifov, V.S.Hümmətov, M.A.Məmmədov, F.A.Quliyev, İ.H.İbrahimov, T.E.Əliyev, Q.O.Kərimov, A.H.Səmədov, A.Ə.Əzizov, R.H.Hüseynov. **Sosial siyasət, əhali, urbanizasiya, məşğulluq, miqrasiya, əmək məsələləri:** S.S.Mehbalıyev, A.N.Alışanov, İ.E.Rəhimov, Z.H.Babayev, A.A.Məmmədov, V.Ə. Əfəndiyev, E.L.Mehdiyev, E.M.Hüseynov

Böyük İqtisadi Ensiklopediyanın nəşrə hazırlanması üzrə işçi qrupu

A.Z.Səmədzadə, A.M.Quliyev, H.S.Şamilova, T.H.Qurbanova, M.A.Mədətov, R.Ə.Hacıbalayev, L.V.Abışlı, L.A.Nəbiyeva, A.A.Əhmədov, M.Y. Həmidova, M.B.Oruclu, O.A.Oruclu, R.Z.Baxışov, S.Y.Əlizadə, Y.A.Məmmədova, S.V.Musayeva, A.R.Əhmədova, K.L.Heybətov, M.G.Eyvazova, N.N.Hüseynova, T.R.Acalov, A.E.Namazova

İnkişafın innovasiya mərhələsinə keçilməsi, rəqabətədavamlı milli iqtisadiyyatın formalaşdırılması və inkişaf dinamikasının sürətləndirilməsi başlıca olaraq insan kapitalı ilə bağlı bir çox məsələlərin öz həllini tapmasını, o cümlədən təhsilin dünya standartlarına cavab verməsini tələb edir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Ensiklopediyanın məqsədi bütün dünya üzrə səpələnmiş biliklərin toplanıb müəyyən sistem halına salınması və müxtəlif təbəqədən olan insanların başa düşdüyü dildə yazılaraq köhnə nəsillərdən yeni nəsillərə ötürülməsidir.

Deni Didro

ÖN SÖZ

İctimai elmlər arasında özünəməxsusluğu ilə seçilən və daim inkişafda olan iqtisad elminin cəmiyyətdə rolunun artmasını, müasir dünyada inkişaf etmiş ölkələrin iqtisadiyyatının mahiyyətini, xarakterini, inkişaf meyillərini və qanunauyğunluqlarını müəyyən edən əsas ideyaların, konsepsiyaların, modellərin, anlayışların, kateqoriyaların və s. öyrənilməsini və istifadəsini asanlaşdırmaq üçün "Böyük İqtisadi Ensiklopediya"nı hazırlayıb nəşr etməyi qərara aldıq.

Bildirmək istəyirəm ki, iqtisadi ensiklopediyanın hazırlanması üçün vacib mənbələrdən hesab edilən iqtisadi lüğətlərin tərtib olunmasına Azərbaycanda hələ XX əsrin əvvəllərindən başlanmışdır. 1907-ci ildə Bakıda Orucov qardaşlarının mətbəəsində Ü.Hacıbəyovun "Türki-rusi və rusi-türki lüğəti" çap olunmuşdur. Maraqlıdır ki, lüğətdə bir çox iqtisadi anlayışların rus dilindən türk dilinə (Azərbaycan dilinə) tərcüməsi ilə yanaşı, həm də qısa təfsiri verilmişdir.

İqtisadiyyat üzrə lüğətlərin hazırlanması işi XX əsrin I yarısının sonlarında və II yarısında daha da genişləndi. K.Marksın "Kapital"ının və digər nüfuzlu əsərlərin Azərbaycan dilinə tərcüməsi iqtisadi terminlər bazasını xeyli gücləndirdi, iqtisadi terminlərə dair bir neçə izahlı lüğətlər nəşr edildi.

XX əsrin 70-ci illərində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin bilavasitə dəstəyi ilə çoxcildli "Azərbaycan Sovet Ensiklopediyası" nəşr edildi. Bu nüfuzlu nəşrdə dünya, SSRİ və respublikamız barədə kifayət qədər geniş məlumatlar öz əksini tapdı. Azərbaycan müstəqillik əldə etdikdən sonra sovet sisteminə xas olan ideoloji məhdudiyyət və qadağaların aradan qaldırılması, milli maraqların qorunması zərurəti, genişlənən inteqrasiya əlaqələri müstəqil Azərbaycanın ensiklopediyasının hazırlanması işinə ciddi təkan verdi.

Cənab İlham Əliyevin imzaladığı tarixi sərəncamda Milli Ensiklopediyamızın qarşısında duran əsas vəzifələr aşağıdakı kimi xarakterizə olunur: "*Bu ensiklopediya öz dövlət müstəqilliyini bərpa etmiş Azərbaycanın yeni dövrdəki tələblərinə cavab verməli, xalqımızın həyatında baş vermiş mühüm tarixi, ictimai-siyasi, elmi və mədəni hadisələri obyektiv surətdə əks etdirməlidir. Bizim yeni ensiklopediyamız azərbaycançılıq ideologiyasının mötəbər daşıyıcısı olmalıdır".*

Azərbaycan Milli Ensiklopediyasının "Azərbaycan" cildinin nəşri (2007-ci il) ölkəmizin həyatında mühüm bir hadisə kimi qiymətləndirildi. Hər bir azərbaycanlı üçün çox dəyərli töhfə hesab edilən belə sanballı və mötəbər nəşr ölkəmizdə sahə ensiklopediyalarının, o cümlədən hər bir dövlətin, xalqın yaşaması üçün başlıca şərt olan "iqtisadiyyat" sahəsi üzrə müvafiq ensiklopediyanın hazırlanmasını obyektiv zərurətə çevirdi. İqtisadçılar İttifaqı professional mütəxəssislər, iqtisadçı alimlər, nüfuzlu elm mərkəzləri ilə məsləhətləşmələr apardı və işə başladıq...

Redaksiya heyəti nəşrin hazırlanmasında belə bir faktı da əsas götürmüşdür ki, respublikamız müstəqillik əldə etdikdən sonra ölkədə yeni iqtisadi sistemin formalaşması iqtisadi biliklərin bir sıra istiqamətlərinin aktuallığını və əhəmiyyətini köklü surətdə artırmış, sərt inzibati-amirlik sisteminə xas olan, lakin azad bazar münasibətlərinin üstünlük təşkil etdiyi cəmiyyətlərdə özünü doğrultmayan müddəaların, anlayışların, kateqoriyaların geniş şəkildə işıqlandırılmasına ehtiyacı azaltmışdır.

Ensiklopediyanı hazırlayanda dünyanın inkişaf etmiş ölkələrində iqtisadi terminlərə dair nəşr olunmuş lüğətlərdən, statistik külliyyatlardan, beynəlxalq iqtisadi, maliyyə-bank, əmək təşkilatlarının internet resurslarından istifadə olunmuşdur. Burada azad bazar münasibətlərinin geniş vüsət aldığı ölkələrdə istifadə edilən makroiqtisadi tarazlıq, maliyyə sistemi, pul-kredit, qiymətli kağızlar bazarı, tələb, təklif, rəqabət, inhisar, açıq və qapalı iqtisadiyyat problemləri, marketinq, investisiya, menecment, innovasiya, birja, müxtəlif iqtisadi nəzəriyyələr, elmi məktəblər və s. ilə bağlı çoxsaylı anlayışların mahiyyəti açıqlanmışdır.

Bu nəşrdə həmçinin müstəqil Azərbaycan dövlətinin iqtisadi qüdrətinin artmasına, qloballaşan dünya iqtisadiyyatına inteqrasiya olunmasına xidmət edən inkişaf strategiyası, azad bazar münasibətlərinin inkişafına və milli maraqlara cavab verən yeni iqtisadi sistemin formalaşmasının elmi-metodoloji əsasları, mahiyyəti barədə konkret fakt və dəlillərə əsaslanan yazılar verilmişdir.

"Böyük İqtisadi Ensiklopediya"da Azərbaycan iqtisadiyyatının müxtəlif sahələri, bazar strukturları və infrastrukturları, aparıcı maliyyə, bank institutları haqqında yığcam məlumatlar öz əksini tapmışdır ki, bu da cəmiyyətdə iqtisadi mədəniyyətin yüksəldilməsi, iqtisadi təhsilin təkmilləşməsi üçün vacibdir.

Razılıq hissi ilə bildirirəm ki, nəşrdə verilən iqtisadi terminlərin əsas hissəsini Azərbaycan dilində işlədilən sözlər təşkil etsə də, bir sıra terminlər beynəlxalq təcrübədə istifadə olunduğu kimi verilmişdir.

Ensiklopediya işıq üzü görənədək iqtisadçı alim və mütəxəssislərlə məsləhətləşmələr aparılmış, əksər məqalələr müvafiq iqtisadi strukturlarda müzakirə olunmuş, yaradıcı heyətin ünvanına Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Vergilər Nazirliyi, Mərkəzi Bank, Sənaye və Energetika Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Nəqliyyat Nazirliyi, Təhsil Nazirliyi, Hesablama Palatası, Dövlət Gömrük Komitəsi, Dövlət Neft Şirkəti, Dövlət Neft Fondu, Dövlət Sosial Müdafiə Fondu, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, Qeyri-Hökumət Təşkilatları Forumu, Beynəlxalq Maliyyə Korporasiyası, İsveçrənin İqtisadiyyat üzrə Dövlət Katibliyi (SECO), Beynəlxalq İqtisadçılar İttifaqı tərəfindən daxil olmuş dəyərli tövsiyə və təkliflər nəzərə alınmışdır. Ensiklopediyada informasiya xarakterli materiallar, şəkillər və xəritələr verilmişdir ki, bütün bunlara görə də Heydər Əliyev Fonduna, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivinə, Dövlət Statistika Komitəsinə, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə, Azərbaycan Dövlət Teleqraf Agentliyinə (AzərTAc), Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinə, Azərbaycan Marketinq Cəmiyyətinə, Azərbaycan Tarix Muzeyinə öz təşəkkürümüzü bildiririk.

"Böyük İqtisadi Ensiklopediya"nın yaradıcı heyəti görülmüş işlərə öz müsbət münasibətini bildirməklə yanaşı onu da qeyd etməyi vacib sayır ki, 7000-dən çox sözü əhatə edən "Böyük İqtisadi Ensiklopediya" Rusiya Federasiyası istisna olmaqla MDB məkanında milli dildə işıq üzü görən ilk iri həcmli nəşrdir.

"Böyük İqtisadi Ensiklopediya" tələbələr, magistr, doktorantlar, təhsil və idarəetmə sistemində, iqtisadiyyatın müxtəlif sferalarında çalışan müəllimlər və mütəxəssislər, sahibkarlar və investorlar, həmçinin geniş oxucu kütləsi, o cümlədən gələcəyimiz olan məktəblilər üçün nəzərdə tutulmuşdur.

Ensiklopediyanın ərsəyə çatmasındakı xidmətlərinə görə redaksiya heyətinin üzvlərinə, iqtisadi strukturlarda çalışan professional mütəxəssislərə, ensiklopediyanın kompüter, dizayn işlərində, cədvəllərin, qrafiklərin işlənib hazırlanmasında əməyi olmuş bütün insanlara dərin minnətdarlığımı bildirirəm.

İdeya müəllifi və
Baş redaktor **akademik Ziyad Səmədzadə**

S

SÜLEYMANOVA ELMİRA TEYMUR QIZI (1937) – 2002-ci il iyulun 2-dən Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman), kimya elmləri doktoru, professor. 1959-cu ildə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Həmin ildən Azərbaycan Elmlər Akademiyasının akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunda fəaliyyət göstərmiş, laborant, kiçik elmi işçi, böyük elmi işçi, laboratoriya müdiri vəzifələrində çalışmışdır. 1967-ci ildə kimya elmləri namizədi, 1980-ci ildə elmlər doktoru elmi dərəcəsi, 1988-ci ildə isə professor elmi rütbəsi almışdır. 3 elmlər doktoru, 15 elmlər namizədi yetişdirmişdir. Neft-kimya sintezi və incə üzvi sintez üzrə mütəxəssisdir. 240-dan çox elmi əsərin, 40 ixtiranın müəllifidir. Neft kimyası, üzvi kimya və incə üzvi sintez üzrə 40-dan çox beynəlxalq tədbirdə, o cümlədən müxtəlif ölkələrdə keçirilmiş 7 neft-kimya və 5 aroma simpoziumda, konfranslarda, D.İ.Mendeleyev adına qurultaylarda elmi məruzələrlə çıxış etmişdir.



Azərbaycanda BMT-nin İqtisadi və Sosial Şurası yanında xüsusi məsləhətçi statusu olan yeganə qadın qeyri-hökumət təşkilatı – Azərbaycan Qadın və İnkişaf Mərkəzinin yaradıcısı (1995) və fəxri prezidenti (2002), Azərbaycan Uşaqdan Uşağa Sülh Şəbəkəsinin (2000) və onun nəzdində Ahılların Resurs Mərkəzinin (2001) yaradıcısıdır. Dünyanın 70-dən çox ölkəsində işgüzar səfərdə olmuş, BMT-nin Baş Assambleyasının 5 xüsusi sessiyasında, o cümlədən qadın, əhali problemlərinə həsr olunmuş sessiyalarda, Minilliyin Forumunda, BMT-nin çoxsaylı qlobal və regional konfranslarında məruzələrlə çıxış etmişdir. 1998-ci ildə Amerika Roçester Universiteti tərəfindən qadın və qızların hüquqlarının ən etibarlı müdafiəçisi və onlara nümunə kimi dünyanın 100 qəhrəman qadınından biri olmuş, "Qəhrəman qadın" adına layiq görülmüşdür.

Amerika Bioqrafik İnstitutunun (ABİ) nəşr etdiyi Beynəlxalq "Kim kimdir" toplusunda (2000), Nobel mükafatına təqdim olunmuş "Dünyanın 1000 qadını" ensiklopedik məlumat kitabında (2005) E.Süleymanova haqqında məqalələr verilmişdir.

2000-2002-ci illərdə Azərbaycan Prezidenti yanında Əfv Komissiyasının, Əsir, Girov və İtkin Düşmüş Şəxslər üzrə Dövlət Komissiyasının, 2000-2006-cı illərdə isə Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvü olmuşdur.

"Əmək veteranı" medalı (1985), SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanına əsasən, "Şərəf nişanı" ordeni (1986) ilə təltif edilmişdir. Fəaliyyəti dövründə müxtəlif dövlət qurumlarının və ictimai təşkilatların bir sıra diplom, fəxri fərman və medallarına layiq görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 iyul tarixli sərəncamına əsasən, insan hüquqlarının qorunması sahəsində xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

2002-ci il iyulun 2-də Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən, Milli Məclis tərəfindən Azərbaycan Respublikasının ilk İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) seçilmiş, 2010-cu il martın 5-də Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Milli Məclis tə-

rəfindən təkrarən bu vəzifəyə təsdiqlənmişdir.

SÜRƏTLİ MÜDAFİƏ – biznesin xarakterinin dəyişdirilməsi zəminində bazarın diversifikasiyası və genişləndirilməsi ilə bağlı proses.

SÜRÜŞƏN ŞKALA ÜZRƏ KOMİSSİYA – xüsusi düstur – formul üzrə hesablanan qazanılmış (əmək haqqı) mükafatlar komissiyasıdır ki, buna uyğun şəkildə real komissiya itkilərinin əmsalından asılı olaraq dəyişir və müəyyən maksimum və minimum kəmiyyətlərlə məhdudlaşır.

SÜRÜŞKƏN İNFLYASİYA – zəif sürətlə inkişaf edən inflyasiya; başqa sözlə, nisbətən yüksək olmayan qiymət artımı. Təxminən ildə 10% və ondan aşağı olan inflyasiyadır. Bu cür inflyasiya bazar iqtisadiyyatı inkişaf edən əksər ölkələrə xasdır. Avropa İttifaqı (Aİ) ölkələri üçün son illər orta inflyasiya səviyyəsi 3-3,5% təşkil edir. Qərb ölkələrində sürüşkən inflyasiya praktik olaraq bəzi spesifik funksiyalara malik olan ayrılmaz təsərrüfatçılıq atributuna çevrilmişdir. Az miqdar inflyasiya (pul kütləsinin müvafiq artımı ilə müşayiət olunan) müəyyən şərtlər zamanı, eyni zamanda, istehsalın strukturunun dəyişməsini tənzimləyərək, bu istehsalı stimullaşdırmağa qadirdir. Pul kütləsinin bir qədər artımı buraxılan məhsulun həcminin artmasına özünəməxsus təkan verir. Bununla belə, istehsalın genişlənməsi nə qədər çoxdursa, ehtiyatda olan istehsalın istifadə edilməyən amilləri də bir o qədər çox olacaqdır. Tədavüldə pul kütləsinin artımı investisiya fəaliyyətinin gücləmməsinə səbəb olur. İstehsalın artımı, öz növbəsində, daha yüksək qiymət səviyyəsi zamanı əmtəə və pul kütləsi arasında tarazlığın bərpa olunmasına aparıb çıxarır. Bu proses ziddiyyətli şəkildə davam edir, burada hamı yox, hər şeydən əvvəl, müasir avadanlığa, ehtiyat güclərinə, istehsalın ən mükəmməl təşkilinə malik ən güclü firmalar udurlar. Bununla belə, sürüşkən inflyasiyanın nəzarətdən çıxması və onun iqtisadiyyat üçün bir çox mənfi nəticələrə səbəb olan "çaparaq" inflyasiyaya çevrilməsi təhlükəsi mövcuddur. Bu cür təhlükə ölkədə təsərrüfat fəaliyyətinin tənzimlənməsinin inkişaf edən bazar mexanizmlərinin olmadığı, istehsalın səviyyəsinin isə aşağı düşdüyü və çoxsaylı struktur disproporsiyalarının mövcudluğu zamanı xüsusilə artır. Sürüşkən inflyasiya, həmçinin, əhalinin yığılmış pullarını qiymətdən salaraq, onun maddi rifah halına mənfi təsir göstərir.

SÜRÜŞKƏN QİYMƏTLƏR – uzunmüddətli istehsal dövrünə malik olan məhsullarla ticarət sövdələşmələrində istifadə edilir.

SÜRVEYER (ing. *surveyor*) – sığortalının və sığortaçının xahişi ilə sığortalanmış və sığortalanmaya məruz qalan gəmilərin və yüklərin baxışını həyata keçirən mütəxəssis – ekspert. Gəminin vəziyyəti, onun keyfiyyət göstəriciləri, yükü haqqında yekun nəticə verən şəxs. Sığortaçının sığortaya qəbul olunan əmlakının baxışını həyata keçirən agenti. Sürveyer gəmilərin, yüklərin baxışını keçirir və qəza, gəminin üzməsi və s. hallarda onların vəziyyəti, zədələnmələrin ölçüsü haqqında yekun rəy verir. Sürveyer gəmi sahibi, fraxtı verən, yük sahibi, sığorta və təsnifat cəmiyyəti tərəfindən dəvət oluna bilər.

SÜRVEYERLƏR – əmlakın dəyərini və əlverişli sığorta məbləğini müəyyən edən, sığortalanmağa qəbul olunan əmlakın baxışını keçirən ekspertlər.

SÜRVEY-REPORT – sığortalının və ya sığortaçının xahişi ilə sürveyer tərəfindən tərtib olunan yazılı məruzə (raport). Sürvey-report – sığortalanmış və sığortalanmaya təklif edilmiş gəmilərin və yüklərin baxışının nəticələrinə görə sürveyer tərəfindən tərtib olunmuş hesabatdır. Sürvey-report sığorta müqaviləsinin bağlanmasından əvvəl olan riskin qiymətləndirilməsi üzrə materialları ehtiva edir. Əgər sürveyerin sürvey-report əsasındakı məruzəsinin materiallarından görünsə ki, bildirilmiş sığorta marağı möhtəkirlik xarakteri daşıyır və ən yüksək vicdan prinsipinə cavab vermir, onda sığortaçı müqavilənin bağlanmasından imtina edə bilər.

SVİFT (SWIFT) – beynəlxalq ödəmələri kompüter şəbəkələri vasitəsilə həyata keçirməkdə avtomatlaşdırılmış sistem.

SVİNQ (ing. *swing* – tərəddüd) – valyuta və qiymətli kağızların kurslarının birjada tərəddüdü, ABŞ-da banklar tərəfindən öz müştəriləri üçün açdıqları kredit xətti.

SVİTÇ – müəyyən qiymətli kağızlarla və ya valyutalarla bağlı öhdəliklərin ləğv edilməsi və başqa qiymətli kağızlar və ya valyutalarla əlaqədar əqdlər bağlanması; klirinq hesabında

və ya başqa ikitərəfli hesabda olan qalığın rəsmi məzənnəyə nisbətən güzəştli şərtlərlə üçüncü ölkəyə güzəşt edilməsi; bağlanmış hesabdan istifadə edilməsi əməliyyatı.


SVOP (ing. *swap* – dəyişmə, mübadilə) – mübadilə əməliyyatıdır ki, qiymətli kağızların, valyutanın və s. alqısı (satqısı) haqqında sövdələşmənin bağlanması eyni və ya digər şərtlərlə müəyyən vaxtdan sonra onların əks satışı (alışı) haqqında sövdənin bağlanması ilə müşayiət olunur. Svop əməliyyatlarının aşağıdakı növləri fərqləndirilir: *qiymətli kağızların fəaliyyət müddətinin uzadılması məqsədi ilə* – daha uzun müddətə fəaliyyət göstərməklə, bu qiymətli kağızların satışı və eyni zamanda, həmin növdən olan qiymətli kağızların alışı; *valyuta svop əməliyyatları* – sonradan əks (yenidən) ödənc şərtilə milli valyutada dərhal ödəməklə xarici valyutanın alışı; *qızılla svop əməliyyatları* – müəyyən müddətdən sonra qızılın əks (yenidən) alqısı üçün eyni vaxtda sövdələşmə ilə nağd göndəriş şərtlərində qızılın satışı; *faizlərlə svop əməliyyatları* – bir tərəf (kreditor) müqavilədə təsbit olunmuş dərəcə üzrə əks (yenidən) ödəməklə, əvəzində LİBOR dərəcəsi üzrə borc alanlardan alınan digər faizlərin ödənilməsini öhdəsinə götürür. Bu müqavilədə dərəcələrin dinamikasını ən yaxşı proqnozlaşdıran tərəf udur; *borc öhdəliklərlə olan svop əməliyyatları* – kreditorlar təkcə faizlərlə yox, həm də öz müştəriləri arasında bağlanmış müqavilənin şərtlərinə uyğun olaraq bu müştərilərin bütün borc məbləği ilə mübadilə edirlər.

Aktivlər əsasında svop (ing. *asset-based swap*) – qiymətli kağızların bir növünü digərinə çevirməyə imkan verən svop (məsələn, investor fiksaj olunmuş kuponu üzən kupona dəyişir və faktiki olaraq yeni kağız növü əldə edir).

Gəlirlilik svopu (ing. *yield swap*) – gəlirliliyi yüksəltmək üçün istiqraz svopu.

"Keyfiyyət" svopu (ing. *quality swap*) – investisiya portfelinin

Sazişin vaxtı, günlər	
SPOT MƏZƏNNƏSİ	FORVARD MƏZƏNNƏSİ



Sxem 1

SVOP ƏMƏLİYYATLARI AŞAĞIDAKI MƏQSƏDLƏR ÜÇÜN İSTİFADƏ OLUNUR:

- kommersiya sazişlərinin həyata keçirilməsi: bank xarici valyutanın dərhal çatdırılması şərti ilə dərhal onu satır və eyni zamanda, müəyyən müddətə onu alır
- valyuta ehtiyatlarının diversifikasiyası və (konkret sazişlərin ödənilməsi üçün) beynəlxalq hesablaşmaları aparmaq üçün bank tərəfindən valyutaların əldə edilməsi
- müştərinin kreditləşdirilməsi
- öz valyuta ehtiyatlarının müvəqqəti artırılması üçün

Sxem 2

keyfiyyətini yüksəltmək (onun "keyfiyyətini" yaxşılaşdırmaq) məqsədiilə istiqraz svopu.

"Kokteyl" svop (ing. *cocktail*) – müxtəlif tərəfdaşları olan bir neçə müxtəlif tipli svopların (məsələn, iki valyuta və bir faizli) daxil olduğu saziş.

Mübadilə svopu (ing. *swap*) – risk və xərclərin azalması, mənfəət əldə etmək üçün (kreditlərlə, istiqrazlarla) öhdəliklərin və ya aktivlərin mübadiləsi üzrə əməliyyatlar.

***"Sirk"* svop** (ing. *cireus swap*) – adi faizli svop, müxtəlif valyutalarda faizli ödəmələrlə mübadilədən ibarətdir.

Tədricən "seçimlə" svopu (ing. *drawdown swap*) – faizli və ya valyuta svopu olub, burada öhdəliklərin əsas məbləği vaxt keçdikcə artır (məsələn, iri obyektin tikintisi maliyyələşdirilən zaman).

SVOPİNQ – qiymətli kağızlara uzun müddət malik olduqda ödənilməli olan vergilərdən yayınmaq məqsədilə qiymətli kağızların satışı və bunun ardınca, demək olar ki, eyni vaxtda onların alınması.

SVOP-KURS – bankların xarici valyutanı alması və eyni vaxtda satması əməliyyatları üzrə hesablaşmaların müxtəlif müddətlərdə aparılması şərti ilə bu cür alış və satış qiymətləri.

SVOPLAR HAQQINDA SAZİŞ (ing. *swop* – mübadilə) – hecirləmə məqsədilə bağlanılan öhdəliklərin və ya aktivlərin mübadiləsi haqqında saziş. Bir qayda olaraq, svoplar haqqında saziş bankla və onun müştəriləri arasında bağlanır. Valyuta və faiz svopları, eləcə də onların kombinasiyası (valyuta, faiz svopu) haqqında sazişlər daha çox yayılmışdır.

Valyuta svopu haqqında sazişə görə, bank hər hansı valyutada borca xidmət göstərmənin dəyərinin bank tərəfindən ödənilməsi əvəzinə, müştərinin borcuna görə bütün gələcək tədiyələrin milli valyutada həyata keçirilməsini öhdəsinə götürür.

Valyuta svopları haqqında ilk sazişlər Böyük Britaniyada bağlanmışdır. Bir çox illər ərzində Britaniya hökuməti xarici investisiya qoyulması üçün bu ölkənin firmaları tərəfindən xarici valyutanın alınmasını məhdudlaşdırmışdı. Bu məhdudiyyətlər bir çox firmaları kompensasiya kreditləri haqqında sazişin bağlanmasına sövq etdi. Firma ABŞ-ı kompensasiya kreditini funt-sterlinqə verməyə və eyni zamanda, xarici investisiyaların həyata keçirilməsi üçün onlardan dollar borcu almağa məcbur etdi. Kompensasiya kreditini götürərək Britaniya firması funt-sterlinqlə gəlir almağın əvəzinə dollarla gələcək ödəmələri həyata keçirməyə razılıq verdi. 1979-cu ildə xarici investisiyalara qoyulan məhdudiyyətlər götürüldü və Britaniya firmalarının kompensasiya kreditlərinə olan ehtiyacları tükəndi. Lakin 80-ci illərdə banklar əməliyyatları kompensasiya kreditlərinə cəmləşdirdi və onları svoplar haqqında sazişə çevirdi. Svoplar korporativ müştərilərdə daha çox yayılmışdır. 90-cı illərdə dollar, Avropa istiqrazlarının 70%-ə qədəri svoplarla müşayiət olunurdu.

Faiz svopu şərtlərinə görə müxtəlif, lakin məbləğinə görə eyni olan kredit öhdəlikləri üzrə faiz tədiyələridir. Faiz dərəcəsi ilə təsbit edilmiş istiqrazlar (borclar), üzən faiz dərəcəsi ilə istiqrazlara (borclara) daha çox mübadilə olunur. Bu halda, bir tərəf bir sıra təsbit olunmuş illik ödəmələrin ölçüsü qısamüddətli faiz dərəcələrinin səviyyəsindən asılı olan ödəmələrin alınması əvəzinə, aparılması öhdəliyini öz üzərinə götürür.

Bundan əlavə, bəzən svoplar müxtəlif əsaslar üzrə hesablanan üzən faiz dərəcələri ilə istiqrazların mübadiləsi üçün istifadə olunur. Məsələn, firma bazis dərəcəsi ilə əlaqədar bir sıra ödəmələri xəzinə vekselləri üzrə dərəcələrlə əlaqədar ödəmələrə mübadilə etməyi arzulaya bilər.

Valyuta faiz svopu haqqında sazişlər üzrə bir valyutada üzən dərəcə üzrə öhdəliklərin digər valyutada təsbit olunmuş dərəcə üzrə öhdəliklərə mübadiləsi baş verir. 90-cı illərdə svoplar haqqında sazişin hibrid formaları – forvard svopları və opsion svopları ("svopopsionlar") tanınmağa başladı. Belə ki, "svopopsionlar" müəyyən şərtlərdə svop əməliyyatlarının bağlanması üçün opsion deməkdir.

SVOT-TƏHLİL – biznesin güclü və zəif tərəflərini, ehtimal və təhdidlərini müəyyən etmək yolu ilə biznesin strateji mövqeyinin qiymətləndirilməsinə struktur yanaşma – (SWOT), *strength* (güclü tərəflər), *weakness* (zəif tərəflər), *opportinities* (ehtimallar) və *threats* (təhdidlər).

Ş

ŞAHBAZOV KAMİL AĞAZAMAN OĞLU (1949) –Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof. 1971-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir.



1976-cı ildə namizədlik, 1994-cü ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. İdarəetmə və menecment problemləri ilə məşğul olur.

100 çap vərəqi həcmində 5 monoqrafiyanın, 85 elmi-metodiki əsərin müəllifidir. Onun rəhbərliyi ilə 10 elmlər namizədi hazırlanmışdır.

1974-1988-ci illərdə ADİU-da baş laborant, müəllim, baş müəllim, dosent işləmişdir. 1988-ci ildən kafedra müdiri vəzifəsində çalışır.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 26 sentyabr tarixli Sərəncamına əsasən ona təhsilin inkişafındakı xidmətlərinə görə "Əməkdar müəllim" fəxri adı verilmişdir.

ŞAHMAT QEYDİYYATI – bu, konkret əməliyyatın uçot registrində sistematik qeydiyyatın həyata keçirilməsidir ki, bunun qaydaları üzrə məbləğ bir dəfə yazılır. Amma bu zaman müvafiq hesabların həm debeti, həm də krediti üzrə öz əksini tapır. Buna uçot registrlərinin şahmat prinsipi üzrə düzülməsi yolu ilə nail olunur. *Şahmat qeydiyyatını* jurnal-order formasında uçot registrində ona görə geniş tətbiq edirlər ki, yazıların kəmiyyətini azaltmağa, konkret təsərrüfat əməliyyatı üzrə hər iki müxbir hesabını müşahidə etməyə (bir yerdə) imkan yaranır. Bu mənada, *şahmat qeydiyyatı* xətti qeydiyyat qarşısında üstünlüyə malikdir (təsərrüfat əməliyyatının hesab məbləğinin debet və kredit üzrə eyni şəkildə əks olunduğu qeydlə).

ŞAQULİ DEZİNTEQRASİYA – məhsul istehsalının müəyyən mərhələlərinin iri şirkətlərin təchizatçıları kimi çıxış edən ixtisaslaşdırılmış firmalar tərəfindən həyata keçirilməsi.

ŞAQULİ DİVERSİFİKASİYA – bir məhsulun emal edilməsinin müxtəlif mərhələləri ilə bağlı olan istehsala investisiyaların bölgüsü.

ŞAQULİ ƏDALƏTLİLİK – daha çox vergi ödəmək qabiliyyətinə malik vergi ödəyicilərinin daha böyük məbləğ ödəməli olduqlarını nəzərdə tutan mülahizə.

ŞAQULİ İNTEQRASİYA OLUNAN ŞİRKƏT (ŞİŞ) – neft işində axtarış və kəşfiyyatdan son istehlakçıya yanacaqdoldurma məntəqəsinədək tsikli əhatə edən konqlomerat təşkilat. ŞİŞ modeli, əsasən, neft sferasına aid edilsə də, o, müxtəlif variasiyalarda digər korporasiyalara da aid edilir. İqtisadi və neft biznesi ilə bağlı ədəbiyyatlarda ŞİŞ-lərin ötən əsrin 30-cu illərində təşəkkül tapdığı göstərilir. Tarixi mənbələrdə isə ilk ŞİŞ təyinatlı təşkilatın 1879-cu ildə Bakıdakı "Nobel qardaşları yoldaşlığı" Neft Şirkətinin olduğu təsbit edilir. Sonradan – 1882-ci ildə ABŞ-da "Standartoyl" neft kompaniyasının timsalında bu nümunə təkrar olunmuşdur. ŞİŞ-lə bağlı Rusiya Federasiyasında müvafiq normativ-hüquqi təyinatlı aktlar mövcuddur. Rusiyanın məşhur Lukoyl neft şirkəti və ARDNŞ-in özü tam təyinatlı olaraq ŞİŞ strukturlu modelə əsaslanır.

ŞAQULİ SAZİŞLƏR – istehsal silsiləsinin müxtəlif səviyyələrində olan təsərrüfat subyektləri arasında, yaxud təsərrüfat subyektləri ilə onların müştəriləri və malgöndərənləri arasında sazişlər.

ŞAQULİ TƏHLİL – maliyyə təhlili metodlarından biri. Onun

mahiyyəti 2 il (və ya daha uzun dövr) üçün maliyyə göstəricilərini tutuşdurmaqdan ibarətdir. Şaquli təhlil əlavə tədqiqat tələb edən xətaları aşkarlamağa yardımçı olur. Bu halda, göstəricilərin həm mütləq, həm də nisbi dəyişmələrini aşkar etmək lazımdır.

Şaquli təhlil müəyyən maliyyə hesabatının hər bir maddəsinin müəyyən baza maddəsinə faiz nisbəti vasitəsilə ifadəsidir. Balansda baza kimi məcmu aktivlərdən, gəlirlər haqqında hesabatda əsas fəaliyyətdən əldə edilən gəlirlərdən, nağd vəsaitlərin hərəkəti haqqında hesabatda nağd vəsaitlərin hesabat dövründə xalis artımından istifadə edilir. Şaquli təhlilin köməyi ilə şirkətin fəaliyyətində əsas meyilləri və dəyişiklikləri aşkar etmək olar. Şaquli təhlil məlumatlarını rəqib şirkətlərin analoji məlumatları ilə, sahə üzrə orta göstəricilərlə müqayisə etmək və sahənin digər şirkətləri arasında bu şirkətin vəziyyətini aydınlaşdırmaq olar. Bundan əlavə, cari və uzunmüddətli aktivlərin nisbətini göstərmək, əvvəlki dövrlə müqayisədə cari aktivlərin tərkibinin dəyişməsini aşkar etmək, gəlirin hər vahidinə nə qədər məsrəf və xərc düşdüyünü göstərmək olar.

ŞANS QİYMƏTİ (fr. *chance* – müvəffəqiyyət ehtimalı) – yüksək mənfəət ümidi ilə böyük risk və az gəlirlə investisiyaların seçim xərci. İnvestisiyaların alternativ növünə görə ən yüksək gəlir.

ŞARP ƏMSALI – riskə görə orta gəlirin bu gəlirdən orta kənarlaşmaya nisbəti kimi hesablanan investisiya portfelinin səmərəlilik göstəricisi.

ŞARP UİLYAM FORSAYT (1934) – ABŞ iqtisadçısı, mikroiqtisadiyyat sahəsində mütəxəssis. Səhmdar kapitalının qiymət modelini özündə təcəssüm etdirən "maliyyə aktivlərinin qiymətinin formalaşması nəzəriyyəsinə töhfəsinə görə" 1990-cı ildə iqtisadiyyat üzrə Nobel mükafatı laureatı olmuşdur (M.Miller və Q.Markovits ilə birlikdə). Maliyyə sferasının tədqiqində xidmətlərinə və biznes sferasında təhsilə töhfəsinə görə isə Amerika Biznes Məktəbi Assambleyasının (1980) və Maliyyə sahəsində Analitiklər Federasiyasının (1955) mükafatlarına layiq görülmüşdür. REND korporeytinqdə işləmiş, ABŞ-ın müxtəlif universitetlərində və biznes məktəblərində (1970-1989) dərs demişdir. Maliyyə aktivlərinin yerləşməsi üzrə mütəxəssislərin hazırlanmasına dair tədris kurslarının və proqramlarının müəllifi və rəhbəri olmuşdur. Dəfələrlə investisiya fəaliyyəti ilə məşğul olan xüsusi firmaların, təşkilatların və fondların məsləhətçisi funksiyasını yerinə yetirmişdir. Tədqiqat fonduna, Maliyyə Analitikləri İnstitutundakı təhsil və tədqiqat üzrə Şuraya hamilik etmişdir. Kəmiyyət Tədqiqatları İnstitutunda komitə üzvü, İsveçrə bankının portfel investisiyaları idarəsində şöbə məsləhətçisi işləmiş, Amerika Maliyyə Assosiasiyasının üzvü və prezidenti (1980-ci ildən) olmuşdur. Stanford Universitetinin fəxri professorudur. 1986-cı ildən özünün "Uilyam F. Şarp assoşieyts" tədqiqat-məsləhət firmasına rəhbərlik edir.



Özünün doktorluq dissertasiyasının əsas ideyalarını "Portfel investisiyalarının sadələşdirilmiş təhlili modeli" məqaləsində ifadə edərək, Şarp Markovitsin modeli bazasında portfel investisiyalarının təhlilinin bir sıra aspektlərini tədqiq etmiş, kapital aktivləri üçün sonradan qiymətin əmələ gəlməsi modelinə yaxın faktor modelini qurmuşdur.

Səhmdar kapitalının qiymət modelinin əsaslarını isə Şarp "Kapital aktivlərinin qiyməti – risk şəraitində bazar tarazlığı nəzəriyyəsi" məqaləsində ifadə etmişdir ki, bu da maliyyə aktivlərinin qiymətlərinin formalaşmasının bazar təhlilində addım idi. Şarpın modelinin əsasında fərziyyə dururdu. Buna uyğun olaraq səhmlərin fərdi sahibi (investor) borc kapitalının kombinasiyası və riskli qiymətli kağızların seçilmiş (optimal) portfeli yolu ilə riskdən yaxa qurtarmağa üstünlük verir. Modelə uyğun olaraq, riskə məruz qalan qiymətli kağızların optimal portfelinin strukturu investorun riskə olan xüsusi münasibətlərindən yox, onun qiymətli kağızların müxtəlif növlərinin gələcək perspektivlərini qiymətləndirməsindən asılıdır. Bu, riskli səhmlərin əlaqələndirilməsinin və risk nöqteyi-nəzərindən təhlükəsiz qiymətli kağızlara, yaxud istiqrazlara üstünlük verilməsinə qoyulan investisiyanın seçilməsində əks olunur. Şirkətin məcmu səhmdar kapitalında hər bir səhmdarın

xüsusi payının "beta dəyəri" adlanan göstəricinin köməyilə Şarp onun son həddi töhfəsini riskli qiymətli kağızların bütün bazar portfelinin riskində göstərdi. Şarp modeli maliyyə bazarlarında müasir qiymət nəzəriyyələrinin əsasında durur və Markovitsin portfel investisiyaları modeli ilə yanaşı, maliyyə iqtisadiyyatına dair bütün dərsliklərə daxil olmuşdur.

1970-ci illərin sonunda Şarp portfel investisiyalarının təhlilinin bir çox problemləri üçün həllin tapılmasında kifayət qədər sadə, lakin səmərəli metod işləyib hazırladı. Bu metod "Portfel investisiyalarının yaxşılaşdırılması üçün alqoritm"in həlli mexanizmini təsvir edən məqalənin 1987-ci ilə qədər dərc olunmamasına baxmayaraq, geniş yayılmışdır.

ŞATALİN STANİSLAV SERGEYEVİÇ (1934-1997) – rus iqtisadçısı, SSRİ EA-nın müxbir



üzvü (1974), SSRİ EA-nın akademiki (1987), Rusiya EA-nın akademiki (1991). 1958-ci ildə M.Lomonosov adına MDU-nun İqtisadiyyat fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə 1958-ci ildə SSRİ Maliyyə Nazirliyi Elmi-Tədqiqat Maliyyə İnstitutunda iqtisadçı kimi başlamışdır. Sonralar ayrı-ayrı ali məktəblərdə və elmi-tədqiqat institutlarında elmi fəaliyyətlə məşğul olmuş, müxtəlif rəhbər vəzifələrdə çalışmışdır. 1990-cı ildən SSRİ EA İqtisadiyyat bölməsinin akademik-katibi, 1990-cı ildən SSRİ Prezident Şurasının üzvü olmuşdur. Xalq təsərrüfatının sahələrarası əlaqələrinin və sahə strukturunun təhlili və planlaşdırılması metodlarının işlənib hazırlanması üzrə silsilə tədqiqatlarına görə dövlət mükafatı almışdır (1968). "İnkişaf etmiş sosialist iqtisadiyyatının fəaliyyət göstərməsi. Metod nəzəriyyəsi və problemlər" (1987) əsərinə görə V.S.Nemçinov adına mükafata layiq görülmüşdür.

Şatalin digər alimlərin sırasında hələ 1960-cı illərdən başlayaraq, iqtisadi tədqiqatlarda və xalq təsərrüfatının planlaşdırılmasında iqtisadi-riyazi modellərin və EHM-lərin tətbiqinin elmi əsaslarını işləyib hazırladı. Sosialist təkrar istehsal nəzəriyyəsində Şatalin sosialist iqtisadiyyatının ən mühüm inkişaf proporsiyalarının formalaşması qanunauyğunluqları və onun intensivləşməsi üsulları haqqında dərin nəticələrə gəldi, onları əsaslandırdı. Sosialist amillərinin və ictimai istehsalın səmərəliliyinin yüksəldilməsi ehtiyatlarının prinsipial rolunun tədqiqinə böyük töhfə verdi.

ŞEDULA – gəlir vergisinin tətbiqi zamanı gəlir mənbələrinin dərəcələri.


ŞELLİNQ TOMAS (1921) – Amerika iqtisadçısı. Merilend Universitetinin professoru, 1991-



ci ildə Amerika İqtisadçılar Assosiasiyasının prezidenti olmuşdur. 1977-ci ildə Frenk Seydman mükafatına, 2005-ci ildə isə kooperasiyada mübahisəli problemlərin oyunlar nəzəriyyəsi çərçivəsində həllinin təhlilinə görə Nobel mükafatına layiq görülmüşdür.

ŞERMAN QANUNU – inhisarlarla və rəqabətin əsassız məhdudiyyətlərlə mübarizəsinə yönəldilmiş, dünyada ilkin qəbul edilmiş hüquqi aktlardan biri; 1890-cı ildə ABŞ Konqresi tərəfindən qəbul edilmişdir. Vətəndaş müharibəsindən sonra ABŞ sənayesinin sürətli inkişafı, dövlətin qanunvericiliklə iqtisadi hakimiyyətinin təmərküzləşməsinin və bu hakimiyyətin sui-istifadəsinin qarşısını almaq iqtidarının olmaması nəticəsində Konqres 1890-cı il 24 iyul tarixdə azad rəqabət şəraitində azad sahibkarlığın hüquqi cəhətdən milli məxsusluğunu təsbit etdi. Qanun xəzinədarlığın keçmiş katibi senator Con Şermanın (1823-1900) şərəfinə adlandırılmışdır. "Şerman qanunu" ştatlar arasında ticarətdə, eləcə də beynəlxalq ticarətdə aşağıdakıları qadağan edir: a) ticarətin məhdudlaşmasına dair sazişləri, birlikləri (trestləri) və gizli danışıqları; b) inhisarlaşmanı və inhisarlaşma haqqında gizli danışıq cəhdlərini. Bu sazişlərdə iştirak edən şəxslər qanunun pozulmasında günahkar sayılırlar, cəriməyə (50 min dollardan çox olmayaraq), həbs qəti imkan tədbirinə (1 ildən artıq olmayaraq), yaxud məhkəmənin qərarı ilə digər cəzaya məruz qalırlar. 1911-ci ildə "Şerman qanunu"nda, onun yalnız ticarətin həddən artıq məhdudlaşması haqqında sazişə tətbiqi ilə bağlı bəzi dəyişikliklər edildi. Əgər firmanın biznesinin çiçəklən-

Con Şermanın təklif etdiyi rəqabət siyasətinin sistemi



Con Şerman (1897-1898)



məsinə təsir göstərən fəaliyyəti sahədə rəqabətə hiss ediləcək zərər vurarsa, onda bu firma öz hərəkətlərinə görə məsuliyyət daşımalıdır. "Şerman qanunu"nun inkişafında aşağıdakı tədbirlərin mühüm rolu olmuşdur: a) 1914-cü ildə Konqres tərəfindən Kleyton qanununun qəbul edilməsi. Bu qanun istehlakçıya rəqiblərin əmtəələrini almaq və şirkətin səhmlərini əldə etmək imkanı verməyən, rəqabətin məhdudlaşmasına aparan sazişlərə, qiymət ayrı-seçkiliyinin bəzi formalarına qadağa müəyyənləşdirmişdi. Həmin ildə Konqres Federal Ticarət Komissiyasını (FTK) yaratdı və ona haqsız rəqabətin qarşısını almaq səlahiyyəti verdi; b) məhkəmələr xüsusilə qəsdən hərəkətlərin bəzi kateqoriyalarını müəyyən etdi: qiymətlərin müəyyənləşdirilməsi və ya bazarların bölgüsü üzrə müxtəlif formalar arasına sazişlər, qrup şəklində boykotlar və patentləşməyən əmtəələr üzərində üstünlükləri təmin etmək üçün patentlərdən istifadənin bəzi formaları. Bununla belə, malların yenidən satışı halları zamanı qiymətlərin müəyyən edilməsi üzrə sazişə qoyulan qadağa aradan götürüldü.

"Şerman qanunu"nun inhisarlaşmanın qadağan edilməsinə yönəldilmiş ikinci bəndi, əsasən, bir firmanın iqtisadi hakimiyyətinin inkar edilməsi üçün istifadə olunurdu. Əgər firma bazarın 65%-dən çoxuna nəzarət edirdisə, o, inhisarlaşmaya cəhddə günahlandırıla bilərdi. Lakin bir neçə firmanın hökmran olduğu (oliqopoliya) yerdə inhisarlaşma cəhdlərində günahlandırma aradan götürülürdü. Oliqopoliya təmərküzləşməsinə aparan qovuşma halları zamanı məhkəmələr ticarətin əsaslandırılmış məhdudiyyətini xüsusilə qeyd etdilər. Bununla əlaqədar olaraq Kleyton qanunu səhmlərin bəzi satılma növlərini qadağan etdi. Bu da qeyri-səmərəli olduqda, Seller-Kefover düzəlişi ilə (1950) aktivlərin satın alınması və digər bu cür sövdələrlə qovuşmasına qoyulan daha geniş qadağa müəyyənləşdirdi. Konqresin əsaslandırılmayan təmərküzləşmə ilə əlaqədar bu üçüncü cəhdinə uyğun olaraq məhkəmələr və FTK ən az oliqopoliya meyli olan bütün qovuşmaları qanunsuz elan etdilər.



The Sherman Antitrust Act (1890)

Section 1. Trusts, etc., in restraint of trade illegal; penalty

Every contract, combination in the form of trust or otherwise, or conspiracy, in restraint of trade or commerce among the several States, or with foreign nations, is declared to be illegal. Every person who shall make any contract or engage in any combination or conspiracy hereby declared to be illegal shall be deemed guilty of a felony, and, on conviction thereof, shall be punished by fine not exceeding $10,000,000 if a corporation, or, if any other person, $350,000, or by imprisonment not exceeding three years, or by both said punishments, in the discretion of the court.

Section 2. Monopolizing trade a felony; penalty

Every person who shall monopolize, or attempt to monopolize, or combine or conspire with any other person or persons, to monopolize any part of the trade or commerce among the several States, or with foreign nations, shall be deemed guilty of a felony, and, on conviction thereof, shall be punished by fine not exceeding $10,000,000 if a corporation, or, if any other person, $350,000, or by imprisonment not exceeding three years, or by both said punishments, in the discretion of the court.

Section 3. Trusts in Territories or District of Columbia illegal; combination a felony

Every contract, combination in form of trust or otherwise, or conspiracy, in restraint of trade or commerce in any Territory of the United States or of the District of Columbia, or in restraint of trade or commerce between any such Territory and another, or between any such Territory or Territories and any State or States or the District of Columbia, or with foreign nations, or between the District of Columbia and any State or States or foreign nations, is declared illegal. Every person who shall make any such contract or engage in any such combination or conspiracy, shall be deemed guilty of a felony, and, on conviction thereof, shall be punished by fine not exceeding $10,000,000 if a corporation, or, if any other person, $350,000, or by imprisonment not exceeding three years, or both said punishments, in the discretion of the court.

Section 4. Jurisdiction of courts; duty of United States attorneys; procedure

The several district courts of the United States are invested with jurisdiction to prevent and restrain violations of sections 1 to 7 of this title; and it shall be the duty of the several United States attorneys, in their respective districts, under the direction of the Attorney General, to institute proceedings in equity to prevent and restrain such violations. Such proceedings may be by way of petition setting forth the case and praying that such violation shall be enjoined or otherwise prohibited. When the parties complained of shall have been duly notified of such petition the court shall proceed, as soon as may be, to the hearing and determination of the case; and pending such petition and before final decree, the court may at any time make such temporary restraining order or prohibition as shall be deemed just in the premises.

Section 5. Bringing in additional parties

"Şerman qanunu" (1890-cı il)

"Şerman qanunu"na uyğun olaraq ABŞ-ın federal hökumətinin də müəssisəni məhkəməyə cəlb etmək hüququ vardır, özü də günahlandırma dairəsi kifayət qədər genişdir: pul cəriməsindən tutmuş, həbs qəti imkan tədbirinə qədər. 1974-cü il düzəlişinin tətbiq edilməsindən sonra həbs tədbiri geniş yayılmağa başladı. Təqsirkar müəssisənin hərəkətlərinə məhkəmə qadağası qoyula bilər, qeyri-adi hallarda məhkəmə müəssisənin bölünməsi haqqında qərar verə bilər. Bundan əlavə, "Şerman qanunu"nun hər hansı bir şəxs tərəfindən pozulması nəticəsində itki verildiyini hesab edən xüsusi şəxslər məhkəmədə iş qaldırmaq və iddiaların qəbul edilməsi əsaslandırılmış olduğu halda, dəymiş zərərin dəyərindən 3 dəfə çox olan kompensasiya almaq hüququna malikdirlər. Bu cür dinləmələr ABŞ-ın məhkəmə orqanlarının fəaliyyətində adi praktikaya çevrilmişdir. "Şerman qanunu" qəbul edilməmişdən əvvəl ABŞ-da inhisarlaşmanın əksinə yönəldilmiş bir sıra qanunlar fəaliyyət göstərirdi. Lakin onlar səmərəsiz idi və 1880-ci illərdə trestlərə çulğalaşma və birləşmə dalğasının qarşısını ala bilmədilər. "Şerman qanunu", Kleyton qanunu və Seller-Kefover qanunu ABŞ-da antiinhisar (antitrest) qanunvericiliyinin əsasını təşkil edir.

ŞƏBƏKƏLƏRARASI MÜHAFİZƏ (*Firewall*) – qlobal hesablama şəbəkəsini (WAN), lokal hesablama şəbəkəsini (LAN) və ya kompüteri internet vasitəsilə icazəsiz girişdən, qeyri-qanuni, zərərli proqramların, məlumatların və ya elektron formada olan digər materialların yerləşdirilməsindən qoruyan aparatların, proqram təminatının kombinasiyası.

ŞƏHADƏTNAMƏ – hüquqi faktı təsdiq edən sənəd (məsələn, doğum haqqında, nikah haqqında şəhadətnamə). Qanuna və ya digər hüquqi akta görə müəyyənləşdirilmiş şəhadətnamə mütləq təsdiq olunmalıdır. Düzgün tərtib edilməməsi sənədin etibarsızlığına səbəb ola bilər. Şəhadətnamənin məzmunundan yalnız məhkəmə qaydasında imtina oluna bilər. Firmanın kapitalının bir hissəsinə malik olmaq hüququnu təsdiq edən tituldur. Şəhadətnamənin aşağıdakı növləri fərqləndirilir: girov şəhadətnaməsi – borcların vaxtında ödənilməməsi zamanı borclu tərəfindən girov qoyulmuş əmlakın satışı hüququnu kreditora verən girov haqqında sənəd; əmanətlər haqqında şəhadətnamə – əmanətin müştəri


AZƏRBAYCAN RESPUBLİKASI
VƏTƏNDAŞININ ŞƏXSİYYƏT VƏSİQƏSİ
Seriya AZE № 01301301
Soyadı
XXXXXXXXXX
Adı
XXXXXXXXXX
Atasının adı
XXXXXXXXXX
Doğulduğu yer və tarix
AZƏRBAYCAN XXXXXXXXXX
XX.XX.XXXX
I<AZE<<<<<<<<<<<<<<<<<<<<<<<<<<<<<<<
01301301<<<<<<<<<<<<<<<<<<<<<<<<<<<<

tərəfindən daxil edilməsi faktını təsdiqləyən və gələcək daxilolmaların hesabdan silinməsinin, eləcə də faizlərin ödənilməsi şərtlərini müəyyən edən bank sertifikatı; əmtəənin (malın) mənşəyi haqqında şəhadətnamə – ölkənin gömrük orqanları tərəfindən verilən əmtəənin (malın) mənşə ölkəsini təsdiq edən sənəd; pay şəhadətnaməsi – payın keçirilməsini təsdiq edən sənəd, qiymətli kağız deyil və digər şəxsə verilə bilməz; sığorta şəhadətnaməsi – sığorta polisinin verilməsi anına qədər sığorta müqaviləsinin bağlanması zamanı sığortaçı tərəfindən verilən müvəqqəti sənəd; bəzən sığorta müqaviləsinin bağlanması haqqında son sənəd ola bilər.

ŞƏXSİ DÖVRİYYƏ VƏSAİTLƏRİ NORMATİVİ – müəssisənin normal fəaliyyətini təmin etmək üçün zəruri olan şəxsi dövriyyə vəsaitlərinin məbləği.

ŞƏXSİ MƏSULİYYƏTİN SIĞORTALANMASI – şəxsi məsuliyyətin sığortalanması üzrə sığortaçılar dedikdə üçüncü şəxslərin sağlamlığına və ya əmlakına öz hərəkətləri ilə zərər vura bilən fərdi şəxslər nəzərdə tutulur. Bu sığorta növünə görə sığorta hadisələrinə aşağıdakı ehtimal olunan və potensial mümkün riskləri aid etmək mümkündür:

– nəzərdə tutulmamış yerdə küçəni keçərkən yol hadisəsinin qəsdən törədilməsi;

– kibritlə, yanmış siqaret kötüyü ilə səliqəsiz rəftar nəticəsində yanğının yaranması;

– sığortalanmışın itlərinin üçüncü şəxslərə vurduğu bədən xəsarəti, zərər və s.

ŞƏXSİ GƏLİR – fiziki şəxs və ya onun ailəsi tərəfindən görülmüş işin müqabilində pul və ya başqa maddi qiymətlilər şəklində alınan haqq.

Şəxsi gəlirə fiziki şəxsin qazandığı bütün pul, yaxud material vəsaitləri (o cümlədən, sahibkarlıq gəliri, qiymətli kağızlar, əmanətlər, depozitlər üzrə gəlirlər və s.) onların əsas, yoxsa əlavə işə görə əldə edilməsindən asılı olmayaraq daxildir.

Adətən, ölkələrin qanunvericiliyində şəxsi gəlirdən bu və ya digər dərəcələr üzrə vergi tutulması qaydası mövcuddur.

ŞƏXSİ MÜLKİYYƏT – insana, ailəyə, fərdə məxsus mülkiyyət. Adətən qeyri-istehsal təyinatlı məişət obyektləri, əşyalar, əmlak şəxsi mülkiyyətin obyektləri hesab edilir.

ŞƏXSİ SIĞORTA (ing. *personal (private) insurance*) – elə sığorta sahəsidir ki, burada sığorta münasibətlərinin obyekti kimi sığortalının və ya digər sığortalanmış şəxsin həyatı, sağlamlığı, əmək qabiliyyəti və pensiya təminatı ilə əlaqədar, əmlak maraqları çıxış edir.

ŞƏXSİ SIĞORTA MÜQAVİLƏSİ (ing. *contract personal insurance*) – bir tərəf (sığortaçı) müqavilə ilə şərtləşdirilmiş haqq (sığorta haqqı) müqabilində



digər tərəfə (sığortalıya) və ya sığorta müqaviləsi xeyrinə bağlanmış şəxsə (faydalanan şəxsə) müqavilədə nəzərdə tutulan hadisənin (sığorta hadisəsinin) baş verdiyi təqdirdə həmin hadisə nəticəsində dəymiş zərərin əvəzini müqavilə ilə müəyyənləşdirilmiş məbləğ (sığorta məbləği) həddində ödəməyi (sığorta ödənişi verməyi) öhdəsinə götürdüyü sığorta müqaviləsi forması.

ŞƏXSİ TUTUM – sığorta və ya təkrar sığorta müqaviləsinə əsasən, sığorta riskinin sığortaçının (təkrar sığortalının) öhdəliyində qalan hissəsi.

ŞƏXSİ VEKSEL – fiziki şəxs tərəfindən verilmiş veksel.

ŞƏXSİ YARDIMÇI TƏSƏRRÜFAT – bir qayda olaraq iş vaxtından sonra asudə vaxt zamanı vətəndaşlar tərəfindən kənd təsərrüfatının aparılması forması. Əsasən, ərzağa olan tələbatları ödəmək üçün nəzərdə tutulmuşdur və sahibkarlıq fəaliyyətinə aid deyil.

Şəxsi yardımçı təsərrüfatda istehsalın səmərəliliyi və əmək tutumu kənd təsərrüfatı müəssisələrinin qarşılıqlı fəaliyyətindən asılıdır. Lakin son illər kənd təsərrüfatı müəssisələrinin formalarının dəyişməsi, eləcə də onların iqtisadi, təşkilati və texnoloji çətinlikləri ilə əlaqədar bu yardım xeyli azalmışdır.

ŞƏKƏRƏLİYEV ARİF ŞƏKƏRƏLİ OĞLU (1949) – Azərbaycan iqtisadçısı, i.e.d., prof., Əməkdar elm xadimi. 1970-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. 1976-cı ildə namizədlik, 1991-ci ildə Sankt-Peterburq İqtisad və Maliyyə Universitetində doktorluq dissertasiyasını müdafiə etmişdir. 1992-ci ildən professordur.



130-dan çox elmi məqalə, bir neçə monoqrafiya və dərsliyin müəllifidir. Əsas tədqiqat obyekti xidmət sahəsi və dünya iqtisadiyyatının problemləridir.

A.Şəkərəliyev 1970-1982-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda baş laborant, müəllim, baş müəllim, dekan müavini, kafedra müdiri vəzifələrində işləmişdir. 1982-ci ildən Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna işə qəbul olunmuşdur. 1987-1990-cı illərdə dekan, 2000-2007-ci illərdə ADİU-nun prorektoru olmuşdur. Hazırda universitetin professorudur.

ŞƏKLİ DƏYİŞDİRİLMİŞ TƏKRAR ALINMA – elə vəziyyətdir ki, bu zaman məhsulun uyğun növlərinə dəyişilməz tələblər saxlanılır, malgöndərənlərə münasibətdə isə mümkün alternativlər tətbiq olunur. Bu zaman alış şərtlərinə adi mal göndərmə prosedurunun şəklini dəyişdirməyi tələb edən kifayət qədər əhəmiyyətli dəyişikliklər oluna bilər (məsələn, mal göndərmə ilə bağlı olan şərtlərə).

ŞƏRAİTİN XEYLİ DƏYİŞMƏSİ – şəraitin dəyişməsi o zaman əhəmiyyətli dərəcədə dəyişmiş hesab edilir ki, tərəflər bunu qabaqcadan görürlər. Bu zaman müqavilə ümumiyyətlə imzalanmır və ya tam fərqli şərtlərlə imzalanır.

ŞƏRİKLİ SIĞORTA – sığorta müqaviləsi ilə müəyyən edilmiş sığorta risklərinin birgə sığortalanması və sığorta ödənişi üzrə öhdəliklərin bölüşdürülməsi barədə bir neçə sığortaçının öz aralarında bağladıqları müqavilədən yaranan hüquqi və iqtisadi münasibətlər mexanizmi.

ŞƏRTİ AKSEPT (ing. *qualified acceptance*) – qeyd-şərtli aksept. Akseptin bu növü ofertaya münasibətdə tətbiq edilmir. Çünki əlavə şərtlər irəli sürüldükdə, o özü yeni oferta sayılır. Zaman (müddət) və ya ödəniş yeri ilə bağlı məhdudiyyətlər olduqda, trattanın (köçürmə vekselin) saxlayıcısı şərtsiz aksept tələb etmək hüququna malikdir. Saxlayıcı bununla razılaşmadıqda isə onu ödənişdən imtina hesab edə bilər.

ŞƏRTİ ƏQD – bu əqdin şərtlərində iştirakçılardan birinin digər iştirakçıya mükafat adlanan pul məbləği ödəməklə öz öhdəliklərini yerinə yetirməkdən imtinası hüququ nəzərdə tutulur.

ŞƏRTİ FRANŞİZA – sığorta məbləğindən faizlərlə və ya mütləq kəmiyyətdə müəyyənləşdirilən franşizadır ki, bu zaman sığortaçı franşizanın müəyyən olunmuş məbləğdən çoxalmayan zərərə görə məsuliyyətdən azad olunur. Əgər zərərin ölçüsü franşizanın məbləğindən yüksəkdirsə, bu zərəri tam ödəməlidir. Şərti franşiza sığorta hadisəsinin baş verməsi nəticəsində zərərin kəmiyyəti franşizanın ölçüsündən az və ya ona bərabər olur, sığortaçı isə sığorta ödənişinin həyata keçirilməsi öhdəliyindən azaddır. Şərti franşiza – bu zaman əgər zərərin

ölçüsü franşizanın ölçüsündən çox deyilsə, sığortaçı bu zərərə görə məsuliyyətdən azad olur. Əgər zərərin ölçüsü franşizanın ölçüsündən çoxdursa, zərər tam ödənilməlidir.

ŞƏRTİ QİYMƏT (ing. *contingent valuation*) – əsasən bazarda təklif edilməmiş xidmətlərin və malların istehlak dəyərinin aşkar edilməsi. Bu halda, insandan müəyyən məbləğdə pul ödəməyə və ya kompensasiya almağa potensial baxımdan hazır olub-olmadığını deməsini xahiş edirlər. Ətraf mühitin öyrənilməsinin nəzəri-iqtisadi sahəsində bu yanaşma geniş tətbiq olunur.

ŞƏRTİ MƏHSUL VAHİDİ – istehsalı fiziki cəhətdən başa çatmış məmulatlardan fərqli olaraq, material, əmək sərfi və əlavə xərclər hissəsində tamamlanmış məmulatların hesablanmış sayı. Bu vahidlərdən istehsalın şərti həcminin ölçülməsi üçün proseslər üzrə maya dəyərinin kalkulyasiyası zamanı istifadə olunur.

ŞƏRTSİZ AKSEPT (ing. *general acceptance*) – qarşı tərəfin təklifinə (ofertaya) əsasən, oferentə əlavə şərtlər və qeyd-şərtlər təqdim edilmədən əqdin şərtlərini imzalamağa razılıq. Əvvəlcədən razılaşdırılmış şərtlər dəyişdirilmədən köçürmə vekselinin akseptləşdirilməsi.

ŞƏRTSİZ FRANŞİZA – mütləq məbləğdən faizlərlə və ya mütləq kəmiyyətdə müəyyən edilən franşizadır. Bu zaman bütün hallarda zərər müəyyən olunmuş franşiza çıxılmaqla ödənilir. Şərtsiz franşiza – sığorta ödənişinin kəmiyyəti hesablanan zaman zərərin necə olmasından asılı olmayaraq, zərər razılaşdırılmış ölçüdə azalır. Şərtsiz franşiza – bu zaman sığortaçının məsuliyyəti franşiza çıxılmaqla zərərin ölçüsü ilə müəyyən edilir.

ŞƏRTSİZ VEKSEL – heç bir şərtlə yüklənməmiş və təqdim edildikdə nağd ödənilməli olan veksel.

ŞİFRLƏMƏ (*Encryption/ cryptography*) – proqramların və məlumatların xüsusi şifraçma alqoritmləri (kriptoqrafik açarlar) olmadan başa düşülə bilməyəcək formaya çevrilməsi prosesi. Məsələn, icazəsiz açıqlanma və dəyişdirilmənin qarşısını almaq üçün əmək haqqı cədvəlləri sistemində olan məxfi xarakterli şəxsi məlumatlar şifrlənə bilər. Şifrləmə məxfi və həssas proqramların, məlumatların icazəsiz istifadəsinə və dəyişdirilməsinə qarşı qorunmasını, bununla əlaqədar səmərəli nəzarəti təmin edə bilir. Bununla belə, səmərəli təhlükəsizliyin təmin edilməsi kriptoqrafik açarların istifadəsinə nəzarətin düzgün qaydada həyata keçirilməsindən asılıdır.

ŞİPÇANDLER (ing. *ship* – gəmi, *chandler* – xırda tacir) – gəmiləri ərzaq və texniki vasitələrlə təmin edən firma.

ŞİRƏLİYEV ASİF İSMAYIL OĞLU (1939) – Azərbaycan iqtisadçısı, i.e.d., prof., 1965-ci



ildə Azərbaycan Dövlət Universitetini, 1968-ci ildə isə Bakı Ali Partiya Məktəbini bitirmişdir. 1976-cı ildə namizədlik, 2000-ci ildə "Aqrar-sənaye kompleksi sistemində iqtisadi mənafelər" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 10-dan çox iqtisad elmləri namizədinin rəhbəri olmuşdur. 32 kitabı, 70-dən çox elmi məqaləsi çap olunmuşdur. "Bazar terminlərinin izahlı lüğəti"ni, "İqtisad elmlərində işlədilən ərəb və fars mənşəli sözlər", "İqtisad elmində işlədilən alınma sözlər" lüğətlərini çap etdirmişdir.

A.Şirəliyev uzun müddət komsomol, partiya və həmkarlar ittifaqı təşkilatlarının rəhbər orqanlarında çalışmış, 1973-cü ildə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunda müəllim, dosent, professor vəzifələrində işləmişdir. Hazırda həmin universitetdə İqtisadiyyat və tənzimləmə kafedrasının müdiridir.

ŞİRƏLİYEV VASİF MÜSEYİB OĞLU (1936) – Azərbaycan iqtisadçısı, i.e.d., prof.




1964-cü ildə S.Orconikidze adına Moskva Mühəndis-İqtisad İnstitutunda "Mənzil tikintisində əmək məhsuldarlığının artırılması ehtiyatları" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

V.M.Şirəliyevin əsərlərində müasir yaşayış binalarının milli və yerli xüsusiyyətləri müəyyənləşdirilmiş, yaşayış rayonunun, yaşayış ərazisinin ümumi sahəsinin göstəricilərinin, yaşayış fondunun sıxlığının tikintinin dəyəri ilə qarşılıqlı əlaqəsini xarakterizə edən bəzi qanunauyğunluqlar aşkar edilmiş

və layihə göstəricilərini hesablamaq üçün analitik metodlar işlənilmişdir.
Elmi işlərin əsas müddəaları 10 monoqafiya və kitabçada, 2 dərs vəsaitində, 3 metodiki tövsiyədə, 51 elmi məqalədə, 5 tədris proqramında əksini tapmışdır. Əsərlərin ümumi həcmi 150 çap vərəqindən çoxdur.
2000-ci ildən indiyə kimi Memarlıq və İnşaat Universitetində Tikintinin iqtisadiyyatı kafedrasının professorudur.

ŞİRİNOV HƏBİB RƏHİM OĞLU (1929-1985) – Azərbaycanın görkəmli iqtisadçısı,



i.e.d., prof. Həbib Şirinov 1958-ci ildə namizədlik, 1971-ci ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. İnsanla texnika arasında ziddiyyətlər, elm və texnikada baş verən inqilabi çevrilişlər, istehsal proseslərinin, avtomatlaşmanın ali formaları, maddi-texniki bazanın həlledici elementləri, yüksələn əmək məhsuldarlığı qanununun fəaliyyəti və istifadə mexanizmi, onun təzahür formaları, kapital qoyuluşunun səmərəliliyi, elmin bilavasitə məhsuldar qüvvəyə çevrilməsi, işçilərin özlərinin yaradıcılıq təşəbbüsləri, səmərəlilik göstəricilərinin yüksəldilməsi, yarış, cəmiyyətin mənafeyi naminə vicdanlı əmək və s. istedadlı tədqiqatçı, məhsuldar alim H.Şirinovun maraq dairəsində olmuş, həmin sahələrə aid monoqrafiya, kitabça və onlarca məqalələr yazmışdır. Həsən Dadaşov məktəbinin yetirməsi, Azərbaycan siyasi iqtisadçılarının görkəmli nümayəndələrindən biri olmuşdur. Dərin məntiq, analitik təhlil bacarığına malik idi.
Uzun müddət S.M.Kirov adına ADU-da və D.Bünyadzadə adına AzXTİ-də siyasi iqtisad fənnindən mühazirələr oxumuşdur.

ŞİRİNZADƏ NATİQ ƏHMƏD OĞLU (1966) – "AzRosPromİnvest" Azərbaycan-Rusiya



birgə müəssisəsinin Direktorlar Şurasının sədri, "Daş Salahlı Bentonit" ASC-nin Müşahidə Şurasının sədri, Azərbaycan Respublikası Prezidenti yanında Sahibkarlar Şurasının üzvü. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun Himayədarlar Şurasının, Rusiya-Azərbaycan İşgüzar Əməkdaşlıq Palatasının üzvü.
1989-cu ildə Moskvada D.İ.Mendeleyev adma Rusiya Kimya-Texnologiya Universitetini, 1996-cı ildə Bakıda Qərb Universitetini bitirmişdir.
1998-2005-ci illərdə BMT Sənaye İnkişaf Təşkilatının (UNİDO), Yunanıstan Xarici İşlər Nazirliyinin, Yaponiya Xarici İşlər Nazirliyinin, Almaniya Texniki Əməkdaşlıq Cəmiyyətinin sertifikatlarına layiq görülmüşdür. II dərəcəli "Sodrujestvo" ordeninin daşıyıcısıdır. 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən AR regionlarının inkişafında xidmətlərinə görə xüsusi diploma layiq görülmüşdür.
Qlobal İqtisadi Problemlər İnstitutunun təsisçisi və rəhbəridir.

ŞİRKƏT – hüquqi şəxs statusuna malik sahibkarların ticarət, sənaye, nəqliyyat, tikinti, aqrar-sənaye, sığorta və s. birliyi.
Şirkətin aşağıdakı növləri fərqləndirilir: konsaltinq (məsləhət) şirkəti – bazarın (əmtəə, xidmət, lisenziya, nou-hau və s.) tədqiqi və proqnozlaşdırılması; idxal-ixrac əməliyyatlarının ticarət-siyasi şərtlərinin qiymətləndirilməsi; marketinq proqramlarının işlənməsi, aparılması və s. üzrə xidmətlər göstərən şirkət. Konsaltinq şirkətləri regional, sahə və digər prinsiplər üzrə ixtisaslaşa bilər; lizinq şirkəti – avadanlığı icarəyə verən və geri almayan, onu qalıq dəyəri üzrə satan şirkət; sığorta şirkəti – sığorta fəaliyyətini həyata keçirən və həyat, tibbi, əmlak, məsuliyyət sığortası üzrə xidmətlər göstərən təşkilat.

ŞİRKƏT, İMTİYAZLI – bir qayda olaraq, hökumət konsessiyası əsasında təşkil olunmuş, ya vergi və yaxud başqa növ real dövlət güzəştlərindən istifadə edən şirkət.

ŞİRKƏT, İNJİNİRİNQ – injinirinq xidmətlərinin göstərilməsində ixtisaslaşan şirkət. İnjinirinq şirkəti rəsmi asılı olmayan, hər hansı sənaye, ticarət və ya tikinti firmasına tabe olmayan statusa malikdir. İnjinirinq şirkəti, bir qayda olaraq, eyni vaxtda bir neçə sahədə işlər yerinə yetirə bilər və müxtəlif avadanlıq tədarükçülərini, podrat firmalarını işə cəlb edə bilər. İxtisaslaşdırılmış firmaların bazasında ixrac injinirinqinin inkişafı iqtisadi cəhətdən daha faydalıdır. Bu, hətta ölkə ixrac

üçün son məhsula malik olmadığı hallarda belə, əlavə valyuta ehtiyatlarının təmin edilməsi üçün elmi-texniki təcrübədən istifadə etməyə imkan verir.

ŞİRKƏT, KONSALTİNQ – bazarın tədqiq və proqnozlaşdırılması (mallar, xidmətlər, lisenziyalar, nou-hau və s.); idxal-ixrac əməliyyatlarının ticarət-siyasi şərtlərinin; həmçinin, yerli praktikada müxtəlif mülkiyyət formalarının qeydiyyatdan keçirilməsi üzrə xidmətlər göstərən şirkət. Konsaltinq firmaları regional, sahəvi və başqa prinsiplər üzrə ixtisaslaşa bilər (bax: Azərbaycan Dövlət Neft Şirkəti, Holding).

ŞİRKƏT, MALİYYƏ, KEPTİV – törəmə şirkət olub, əsasən, əsas şirkətdən istehlak mallarının alınması ilə məşğul olur. Həmçinin, onun maliyyə istehlakçılarına xidmət edir.

ŞİRKƏTİ İDARƏ EDƏNİN MÜKAFATLANDIRILMASI – fondun vəkalət idarəsinin qaydalarına müvafiq olaraq fonda xidmət göstərilməsinə görə idarə edənin hər il aldığı mükafat.

ŞİRKƏTİN BÖLÜNMƏSİ – bir şirkətin bütün əmlakının (fəaliyyətinin) bir və ya bir neçə başqa şirkətə (şirkətlərə) verilməsi aktı. Bir qayda olaraq, firmaların birləşməsi ilə müşayiət olunur. Nəticədə əmlakını verən firma buraxılır, benefisiar şirkətlər isə müvafiq qiymətli kağızları onların təşkilatda iştirak paylarına mütənasib olaraq öz aralarında bölüşdürürlər.

ŞİRKƏTİN ƏMTƏƏ SİYASƏTİ – müəssisənin buraxdığı malların və göstərdiyi xidmətlərin çeşidinin planlaşdırılması üzrə tədbirlər kompleksi. Şirkətin əmtəə siyasəti tədbirləri istehsalın texnoloji imkanlarına müvafiq surətdə, təklif edilən əmtəədən gözlənilən səmərə barədə istehlakçıların fikirlərinə əsasən, müəyyən bazarda analoji malların olub-olmamasından asılı şəkildə müəyyənləşdirilir. Malın bazara tətbiq edilməsi proqramını düzgün formalaşdırmaq üçün aşağıdakı tədbirlər görülməlidir:

1) məhsulun çoxsaylı atributları nəzərə alınmaqla əmtəə modelinin (multiatributiv model) hazırlanması; bu, potensial istehlakçıların fikrincə, əmtəəyə xas məziyyətlərin və nöqsanların hərtərəfli təhlil edilməsi nəticəsində mümkündür; növbəti mərhələ alıcıların hər bir hədəf qrupu üçün əmtəənin özəyini, onun baza əhəmiyyətli və digər mənfəətlərinin formalaşmasıdır;

2) malın imicinin, əsasən, "qiymət-keyfiyyət" koordinatlarında yaradılmasına müvafiq yanaşmanın seçilməsi; malın obrazı əvvəlcədən planlaşdırılmalı, marketinq siyasətinin işlənib hazırlanması ilə yanaşı həyata keçirilməlidir. Çünki imic əmtəənin mühüm atributudur, buna görə də əmtəənin mövqeyini müəyyən edərkən onun imici nəzərə alınmalıdır;

3) malın analoqları və əvəzediciləri ilə müqayisədə planlaşdırılan nisbi faydalılığı müəyyənləşdirilməlidir. Nisbi faydalılıq əmtəənin rəqabət qabiliyyətini müəyyənləşdirir;

4) məhsulun həyat mərhələsini qiymətləndirməli; məhsulun həyat fazasını bildikdə, onun rəqibləri sayılan analoji mallarla müqayisədə perspektivli olması problemini həll etmək, ən səmərəli marketinq alətlərini müəyyənləşdirmək məqsədilə satış və realizə miqyaslarını proqnozlaşdırmaq olar;

5) çeşid (nomenklatur) siyasətini formalaşdırmaq, malın bazarda diferensiasiya dərəcəsini müəyyənləşdirmək;

Dünyanın ən böyük şirkətləri (2011) ("Forbes"ə görə):

1. AT & T.	Fəaliyyət sahəsi – telekommunikasiya. Aktivlərin dəyəri – 265,25 mlrd. dollar
2. Banco Santander.	Fəaliyyət sahəsi – bank xidmətləri. Aktivlərin dəyəri – 1,3 trilyon dollar
3. British Neft.	Fəaliyyət sahəsi – yanacaq sənayesi. Aktivlərin dəyəri – 228,24 mlrd. dollar
4. Chevron.	Fəaliyyət sahəsi – yanacaq sənayesi. Aktivlərin dəyəri – 161,17 mlrd. dollar
5. ExxonMobil.	Fəaliyyət sahəsi – yanacaq sənayesi. Aktivlərin dəyəri – 228,05 mlrd. dollar
6. General Electric.	Fəaliyyət sahəsi – qarışıq. Aktivlərin dəyəri – 797,77 mlrd. dollar
7. HSBC Holdings.	Fəaliyyət sahəsi – bank xidmətləri. Aktivlərin dəyəri – 2,5 trilyon dollar
8. Royal Holland Shell.	Fəaliyyət sahəsi – yanacaq sənayesi. Aktivlərin dəyəri – 278,44 mlrd. dollar
9. Toyota Motor.	Fəaliyyət sahəsi – avtomobilqayırma. Aktivlərin dəyəri – 324,98 mlrd. dollar
10. Wal-Mart Mağazalar.	Fəaliyyət sahəsi – pərakəndə. Aktivlərin dəyəri – 163,43 mlrd. dollar

6) marka siyasətini işləyib hazırlamaq;
7) müəyyən əmtəənin və ya əmtəə markasının pozisiyalaşdırılmasını həyata keçirmək.

ŞİRKƏTİN İXRAC İMKANLARININ QİYMƏTLƏNDİRİLMƏSİ (ing. *estimate of export posibilities (availibitity) of an enterprise*) – müəssisənin istehlakçıya rəqibindən daha keyfiyyətli mal təklif etmək qabiliyyətinin hesablanması.

Əvvəlcə, həmin malın satış bazarları və ona istehlakçı tələbi tədqiq edilir. Sonra bazarda olan rəqib malların keyfiyyəti onun güclü və zəif tərəfləri müəyyən edilir. Malın mövcud və perspektiv rəqabət qabiliyyəti qiymətləndirildikdən sonra ya həmin malı bundan sonra da istehsal və ixrac etmək, ya onun istehsalını bitirmək və yeni mal ilə əvəz etmək, ya da müəssisənin yenidən təchiz edilməsi məsələsi həll olunur. Son addımda müəssisədə malın keyfiyyətinin yaxşılığa doğru dəyişməsinə təsir göstərə biləcək təşkilati-idarəetmə, struktur dəyişiklikləri təhlil edilir.

ŞİRKƏTİN MALİYYƏ PLANI – bu planda şirkətin balansı, mənfəətlər və zərərlər haqqında hesabatın, pul vəsaitlərinin mənbələri və onlardan istifadə edilməsi haqqında hesabatının proqnoz formaları göstərilir.

Bir qayda olaraq, şirkətin maliyyə planında onun mənfəəti haqqında göstərilən məlumatlar obyektiv proqnoz ilə ehtimal edilən məbləğlər arasında orta kəmiyyətlər kimi qəbul olunur. Maliyyə planında kapital qoyuluşlarının məbləğləri kateqoriyalar (məsələn, aktivlərin əvəzlənməsi, fəaliyyətin genişləndirilməsi, yeni məhsulların inkişaf etdirilməsi üçün kapital qoyuluşları, ətraf mühitin qorunması və onun vəziyyətinə nəzarət üçün avadanlığa zəruri investisiyalar), bölmələr və fəaliyyət növləri üzrə bölünməklə əks etdirilməlidir.

Maliyyə planı həmin kapital qoyuluşlarının həcmlərinin qısa şəkildə əsaslandırılmasını şirkətin həmin maliyyə məqsədlərinə çatmaq üçün həyata keçirməli olduğu strateji gedişlərin təsvirini nəzərdə tutur.

Strategiyaların təsvirinə aşağıdakı *parametrlər* daxil ola bilər: tədqiqatlar və elmi araşdırmalar, effektivliyin artırılması üsulları, qiymətlə bağlı tədbirlər, yeni məhsulların və onların marketinq proqramlarının işlənib hazırlanması.

ŞİRKƏTİN MƏQSƏDİ – təşkilatın, məsələn, müəyyən satış həcminə, mənfəətə nail olması üzrə, istehlakçıların əldə edilməsi, yaxud saxlanması və ya şirkətin malları haqqında onların məlumatlandırılması üzrə qarşıya qoyduğu vəzifələr. **Məqsədli auditoriya** reklamın nəzərə alındığı insan qrupudur. **Məqsədli bazar** şirkətin təklif və ya müraciətinin istiqamətləndiyi bazar seqmentidir. **Məqsədli müştərilər** şirkətin öz istehlakçıları qismində əldə etməyə çalışdığı təşkilatlar və ya şəxslərdir.

ŞİRKƏTİN NETTO DƏYƏRİ – şirkətin xüsusi kapitalı, onun aktivləri ilə passivləri arasındakı fərq.

ŞİŞİRTMƏ VEKSEL – əmtəə ifadəsi və heç bir qiyməti olmayan veksel. Dost vekselinin jarqon adı. Gəlirlilik illüziyası yaratmaq məqsədilə məbləği şişirdilən vekseli çox vaxt belə adlandırırlar.

ŞLYUZ QİYMƏTİ – Avropa Birliyinin vahid aqrar siyasəti çərçivəsində bir sıra kənd təsərrüfatı məhsullarının (taxıl, yem) franko sərhədinin illik müəyyən olunan minimum qiymətidir. Buna görə üçüncü ölkələr bu məhsulun daşınması haqqında təklif verə bilərlər. Limitləşdirilmiş (hədd) qiymətlərdən fərqli olaraq, şlyuz qiyməti dünya qiymətlərindən törəmədir. Bu qiymət dünya qiymətləri və müvafiq məhsulun istehsalı və satışı üzrə qaimə xərcləri nəzərə alınmaqla müəyyən edilir.

ŞOMAJ – sığorta hadisəsi, məsələn, yanğın baş verməsi nəticəsində sənaye müəssisələrində istehsalın dayandırılması ilə əlaqədar mənfəətin və digər maliyyə itkilərinin sığortalanması. Şomaj istehsalda baş verən fasilələr və dayanmalar nəticəsində, məsələn, qasırğa, subasma, sürüşmə, digər təbiət hadisələri nəticəsində mümkün mənfəət itkilərinin və digər maliyyə itkilərinin sığortalanmasıdır.

ŞOULZ (SCHOLES) MAYRON (1941) – amerikalı iqtisadçı, maliyyə bazarları sahəsində mütəxəssis.



R.Mertonla birlikdə "törəmə qiymətli kağızların qiymətləndirilməsinin yeni metodunun işlənib hazırlanmasına görə" 1997-ci ildə iqtisadiyyat

üzrə Nobel mükafatına layiq görülmüşdür.

1969-cu ildə Çikaqo Universitetində namizədlik dissertasiyası müdafiə etmişdir. Hazırda Ali Biznes Məktəbinin maliyyə üzrə professoru, Stanford Universitetinin nəzdində olan Quverov İnstitutunun aparıcı tədqiqatçısıdır.

Şoulz F.Bleklə birlikdə "derivativlərin" və ya törəmə qiymətli kağızların opsionlarının dəyərcə qiymətləndirilməsi problemini tədqiq etməklə maliyyənin iqtisadiyyatına əhəmiyyətli töhfə vermişdir ki, bunların nəticəsi 1973-cü ildə işlənib hazırlanmış "Blek-Şoulz düsturu" (Black-Scholes Formula) və ya "opsionlar bazarında qiymətin əmələ gəlməsi nəzəriyyəsi" kimi məşhurlaşan alqı üçün opsionun miqdarca qiymətləndirilməsi metodu oldu. Düstur opsiondan gözlənilən mənfəəti və onun sövdələşmələrin bütün parametrlərindən asılılığını əvvəlcədən düzgün qiymətləndirməyə imkan verdi. Şoulzun, Blekin (1995-ci ildə vəfat etmişdir) və Mertonun əsərləri XX əsrin son 10 ili ərzində törəmə qiymətli kağızlar bazarının sürətli artımının əsasını qoydu. Lakin Şoulz metodu daha universal əhəmiyyət kəsb edir və yalnız opsionlar bazarında gündəlik sövdələşmələrdə yox, həm də maliyyə bazarlarından kənarda geniş yayılmışdı. Nobel komitəsinin qiymətləndirməsinə görə opsionlar bazarında qiymətin əmələ gəlməsi nəzəriyyəsi XX əsrin son 25 ili ərzində iqtisad elminə ən əhəmiyyətli töhfə idi. Şoulz metodologiyası maliyyə alətlərinin yeni tipinin yaradılmasının başlanğıcını qoydu və cəmiyyətdə risklərin daha səmərəli tənzimlənməsi üçün imkanlar yaratdı.

ŞPİTQOF ARTUR (1873-1957) – Şpitqof bütün peşəkar elmi fəaliyyəti boyu iqtisadi



tsikllərin tədqiqi ilə məşğul olmuşdur. Marksın tədqiqatları, rus marksist Tuqan-Baranovskinin işləri və Şmollerin iqtisadi tərəddüdlərə həsr olunan "Fundamentallar" kitabı onun yaradıcılığına böyük təsir etmişdir. Şpitqof çox yaxşı bilirdi ki, o dövrdə mövcud olan bütün iqtisadi tsikl nəzəriyyələri, eyni zamanda, onun dövriliyini və kapitalist sistemi strukturunda meydana gəlməsinin səbəblərini kifayət qədər aydın izah etmir. O, investisiyaların tərəddüdü ilə iqtisadiyyatda yüksəliş və enmə dövrlərini izah edən "real" nəzəriyyələrə üstünlük verməklə başqa iqtisadçılardan fərqli olaraq qıtlığı, pul amillərini, psixoloji sferadakı dərin dəyişiklikləri, kapitalın investisiyası və yığımı proseslərindəki koordinasiya edilməmiş tərəddüdləri və bir çox başqa şeyləri nəzərə alırdı.

Şpitqof 1902-ci ildə iqtisadi tsikllər haqqında ilk məqaləsini çap etdirdi. Daha sonra "İctimai-siyasi elmlər üzrə lüğət kitabçası" (1932) nəşr olundu. Mark Blauq qeyd etdiyi kimi, "İqtisadi nəzəriyyələrin tarixi xarakteri" (1952) və "Təmiz nəzəriyyə və iqtisadi gestalt nəzəriyyə" (1953) məqalələrində o, iqtisadi həyatın quruluşunun müəyyən tarixi variantı üçün tətbiq edilmiş iqtisadi stil konsepsiyasını formalaşdırmışdır. Lakin nəticədə bu iki məqalədəki mühakimələr alman tarixi məktəbinin ənənəvi mövqeyinin yeni dildə ifadə edilmiş formasından başqa bir şey deyildi.

ŞULTS TEODOR UİLYAM (1902-1998) – amerikalı iqtisadçı. Çikaqo məktəbinin nümayəndəsi –



kənd təsərrüfatının və inkişaf etmiş ölkələrin iqtisadiyyatına, "insan amilinə" kapital qoyuluşu problemlərinə dair əsərlərin müəllifidir. "İqtisadi inkişafın, xüsusilə inkişaf etməkdə olan ölkələrin problemləri baxımından novator tədqiqatlarına görə" 1979-cu ildə iqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür (U.A.Lunsla birlikdə). Cənubi Dakota ştatının kollecini və Viskonsin Universitetini bitirmişdir. 1930-cu ildən Eyms şəhərində Ayova ştatının kollecində (hazırda Ayova ştatının universiteti) kənd təsərrüfatının iqtisadiyyatından dərs demiş, iqtisadi sosiologiya kafedrasına rəhbərlik etmişdir. 1943-cü ildən iqtisadiyyat kafedrasının professoru, 1946-cı ildən həqiqi professoru, kafedra müdiri (1952-ci ildən), 1972-ci ildən Çikaqo Universitetinin fəxri professoru, Milli İqtisadi Tədqiqatlar Bürosunun direktoru, vitse-prezidenti (1949-1967), Kanadada inkişaf prob-

lemlərinə dair beynəlxalq mərkəzin müdiri, Cari Dünya Problemləri İnstitutunun nəzdində əhali üzrə Şuranın və Beynəlxalq Kənd Təsərrüfatı Xidmətinin hamisi, Amerika İqtisadiyyat Assosiasiyasının üzvü (1960-cı ildən prezidenti) və Amerika Milli Elmlər Akademiyasının üzvü, Milli Təhsil Akademiyasının əsasını qoyan üzvü, Amerika Fəlsəfə Cəmiyyətinin, Amerika Elmlər və İncəsənət Akademiyasının üzvü olmuşdur. Qrinnel kollecinin və Cənubi Dakota ştatı kollecinin (Universitetinin), Viskonsin, Dicon və Çili katolik universitetlərinin, Miçiqan və Şimali Karolina ştatları universitetlərinin fəxri elmi adlarını almışdır. Amerika İqtisadiyyat Assosiasiyasının Frensis Uolker medalına (1972), Beynəlxalq Kənd Təsərrüfatı və İqtisadiyyat Assosiasiyasının medalına (1976) layiq görülmüşdür.

Şultsun ilk tədqiqatları kənd təsərrüfatının qlobal problemlərinə həsr olunmuşdur. Onun rəhbərliyi altında tərtib olunmuş "Dünya üçün ərzaq" məcmuəsində yeyinti məhsullarının təchizatı amilləri təhlil olunurdu: kənd təsərrüfatında məşğul olan iş qüvvəsinə, texnologiyaya, fermerlərin ixtisasına və fermer təsərrüfatlarına kapital qoyulur. 1950-ci illərdə o, kənd təsərrüfatı da daxil olmaqla zəif inkişaf etmiş ölkələrin iqtisadiyyatının bütün bölmələrini əhatə edən "Latın Amerikasına texnoloji yardım" layihəsinə rəhbərlik etmişdir.

Şults "insan kapitalı"nın tədqiqinə ilk müraciət edənlərdən biri olmuşdur. Onun bu problemə dair ilk məşhur əsəri "Yeni erada məktəb" (1958) məcmuəsində "Yaranan iqtisadi səhnə və məktəb təhsili" əsəridir. Şults "insan kapitalı" anlayışını geniş mənada başa düşür və insana qoyulan investisiyalara həm tədris müəssisələrində olan təhsilə, evə, işə qoyulan birbaşa investisiyaları, həm də səhiyyəyə, təhsilə və elmə kapital qoyuluşlarını aid edirdi. O, bu problemin demoqrafik aspektlərini tədqiq etmiş və nəticələri özünün redaktorluğu ilə nəşr olunan bir sıra məcmuələrdə, o cümlədən "Nikah, ailə kapitalı və doğum" kitabında ümumiləşdirmişdir.

1960-cı illərdə Şultsun aqrar münasibətlər sahəsində tədqiqatları "yaşıl inqilab"la əlaqədar idi. Bunun mahiyyəti ondan ibarətdir ki, kənd təsərrüfatı istehsalının artımı gen mühəndisliyi və digər texnoloji metodların tətbiqinin köməyilə mümkündür. "Ənənəvi kənd təsərrüfatında dəyişikliklər" monoqrafiyasında Şults göstərdi ki, hətta primitiv təsərrüfatda fermerlər rasional fəaliyyət göstərir və onlara əlverişli olan informasiya hədlərində öz resurslarından səmərəli istifadə edirlər. Şultsun bu əsəri iqtisad elmində yeni sahə demək idi.

ŞUMPETER YOZEF (1883-1950) – amerikalı iqtisadçı. Avstriyada anadan olmuşdur. 30-cu illərdə ABŞ-a mühacirətə getmişdi və həyatının sonuna kimi Harvard Universitetinin professoru olmuşdur.



1901-1906-cı illərdə Vyana Universitetində təhsil almışdır. 1909-1911-ci illərdə Çernovitsk Universitetində professor, 1919-1920-ci illərdə Avstriyanın maliyyə naziri, Reyn və Harvard Universitetlərinin professoru, İqtisadi cəmiyyətin prezidenti (1940-1941), 1948-ci ildə Amerika İqtisadçılar Assosiasiyasının prezidenti olmuşdur.

Şumpeter XX əsr iqtisad elminin dahilərindən biridir. Onun iqtisadi proseslərə möhtəşəm baxışı Adam Smit və Karl Marksın baxışları ilə müqayisə oluna bilər.

Şumpeterin əsərləri mövzu dairəsinə görə xeyli genişliyi ilə fərqlənir. O, artım konyunkturası problemlərini, iqtisadi təlimlər tarixini və iqtisadi sistemləri tədqiq etmişdir. Şumpeter öz əsərlərində iqtisadi həyatın bütövlüyünü və qarşılıqlı əlaqəsini göstərməyə cəhd edirdi. İqtisadi dinamika və tsikllər konsepsiyası ona məxsusdur və burada sahibkarlıq funksiyası mərkəzi yer tutur. 28 yaşında yazdığı "İqtisadi inkişaf nəzəriyyəsi" (1912) kitabında o, K.Marksın təsvir etdiyi parazit həyat tərzinə uyğunlaşmış xəsis kapitalistin əvəzinə dinamik və yeniliklərə meyilli yeni bir sahibkarı ön plana çəkdi. Belə sahibkar texniki tərəqqi prosesinə, kapitaldan istifadənin səmərəliliyinə, mənfəətin əldə olunmasına çalışır.

Şumpeterə görə, məhz sahibkarlar istehsal amillərindən istifadə yeni kombinasiyalarını ixtira edərək iqtisadiyyatın artımını və təsərrüfat metamorfozlarını doğurur. O, iqtisadi prosesdə ən mühüm rol kimi öz-özlüyündə

təkcə artımı yox, həm də xeyli dərəcədə sərbəst yaradıcılıq prosesində köhnənin yeni ilə əvəz edilməsinə gətirib çıxaran dəyişiklikləri və innovasiyaları ayırırdı. Şumpeter institusional dəyişikliklər və texnoloji innovasiyalar əsasında əldə olunan iqtisadi inkişafın hərəkətverici qüvvəsi kimi səmərəli rəqabət nəzəriyyəsini işləyib hazırlamışdır. O, iqtisadi artımın tsikliliyini qanunauyğunluqlar kimi nəzərdən keçirirdi. Hərçənd ki, onun məntiqinə uyğun olaraq böhranlar labüd deyil. Onlar yüksəlişin qanunauyğun surətdə dayanmasına hay-küylə cavab verməsi nəticəsində yaranır. Tsikllər nəzəriyyəsində kreditə mühüm rol ayrılır. Kredit iqtisadi dövriyyəyə əlavə resursların və elmi yeniliklərin cəlb edilməsi imkanını yaradır. Tədqiqatlar nəticəsində Şumpeter belə bir nəticəyə gəlmişdi ki, xüsusi sahibkarlıq kapitalizminin dövlətin tənzimlədiyi iqtisadi inkişaf sisteminə transformasiya olunması labüddür.

1986-cı ildə alimin şərəfinə "Yozef Şumpeterin beynəlxalq cəmiyyəti", 2001-ci ildə Berlində Şumpeter İnstitutu yaradılmışdır. Alimin şəxsi kitabxanasının bir qismi Tokionun Xitotsubasi Universitetində saxlanılır.

ŞÜBHƏLİ BORC – müəssisənin debet üzrə müqavilələrdə nəzərdə tutulan müddətlərdə ödənilməmiş, lakin müvafiq zəmanətlərlə də təmin edilməmiş borcu. Hesabat ilinin sonunda *müəssisənin debitor borcunun inventarlaşdırılması* aparılır, onun əsasında şübhəli borclar *ehtiyatı* yaradılır. *Ehtiyatın həcmi* şübhəli borcların hər biri üzrə ayrı-ayrılıqda müəyyən edilir və bu kəmiyyət borclunun tədiyə qabiliyyətindən, onun maliyyə vəziyyətindən, eləcə də şübhəli borcun bütünlüklə və ya heç olmasa, qismən ödənilməsi ehtimalından asılıdır. Şübhəli borclar ehtiyatının yarandığı ildən sonrakı ilin sonuna qədər həmin ehtiyatın müəyyən hissəsindən istifadə edilmədiyi hallarda bu pulun xərclənməmiş məbləği göstərilən ilin mənfəətinə əlavə olunur.



T

TABLO – informasiyanın insan tərəfindən qavranılmaq üçün rahat formada əks etdirilməsi vasitəsi; üzərində nəzarət edilən obyektin vəziyyətlərini göstərən, yaxud sərəncam və ya reklam xarakterli məlumatları əks etdirən müxtəlif şərti təsvirlər çəkilmiş, işıq və başqa siqnal qurğuları yerləşdirilmiş lövhə, yaxud ekran.



TAEL – Şərqi Asiyada və Çində mövcud olmuş pul və çəki vahidi. Ona ehtiyac olmaması üzündən həmin ölkələrdə dövriyyədən çıxarılmışdır. Onu *lyan* da adlandırırlar. Çəki vahidi kimi tael e.ə. III əsrdə yaranmışdır. Eramızın V-VI əsrlərindən etibarən, əsasən, gümüşü və qızılı çəkmək üçün istifadə edilirdi. Çində gümüş valyutanın mövcud olduğu dövrdə (XIV-XIX əsrlər) tael əsas pul vahidinə çevrilmişdir. O, 10 maoya və 100 fina bölünürdü. *1 tael = 1 lyan = 8 rus qızıl rublu = 10 tsyan (çin) = 100 fin = 1000 li.* Bu pul vahidinin harada işlədilməsindən və nə üçün nəzərdə tutulmasından asılı olaraq taelin tərkibindəki qızılın miqdarı müxtəlif olan 170 növü vardı. 1933-cü ilin mart ayında pul sisteminin unifikasiyası haqqında qanun qəbul edilmiş və tael pul vahidi kimi ləğv olunmuşdur. Lakin Çin Xalq Respublikasında tael çəki vahidlərindən biri kimi (31,2 qram) indi də tətbiq edilir. Pul hesablaşmalarında *1 tael 2 gümüş rubla* bərabər hesab edilir.

TAFT-HARTLİ QANUNU – bu qanun əmək münasibətlərinin tənzimlənməsi haqqındadır (1947), Vaqner-Konneri qanununa (1935) düzəliş kimi qəbul olunmuşdur. Taft-Hartli qanununun qəbulu ilə həmkarlar ittifaqlarının qarşısına ədalətsiz əmək fəaliyyətini qadağan edən dürüst şərtlər qoyuldu: bağlı sexlərin (işçilərinin ştatını ancaq həmkarlar ittifaqlarının üzvləri təşkil edən müəssisələr) yaradılmasına məhdudiyyət qo-



Fred A.Hartli



Robert Taft

yuldu; fəhlələr işə qəbulu haqqında qanunları sərbəst qəbul imkanı əldə etdilər; millətin sağlamlığına və ya rifah səviyyəsinə ziyan vura biləcək tətillər məhkəmə vasitəsilə 80 gün müddətə qədər uzadıla bilər; həmkarlar ittifaqlarına milli seçkilər üçün həmkarlar ittifaqlarının fondlarından istifadə etməyə qadağa qoydular; həmkarlar ittifaqları öz fəaliyyətlərinə icazə almaq üçün onun liderləri kommunist partiyasına məxsus olmadıqlarını təsdiq etməlidirlər (Lendrum-Qriffin qanunu ilə edilən düzəliş); bütün həmkarlar ittifaqları öz maliyyə hesabatlarını ABŞ-ın Əmək Nazirliyinə həmkarlar ittifaqları üzvlərinin siyahısı ilə birlikdə təqdim etməlidir.

TAĞIYEV ALBERT HƏMİD OĞLU (1940) – Azərbaycan iqtisadçısı, iqtisadiyyat üzrə fəlsəfə doktoru.



1965-ci ildə Azərbaycan Dövlət Universitetinin (hazırda Bakı Dövlət Universiteti) Mexanika-riyaziyyat fakültəsini "hesablayıcı-proqramçı" ixtisası üzrə bitirmişdir. 1974-cü ildən iqtisad elmləri namizədidir.

Azərbaycan Elmlər Akademiyasının Kibernetika İnstitutunda, Azərbaycan Dövlət Universitetinin Hesablama Mərkəzində riyaziyyatçı-proqramçı kimi çalışmışdır. 1970-1976-cı illərdə Azərbaycan Dövlət Plan Komitəsi nəzdində ETİİ-də kiçik elmi işçi, baş elmi işçi, müxtəlif sektorların müdiri vəzifələrində çalışmışdır. 1967-ci ildən Sumqayıt Dövlət Universitetində (keçmiş Azərbaycan Sənaye İnstitutu) baş müəllim, dosent, iqtisad yönümlü müxtəlif kafedraların müdiri və İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı vəzifələrində çalışmışdır. Hazırda Menecment kafedrasında dosent kimi çalışır.

Ümumi həcmi 180 çap vərəqi olan 140-dan çox elmi, elmi-metodiki əsərin, o cümlədən 20 kitabın müəllifidir.

Hazırda Azərbaycan İqtisadçılar İttifaqının Sumqayıt filialının həmsədridir.

2006-cı ildə A.H.Tağıyev iqtisad elmində xidmətlərinə görə Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının fəxri professoru adına layiq görülmüşdür.

TAĞIYEV EYYUB İSMAYIL OĞLU (1912-1967) – t.e.d., prof. (1958). 1932-1937-ci illərdə Neft Maşınqayırması Dövlət Tədqiqatlar İnstitutunda mühəndis-konstruktor; 1934-1942-ci illərdə turbin qazma eksperimental kontorunda direktor (Bakı, Krasnokamsk); 1942-1944-cü illərdə Molotov neft kombinatının rəisi; 1944-1945-ci illərdə SSRİ neft sənayesi Xalq Komisarlığının turbin qazma şöbəsinin rəis





müavini; 1945-1947-ci illərdə reparasiya üzrə Sovet Dövlət Komissiyasının qərargah rəisi (Almaniya, Rumıniya, Macarıstan); 1947-1958-ci illərdə SSRİ Neft Sənayesi Nazirliyində rəhbər vəzifələrdə çalışıb; 1958-1960-cı illərdə qazma texnikası üzrə Ümumittifaq Elmi-Tədqiqat İnstitutunun direktoru; 1958-1967-ci illərdə İ.M.Qubkin adına Moskva Neft-Kimya və Qaz Sənayesi İnstitutunda neft-qaz quyularının qazılması kafedrasının müdiri, elmi işlər üzrə prorektoru olmuşdur.

İngilis və alman dillərini bilirdi. 1932-ci ildə onu N.Baybakovla birgə Lökbatana işləməyə göndərmişdilər. Onun rəhbərliyi ilə dünyada ilk dəfə olaraq gilli torpaqlarda işləyən maşın kəşf olunmuşdu.

Müharibə illərində SSRİ-nin şərq rayonlarında neftin tapılması aktual əhəmiyyət kəsb edirdi. Ona görə də 31 yaşlı Tağıyevin başçılıq etdiyi Bakı eksperimental qazma kontoru və ona tabe olan Myasnikov adına zavod Perm vilayətinin Krasnokamensk şəhərinə köçürülmüşdü. 1945-ci ilin martında Tağıyevə hökumətin xüsusi tapşırığı verilir. O, SSRİ Neft Sənayesi Xalq Komissarlığının səlahiyyətli nümayəndəsi kimi neft sənayesi üçün lazım olan müəssisə və avadanlıqların, materialların daşınmasına nəzarət etməliydi. XX əsrin 40-cı illərinin sonlarında Xəzər dənizində neftçıxarma məsələləri aktuallaşmışdı. Bu işlərə SSRİ neft sənayesi nazirinin birinci müavini Sabit Orucov rəhbərlik edirdi. Bu məqsədlə dənizdə neftçıxarma üzrə ixtisaslaşacaq



Eyyub Tağıyevin başçılıq etdiyi sovet neftçiləri qrupu Hindistanın Baş naziri Cəvahirlal Nehrunun qəbulunda



baş idarə yaradılır. İdarənin baş mühəndisi E.Tağıyev təyin olunur.

15 ixtira və 60 elmi işin müəllifidir. 1961-ci ildə dərin qazma üzrə sahələrarası elmi-texniki şuranın sədri; 1956-cı ildə neft-qaz üzrə Hindistanın milli komissiyasının daimi məsləhətçisi; 4, 5, 6-cı dünya neft konqreslərinin nümayəndəsi; 1963-cü ildə SSRİ üzrə Dünya neft konqreslərinin beynəlxalq icraiyyə komitəsinin üzvü; 1964-cü ildə SSRİ üzrə dünya Neft Konqreslərinin İcraiyyə Komitəsinin elmi şurasının üzvü olub.

44 yaşında Qubkin adına İnstituta (indiki Rusiya Neft-Qaz Akademiyası) kafedra müdiri təyin olunanda SSRİ Neft Sənayesi Nazirliyinin Baş İdarəsinin rəis müavini vəzifəsində qalmışdır. O, həmçinin Ümumittifaq Elmi-Tədqiqat Qazma Texnikası İnstitutundakı boru-vibrator laboratoriyasında çalışırdı.

Sonradan o, elmlər namizədi belə olmadan institutun elmi işlər üzrə prorektoru təyin olundu. 1965-ci ilin dekabrında institutun elmi şurası dissertasiya müdafiə etmədən ona texnika elmləri doktoru alimlik dərəcəsinin verilməsi haqqında qərar qəbul etdi.

Üç dəfə SSRİ Dövlət Mükafatı laureatı (1942, 1948, 1951), Azərbaycan SSR-in əməkdar elm və texnika xadimi (1958); Brüsseldə keçirilən dünya sərgisinin qızıl medalı, iki dəfə Qırmızı Əmək Bayrağı Ordeni (1944, 1948); Şərəf Nişanı ordeni (1942) və s. medallar ilə təltif olunmuşdur.

TAĞIYEV HACI ZEYNALABDİN MƏHƏMMƏDTAĞI OĞLU (1823-1924) – Azərbaycanda milli burjuaziyanın ən layiqli nümayəndələrindən biri, tanınmış milyonçu, böyük xeyriyyəçi, maarifpərvər və ictimai xadim. Kiçik yaşlarından ehtiyac içərisində yaşamış və ailəsinə kömək məqsədilə işləməyə başlamış, 15 yaşından bənnalıq etmiş, bir müddətdən sonra podratçılıqla məşğul olmuşdur. Bu dövrlərdə Bakı əsl neft səltənətinə çevrilmişdi. Bakı və onun ətrafındakı kəndlərdə torpaqlar Rusiyadan və xaricdən gəlmiş sərmayədarlar tərəfindən alınır, orada neft buruqları ucaldılırdı. Bu, Hacını da maraqlandırır və o, podratçılığı buraxaraq torpaq sahəsi icarəyə götürür, quyu qazdırır, səbr və təmkinlə neftin çıxmasını gözləyir. Nəhayət, 1873-cü ildə onun sahib olduğu neft quyusu fontan vurur. Beləliklə də, Tağıyevin neft sahibkarlığı fəaliyyəti başlanır. 1878-ci ildə isə onun neft mədənlərindən birində baş verən fontan Tağıyevi ən zəngin sahibkarlardan birinə çevirir.



1870-ci illərin sonunda Tağıyev artıq 3 neft zavodunun sahibi idi. 1886-cı ildə o, "H.Z.Tağıyev" şəxsi ticarət evini təşkil etmişdi. 1896-cı ildə Tağıyev firmasının neft hasilatı ən yüksək göstərici ilə (32 milyon pud) ən iri – "Nobel qardaşları" şirkətini (28 milyon pud) geridə qoymuşdu.

"Mazut" şirkətinin yaranması ilə əlaqədar Tağıyev və yerli varlılar birgə "Bakı-Batum neft kəməri" səhmdar şirkətini yaradırlar. O zaman üçün nəhəng inşaat hesab edilən bu neft kəməri Bakıdan başlayaraq Kür düzənliyindən keçib, Qafqaz dağlarının ətəyini və Suram qalasının yamacını aşıb, Reon düzənliyindən ötərək, 800 kilometr məsafədə uzanıb Xəzər sahilini



Hacı Zeynalabdin Tağıyev – Mərdəkandakı bağ evində. Yanında qızı Leyla və onun övladları (1923-cü il)

Qara dəniz sahili ilə birləşdirəcəkdi. Bakı nefti okeanlara, uzaq-uzaq ölkələrə, beynəlxalq bazarlara yol açacaqdı. Kəmərin tikintisinə 1897-ci ildə başlanılıb 1907-ci ildə (10 ilə) tamamlanmışdır.

XIX əsrin 90-cı illərində Tağıyev ilk dəfə Şuşa-Yevlax dəmir yolu çəkilişi layihəsini təklif etmişdir. XX əsrin əvvəlində "Kür-Xəzər" gəmiçilik cəmiyyətini təsis etmişdir.

Tağıyev toxuculuq sənayesinə, gəmiçiliyə, tikintiyə, kənd təsərrüfatına və balıqçılığa sərmayə qoymuş, "Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti" (1897), toxuculuq fabriki (1900), "Xəzər manufaktura cəmiyyəti" (1911), "Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti" (1916) yaratmışdır.

Yeyinti sənayesinə də diqqət ayıran Tağıyev dəyirman tikdirmiş, Quba qəzasında üzüm bağları saldırmışdı. 1909-cu ildə balıq sənayesinə 1 milyon rubla yaxın vəsait qoyaraq, 1910-cu ildən "Bankə" vətəgəsinin sahibi olmuşdur. Balıq məhsulları saxlamaq üçün Dağıstanın Petrovsk-Port (indiki Mahaçqala) şəhərində soyuducu zavodu, buz istehsal edən və çəllək zavodları tikdirmişdir. 1916-cı ildə balıq sənayesi sahəsində yaradılan "Kaspi-Tağıyev" Səhmdar Cəmiyyətinin malik olduğu əsas kapitalın üçdə ikisi Tağıyevə məxsus idi. Tağıyev 1904-cü ildə ingilis mühəndisi V.V.Lindleyi Bakıya dəvət edərək Şollar-Bakı su kəmərinin çəkilməsini ona həvalə etmişdir. Beləliklə də, şəhər əhalisinin içməli suya olan və uzun illər davam edən ehtiyacı ödənilmişdir.



Hacı Zeynalabdin Tağıyevin ailəsi

Bakının mərkəzində bir çox yaraşıqlı və dəbdəbəli binalar: mərtəbəli yaşayış mülkü (hazırda Azərbaycan Tarix Muzeyinin binası), ticarət passajı (köhnə Bakı univermağı), bank, ilk teatr binası, müsəlman aləmində ilk qız məktəbinin binası (AMEA-nın Əlyazmalar İnstitutu), Zığ kəndində fəhlələr üçün salınmış qəsəbə Tağıyevin şəxsi vəsaiti və təşəbbüsü ilə tikilmişdir.



Hacı Zeynalabdin Tağıyevin açdığı Bakı Qızlar məktəbi



Mexanika və İnşaat Texnikmunun məzunları (1913-cü il)

1914-cü ildə sənaye müəssisələrini maliyyələşdirmək və yerli sahibkarlara maddi dəstək olmaq məqsədilə Bakı Ticarət Bankını təsis etmişdi ki, 1917-ci ilin sonlarında bankın kapitalı 30 milyon manata çatırdı.

Tağıyev bu gün yalnız sahibkar və neft milyonçusu kimi deyil, həmçinin xalqın maariflənməsi, tərəqqisi üçün böyük səylə çalışan, elmin, mədəniyyətin inkişafı yolunda qüvvə və bacarığını əsirgəməyən bir mesenat kimi xatırlanır. XIX əsrin ikinci yarısı XX əsrin əvvəlləri nəinki



Hacı Zeynalabdin Tağıyev iş otağında

Azərbaycanda, ümumiyyətlə, Şərq ölkələrində milli iqtisadiyyatın təşəkkülü, xeyriyyəçiliklə əlaqədar bir hadisə baş vermişsə, buradan Tağıyev dəstixəttinin sorağı gəlmiş, Tağıyev əməyinin bəhrəsi hiss olunmuşdur. Tağıyev Azərbaycan mədəniyyətinin, maarifinin, elminin inkişafı sahəsindəki boşluqları hiss etmiş, milli dirçəlişə təkan verən çox möhtəşəm və cəsarətli tədbirlər həyata keçirmişdir. O, yaxşı bilirdi ki, xalqın mədəniyyətini inkişaf etdirmədən, təhsil, maarifləndirmə işini köklü surətdə yaxşılaşdırmadan milli dirçəlişə nail olmaq mümkün deyildir.

Tağıyev 1895-ci ildə 57 min rubla "Kaspi" mətbəəsi və eyniadlı qəzeti satın alaraq, onları Azərbaycanın ictimai-siyasi həyatında böyük rol oynamış Əlimərdan bəy Topçubaşov və Əhməd bəy Ağayevin ixtiyarına verir. Bu mətbu orqanın millətin oyanışında böyük işlər gördüyü tarixdən məlumdur. Tağıyev hətta başqa müsəlman ölkələrində də dövri mətbuatın rolunu yüksək qiymətləndirir, bu işə maddi yardım göstərirdi.

1905-ci il inqilabından sonra hökumətin Oktyabr bəyannaməsi ölkədə mədəni-maarif işlərinin canlanmasına səbəb oldu. "Müsəlman xeyriyyə cəmiyyəti", "Nəşri maarif", "Nicat" cəmiyyətlərinin qəzet və jurnallarının çap edilməsi, ilk növbədə, Tağıyevin adı ilə bağlıdır. Onun çoxşaxəli xeyriyyəçilik fəaliyyətində müxtəlif ixtisaslar üzrə kadrların hazırlanması, yeni-yeni müəssisələrin istifadəyə verilməsi xüsusi yer tutur. 1884-cü ildə Tağıyevin maddi

vəsaiti ilə Azərbaycanda, eləcə də Qafqazda ilk kənd təsərrüfatı məktəbi açılır. Onun xeyriyyəçilik fəaliyyəti xalqının ağır vəziyyətdən çıxmasında, ziyalı təbəqənin formalaşmasında mühüm rol oynamışdır.

Tağıyev 1901-ci ildə 300 min manat vəsait sərf edərək, Bakıda ilk qız məktəbi tikdirir. Bu, bütün Zaqafqaziyada yeganə qız məktəbi idi. O, "Ədəb", "Qüdsiyyə", "Şərəf", "İslamiyyə", "Vətən", "Müzəffəriyyə", "Tərbiyət" və başqa məktəblərə də maddi yardım göstərmiş, onları pedaqoji kadr, tədris vəsaiti ilə təmin etmiş, digər şəhərlərdə ana dilimizdə məktəblər açılmasına köməklik göstərmişdir. Tağıyevin XIX əsrin 70-ci illərinin əvvəllərində tikdirdiyi teatr binası Azərbaycanın mədəni həyatında böyük hadisə idi.

Tağıyev şəxsi təşəbbüsü ilə öz vəsaiti hesabına bir çox yazıçı və şairlərin kitablarını çap etdirmiş, onlarca gənc onun himayəsi və maddi yardımı ilə xarici ölkələrdə təhsil almış, sonralar görkəmli elm və ictimai xadim kimi tarixdə qalmışlar.



Rusiya İmperiyasının Həqiqi dövlət müşaviri

H.Z.Tağıyevin Duma üzvü kimi fəaliyyətinin də bir ali məqsədi olmuşdur: xalqına, onun tərəqqisinə xidmət etmək.

Lakin 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Tağıyevin bütün müəssisələri milliləşdirildi. Yalnız Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra bu böyük xeyriyyəçi və tərəqqipərvər şəxsiyyətin tarixi xidmətləri öz layiqli qiymətini almışdır.



TAĞIYEV KAMAL BƏXTİYAR OĞLU (1923-1994) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1954-cü ildə namizədlik, 1970-ci ildə isə "İqtisadi rayonların nəqliyyatının kompleks inkişaf problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Məişət Xidməti Nazirliyinin layihə-konstruktor və texnoloji institutunda direktor vəzifəsində işləmişdir. 1985-ci ildən ömrünün sonunadək Politexnik İnstitutunda professor, dekan, kafedra müdiri vəzifələrində çalışmışdır.



TAĞIYEV MAHMUD BƏXTİYAR OĞLU (1926-1993) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof. 1954-cü ildə namizədlik, 1971-ci ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. 1977-ci ildə ona professor elmi adı verilmişdir. Sənayenin iqtisadiyyatı problemləri ilə məşğul olmuşdur. 270 çap vərəqi həcmində bir neçə monoqrafiyanın, 130 elmi məqalənin müəllifidir.



1954-1975-ci illərdə Azərbaycan SSR EA İqtisadiyyat İnstiutunda elmi işçi və şöbə müdiri, 1975-1987-ci illərdə AzXTİ-də kafedra müdiri, 1988-1993-cü illərdə isə kafedranın professoru olmuşdur.

TAĞIYEV MURAD RAMİZ OĞLU (1965) – Azərbaycan iqtisadçısı, i.e.d. 1986-cı ildə



Azərbaycan Texniki Universitetinin "Avtomatika və hesablama texnikası" fakültəsini bitirib və həmin ildən dövlət təyinatı ilə SSRİ-nin Baş Kosmos İdarəsinin Kosmik tədqiqatlar İnstitutunda əmək fəaliyyətinə başlayıb.

İşlədiyi müddətdə SSRİ EA-nın Sistemli Analiz İnstitutunun "Sosial iqtisadi sistemlərin modelləşdirilməsi" şöbəsində elmi təcrübə keçmişdir. 1988-1991-ci illərdə İqtisadi tədqiqatlarda və xalq təsərrüfatının idarə edilməsində Riyazi metodlar və hesablama texnikasının tətbiqi ixtisası üzrə MEA-nın Kibernetika İnstitutunun aspiranturasını bitirmişdir. 1992-1994-cü illərdə AMEA-nın rəyasət heyətinin fizika-riyaziyyat və texnika elmləri bölməsinin elmi katibi vəzifəsində çalışmışdır.

1996-cı ildə "Azərbaycanın MDB dövlətləri ilə xarici iqtisadi əlaqələrinin təkmilləşdirilməsi" mövzusunda namizədlik, 2008-ci ildə "İqtisadi təhlükəsizliyin əsas aspektlərinin modelləşdirilməsi (Azərbaycan timsalında)" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 2003-cü ildən 2011-ci ilə qədər AMEA-da Kibernetika İnstitutunda böyük elmi işçi, aparıcı elmi işçi vəzifələrində işləmişdir. 2011-ci ildən BDU-nun "İqtisadi kibernetika", hazırda isə "Riyazi iqtisadiyyat" kafedrasının professorudur. 40-dan çox elmi məqalənin, 1 monoqrafiya və 1 dərsliyin müəllifidir.

İqtisadi sistemlərdə qeyri-xətti proseslərin modelləşdirilməsi məsələlərinə dair elmi məqalələri Moskvanın Sistemli Təhlil İnstitutunun, MEA-nın "Xəbərlər və Məruzələr" jurnallarında çap edilmişdir.

TAĞİYEV NAMİQ FAİQ OĞLU (1960) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1986-cı



ildə Moskva Elektron Texnikası İnstitutunda namizədlik, 2006-cı ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. Doktorluq dissertasiyası investisiya proseslərinin idarə edilməsi modellərinin yaradılması və tətbiqi problemlərinə həsr edilmişdir.

70-ə yaxın elmi məqalənin və 3 monoqrafiyanın müəllifidir.

Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun direktoru vəzifəsində işləmişdir.

Hazırda Bakı Dövlət Universitetinin Riyazi iqtisadiyyat və iqtisadi-ekoloji sistemlərin modelləşdirilməsi kafedrasının müdiri vəzifəsində çalışır.

TAKSALANMIŞ POLİS (SIĞORTA VƏSİQƏSİ) – əmlak sığortası zamanı sığorta obyektinin sığorta əməliyyatlarının iştirakçıları arasında qəti razılaşdırılmış qiymətinin göstərildiyi polis (taksalanmamış polisdə bu cür qiymət göstərilmir və ya təxmini qiymət göstərilir).

TAKSASİYA (lat. *taxatio* – qiymətin müəyyən edilməsi) – 1. Taksanın – əmtəələrin qiymətlərinin, xidmətlərə görə tariflərin müəyyən edilməsi. 2. Meşənin taksasiyası meşənin uçotu, onun vəziyyətinin keyfiyyət və maddi baxımdan qiymətləndirilməsidir: ağacların texniki xarakteristikası (pasportlaşdırılması), onlarda olan oduncaq ehtiyatlarının (miqdarının), ayrı-ayrı ağacların sayının və həcminin artımının müəyyən edilməsi və s.

TAM DƏYƏR – emitent və ya sponsor üçün sekyuritizasiyanın, dəyəri (faizlərin ödənişi, anderaytinq xərcləri və digər xərclər daxil olmaqla, o cümlədən hüquqi müşayiət və sənədləşmənin hazırlanması xərcləri də daxil olmaqla) buraxılışın ödənməsinin təxmini orta müddətinə görə amortizasiya edilmiş ümumi dəyəri.

TAM ELASTİK TƏKLİF – 1. Malın qiymətinin dəyişməsini tələb etməyən təklifin dəyişməsi nəzərdə tutulan vəziyyət. 2. Satıcıların malın qiyməti dəyişmədikdə, məhz alıcıların almağa hazır olduqları miqdarda mal təklif etməyə hazır olduqlarını nəzərdə tutan vəziyyət.

"TAM HAZIR" ŞƏRAİTDƏ TİKİNTİNİN SIĞORTALANMASI – obyektlərə münasibətdə bütün risklərdən qorunma; burada tikintiyə, material və avadanlığın daşınmasına və s. görə məsuliyyət baş podratçıya həvalə olunur və bir hüquqi şəxs – baş podratçı və ya tikintiyə tapşırıq verən firma sığortalı kimi çıxış edir.

TAM HƏCMDƏ SIĞORTA MƏBLƏĞİNİN BƏRPA EDİLMƏSİ – iddia ilə əlaqədar


azalan sığorta məbləğinin tam həcminə qədər artması üçün əlavə sığorta haqqının ödənişi.

TAM KONSTRUKTİV MƏHV OLMA – sığorta hadisəsi nəticəsində sığortalanmış obyektin elə korlanması və xarab olmasıdır ki, o, ilkin təyinata görə istifadə edilə bilməz. Bununla belə, sığorta ödəməsi sığorta məbləği ilə xarab olmuş, korlanmış məhsulun sığortalı tərəfindən hesablanmasından əldə olunan gəlir arasında fərqi təşkil edir. Sığortalanmış obyektin qiymətləndirmə dərəcəsinə uyğun olaraq sığorta məbləği də ödənilə bilər.

TAM QEYRİ-ELASTİK TƏKLİF – qiymətin dəyişməsi nəticəsində mal təklifinin dəyişməsini nəzərdə tutmayan vəziyyət; qiymətlərdən asılı olmayaraq təklifin həcminin eyniliyi (bax: sxem 1).

TAM ORTAQLIQ – hüquqi şəxsin təşkilati-hüquqi forması; iştirakçıları (ortaqları) öz aralarında bağlanmış müqaviləyə müvafiq şəkildə ortaqlığın adından sahibkarlıq fəaliyyəti ilə məşğul olurlar. Ortaqlığın öhdəliklərinə görə, onlara məxsus olan əmlak həcmində məsuliyyət daşıyan təsərrüfat ortaqlığıdır. Şəxs yalnız bir tam ortaqlığın iştirakçısı ola bilər.

Tam yoldaşlığın tipik strukturu



Sxem 1

Tam ortaqlıq təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin ən qədim təşkilati-hüquqi formalarından biridir. Bu forma şəxsi elementi ən güclü şəkildə ifadə edir və əksinə, ortaqlığın öhdəliklərinə görə iştirakçıların məsuliyyətinə məhdudiyyət yoxdur. Buna görə də tam ortaqlıq formasından istifadə edilməsi onun iştirakçıları üçün yüksək risklərlə əlaqədardır. Lakin tam ortaqlığın üstünlükləri məhz bu qüsurla sıx bağlıdır.



Tam ortaqlığın kreditorlarının tələbləri təkcə məcmu kapitalla deyil, həm də ortaqların şəxsi əmlakı ilə təmin edilmişdir. Bir qayda olaraq, tam ortaqlıq kredit alınmasında çətinlik çəkmir; kommersiya tərəfdaşlarının etimadını qazanır. Çünki onun iştirakçıları tərəfindən qəbul olunan əmlak riski onların niyyətlərinin ciddi və müəssisənin sanballı qurum olmasına dəlalət edir. Mühüm məqamlardan biri də ondan ibarətdir ki, tam ortaqlıq barəsində qanunvericilikdə imperativ göstərişlərin sayı nisbətən çox deyil, iştirakçıların öz münasibətlərini onlardan ötrü ən məqbul qaydada tənzimləmələrinə imkan verilir. Tam ortaqlığın təşkilati strukturu son dərəcədə sadədir və praktiki olaraq idarəetmə ilə bağlı məsrəflər tələb olunmur. Nəhayət, tam ortaqlıqların fəaliyyətinin nəticələrinin və hesabat sənədlərinin dərc edilməsi barədə heç bir tələb irəli sürülmür.

Tam ortaqlığın tərifində beş mühüm xarakteristika vardır: a) tam ortaqlığın əsasını onun iştirakçıları arasında bağlanmış müqavilə təşkil edir; b) tam ortaqlıq sahibkarlıq fəaliyyəti üçün yaradılır; yəni o, kommersiya təşkilatıdır; c) tam ortaqlıq fəaliyyətində bütün ortaqların şəxsi iştirakı nəzərdə tutulur; ç) sahibkarlıq fəaliyyəti hüquqi şəxs olan ortaqlıq adından həyata keçirilir; d) ortaqlığın iştirakçıları onun öhdəliklərinə görə onlara məxsus olan əmlak həcmində məsuliyyət daşıyırlar.

Tam ortaqlıq təsis müqaviləsi əsasında fəaliyyət göstərir. Həmin müqavilədə tam ortaqlığın yaradılması barədə xüsusi sazişdən əlavə, ortaqlığın yaradılması üçün tərəflərin birgə fəaliyyət qaydası, əmlakın verilməsi şərtləri və ortaqlığın fəaliyyətində iştirakın şərtləri də nəzərdə tutulur. Bu dörd element hər bir təsis müqaviləsi üçün zəruridir. Tam ortaqlığın fəaliyyəti barədə qərarlar onun iştirakçıları tərəfindən yekdilliklə qəbul edilir. Əgər təsis müqaviləsində qərarların səs çoxluğu ilə qəbulu halları nəzərdə tutulmamışdırsa, belə hesab edilir ki, hər bir iştirakçı bir səsə malikdir. Lakin təsis müqaviləsində hər bir iştirakçının malik olduğu səslərin sayının təyini üçün başqa qayda da müəyyən edilə bilər. Məsələn, səslərin sayı ortaqlığın toplu kapitalında iştirakçının payından asılı olaraq, bilavasitə təsis müqaviləsində və ya ayrıca saziş vasitəsilə müəyyənləşdirilə bilər. Bununla bərabər, tam ortaqlığın iştirakçısı səsvermə hüququndan tam məhrum edilə bilməz. Tam ortaqlığın hər bir iştirakçısı ortaqlığın fəaliyyəti barədə informasiya almaq hüququna, xüsusən, uçot-hesabat sənədləri və kommersiya sənədləri ilə (müqavilələr, işgüzar yazışmalar və s.) tanış olmaq hüququna qeyd-şərtsiz malikdir.

Üçüncü şəxslərlə münasibətlərdə tam ortaqlığın təmsil edilməsi aşağıdakı üsullarla həyata keçirilə bilər: a) işlərin hər bir iştirakçı tərəfindən aparılması (bu halda ortaq əvvəlcədən o biri ortaqların buna razılığını soruşmadan ortaqlıq adından əqdlər bağlamaq hüququna malikdir); b) işlərin bütün iştirakçılar tərəfindən birgə aparılması (bu

halda əqdin bağlanması üçün bütün ortaqların ilkin razılığı tələb olunur); c) işlər bir və ya bir neçə ortaq tərəfindən aparılır (bu halda təsis müqaviləsinə əsasən, müvəkkil edilmiş hər bir ortaq o biri ortaqların ilkin razılığı olmadan ortaqlıq adından əqdlər bağlamaq hüququna malikdir); ç) işlərin bir neçə ortaq tərəfindən birgə aparılması (bu halda hər bir əqdin həyata keçirilməsi üçün təsis müqaviləsinə əsasən işlərin aparılması üçün müvəkkil edilmiş ortaqların ilkin razılığı tələb olunur).

Ortaqlıq daxilində mövcud olan səlahiyyətlərin məhdudlaşdırılmasından üçüncü şəxslər (ilk növbədə, ortaqlığın kontragentləri) zərər çəkməməlidirlər. Buna görə də qanunda nəzərdə tutulmuşdur ki, ortaqlıq üçüncü şəxslərlə münasibətlərdə üçüncü şəxsin həqiqətən haqsız hərəkət etməsini, yəni əqd bağlanarkən ortaqlıq iştirakçısının ortaqlığın adından fəaliyyət göstərmək hüququna malik olmadığını bildiyini və ya bunu bilməli olduğunu sübut etməsə, ortaqlığın iştirakçılarının səlahiyyətlərinin məhdudlaşdırılmasına istinad edə bilməz. Ortaqlıq kontragentin haqsız olmasını sübut etməyənə qədər o, lazımi səlahiyyətlərə malik olmayan iştirakçısı tərəfindən bağlanmış əqd üzrə öhdəlikləri yerinə yetirməyə borcludur.

Tam ortaqlıq iştirakçısının öhdəliklərini iki növə bölmək olar: tam ortaqlığın fərdi xarakteri ilə şərtlənən öhdəliklər və bütün təsərrüfat ortaqlıqlarının, təsərrüfat cəmiyyətlərinin iştirakçıları üçün ümumi olan öhdəliklər. Tam ortaqlığın fəaliyyətində iştirak etmək və ortaqlıqla rəqabətdən çəkinmək öhdəlikləri birinci qismə aiddir. Öhdəliklərin ikinci qismi təsis müqaviləsindəki üzvlük haqqını tam həcmdə və vaxtında ödəməyi və ortaqlığın fəaliyyəti barədə məxfi informasiyanı yaymaqdan çəkinməyi nəzərdə tutur.

Tam ortaqlığın mənfəətinin və zərərlərinin onun iştirakçıları arasında bölünməsi qaydası onların mülahizəsinə həvalə edilir. Lakin ortaqlığın iştirakçısı mənfəət almaqdan tamamilə kənarlaşdırıla bilməz və ya zərərlərin yükünü çəkməkdən tam azad edilə bilməz. Qanun həm mənfəətin, həm də zərərlərin ortaqlığın məcmu kapitalında iştirakçıların paylarına uyğun olaraq bölüşdürülməsi qaydasını müəyyən edir. Əgər ortaqlığın düşdüyü zərər nəticəsində onun xalis aktivlərinin həcmi toplu kapitalın həcmindən az olmuşdursa, xalis aktivlərin dəyəri məcmu kapitalın həcmindən çox olmayınca, ortaqlığın mənfəəti iştirakçılar arasında bölüşdürülə bilməz.

Ortaqlığın öhdəliklərinə görə onun bütün iştirakçılarının birgə məsuliyyəti tam ortaqlığın əsas fərqləndirici cəhətlərindən biridir. Tam ortaqlıq adı məhz bu xüsusiyyətlə bağlıdır. Ortaqların birgə məsuliyyəti subsidiar xarakter daşıyır, yəni kreditor ortaqlığın iştirakçılarından əvvəl ortaqlığın özünə tələb təqdim etməlidir.

İştirakçının məsuliyyəti, hətta iştirakçı ortaqlığa daha gec daxil olduqda belə, ortaqlığın təsis edildiyi andan etibarən yaranmış bütün öhdəliklərinə şamil olunur. Yeni iştirakçı tam ortaqlığa daxil olmaqla ortaqlığı bütöv şəkildə, o cümlədən onun bütün öhdəlikləri ilə birlikdə qəbul edir. Ortaqlıqdan çıxmış iştirakçı onun ortaqlıqdan çıxdığı il üçün ortaqlığın fəaliyyəti barədə hesabatın təsdiq edildiyi gündən etibarən iki il müddətində onun çıxdığı ana qədər ortaqlığın öhdəliklərinə görə o biri iştirakçılarla bərabər cavabdehlik daşıyır. Kreditor ortaqlıqla münasibətlərə daxil olarkən, onun tərkibinin saxlanacağına ümid edir və gələcək tutulmaların ehtimalını buna müvafiq olaraq qiymətləndirir.

Tam ortaqlığın ləğv edilməsi ümumi əsaslar üzrə həyata keçirilir. Bundan əlavə, əgər tam ortaqlıqda yeganə iştirakçı qalarsa, bu cür tam ortaqlıq ləğv edilir. Lakin bu cür iştirakçıya altı aylıq güzəştli möhlət verilir. Bu müddət ərzində o, məsələn, öz payının bir hissəsini başqa şəxsə verməklə, yaxud tam ortaqlığın məhdud məsuliyyətli cəmiyyətə, əlavə məsuliyyətli cəmiyyətə və ya səhmdar cəmiyyətinə çevirməklə vəziyyəti tənzimləyə bilər.

TAMDƏYƏRLİ OLMAYAN İTTİFAQ – maliyyə bazarlarının iştirakçılarının bir qrup halında formal birliyi. Bu qrupun üzvləri bir-birindən asılı olmadan fəaliyyət göstərirlər.

TAMDƏYƏRLİ OLMAYAN SİKKƏLƏRİN ZƏRB EDİLMƏSİ – məlumdur ki, müxtəlif sikkələr eyni funksiyaya malikdir, lakin dövlətin pul tədavülündə onların oynadığı rol eyni deyildir. Bu baxımdan həm tamdəyərli, həm də tamdəyərli olmayan sikkələri fərqləndirmək lazımdır. Tamdəyərli sikkələrin



V-VI əsrlərdə franklar dövləti hərbi qənimət kimi və hərbi kömək etdiklərinə görə mükafat formasında çoxlu miqdarda qiymətli metallar əldə etmişdilər. Bu onlara Qərbi Avropada ilk olaraq sikkə zərb etmək imkanı vermişdi.



Herodot təsdiq edir ki, ilk sikkələr Kiçik Asiyanın qərbində – Lidiyada zərb olunmuşdu. B.e.ə. 685-652-ci illərdə qızıl və gümüş ərintilərindən hazırlanmış sikkələr tapılmışdı.







dəyərli olmayan 1 rubl və daha az nominal dəyərli sikkələr zərb edilirdi. Bu halda gümüş rubl faktiki olaraq qızıl rublla 70 "kopeyka"ya ekvivalent idi. Bazar qiymətinə müvafiq olaraq dəyəri 5 "kopeyka"dan 20 "kopeyka"ya qədər olan xırda gümüş sikkələrin ümumi məbləği 1 rubl olduğu halda, onların həqiqi dəyəri qızıl pulla cəmi 36 "kopeyka"ya, misdən hazırlanmış sikkələrin 1 rublunun dəyəri isə qızıl pulla 24 "kopeyka"ya bərabər idi. Lakin buna baxmayaraq, bütün qeyri-qızıl (gümüş və mis) sikkələr onların faktiki dəyəri deyil, nominal dəyəri üzrə qızıl pulun nümayəndələri kimi tədavüldə idi.

Tamdəyərli və tamdəyərli olmayan sikkələrin zərb edilməsi qaydası pulun bu iki növü üçün müxtəlifdir. Tamdəyərli sikkələr üçün sərbəst zərbetmə praktikası, tamdəyərli olmayan sikkələr üçün isə qapalı zərbetmə sistemi xarakterikdir. Dövlət həmin sikkələri yalnız dövlət xəzinəsində olan metaldan hazırlayır.

Qapalı zərbetmənin əhəmiyyəti aşağıdakılardan ibarətdir:

1) bu cür sikkələr yalnız dövlət xəzinəsinə, dövlətə gəlir gətirir;

2) tamdəyərli olmayan sikkələr buraxılışına məhdudiyyət qoymağa və onların dövriyyə kanallarını doldurmasına yol verilməməsinə imkan yaradır;

3) bundan əvvəlki bəndə əsasən, sikkələrin qapalı üsulla zərb edilməsi tamdəyərli olmayan sikkələrin tamdəyərli sikkələri pul dövriyyəsindən sıxışdırıb çıxarmasına imkan vermir.

TAMDƏYƏRLİ PULLAR – 1. Nominal dəyəri onların tərkibindəki nəcib metalın dəyərinə müvafiq olan həqiqi (metal) pullar. 2. Barəsində sərəncam verilməsi mümkün olan pullar. Tamdəyərli pullar tarixən pulun bütün funksiyalarını yerinə yetirirdi və ümumi ekvivalent idi. Müasir dövrdə tamdəyərli metal pullardan praktikada istifadə edilmir. Tamdəyərli pullar təqribən XX əsrin əvvəlində tədavüldən çıxmış, 1976-cı ildə isə qızılın tamamilə demonetizasiyası baş vermiş və tamdəyərli pulların öz funksiyalarını yerinə yetirməsinə artıq son qoymuşdur.

Hazırda adi danışıqda istifadə edilən "tamdəyərli pullar" anlayışı ikinci mənada, müəssisələrin hesablarında olan və onların sərəncam verə biləcəyi pul vəsaitlərini bildirir ("dondurulmuş" hesabların əksi).

TANTYEMA (fr. *tantieme*) – xalis mənfəətdən firmanın ali vəzifəli qulluqçularına (səhmdar cəmiyyətlərinin idarə heyətinin üzvlərinə, direktorlara, menecerlərə və başqalarına) ödənilən əlavə haqq. Firmanın mülkiyyətçiləri üçün tantyema müdirlərin opportunist davranışından sığortalanmanın bir forması.

TAPŞIRIQ QRUPU (*Engagement team*) – audit tapşırığının yerinə yetirilməsi ilə məşğul olan bütün şəxsi heyət, o cümlədən auditor təşkilatı tərəfindən həmin tapşırığın yerinə yetirilməsi ilə bağlı müqavilə əsasında cəlb edilmiş ekspertlər.

TAPŞIRIQ MÜQAVİLƏSİ – bu müqaviləyə əsasən, tərəflərdən biri (etibar edən) digər tərəfə (etibar edilənə) etibar edənin hesabına müvafiq haqq müqabilində müəyyən hüquqi əməliyyatlar aparılmasını tapşırır. Müqavilədə onun qüvvədə olma müddəti göstərilə də bilər, göstərilməyə də.

Tapşırıq müqaviləsinə aşağıdakı hallar nəticəsində xitam verilə bilər:

etibar edənin etibar edilənə tapşırığının ləğv olunması;




etibar edilənin tapşırığı yerinə yetirməkdən imtinası;
müqavilə iştirakçılarından birinin vəfat etməsi;
tərəflərdən birinin fəaliyyəti qabiliyyətsiz, məhdud fəaliyyət qabiliyyətli sayılması və ya itkin düşməsinin sübut edilməsi.
Etibar edilən tərəfindən həyata keçirilən əqd üzrə bütün hüquq və öhdəliklər etibar edəndə qalır.

TAPŞIRIQ SƏNƏDLƏRİ (*Engagement documentation*) – mütəxəssis tərəfindən görülmüş işlərin, əldə edilmiş nəticələrin və mühakimələrin qeydə alınması (bəzən "işçi sənədlər" və ya "iş sənədləri" terminlərindən də istifadə olunur). Ayrı-ayrı audit tapşırığı üzrə sənədlər həmin tapşırıq üçün nəzərdə tutulmuş qovluqda toplanılır.

TARAZLIQ – müəyyən bir qiymətdə tələbin həcminin təklifin həcminə bərabər olduğu vəziyyət. Tarazlıq miqdarı – tarazlıq qiymətində tələbin və təklifin həcmi.

TARAZLIQ QİYMƏTİ – tələb həcminin təklif həcminə bərabər olduğu qiymət. Tarazlıq qiyməti əmtəənin (xidmətin) tələb və təklifini balanslaşdırır, tələb və təklifin həcminin dəyişməsinə özünün dəyişməsi ilə reaksiya verir.
Tarazlıq qiyməti alıcıya informasiya verərək onun tələbini səmərəli edir. Bu informasiyada alıcının öz gəlir səviyyəsinin əmtəə ilə tarazlaşdırılaraq, həmin əmtəənin istehlakının hansı həcmdə nəzərdə tutulması göstərilir. Tarazlıq qiyməti isə istehsalçım (satıcını) məlumatlandırır ki, o nə qədər əmtəəni bazar üçün hazırlaya və göndərə bilər. Bu zaman potensial xeyrin müəyyən edilməsi üçün öz xərclərinin səviyyəsi ilə qiyməti tarazlaşdırır. Beləliklə, tarazlıq qiyməti nisbi kəsir və ya artıqlıq yaranmayan zaman bazarın ümumi balans vəziyyətini saxlayan istehsalçının və alıcının maraqlarını əlaqələndirir (bax: qrafik 1).

Bazarda müvazinətin qrafiki. Qiymət tarazlığının əhəmiyyəti tələb və təklif əyrisinin genişlənməsi nöqtəsində müəyyən edilirsə, tələb və təklifin özünün kəmiyyətcə müəyyən edilməsi fövqəladə dərəcədə mühüm əhəmiyyət daşıyır. Bu məqsədlə tələb funksiyası tələbin həcmini müəyyən edən amillərdən, yəni həmin əmtəənin və digər əmtəələrin qiymətindən, alıcıların gəlirlərindən, zövqlərindən və yığılmış əmlakının kəmiyyətin-



Qrafik 1

dən asılılığı ilə müəyyən edilir. Eyni zamanda təklif funksiyası təklifin bir sıra amillərinin, o cümlədən həmin əmtəənin və digər əmtəələrin qiymətlərindən, tətbiq olunan texnologiyanın xarakterindən, vergilərdən və dotasiyadan, təbii-iqlim şəraitindən asılı olaraq müəyyən edilir. Bir qayda olaraq, tarazlıq qiyməti inzibati qaydada müəyyən edilmir. Lakin bazar iqtisadiyyatı şəraitində bu qiymətlər əgər bazarın özü sabit və stabildirsə, davamlı sabitliyi saxlaya bilər.

TARGETLƏMƏ (ing. *target* – hədəf) – zəruri hallarda dövriyyədə olan və kreditə verilmiş pul kütləsinin artımına nəzarət etməyə yönəlmiş hərəkətlər. Bu halda dövlətlərin mərkəzi bankları öz siyasətlərini müəyyən məqsədlərə yönəltmiş olur. Targetləmə 1970-ci illərdə inflyasiyanın kəskin güclənməsi, kapitalist iqtisadiyyatında böhran proseslərinin kəskinləşməsi, pul-kredit tənzimləməsinin keynsçi nəzəriyyəsinin böhrana uğramasının təsiri altında geniş yayılmışdır. Targetləmənin nəzəri əsasını təşkil edən monetarizmə görə, mərkəzi bank tərəfindən pul kütləsinə nəzarət edilməsi və onun artımının real ÜDM artımının sürəti ilə məhdudlaşdırılması inflyasiyaya qarşı mübarizənin və bütövlükdə iqtisadiyyatın sabitliyinin təmin edilməsinin mühüm elementləri hesab olunur.

TARİ – aşağı İtaliyada pul vahidi. Normanlar dövründə 1 rubl 13 qəpiyə bərabər olmuşdur. Sonralar Siciliyada gümüş sikkə şəklində tədavüldə olan tari dukatın 1/10 hissəsinə bərabər idi və 16 qəpiyə ekvivalent hesab edilirdi. Maltada taridən daha çox xırda pul vahidi kimi istifadə edilirdi. Lakin onu qızıldan və gümüşdən kəsirdilər.

TARİF (ing. *tariff*) – əhaliyə və müəssisələrə, şirkətlərə, təşkilatlara, idarələrə təqdim edilən müxtəlif istehsal və qeyri-istehsal xidmətləri müqabilində ödəniş dərəcələri sistemi; əməyin ödənilməsi dərəcələri sistemi tarif dərəcəsi adlanır.

TARİF DƏRƏCƏLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ SAHƏSİNDƏ SİYASƏT – bu siyasətin mahiyyəti ondan ibarətdir ki, sığorta tariflərinin kəmiyyəti bağlanmış müqaviləyə görə sığorta riskinin dərəcəsinə uyğun gəlməlidir.

TARİF ƏLAMƏTLƏRİ – sığorta tariflərinin müəyyən edilməsi zamanı nəzərə alınan risk amilləri.

TARİF ƏMSALI – işçinin peşə keyfiyyətlərinin daha dəqiq müəyyən edilməsi və onun əməyinin qiymətləndirilməsi üçün əməyin tarif ödənişi sistemi üzrə tətbiq edilən əmsal. Vahid tarif sisteminin (VTS) məqsədi qeyri-istehsal sahələrinin – səhiyyə, təhsil, elm, mədəniyyət, əhalinin sosial müdafiəsi və digər sferaların işçilərinin maddi vəziyyətini yaxşılaşdırmaq və onların əmək haqlarının stimullaşdırıcı rolunu gücləndirməkdir. VTS əməyin ödənilməsi üzrə 18 tarif dərəcəsini ehtiva edir. Birinci dərəcəli tarif dərəcəsinin (stavkasının) ölçüsü hökumətin qərarı ilə müəyyən olunur. İşçilərin peşələri onların iş və peşələrinin Vahid tarif ixtisası sorğu kitabçalarına uyğun olaraq tarifləşir. Əməyin ödənilməsi dərəcələri isə 1-ci dərəcədən 18-ci dərəcəyə qədər VTS əsasında müəyyən olunur. 1-ci dərəcəli işçinin tarif dərəcəsini (maaşını) müvafiq əmsala – 1,0-dən 10,7-yə vuraraq digər dərəcələrin ödəmə dərəcəsini almaq olar.

TARİF GÜZƏŞTLƏRİ (tarif preferensiyaları) – ölkənin ticarət siyasəti həyata keçirilərkən qarşılıqlı və ya birtərəfli qaydada bu ölkənin gömrük sərhədindən keçirilən mallar üzrə əvvəl ödənilmiş rüsumun qaytarılması, rüsum ödənişindən azadetmə, rüsum dərəcələrinin aşağı salınması, malın preferensial gətirilməsi (çıxarılması) üçün tarif kvotaları şəklində verilən güzəştlər.




TARİF MƏHDUDİYYƏTLƏRİ – müxtəlif ölkələrdə müəyyən malların idxalını və ixracını çətinləşdirən gömrük tarifi sistemi; bir çox hallarda xarici rəqiblərə münasibətdə diskriminasiya xarakterinə malik olmur.

TARİF MƏSAFƏLƏRİ – daşıma haqqının müəyyən edilməsi zamanı hesaba alınan daşıma məntəqələri arasında məsafələr.

TARİF SİSTEMİ – normativlərin məcmusudur ki, onların köməyi ilə cəmiyyət, sahə, ərazi, ayrı-ayrı müəssisələr miqyasında əmək haqqının təşkili həyata keçirilir. Tarif sistemi əsasında fəhlələrin, mütəxəssislərin və qulluqçuların əməyinin mürəkkəbliyinin, məsuliyyətinin, şəraitinin ödənilməsi ölçüləri qiymətləndirilir. Tarif sistemi tarif dərəcələrindən (stavkalarından) və onlara əlavələrdən, tarif şəbəkələrindən (cədvəllərindən), vəzifə maaşları sxemlərindən, tarif-ixtisas sorğu kitabçalarından ibarətdir. Tarif dərəcəsi müəyyən edilmiş iş normasının yerinə yetirilməsi zamanı vaxt vahidi ərzində fəhlənin əməyinin ödənilməsinin ölçüsünü müəyyənləşdirir: tarif dərəcələrində ən mühüm cəhət – qanunvericiliklə müəyyən olunmuş minimum əmək haqqıdır ki, bundan ödəniş edilməsi qadağandır. Tarif dərəcəsi – əvvəlkinə və ya birinci dərəcəyə münasibətdə hər bir sonrakı dərəcənin tarif sistemi nisbəti şkalasıdır. Bu nisbətlər dərəcələrarası kimi, birinci və sonuncu dərəcələr arasında – tarif şəbəkələri diapazonu kimi ifadə olunur. Dərəcələrarası nisbətlər faiz və mütləq, artan və azalan formada ola bilər. Onların kəmiyyəti dərəcələr üzrə ixtisaslarda fərqlərin qiymətləndirilməsini əks etdirir. İxtisas dərəcəsinin verilməsi xarakteristikaların köməyi ilə həyata keçirilir ki, bu zaman işçi tarif-ixtisas kitabçalarında olan hər bir peşədə (vəzifədə) göstərilənləri bilməli və bacarmalıdır. Dövlət tərəfindən yalnız Vahid tarif şəbəkəsi tənzimlənir ki, bu da büdcə sferası sahələri, eləcə də dövlət qulluqçularının əməyinin ödənilməsi üçün nəzərdə tutulmuşdur (bax: sxem 1, 2).


TARİF ŞƏBƏKƏSİ – görülən işlərin (təqdim edilən xidmətlərin) mürəkkəblik dərəcəsindən və keyfiyyətindən, eləcə də işçilərin ixtisas səviyyəsindən asılı olaraq əmək haqqı məbləğinin diferensiasiyası. Tarif şəbəkəsi tarif dərəcələrindən və əmsallardan ibarətdir. Sənaye sahələrinin çoxunda 6 dərəcəli tarif şəbəkəsindən istifadə edilir. Buna görə də mürəkkəblik dərəcəsi ən aşağı olan işlər birinci dərəcəyə, ən mürəkkəb işlər isə 6-cı dərəcəyə aid edilir.

TARİFLƏR VƏ TİCARƏT ÜZRƏ BAŞ SAZİŞ (*General Agreement on Tariffs and Trade, GATT*) – ticarət rejimi haqqında çoxtərəfli beynəlxalq saziş.



Sxem 1

Əmək haqqının tarif modeli



Sxem 2

1947-ci ildə 23 ölkə tərəfindən imzalanmışdır. 1948-ci ildən fəaliyyət göstərir. 1995-ci ilin yanvarından Ümumdünya Ticarət Təşkilatıdır (ÜTT). Yerləşdiyi şəhər Cenevrədir.

GATT-nin rəsmi məqsədi – gömrük və digər ticarət məhdudiyyətlərinin azaldılması vasitəsilə beynəlxalq ticarətin inkişafına, ticarətdə hər hansı bir ayrıseçkilik formalarının aradan qaldırılmasına, qarşılıqlı güzəştlər əsasında mübahisəli məsələlərin həllinə təsir göstərməkdir.

Əsas prinsiplər: ticarətdə ən yüksək əlverişlilik rejimi, milli rejim, ədalətli rəqabət, müstəsna olaraq ticarətin tənzimlənməsinin tarif metodlarından istifadə, inkişaf etməkdə olan ölkələrdə güzəştli rejim.

Sazişin fəaliyyət göstərdiyi müddətdə gömrük tariflərinin xeyli azaldılmasına nail olunmuş və ticarətin liberallaşmasına, inkişaf etməkdə olan ölkələrin ixracının stimullaşmasına dair bir sıra tədbirlər həyata keçirilmişdir.

GATT-nin rəhbər orqanlarına razılaşan tərəflərin Şurası, Nümayəndələr Şurası (cari məsələlər), daimi komitələr, işçi qruplar, baş direktor tərəfindən rəhbərlik edilən katiblik daxil idi.

1947-1994-cü illər ərzində sazişin üzv ölkələri tərəfindən dünya ticarətinin liberallaşması və ticarət maneələrinin aradan qaldırılması məqsədilə çoxtərəfli ticarət danışıqlarının səkkiz raundu keçirilmişdir.

Son "Uruqvay raundu" (1986-1994) nəticəsində GATT-ni əvəz edən ÜTT-nin yaradılması haqqında saziş imzalanmışdır.

TARİFLƏRLƏ GƏLİR – brutto tarif dərəcəsinin elementi. Bazar şəraitində sığorta təşkilatının işinə səbəb olur. Tarif mənfəətinin ölçüsü sığortanın inkişafı üçün zəruri olan vəsaitlərdə sığortaçının tələbatı ilə diktə olunur. Tarifin tənzimlənməsi, bir qayda olaraq, mənfəət hesabına həyata keçirilir. Belə ki, tarifin bütün qalan elementləri obyektiv olaraq şərtlənir. Tariflə mənfəətin payı faizlərlə təcəssüm oluna və ya qəti məbləğdə müəyyən edilə bilər (bax: cədvəl 1, 2, 3).

TARİFLƏŞMƏ SİSTEMİ – sığortalanan obyektlərin kateqoriyalarını, risk amillərini (tarif əlamətləri), tarif şəbəkələrini və onların tətbiqi şərtlərini müəyyən edən müddəaların məcmusu.

TARİFSİZ SİSTEM – əməyin ödənilməsinin bu sistemində işçinin və ya işçilər qrupunun qazancı bilavasitə kollektivin fəaliyyətinin son nəticəsindən asılıdır. Əməyin ödənilməsinin bu cür paylama növü şəxsi və kollektiv maddi maraqları birləşdirir. Çünki hər bir işçinin əmək haqqı bütövlükdə kollektivin qazanmış olduğu əmək haqqı fondunun bir hissəsidir.

Əməyin ödənilməsinin tarifsiz sistemi üçün səciyyəvi əlamətlər:

Cədvəl 1

Əhaliyə verilən təbii qaza olan tariflər (avro ilə orta qiyməti)

İstehlak	İldə 15000[1] kVt/s-dək (və yaxud 1380 m^3 ildə)	İldə 30000 kVt/s-dək (və yaxud 2760 m^3 ildə)
Avstriya	0,0611	0,0529
Belçika	0,0450	0,0389
Bolqarıstan	0,0351	0,0244
Kipr	–	–
Çexiya	0,0451	0,0431
Danimarka	0,1011	0,1013
Estoniya	0,0337	0,0319
Finlandiya	–	–
Fransa	0,0593	0,0486
Almaniya	0,0538	0,0458
Yunanıstan	–	–
Macarıstan	0,0486	0,0492
İrlandiya	0,0465	0,0388
İtaliya	0,0500	0,0445
Latviya	0,0245	0,0204
Litva	0,0397	0,0284
Lüksemburq	0,0446	0,0366
Malta	–	–
Niderland	0,0650	0,0654
Polşa	0,0531	0,0436
Portuqaliya	0,0592	0,0568
Rumıniya	0,0252	0,0249
Slovakiya	0,0494	0,0488
Sloveniya	0,0430	0,0382
İspaniya	0,0469	0,0405
İsveç	0,1054	0,0940
Böyük Britaniya	0,0400	0,0381

Cədvəl 2

Yanacağın digər növlərinə olan tariflər (1 litrin avro ilə orta qiyməti)

İstehlak	Maye yanacaq	95 markalı benzin	Dizel yanacağı
Avstriya	0,82	1,24	1,18
Belçika	0,71	1,50	1,30
Bolqarıstan	1,05	1,15	1,18
Kipr	0,86	1,13	1,13
Çexiya	0,83	1,31	1,27
Danimarka	1,31	1,50	1,30
Estoniya	0,83	1,19	1,20
Finlandiya	0,86	1,48	1,22
Fransa	0,79	1,36	1,18
Almaniya	0,76	1,47	1,31
Yunanıstan	0,76	1,58	1,37
Macarıstan	1,26	1,31	1,26
İrlandiya	0,92	1,32	1,28
İtaliya	1,25	1,42	1,29
Latviya	0,80	1,13	1,13
Litva	0,75	1,25	1,12
Lüksemburq	0,64	1,23	1,06
Malta	0,77	1,27	1,15
Niderland	0,88	1,58	1,30
Polşa	0,78	1,20	1,15
Portuqaliya	0,92	1,44	1,23
Rumıniya	0,96	1,14	1,12
Slovakiya	0,84	1,31	1,19
Sloveniya	0,80	1,26	1,22
İspaniya	0,77	1,24	1,17
İsveç	1,22	1,47	1,39
Böyük Britaniya	0,78	1,45	1,50

* *vergilər və rüsumlar daxil olmaqla*

[1] *Təbii qazın istilikvermə qabiliyyəti elektrik enerjisinə ekvivalentdir. 1 m^3 qaz=10,78 kVt/s*

1. İşçilərin əmək haqqı işin nəticələrinə əsasən hesablanan kollektiv əmək haqqı fondundan birbaşa asılıdır (bu mənada tarifsiz sistem əməyin ödənilməsinin kollektiv sistemidir).

2. Hər bir işçiyə tətbiq edilən əmsallar onun ixtisas səviyyəsini, əvvəlki əməyinin nəticələri barədə məlumatlara əsasən ümumi fəaliyyətə verdiyi töhfəni xarakterizə edir. Bu əmsal baza əməkdə iştirak əmsalı (ƏİƏ) adlanır.

Konkret işə görə əmək haqqının müəyyən məbləği barədə işçi ilə işəgötürən arasında müqaviləyə əsaslanan kontrakt əmək haqqı sistemində tarifsiz sistemlərə aiddir. Qulluqçular üçün əməyin ödənilməsi, ştat cədvəlinə əsa-

Cədvəl 3

Avropa ölkələrində enerji daşıyıcılarının tarifləri (2011) 1 kVt/s-ın avro ilə orta qiyməti
Əhaliyə verilən elektrik enerjisinin tarifləri

İstehlak	İldə 3500 kVt/s-dək	İldə 7500 kVt/s-dək
Avstriya	0,1937	0,1769
Belçika	0,1896	0,1708
Bolqarıstan	0,0865	0,0834
Kipr	0,1666	0,1668
Çexiya	0,1455	0,1189
Danimarka	0,2462	0,2216
Estoniya	0,0928	0,0899
Finlandiya	0,1287	0,1141
Fransa	0,1215	0,1099
Almaniya	0,2282	0,2143
Yunanıstan	0,1061	0,1078
Macarıstan	0,1697	0,1541
İrlandiya	0,1714	0,1646
İtaliya	0,1946	0,2616
Latviya	0,1089	0,1054
Litva	0,0953	0,0867
Lüksemburq	0,1852	0,1688
Malta	0,1471	0,1430
Niderland	0,1735	0,2226
Polşa	0,1357	0,1264
Portuqaliya	0,1668	0,1452
Rumıniya	0,1027	0,0953
Slovakiya	0,1566	0,1608
Sloveniya	0,1324	0,1158
İspaniya	0,1720	0,1565
İsveç	0,1450	0,1482
Böyük Britaniya	0,1347	0,1179

* *vergilər və rüsumlar daxil olmaqla*

sən, onlar üçün müəyyən edilmiş məvacib və mükafat sisteminə əsaslanır. Kontrakt sistemi öz xarakteristikalarına görə vaxtamuzd-mükafat sistemini xatırladır. Bu halda gündəlik və ya saatlıq tarif stavkası əvəzinə illik və ya aylıq oklad tətbiq edilir. Qulluqçuların əməyinin xüsusiyyətləri və onların işlədiyi bölmənin xüsusiyyətləri mükafatlandırma göstəricilərinin və şərtlərinin müəyyən edilməsi zamanı nəzərə alınır.

Əməyin ödənilməsi fondu (ƏÖF)

ƏÖF işləyən əhalinin bütün kateqoriyalarına əmək haqqı ödənilməsi üçün baza mənbəyi kimi xidmət edir. ƏÖF-nin plan qiymətini təyin etmək üsulları çoxdur. Buraya işlənilmiş və işlənilməmiş vaxta görə ödəmələr, həvəsləndirici, qidalanma, mənzil, yanacaq xərcləri aiddir.

İşlənilmiş vaxta görə ödəmələrə aşağıdakılar daxildir:

1) tarif şəbəkəsindən, məvacibdən və ya işəmuzd qiymətləndirmə normalarından asılı olaraq hesablanan əmək haqqı;
2) məhsul formasında natural ödənişlər;
3) mükafatlar;
4) müxtəlif əlavələr, məsələn, peşələrin, vəzifələrin birləşdirməsinə, peşə ustalığına görə, yaxud stimullaşdırıcı əlavələr;
5) iş rejiminə, əmək şəraitinə görə kompensasiyalar və s.

İşlənilməmiş vaxta görə ödəmələr:

1) illik və əlavə məzuniyyətlər; yeniyetmələr üçün güzəştli iş saatları;
2) işçinin təqsiri ilə bağlı olmayan boşdayanmalar;
3) məcburi işburaxma halları və s.

Birdəfəlik həvəsləndirmə ödəmələrinə aşağıdakılar daxildir:

1) birdəfəlik mükafatlar;
ilin sonunda (iş stajına görə və ya işin nəticələrinə görə) ödənilən mükafatlar;
2) ştat üzrə bütün işçilərə və ya onların əksəriyyətinə ödənilən maddi yardım;
3) istifadə edilməmiş məzuniyyətə görə kompensasiyalar;
4) əməkdaşlara həvəsləndirmə vasitəsi kimi pulsuz verilən səhmlər və ya onların alınması üçün güzəştlər və s.

TAYM-ÇARTER – ticarət gəmisinin və ya onun hissəsinin müəyyən müddətə (adətən, 12 aydan çox olmayaraq) icarəyə verilməsi barədə dəniz müqaviləsi.

TAYMŞER – turizm biznesində: daşınmaz əmlaka birgə sahiblik etmək və həmin əmlakdan ödənilmiş pula mütənasib olan müəyyən vaxt ərzində istifadə imkanı. İstifadə vaxtı üç "rəng" üzrə qruplaşdırılmış (qırmızı – ən bahalı, ağ və mavi) və tələbatın mövsümlər üzrə dinamikasını əks etdirən həftələrlə ölçülür. Kondominimuma (yəni birgə əmlakın) sahibi, daha doğrusu, şəriki onun aldığı apartamentlərdə "öz" həftələrində dincələ bilər, yaxud istirahətin yerini "öz rəngi" daxilində analoji yerlə dəyişə bilər.

TAYMŞİT – xarici dəniz daşımaları zamanı gəminin yüklənməsi və ya boşaldılmasına gedən faktiki vaxtın müddəti qeyd edilən dəniz sənədi.

TEXNİKANIN ETİBARLILIĞI – məhsulun (texnikanın müəyyən növünün, məmulatın və ya onun tərkib hissələrinin) keyfiyyət göstəricisi. Müəyyən dövr ərzində konkret istismar şəraitində müəyyən funksiyaları fasiləsiz yerinə yetirmək qabiliyyətini əks etdirir.

TEXNİKİ (TEXNOLOJİ) YENİLİKLƏR – iqtisadiyyatın mövcud texnoloji ukladını və səmərəliliyini kökündən dəyişdirən, yaxud əhəmiyyətli dərəcədə yaxşılaşdıran yeni məmulatlar, texnologiyalar, metodlar və s.

TEXNİKİ İNVENTARİZASİYA BÜROSU (ing. *BTİ Bureau Technical İnventory* – Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti) – yaşayış yerlərinin: binaların texniki sənədləşməsini, uçotunu aparan xüsusi dövlət və bələdiyyə təşkilatları. Daşınmaz əmlakla əməliyyatlar həyata keçirmək üçün bürodan evlərin – binaların ölçüləri, inventar qiyməti, mərtəbələr üzrə planları və s. haqqında arayış götürülür.

Büro aşağıdakı öhdəlikləri daşıyır:

– mənzil fondunun texniki inventarlaşmasını və pasportlaşmasını həyata keçirmək;

– yaşayış tikililərinin və binalarının texniki vəziyyətinə nəzarət etmək;

– yaşayış tikililərinin və binalarının qiymətləndirilməsini və yenidən qiymətləndirilməsini aparmaq, o cümlədən vergi məqsədləri üçün;

– məlumat və məsləhət xidmətlərini göstərmək, o cümlədən mənzil fondunun dövlət uçotu ilə bağlı digər fəaliyyəti həyata keçirmək.

TEXNİKİ RİSK – texniki amillərlə bağlı riskdir, onunla riskin sığortalanmasının müxtəlif növləri əlaqədardır. Məsələn, tikinti-quraşdırma sığortası, elektron avadanlığın sığortası. Texniki risk müxtəlif sığorta növlərinin bütöv seriyasını əhatə edən anlayışdır. Texniki riskin əsasında texniki cəhətdən sığortadan çıxma, sınma, korlanma, qəza və s. durur.

TEXNİKİ RİSKLƏRİN SIĞORTALANMASI – elmi-texniki tərəqqi ilə, istehsalın kapital tutumu sahələrinin artımı ilə əlaqədar sığorta növlərinin məcmusu. Texniki-quraşdırma sığortasını, maşınların sınmadan sığortalanmasını, buraxılışdan sonrakı zəmanət öhdəliklərinin sığortalanmasını, elektron (kompüter) avadanlığının sığortalanmasını, tikinti-quraşdırma işləri zamanı üçüncü şəxslər qarşısında məsuliyyət sığortasını və s. ehtiva edir. Texniki risklərin sığortalanması elmi-texniki tərəqqi, istehsalın kapital tutumlu sahələrinin artması şəraitində texniki cəhətdən inkişaf etmiş ölkələrin xarici ticarət dövriyyəsində müəssisələr üçün dəst avadanlığın göndərilməsi daxil olmaqla, maşın və avadanlığın ixracının xüsusi çəkisi artır. İdxalçı ölkənin ərazisində tikinti-quraşdırma, buraxılmış sazlama işlərinin istehsalı çoxalır. Texniki risklərin sığortalanması xeyli inkişaf edir ki, bu anlayışa aiddir: tikinti-quraşdırma sığortası, maşının sınmadan sığortalanması, elektrik avadanlığının sığortalanması, buraxılışdan sonrakı zəmanət öhdəliklərinin sığortalanması, tikinti-quraşdırma işləri zamanı üçüncü şəxslər qarşısında məsuliyyət sığortası. Texniki risklərin sığortalanmasına digərləri də aiddir.

TEXNİKİ SIĞORTA EHTİYATLARI – normal orta tərəddüdetmə (dəyişmə) səviyyəsində sığorta mükafatlarının daxil olmasını və zərərlərin ödənişinin tarazlaşdırılmasını nəzərdə tutur.

TEXNİKİ TƏHLİL (ing. *technical analysis*) – statistik məlumatlar əsasında qiymətlərin dəyişmə meyillərini aşkar etmək və proqnozlaşdırmaq məqsədilə qiymətli kağızların təhlili. Texniki təhlil nəticəsində bu və ya digər qiymətli kağızların alınmasının və ya satılmasının məqsədəuyğunluğu haqqında siqnallar generasiya edilir. Texniki təhlilin klassik fiqurları qiymət qrafikinin səciyyəvi fiqurları: qiymət trendi, onun xətləri, müqavimət və dəstək səviyyəsi;

trendin çevrilməsi fiqurları ("başı və çiyinləri" və s.); trendin davametmə fiqurları ("genişlənən üçbucaq" və s.).

TEXNOKRATİK NƏZƏRİYYƏLƏR – istehsalda və cəmiyyətdə idarəetmənin və hakimiyyətin mülkiyyətçilərdən və siyasətçilərdən tərəqqinin əsas "hərəkətverici qüvvəsi" kimi çıxış edən idarəetmə mütəxəssislərinə ("texnokratlara") keçməsi konsepsiyasına əsaslanan texnoloji nəzəriyyələrin əksəriyyətinin tərkib hissəsi. Texnokratik nəzəriyyələr maliyyə oliqarxiyasının hökmranlığının T.Veblen tərəfindən (texnikanın və istehsalın inkişafı mənafelərinə müvafiq olmayan bir hal kimi) tənqid edilməsi əsasında yaranmışdır. Hakimiyyətin mühəndislərə, texniklərə və idarəetmə mütəxəssislərinə verilməsi XX əsrin 30-cu illərində radikal texnokratizmin şüarına çevrilmişdi (X.Skott, S.Çeyz – ABŞ, J.Bend – Fransa). 30-40-cı illərdə idarəetmə inqilabı nəzəriyyəsinin tərəfdarları hakimiyyətin menecerlərə keçməsini bəyan etdilər. Onların fikrincə, bu, mülkiyyətçilərin ağalığına son qoyacaq və bütün kapitalizm sistemini transformasiya edəcəkdi. 50-60-cı illərdə texnokratik nəzəriyyələr Qərbi Avropada geniş yayılmış, M.Veberin "Bürokratizm nəzəriyyəsi"nin bir qədər dəyişilmiş formasını da əhatə etmişdi. İlk vaxtlarda bu nəzəriyyənin mülayim tənqidi meyli 50-ci illərdə texniki-bürokratik "neorasionalizm" konsepsiyalarında (Q.Saymons, D.Març – ABŞ) "əriyib getmişdir". Texnokratik nəzəriyyənin yeni variantı elm və texnikanı cəmiyyətin bütün problemlərinin texnokratiya sayəsində "səmərəli və ağrısız" həlli vasitəsi kimi təbliğ edən "sayentizm" ideologiyasının ifadəsi olmuşdur. 60-cı illərin axırlarında elan edildi ki, hakimiyyət menecerlərdən daha çox aparıcı korporasiyaların qərarlarını qəbul edən və dövlət bürokratiyası ilə sıx çulğalaşaraq dövləti "texnostrukturun" icra orqanına çevirən (C.Helbreyt), texnostruktur yaradan mühəndislərin, texniklərin və qulluqçuların əlinə keçmişdir. Eyni zamanda universitetlərin professorları və muzdla işləyən, lakin cəmiyyətdə müəyyən hakimiyyətə yiyələnmək istəyən alimlər tərəfindən get-gedə güclənməkdə olan "texnostruktur müxalifəti" ideyası irəli sürülmüşdü. Hakimiyyətə can atan və ya artıq hakimiyyətdə olan "meritokratiya" ("layiqli şəxslərin" hakimiyyəti) konsepsiyası "postsənaye cəmiyyəti" nəzəriyyəsinin tərkib hissəsinə çevrilmişdir. Texnokratik nəzəriyyələr üç əsas qrupdan ibarətdir. Elitar texnokratik nəzəriyyələr "cəmiyyətin elitası" (sayca artmaqda olan "texnoloji və ya yeni orta sinfi" təşkil edən savadlı adamları) tərəqqinin əsas qüvvəsi hesab edir və hakimiyyətin məhz onlara verilməsini lazım bilir. Bu baxışlar D.Bell, C.Helbreyt, Z.Bjezinski, Q.Kan, R.Aron və başqa müəlliflərin əsərlərində açıqlanmışdır. Avtoritar texnokratik nəzəriyyələr ya dövlət bürokratiyasının və korporasiyaların rəhbərlərinin "güclü əlini" "avtomatlaşdırma erasında" səmərələşmənin və planauyğunluğun zəruri şərti hesab edərək ona nail olmağa çalışır (J.Ellül – Fransa, F.Pollok – Almaniya), ya da "korporasiyalar dövləti"ni və cəmiyyəti şəriksiz idarə edən "totalitar texnokratiya" üzərinə solçu radikal mövqelərdən həmlə edir (Ç.Reyç – ABŞ). Üçüncü qrup – burjua-demokratik texnokratiya nəzəriyyəsi texnokratiyanın "tarixi xidmətləri" konsepsiyasını zəhmətkeş kütlələrinin ümumi mədəni inkişafının çox böyük əhəmiyyətinin qəbulu ilə əlaqələndirməyə çalışır, onu əsas məhsuldar (və hətta ictimai) qüvvə hesab edir (P.Draker – ABŞ).

TEXNOKRATİYA (yun. *tehne* – ustalıq, *kratos* – hakimiyyət) – postsənaye cəmiyyətinin təşəkkülü prosesində xalq təsərrüfatında məşğul olan ən nüfuzlu qruplardan birinə çevrilən, iqtisadi və siyasi hakimiyyətə yiyələnən yüksək hazırlıqlı mütəxəssislər təbəqəsi. Texnokratlara, adətən, informasiyaya malik olan və onunla fəal manipulyasiya edən: a) dövlət müəssisələrində işləyən mütəxəssislər ("bürokratiya", "aparat"); b) "akademik" profilli mütəxəssislər (akademiya institutlarının və tədqiqat mərkəzlərinin alimləri, işçiləri); c) müxtəlif səviyyəli menecerlər; ç) C.K.Helbreytin təbirincə desək, "müasir korporasiyanın texnostrukturunu", "beynini" təşkil edən texniki profilli mütəxəssislər aid edilir. Texnokratiya konsepsiyası ənənəvi institusionalizm nəzəriyyəsinin mühüm tərkib hissəsidir. O, "maliyyə oliqarxiyası"nın hökmranlığının texnikanın və istehsalın inkişaf mənafelərinə müvafiq olmayan bir hal kimi Veblen tərəfindən kəs-


kin tənqidi əsasında yaranmışdır. 30-40-cı illərdə idarəetmə inqilabı nəzəriyyəsinin tərəfdarları hakimiyyətin mülkiyyətçilərdən müəssisələrin menecerlərinə keçməsini (ABŞ iqtisadiyyatında guya artıq baş vermiş bir fakt kimi) bəyan etdilər. 60-cı illərin axırlarında postsənaye cəmiyyəti nəzəriyyəsində hakimiyyətin menecerlərdən daha çox texniki profilli mütəxəssislərin və bu "texnostrukturun" yeni yaranmaqda olan müxalifətinin əlinə keçməsi barədə konsepsiya universitet professorları, akademik institutlar tərəfindən inkişaf etdirilmişdir (bax: sxem 1).

TEXNOLOGİYA (yun. *techne* – ustalıq, məharət, bacarıq və *logos* – söz, təlim) – sənayenin müxtəlif sahələrində, tikintidə və başqa sferalarda xammalın, materialların, yarımfabrikatların və istehsal edilmiş məmulatların əldə edilməsi, işlənməsi və ya emalının bütün üsullarının və qaydalarının məcmusu. Elmi üsulları və qaydaları işləyib hazırlayan və təkmilləşdirən fənn. Texnologiya (texnoloji proses) – istehsal prosesinin əsas tərkib hissəsi olan hasilat, yükün işlənməsi, emal edilməsi, daşınması, anbara vurulması, saxlanması əməliyyatları.

Müasir texnologiya istehsala texniki nəzarət məsələlərini də əhatə edir. Texnologiyalar dedikdə həm də istehsal proseslərinin təsvirləri, onların yerinə yetirilməsinə dair təlimatlar, texnoloji qaydalar, tələblər, qrafiklər, xəritələr və s. nəzərdə tutulur.

Bu texnologiyaların mühüm istiqamətlərindən biri də "E-hökumət"in dövlət idarəçiliyində tətbiqidir. Dövlət idarəçiliyinin yeni müasir sistem qaydasında həyata keçirilməsi – dövlət aparatı ilə vətəndaş cəmiyyəti arasındakı münasibətlərin texnoloji mühitini tələb edir. İnformasiya texnologiyaları bu zaman bütün prosesin ayrılmaz hissəsi olur.

Heyətin idarə olunmasında texnokrtatik yanaşmanın mahiyyəti



Sxem 1

Elektron hökumət konsepsiyası dövlət strukturlarında informasiya sahələrini bir vəhdət halında birləşdirən oxşar sistemin ölkə miqyasında yaradılmasını nəzərdə tutur və bu halda texniki proses strukturları və institusional səviyyəli e-hökumətlərin yaradılması üzrə strukturları üzə çıxarmaq çox böyük əhəmiyyət kəsb edir (bax: elektron hökumət və ya E-hökumət).

"Elektron hökumət" termini öz başlanğıcını ingilis "e-goverment" (hərfi mənada – elektron dövlət, elektron idarəetmə) terminindən götürərək, təkcə hökumətin "elektronlaşdırılmasını" deyil, həm də "elektron hökumət" ideyasının reallaşdırılmasını, onlarsız mümkün olmayan dövlət idarəçiliyi və yerli idarəetmənin bütün sistemini nəzərdə tutur. İstənilən elektron hökumət layihəsinin mahiyyəti hər hansı bir ölkədə reallaşdırıla bilər. Bu, həmişə korporativ məlumat sistemində milli səviyyədə tətbiq olunur.

E-hökumət anlayışı 1990-cı ilin əvvəllərində Qərbdə meydana çıxdı, ötən əsrin sonunda praktiki olaraq həyata keçirilməyə başlandı. "Elektron hökumət", hər şeydən əvvəl, dövlət-vətəndaş, dövlət-biznes, dövlət-dövlət arasında yeni virtual münasibətlər formasıdır. Yəni, elektron hökumət əhalinin dövlət orqanları ilə interaktiv ünsiyyətini asanlaşdırır, onları bir-birinə daha da yaxın edir. E-hökumət qurulmasının əsas prinsipləri belədir: e-hökumət həftənin 7 günü sutkada 24 saat işləyir, başqa sözlə desək, vətəndaşa xidmətin istənilən zaman kəsiyində göstərilməsini təmin edir. Məqsəd maksimum sadəlik və şəffaflıqla vətəndaşlara xidmət göstərməkdən, vahid texniki standartların, qarşılıqlı uyğunlaşmanın və məxfiliyin təmin edilməsi, informasiya təhlükəsizliyi qaydalarının yerinə yetirilməsi zamanı vətəndaşın fikirlərini danışıqsız istiqamətləndirməkdən və sairdən ibarətdir. Bu sadalanlar bürokratik əngəllərin, yaxud kağız sənədlər dövriyyəsinin azaldılmasına, vətəndaşların dövlət orqanlarına müraciət etmək və hüquqi informasiya əldə etmək üçün çəkilən xərclərinə, vaxtına, eyni zamanda vətəndaşların hüquqlarını həyata keçirmək üçün dövlətin xərclərinə qənaət etməsinə imkan verir (bax: sxem 1). Beləliklə, e-hökumətin yaradılması nəinki daha effektiv və azxərcli inzibatçılığı, həm də cəmiyyətlə dövlət arasında qarşılıqlı münasibətlərdə əsaslı dəyişikliklər vəd edir. "Elektron hökumət" vətəndaşların hakimiyyətlə, müxtəlif sosial xidmətlər, komitələr və idarələrlə, ən nəhayət, istənilən rütbə və status sahibi müdirlərlə birbaşa və açıq dialoqunu təmin etməlidir. Bu da "Elektron hökumət"i nəinki əlçatan, həm də interaktiv edir (bax: sxem 2).

"Elektron hökümət" öz inkişafının ən yüksək mərhələsində elektron demokratiya sisteminə qoşulur. Bu sistem elektron səsvermə, ümumi şəbəkə forumları, şəbəkə üzrə sosioloji araşdırmalar aparmaq və başqa imkanlar yaradır. Hazırda dünyada "elektron hökumət" quruculuğunda liderlərin sırasında Kanada, ABŞ, Sinqapur, Finlandiya və s., postsovet ölkələrində isə Baltikyanı ölkələrini, xüsusilə də Estoniyanı vurğulamaq lazımdır.

"Elektron Azərbaycan" proqramında informasiya resurslarının yaradılması, onların inteqrasiyası sistemi və təminatı çox vacibdir. İndiki mərhələdə dövlət və cəmiyyətin interaktiv qarşılıqlı təsirinin əsas alətləri olaraq rəsmi saytlar çıxış edir. Bu prosesdə "Elektron hökumət" vahid portalının yaradılması xüsusi rol oynayır. Qeyd etmək lazımdır ki, vahid informasiya məkanının mövcud olduğu və ya olmadığı zaman orqanların informasiya resurslarının effektivliyi yalnız onların özlərindən asılıdır. Bu, hər bir orqanın özünün fəaliyyəti ilə bağlı informasiyasının vaxtlı-vaxtında olması, aktuallığı, on-laynda həyata keçirilən xidmətlərin keyfiyyətinə görə məsuliyyət daşıması ilə bağlıdır.

Dövlət orqanının rəsmi saytı – sürətli, keyfiyyətli və ən əsası, hüquqi informasiyanın bilavasitə əhaliyə çatdırılması, eləcə də qanunvericilikdə təsbit edilmiş vətəndaş hüquqları və azadlıqlarının təminatı üzrə xidmətlərin göstərilməsi üçün universal informasiya kommunikasiya meydanıdır. Hazırda bir sıra dövlət orqanları öz on-layn informasiya resurslarını inkişaf etdirməkdə olduqca maraqlıdırlar ki, bu da ictimaiyyətlə qarşılıqlı əlaqənin səmərəliyini yüksəldir, həmin orqanın fəaliyyətinin həm maddi-maliyyə, həm də texniki və məzmun göstəricilərini yaxşılaşdırır. Dövlət orqanlarının saytlarının layihələri icra olunarkən "üç klik

Cədvəl 1

İnqilabi innovasiyalar

№	İnnovasiyalar	İl	Ölkə	Şirkət
Kompüterlər, informasiyalar, kommunikasiyalar				
1	İnteqral mikrosxem	1961	ABŞ	Fairchild
2	Düyməli telefon	1963	ABŞ	AT&T
3	Faks	1966	ABŞ	Xerox
4	Optik-lifli kabel	1970	ABŞ	Corning
5	Cib elektron kalkulyatoru	1971	ABŞ	Bowmar
6	Mətnin elektron emalı	1972	ABŞ	Wang
7	Mikroprosessor	1974	ABŞ	Intel
8	Lazer printeri	1976	ABŞ	IBM
9	Modem	1978	ABŞ	Hayes
10	MS-DOS əməliyyat sistemi	1980	ABŞ	Microsoft
11	Sərt disk	1980	ABŞ	Hard disk drive
12	İstifadəçinin qrafik interfeysi	1981	ABŞ	Xerox
13	Daşınan EHM	1981	ABŞ	Epson
14	Sensor panel	1983	ABŞ	Hewlett-Packard
15	Mobil telefon	1983	ABŞ	Motorola
16	Kompüter siçanı	1984	ABŞ	Apple
17	İnternetdə axtarış sistemi	1994	ABŞ	WebCrawler
18	Daşınan USB	2000	ABŞ	IBM
19	Skayp	2003	Estoniya	Skype
20	YouTube video-roliklərinin saytı	2005	ABŞ	YouTube
21	Çay paketi	1920	ABŞ	Joseph Krieger
22	Portativ elektrik feni	1920	ABŞ	Hamilton Beach
23	Ştepsel	1920	B. Britaniya	Rawlplug Co.
24	Paltaryuyan maşın	1924	ABŞ	Savage
25	Avtomatik toster	1925	ABŞ	Waters Genter Co





26	Buxarlı elektrik ütüsü	1926	ABŞ	Eldec
27	Soyuducu	1927	ABŞ	General Electric
28	Kondisioner	1928	ABŞ	Carrier Engineering Co
29	Neon işıqları	1938	ABŞ	General Electric
30	Həll olan qəhvə	1938	İsveçrə	Nestle
31	Elektrik paltar qurulayan	1938	ABŞ	Hamilton Manu-facturing Co
32	Neylon	1939	ABŞ	DuPont
33	Espresso qəhvə-maşını	1946	İtaliya	Gaggia
34	Mikrodalğalı soba	1947	ABŞ	Raytheon
35	Müştərilərə maşında xidmət göstərən yol kənarı restoranlar	1948	ABŞ	In-n-Out Burger
36	Saran plastik lifləri	1949	ABŞ	Dow Chemical
37	Poliester	1953	ABŞ	DuPont
38	Mətbəx ləvazimatı Tefal	1956	Fransa	Tefal
39	Aşırma	1957	ABŞ	Velcro
40	İdman ayaqqabısı	1958	B. Britaniya	Reebok
41	Halogen lampa	1959	ABŞ	GE
42	Mətbəx kombaynı	1960	ABŞ	Robot-Coup
43	Tetra Pak qablaş-dırılmasının tex-nologiyası	1961	İsveç	Tetra Pak
44	Alüminium banka	1963	ABŞ	Pittsburgh Brewing Co
Gigiyena, kosmetika				
45	Yapışan plaster	1921	ABŞ	Johnson& Johnson
46	Nəm salfetlər	1924	ABŞ	Kimberley-Clark
47	Kağız məhrəbalar	1931	ABŞ	Scott Paper Co.
48	Elektrik ülgüc	1931	ABŞ	Schick
49	Aerozol ballon	1947	ABŞ	Airosol Co
50	Birdəfəlik istifadə üçün uşaq bezi	1949	ABŞ	Johnson& Johnson
51	Tranzistorlu eşitmə aparatı	1952	ABŞ	Sonotone

52	Diyircəkli dezodorant	1955	ABŞ	Mum
53	Birdəfəlik ülgüc	1975	ABŞ	BIC
54	Yuyucu maye vasitə	1982	ABŞ	Procter&Gamble
	Ofis			
55	Yapışan lent	1930	ABŞ	3M
56	Diyircəkli qələm	1943	Argentina	Biro Pens
57	Korrektə edən maye (ştrix)	1951	ABŞ	Mistake Out
58	Nüsxəçıxaran maşın	1959	ABŞ	Haloid Xerox
59	"Post-it" qeydləri üçün bloknot	1980	ABŞ	3M
	Nəqliyyat			
61	Eskalator	1921	ABŞ	Otis
62	Avtomobil dayana cağında vaxt sayğacı	1935	B. Britaniya	Dual Parking Meter Co
63	Motoroller	1946	İtaliya	Piaggio
64	Reaktiv mühərrikli sərnişin təyyarəsi	1952	ABŞ	Comet
65	Təyyarələr üçün qara qutu	1958	B. Britaniya	S.Davall&Son
	Asudə vaxt			
66	Açıq havada kinoteatr	1933	ABŞ	Hollingshead
67	Ani şəkil əldə etmək üçün fotoaparat	1948	ABŞ	Polaroid
68	Televizoru uzaqdan idarə edən pult	1956	ABŞ	Zenith
69	Plastik oyuncaqlar-konstruktorlar	1958	Danimarka	Lego
70	Kukla "Barbi"	1959	ABŞ	Mattel
71	Kvars qol saatları	1969	Yaponiya	Seiko
72	Videokasetə yazma texnikası	1971	Niderland	Philips
73	Pleyer	1979	Yaponiya	Sony
74	Kubik-rubik	1980	ABŞ	Ideal Toys
75	Kompakt-disk	1982	Niderland Yaponiya	Sony Philips
76	Portativ video oyunlar	1989	Yaponiya	Nintendo




77



78



79


83



84



77	Rəqəmsal kameralar	1991	ABŞ	Kodak
78	İnternet vasitəsilə kitab ticarəti	1995	ABŞ	Amazon
79	DVD	1996	Yaponiya	Philips, Sony, Toshiba
Kommersiya, bank işi				
80	Supermarket	1930	ABŞ	King Kullen
81	Özünəxidmət mağazaları üçün araba	1937	ABŞ	Humpty Dumpty Supermarket
82	Ticarət-əyləncə kompleksi	1950	ABŞ	Northgate Mall
83	Ödəniş kartı	1950	ABŞ	Diners Club
84	Kredit kartı	1958	ABŞ	Bank of America
85	Bankomat	1967	Böyük Britaniya	Barclays Bank
86	Təcili poçt çatdırılması	1973	ABŞ	Federal Express
87	Ştrix-kod	1974	ABŞ	IBM
88	Elektron ticarət	1998	ABŞ	eBay




konsepsiyası"nın prinsiplərinə əməl olunması vacibdir.
"Üç klik konsepsiyası", yəni üç dəfə düyməyə basma konsepsiyası saytın, sadəcə mümkün maksimal informasiya dolğunluğunu deyil, həmçinin bu informasiyanın qəti strukturalizasiyasını və istifadəçinin maraqlandığı hər hansı informasiyanı üç dəfə düyməyə basmaqla tapa bilməsi üçün və ya belə informasiya olmadıqda ona uyğun yönələcəyi sayt üzrə əlverişli naviqasiyaların yaradılmasını nəzərdə tutur.
Bu prinsip ilk növbədə hətta təcrübəli internet-istifadəçilərin belə çox vaxt İKT-dən istifadəni qeyri-adekvat şəkildə dərk etdiyi rəqəmsal bərabərsizlik amilinin mənfi təsirini azaltmağa yönəldilmişdir.
Mahiyyət etibarı ilə e-hökumət subyektiv amillərin təsirini azaldaraq məmuru vətəndaşa yaxınlaşdırma üsuludur. E-hökumətin yaradılmasının ümdə məqsədi məmurla vətəndaşın bir-birini görmədən qurulan, eyni zamanda nəzarət edilən və vətəndaşa verdiyi sorğunun həll edilməsi prosesini izləmək imkanı yaratmasıdır. Cəmiyyətin bundan götürəcəyi minimum fayda isə korrupsiya və rüşvətxorluğun azalması ola bilər.



Sxem 1

XXI əsrin dövlət məmuru, sadəcə kompüterlə işləmək bacarığına malik olan dövlət qulluqçusu deyildir. O, müasir reallıqları adekvat şəkildə dərk edən, yaranan informasiya infrastrukturunda sərbəst əlaqə quran, qarşısına çıxan məsələləri əməli və hərtərəfli şəkildə həll edə bilən yeni formatlı rəhbərdir.
Bu gün dünyanın bir çox ölkələrində İKT-nın inkişafının dəqiq strategiyası olmaqla bərabər, bu sahədə hüquqi doktrina da işlənib hazırlanaraq informasiya cəmiyyətinin formalaşması ilə meydana çıxan ictimai münasibətlərin hüquqi tənzimlənməsi prinsiplərinə – şəbəkədə vətəndaşların hüquqi münasibətləri, kibercinayətlə mübarizə, dövlətin elektron xidmətləri, elektron kommersiya azadlığı kimi məsələlərə aydınlıq gətirilir. Lakin bu sahədə yanaşmalar bir-birindən köklü şəkildə fərqlənir. Məsələn, Qərbdə liberal yanaşma qəbul edilir, qanunla qadağan olunmayan hər şeyə icazə verilir, söz azadlığı təmin edilir, dövlət total nəzarəti minimuma endirilir, şəbəkədə siyasi fəallıq stimullaşdırılır. Digər tərəfdən Çin kimi dövlətlərdə şəbəkə daxilində fərqli siyasi düşüncələr qadağan edilir, şəbəkədə nəinki qanunsuz, həm də zərərli informasiyalara qadağa qoyulur. Bununla belə elektron ticarəti stimullaşdırılır, elektron idarəçiliyin keyfiyyəti artırılır, yüksək texniki təhlükəsizliyə diqqət yetirilir. Çinin nümunəsi onun tarixi təcrid ənənəsinə və ölkənin dövlət-siyasi doktrinasına əsaslanır. Ona görə də Çin cəmiyyəti tərəfindən bu, təbii qarşılanır.
Ölkəmizdə əldə edilmiş təcrübə göstərir ki, "Elektron hökumət"in formalaşdırılması mərhələli, pilot layihələr və tipik həllər vasitəsilə reallaşdırılır, cəmiyyəti buna hazırlamaq məqsədilə müvafiq yanaşmalar tətbiq olunur. Hazırda ölkə başçısı cənab İlham Əliyevin tapşırığı ilə bir sıra irimiqyaslı



Sxem 2

layihələr həyata keçirilir, elektron təhsil, elektron xəbərlər, elektron-ticarət, elektron-bank və rayonlarda yerləşən orta məktəblər yüksəksürətli internetlə təmin edilir. Bu da əhali üçün vacib və rəngarəng xidmətlərin həyata keçirilməsinə imkan yaradır.

"E-hökumət"i inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, informasiya və bilikləri hansı qrup insanlar keyfiyyətlə əldə edirlərsə, o insanlar öz sosial-iqtisadi vəziyyətini daha sürətlə yaxşılaşdırarlar, inkişaf edərlər. Bu, həm dövlətlərarası, həm də dövlətlər daxilində baş verir.

Rəqəmsal fərq, qeyri-bərabərlik adı ilə məşhurlaşan problem insanların informasiya əldə etmək, onunla işləmək, ondan istifadə hüququ üzrə imkanların müxtəlifliyidir. İnformasiya resurslarından və yüksək texnologiyalardan istifadə imkanı üzrə bu qeyri-bərabərlik, informasiya cəmiyyəti üzrə bütün dünya tərəfindən bu günün və gələcəyin problemi kimi əsas müzakirə obyektidir. Ölkələr arasında mövcud olan ümumi inkişaf fərqindən asılı olaraq, bir qrup insan informasiya resurslarından daha geniş istifadə imkanına malikdir, bir qrup insan isə bu imkanlardan ya müəyyən məhdudiyyətlərlə istifadə edir, ya da tamamilə məhrumdur.

Azərbaycan Prezidenti İlham Əliyev qeyd etmişdir ki, ölkəmizdə İKT neftdən sonra ikinci prioritet sahədir, bu sahənin sürətlə inkişafı "e-hökumət"in yaradılmasında ən böyük önəm daşıyır. "E-hökumət"lə bağlı qanunvericilik bazasında müəyyən qanunlar qəbul edilib və eyni zamanda bu sahədə qəbul olunmuş qanunlar bizi e-hökumətin qurulması istiqamətində hazırlıqlı

olduğumuzu göstərir. Ölkəmizdə informasiya cəmiyyətinin qurulmasına və ümumilikdə dövlətimizin inkişafına xidmət edən "İnformasiya əldə etmək haqqında", "Elektron imza və elektron sənəd haqqında", "Elektron ticarət haqqında", "Telekommunikasiya haqqında" qanunlar, "Azərbaycan Respublikasında 2010-2011-ci illərdə "Elektron hökumət"in formalaşdırılması üzrə Fəaliyyət Proqramı" qəbul olunub. "E-hökumət"in əsasını təşkil edən layihələr reallaşdırılır: telekommunikasiya infrastrukturu təkmilləşdirilir, gömrük, maliyyə, vergi sahələrində korporativ sistemlərdən geniş istifadə olunur, əhalinin reyestri formalaşdırılır, digər kadastr və reyestrlər yaradılır. Əldə edilmiş təcrübə əsasında hökumət orqanlarının qarşılıqlı əlaqəsini yaratmaq məqsədilə "vahid pəncərə" sxemindən istifadə olunur ki, bu da "hökumət-vətəndaş", "hökumət-hökumət", "hökumət-biznes" əlaqələrinin yaradılmasına təkan verir. Bu isə, öz növbəsində ölkəmizdə yaranmış sabit iqtisadi vəziyyəti möhkəmləndirir, milli proqram və layihələrin həyata keçirilməsini daha da zənginləşdirir.

Rəşad Əzizov

TEXNOLOJİ BİLİKLƏR – cəmiyyətin əmtəə və xidmətlərin istehsalı üçün malik olduğu yaxşı üsullar.

TEXNOLOJİ DİSTANSİYA – müxtəlif şirkətlərdə iki mal və onların istehsalı texnologiyaları arasında fərq.

TEXNOLOJİ İŞSİZLİK – istehsalat proseslərinin avtomatlaşdırılması və mexanikləşdirilməsi nəticəsində işçilərin ixtisarı ilə bağlı işsizlik. Bu, elmi-texniki inqilabın nailiyyətlərinin istehsalata tətbiqindən yaranan müasir işsizlik növüdür.

XX əsrin 70-ci illərində ETİ əmtəə (nemət) istehsalı üsullarını əsaslı surətdə təzələyən texnoloji inqilabla nəticələnmişdir. Beləliklə, ilk dəfə məmulatların emalının və məhsul (elektronşüa, plazma, radiasiya, membran məhsulların) istehsalının prinsipcə yeni üsullarına əsaslanan maşınsız texnologiya yaranmışdır. Mikroelektronika nailiyyətlərinin tətbiqinə əsaslanan elektronlaşdırma və kompleks avtomatlaşdırma az işçili və işçisiz istehsalın yaradılmasına gətirib çıxarır. Bütün əsas və yardımçı əməliyyatların, texnoloji proseslərə nəzarətin robot komplekslər, ən yeni elektron-hesablayıcı maşınlar, digər texniki vasitələr tərəfindən yerinə yetirildiyi kompleks-avtomatlaşdırılmış sahələr və müəssisələr meydana çıxmışdır. Mütəhərrik istehsalat sistemləri geniş tətbiq olunmağa başlamışdır.

İstehsalat texnologiyasında bu və ya digər inqilabi dəyişiklik işçilərin bilik və ixtisaslarının yeni səviyyəyə qaldırılmasını tələb edir. Bununla əlaqədar yaranan texnoloji işsizlik işçilərin ixtisasını dəyişməsi və onu durmadan artırması yolu ilə aradan qaldırılır.

TEXNOLOJİ UYĞUNSUZLUQ NƏZƏRİYYƏSİ – müəllif: M.Pozner. Bu nəzəriyyəyə görə, yeni texnologiyanın yaradılması həmin texnologiyaya əsaslanan əmtəənin istehsalında və ixracında müvəqqəti inhisar (kvaziinhisar) imkanı yaradır. Novator ölkədəki sahibkar müəyyən dövr ərzində təkbaşına əlavə mənfəət əldə edir. Çünki yeni yaradılmış əmtəələr yeni texnologiyaların tətbiqi ilə buraxılır, bu isə istehsal xərclərini azaltmağa və mənfəəti artırmağa yardımçı olur. Texniki yeniliklərin yaranması nəticəsində müxtəlif ölkələr arasında texnoloji uyğunsuzluq yaranır, çünki həmin ölkələrin bəzilərində bu cür yeniliklər var, digərlərində yoxdur. Texnologiyalarda bu cür qeyri-bərabərlik zaman keçdikcə, novator ölkənin tətbiq etdiyi yeniliyin "surətinin çıxarılması" nəticəsində hamarlanır. Lakin bu cür uyğunsuzluq mövcud olduğu dövrdə innovasiya texnologiyasını birinci olaraq yaratmış və həmin texnologiya əsasında əmtəə istehsal etməyə başlamış ölkə başqa parametrlərə görə bu əmtəələrin yeganə ixracatçısına çevrilir. Bu halda həm unikal əmtəənin ixracatçısı, həm də onun tərəfdaşı bu cür əməkdaşlıqdan qarşılıqlı bəhrələnir. Üstəlik, innovasiya texnologiyaları novator ölkənin hüdudlarından kənarda geniş yayıldıqca, novator ölkədən fərqli olaraq, nisbətən az inkişaf etmiş ölkə öz üstünlüklərini və səmərəsini itirmir. Bu nəzəriyyənin işlənib hazırlanması ilə R.Vernon məşğul olmuşdur. Onun irəli sürdüyü beynəlxalq səviyyədə əmtəə istehsalı tsikli konsepsiyası beynəlxalq ticarətin və xarici ölkələrdəki əməkdaşlar tərəfindən sərmayə qoyulmasının dinamik qarşılıqlı təsirini nümayiş etdirir.

Regional həyat tsikli konsepsiyasının orijinallığı ondan iba-

rətdir ki, bu nəzəriyyə beynəlxalq iqtisadiyyatın elementlərini və əmtəənin həyat tsikli əyrisinin səciyyəvi olduğu marketinq nəzəriyyəsi elementlərini özündə birləşdirir.

TEXNOPARK (ing. *industrial park*) – elmi-texniki araşdırmaların nəticələrini operativ tətbiq etmək məqsədilə elmin, təhsilin və istehsalın ərazi inteqrasiya forması. Elmi, konstruktor və istehsal bölmələrinin yaxşı təchiz olunmuş informasiya və eksperimental baza və ixtisaslı kadrların yüksək təmərküzləşməsi şəraitində birləşməsindən ibarətdir. Qərb ölkələrində texnopark, bir qayda olaraq, tədris və sənaye mərkəzlərinin yaxınlığında yığcam şəkildə yerləşdirilmiş, texniki yeniliklərin tədqiqindən başlamış onların kommersiyalaşdırılmasına qədər bütün prosesi həyata keçirən, funksional və iqtisadi baxımdan öz aralarında əlaqəli olan kiçik şirkətlərdir. Bəzi ölkələrin (məsələn, ABŞ-ın) qanunvericiliyinə əsasən texnoparkın bilavasitə istehsalla məşğul olmasına icazə verilmişdir, bəzən isə (Böyük Britaniyada olduğu kimi) bu fəaliyyət növlərinin birləşdirilməsinə yol verilmir. Bəzi ölkələrdə (Seneqal, Honduras) texnoparklar eyni vaxtda həm də sərbəst iqtisadi zonalardır. Azərbaycanda da informasiya texnologiyaları sahəsində texnoparkların yaradılması istiqamətində işlər gedir.

Bu baxımdan Sumqayıt Texnologiyalar Parkının birinci mərhələsi 2009-cu il dekabrın 22-də işə salınmışdır. Parkın ərazisi 45 hektardır. 17 zavoddan ibarət olan bu Texnologiyalar Parkında



Teknopark (Novosibirsk)

respublika əhəmiyyətli müxtəlif çeşidli məhsullar, o cümlədən müxtəlif tip kabellər, transformatorlar, yüksəkgərginlikli avadanlıqlar, hidroturbinlər, su nasosları, elektrik mühərrikləri, borular, texniki qazlar (arqon, oksigen, azot və s.) istehsal edilir.

Hazırda texnoparkda Kabel zavodu, Plastik boru zavodu, Qaynar sinkləmə zavodu, Dəqiq Emal Mərkəzləri zavodu, Ağır maşınqayırma zavodu, Elektron cihazları zavodu, Yüksəkgərginlikli elektrik avadanlıqlarının istehsalı zavodu, Günəş kollektorları və qazanların istehsalı sexi, Mis və alüminium elektrotexniki çubuqların istehsalı sexi, Texniki qazlar istehsalı zavodu fəaliyyət göstərir.

Postsovet məkanında bənzəri olmayan bu texnoparkın istismara verilməsi ölkəmizdə elektroenergetikanın inkişafına, onun



Teknopark "Yer Kürəsi" (Dubay)

SUMQAYIT TEXNOPARKI



Prezident İlham Əliyev Sumqayıt texnoparkın açılışında



Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə (28 dekabr 2011-ci il) Bakı şəhərində Balaxanı Sənaye Parkı yaradılmışdır.

"Balaxanı poliqonu parka dönüb. Vaxtilə o, ekoloji cəhətdən bəlkə də ölkəmizin ən bərbad, fəlakət vəziyyətində olan bir yeri idi. Şəhər əhalisi sadəcə olaraq, oradan qalxan tüstünü görürdü və bu tüstü bütün şəhəri bürüyürdü. İndi o zibilxananın yerində parklar salınıb, 100 hektar ərazidə poliqon yaradılıb, ağaclar əkilib, müasir sistemlər qurulur. Buraya zibil gətirən bütün maşınlar dezinfeksiya olunur. Eyni zamanda orada məişət tullantılarının yandırılması zavodu uğurla tikilir…

Balaxanıda yeni Texnologiya Parkı, Sumqayıtda Kimya Parkı yaradılacaq, iş yerləri açılacaqdır. Kimya kompleksində istehsal olunan məhsullardan özəl qurumlar, şirkətlər istifadə etməlidirlər. Yerlər ayrılıbdır, kommunikasiyalar, infrastruktur yaradılır".

İlham Əliyev



Xarici qonaqlar Sumqayıt texnoparkında

Yerli istehsalın gücləndirilməsi sahəsində konkret addımlar atılır. Yeni sənaye parklarının yaradılması prosesi gedir. Kimya parkı artıq yaranmaqdadır.

Yüksək texnologiyalar parkının yaradılması haqqında müvafiq göstərişlər verilmişdir. Sumqayıt texnoparkı öz fəaliyyətini genişləndirir. Balaxanı texnoparkının yaradılması istiqamətində konkret addımlar atılır... Qaradağ rayonunda "Holcim" sement zavodunun açılışında iştirak edərkən bir daha vurğuladım ki, belə layihələr Azərbaycan iqtisadiyyatını gücləndirir. Bu layihələri icra etmək üçün Azərbaycanda çox gözəl işlək mexanizm vardır... Sevindirici haldır ki, xarici investorlar Azərbaycanın təkcə neft-qaz sektoruna deyil, qeyri-neft sektoruna da maraq göstərir. Bu layihəyə xarici şirkət, yəni "Holcim" şirkəti 300 milyon avro dəyərində investisiya qoymuşdur. Vaxtilə bizim təşəbbüsümüzlə yaradılan Azərbaycan Dövlət İnvestisiya Şirkəti də bu layihədə iştirak edir. Bu iştirak xarici investorları daha da ruhlandırır... Bu zavodun açılışı onu göstərir ki, investorlar bizə inanırlar. Böhranlı illərdə, 2009-cu ildə Avropa bankları demək olar ki, iflasa uğrayırdı. Böhranın ən ağır dövrü hökm sürürdü. O vaxt böyük məbləğdə investisiyaların qoyuluşu Azərbaycan iqtisadiyyatına və Azərbaycanın gələcəyinə böyük inamın təzahürüdür. Azərbaycanda müsbət investisiya mühitinin mövcudluğu, xarici investorlara gözəl şəraitin yaradılması sayəsində biz buna nail ola bildik. Yeni, müasir, ekoloji cəhətdən tamamilə təhlükəsiz zavod artıq dünəndən fəaliyyətə başlayıb.

Bir neçə il bundan əvvəl Azərbaycanda sementin istehsalı təxminən 1 milyon ton səviyyəsində idi, tələbat isə ildən-ilə artırdı. Çünki bu qədər tikinti, bu qədər sənaye müəssisələrinin yaradılması sement tələb edir. Hazırda tələbat 3,3 milyon tondur. İstehsal ondan azdır, biz özümüzü təqribən 70 faiz təmin edirik. Ancaq icrada olan layihələr bir neçə ildən sonra Azərbaycanda sementin istehsalını 5 milyon tona çatdıracaqdır. Bu, təqribən 2014-2015-ci illərdə olmalıdır. Beləliklə, biz bu sahədə həmin məhsula daxili tələbatımızı ödəyirik.

Bütövlükdə bu meyillər hər bir sahədə özünü büruzə verməlidir...

Dünən biz metal konstruksiyalar zavodunun açılışını qeyd etdik. Bu layihə də dövlət dəstəyi ilə icra edilmişdir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kreditlər ayrıldı, yerli iş adamları öz vəsaitini qoydu və müasir müəssisə yaradıldı. Yəni, belə layihələrin sayı çox olmalıdır. Həm iri, həm orta həcmli, həm kiçik müəssisələrin yaradılması bu gün artıq reallıqdır.

İlham Əliyev

Nazirlər Kabinetinin 2012-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası (11.07.2012)

mövcud potensialının daha da möhkəmləndirilməsinə, enerji müəssisələrinin yenidən qurulmasına və müasirləşdirilməsinə geniş imkanlar açır. Bu möhtəşəm iqtisadi kompleksin işə düşməsi ilə respublikamızın energetika qurğuları yerli texniki avadanlıq və məhsullarla təchiz olunur. Bölgələrdəki təbii ehtiyatlardan istifadə etməklə, ucuz və keyfiyyətli məhsul istehsalı qaydaya salınır. Daşıma xərclərinin və müddətinin azalması hesabına nəzərdə tutulan layihələr daha qısa müddətdə reallaşır və məhsulların maya dəyəri aşağı düşür. Bütün bunlar kompleksdə rəqabətə davamlı məhsulların ixracına geniş imkanlar açır.

Sumqayıt Texnoparkında elektroenergetika sənayesi üçün məhsullar hazırlanır, zavodlar, sexlər və istehsal xətləri yaradılır.

Burada Ağır maşınqayırma və Sənaye qazları istehsalı, eləcə də Alüminium, Kondensator, MDF, Müasir Tikinti Materialları, Qlükoza istehsalı zavodlarının istifadəyə verilməsi, Qaradağ sement zavodunun yenidən qurulması və 2 yeni sement, Bərk məişət tullantılarının yandırılması, Gəmiqayırma, Günəş

Panelləri, "Xovlu İplik", Gübrə zavodlarının və digərlərinin tikintisinin davam etdirilməsi sənayeləşmə siyasətinin real nəticəsidir. Bütövlükdə 2011-ci ildə 40-dan çox sənaye müəssisəsi tikilib istifadəyə verilmiş, 100-dək sənaye müəssisəsinin tikintisi davam etdirilir. Energetika sənayesinin inkişafı, o cümlədən alternativ enerji mənbələrindən istifadənin sürətləndirilməsi və bu sahədə yeni istehsal obyektlərinin yaradılması istiqamətində zəruri işlər görülür. Ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, bu sahədə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 dekabr fərmanı ilə Sumqayıt Kimya Sənaye Parkı yaradılmışdır. Adı çəkilən fərmanda göstərilir ki, sənaye parkı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura və idarəetmə qurumlarına malik olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabət qabiliyyətli məhsullar istehsalı və xidmətlər göstərilməsi məqsədləri üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir. Sumqayıt Kimya Sənaye Parkının ərazisində neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabət qabiliyyətli məhsulların (işlərin, xidmətlərin) istehsalı və emalı müəssisələri yaradılması nəzərdə tutulmuşdur.

Hazırda Azərbaycan Hökuməti Sumqayıt Kimya Sənaye Parkının fəaliyyətinin təşkilini, ərazilərdə mövcud olan köhnə qurğuların sökülməsini, torpağın istifadəyə yararlı vəziyyətə gətirilməsini, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılmasını, ofis, konsaltinq, laborator müayinə, biznes inkubasiya, treninq, peşə hazırlığı və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün digər xidmətlərin göstərilməsini təmin etmək məqsədi ilə zəruri tədbirlər həyata keçirir. Sumqayıt Kimya Sənaye Parkının fəaliyyətinin təşkili, tənzimlənməsi, inkişafı, istehsal və emal olunan sənaye məhsulları üzrə prioritet istiqamətlərin müəyyənləşdirilməsi, güzəştli kreditlərin verilməsi, habelə məsləhətçi şirkətin cəlb olunması ilə bağlı məsələlər həll edilir.

Sumqayıt Kimya Sənaye Parkının fəaliyyətinin təşkili, parkda yerləşəcək istehsal sahələrinin qurulması üçün icazə sənədlərinin alınması, layihələrin hazırlanması, razılaşdırılması, infrastruktur təminatı və digər zəruri tədbirlərin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin tabeliyində "Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılmışdır.

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə birlikdə Sumqayıt Kimya Sənaye Parkında vergi və gömrük sahəsində stimullaşdırıcı tədbirlərin tətbiqi barədə təkliflər hazırlamışdır.

Dövlət başçısının imzaladığı fərmana əsasən Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti kimya sənayesi potensialının artırılması, bu sahədə özəl müəssisələrin təşkili və yerli xammaldan rəqabət qabiliyyətli məhsullar alınması məqsədi ilə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə birlikdə Sumqayıt Kimya Sənaye Parkında kimya sənayesinə aid istehsal və emal sahələrinin yaradılmasını və inkişaf etdirilməsini dəstəkləyən tədbirlər həyata keçirir.

Yaradılan sənaye parkları iqtisadiyyatın modernləşməsini, innovativ iqtisadiyyatın formalaşmasını, sahibkarlığın inkişafını sürətləndirəcək, idxaldan asılılığı azaltmaqla qeyri-neft ixracını artıracaq, əhalinin məşğulluğunun artırılmasında önəmli rol oynayacaqdır.

TEXNOPOLİS – azad iqtisadi zonaların bir forması olub, yeni texnika-texnologiyanın sürətli və effektiv tətbiqi üçün innovasiya proseslərinin aktivləşdirilməsi məqsədinə xidmət edir. Texnopolislər dövlət dəstəyinə malik olurlar. Onların tədqiqat mərkəzi, texnoloji mərkəz, qründer mərkəzi və sənaye parkları kimi növləri vardır. Texnoloji mərkəzlərdə yüksək texnoloji müəssisələr və vençur kapitallı şirkətlər cəmləşir. Tədqiqat mərkəzləri elmi mərkəz-

lərin, əsasən, universitetlərin ətrafında cəmləşmiş aqlomerasiyanın elm tutumlu formasıdır. Sənaye parkları yenilik tətbiq edən firmaların müştərək torpaq sahələrindən, istehsal və idarəetmə sahələrindən istifadəsi yolu ilə birləşməsidir. Qründer mərkəzləri emal sənayesinin yalnız yeni yaradılmış müəssisələrinə üstünlük verən müxtəlif sənaye parklarıdır.

TEXNOSTRUKTUR – müasir sənaye istehsalı üçün zəruri olan idarəetmə sinfi, onun texniki və təşkilati təcrübəsi.

Bu anlayış C.P.Helbreyt tərəfindən işlənib hazırlanmış konsepsiyanın mühüm tərkib hissəsidir. Həmin konsepsiyanın mahiyyəti ondan ibarətdir ki, müasir kapitalist iqtisadiyyatında korporasiyalar əmtəə bazarlarında suverenliyə malikdir.

TELEFON STANSİYALARININ TUTUMU – quraşdırılmış bütün abonent dəstləri, xüsusi dəstlər və ya taksofonların daxil olması üçün qurğular, idarə stansiyalarına birləşən xətlər. Həmişəlik istifadəyə verilən idarə, təcili, sifariş və xidməti məlumat bürosu xətləri buraya daxildir. Avtomat telefon stansiyalarının ümumi tutumuna elektron sistemli telefon stansiyalarının ümumi tutumu aid olunur. Stansiyaların istifadə olunan tutumu bütün abonentlərin istifadə etdiyi tutum (pullu və pulsuz quraşdırılmış) və iş yerlərində aparat və xidməti sahə üçün istifadə edilən nömrələrdir. İstifadəyə verilmiş tutum quraşdırılmış tutumdan ehtiyatda olan nömrələrin sayı qədər az olur.


TELEMARKETİNQ – marketinqdə tətbiq olunan kommunikasiya sistemi. Yüksəkixtisaslı mütəxəssislər tərəfindən marketinq tədbirlərinin aparılması və satışın təşkili zamanı telekommunikasiya və informasiya texnologiyalarının istifadəsindən ibarətdir.

TELYAKEL – mal gəlib çatdıqda və ya alıcıya təqdim edilməklə təhvil verildikdə, keyfiyyətdən asılı olmayaraq, onun axırıncı qəbul edilməsinə əsasən, beynəlxalq ticarətdə alışsatış müqaviləsinin şərtləri deməkdir. Belə şərtlər xüsusilə auksion satışlarında tətbiq olunur.

TENDENSİYA (meyil) (lat. *tendere* – istiqamətlənmək, yaxınlaşmaq) – ölkənin, müəssisənin, firmanın iqtisadiyyatı, gəlirlər və xərclər, ailələrin istehlak göstəriciləri, əmtəə və xidmətlər bazarında tələb və təklif üçün səciyyəvi olan, iqtisadi təhlil nəticəsində aşkarlanmış davamlı müşahidə olunan münasibətlər; iqtisadi proseslərin qərarlaşmış istiqaməti. Tendensiyalara əsaslanaraq iqtisadi proseslərin gələcək gedişi haqqında proqnozlar vermək, iqtisadi göstəriciləri hesablamaq olar.

TENDER (ing. *tender* – xidmət edən) – yazılı təklif, sifariş, oferta. Qiymətli kağızlara abunə haqda ərizə. Müddətli kontrakt üzrə mal göndərmək niyyəti barədə bildiriş. Qiymətli kağızların (bir qayda olaraq, istiqrazların) təklif edilməsi vasitəsi. Malgöndərənlərin müəyyən olunmuş tələblərə cavab verən mal (bir qayda olaraq, avadanlıq) təklif etməsi barədə dəvət; bazarda avadanlıq almaq və ya obyektlər kompleksinin tikintisi və başqa işlərin görülməsi, o cümlədən mühəndis işləri üçün podratçıların cəlb edilməsi sifarişinin yerləşdirilməsinin müsabiqə forması. Təklifin qiyməti; bu qiymət müəyyən edilərkən, ilk növbədə, xüsusi xərclərin səviyyəsi və ya əmtəəyə tələbin kəmiyyəti deyil, rəqiblərin təyin edə biləcəkləri qiymətlər əsas götürülür. Gəminin təmir edilməsinin mümkünlüyü və şərtləri





barədə gəmi təmiri firmalarına göndərilən sorğu. Tender – satınalma müqaviləsinin yerinə yetirilməsi üzrə iddiaçıların yazılı təqdim etdikləri təkliflərdən ən səmərəlisinin seçilməsi məqsədi ilə keçirilən müsabiqə.

Tender – hər hansı bir işin, xidmətin ən səmərəli üsul və aşağı xərclə yerinə yetirilməsi üçün iddiaçılar arasından birinin (bir neçəsinin) seçilərək, həmin işin (xidmətin) müqavilə əsasında ona (onlara) həvalə edilməsi məqsədi ilə keçirilən müsabiqədir.

TENDER BURAXILIŞI (ing. *tender issue*) – mərkəzi bank tərəfindən onun xahişi ilə uçot evlərinin ərizələrinə müvafiq olaraq xəzinədarlıq vekselləri-nin buraxılması. Hər bir uçot evi müəyyən miqdarda veksel üçün ərizə hazırlayır, bu ərizələrin sayı, adətən, təklif olunan veksellərin sayından artıq olur.

TENDER DÜZƏLİŞİ (qeyd-şərti) – gəminin sığortalanması üzrə polislərdə ehtiva olunan gəmidəki bütün qəzalar haqqında sığortalıya dərhal bildirilməli məlumat.

TENDER KEÇİRƏN – ölkə adından və ya öz adından tender hazırlayan, elan edən, keçirən və nəticəsi üzrə müəyyən öhdəlikləri yerinə yetirən, yaxud bunları (tenderin nəticəsi üzrə öhdəliklər götürərək icra etməkdən başqa) müqavilə əsasında hər hansı bir icraçıya həvalə edən hüquqi şəxs.

TENDER KOMİTƏSİ (ing. *tender committee*) – sifarişçi (alıcı) tərəfindən hərracların keçirilməsi ilə əlaqədar yaradılan müvəqqəti orqan. Tender komitəsinin əsas vəzifələri tender sənədlərinin hazırlanması, hərracların keçirilməsi, ofert analizidir. Tender komitəsinin sədri, adətən, tədarük edən təşkilatların rəhbərləri təyin edilir. Komitənin işinə məsləhətçi firmalar və sərbəst məsləhətçilər cəlb olunurlar.

TENDER SƏNƏDLƏRİ – beynəlxalq hərracların keçirilməsi üçün zəruri olan, təşkilati, texniki, kommersiya və digər məsələlərin həllini əks etdirən maddi informasiya daşıyıcıları dəsti.

Bu sənədlərdə aşağıdakı məlumatlar əks olunur:

1) beynəlxalq hərracların keçirilməsinin qaydası və şərtləri;
2) alqı-satqı və ya podrat müqaviləsinin əsasını təşkil edən maliyyə və kommersiya şərtləri;
3) əmtəənin texniki xarakteristikaları;
4) hərrac obyektinin, daha dəqiq desək, texnoloji prosesin təsviri;
5) hərracda təklif edilən işlər və xidmətlər haqqında məlumatlar, onların növləri, xarakteristikaları, həcmi;
6) hərrac iştirakçıları tərəfindən təklif edilə biləcək digər məsələlər.

Tender sənədləri tender komitəsi tərəfindən, adətən, məsləhət firmalarının iştirakı və köməyi ilə işlənib hazırlanır, nəzərdə tutulan hərracın potensial iştirakçıları arasında yayılır. Hərracın ehtimal edilən iştirakçılarına – firmalara və ya təşkilatlara tender komitəsi tərəfindən tender sənədləri dəsti təqdim edilir və ya poçtla göndərilir. Tender

sənədləri dəstini tender komitəsində, onun müəyyən etdiyi müvafiq haqq müqabilində əldə etmək olar.

TENDER TƏKLİFİNİN TƏMİNATI – iddiaçının tender təklifi üzrə satınalan təşkilat qarşısında götürdüyü öhdəliklərə verilən təminat. Bu təminat bank zəmanəti, akkreditiv, qiymətli kağızlar, nağd pul vəsaiti, depozitlər və digər maliyyə aktivləri ola bilər.

TENDERİN ƏSAS ŞƏRTLƏR TOPLUSU – satınalan təşkilatın tender şərtlərini göstərən və iddiaçılara təqdim edilən sənəd.

TERMİNAL (ing. *terminal*; lat. *terminalis* – axırıncı, sona aid olan) – hesablama sistemində informasiyanın daxil və xaric edilməsi üçün nəzərdə tutulan tamamlanmış qurğu (məsələn, *teletayp displey*). Limanda konteynerlərdə çatdırılmış və paketlər şəklində qablaşdırılmış yüklərin emal edildiyi bölmə.

TEYLORİZM – istehsalın idarə edilməsinin və əməyin təşkilinin sistemi. Bu sistem onun banisi, idarəetməni "nə etmək, bunu ən yaxşı və ucuz üsulla necə etmək lazım olduğunu dəqiq bilmək məharəti" kimi nəzərdən keçirən amerikalı mühəndis F.U.Teylorun (1856-1915) adını daşıyır. O, fəhlənin hərəkətlərinin xronometrajı və dəqiq öyrənilməsi, avadanlığın, alətlərin müvafiq qaydada seçilməsi yolu ilə işlərin hər bir növü və müəyyən şəraitdə hər bir əməliyyat üçün onların yerinə yetirilməsinin yeganə ən səmərəli üsulunu müəyyən edirdi. Bu halda ən zəruri hərəkətlər seçilir, bütün artıq və faydasız əməliyyatlar kənar edilirdi. Yüksək məhsuldar əməyin təşviq edilməsi üçün iqtisadi stimullardan – xüsusi işəmuzd əmək haqqı sistemindən, cərimələrdən və s. istifadə edilirdi. Bütün incəliklərinə qədər əməyin planlaşdırılması, fəhlələrə hərtərəfli təlimat keçirilməsi də müəyyən olunmuş tapşırığın tamamilə və artıqlaması ilə yerinə yetirilməsinə şərait yaradırdı.



F.U.Teylor

Elmi idarəetmə nəzəriyyəsi kimi teylorizmin mahiyyəti əmək proseslərinin reqlamentləşdirilməsindən, sərişteli rəhbərlikdən və təsirli maddi həvəsləndirmə sistemindən ibarətdir. Teylor istehsalın və idarəetmənin təşkilinin təkmilləşdirilməsinə kompleks yanaşmanın üstünlüklərini nəzəri cəhətdən əsaslandırmış və praktik baxımdan göstərə bilmişdir. Funksional idarəetmə sisteminin prinsiplərinin işlənib hazırlanmasında və reallaşdırılmasında onun xidmətləri çox olmuşdur. O, elmi idarəetmə sisteminin əsaslarını qısaca aşağıdakı şəkildə təsvir edirdi: adi ənənəvi vərdişlər əvəzinə elmi yanaşma; ziddiyyətlər əvəzinə qarşılıqlı anlaşma; fərdi iş əvəzinə sistemli yanaşma; istehsal sürətinin məhdudlaşdırılması əvəzinə onun artırılması; ayrılıqda götürülmüş hər bir işçinin maksimum iş qabiliyyətini və maddi rifahını inkişaf etdirmək istəyi.

Teylor ideal işçiyə xas olmalı doqquz keyfiyyəti müəyyən etmişdir: ağıl, təhsil, xüsusi və ya texniki biliklər, fiziki çeviklik və qüvvə, taktika, enerji, qətiyyət, namusluluq, mühakimə qabiliyyəti və sağlam düşüncə, möhkəm cansağlığı. Nəzərə almaq lazımdır ki, F.U.Teylor öz sistemini elə bir şəraitdə işləyib hazırlamışdır ki, istehsalın uğuru, ilk növbədə, işçinin özündən, onun fiziki səylərindən asılı idi. Bu sistemdən istifadə edən müəssisələrdə əməyin məhsuldarlığı üç ildə iki dəfə artmışdır. Müasir iqtisadiyyatda texnikanın ön plana keçməsinə baxmayaraq, istehsalın səmərəsini artırmaq üçün bu sistemi yenə də əsas götürür, xüsusən əməliyyatların təkrarlandığı müəssisələrdə ondan geniş istifadə edirlər.

TEZAVRASİYA (yun. *thesauros* – xəzinə) – əhali tərəfindən sərvətlərin, ilk növbədə, pul vəsaitinin yığılması prosesi. Tezavrasiyanın təbii və məcburi növləri fərqləndirilir. Təbii tezavrasiya qabaqcadan nəzərdə tutulmayan hallar, bahalı malların alınması və pul vəsaitlərinə qənaətin müxtəlif növləri ilə əlaqədar əmanətlər üzrə faizlər almaq və digər məqsədlər üçün nəzərdə tutulur. Məcburi tezavrasiya əmtəə ödənişi olmadıqda yaranır (bu, gizli inflyasiyanın səciyyəvi əlamətidir). İqtisadi

ədəbiyyatda pul tezavrasiyası və qızıl tezavrasiyası proseslərinin tərifləri rast gəlmək olar.

Pul tezavrasiyası – əhali tərəfindən əvvəlcədən nəzərdə tutulmayan xərclər üçün pul vəsaitləri (əvvəllər ona girov deyilirdi) yığılması və ya əmtəə tətbiqi olmadıqda həmin vəsaitlərin dövriyyədən çıxması. Tezavrasiyanın bu növü təxirə salınmış tələb xarakteri kəsb edir.

Qızıl tezavrasiyası – külçələr, sikkələr, sadə zərgər məmulatları şəklində yığılmış qızılın inflyasiya nəticəsində əmanətlərin qiymətdən düşməsindən qorunmaq məqsədilə, eləcə də sosial sarsıntılar, dərin iqtisadi və siyasi böhranlar dövründə yığılmış kapitalın itirilməsi qorxusu olduqda ayrı-ayrı şəxslər tərəfindən həmin qızılın alınması. Sözün geniş mənasında tezavrasiya dedikdə mərkəzi banklar, xəzinədarlıqlar və xüsusi fondlar tərəfindən qızıl ehtiyatı yaradılması nəzərdə tutulur. Qızıl standartı şəraitində tezavrasiya edilmiş qızıl pul tədavülünün ehtiyat fondu rolunu oynayırdı. Pula tələbat artdıqda bu metal dövriyyəyə daxil olur, pula tələbat azaldıqda isə qızılın tezavrasiyası hesabına dövriyyədən çıxarılırdı.

Detezavrasiya zamanı yığılmış vəsaitlər investisiya layihələrinə sərmayə qoyulur və istehlakda istifadə edilir.




TƏBİİ ARTIM SÜRƏTİ – R.Harrod iqtisadi artım problemlərinə həsr olunmuş ədəbiyyata daha bir anlayış – "təbii, limit qiymətinə (*ceiling*) çatan artım sürəti" anlayışını daxil etmişdir. Tam məşğulluq şəraitində əmək təklifinin və əmək məhsuldarlığının artım sürəti ilə müəyyən edilən bu artım sürəti həmin kəmiyyətlərin cəminə bərabərdir. Başqa sözlə, təbii artım sürəti əmək təklifini genişləndirmək və əməyin məhsuldarlığını artırmaq imkanlarının müəyyən qiymətlərində iqtisadiyyatda əldə edilə biləcək artım sürətinin maksimum qiymətidir. "Təbii" termini ilə əlaqədar anlaşılmazlıqlar yaranmaması üçün qeyd etmək lazımdır ki, Harrod modelində (başqa modellərin əksinə olaraq) bu artım sürəti bazar qiymətlərinin sərbəst qarşılıqlı təsiri nəticəsində yaranmır. Bu halda söhbət yalnız istehsalın genişlənməsinin maksimum sürətindən gedir. Onu da qeyd etmək lazımdır ki, təbii artım sürəti iqtisadi artımın zəmanətli və ya tarazlaşmış sürətindən fərqli olaraq, məhz tam məşğulluq şəraitində iqtisadiyyatın artım sürəti deməkdir. Zəmanətli və ya tarazlaşmış iqtisadi artımın əsas şərti isə istehsal gücləri tam yüklənmiş olduqda təsərrüfatın inkişaf etməsidir.

TƏBİİ FƏLAKƏT RİSKİ – sığorta obyekti, məsələn, təbii fəlakətlə əlaqədar yaşayış binaları üçün yarana bilən təhlükələr.


TƏBİİ HÜQUQ – öz təbiətinə görə insana xas olan prinsiplər, hüquqlar, qiymətlilərin məcmusu. Əksər halda təbii hüquq fəaliyyətdə olan bütün hüquq sisteminin qiymətləndirilməsi üçün tətbiq olunur.

TƏBİİ İNHİSAR – istehsalın texnoloji xüsusiyyətlərinə görə rəqabətin olmadığı şəraitdə tələbatın ödənilməsi daha səmərəli olan və inhisar subyektlərinin istehsal etdiyi (satdığı) əmtəə istehlakda başqa əmtəə ilə əvəz edilə bilməyən əmtəə bazarının vəziyyəti (bax: sxem 1, qrafik 1, 2).

Təbii inhisar – hazırkı şəraitdə rəqabətin mümkün və ya məqsədəuyğun olmadığı sahədə inhisarçılıq fəaliyyəti növləridir. Azərbaycan Respublikasında təbii inhisarlarla bağlı dövlət tənzimlənməsinin təşkilati və



Qrafik 1



Qrafik 2


hüquqi əsasları "Təbii inhisar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir. 1998-ci il dekabrın 15-də təsdiq edilmiş bu qanuna görə, təbii inhisar subyektlərinin fəaliyyət sahələrinə neft, neft məhsullarının, təbii qazın boru kəmərləri, elektrik enerjisinin ötürücüləri, magistral və yerli dəmir yolu xətləri, aeroport xidmətləri, metro nəqliyyatı, su limanı xidmətləri, poçt, rabitə, istilik təchizatı xidmətləri və s. daxildir. Təbii inhisar subyektlərinin fəaliyyətinin dövlət tənzimlənməsində əsasən qiymətlərdən (tariflərdən) istifadə olunur.

TƏBİİ İŞSİZLİK – tarazlı əmək bazarı şəraitində saxlanılan, işsizliyin zəruri obyektiv səviyyəsi, başqa sözlə, işsizlikdir ki, burada əmək qabiliyyətli əhalinin bir hissəsi ən yaxşı iş yerlərinin axtarılması və seçilməsi və ya işlə təmin olunma hazırlığı mərhələsindədir.

Friksion və struktur təbii işsizlik növləri fərqləndirilir. Friksion işsizlik, bir qayda olaraq, qısamüddətli olur, könüllü xarakter daşıyır və uyğun iş yerinin axtarılma prosesini əks etdirir. İşsizliyin təbii səviyyəsində istehsalın səmərəli artımı baş verir, iqtisadi sabitlik qorunub saxlanılır, inflyasiyanın təsiri hiss olunmur. Təbii işsizliyə institusional, friksion və struktur işsizlik aiddir. Təbii işsizliyin səviyyəsi hər bir ölkədə müəyyən müddətə sabit qalır və zamanın tələbi ilə dəyişir. İnkişaf etmiş ölkələrdə təbii işsizliyin səviyyəsi 5-12% arasında tərəddüd edir.

Neoklassik iqtisadi nəzəriyyəyə uyğun olaraq, iş yerinin axtarışı səmərəli iqtisadi davranış növüdür. Bu o vaxta qədər davam edir ki, onun məcmu məsrəfləri gözlənilən mənfəəti ötüb keçsin. Friksion işsizliyin problemi axtarış prosesini optimallaşdırmaqdan və natamam informasiya şəraitində ona münasib iş yerindən ən yaxşısını seçmək-

Təbii inhisarın tənzimlənməsi və iqtisadi təbiəti



Sxem 1

dən ibarətdir. Friksion işsizlik o zaman yüksək olur ki, əmək bazarında kifayət qədər davranış təcrübəsi olmadan axtarış prosesini optimallaşdıra bilməsinlər. Onlar, əsasən, gənclər və uzun müddət fasilədən sonra əmək bazarına çıxanlardır (əsasən qadınlar). Mövsümi işsizlik friksion işsizliyin bir növüdür və o, istehsalın diktə edilmiş spesifikliyi, bəzi sahələrdə (tikinti, kənd təsərrüfatı) əməyə olan tələbin dəyişkənliyi ilə əlaqədardır. Struktur işsizlik, bir qayda olaraq, uzunmüddətli olur, məcburi xarakter daşıyır və aşağıdakı hallarda yaranır: a) məcmu işçi qüvvəsinin peşə-ixtisas tərkibi ilə iş yerlərinin tərkibinin üstüstə düşməməsi; b) açılan iş yerlərinin işsizlərin yığıldığı regionlarla coğrafi cəhətdən üstüstə düşməməsi. Struktur işsizliyin azalması əmək bazarında tələb və təklifin dəyişilməsi səviyyəsindən və sürətindən, həmçinin iş yerlərində namizədlərin bu dəyişikliklərə uyğunlaşma sürətindən asılıdır.

Faktiki işsizliyin təbii işsizlik üzərində üstünlüyü – işsizlik səmərəli tələbin kifayət etməsi ilə bağlı olanda və ya faktiki əmək haqqının tarazlı əmək haqqı üzərində üstünlüyü zamanı yaranır (bax: İşsizlik). Bu və ya digər iqtisadi sistemdə işsizliyin mütləq səviyyəsinin ölçüsünün çətinliyi təbii işsizliyin öz növlərindən ayrılması ilə əlaqədardır. İşsizliyin müxtəlif növləri bir-biri ilə sıx əlaqədədir. Tsikllik tənəzzül zamanı işsizliyin artması, uzunmüddətli struktur işsizliyinin payının artması ilə müşahidə olunur. Bu da yüksəliş zamanı tam aradan qaldırılmır. Nəticədə təbii işsizlik artıma meyilli olur. Dinamik əmək bazarına malik olan ölkələrdə işsizliyin təbii səviyyəsi, uzunmüddətli işsizliyin bazarın müəyyən seqmentlərində təmərküzləşməsinin üstünlük təşkil etdiyi ölkələrə nisbətən aşağıdır. Təbii işsizliyin azalması metodları peşə hazırlığı, müəssisələrin məqsədli subsidiyalaşması, əmək bazarının informasiya infrastrukturunun inkişafının köməyi ilə, ilk növbədə, işçi qüvvəsinin zəif kateqoriyalarının (gənclər, qadınlar, uzunmüddətli işsizlər) məşğulluğuna dəstək göstərilməsinə istiqamətlənir.

TƏBİİ İŞSİZLİK NORMASI – tam iqtisadi məşğulluğun məqsədəuyğun səviyyəsinə uyğun









İşsizlərin tətili, Yunanıstan (mart, 2011)





İşsizlərin tətili, İspaniya (oktyabr, 2010)



Sxem 1

olan işsizlərin müəyyən hissəsi. Bu cür işsizlik ideyası onunla bağlıdır ki, iqtisadiyyatda daim dəyişikliklər baş verir: yeni iş yerləri yaradılır, köhnə iş yerləri ləğv edilir. Vaxt keçdikcə əmək bazarına əmək resursları daxil olur və onu tərk edirlər. Bu vəziyyət onunla əlaqədardır ki, işi olmayan və iş axtaran adamlar həmişə vardır. Bu halda ümumi iqtisadi vəziyyətin prinsipial əhəmiyyəti yoxdur. Nəzəri cəhətdən təbii işsizlik normasının nə demək olduğunu başa düşmək o qədər də çətin deyil, lakin təcrübədə bu, bəzən çətin olur. Potensial məhsul buraxılışı tam məşğulluq halında təmin edilə biləcək səviyyədə olduğuna görə təbii işsizlik normasının ölçülməsi problemi mahiyyəti etibarilə potensial məhsul buraxılışının ölçülməsi problemi ilə identikdir.

Bir qayda olaraq, təbii işsizlik normasının dəqiq qiyməti məsələsi amerikalı iqtisadçılar üçün müəyyən fikir ayrılıqlarına səbəb olur. İqtisadçılar təbii işsizlik normasını qiymətləndirmək üçün müəyyən dövrü əsas götürürlər. Həmin dövrdə iqtisadiyyatda tam məşğulluq və kifayət qədər sabit qiymətlər mövcud olmuşdur. Çox vaxt bu məqsəd üçün 1960-cı illərin ortaları götürülür. Bundan sonra işsizliyin başlanğıc səviyyəsi təshih edilir. Bu halda işçi qüvvəsinin tərkibində baş vermiş və sonrakı dövrdə davam etmiş dəyişikliklər nəzərə alınır.

TƏBİİ İTKİ NORMASI – malın daşınması, yükvurma-yükboşaltma əməliyyatları və malın saxlanması zamanı quruma, sızma, silkələnmə nəticəsində onun çəkisində və ya həcmində təbii itkilərin yol verilə bilən ölçüsü. Beynəlxalq ticarətdə bir sıra mallar üçün hamı tərəfindən qəbul edilmiş yolda çəki itkisi normaları vardır. Bu normalar həddində çəki itkisinə görə satıcı məsuliyyət daşımır.

TƏBİİ QAZ – yanacaq növü kimi ekoloji üstünlüyü ilə yanaşı, həm də əksər texniki-iqtisadi imkanları, energetik qüvvəsi ilə də digər karbohidrogen resurslarına nisbətdə fərqli mövqedədir. Yanarkən hiss verməməsi, tullantı yaratmaması, məşəlinin asanlıqla tənzim olunması, müxtəlif görüntü hallarına salınması və bu baxımdan da atmosferə, ətraf mühitə zərərlər gətirməsinin minimallığı onun

TRANSANADOLU TƏBİİ QAZ BORU KƏMƏRİ (TANAP)

2012-ci ilin iyunun 26-da İstanbulda Türkiyə Respublikası və Azərbaycan Respublikası arasında Trans-Anadolu Qaz Boru Kəməri üzrə Hökumətlərarası Müqaviləni Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, həmçinin, Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev və Türkiyənin enerji və təbii ehtiyatlar naziri Taner Yıldız imzaladılar.

BOTAŞ və ARDNŞ arasında TANAP Layihə Şirkətində təşkilati məsələlərlə bağlı ilkin razılaşmanı Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev, Türkiyənin enerji və təbii ehtiyatlar naziri Taner Yıldız, ARDNŞ-in prezidenti Rövnəq Abdullayev və BOTAŞ-ın Baş direktorunun müavini Mehmet Konuk imzaladılar.

Azərbaycanda "Şahdəniz-2" layihəsi çərçivəsində çıxarılacaq təbii qazın Avropaya nəqli üçün həyata keçirilməsi planlaşdırılan TANAP layihəsinin inşasına ən geci 2014-cü ilin əvvəllərində başlanılması qərar verilmişdir. Layihədə "Şahdəniz" və "Nabukko" konsorsiumlarında pay sahibi olan bəzi şirkətlər də iştirak etməyi planlaşdırır.

"Şahdəniz" konsorsiumunda TPAO (Türkiyə) və ARDNŞ-dən (Azərbaycan) başqa, İngiltərədən bp, Norveçdən "Statoil", Rusiyadan "LUKoil" kimi şirkətlər vardır. "Nabukko" konsorsiumunda isə Türkiyədən "Botaş", Avstriyadan OMV, Almaniyadan RWE, Macarıstandan MOL, Rumıniyadan "Transgaz" və Bolqarıstandan BEH şirkətləri iştirak edir.

Azərbaycan ilə Türkiyənin birgə həyata keçirəcəyi Transanadolu təbii qaz boru kəmərinin (TANAP) nəqletmə gücü imzalanma mərasimində nəzərdə tutulduğu 16-24 milyard kubmetrdən 30 milyard kubmetrədək artırılacaqdır. İstanbulda imzalanmış sənədlər paketi tərəflər arasında razılaşdırılmış qrafikə uyğun hazırlanmışdır. Həmin qrafikə əsasən, 2011-ci ilin dekabrında tərəflər TANAP üzrə konsorsiumun yaradılmasına dair Memorandum imzalamış və layihədəki iştirak paylarını razılaşdırmışdılar. Memorandumda tərəflər həmçinin 2012-ci il iyun ayının sonlarına qədər layihə şirkətinin yaradılması, Hökumətlərarası Müqavilənin və "TANAP Co" ilə Türkiyə hökuməti arasında Müqavilənin (bu sənəddə tərəflərin layihənin icrası üzrə hüquq və vəzifələri öz əksini tapır) imzalanması haqda razılığa gəlmişdilər. İstanbuldakı imzalanma mərasimi ilə bütün bu məsələlər artıq reallığa çevrilmişdir.

Ölkəmizin gələcək davamlı inkişafı üçün öz qaz kəmərimizin olması və perspektiv yataqlarımızdan hasil ediləcək təbii qazın heç bir maneəsiz bazara çıxarılması məsələləri Azərbaycanın qarşıdakı 50-60 il üçün strateji vəzifələridir. Bu kəmərin reallaşması ilə Azərbaycanın davamlı gələcəyi üçün böyük bir işin təməli qoyulur.



ekoloji aspektdə cəlbediciliyini artıran xüsusiyyətidir. Rəngsiz və çox zaman da qoxusuz olan təbii qazın texniki-iqtisadi parametrləri müqayisəli təhlil obyektinə çevrildikdə ekoloji və energetik keyfiyyətləri ilə bərabər, bu üstünlüyü səciyyələndirən fiziki xüsusiyyətləri də önə çəkilir. Karbohidrogenli "əqrəbaları" arasında ən yüksək istiliktörətmə qabiliyyətliliyi ilə fərqlənən təbii qazın müvafiq gücü torf və yanar şistlərdən 3-4, oduncaq və daş kömürdən 1,5 dəfə, neftdən isə orta hesabla 1000 kilokalori artıq miqdardadır. Konkret olaraq təbii qazın istiliktörətmə gücü orta göstəricidə 12000 kkal/kq hesablanır. Qazın 2000 dərəcə selsili yüksək istilikvermə qabiliyyəti onun keyfiyyətli energetik və texnoloji səmərəli yanacaq növü kimi geniş tətbiqini təmin etmişdir. Təbii qaz sərvətlərinin üç kateqoriyada – qazlı yataqlarda olan təbii qaz, səmt qazı və qazkondensat kimi klassik təsnifatı vardır. Dünyanın ən iri təbii qaz hasilatçısı Rusiyada səmt qazının payı 10-15%, respublikamızda isə 3-4% təşkil edir. Səmt qazının həcmini neftin tərkibindəki miqdarı ilə ölçürlər. Praktikada, əsasən, 1ton neft=200 kubmetr qaz formulundan istifadə olunur. Neftli qaz və yaxud səmt qazı neftlə birgə hasil edildiyindən neft ehtiyatlarının və hasilatın artımı dinamikasına təsir göstərir. Hesablamalara görə, kapital qoyuluşlarının səmərəliliyi neftli qazın yığımı və emalının təşkilində təbii qaza nisbətdə yüksəkdir. Neftli qazdan alınan əmtəəlik məhsulun orta yağlılığı təbii qaza nisbətdə 2,2-2,4 dəfə çox və bu məhsulun alınmasında kapital qoyuluşu təbii qaza nisbətdə 2,1-2,3 dəfə azdır. Əlahiddə qaz və qaz kondensatı yataqlarından hasil edilən təbii qazdan fərqli olaraq, neftli qaz etan, propan-butan və pentan fraksiyalı tərkiblərlə daha zəngindir. Əksər yataqlarda neftli qazın 60-70%-ni müvafiq fraksiyalar təşkil edir. Bu xüsusiyyətli neftli qaz yanacaq dəyəri ilə yanaşı, xalq təsərrüfatının müxtəlif sahələrində daha əhəmiyyətli xammal kimi də qiymətləndirilir. Neft qazından alınan sıxılmış qaz kimya sənayesinin əsas xammalıdır və bu-

Bizim çoxşaxəli ixrac nəqliyyat infrastrukturumuz vardır. Hasilat lazımi səviyyədədir. Keçən ay biz TANAP layihəsinə start verdik. Bu layihə bir neçə səbəbə görə tarixi layihədir. İlk növbədə, uzun illərdir ki, Azərbaycan və ümumiyyətlə, Xəzər qazının Avropaya çatdırılması ilə bağlı müzakirələr, danışıqlar aparılır, konfranslar, zirvə görüşləri keçirilir. Ən azı son yeddi il ərzində bu məsələ ilə bağlı müzakirələr gedir, ancaq nəticə yoxdur. Belə olan halda biz qərara gəldik ki, bu sahədə də Azərbaycan liderliyi üzərinə götürməlidir. Necə ki, 1990-cı illərin ortalarında Azərbaycan Bakı-Tbilisi-Ceyhan layihəsinin icrası ilə bağlı liderliyi, bütün məsuliyyəti və öhdəlikləri öz üzərinə götürmüşdür. Biz gördük ki, əgər bu sahədə də liderliyi üzərimizə götürməsək, bu danışıqlar hələ bəlkə bir on il də heç bir nəticəsiz davam edəcəkdir. Qısa müddət ərzində türkiyəli tərəfdaşlarımızla bu məsələ ilə bağlı müzakirələr, danışıqlar aparıldı. Layihəyə ad verildi – TANAP, Trans-Anadolu Qaz Kəməri. Bütün məsələlər həllini tapdıqdan sonra keçən ay İstanbul şəhərində gözəl mərasim keçirildi və TANAP ilə bağlı bütün sənədlər imzalandı. Yəni, bu layihəyə start verildi. Bir daha vurğulamaq istəyirəm ki, bu layihə sırf Azərbaycan-Türkiyə layihəsidir. Pay bölgüsü 80 faiz Azərbaycan, 20 faiz Türkiyə tərəfinə çatacaqdır... Bu layihə tərəfdaşlar üçün, bizim üçün dost olan şirkətlər, Azərbaycanda uzun illər fəaliyyət göstərən şirkətlər üçün də açıqdır...

Bu layihə, yenə də deyirəm, böyük əhəmiyyətə malik olan layihədir,Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum layihələrindən az əhəmiyyət daşımır. Bu, bizə imkan verəcək ki, öz qaz resurslarımızı Türkiyəyə və ondan sonra Avropaya daha da böyük həcmdə nəql edək. Beləliklə, biz enerji siyasətimizdə əsas amil olan şaxələndirmə məsələlərinə tam şəkildə çatacağıq.

İlham Əliyev
Nazirlər Kabinetinin 2012-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası (11.07.2012)


TANAP
Trans Anadolu Doğalgaz Boru Hattı


TANAP


Shah Deniz II Trans.
Transit within Turkey
Transit beyond Turkey
TANAP
BOTAŞ System
CASPIAN SEA
BLACK SEA
MEDITERRANEAN
AZERBAIJAN
ARMENIA
GEORGIA
RUSSIAN FEDERATION
IRAN
IRAQ
SYRIA
BULGARIA
GREECE
BAKÜ
Tabriz

rada neftli qazı təbii qazla əvəz etmək qeyri-mümkündür. Bununla belə, bütün sıxılmış qazlar da yüksək iqtisadi əhəmiyyətli material kimi, olefin karbohidrogenlər, xüsusən də etilen, propilen və butilenin alınmasında piroliz xammalını təşkil edir. Neftli qaz mühərrik yanacağının istehsalında, həmçinin lay təzyiqinin saxlanılmasında da əhəmiyyətlidir.

TƏBİİ RESURSLAR – istehsalatda emal edilmədən natural formada istifadə edilə bilən istehsal amili, məsələn, münbit torpaq sahələri, inşaat üçün boş sahələr, meşələr, minerallar, faydalı qazıntılar, sututarlar və s. Bərpa edilə bilməyən təbii resurslar tükəndikcə istehsal amilləri bazarında konyunktura dəyişəcək, tükənməkdə olan resursların qiyməti artacaq. Bu isə onların əvəzedicilərini axtarmağa, daha effektiv və rasional istifadə etməyə sövq edəcəkdir.

Təbii sərvətlər mənşə etibarilə üç qrupa bölünür: bərpa olunmayan, bərpa olunan, tükənməyən.

Bərpa olunmayan təbii sərvətlərə bütün yeraltı faydalı qazıntılar daxildir. Bərpa olunan təbii sərvətlərə məhsuldar torpaqlar, təbii bitki, heyvanat aləmi, meşələr daxildir. Tükənməyən təbii sərvətlərə su, iqlim, təbii bitki ehtiyatları daxildir.

TƏBİİ-DƏRƏCƏ HİPOTEZİ – inflyasiya dərəcəsindən asılı olmayaraq, nəticə etibarilə, işsizliyin öz normal və ya təbii dərəcəsinə dönməsinə dair fərziyyə.

TƏCHİZAT KOOPERASİYASI – xırda mülkiyyətçiləri, kustarları, sənətkarları, fəhlələri və s. istehsal vasitələri və istehlak şeyləri ilə təmin etmək üçün birləşdirən kooperasiya növü. Kooperativ hərəkatın ilkin inkişaf mərhələlərində təchizat kooperasiyası kooperasiyanın ən inkişaf etmiş formalarından biri olmuşdur. Müasir dövrdə çox zaman kənd təsərrüfatında rast gəlinir.

TƏCHİZATIN ETİBARLILIĞI – malgöndərmələrin yarana biləcək yarımçıqlığından, malların çatdırılma müddətlərinin pozulmasından və başqa amillərdən asılı olmayaraq, müəyyən zaman fasiləsində istehlakçının ona zəruri maddi resurslarla təmin edilməsinə zəmanət verilməsi. Təchizatın etibarlılığının hesablanması məsələsi ehtimal nəzəriyyəsi, etibarlılıq nəzəriyyəsi, kütləvi xidmət nəzəriyyəsi və başqa metodların tətbiqi yolu ilə həll edilir.

TƏCİLİ ƏQDLƏR ÜZRƏ MÜKAFATLAR – bir fyuçers müqaviləsinin qiymətinin digərini və ya nağd əqdlər bazarının qiymətini ötdüyü fərq. Birja qaydalarının icazə verdiyi daha keyfiyyətli malın təchizatına görə əlavə ödəniş. Alıcı və satıcı arasında opsionun alışına və ya satışına, fyuçers müqaviləsinə danışılan güzəşt qiyməti. Alıcı ödəyir, satıcı isə mükafat alır.

TƏDARÜK – həm ölkə daxilində, həm də xaricdə topdan partiyalarla malların əldə olunmasıdır. Dövlət tədarükü dedikdə dövlət tərəfindən həyata keçirilən, məsələn, silah, taxıl tədarükü nəzərdə tutulur. Tədarük topdan (böyük partiyalarla) və pərakəndə (kiçik partiyalarla), sistemli, dövlət, qarşılıqlı ola bilər.

TƏDARÜK QİYMƏTLƏRİ – dövlət və digər müəssisə və təşkilatlar tərəfindən kənd təsərrüfatı, xəz-dəri, ovçuluq və s. məhsulların satın alındığı qiymətlər. Əkinçilik və heyvandarlıq məhsullarının reallaşmasının həyata keçirildiyi qiymətlərdir. Bazar münasibətlərinə və qiymətlərin liberallaşmasına keçidə qədər tədarük qiymətləri təbii zonalar, məhsulun keyfiy-yəti və reallaşma müddətinə görə diferensiallaşmaqla planlı qaydada müəyyən olunurdu. Tədarük qiymətləri əksər kənd təsərrüfatı müəssisələrinin geniş təkrar istehsal şərtlərinin təmin edilməsi üçün zəruri olan rentabellik səviyyəsi və obyektiv əmələ gələn məsrəflərin ödənilməsi nəzərə alınmaqla qurulurdu.

Bazar münasibətlərinə keçidlə tədarük qiymətləri inhisarların, tələb və təkliflərin vasitəçilərinin təsiri altında olan kənd təsərrüfatı məhsulunun reallaşmasının real əmələ gələn qiymətinə çevrilirdi.

Müasir mərhələdə bazar münasibətlərinə keçidin təsiri altında sərbəst bazar qiymətləri əmələ gəlir. Bu, mühüm qiymət formasıdır və sivil bazarın yaranması ilə tələb və təklifin təsiri altında formalaşacaqdır. Lakin kənddə əmtəə istehsalçılarının kütləvi surətdə yoxsullaşmasına yol verməməkdən ötrü qiymətin əmələ gəlməsi prosesinin qismən tənzimlənməsi zəruriliyi yardım qiymətlərinin tətbiq edilməsinə gətirib çıxardı. Bunlara nəqliyyat xərclərinin ödənilməsi

nəzərə alınmaqla, sərbəst bazar qiymətlərinin aşağı həddini müəyyən edən təminatlı tədarük qiymətləri, eləcə də məqsədli və hədd qiymətləri daxildir.

TƏDARÜK MƏRKƏZİ – tədarük haqqında qərar qəbul etmə prosesində iştirak edən insan qrupu. Əgər söhbət şirkətdən gedirsə, onda tədarük mərkəzi dedikdə tədarük üzrə qərar qəbul edilməsinə görə məsul olan şirkət hüdudunda insan qrupu başa düşülür. Bu qrup həm də qərar qəbuletmə mərkəzi adlanır.

TƏDARÜK ZƏNCİRİ – malların istehsalçıdan son istehlakçıya yerdəyişmə üsulu.

TƏDARÜKÇÜ – əmtəə və xidmət əldə edilməsi üçün danışıqların aparılması və müqavilələrin hazırlanmasına səlahiyyətli olan təşkilatın nümayəndəsi (nümayəndələri). Bəzən, sadəcə, alıcı-təşkilat haqqında danışılır.

TƏDAVÜL – alqı-satqı vasitəsilə əmək məhsullarının, pulun və digər mülkiyyət obyektlərinin əmtəə istehsalı üçün xarakterik olan mübadilə forması.

TƏDAVÜL FONDLARI – anbarda hazır məhsul, yüklənmiş və yolda olan məhsul, pul vəsaitləri və məhsul istehlakçılarının hesablarında olan vəsaitlərin cəmindən ibarətdir.

TƏDAVÜL XƏRCLƏRİ – əmtəələrin tədavülü prosesində həyata keçirilən xərclər; əmtəənin satıcıdan alıcıya hərəkəti boyu bütün xərclərin məcmusu. Buraya əmtəənin saxlanması, qablaşdırılması, nəqliyyat, satış, reklam, marketinq və s. xərclər aid edilir. Əsas və əlavə tədavül xərclərinə bölünür.

TƏDAVÜL SFERASI – kapital və istehsal fondlarının dövriyyəsi. Merkantilizmə görə, sərvət tədavül sferasında, ticarətdə yaranır.

TƏDİYƏ BALANSI – müəyyən dövr ərzində ölkənin rezidentləri ilə qeyri-rezidentləri tərəfindən həyata keçirilən, bütün iqtisadi sövdələrin yazılması (qeyd edilməsi); başqa sözlə, klassik formada ölkədən xaricə çıxarılan və ölkəyə xaricdən daxil olan bütün iş və xidmətlər üzrə faktiki ödəmələrin nisbəti. Ölkənin rezidenti dedikdə şəxsin vətəndaşlığından və pasport statusundan asılı olmayaraq, bu ölkədə əsas yaşayış yerinə malik olan hər hansı bir adam başa düşülür.

"Tədiyə balansı" anlayışını iqtisadiyyat elminə ilk dəfə 1767-ci ildə C.Styuart gətirmişdir. Bu balansı həm ödəmə, yaxud ödəniş balansı, həm də valyuta balansı adlandırırdılar. Siyasi iqtisad elminin baniləri A.Smit və D.Rikardo tədiyə balansının artırılması probleminin həllinə yeni elementlər gətirmişlər.

XX əsrin başlanğıcından tədiyə balansının tərtibinin daha mükəmməl metodları ABŞ-da və İngiltərədə tətbiq olunur. İlk dəfə tədiyə balansı rəsmi şəkildə 1922-ci ildəki göstəricilərinə görə ABŞ-da tərtib olundu və 1923-cü ildə nəşr edildi. İlkin nəşr rəsmi xarakter daşımamışdır. Çünki bu balans ayrı-ayrı tədqiqatçıların birgə işləri idi.

1923-cü ildə ABŞ-da nəşr edilmiş tədiyə balansı əsas etibarilə 3 bölmə üzrə qruplaşdırılırdı: 1) cari əməliyyatlar; 2) kapitalların hərəkəti; 3) qızıl və gümüşlə əməliyyatlar. Tədiyə balansında kredit hesablarına görə ölkədən nemətlərin axını (uzaqlaşması) əks olunur ki, buna görə bu ölkənin rezidentləri tədiyələr əldə edirlər. Bu zaman "nemət" dedikdə təkcə əmtəə və xidmətlər yox, həm də rezidentlərin öhdəlikləri başa düşülür. Buna görə də xaricdə olan istiqrazlar (borclar) da tədiyə balansı hesabının krediti üzrə əks olunur. Tədiyə balansının hesablarının debeti üzrə həmin ölkəyə nemətlərin axını əks olunur ki, buna görə bu ölkənin rezidentləri tədiyələri ödəməlidirlər. Xaricilərin kreditləşməsi də debet əməliyyatı, yəni beynəlxalq öhdəliklərin idxalı kimi nəzərdən keçirilir. Bu səbəbə görə ölkənin rəsmi ehtiyatlarının artması debet, azalması isə kredit üzrə əks olunur. Kreditin ümumi məbləği tarifə görə tədiyə balansının debetinin ümumi məbləğinə bərabər olmalıdır. Tədiyə balansının strukturunda balansların üç növü fərqləndirilir: ticarət balansı, cari əməliyyatlar balansı və ümumi balans və ya rəsmi hesablaşmalar balansı (bax: cədvəl 1, 2, 3). Bu balanslardan hər biri müsbət və ya mənfi saldoda ifadə olunmalıdır. Ticarət balansı əmtəələrin idxalı çıxılmaqla onların ixracının dəyəridir. Yəni, o yalnız ticarət axınlarının maddələri üzrə hesablanır.

Cari əməliyyatlar balansı təkcə ticarət balansının saldosu haqqında yox, həm də xidmətlərin ixracı və idxalı haqqında, eləcə də birtərəfli transfertlər (pensiyalar, hədiyyələr, xarici pul köçürmələri və ya xarici dövlətlərə təmənnasız yardım) haqqın-

da informasiyanı ümumiləşdirir. Cari əməliyyatlar balansının müsbət saldosu ölkənin digər ölkələrə münasibətdə netto-investor olmasını təsdiq edir. Əksinə, cari əməliyyatlar üzrə kəsir o deməkdir ki, ölkənin xaricdə yerləşən xarici investisiyaları azalır və əmtəə və xidmətinin əlavə xalis idxalına, eləcə də hədiyyələr və köçürmələr verdiyinə görə bu ölkə hesablaşmalardan ötrü xalis borcluya çevrilir. Başqa sözlə, cari əməliyyatlar balansı milli gəlirlə milli xərclər arasındakı fərqdir. Cari əməliyyatlar balansında "kənardakı" kapitallar və ehtiyatlar axını haqqında informasiya əks olunur. Ölkəyə daxil olan və ölkədən çıxarılan kapitallar axını, yəni xaricdə tələbləri doğurmağa qadir qeyri-rezidentlər tərəfindən uzunmüddətli aktivlərin birbaşa alqısı (bu aktivlərin fəaliyyətindən gələn mənfəət formasında) kapitalların hərəkət balansında cəmlənir. Cari tədiyə balansı və kapitalın hərəkəti balansı haqqında informasiya rəsmi hesablaşmalar balansında ümumiləşdirilir ki, burada xarici rəsmi orqanlar tərəfindən likvid öhdəliklərinin artması ilə yığılmış ehtiyatlar müqayisə olunur. Rəsmi hesablaşmalar balansının kəsiri (defisiti) ölkəyə xarici valyuta mədaxillərinin artmasına, artıqlığı (profisiti) isə azalmasına gətirib çıxarır. Məhz rəsmi hesablaşmalar balansının saldosu, adətən, tədiyə balansı saldosu adlandırılır. Ölkənin rəsmi hesablaşmalar balansının kəsirinin mövcud olması onun mərkəzi bankının (və bütövlükdə dövlətin) fəaliyyəti ilə əlaqədardır. Əgər mərkəzi bank xarici valyutanı almırsa və ya satmırsa, onda valyutaların mübadilə məzənnəsi tədiyə balansının müsbət saldosunu və ya kəsrini aradan qaldırmaqdan ötrü tələb olunan səviyyədə müəyyən edilir. Kapitalların hərəkət balansının müsbət saldosu cari əməliyyatları maliyyələşdirir və əksinə, cari əməliyyatların aktiv saldosu ayrı-ayrı iqtisadi agentlərlə baş verdiyi halda olduğu kimi, kapitalların hərəkət balansının kəsirini maliyyələşdirir (bax:cədvəl 1)

Cədvəl 1

Tədiyə balansının təxmini quruluşu

Kredit	Debet
a) mülki əmtəələrin ixracı b) hərbi məhsulun ixracı	c) mülki əmtəələrin idxalı ç) hərbi məhsulun idxalı
Ticarət balansı = a+b-c-ç	
d) xidmətlərin ixracı (investisiya, xarici turizmdən və s. gələn gəlirlər)	e) xidmətlərin idxalı (ölkəyə xarici investisiyalardan gələn mənfəətin köçürülməsi, xaricə turizmə görə tədiyələr və s.) ə) xaricə netto köçürmələr (hədiyyələr)
Cari əməliyyatlar balansı = ticarət balansı + d-e-ə	
f) qeyri rezidentlərin istiqrazları (borcları)	g) qeyri-rezidentlərə verilən xüsusi kreditlər
Ümumi balans = cari tədiyə balansı +f-g	
ğ) xarici hökumətlərin istiqrazları (borcları)	h) dövlət ehtiyatlarının artması
Ümumi kredit	Ümumi debet

TƏDBİRLİLİK PRİNSİPİ – mühasibat uçotunun beynəlxalq prinsipidir ki, bunun da mənası reallaşdırılmamış mənfəətin səhmdarlar arasında dividend kimi bölüşdürülməməsidir. Reallaşdırılmamış mənfəət reallaşana qədər nəzərə alınmır. Təxmin edilən zərərlər isə dərhal onların peyda olma təhlükəsi zamanı nəzərə alınır. Bəzi mütəxəssislərin hesab etdiyi kimi, tədbirlilik prinsipini şirkətin hesabatının elan olunması zamanı lazımi dəqiq və həqiqi qiymətləndirmə ilə uyğunlaşdırmaq çətindir. Qiymətləndirmə pessimist çalar alır. Amma ekspertlərin əksəriyyəti əmindir ki, dəqiq və həqiqi qiymətləndirmə elə tədbirlilik prinsipinə rəhbərliyi nəzərdə tutur.

TƏDİYƏ QABİLİYYƏTİ – sığorta şirkətləri üçün sığorta ödənişlərini həyata keçirmək qabiliyyəti.

TƏDİYƏ QABİLİYYƏTİ DƏRƏCƏSİ – qanunvericilik tərəfindən müəyyən olunan

Cədvəl 2

Azərbaycan respublikasının tədiyə balansı (mln. ABŞ dolları)

Tədiyə balansı	1995	2000	2005	2008	2009	2010
Cari əməliyyatlar hesabı	**-400,7**	**-167,8**	**167,3**	**16453,5**	**10172,8**	**15039,6**
Xarici ticarət balansı	-373,1	319,3	3299,1	23011,7	14582,9	19730,4
malların ixracı	612,3	1858,3	7648,9	30586,3	21096,8	26476,0
malların idxalı	-985,4	-1539,0	-4349,9	-7574,7	-6513,9	-6745,6
Xidmətlər balansı	-132,3	-224,7	-1970,0	-2342,6	-1612,6	-1732,9
nəqliyyat	-15,9	-24,7	-139,7	111,4	-139,4	-156,7
turizm	-75,4	-68,6	-86,3	-150,9	-27,3	-124,3
tikinti	-17,2	-85,7	-1489,4	-1331,7	-599,5	-172,6
rabitə	4,6	9,3	23,2	18,9	25,5	22,7
maliyyə	0,2	-	-	-12,4	-15,1	-8,6
hökumət	-1,6	16,0	30,4	29,5	19,7	13,1
digər işgüzar xidmətlər	-24,5	-71,1	-308,3	-1007,6	-876,6	-1306.4
Gəlirlər	**-6,1**	**-335,5**	**-1645,7**	**-5266,1**	**-3519,2**	**-3467,1**
Əmək ödənişləri	-6,3	-	20,8	-66,1	-42,8	-41,1
Qiymətli kağızlar portfelindən gəlir		-	0,4	11,2	428,0	512,4
Birbaşa investisiyalardan gəlir	0,3	29,2	-1494,0	-5346,9	-3603,0	-3591,8
Digər gəlirlər	-	-	-85,2	179,8	-252,8	-154,5
Cari transferlər	**110,7**	**73,1**	**483,9**	**1050,5**	**721,7**	**509,2**
Beynəlxalq təşkilatlara üzvlük haqqı	-5,0	-	-4,7	-12,7	-17,3	-10,9
Humanitar, texniki və digər təmənnasız yardımlar	36,4	-	119,8	64,2	62,5	49,8
Pul baratları	23,5	-	-	-	-	-
Digər transferlər	5,9	73.1	368,8	999,5	676,5	470,3

Tədiyə balansı	1995	2000	2005	2008	2009	2010
Kapitalın və maliyyənin hərəkəti hesabı	**400,7**	**441,9**	**566,0**	**-3557,9**	**-6018,8**	**-3589,7**
Neft bonusu	175,3	99,9	1,0	3,5	1,0	2,0
Qeyri maliyyə aktivlərinin alınması (torpaq, onun sərvətləri və s.)	-1,6	-	-	0,7	-	-
Xarici iqtisadiyyata investisiya		-	-1220,8	-555,6	-326,1	-231,9
Azərbaycan iqtisadiyyatına birbaşa investisiya	154,7	-	4475,4	3982,4	2899,0	3347,3
Səhmdar kapital	148,9	-	-	3516,4	-	-
Digər kapital	5,8	-	-	466,0	-	-
Portfel investisiyalar	-1,7	-	30,5	-347,4	-138,8	-138,8
Aktivlər	-1,7	-	-47,8	-320,8	-84,3	-163,3
Passivlər			78,3	-26,6	-54,5	24,5
Digər investisiyalar	173,9	312,8	35,4	-2680,3	-6036,4	-3796,4
Aktivlər	-22,2	**-114,2**	**-889,7**	**-3585,3**	**-5653,7**	**-5594,3**
ticarət kreditləri		-119,9	-766,4	-1984,3	-1077,1	-1471,6
kreditlər və ssudalar	0,2	-	-12,6	-731,2	-301,4	-266,6
nağd pul və depozitlər	-19,8	7,1	-74,2	-869,8	-4275,2	-3856,1
digər aktivlər	-2,5	-1,4	-36,4	-	-	-
Passivlər	**196,1**	**426,9**	**925,1**	905,0	**-382,7**	**1797,9**
ticarət kreditləri	69,3	33,5	-97,4	42,3	75,6	523,4
kreditlər və ssudalar	131,5	203,4	1179,6	759,8	-548,6	1318,8
nağd pul və depozitlər	-0,3	-22,6	14,8	102,9	-149,8	-44,3
digər passivlər	-4,4	212,6	-171,9	533,2	240,1	-
Ehtiyat aktivləri	-161,6	-274,2	-607,7	-12049,9	-2691,0	-10461,2
Müəyyən olunmamış vəsait	61,6	-	-125,6	-845,7	-1463,0	-988,7
Ümumi balans	0,0	0,0	0,0	0,0	0,0	0,0

Cədvəl 3

Azərbaycan Respublikası üzrə tədiyə balansının əsas göstəriciləri

	2009-cu il	2010-cu il
I. Cari əməliyyatlar hesabının saldosu	**10172,8**	**15039,6**
Xarici ticarət balansı	14582.9	19730,4
Xidmətlər balansı	-1612,6	-1732,9
Gəlirlər balansı	-3519,2	-3467,0
İnvestisiya gəlirlərinin repatriasiyası	-3152.6	-3052,4
Cari transfertlər balansı	721,7	509,1
II. Kapitalın və maliyyənin hərəkəti hesabının saldosu	**-7481,8**	**-4578,4**
Birbaşa investisiyalar	146,2	329,1
– Azərbaycana cəlb olunmuş	2899,0	3347,3
– xaricə yönəldilmiş	-326,1	-232,0
– investisiyaların repatriasiyası	-2426,7	-2786,2
Kreditlər və digər investisiyalar	-7628,0	-4907,5
III. Tədiyə balansının ümumi saldosu (ölkənin ehtiyat aktivlərinin dəyişməsi)	**2691,0**	**10461,2**

məbləğ. Burada sığorta şirkətinin aktivləri passivlərindən çox olmalıdır.

TƏDİYƏ QABİLİYYƏTLİ MARJA – qəbul edilmiş direktivlərə uyğun olaraq Avropa İttifaqı ölkələrində sığorta şirkətlərinin tədiyə qabiliyyətinin tələb olunan səviyyəsini müəyyən edən normativ hesablama göstəricisi.

TƏDİYƏ QABİLİYYƏTLİ TƏLƏB – alıcıların pul vəsaitləri ilə təmin edilmiş əmtəə və xidmətlərə tələbi.

Tədiyə qabiliyyətli tələbin aşağıdakı növlərini fərqləndirirlər:

1. İstehsal amillərinə tələb (istehsalın tələbi).

İstehsal predmetlərinə tələb (əhalinin tələbi). Bu kəmiyyət çox cəhətdən əhalinin əlində və banklarda olan pul vəsaitlərinin həcmindən, müxtəlif ödəmələrdən və mirasdan, bazarın həcmindən, malların qiymətindən, keyfiyyətindən və faydalılıq dərəcəsindən, istehlakçıların üstünlük verdiyi dəyərlərdən və onların subyektiv zövqlərindən asılıdır.

Əhalinin tədiyə qabiliyyətli tələbi istehlakdan çox, yaxud az ola bilər. İstehlakın ümumi fondunda həcmi 60%-dən çox olan şəxsi əmlakı nəzərə almasaq, bu halda tələbat istehlakdan düz təmin edilməmiş tələbatın həcmi qədər artıqdır. Toplanmış əmlak nəzərə alınsa, istehlak həmişə tələbdən çox olur.

Tələb olduqca mütəhərrik və dəyişkəndir, çünki onun qiymətinə və dinamikasına təsir göstərən iqtisadi, sosial və texnoloji amillər çoxdur. Məsələn, mala tələb reklamın təsiri ilə moda, üstünlüklər, malların əlyetərli olması, gəlirlərin həcmi, ətraf mühit, qarşılıqlı əvəzlənən malların qiymətləri, əşyanın faydalılığı, gələcəkdə gözlənilən qiymətlər və s. amillərdən asılı olaraq arta bilər.

Bundan əlavə, qarşılıqlı əlaqəli malların qiymətlərinin dəyişməsi də tələb əyrisinin vəziyyətinə təsir göstərir.

TƏDİYƏ TAPŞIRIĞI – lazımi qaydada tərtib edilmiş hesablaşma sənədi şəklində sərəncam. Bu sərəncamı hesabın sahibi ona xidmət edən banka verir və ona əsasən müəyyən məbləğdə pul vəsaitləri alanın bank hesabına köçürülür. Tədiyə tapşırığında aşağıdakı məlumatlar göstərilməlidir:

1) tədiyəçinin və alanın adı (soyadları, ata adları), onların VÖEN-ləri (vergi ödəyicisinin eyniləşdirmə nömrələri);

2) tədiyəçinin və alanın bank hesablarının nömrələri, müxbir hesabları və onların banklarının BİK-ları (bank identifikasiya kodları);

3) tədiyənin məbləği və ödənişin

hansı sənəd üzrə həyata keçirilməsi barədə göstəriş (tədiyənin əsası);
4) əlavə dəyər vergisinin (ƏDV) məbləği və aksizin məbləği, zəruri hallarda digər rekvizitlər.
Tədiyə tapşırığı onun yazıldığı gün də daxil olmaqla, həmin tarixdən etibarən 11 gün müddətində qüvvədədir. Bank tədiyə tapşırığını qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və ya əgər bu hal bank hesabı müqaviləsi ilə reqlamentləşdirilirsə, onda daha tez icra edir.
Tədiyə tapşırıqlarından malların, işlərin, xidmətlərin haqqının qabaqcadan ödənilməsi zamanı və ya müntəzəm vaxtaşırı tədiyələr üçün istifadə edilir. Bank tədiyəçinin şəxsi hesabının vəziyyətindən asılı olmayaraq tədiyə tapşırıqlarını qəbul etməyə borcludur.

TƏDİYƏ VAXTI – sığorta və ya sığortaçıya sığorta məbləğinin ödənilməsi zamanı ilkin müəyyən olunmuş müddətin başa çatma vaxtı.

TƏDİYƏLƏRİN NÖVBƏLİLİYİ (ing. *payments priority*) – tələblərin, pretenziyaların, öhdəliklərin həcmi müştərinin bank hesabındakı pul vəsaitləri qalığından artıq olduqda, həmin hesabdan tədiyə sənədlərinin ödənilməsinin qanunla, normativ aktlarla təsbitlənmiş, ciddi riayət edilməli ardıcıllığı.
Təqvim növbəliliyinə əsasən, sənədlərin ödənilməsi onların banka daxil olmasından asılı olaraq həyata keçirilir. Növbəliliyin seçilməsi tədiyələrin, iddiaların bu və ya digər növlərinin ödənilməsinə üstünlük verilməsinə əsaslanır.
Belə hallarda hesablaşma hesabından tədiyələrin (vəsait verilməsinin) aşağıdakı ardıcıllığına riayət edilməlidir:
1) əmək haqqı ödənilməsi üçün vəsaitlər verilir, vergilər, tədiyələr və sosial sığorta haqları büdcəyə köçürülür;
2) malgöndərənlərin maddi qiymətlilər və xidmətlər üçün hesabları ödənilir;
3) amortizasiya ayırmalarının və mənfəətdən əsaslı vəsait qoyuluşlarına və əsaslı təmirə ayırmaların məbləğləri, habelə əsas vəsaitlərin ləğv edilməsindən mədaxil köçürülür;
4) bank kreditləri ödənilir;
5) bütün başqa ödənişlər həyata keçirilir.

TƏDİYƏNİN TƏXİRƏ SALINMASI (ing. *postpenement of payment*) – əsas borcun ödənilməsinin spesifik metodu. Bu halda əsas borcun tam ödənilmə müddəti əvvəlcədən müəyyən edilmiş müddətdən sonraya keçirilir.

TƏDQİQAT ÜZRƏ XÜLASƏ – agentliyin marketinq tədqiqatları üzrə öz müştərilərinə məhz hansı xidmətləri təqdim etdiyini müəyyən edən sənəd. Bu zaman həmin xidmətlərin dəyəri göstərilir.

TƏFTİŞ – nəzarət obyektinin maliyyə və təsərrüfat fəaliyyətinin vəziyyəti barədə tam və dürüst məlumatın əldə edilməsini, vəsaitlərin mövcud qanunvericiliyin tələblərinə uyğun, təyinatı üzrə xərclənilməsi vəziyyətini, dəymiş zərərin müəyyən olunmasını və zərərin təqsirkar şəxslər tərəfindən bərpasını, eləcə də maliyyə nəzarəti standartlarına uyğun olaraq nəzarət obyektinin maliyyə və təsərrüfat fəaliyyətinin konkret dövrünün bütün sahələrini əhatə etməklə, sənədli və faktiki nəzarət qaydasında (maddi aktivlərin və material qiymətlilərin kəmiyyət və keyfiyyət baxımından mövcud vəziyyətinin müəyyən olunması) aparılan daxili dövlət maliyyə nəzarəti metodu.

TƏHLİL PROSEDURLARI (*review prosedures*) – təhlil tapşırığının məqsədlərinə, iqtisadi subyektin heyətinin əsas sorğularına və maliyyə məlumatları üçün tətbiq olunan analitik prosedurlara cavab verməsi zəruri hesab edilən prosedurlar.

TƏHLÜKƏSİZLİK ZƏMANƏTİ – sığortaçının yoxsullaşmamasının tələb olunan ehtimalı; yəni netto-mükafatların məbləğinin ödənişlərin məbləğindən yüksək olması ehtimalıdır; bunu nəzərə alaraq həmin sığorta növü üzrə netto-dərəcənin zəruri kəmiyyəti müəyyən edilir.

TƏHSİL NAZİRLİYİ (TN) – təhsil sahəsində dövlət siyasətini və tənzimlənməsini, təhsil prosesinə ümumi metodiki rəhbərliyi həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı. Əsas vəzifələri Azərbaycan Respublikasında təhsil sisteminin müəyyən edilmiş istiqamətlər üzrə inkişafını təmin etmək, təhsilin keyfiyyətinə dövlət nəzarətini həyata keçirmək; vətəndaşların təhsil almaları ilə bağlı Konstitusiya hüquqlarını qorumaq məqsədilə təhsildə bərabər imkanların yaradılmasına nail olmaq; mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün təhsil müəssisələrinə elmi, tədris-metodiki rəhbərliyi həyata keçirməkdən ibarətdir. Azərbaycanda xalq maarifi və



Qocaman təhsil işçisi, respublikanın əməkdar müəllimi, 60 ilə yaxın 190 saylı məktəbin direktoru olmuş Sona xanım Tağıyeva Heydər Əliyevi "Xalq müəllimi" fəxri adı alması münasibətilə təbrik edir.




Xaçmaz rayonu Z.Əliyeva adına 8 saylı məktəb

132 -134 saylı təhsil müəssisəsi əsaslı təmirdən sonra Bakıya yaraşıq verən kompleksə çevrilmişdir





Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturu



Sxem 1



"Həştərxan çoxlu etnosun, xalqın yaşadığı məkanın bir hissəsidir. Həştərxan lap qədimlərdən burada yaşayan azərbaycanlılar üçün xüsusi ərazidir".

Heydər Əliyev

Heydər Əliyev adına 11 saylı məktəb (Həştərxan)

2011-ci il oktyabrin 24-də Həştərxanda əsaslı təmirdən sonra Heydər Əliyev adına 11 saylı məktəbin açılışı olub. Təhsil ocağı Heydər Əliyev Fondunun təşəbbüsü və Azərbaycan dövlətinin maliyyə dəstəyi ilə yenidən qurulub. Əsaslı təmirdən sonra məktəbin siması büsbütün dəyişib. 1937-ci ildə inşa edilmiş binanın özülü möhkəmləndirilib, iki yeni korpus tikilib. Müasir idman kompleksi, istilik sistemi və elektrik xətləri yenidən qurulub. Təhsil müəssisəsi yeni kompüterlər, mebel, yeməkxana avadanlığı ilə təchiz edilib. Məktəbin həyətində xüsusi örtüklü idman meydançası inşa edilib.







"Biz həştərxanlıların Azərbaycan dövlətinə hörmətinin əlaməti olaraq, habelə ölkələrimiz arasındakı münasibətlərin dəstəklənməsi üçün məktəbə Heydər Əliyevin adının verilməsini təklif etdik".

Həştərxan vilayətinin qubernatoru
Aleksandr Jdkin

"...Biz uzunmüddətli inkişaf strategiyamızı müəyyən edərkən mütləq güclü elmi bazaya arxalanmalıyıq. Biz iqtisadi inkişafımızın gələcək istiqamətlərini müəyyən edərək güclü elmi əsaslara söykənməliyik. Burada düzgün proqramlar verilməlidir. Biz nəinki beşillik proqramı icra edərkən bu məsələlərlə məşğul olmalıyıq, uzaq gələcəyə baxmalıyıq – 20 ildən, 30 ildən sonra Azərbaycan hansı imkanlar hesabına inkişaf edəcəkdir?! Azərbaycanda elə güclü potensial yaradılmalıdır ki, ölkəmizin inkişafı uzunmüddətli və dayanıqlı olsun. Biz neft-qaz amilindən asılılığımızı tədricən azaldırıq. Artıq bu istiqamətdə müəyyən işlər görülmüşdür. Gələcəkdə isə biz çoxşaxəli iqtisadiyyat yaratmaqla elmi əsaslara söykənərək dayanıqlı inkişaf modelimizi qurmalıyıq".

İlham Əliyev

təhsili üzrə ilk nazirlik 1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə Xalq Maarifi Nazirliyi adı altında yaradılmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin maarif naziri 1, 2 və 3-cü kabinələrdə Nəsib bəy Yusifbəyli, 4-cü kabinədə R.Kaplanov, 5-ci kabinədə isə H.Şahtaxtinski olmuşdur. Sovet hakimiyyəti dövründə – 1920-ci ildə Xalq Maarifi Komissarlığı adı ilə yenidən təşkil edilmiş və ölkədəki bütün təhsil müəssisələri onun tabeliyinə verilmişdir. Peşə təhsili sahəsində mərkəzi icra orqanı – Dövlət Texniki Peşə Təhsili Komitəsi (1959-1988-ci illər) fəaliyyət göstərmişdir. 1959-cu ildə, həmçinin Ali və Orta İxtisas Təhsili Komitəsi yaradılmış, respublikada fəaliyyət göstərən ali və orta ixtisas məktəbləri onun tabeliyinə verilmişdir. Həmin komitə 1964-cü ildən müstəqil nazirliyə çevrilmiş və 1988-ci ilədək fəaliyyət göstərmişdir. 1959-1988-ci illərdə Azərbaycanda təhsillə bağlı iki nazirlik və bir komitə (Xalq Maarifi Nazirliyi, Ali və Orta İxtisas Təhsili Nazirliyi, Dövlət Texniki Peşə Təhsili Komitəsi) fəaliyyət göstərmişdir. 1988-ci ildə hər üç qurum ləğv edilmiş, onların bazasında Xalq Təhsili Nazirliyi yaradılmışdır. 1993-cü ildə nazirliyin adı dəyişdirilmiş və Təhsil Nazirliyi adlandırılmışdır.


Təhsil xərclərinin ilbəil artması təhsilin dövlət siyasətinin əsas prioritetlərindən biri hesab edilməsi ilə birbaşa bağlıdır. Təsadüfi deyildir ki, möhtərəm Prezident vurğulayır ki, "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik". "Təhsil əsri" elan edilən XXI əsrdə yüksək intellektə malik insan kapitalının formalaşması və güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu heç vaxt indiki qədər aktual olmamışdır.

Son illərdə təhsil xərclərinin artmasının əsasında da həmin konseptual müddəalar dayanır. Təhsilə ayrılan büdcə 2003-cü illə müqayisədə 6 dəfədən çox artaraq 2011-ci ildə 1,2 milyard manat təşkil etmişdir. Müasir informasiya-kommunikasiya texnologiyaları, linqafon kabinetləri, hər cür tədris vəsaitləri ilə təchiz olunmuş fənn kabinetləri, laboratoriyalar, idman zalları olan möhtəşəm təhsil komplekslərinin şagirdlərin ixtiyarına verilməsi ümumilikdə Azərbaycan məktəbinin və müəlliminin nüfuzunu yüksəltmişdir.

Təhsil işçilərinə dövlət qayğısının nəticəsidir ki, 2009-cu ildə 470 nəfərin, 2010-cu ildə isə 300-dən çox təhsil işçisinin əməyi qiymətləndirilmiş, onlar yüksək dövlət təltiflərinə layiq görülmüşlər. Ölkə Prezidentinin sərəncamına əsasən, keçirilən "Ən yaxşı müəllim" və "Ən yaxşı məktəb" müsabiqələri təhsil tariximizdə mühüm hadisə olmaqla, məktəb və müəllimlər arasında sağlam rəqabəti, innovativ fəaliyyəti gücləndirmiş, təhsilin keyfiyyətinin yüksəlməsinə müsbət təsir göstərmiş, son 3 ildə müsabiqələrin qalibi olmuş ən yaxşı 300 müəllimə və 150 məktəbə yüksək mükafatlar verilmişdir.

Azərbaycan dövlətinin təhsilə diqqət və qayğısının nəticəsində təhsil tariximizdə ilk dəfə olaraq 16 inkişafyönümlü dövlət proqramı təsdiq olunmuş və uğurla həyata keçirilməkdədir. Təhsilin ayrı-ayrı sahələrinin inkişafı üzrə real vəziyyətin təhlili əsasında hazırlanıb təsdiq edilmiş bu proqramların həyata keçirilməsi nəticəsində təhsil infrastrukturunun müasir tələblərə uyğun qurulması, təhsilin məzmununun yeniləşdirilməsi, yeni dərslik siyasətinin reallaşdırılması, təhsil alanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə

Təhsil və onun funksiyaları



Sxem 1

yeni model və mexanizmlərin tətbiqi, əmək bazarının tələbatına uyğun kadr hazırlığı və təminatının yaxşılaşdırılması, təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları ilə təmini və təhsil sisteminin informasiyalaşdırılması, məktəbəqədər, texniki-peşə, ali təhsil, xaricdə təhsil, istedadlı uşaqların inkişafı, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili, de-institutlaşdırma və digər bu kimi sahələrdə əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur.

Müstəqillik tariximizdə ilk dəfə olaraq uşaq bağçaları üçün müasir tələblər səviyyəsində 151 adda təlim vəsaitləri hazırlanıb müəssisələrə çatdırılmışdır.

Son illərdə Azərbaycanda yeni tikilən, əlavə korpuslar inşa edilən, əsaslı təmir olunan məktəblərin sayı 2000-i ötmüşdür.

Məktəblərin infrastrukturunun yeniləşdirilməsi sahəsində Heydər Əliyev Fondunun müstəsna xidmətləri olmuş, Fondun təşəbbüsü ilə 300-ə yaxın yeni məktəb, uşaq bağçası, uşaq evi, internat məktəbi binası tikilib istifadəyə verilmiş, əsaslı təmir və bərpa olunmuş, müasir avadanlıqlarla təchiz edilmişdir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2010-cu ildə Gürcüstanda azərbaycanlı soydaşlarımızın yaşadığı bölgələrdə 3 məktəb əsaslı təmir və bərpa edilmişdir.

Məktəb infrastrukturunun inkişafı sahəsində tədbirlər ardıcıl olaraq davam etdirilmiş, 2010-cu ildə 18852 yerlik 59 yeni məktəb binası və əlavə korpuslar inşa edilmiş, 8 məktəbdə əsaslı təmir, 356 məktəbdə təmir işləri aparılmış, 6980 yerlik 25 yeni məktəb binasının tikintisinə başlanmışdır. 266 məktəb müasir avadanlıqlarla, 115 məktəb kimya və fizika laboratoriyaları ilə təchiz edilmişdir. 66 məktəb kitabxanası zəruri avadanlıqlarla təmin edilmişdir. Son illərdə uşaq bağçalarının tikintisi üzrə xüsusi proqram həyata keçirilir ki, bu da uşaqların bağçalara cəlb olunma səviyyəsini xeyli artırmağa imkan vermişdir.

Ölkənin bütün məktəblərinin maddi-texniki bazasının müasir standartlar səviyyəsinə çatdırılması ilə əlaqədar hazırlanan proqrama əsasən, 551 yeni məktəb binasının, 309 məktəb üçün əlavə korpusların inşası, 859 məktəbdə əsaslı təmir və bərpa işlərinin aparılması ölkədə ümumi təhsil müəssisələrinin maddi-texniki bazası sahəsində problemin tam həllini və məktəblərin birnövbəli fəaliyyətini təmin edəcəkdir.

Yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblər üçün əlavə korpusların inşası, onların əsaslı təmiri, müasir avadanlıqlarla, laboratoriyalarla təminatı, istilik sisteminin bərpası nəticəsində ümumilikdə ölkə üzrə 1 milyondan çox şagirdin, yəni bütün şagirdlərin 80 faizinin təlim şəraiti yaxşılaşdırılmışdır.

Məktəb tikintisi sahəsində həyata keçirilən proqramlar nəticəsində ikinövbəli məktəblər 73%-dən 44%-ə, ikinci növbədə təhsil alan şagirdlər 34,5%-dən 21%-ə enmişdir.

Son illərdə Dünya Bankının maliyyə yardımı ilə həyata keçirilən islahatyönümlü tədbirlərin böyük əksəriyyəti ümumi təhsilin məzmununun yeniləşdirilməsinə və mütərəqqi dünya təcrübəsinə uyğunlaşdırılmasına yönəlmişdir. Əsas məqsəd şagirdlərin idrak fəallığını, ümumi inkişafını ləngidən mövcud "yaddaş məktəbi"ndən "təfəkkür və düşüncə məktəbi"nə keçmək və bu əsasda ümumi təhsilin müasir modelini qurmaqdan ibarətdir.

2008-2009-cu tədris ilində ümumtəhsil məktəblərinin I siniflərində tədrisə yeni fənn kurikulumları və müasir dərsliklərlə başlanmış, bu proses 2010-2011-ci dərs ilində I, II və III sinifləri əhatə etmişdir. Yeni kurikulumların tətbiqi ilə əlaqədar I siniflərdə işləyən 27 minədək müəllim (2010-cu ildə 9 minədək) xüsusi proqram əsasında öyrədici təlim kurslarından keçirilmiş, nümunəvi tədris materialları ilə təmin edilmişlər. Kurikulumların tətbiqi sahəsində fəaliyyət göstərən təlimçilərin tərkibini genişləndirmək, nəzəri və praktik hazırlığını təmin etmək məqsədilə treninqlər təşkil olunmuş, çoxsaylı təlimçi hazırlanmışdır. "British Council"la Bakı şəhərinin 7 pilot məktəbində xüsusi tədris planı və proqramı əsasında ingilis dilinin, Rusiyanın Azərbaycandakı səfirliyi ilə birlikdə Respublikanın 50 məktəbində rus dilinin intensiv tədrisi layihələri davam etdirilmişdir.

2010-cu ildə müasir informasiya texnologiyalarının təhsil sisteminə inteqrasiyası istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilmiş, bütün orta məktəb kompüterləri lisenziyalı proqram təminatı ilə təchiz olunmuşdur. İKT üzrə savadlılığın

artırılmasına yönəlmiş kompleks tədbirlərin həyata keçirilməsi məqsədilə 23 min nəfər pedaqoji və inzibati heyət treninqlərdən keçirilmişdir.

2010-cu ilin sonuna respublika üzrə İKT üzrə təlimlərdən keçənlərin ümumi sayı 64680 (38%) nəfər təşkil etmişdir.

2008-2012-ci illəri əhatə edən "Təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı"na əsasən, 1000 məktəb genişzolaqlı sürətli internetlə təmin olunmuş, internetə qoşulmuş məktəblərin faizi 2004-cü ildəki 1,5%-dən 2010-cu ildə 22%-ə yüksəlmişdir. Yaradılmış DATA mərkəz, elektron tədris resursları bazası, vahid təhsil portalı səmərəli idarəetməni təmin etmişdir. Hazırda 20 şagirdə 1 kompüter nisbətinə nail olunmuşdur. 2009-cu ildən başlanmış "Xalq kompüteri" layihəsi çərçivəsində 10 min müəllim sadələşdirilmiş şərtlərlə kompüter əldə etmişdir. "Şagird və tələbələr üçün xalq kompüteri" layihəsinə başlanmışdır.


Ali təhsilin inkişafı sahəsində də nailiyyətlər əldə olunmuş, Azərbaycan Boloniya sisteminə qoşulmuş, Avropa təhsil məkanına inteqrasiya istiqamətində əhəmiyyətli addımlar atılmışdır. YUNESKO və digər beynəlxalq qurumların sənədlərinə, habelə beynəlxalq təsnifat strukturuna uyğun olaraq, ali təhsilin bakalavr səviyyəsi ixtisaslarının (proqramlarının) yeni siyahısı hazırlanmış və hökumət tərəfindən təsdiq edilmişdir. 23 ali təhsil müəssisəsi akkreditasiyadan keçmiş, Təhsil Nazirliyi sistemində olan ali təhsil müəssisəsində və bütün özəl ali məktəblərdə kredit sistemi tətbiq edilmişdir.

Ali təhsil müəssisələrinin infrastrukturunun inkişafı sahəsində əhəmiyyətli işlər görülmüş, 5 universitet üçün əlavə korpuslar inşa edilmiş, 21 universitet əsaslı təmir olunmuş, 3 ali məktəb üçün yeni binalar tikilməkdədir. Ölkə Prezidentinin "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" Sərəncamına əsasən, 2010-2011-ci tədris ilindən başlayaraq ali təhsil müəssisələrində büdcə vəsaiti hesabına maliyyələşdirmə dövlət sifarişi əsasında həyata keçirilmişdir.

Hazırda 10 min nəfər azərbaycanlı gənc dünyanın müxtəlif ölkələrinin ali məktəblərində təhsillərini müvəffəqiyyətlə davam etdirir, onlardan 816 nəfəri dövlətlərarası müqavilələrə, 750 nəfəri isə "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almalarına dair Dövlət Proqramı"na əsasən dünyanın aparıcı universitetlərinə təhsil almağa göndərilmişdir. Ölkəmizdə təhsil alan əcnəbi tələbələrin sayı da ilbəil artır, hazırda onların sayı 7 mini ötmüşdür .

Dünya Bankı ilə son 10 ildə təhsil sahəsində səmərəli əmək-

2011-ci ildə dövlət büdcəsində təhsil xərclərinin iqtisadi təsnifat üzrə quruluşu



Qrafik 1

daşlıq və həyata keçirilən uğurlu islahatlar nəzərə alınaraq, Azərbaycan pilot ölkə kimi müəyyənləşdirilmişdir.

Eyni zamanda Dünya Bankı tərəfindən digər ölkələr üçün nümunə kimi qəbul edilmiş, bu sahədə Azərbaycan təcrübəsinin öyrənilməsi tövsiyə olunmuşdur. Əgər əvvəllər təhsil islahatları sahəsində təcrübə öyrənmək üçün xarici ölkələrə təlim səfərləri edirdiksə, indi Dünya Bankının tövsiyəsinə əsasən, xarici ölkələrdən Azərbaycana təlim səfərləri nəzərdə tutulmuşdur.

Davamlı insan inkişafı sahəsində ölkənin təhsil müəssisələrində həyata keçirilən islahatlar BMT tərəfindən də yüksək qiymətləndirilmiş, Azərbaycan təcrübəsi bütün üzv ölkələrə nümunə kimi tövsiyə olunmuşdur. Dünya Bankının 2010-cu il hesabatında qeyd edilmişdir ki, "Azərbaycanın təhsil sistemi əhəmiyyətli nailiyyətlər əldə etmişdir".


BMT-nin 2010-cu il üzrə İnsan İnkişafı hesabatında göstərilir ki, 2005-2010-cu illər ərzində Azərbaycan insan inkişafı sahəsində ən sürətli irəliləyişə nail olmuşdur. 2005-ci ildə 101-ci yerdə olan Azərbaycan 2010-cu ildə 169 ölkə arasında 34 pillə irəliləyərək 67-ci yerə yüksəlmiş, orta inkişaf səviyyəli ölkələr qrupundan yüksək inkişaf etmiş ölkələr qrupuna daxil olmuşdur. İnsan İnkişafı İndeksinin orta illik artım sürətinin 1,77 olması ilə Azərbaycan postsovet məkanında qabaqcıl ölkə olmuşdur.

Təhlil göstərir ki, Azərbaycanda insan inkişafı indeksinin yüksəlməsinə təhsil göstəriciləri əhəmiyyətli təsir göstərmişdir. Belə ki, həmin hesabatda göstərilir ki, Azərbaycanda savadlılıq səviyyəsi 99,5%, orta təhsillə əhatə səviyyəsi 95,6% təşkil edir.

TƏHSİLİN İQTİSADİYYATI – iqtisad elminin bir sahəsi olub, təhsil sahəsində maddi, maliyyə və əmək ehtiyatlarının hərəkəti qanunauyğunluqlarını öyrənir.

Təhsil şəxsiyyətin sosiallaşdırılması kontekstinə daxil olan elm və biliklərin mənimsənilməsi prosesi və nəticəsini özündə əks etdirir. Təhsilə məktəbəqədər təlim və tərbiyə, ümumi orta təhsil, kadrların hazırlanması aiddir. Kadrların hazırlanması da özündə professional-texniki, orta xüsusi və ali təhsili cəmləşdirir. Təhsilin əsas subyekti kimi təhsil müəssisəsi çıxış edir. O, müstəqil maliyyə-təsərrüfat fəaliyyətini həyata keçirir, ayrıca balans və hesablaşma hesabına malik olur. Daha geniş mənada təhsilin iqtisadiyyatının predmetinə aşağıdakılar aiddir: sahəyə və onun ayrı-ayrı sistemlərinə kapital qoyuluşunun səmərəlilik səviyyəsi, təhsilin dövlət tərəfindən maliyyələşdirilməsinin vacib həddi, büdcədənkənar maliyyələşdirmənin mənbələri, təhsilin investorları-

2011-ci ildə dövlət büdcəsində təhsil xərclərinin pillələr üzrə strukturu



Qrafik 2

Cədvəl 1

Məktəbəqədər və ümumtəhsil illəri daha çox olan dünyanın 20 ölkəsi

№	Ölkə	İllərin sayı
1.	Avstraliya	20
2.	Yeni Zelandiya	19
3.	İrlandiya	18
4.	İslandiya	18
5.	Yunanıstan	17
6.	Danimarka	17
7.	Kanada	17
8.	Liviya	17
9.	Norveç	17
10.	Sloveniya	17
11.	Finlandiya	17
12.	Cənubi Koreya	17
13.	Belçika	16
14.	Böyük Britaniya	16
15.	Almaniya	16
16.	İspaniya	16
17.	İtaliya	16
18.	ABŞ	16
19.	Fransa	16
20.	İsveç	16

Cədvəl 2

Məktəbəqədər və ümumtəhsil illəri daha az olan dünyanın 20 ölkəsi

№	Ölkə	İllərin sayı
1.	Cibuti	4
2.	Niger	4
3.	Burkina-Faso	5
4.	Qvineya-Bisau	5
5.	Eritreya	5
6.	Çad	6
7.	Benin	7
8.	Burundi	7
9.	Qambiya	7
10.	Zambiya	7
11.	Mali	7
12.	Pakistan	7
13.	Syerra-Leone	7
14.	Əfqanıstan	8
15.	Banqladeş	8
16.	Qvineya	8
17.	Mavritaniya	8
18.	Myanma	8
19.	Nigeriya	8
20.	Efiopiya	8

Cədvəl 3

Təhsilə daha çox xərc çəkən 15 ölkə (ÜDM-dən)

№	Ölkə	Təhsilə xərclər (ÜDM-dən, %-lə)
1.	Kiribati	17,8
2.	Lesoto	13,0
3.	Marşall adaları	11,8
4.	Palau	10,3
5.	Yəmən	9,6
6.	Vanuatu	9,5
7.	Özbəkistan	9,4
8.	Sent-Kits və Nevis	9,3
9.	Kuba	9,1
10.	Botsvana	8,7
11.	Cibuti	8,4
12.	Qayana	8,3
13.	Danimarka	8,3
14.	Sent-Vinsent və Qrenadina	8,1
15.	Maldiv adaları	8,0

Cədvəl 4

Təhsilə daha az xərc çəkən 15 ölkə (ÜDM-dən)

№	Ölkə	Təhsilə xərclər (ÜDM-dən, %-lə)
1.	Ekvatorial Qvineya	0,6
2.	Nigeriya	0,9
3.	Ekvador	1,0
4.	Myanma	1,2
5.	BƏƏ	1,3
6.	Haiti	1,4
7.	MAR	1,4
8.	Qvineya	1,6
9.	Kamboca	1,7
10.	Vyetnam	1,8
11.	Çin	1,9
12.	Konqo (Brazzavil)	1,9
13.	Çad	1,9
14.	Qambiya	2,0
15.	Zambiya	2,0

nın stimullaşdırılmasının dövlət siyasəti, təhsil müəssisələrinin resurslarla təmin edilməsində mərkəzləşdirmə ilə qeyri-mərkəzləşdirmənin rasional əlaqələndirilməsi, təhsil müəssisələrinin müxtəlif müstəqillik səviyyəsində onların resurslara olan tələbatının proqnozlaşdırılmasının metod və texnologiyaları.

Keçmiş SSRİ-də təhsilin iqtisadi səmərəliliyi keçən əsrin 20-ci illərində akademik S.Q.Strumilin tərəfindən öyrənilmişdi. Fəhlənin əmək məhsuldarlığı ilə onun təhsil səviyyəsini müqayisə edərkən akademik belə bir qənaətə gəlmişdi ki, bir il ərzində əldə edilən adi savad fəhlənin məhsuldarlığının 30% artmasına səbəb olur. Müəyyən edilmişdir ki, orta məktəbdə təhsilin səviyyəsinin bir sinif artması rasional təkliflərin 6% artmasına, fəhlələr tərəfindən yeni əməliyyatların mənimsənilməsinin isə 50% azalmasına səbəb olur. Son iki əsrdə inkişaf etmiş ölkələrdə iqtisadi tərəqqi təhsilin səviyyəsinin artırılması ilə paralel olaraq həyata keçirilir. 1800-1913-cü illər ərzində təhsil alma müddəti ABŞ-da 2,1-dən 8,3-ə, Böyük Britaniyada 2-dən 8,1-ə, Almaniyada 2,4-dən 8,4-ə, Fransada 1,6-dan 7-yə, İtaliyada 1,1-dən 4,8-ə, Yaponiyada 1,2-dən 5,4-ə qədər yüksəlmişdir. 2008-ci ildə təhsilin orta müddəti inkişaf etmiş ölkələr üzrə aşağıdakı kimi olub: ABŞ 17,6, Almaniya 15,5, Fransa 15,3, Yaponiya 14,6, Böyük Britaniya 13,9, İtaliya 11. 1995-ci ildə ABŞ-da fəhlənin orta təhsil müddəti 14,2 il təşkil edib. Ali təhsil üzrə lider ölkələr aşağıdakılardır: ABŞ (əmək qabiliyyətli əhalinin 35%-i), Kanada (30%), İsveçrə (24%), İsveç (21%), Yaponiya (21%), Finlandiya (18%), Almaniya (17%), İngiltərə (15%), Fransa (14%), İtaliya (6%).

Cədvəl 5

Azərbaycanda təhsil işçilərinin orta aylıq nominal əmək haqqının artım sürəti, (manatla)

İllər	Orta aylıq nominal əmək haqqı, manatla	2005-ci ilə nisbətən artım
2005	66,0	
2006	87,0	31,8%
2007	145,4	2,2 dəfə
2008	214,4	3,2 dəfə
2009	260,0	3,9 dəfə
2010	272,2	4,1 dəfə
2011	283,0	4,3 dəfə


Hər bir ölkənin uzunmüddətli iqtisadi inkişaf strategiyası keyfiyyətli təhsil mühitinin formalaşdırılması ilə səciyyələnir. Belə ki, millətin təhsilinin və elmi potensialının inkişaf etdirilməsi öz növbəsində müasir cəmiyyətin davamlı və dinamik inkişafının əsas amillərindən biridir.Təsadüfi deyildir ki, dünyanın inkişaf etmiş ölkələri məhz təhsildə yüksək inkişaf yolu keçməklə mühüm nəticələr

Cədvəl 6

Azərbaycanda təhsilin pillələri üzrə bir təhsilalana düşən illik xərclərin dinamikası

Təhsilin pillə və səviyyələri	Bir təhsilalana düşən illik xərclər, manatla			
	2008	2009	2010	2011
məktəbəqədər təhsil	703	810	816	854
ümumi təhsil	420	545	550	553
ilk peşə-ixtisas təhsili	943	1108	1133	1184
orta ixtisas təhsili	566	741	750	784
ali təhsil	986	1358	1548	1618
ali təhsil (dövlət sifarişi üzrə orta hesabla)			1700	1700

Dövlət büdcəsindən təhsilə ayrılan investisiya xərcləri (mln. manatla)




Qrafik 3

əldə edə bilmişlər.

Azərbaycan müstəqillik əldə etdikdən sonra təhsil sahəsində aparılan nəticəyönümlü islahatlar və icra edilən dövlət proqramları sayəsində bütövlükdə təhsil infrastrukturunun və təhsilin məzmununun yeniləşdirilməsi istiqamətində mühüm nailiyyətlər əldə edilmiş, təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilmiş, məktəblərin informasiya-kommunikasiya texnologiyaları ilə təminatının əhatə dairəsi genişləndirilmiş, ali təhsildə yeni maliyyələşmə mexanizminin tətbiqinə başlanılmış və ölkəmizin təhsil tarixində digər yeniliklərə imza atılmışdır.


Belə düşünülmüş siyasətin məntiqi nəticəsidir ki, son illərdə dövlət büdcəsindən təhsilə ayrılan vəsaitlər xeyli dərəcədə artmışdır. 2011-ci ilə təhsil xərcləri 1399,8 milyon manat və ya dövlət büdcəsinin ümumi xərclərinin 10%-i həcmində proqnozlaşdırılmışdır. 2011-ci ilə dövlət büdcəsində təhsilə proqnozlaşdırılan təhsil xərclərinin ÜDM-də (ümumi daxili məhsulda) payı 3,1% təşkil etmişdir (bax:

Şagirdlərinin sayı az olan ümumtəhsil müəssisələrinin sayı



Qrafik 4

Əhalinin təhsil səviyyəsi, yekuna görə, faizlə
(2009-cu il əhalinin siyahıyaalınmasının məlumatlarına əsasən)



Qrafik 5

qrafik 1, 2; cədvəl 6).

Son 6 il ərzində təhsil işçilərinin orta aylıq əməkhaqqı 4 dəfə artmışdır. Bu meylin güclənməsi qarşıdakı dövrün mühüm vəzifələrindən biri hesab edilir.

Son illərdə ölkəmizdə təhsil müəssisələrinin, xüsusən ümumi təhsil müəssisələrinin tikintisi, təmiri və bərpası, yenidən qurulması istiqamətində mühüm işlər görülmüşdür və bu işlər hazırda da davam etdirilir. Nəticədə ölkədə 2 mindən çox ümumtəhsil məktəbinin inşa olunması da bu istiqamətdə əldə edilən ən mühüm uğurlardan hesab olunur. Təbii ki, təhsil müəssisələrinin tikintisi, təmiri və bərpası, yenidən qurulması işlərinin həyata keçirilməsi dövlət büdcəsindən təhsilə investisiya xərclərinin ayrılması ilə şərtlənir (bax: qrafik 3).

Təhsilin keyfiyyətinə birbaşa təsir göstərən əsas amillərdən biri də bu məqsədlə ayrılan maliyyə vəsaitlərindən daha səmərəli və məqsədyönlü şəkildə istifadə olunmasıdır. Bu baxımdan təhsilin bütün pillələrində mütərəqqi maliyyələşmə mexanizmlərinin tətbiqi, təhsil müəssisələrinə maliyyə müstəqilliyinin verilməsi və xüsusən ümumi təhsil pilləsində mövcud məktəb şəbəkəsinin səmərəliliyinin yüksəldilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilir (bax: qrafik 4).

Hazırda respublikada şagirdlərinin sayı 30-dək olan 432, şagirdlərinin sayı 31-dən 50-dək olan 293 və şagirdlərinin sayı 51-dən 100-dək olan 636 məktəb vardır.

Ümumi təhsildə hər nəfərə maliyyələşdirmənin tətbiqi bəzi problemlərlə üzləşsə də, ali təhsildə yeni maliyyələşdirmə mexanizminin tətbiqi istiqamətində ölkəmizdə hazırda çox əhəmiyyətli işlər görülür. Nəzərə almaq lazımdır ki, təhsildə hər nəfərə maliyyələşdirmə mexanizmi

Respublikanın bir sıra şəhər və kəndlərində istifadəyə verilmiş məktəblər



Bakı şəhəri 6 saylı orta məktəb, 2011-ci il



Lənkəran rayonu Velədi kənd orta məktəbi, 2005-ci il



Şirvan rayonu 4 saylı orta məktəb



Qazax rayonu Xanlıqlar kənd orta məktəbi



Ağdam rayonu Soltanbud kənd orta məktəbi, 2005-ci il



Cəlilabad rayonu akad. Z.Əliyeva adına orta məktəb



Bərdə rayonu 8 saylı orta məktəb



Biləsuvar rayonu H.Əliyev adına Alar kənd orta məktəbi



Bakı şəhəri 20 saylı orta məktəb, 2007-ci il



Bakı şəhəri H.Əliyev adına lisey, 2004-cü il



Bakı şəhəri 59 saylı orta məktəb, 2007-ci il



Bakı şəhəri 256 saylı orta məktəb, 2006-cı il



Şərur rayonu Həmzəli kənd orta məktəbi, 2005-ci il

Azərbaycanın iqtisadçı alimləri ölkədə bazar münasibətlərinin bərqərar olması, respublikanın sosial-iqtisadi inkişafı problemləri ilə bağlı maraqlı tədqiqatlar aparır, iqtisadi təhsilin yüksəlməsi üçün zəruri sayılan dərsliklər, monoqrafiyalar nəşr etdirirlər. İqtisadçı alimlərin respublika, regional, beynəlxalq konfranslarda iştirakı ildən-ilə genişlənir.











Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Kooperasiya Universiteti, Azərbaycan İqtisadçılar İttifaqı, AMEA-nın İqtisadiyyat İnstitutunun birgə təşkil etdikləri beynəlxalq konfransda (2012-ci il 27-28 iyun) xüsusi olaraq vurğulandı ki, iqtisad elmi öz səmərəliliyini artırmalı, real həyatla əlaqəsini möhkəmlətməli, Azərbaycan iqtisadiyyatının keyfiyyət göstəricilərinin daha da yaxşılaşması istiqamətində dərin araşdırmalar aparmalı, iqtisadçı elmi kadrların hazırlanması işini xeyli təkmilləşdirməlidir.











dünyanın inkişaf etmiş ölkələrində tətbiq olunan ən mütərəqqi metodlardandır. Bu metoda əsasən müvafiq kadr hazırlığı üzrə dövlət sifarişini yerinə yetirən təhsil müəssisələrinə maliyyə vəsaitləri tələbələrin sayından asılı olaraq veriləcəkdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" 2010-cu il 10 fevral tarixli Fərmanına əsasən 2010/2011-ci tədris ilindən başlayaraq Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən ali təhsil müəssisələrində dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirmənin dövlət sifarişi əsasında hər nəfərə maliyyələşdirmə prinsipi əsasında həyata keçirilməsinə başlanılmışdır.

Ali təhsildə yeni maliyyələşmə mexanizminin tətbiqi nəticəsində mülkiyyət formasından və tabeçiliyindən asılı olmayaraq bütün ali məktəblərin dövlət sifarişi üzrə kadr hazırlığında iştirakı üçün bərabər imkanlar yaradılmış, abituriyentlərin, həmçinin dövlət sifarişi üzrə qəbul olmuş tələbələrin seçim imkanları artırılmışdır.

Dövlət sifarişi üzrə kadr hazırlığının yerinə yetirilməsi üçün ali məktəblərə vəsait əvvəlki illərdə olduğu kimi 40 və ya daha çox xərc maddəsi üzrə deyil, bir xərc maddəsi ilə ayrılmış və bu vəsaitlərin xərclənilməsində ali məktəblərin səlahiyyətləri və maliyyə müstəqilliyi artırılmışdır.

Dövlət ali məktəblərində yuxarı kurslarda təhsil alan tələbələrin xərclərinin ödənilməsi məqsədilə tutulan vəsait isə 2011-ci ildə 40 və ya daha çox xərc maddəsi üzrə deyil, 4 xərc maddəsi, büdcədənkənar vəsaitlər üzrə gəlir və xərclər smetası isə 6 xərc maddəsi ilə proqnozlaşdırılmışdır. Növbəti ildən isə ali təhsil müəssisələrinə dövlət büdcəsindən bütün vəsaitlərin bir xərc maddəsi ilə ayrılması, eləcə də yeni maliyyələşdirmə mexanizminin təkmilləşməsinə xidmət edəcək bir sıra məsələlərin həlli nəzərdə tutulur.

Yeni maliyyələşdirmə mexanizminin tətbiq edilməsi Azərbaycanın ali təhsil sistemində yeni bir mərhələnin başlanğıcıdır və əlbəttə ki, bu istiqamətdə həyata keçirilən bütün tədbirlər ali təhsildə keyfiyyətin yüksəldilməsinə yönəldilməlidir. Bu səbəbdən qarşıya çıxan, həmçinin gözlənilən problemlərin vaxtaşırı təhlil edilməsi və aradan qaldırılması ən vacib şərtlərdən biridir.

Yeni maliyyələşmə mexanizminin tətbiqi, həmçinin aşağıdakı məsələlərin ətraflı araşdırılmasını və həllini zəruri edir:

– dövlət sifarişi əsasında təhsil alanlar üçün müəyyənləşdirilmiş xərc məbləğinin artırılması;

– paytaxtdan kənarda yerləşən ali məktəblər üçün dövlət sifarişi ilə müsabiqə balının ayrıca müəyyənləşdirilməsi;

– dövlət əhəmiyyətli ixtisaslara dövlət sifarişi ilə qəbul zamanı müsabiqə ballarının müəyyənləşdirilməsinə fərdi yanaşılması;

– ayrı-ayrı ali məktəblərə qəbul planı müəyyənləşdirilərkən əvvəlki ilin qəbulunun nəticələrinin nəzərə alınması;

– ali məktəblərin ayrı-ayrı ixtisaslarına ödənişli əsaslarla qəbul olunan tələbələrin təhsil haqqı məbləğinin həmin ixtisasa dövlət sifarişi üzrə təsdiq olunmuş xərc məbləğinin 60%-dən az olmayaraq müəyyənləşdirilməsi;

– ödənişli əsaslarla qəbul olan məcburi köçkün və qaçqın statuslu tələbələrin təhsil haqlarının müvafiq qaydada kompensasiya edilməsi;

– dövlət sifarişi üzrə qəbulda müsabiqə ballarının ixtisas qrupları üzrə deyil, eyni yönümlü ixtisaslar üzrə müəyyənləşdirilməsi (məsələn kənd təsərrüfatı, texnologiya, neft, aviasiya və s.);

– özəl ali məktəblərin dövlət sifarişində iştirakının stimullaşdırılması;

– büdcədənkənar vəsaitlərin 4 xərc maddəsi üzrə, gələcəkdə isə ümumi məbləğ səviyyəsində planlaşdırılması, ilin sonuna qalan vəsaitlərin növbəti ilə keçirilməsi və bu vəsaitlərin xərclənilməsində ali məktəblərin səlahiyyətlərinin artırılması.

Təhsilin əsas iqtisadi funksiyası "insan kapitalı"nın istehsalıdır. Bu funksiyanı yerinə yetirərkən təhsil, həmçinin istehsal və gəlir funksiyasını da yerinə yetirmiş olur. Belə ki, təhsil səviyyəsi artdıqca ölkənin iqtisadi potensialından daha səmərəli istifadə olunur. Müasir texnologiyaların tətbiqi innovasiyalı iqtisadiyyatın qurulması üçün güclü zəmin yaradır. İqtisadi inkişaf səviyyəsi yüksəldikcə təhsilə ayrılan vəsaitlərin miqdarı da artır, eyni zamanda, bu vəsaitlərdən istifadə imkanları genişlənir, təhsil ölkənin rəqabətə davamlılığının artırılmasında mühüm rol oynayan amilə çevrilir.

Şahrza Əliyev

TƏHVİL QİYMƏTLƏRİ – dövlət kənd təsərrüfatı müəssisələri və təşkilatları tərəfindən reallaşdırılan kənd təsərrüfatı məhsulunun qiymətləri.

TƏXİRƏ SALINMIŞ AYLAR (ing. *back months*) – fyuçerslərlə ticarət fəaliyyətinin həyata keçirildiyi aylar. Bu aylar müəyyən birja hərraclarının vaxtından sonra gəlməlidir (fyuçers kontraktları və ya onlar üçün opsionlar ən axırda realizə edilir).

TƏXİRƏ SALINMIŞ BAŞLANĞIC (ing. *deferred*) – birjanın rəsmi şəxsləri bazarın vəziyyətini qiymətləndirərək qiymətli kağızlar barəsində əqd bağlamağın təxirə salınmasını əsaslı hesab edərsə, bazar konyunkturası ilə əlaqədar birjada qiymətli kağızlar barəsində əqdlər bağlanmasının təxirə salınması. Bu cür təxirə salınmanın səbəbləri istər alış, istərsə də satış haqqında əmrlərin sayının hədsiz artması, alıcılar ilə satıcılar arasında qeyri-mütənasiblik, eləcə də gözlənilən informasiyanın yayılması üçün müəyyən vaxt tələb edilməsi ola bilər.

TƏXİRƏ SALINMIŞ GÜZƏŞT – malın (xidmətin) tədarükçüsünün müştərilərə gələcəkdə malları (xidmətləri) ondan almaq şərti ilə təqdim etdiyi güzəşt. Bir qayda olaraq, bu cür güzəşt tədarükçünün öz müştərilərinin daimi olmasını yəqin etdikdən sonra vaxtaşırı təqdim edilir.

TƏXİRƏ SALINMIŞ SƏHM – səhmdar şirkətinin təsisçiləri arasında yerləşdirilmək məqsədlə əvvəllər emissiya edilmiş adi səhmin bir növü. Bu səhm üçün dividendlər yalnız adi səhmlərin bütün başqa növləri üzrə dividendlər ödənildikdən sonra ödənilə bilər. Çox vaxt bu cür səhmlər öz sahiblərinə ümumi mənfəətdə sanballı hissəyə iddia hüququnu təmin edir. Bir neçə il ya dividend ödənilməmiş, ya da dividendin məbləği çox cüzi olmuş səhm növü.

Müəyyən sayda il keçdikdən sonra bu cür səhmlərin sahibləri başqa adi səhmlərin sahibləri ilə bərabər dividend almaq hüququ əldə edir.

TƏXİRƏ SALINMIŞ VERGİ – investisiyalardan alınan gəlirə görə ödənən vergi. İnvestor investisiyaları maliyyə təşkilatından götürdükdən sonra tətbiq edilir.

TƏXİRƏSALINMAZ YARDIM SIĞORTASI ÜZRƏ OPERATİV MƏRKƏZ – təxirəsalınmaz yardım sığortası sisteminin əsası. Sutkanın bütün saatları ərzində iş rejimi, güclü informasiya sistemi, ixtisaslı kadrların olması və konkret xidmətlərin göstərilməsi, eləcə də çoxsaylı əlaqə kanalları ilə xarakterizə olunur.

TƏXİRƏSALINMAZ YARDIM SIĞORTASI (ing. *assistance insurance*) – spesifik sığorta növüdür ki, bunun da obyekti müəyyən fövqəladə hallar zamanı sığortalanmışa dərhal yardım göstərilməsinin təşkil edilməsidir.

TƏKAFUL – şəriət (İslam hüququ) əsasında həyata keçirilən, iştirakçıların qarşılıqlı kömək və könüllü yardım etmə prinsiplərinə əsaslanan, İslam dinində qadağan olunan əqdləri və əməliyyatları istisna edən, riskin, zərərin və gəlirin tərəflər arasında bölüşdürüldüyü sığorta mexanizmi. "Təkaful" ərəbcə "kafala" sözündən götürülüb, mənası "yardımlaşma", "bir-birinə zamin durma" deməkdir. Ənənəvi sığortada tətbiq edilən bəzi əməliyyatlar İslam əqidəsi və eyni zamanda İslam hüququnda qadağan olunduğu üçün sığorta əməliyyatlarının İslam modeli bu cür əməliyyatları istisna edən maliyyə münasibətləri mexanizminə əsaslanır. Belə ki, gələcəkdə baş verməsinin yalnız ehtimal edilməsinə görə hər bir risk müəyyən deyil, qeyri-müəyyəndir. Qeyri-müəyyən bir şeyin ("ğarar") ticarəti, yəni riskin başqasında ötürülməsi və əvəzində pul verilməsi İslamda qa-



dağan olunduğu üçün təkaful əməliyyatları risk ötürülməsinə deyil, risklərin bölüşdürülməsinə əsaslanır. Yəni əqd sığortalının sığortaçıya riski ötürməsinə deyil, əksinə, sığortalıların öz risklərini öz aralarında bölüşdürməsinə əsaslanır ki, burada sığortaçı sığortalıların risklərini bölüşdürməsində bir növ əlaqələndirici funksiyası yerinə yetirir və sığorta riskini üzərinə götürmür. Sığortalılar da başqasının zərərinə şərik olaraq sığortaçının təşkil etdiyi və idarə etdiyi, sığortalıların öz risklərini bölüşdürdükləri fondda əldə olunan mənfəətdən gəlir əldə etmək imkanına malikdirlər. Bundan başqa, sələmçiliyi ifadə edən "riba" (sələm), yəni pul borcunun, o cümlədən sığortaçının banklarda yerləşdirilmiş vəsaitlərinin qaytarılması zamanı onun üzərinə müəyyən faiz məbləğlərinin hesablanması təkaful şirkətlərinin əməliyyatlarında qadağandır.

Belə qadağa sığortalıların risklərini bölüşdürmək üçün bir yerə (təkaful fonduna) yığdıqları yardımlaşma vəsaitlərini (sığorta haqlarını) riba olan sahələrə, o cümlədən qeyri-islami bank hesablarına, qeyri-islami qiymətli kağızlara investisiyasını istisna edir. Bəzi İslam maliyyəçiləri və alimləri hesab edirlər ki, ənənəvi sığortada İslamın qadağan etdiyi "meysir" (qumar) elementləri olduğu üçün, təkaful bunu da aradan qaldırır. Belə ki, ənənəvi sığortada sığorta hadisəsi baş verərsə, sığortalı nə isə əldə edir, baş verməzsə heç nə əldə etmir və ödədiyi pul (sığorta haqqı) da ona qaytarılmır. Təkafulda isə belə deyil. Sığorta hadisəsi baş verdikdə, sığortalı (təkaful iştirakçısı) sığorta ödənişi alır. Baş vermədikdə, isə və həmçinin təkaful fondu maliyyə ilini mənfəətlə başa vurduqda isə ödədiyi sığorta haqqına mütənasib olaraq, müqavilədə nəzərdə tutulmuş qaydada mənfəətdə də iştirak edir. Təkaful fondunun vəsaitləri İslamda haram sayılan mallar (alkoqollu içkilər, tütün məmulatları, donuz əti və s.) və xidmətlərə (sələm əsaslı banklar, gecə klubları və s.) dair aktivlərlə əlaqəli müəssisə və sahələrə investisiya edilə bilməz.

TƏKBAŞINA RƏHBƏRLİK PRİNSİPİ – təşkilatın qurulması prinsipi. Tabeçilikdə olan səlahiyyətləri ancaq bir rəisdən qəbul etməli və öz öhdəliklərinin icrasına görə ancaq onun qarşısında cavab verməlidir. Bu prinsipi rəhbər tutan təşkilatda bütün idarəetmə hərəkətləri komanda zənciri üzrə istiqamətlənməlidir. Problemlə üzləşən əməkdaş bilavasitə rəhbərindən



A.Fayol (1841-1925)

yan keçib, daha yüksək səviyyədən olan menecerə müraciət edə bilməz. Elə yüksək səviyyədən olan menecer də özünün xətti rəhbərindən yan keçib, aşağı halqadan olan əməkdaşa komanda verə bilməz. Qeyd etmək lazımdır ki, qeyri-formal münasibətlər sayəsində, hətta vəzifə subordinasiyasına riayət edilməsinə kifayət qədər ciddi yanaşılan təşkilatlarda da müəyyən edilmiş komanda zəncirin-




dən yan keçmək olur. Daha uzun komanda zəncirinin olması zamanı təkbaşına rəhbərlik prinsipinə riayət etmək məlumat mübadiləsini əhəmiyyətli dərəcədə azaldır və əksər halda operativ qərarın qəbul edilməsini tormozlayır. Amma çoxillik təcrübə əlaqələndirici mexanizm kimi təkbaşına rəhbərlik prinsipinin qiymətini təsdiq etmişdir. Təkbaşına rəhbərlik prinsipi A.Fayolun məşhur olan 14 idarəetmə prinsipi siyahısına daxildir.

TƏKBAŞINALIQ – idarəetmə fəaliyyətinin təşkili prinsipidir ki, bu zaman müəssisə, idarə və ya təşkilatın idarəetmə orqanının başında bir şəxs durur. Bu şəxs hüquqi cəhətdən mütləq həll edilməli olan qərarlar vermək hüququna malikdir.

TƏKLİF – satıcının müəyyən dövr ərzində hər hansı bir əmtəəni müəyyən qiymətə, kəmiyyətə satmaq arzusu və imkanı. Təklifin əsas hissəsini əmtəə təklifi təşkil edir və o, bazarda əhalinin ödəmə qabiliyyətli tələbinə qarşı durur. Təklif istehsalla bağlı olsa da, o, öz həcminə görə istehsaldan azdır. Fərdi təklif, bazar təklifi və məcmu təklif fərqləndirilir. Fərdi təklif konkret əmtəə bazarında hər bir əmtəə istehsalçısının konkret bazarda təklif etdiyi məhsulun həcmi; bazar təklifi hər bir konkret əmtəə bazarında fərdi təkliflərin cəmini, məcmu təklif isə ölkənin hər növdən olan bazarlarında qiymətin hər bir mümkün səviyyəsində fərdi istehsalçılar və hökumət tərəfindən təklif olunan əmtəə və xidmətlərin məcmusunu ifadə edir.

TƏKLİF ƏYRİSİ – qiymətlə təklifin həcmi arasındakı əlaqəni əks etdirən əyri. Təkilf əyrisi müəyyən anda istehsalçıların müxtəlif qiymətlərə nə qədər məhsul satmağa hazır olduqlarını göstərən əyridir.




TƏKLİF ƏYRİSİNİN YERİNİN DƏYİŞMƏSİ – bazarda ən yüksək qiymətə nail olmaq istəyi. Bu, onunla izah edilir ki, qiymət nə qədər yüksək olsa, satıcılar daha çox mal satmağa, yəni təklifi artırmağa bir o qədər fəal səy edəcəklər. Təklif əyrisi *S* hərfi ilə işarə edilir. Təklif funksiyasının xətti funksiya olmasını qəbul etsək, təklif əyrisinin tənliyini ümumi şəkildə aşağıdakı kimi göstərmək olar:

$$Q_S = a + b \times P$$

Təklif funksiyasının tənliyi bazarda qiymət səviyyəsi *(P)* ilə həmin bazarda istehsalçının təklif etdiyi məhsulun həcmi (Q_S) arasında birbaşa asılılıq olmasını göstərir.

a və *b* parametrləri təklifin ekzogen (qiymətlə bağlı olmayan) amillərinin dinamika göstəriciləridir. Əgər *a* kəmiyyəti dəyişərsə, onda təklif əyrisinin yeri dəyişir, yox, əgər *b* parametri dəyişərsə, bu, həmin əyrinin meylinin də dəyişməsinə səbəb olur. Təklifə ciddi təsir göstərən əsas amil istehsal xərcləri hesab edilir. Buna görə də istehsal xərclərinin müxtəlif üsullarla azaldılması (elmi-texniki nailiyyətlərdən istifadə edilməsi) və ya əlverişli vəziyyət yaranması (kənd təsərrüfatında əlverişli hava şəraiti) nəticəsində *S* əyrisinin sağa doğru yerdəyişməsi mümkündür. Bu halda qiymət sabit qaldığına baxmayaraq, təklifin həcmi (satılan məhsulun həcmi) artır. Vergitutma şərtlərinin dəyişməsi də təklif əyrisinin yerdəyişməsi ilə nəticələnə bilər: əgər istehsalçının vergilərinin məbləği artarsa, təklif əyrisi sola tərəf, vergilər azaldıqda isə sağa tərəf dəyişir.

Təklif əyrisinin dəyişməsinə təsir göstərən amillər:




Təklifin xarakterinin dəyişməsi

TƏKLİF QANUNU – digər amillərin sabit qalması şərti ilə əmtəənin qiyməti və onun təklifi arasında asılılığı ifadə edir. Hər bir əmtəənin qiyməti ilə onun təklifi arasında düz mütənasib asılılıq mövcuddur.

Konkret malın təklif kəmiyyətinin *(QS)* bütün digər bərabər şərtlərlə ona olan qiymət *(P)* səviyyəsindən birbaşa asılılığının

Bazar təklifinin təbiəti



Sxem 1

təcəssümüdür, deməli,

$$\Delta QS = f(\Delta P).$$

Verilən asılılıq qrafik baxımdan təklif əyrisinə düz mütənasibdir. Daha yüksək qiymət istehsalçını təklif həcminin artırılmasına stimullaşdırır, amma alternativ dəyərin artması istənilən qiymət zamanı təklif olunan kəmiyyət həddini müəyyən edir. Mala olan qiymətin artması və ya azalması nəticəsində təklifin səviyyəsinin dəyişilməsi dayanıqlı təklif xətti üzrə hərəkətlə nümayiş olunur. Qeyri-qiymət determinantının dəyişilməsi (təklifə təsir göstərən müxtəlif amillər), yəni "sair bərabər şərtlərlə" şərtinə cavab verən istənilən dəyişən bütövlükdə əyrinin tam irəliləməsinə səbəb olur. Təklif əyrisinin belə artması (qrafik üzrə sağa yerdəyişmə) və ya azalması (qrafik üzrə sola yerdəyişmə) "təklifin özünün dəyişilməsi" adlanır (bax: sxem 1).

TƏKLİF QİYMƏTİ – elə qiymətdir ki, malın alış üçün qiymətləndirilməsi və ya təklif edildiyi alış qiymətindən fərqli olaraq, bu qiymətə də kağız və ya mal satış üçün qiymətləndirilir və ya təklif olunur.

TƏKLİF NƏZƏRİYYƏSİ (ing. *suplay side economics*) – vergi sistemində dəyişikliklərin məcmu təklifə göstərdiyi motivasiya effektinin tədqiq edildiyi makroiqtisadi nəzəriyyə. Təkliflər nəzəriyyəsi makroiqtisadiyyatın müstəqil bir bölməsi kimi XX əsrin 60-cı illərinin axırlarında yaranmışdır. 80-ci illərdə R.Reyqan ABŞ prezidenti olduğu dövrdə bu nəzəriyyə populyarlığın zirvəsində idi.

Mötədil təklif nəzəriyyəsinin tərəfdarları (M.Feldstayn, M.Boskin və b.) iqtisadi tərəqqinin vergilər vasitəsilə stimullaşdırılmasının zəruriliyini vurğulayırlar. Onlar vergitutmada dəyişikliklərin investisiyaların səviyyəsinə və əmək təklifinin kəmiyyətinə, sosial təminatın əmanətlərin miqdarı və pensiyaya çıxma vaxtı barədə qərarlara təsirini, vergilərin dərəcələri ilə məhsul buraxılışının həcmi arasında qarşılıqlı asılılığın bir sıra başqa aspektlərini təhlil edirlər.

Radikal təklif nəzəriyyəsinin (onun ən məşhur nümayəndəsi A.Lafferdir) mahiyyəti bir-biri ilə qarşılıqlı əlaqəli iki fikirdən ibarət hesab edilə bilər: vergi dərəcələrinin azaldılması məhsul buraxılışının həcminə elə təsir göstərə bilər ki, bu halda: a) ümumi vergi daxilolmaları artır; b) inflyasiya azalır. Təkliflər nəzəriyyəsi bu şəkildə Reyqan administrasiyası tərəfindən (xüsusən 1981-1982-ci illərdə) tətbiq edilən və "Reyqanomika" adı almış iqtisadi siyasətin nəzəri cəhətdən əsaslandırılmasına xidmət etmişdir.

Radikal təklif nəzəriyyəsini tənqid edənlər, bir qayda olaraq, milli iqtisadiyyatın elə vəziyyətinin mümkünlüyünü inkar etmirlər ki, vergilərin azaldılması nəticəsində istehsalın həcmi o qədər arta bilər. Nəticə-

Təklif qanunu

İfadə forması

Təklif şkalası

əmtəənin, xidmətin bazar qiymətinin və bu qiymətlə satıcılar tərəfindən təklif ediləcək mal, xidmət arasındakı əlaqənin cədvəl şəklində ifadəsi

göstərir

Cədvəl şəklində:
qiymət çoxluğunun hər biri üzrə satıcıların nə qədər əmtəə satmaq istəyi


Qiymət (pul vahidi ilə, ədəd)	Təklifin həcmi (ədəd, ildə)
1,0	0
1,5	15
2,0	20
3,0	30
4,0	35

Təklif əyrisi

əmtəənin, xidmətin bazar qiymətinin və bu qiymətlə satıcılar tərəfindən təklif ediləcək mal, xidmət arasındakı əlaqənin qrafik şəklində təsviri

göstərir

Qrafik şəklində:
qiymət çoxluğunun hər biri üzrə satıcıların nə qədər əmtəə satmaq istəyi








xüsusiyyətlər

Təklif şkalasının və əyrisinin qurulması zamanı təklifin həcminə təsir edə bilən bütün digər amillər dəyişməz olaraq qalır.

Sxem 1

Tələb və təklif elastikliyi

Elastikliyin növləri	**Elastikliyin növləri**	**Elastikliyin qrafik təsviri**
Fərdi elastiklik qiymətin hər dəyişilən faizinə görə tələb həcmi 1 % dəyişir ($E_d = 1$)	$E_d = \frac{\%\Delta Q}{\%\Delta P} = \frac{\%\Delta Q / Q}{\%\Delta P / P} = \frac{2.0\%}{2.0\%} = 1$ Q – əmtəə həcmi, P – qiymət	
Elastik tələb Tələbin həcmi daha tez faizlə dəyişir, nəinki qiymətin faizi ($E_d = 2$)	$E_d = \frac{\%\Delta Q}{\%\Delta P} = \frac{4.0\%}{2.0\%} = 2$	
Qeyri-elastik tələb Tələbin faizlə həcmi daha zəif dəyişir, nəinki qiymətin faizi ($E_d = 0{,}5$)	$E_d = \frac{\%\Delta Q}{\%\Delta P} = \frac{2.0\%}{4.0\%} = 0.5$	
Tamamilə qeyri-elastik tələb Qiymətin istənilən dəyişməsində tələbin həcmi dəyişmir (ərzaq məhsullarına tələbat) ($E_d = 0$	$E_d = \frac{\%\Delta Q}{\%\Delta P} = \frac{0}{4.0\%} = 0$	
Sonsuz elastik tələb Qiymətin əhəmiyyətsiz dəyişməsində tələbin həcmi sonsuz dəyişməyə qadirdir (gəlirlər artmaqla tələb artır) ($E_d = \infty$)	$E_d = \frac{\%\Delta Q}{\%\Delta P} = \frac{4.0\%}{0} = \infty$	

Sxem 1

də dövlət xəzinəsinə daxilolmalar da çoxala bilər. Lakin o dövrdə ABŞ-da mövcud olan vergi dərəcələri o dərəcədə yüksək deyildi ki, onların azaldılması dövlətin gəlirlərini artıraydı. Vergi dərəcələri ilə manipulyasiya zamanı inflyasiyanın dəyişməsi barədə radikal təkliflər nəzəriyyəsinin hipotezinə münasibətdə də analoji arqument gətirilir. Doğrudan da, istehsalın həcminin artımının sürətlənməsi inflyasiyanın azalmasına şərait yaratmır. Lakin nəticənin (qiymətlərin səviyyəsinin) kəmiyyətinə bu amilin təsirinin dərəcəsi şişirdilmişdir. Radikal təklif nəzəriyyəsinin tərəfdarlarının iki əsas səhvə yol verməsi etiraf edilmişdir. Əvvəla, onlar əmək təklifinin elastikliyinin dərəcəsini və Amerika iqtisadiyyatında vergi dərəcələrinin dəyişməsinə investisiyaların reaksiyasının əhəmiyyətini şişirdirdilər; ikincisi, onlar iqtisadiyyatın yeni şəraitə adaptasiyası üçün tələb edilən vaxt amilini nəzərə almamışdılar: hətta uzunmüddətli əmək təklifi kifayət qədər elastik olduğundan, müvafiq institutların dəyişmiş mühitə adaptasiya etməsi üçün də, bir qayda olaraq, xeyli vaxt lazım gəlir. Uzunmüddətli planda investisiyalar onları sövq edən motivlərə çox həssasdır, buna görə də firmaların öz investisiya strategiyalarını yenidən qiymətləndirməsi üçün də xeyli vaxt lazım gələcəkdir.

Monetarizm kimi, təklif nəzəriyyəsi də, adətən, konservativ iqtisadi siyasətlə assosiasiya edilir. Hər iki nəzəriyyənin nümayəndələri çox vaxt bir-birini tənqid etdiklərinə baxmayaraq, onların əməli tövsiyələri bəzən bir-birinə diametral əks olur.

TƏKLİF ŞOKU – iqtisadiyyatın məcmu təklif əyrisinin və bununla da, Filips əyrisinin yerini dəyişməklə firmaların xərclərini və qiymətlərini birbaşa dəyişən hadisə.

TƏKLİFİN ELASTİKLİYİ (ing. *elasticity of supply*) – təklifi müəyyənləşdirən hər hansı dəyişənin qiymətinin 1% dəyişməsi nəticəsində təklifin həcminin nisbi dəyişməsi, yaxud məcmu təklifdə qiymətlərin artması ilə əlaqədar baş verən dəyişiklikləri ifadə edən göstərici.

Təklifin elastikliyi bazar qiymətinin nisbi dəyişməsinin göstəricisi kimi çıxış edir.

Təklifin elastikliyinin hesablanma metodikası tələbin elastikliyinin hesablanması metodikasına oxşardır.

İqtisadçıları ən çox maraqlandıran təklifin qiymətə görə elastikliyidir. Hər hansı nemətin qiymətə görə çarpaz elastikliyə təsir göstərən əsas amili onun istehsal edilməsi üçün zəruri olan iqtisadi resursların mobilliyidir. Resursların mobilliyi nə qədər yüksək olsa, istehsalçı bazara əlavə mal çıxarılmasını bir o qədər tez təşkil edə bilər, onun təklifi bir o qədər elastik olar. Buradan belə nəticəyə gəlmək olar ki, qiymətə görə təklifin elastikliyi uzunmüddətli zaman intervallarında artır. Əgər firmalar gələcəkdə müəyyən nemətə olan tələbin artacağını gözləyirlərsə, onlar həmin nemətin istehsalına mobillik dərəcəsi daha aşağı olan ixtisaslaşmış resursları sərf edəcəklər. Zaman keçdikcə istehsalçıların bazarda yeni şəraitə adaptasiyası yaxşılaşır, təklifin strukturu tələbin strukturuna müvafiq olur, təklifin elastikliyi artır.

Qiymətə görə təklifin elastikliyi hökumətin vergi siyasətinin müəyyənləşdirilməsində böyük əhəmiyyət kəsb edir, çünki bu göstəricinin köməyi ilə satışa görə verginin hansı hissəsinin sahibkar (öz mənfəətindən) və hansı hissəsinin istehlakçı tərəfindən (əmtəənin qiymətinin daha yüksək olmasına razılaşmaqla) ödənildiyini müəyyən etmək olar. Əgər təklif elastikdirsə, verginin çox hissəsi istehlakçıların üzərinə, təklif qeyri-elastikdirsə, istehsalçıların payına düşür.

Müasir iqtisad elmində faiz dərəcəsinə görə təklifin elastikliyi və bazardakı satıcıların sayına görə təklifin elastikliyi göstəricilərindən də istifadə edilir. Makroiqtisadiyyatda məcmu təklifin qiymət elastikliyi və məcmu təklifin qiymətlərin ümumi səviyyəsinin dəyişməsinə reaksiyasının sürəti hesablanır. Bu halda məcmu təklif əyrisi elastik hesab edilir.

TƏKLİFİN HƏCMİ – əmtəənin müəyyən qiymətində istehsalçının satmaq istədiyi məhsulun kəmiyyəti.

TƏKLİFİN QİYMƏT ELASTİKLİYİ – bir əmtəənin qiymətinin dəyişməsi nəticəsində təklifin həcminin nə qədər dəyişməsinin ölçüsüdür və təklifin həcminin faiz dəyişməsinin qiymətin faiz dəyişməsinə nisbəti kimi ölçülür.

$$E_P^S = \frac{S\text{-nin faizlə dəyişməsi}}{P\text{-nin faizlə dəyişməsi}}$$

burada; E_P^S – təklifin elastiklik əmsalı;
S – təklif;
P – qiymətdir.

TƏKLİFİN QİYMƏTİ – satıcının təklif edilən əmtəənin bir vahidini satmağa razı olduğu minimum qiymət.

TƏKRAR BORCALAN – dövlət borcalmaları yolu ilə alınmış və qaytarılması dövlət büdcəsi hesabına nəzərdə tutulmayan borc vəsaitindən təkrar müqavilə əsasında istifadə edən hüquqi şəxs.

TƏKRAR HƏVALƏ EDİLƏN BONDLAR – podrat başa çatdıqdan sonra podratçıya çatası məbləğin hesabına, onu podrata çevirən müəssisə və idarəyə həmin podratçı tərəfindən verilən öhdəlik.

TƏKRAR İNVESTİSİYA İMTİYAZI (ing. *reinvestment privilege*) – səhmdarın dividendlərdən güzəştli şərtlərlə əlavə səhmlər almaq üçün istifadə etmək hüququ.

TƏKRAR MALİYYƏLƏŞMƏ DƏRƏCƏSİ (rəsmi uçot dərəcəsi) – Mərkəzi Bankın faiz dərəcəsidir ki, buna görə o, vekselləri nəzərə alır və ya kommersiya banklarına müəssisələri, kommersiya firmalarını, sahibkarları kreditləşdirmək imkanı vermək məqsədilə onlara kreditlər verir. Adətən, bu dərəcə bazar dərəcələrindən aşağıdır və onlar üçün ölçü dərəcəsidir (istiqamətdir). Təkrar maliyyələşmə dərəcəsini yüksəldərək və azaldaraq Mərkəzi Bank kreditlərin, kreditləşmə həcminin verilməsində kommersiya banklarının imkanlarına təsir göstərir ki, bu da, öz növbəsində, iqtisadi artıma, pul kütləsinə, bazar faizi səviyyəsinə təsir göstərir. Təkrar investisiyalaşmanın dəyişməsi kommersiya kreditlərinə görə faiz kəmiyyətlərinin müvafiq tərəddüdlərini doğuraraq, Mərkəzi Banka bu dövrdə dövlətin iqtisadi strategiyasından asılı olaraq "bahalı" və "ucuz" pullar siyasətini aparmağa imkan verir, tədiyə balansının və valyuta məzənnəsinin vəziyyətində əks olunur. Dərəcənin yüksəlməsi bank kreditlərinin istifadə edilməsində ölkənin istehsalçılarının imkanını azaldır (onların yüksək dəyərdə olması üzündən), lakin eyni zamanda ölkəyə qısamüddətli xarici kapitalın cəlb olunmasına səbəb olur. Nəticədə tədiyə balansı fəallaşır, xarici valyutanın təklifi artır, uyğun olaraq milli valyutanın məzənnəsi aşağı düşür. Təkrar maliyyələşmə dərəcəsinin azalması əks nəticələrə səbəb olur və ölkənin əmtəə istehsalçıları üçün əlverişlidir.

Təəssüf ki, təkrar maliyyələşmə dərəcəsinin dəyişməsi heç də bütün ölkələrdə (məsələn, Rusiyada) maliyyə bazarı iştirakçılarının davranışında gözlənilən səmərəni vermir. Əvvəla, ona görə ki, kütləvi qarşılıqlı qeyri-tədiyələr, o cümlədən bank kreditləri üzrə ödəmə qabiliyyətinin olmaması zamanı digər nəticəni nəzərdə tutmaq (nail olmaq) çətindir; ikincisi, Mərkəzi Bank təkrar maliyyələşmə dərəcəsini müəyyən edərək, əslində, müstəqil maliyyə siyasətinin həyata keçirilməsi əvəzinə banklararası faiz dərəcəsi arxasınca gedir; nəhayət, bankların təkrar maliyyələşmə sisteminin özü permanent islahatlar vəziyyətində olur, digər tərəfdən, burada qaytarılmayan məqsədli kreditlər formasında təsərrüfat fəaliyyətinin bu və ya digər sferalarının birbaşa məqsədli kreditləşməsi kimi kredit resurslarının mərkəzləşdirilmiş bölgüsünə ənənəvi olaraq böyük əhəmiyyət verilir.

TƏKRAR MƏŞĞULLUQ – əsas iş yerinə malik olan şəxslərin əlavə iş yerinin (gəlirli məşğulluğun) mövcudluğu.

Əlavə iş yeri istənilən yerdə əvəzçilik, müqavilə üzrə və ya təsadüfi iş, birdəfəyə iş ola bilər. Əsas iş yeri ilə əlaqədar bir neçə müəssisədə iş, məsələn, ezamiyyətlər və s. həmçinin şəxsi tələbatı ödəmək üçün bağ sahəsində işləmək, təmir işləri və s. öz ehtiyaclarını ödəmək üçün geyim, ayaqqabı, mebel istehsalı təkrar məşğulluq hesab edilmir.

TƏKRAR MÜƏYYƏN EDİLMƏ – əlavə mükafatın ödənilməsi tələbi. Bu da polis tərəfindən nəzərdə tutulur.

TƏKRAR MÜQAVİLƏ – müvafiq icra hakimiyyəti orqanı ilə əsas borcalan, istifadəçi və ya təkrar borcalan arasında bağlanan, dövlət borcalmaları və ya dövlət zəmanəti ilə alınmış vəsaitin bölüşdürülməsi, istifadəsi və qaytarılması (istifadəçiyə şamil olunmur) şərtlərini müəyyənləşdirən müqavilə.

Təkrar müqavilə – müvafiq icra hakimiyyəti orqanı ilə əsas borcların istifadəçisi və ya təkrar borcalan arasında bağlanan, dövlət borcalmaları və ya dövlət zəmanəti ilə alınmış vəsaitin bölüşdürülməsi, istifadəsi və qaytarılması (istifadəçiyə şamil olunmur) şərtlərini müəyyənləşdirən müqavilədir.

TƏKRAR SƏRMAYƏLƏŞDİRMƏ – əcnəbi investora məxsus olan, onun başqa dövlətin qanunvericiliyində müəyyənləşdirilmiş formalarda fəaliyyətindən əldə edilmiş gəlirlərin həmin dövlətin ərazisində sərmayəyə yönəldilməsi.

TƏKRAR SIĞORTA – sığortaçının sığorta müqaviləsi üzrə sığortaladığı risklərin bütövlükdə, yaxud bir hissəsinin təkrar sığortaçı ilə bağlanmış müqaviləyə müvafiq olaraq ötürülməsi və ya bölüşdürülməsinə əsaslanan münasibətlər sistemi.

TƏKRAR SIĞORTA BROKERİ – iki sığortaçı arasında peşəkar vasitəçidir ki, bunlardan biri riski təkrar sığortaya verməyi, digəri isə qəbul etməyi arzu edir.


TƏKRAR SIĞORTA ƏMƏLİYYATLARI ÜZRƏ BROKER KOMİSSİYASI – təkrar sığorta brokeri tərəfindən təkrar sığortaçının mükafatından aparılan çıxılma.

TƏKRAR SIĞORTA FORMASI – konkret amillərin bütün məcmusunun müxtəlif müqavilə iştirakçılarının mövqelərinin seçilməsinə təsiri nəzərə alınmaqla bu müqavilə imkanlarının praktik cəhətdən istifadə edilməsi. Adətən, təkrar sığortanın iki forması: proporsional və qeyri-proporsional forması fərqləndirilir. Proporsional təkrar sığortada çox zaman təkrar sığorta kvota müqaviləsi və məbləğin ekssedenti müqaviləsi tətbiq olunur; qeyri-proporsional təkrar sığorta zamanı zərərin ekssedenti müqaviləsi və zərərliliyin ekssedenti müqaviləsi (Stop-loss) tətbiq olunur. Seçilmiş təkrar sığorta forması sığorta və təkrar sığorta şirkətləri arasında müəyyən səviyyədən yuxarı tapşırılmış məsuliyyətin ayrılmasını tələb edir, məsələn, böyük zərər zamanı. Təkrar sığorta formasının hər birinin müsbət və mənfi cəhətləri mövcuddur.



TƏKRAR SIĞORTA KOMİSSİYASI – ilkin sığorta müqaviləsinin bağlanmasına və aparılmasına görə sedentin gəlirlərinin bir hissəsinin təkrar sığortaçı tərəfindən həmin sedentə kompensasiyası. Təkrar sığorta komissiyası retrosessiya müqaviləsinin bağlanması zamanı retrosedentə retrosessioner tərəfindən ödənilən komisyon mükafatdır və bir qayda olaraq, retrosessionerə çatası sığorta mükafatının 10-15%-ni təşkil edir. Təkrar sığorta komissiyası təkrar sığortalı tərəfindən obyektlərin təkrar sığortaya verilməsinə görə təkrar sığortaçının həmin təkrar sığortalıya ödədiyi mükafatdır. Təkrar sığorta komissiyasının istifadə sferası, bir qayda olaraq, proporsional təkrar sığorta ilə məhdudlaşır. Bu komissiyanın ölçülməsi təkrar sığortaçı ilə təkrar sığortalı arasında sazişə görə müəyyən olunur. Hesab olunur ki, təkrar sığorta komissiyası təkrar sığortalının xərclərinin broker (agent) sığorta komissiyasına və risklərin təkrar sığortaya verilən bir hissəsinə aid işlərin aparılmasına çəkilən xərclərin, həmin təkrar sığortalıya kompensasiyası üçün nəzərdə tutulmuşdur. Adətən, təkrar sığorta müqaviləsi nəzərdə tutur ki, müəyyən edilmiş təkrar sığorta komissiyasına əlavə olaraq, təkrar sığortaçı müqavilə üzrə mənfəəti əldə edərək təkrar sığortalıya tantyemanı və ya mənfəətdən əvvəlcədən şərtlənmiş faizlə hesablanan komissiyanı ödəsin. Qeyri-proporsional təkrar sığorta müqavi- ləsinə görə, təkrar sığorta komissiyası əlavə olunmur, lakin tantyema bəzən nəzərdə tutulur.

Fərdi və bazar təklifi



Sxem 1

TƏKRAR SIGORTA KOVERİ – risk növləri üzrə şirkətin portfelini örtən (ödəyən) təkrar sığorta müqavilələri ilə, ayrı-ayrı riskləri örtən (ödəyən) təkrar sığorta (fakültativ) arasında aralıq forma kimi tətbiq edilən saziş forması. Təkrar sığorta koveri, bir qayda olaraq, müəyyən sinfə aid olan qeyri-müntəzəm risklərin məhdud qrupunu ehtiva edir ki, bunların da sayı tam qiymətli müqavilə yaratmağa imkan vermir, eyni zamanda fakültativ cəhətdən hər bir riski iqtisadi nöqteyi-nəzərdən təkrar sığortalamaq məqsədəuyğun deyil.

TƏKRAR SIĞORTA MÜKAFATI – təkrar sığortalı tərəfindən təkrar sığortaçıya verilən və təkrar sığortaya görə ödəmə (haqq) olan mükafat. Təkrar sığorta mükafatı – təkrar sığortalıdan, yəni obyekti təkrar sığortaya verən sığorta təşkilatından təkrar sığortaçıya, yəni təkrar sığortaya obyekti qəbul edən sığorta təşkilatına çatası mükafatdır (haqdır). Proporsional təkrar sığorta zamanı təkrar sığortaçı təkrar sığorta mükafatı kimi sığortalılar qarşısında sığortaçının öhdəliklərində onun payına uyğun sığorta mükafatının (tədiyəsinin) bir hissəsini alır. Qeyri-proporsional təkrar sığorta zamanı təkrar sığorta mükafatı təkrar sığortalı ilə təkrar sığortaçı arasında razılaşdırılmış faizlərdə, yaxud mütləq məbləğdə sığorta mükafatının faizi kimi müəyyən edilir.



TƏKRAR SIĞORTA MÜQAVİLƏSİ – bu müqaviləyə görə, bir şəxs (təkrar sığortaçı) müəyyən edilmiş haqq (təkrar sığorta mükafatı) müqabilində sığortaçının riskinin müəyyən edilmiş hissəsinə görə məsuliyyəti üzərinə qəbul etməyi və sığortaçı tərəfindən müqavilə üzrə qəbul olunmuş sığorta məsuliyyəti nəticəsində yarana biləcək ziyanı ödəməyi öhdəyə götürür.

2012-ci il iyun ayında Bakıda dünyanın 20-dən cox ölkəsinin sığorta şirkətlərinin, iş adamlarının, iqtisadçı alim və mütəxəssidlərin iştirakı ilə "Sığorta bazrı"-nın inkişaf problemlərinə həsr olunmuş beynəlxalq konfrans keçirilmişdir









TƏKRAR SIĞORTA PROQRAMI – xüsusilə iri sığorta məbləğində obyektlərin təkrar sığortalanması zamanı təkrar sığortaçı şirkət tərəfindən işlənib hazırlanan və həyata keçirilən sənəd. Təkrar sığorta proqramının elementlərinə aiddir: təkrar sığorta müdafiəsinin seçilmiş sisteminin qurulması xüsusiyyətləri, örtülmə üsulları, adekvat limitlər (həcm), iqtisadi üstünlüklər, kifayət qədər təhlükəsizlik vasitələri və s. Təkrar sığorta proqramı kvota təkrar sığorta müqaviləsinin və ya zərərin ekssedenti müqaviləsinin işlənib hazırlanması zamanı zəruridir. Təkrar sığorta proqramı nöqteyi-nəzərindən xüsusi tutulma məbləğinin təkrar sığorta komissiyası faizinə nisbətindən asılı olaraq, formalaşan sığorta portfeli üzrə ümumi nəticəni nəzərdən keçirmək vacibdir.

TƏKRAR SIĞORTA PULU – sığorta şirkətlərinin könüllü birliyidir ki, bu şirkətlər də təkrar sığortaya məruz qalan və öz nəzərlərində tutduqları məbləğdən yuxarı riskləri pula keçirirlər. Təkrar sığorta pulu təkrar sığorta müdafiəsinin təşkili üçün şirkətlərin birləşməsidir ki, burada hər bir şirkət (sığorta pulundan fərqli olaraq) qəbul olunmuş məsuliyyətin yalnız bir hissəsini pula verərək sığortanı müstəqil aparır. Mahiyyətcə təkrar sığorta pulu öz üzvləri arasında təkrar sığortaya verilən riskin növlərini bölüşdürən vasitəçi kimi çıxış edir.

TƏKRAR SIĞORTA SESSİYASI – riskin verilməsi ilə əlaqədar proses.

TƏKRAR SIĞORTA SLİPİ – təkrar sığortalı tərəfindən potensial təkrar sığortaçılara göndərilən və müvafiq risklərin fakültativ təkrar sığortada iştirak təklifini ehtiva edən sənəd.

TƏKRAR SIĞORTA ŞİRKƏTİ – razılaşdırılmış şərtlərdə müştərilərin sığorta risklərinə görə məsuliyyətin bir hissəsini öz üzərinə götürən, sığorta firmaları ilə işi olan sığorta şirkəti.

TƏKRAR SIĞORTANIN YENİDƏN MÜƏYYƏN EDİLMƏSİ – polisdə nəzərdə tutulan əlavə mükafatın ödənişi tələbi. Sığorta məbləğini onun zərərin ödənilməsi məbləğinə qədər azaltdıqdan sonra ilkin kəmiyyətə gətirib çıxarır.

TƏKRAR SIĞORTAÇILAR – sığortalılarla təkrar sığorta müqaviləsi bağlayanlar.

TƏKRAR SIĞORTAÇIYA RİSKİN VERİLMƏSİ, GÜZƏŞT EDİLMƏSİ – o zaman baş verir ki, şirkət öz öhdəliklərinin bütün və ya bir hissəsini ona verir, yəni öz biznesini aparmaq üçün güzəşt edir.

TƏKRAR SIĞORTADA KOMİSYON MÜKAFAT – orijinal, təkrar sığorta və broker komissiyalarından ibarət mükafat növü.

TƏKRAR SIĞORTAYA VERİLƏN PAY – sığorta məbləğinin və ya sığorta ödənişinin hissəsidir ki, onlara görə məsuliyyəti təkrar sığortaçı daşıyır.

TƏKRAR SIĞORTAÇI – sığorta və ya təkrar sığorta fəaliyyətinə lisenziyası olan ilkin sığortaçı və ya ilkin təkrar sığortaçı tərəfindən bağlanmış sığorta və ya təkrar sığorta müqavilələri əsasında sığortalanmış (təkrar sığortalanmış) riskləri təkrar sığortalayan (təkrar sığortaya qəbul edən) tərəf.

TƏKRAR SIĞORTALI – sığortaladığı və ya təkrar sığortaladığı riskləri təkrar sığorta müqaviləsi əsasmda təkrar sığorta etdirən (təkrar sığortaya ötürən) sığortaçı və ya təkrar sığortaçı.

TƏQDİM EDƏN ÜÇÜN ÇEK – konkret şəxs göstərilmədən təqdim edən üçün yazılmış çek. Bu halda çekdə göstərilən məbləğ saxta və qanunsuz yollarla dəyişdirilərsə, böyük məbləğdə çek təqdim etmək mümkündür. Lakin bank hərflərlə yazılmış məbləği düzgün hesab edəcəkdir.

TƏQDİM EDƏNƏ EMİSSİYA QİYMƏTLİ KAĞIZLARI – buraxılışlarla yerləşdirilən və qiymətli kağızların əldə edilməsi vaxtından asılı olmayaraq, bir buraxılış daxilində hüquqlarının həyata keçirilməsinin həcmi və müddəti eyni olan qiymətli kağızlar. Eyni zamanda aşağıdakı əlamətlərə malik olan qiymətli kağızlar. Onlar qanunvericiliklə müəyyən olunan forma və qaydalara riayət etməklə, şəhadətnaməyə, güzəştə və şərtsiz həyata keçirilməyə məruz qalan mülkiyyət və qeyri-mülkiyyət hüquqlarını özündə cəmləyir; nəşr edilməklə yerləşdirilir; alınma vaxtından asılı olmayaraq, bir buraxılış daxilində eyni həcmə və fəaliyyət müddətinə malik olur.

TƏQDİM OLUNANA ƏMANƏT – tələb olunana qədər əmanətlərin bir növüdür ki, bunların köçürülməsi zamanı əmanət kitabçasına onların sahiblərinin soyadı yazılmır. Mədaxil və məxaric əməliyyatları-

nın aparılması hüququ olmaqla, bu əmanətlərdən "təqdim olunana" əmanət kitabçası və ona aid nəzarət talonu təqdim edən şəxs istifadə edir. Əmanətin çıxardılması (tam və ya qismən) üçün alıcı pasport təqdim etməlidir. Təqdim edənə, əmanətə görə faizlərin əlavə olunması və əmanətlərin köçürülməsi üzrə əməliyyatlardan başqa, nağdsız qaydada daxil olması və silinməsi üzrə əməliyyatlar aparılmır. Bu əmanətlər üzrə vəsiyyət sərəncamları tərtib olunmur.

TƏQDİMAT TRATTASI – təqdimat üzrə ödənilən tratta. Müəyyən gün ərzində və ya təqdim olunmaqla ödənilən vekselin təqdimatı.

TƏQDİMATÇI VEKSELİ – təqdim edənin tələbi ilə dərhal ödənilməli olan veksel.

TƏQVİM SPREDİ – opsionla sövdələşmənin aparılması üsuludur ki, burada daha qısa fəaliyyət müddətli opsion satılır, daha uzun fəaliyyət müddətli opsion alınır, özü də hər ikisində eyni strayk qiyməti təshih edilir (razılaşdırılır). Alqı üçün opsionlar həm də satqı üçün opsionlar kimi istifadə oluna bilər. Təqvim kombinasiyası – alqı üçün opsionlarla təqvim spredinin satqı üçün opsionlarla təqvim spredinin əlaqələndirilməsidir; bu zaman satqı üçün opsionlarda razılaşdırılmış qiymətə nisbətən, alqı üçün opsionlarda razılaşdırılmış qiymət yüksəkdir. Təqvim stellajı (ikiqat opsion) – müddəti bitmiş ikiqat opsionun satışı ilə daha uzunmüddətli ikiqat opsionun əlaqələndirilməsidir, özü də hər iki ikiqat opsion eyni strayk qiymətini razılaşdırır. Əgər opsionların qiymətləri bərabərdirsə, onda spred üfüqi adlanır, əgər qiymətlər müxtəlifdirsə, diaqonaldır.

TƏLƏB (ing. *demand*) – mövcud qiymətlərlə və istehlakçıların tədiyə qabiliyyəti ilə məhdudlaşan bazarda əmtəə və xidmətlərə olan tələbat. Tələb dedikdə alıcının müəyyən dövr ərzində hər hansı bir əmtəənin müəyyən qiymətində, müəyyən kəmiyyətdə əldə etmək arzusu və imkanı başa düşülür. Tələbin səviyyəsi ilə bağlı məcmu (aqregirləşmiş) tələb, bazar tələbi və fərdi tələb növləri fərqləndirilir. Fərdi tələb dedikdə konkret əmtəə bazarında qiymətin müəyyən səviyyəsində hər bir fərdi alıcının tələbinin həcmi başa düşülür. Bazar tələbi konkret əmtəə bazarında qiymətin müəyyən səviyyəsində bütün alıcıların fərdi tələblərinin cəmini ifadə edir. Məcmu tələb isə cəmiyyət miqyasında, bütün növlərdən olan əmtəə və xidmətlər bazarında iştirak edən bütün alıcıların (fərdlərin, müəssisə və firmaların, hökumətin) qiymətlərin hər hansı bir səviyyəsində formalaşan tələbinin həcmidir. İqtisadiyyatda tələb həmişə əmtəə və xidmətlərin təklifi ilə dialektik surətdə əlaqədardır; onlar arasında tarazlıq xalq təsərrüfatında tarazlığın zəruri şərtidir. Ayrı-ayrı əmtəə və xidmətlərə (istehlak nemətlərinə) olan tələb həcminin ona təsir edən kompleks amillərdən asılılığını əks etdirən funksiya "tələb funksiyası" adlanır. Müvafiq əyri tələb əyrisidir. Daha dar və geniş yayılmış izah: tələb funksiyası (ona uyğun əyri kimi) əmtəənin qiyməti ilə bu əmtəəyə tələb arasında qarşılıqlı asılılığı o şərtlə ifadə edir ki, tələbin kəmiyyətinə təsir göstərən digər amillər sabit amillər kimi qəbul olunur. O, adətən, məlum ümumi qaydanı əks etdirir: qiymət nə qədər çoxdursa, tələb o qədər aşağıdır və əksinə (baxmayaraq ki, istisnalar da mövcuddur, məsələn, Qiffin əmtəələri), əyrinin dikliyi belə asılılığın dərəcəsini göstərir: o, qiymətə nisbətən tələbin elastikliyi adlanır. Əyri nə qədər dikdirsə, elastiklik bir o qədər yüksəkdir. Ayrı-ayrı istehlakçıların fərdi tələbinin əyrisi, ayrı-ayrı əmtəələrə olan bazar tələbinin əyrisi və ölkə iqtisadiyyatında aqreqat, məcmu tələbin əyrisi fərqləndirilir.


Bu asılılıqlar tələb və tələbat modellərinin təhlilində tətbiq edilir və əhalinin gəlirlərinin strukturu, əmtəələrin qiymətləri və digər amillər haqqında informasiya əsasında riyazi statistikanın metodlarından istifadə etməklə qurulur. Məsələn, uzunmüddətli istifadə üçün nəzərdə tutulan predmetlərə tələbin təhlili və proqnozlaşdırılması üçün artıq əhalidə olan bu cür predmetlərin mövcudluğu və yaşı haqqında, ailənin tərkibi haqqında məlumatlar lazımdır; mebelə olan tələb bir çox hallarda mənzil tikintisinin intensivliyi və s. ilə müəyyən olunur.

Tələbin ailə gəlirlərinin səviyyəsindən asılılığını əks etdirən biramilli funksiya daha geniş yayılmışdır. Bu funksiyalara uyğun olaraq əyrilər onu ilk dəfə öyrənən alman alimi Engelin şərəfinə "Engel əyriləri" adlandırılmışdır.

TƏLƏB ƏYRİSİ – əmtəənin qiyməti ilə ona olan tələbin həcmi arasındakı əlaqəni əks etdirən əyri. Bu, müəyyən zaman anında alıcıların müxtəlif qiymətlərə nə qədər əmtəə almağa hazır olduğunu göstərən əyridir.

Tələb əyrisinin yerinin dəyişməsi

Tələb əyrisi qeyri-qiymət amillərinin təsiri altında sağa və ya sola doğru yerini dəyişir. Bazarda əmtəənin qiyməti və ona tələbi təmin edən təklifin həcmi arasında müəyyən nisbət vardır. Adətən, məhsulun qiyməti artdıqda (gəlirlərin səviyyəsi eyni qaldıqda) ona tələbin həcmi azalır və əksinə, əmtəənin qiyməti azaldıqda ona tələbin artması müşahidə olunur.



Tələbin xarakterinin dəyişməsi qrafiki

İqtisadiyyatda tələb əyrisi *D* hərfi ilə işarə edilir. *D* əyrisini proyeksiyalamaqla qiymətlərin dinamikası zamanı tələbin həcminin dəyişməsini müəyyən etmək olar. Əgər P_1 bazar qiymətinə müvafiq tələb Q_1 olarsa, bu qiymət P_2-yə qədər azaldıqda tələb Q_2-yə qədər artacaqdır və s. Tələb funksiyasının xətti funksiya olmasını nəzərə alsaq, tələb əyrisinin tənliyini ümumi şəkildə aşağıdakı kimi göstərmək olar:

$$Q_d = a - b \times P$$

Tələb funksiyasının tənliyi bazarda qiymətlərin səviyyəsi *(P)* ilə həmin məhsula tələbin həcmi (Q_d) arasında əks asılılığı göstərir.

a və *b* parametrləri tələbin ekzogen (qiymətlə bağlı olmayan) amillərinin dəyişməsini əks etdirir. *a* kəmiyyəti dəyişdikdə tələb əyrisinin yerdəyişməsi baş verir, *b* kəmiyyəti dəyişdikdə isə əyrinin meyli dəyişir. Qiymət azaldıqda tələbin həcmi artır, həmin mala tələbatın ifadəsi olan tələb isə müəyyən anda sabitdir. Başqa sözlə, tələb artdıqda alıcılar həmin malın qiymətindən asılı olmayaraq öz tələbatlarını artıracaqlar. Bu halda tələb əyrisinin vəziyyəti dəyişir. Tələbin həcminə qiymətlə yanaşı, gəlirlərin səviyyəsi, bazarın miqyası, qiymətlərin səviyyəsi və başqa, bir qayda olaraq, analoji əvəzedici malların (substitlərin) qiymətlərinin səviyyəsi, müştərilərin subyektiv üstünlük verdiyi amillər, moda və s. məsələlər təsir edə bilər. Məsələn, istehlakçıların (alıcıların) orta gəliri artdıqda, sair şərtlər dəyişmədikdə tələb əyrisi yerini sağa tərəf dəyişəcək (D_1), tələbin artmış səviyyəsinə (Q_2) uyğun olaraq qiymətin əvvəlki səviyyəsinə (P_1) çatacaqdır.

TƏLƏB QANUNU – qrafik olaraq, o, sağdan aşağı əks əyriliyə malikdir, amma iki dayanıqsız dəyişən – qiymət və tələbin kəmiyyəti arasında əks mütənasibliyi göstərir (bax: Tələb). Digər amillərin sabit qalması şərti ilə əmtəənin qiyməti və ona olan tələb arasında asılılığı ifadə edir. Hər bir əmtəənin qiyməti ilə bu əmtəəyə olan tələb arasında tərs mütənasib asılılıq mövcuddur.

TƏLƏB OLUNAN KAPİTAL – sığortaçının maliyyə öhdəliklərinin tam həcmdə yerinə yetirilməsi üçün tələb olunan vəsaiti ifadə edən məbləğ.

TƏLƏB OLUNANA QƏDƏR ƏMANƏT – pul vəsaitlərinin qorunması (saxlanması) müddəti göstərilmədən banklarda və ya digər maliyyə-kredit idarələrində yerləşdirilən pul vəsaitləri. Bu əmanətlərə əmək haqqı, pensiya və əmanətçinin digər vəsaitləri köçürülə bilər. Tələb olunana qədər əmanətlər həm müəyyən şəxsin (adlı əmanətlər), həm də təqdim edənin adına qəbul edilir. Əmanətin qəbulu zamanı əmanətçiyə əmanət kitabçası verilir. Sonradan əlavə vəsaitlərin daxil olması üzrə və ya əmanətdən vəsaitlərin çıxarılması üzrə əməliyyatlar kitabçada əks olunur. Bu əmanəti həm onun öz sahibi, həm də digər şəxs doldura bilər. Tələb olunana qədər əmanət üzrə faizlər digər əmanət növlərinə nisbətən aşağıdır. Tələb olunana qədər əmanətlərdən sahibinin tapşırığı ilə kommunal və digər xidmətlərin ödənilməsi üçün vəsaitlər köçürülə bilər. Tələb olunana qədər əmanətlər əmanət bankının əmanətlərinin (depozitlərinin) əsas hissəsini təşkil edir. Tələb olunana qədər əmanətlər üzrə cari gəlirlər və xərclər arasında fərqdən yaranan fiziki şəxslərin hesablarında olan qalıqlar qənaət kimi nəzərdən keçirilir. Bunlar ilin sonunda əmanət hesabına köçürülür və qısamüddətli

kreditlərin verilməsi üçün resurs mənbəyi kimi bank tərəfindən istifadə oluna bilər.

TƏLƏB OLUNANADƏK SAXLANILAN DEPOZİT – əmanətçilərin çek yazmaqla əldə edə bildikləri bank hesablarındakı balanslar.

TƏLƏB OLUNMAMIŞ DİVİDEND – səhmdarların hüquqları təqdim edilməmiş dividendlər. Bir qayda olaraq, xırda səhmdar ya şəxsən özü gəlməli və dividendin ödənilməsi üçün kuponlu qiymətli kağızı təqdim etməli və həmin kupon kassir tərəfindən kəsilməli, ya da dividendlərin onun hesabına köçürülməsi haqqında rəsmi tapşırığı səhmdar cəmiyyətinə göndərməlidir.

TƏLƏB VƏ TƏKLİF – bazarda əsas problemlər tələb və təklifin qarşılıqlı təsiri sistemi vasitəsilə həll edilir. Tələb alıcının (istehlakçının) malları və xidmətləri almaq arzusunu və imkanını əks etdirir. Təklif həmin malların və xidmətlərin müəyyən qiymətində satışda olan miqdarıdır.

Mala tələb və onun təklifi arasında siyasi, psixoloji, sosial-iqtisadi amillərin təsiri altında yaranan mürəkkəb funksional və səbəb-nəticə əlaqələri vardır. Müxtəlif mallara tələb həmin malların qiyməti, təklifin həcmi və strukturu gəlirlərin səviyyəsi kimi amillərə eyni şəkildə reaksiya vermir. Qısamüddətli zaman hüdudunda tələb və təklif qiymətlərin dəyişməsi, mal ehtiyatları ilə manevrlər yolu ilə tənzimlənir. Uzunmüddətli dövrdə şəxsi istehlakın strukturunda, əhalinin pul gəlirlərinin və xərclərinin dinamikasında, istehsal və dövriyyə xərclərində, digər təkrar istehsal nisbətlərində mütərəqqi dəyişikliklər xüsusi əhəmiyyət kəsb edir. Yaxın keçmişdə bizim dövlətdə planlı bölgü sistemi tətbiq edilərkən təklif tələbdən kəskin şəkildə geri qalmış, mal qıtlığı yaranmışdı. Bunun nəticəsində qiymətlər hədsiz artmış, malların real dəyərindən uzaqlaşmışdı. Qiymətlərin artması həm birbaşa, həm də gizli şəkildə, mal çeşidinin dəyişməsi hesabına baş verə bilər. Bu halda alıcıya mənəvi cəhətdən köhnəlmiş məhsullar təklif edilir.


TƏLƏB VƏ TƏKLİF QANUNU – qiymətin öz-özünü tənzimləyərək tələbin həcmini və təklifin həcmini tarazlığa gətirəcəyi haqqında nəzəriyyə (bax: sxem 1).

TƏLƏB VƏ TƏKLİFİN TƏHLİLİ – iqtisadi-riyazi tədqiqat sahəsidir ki, onun əsas vəzifəsi cəmiyyət üzvlərinin maddi tələbatlarını elmi uzaqgörənliklə müəyyən edərək, onların ödənilməsinin optimal yollarını axtarmaqdır.

Bunun üçün, ilk növbədə, tədiyə qabiliyyətli tələb və təklif anlayışı ciddi olaraq fərqləndirilməlidir: tələbin ödənilməsi zəruri olsa da, cəmiyyət üzvlərinin fasiləsiz artan tələbatlarının tam ödənilməsi vəzifəsinin həlli yolunda yetərli mərhələ deyildir. Təhlilin mühüm istiqaməti (yekcins istehlak davranışın xarakteri baxımından) sosial qrupların tələb və istehlakını tədqiq etməkdir. Burada söhbət birbirindən gəlir səviyyəsinə, marağına, məşğulluq növünə, ailə vəziyyətinə görə fərqlənən qruplardan gedir. İstehlakın hər bir fərqi demoqrafik və statistik tədqiqat əsasında meydana çıxır. İstehlakın hər bir tipi ona məxsus üstünlük sistemi və tələbatların iyerarxiyası ilə xarakterizə olunur. Bu qruplar üçün bir sıra əsas məsələlərə cavab verən iqtisadi-riyazi modellər işlənilir. Məsələn, əgər müəyyən qrupların əmək haqqı artırsa, hansı məhsullara olan tələbat arta bilər; yaxud müəyyən məhsulların qiyməti artarsa, əhalinin hansı təbəqəsinin vəziyyəti ağırlaşa bilər. Bundan başqa, istehlakı və tələbi istehsalla əlaqələndirən modellər də işlənib hazırlanır; bunun əsasında bütövlükdə xalq təsərrüfatının inkişafının proqnozlaşdırılmasının modellər sistemi formalaşır.

Tələb və təklifin balanslaşdırılmasının metod və vasitələri müəyyən edilərkən ayrı-ayrı iqtisadi proseslərin ətalətliliyi dərəcəsinin müxtəlifliyi nəzərə alınmalıdır. Məsələn, əmtəələrin təklifinin quruluş və həcmi qısa müddət ərzində əhəmiyyətli dərəcədə dəyişdirilə bilməz, bu halda bu və ya digər səbəbdən tarazlığın pozulmasını yalnız qiymətlərin variasiya edilməsi vasitəsilə bərpa etmək mümkündür (üstəgəl bəzi operativ tədbirlər). Əksinə, məsələ nisbətən daha uzun vaxt ərzində, istehsalda struktur irəliləyişləri hesabına həll edilə bilər (bu, müəssisələrin genişləndirilməsi, modernləşdirilməsi, yeni məhsul növlərinin yaradılması yolu ilə mümkündür); bu həmçinin əhalinin gəlirlərinin və tələbinin strukturunun tədricən dəyişdirilməsi hesabına həyata keçirilə bilər. Əhalinin gələcək tələbatlarının müəyyən edilmə-

Tələb və təklifin nisbəti əmtəə və xidmətlərin bazar qiymətini təyin edir



Sxem 1

sində statistik metodlar cari tələbin tədiyə qabiliyyətliliyinin öyrənilməsinə, gəlirlərin gələcək dəyişikliyinə və tələbin dəyişməsinə əsaslanır. Normativ metodlar isə əhalinin bu və ya digər qrupları tərəfindən elmi şəkildə əsaslandırılmış istehlak normalarının hesablanması halında çıxış edir (məsələn, insanın fizioloji tələbatlarının elmi şəkildə öyrənilməsi bazasında əsaslandırılmış normalar işlənib hazırlanır).

TƏLƏBATLARIN ARTMASI QANUNU – fərdin öz ehtiyacını aşağıdan yuxarıya doğru ödəməsi qaydasından bəhs edir. Hər bir fərdin tələbatları daim kəmiyyətcə və keyfiyyətcə dəyişir, yəni yüksəlir.

Bu qanunda Maslou piramidası aydın əks olunmuşdur. Bu piramidanın əsasında – özünü təcəssümdə aşağı tələbat – yüksək tələbat dayanır. Başqa sözlə, insan qorxu içində yaşayanda və ya ac olanda onun aşağı tələbatı ödənilmirsə, o, muzeylərə getmək, mənəvi tələbatlara vaxt ayırmaq istəməyəcək. İnsanın elementar tələbatları ödəniləndə o, məmnun qalır və onda ünsiyyət etmək, müxtəlif ədəbiyyatla maraqlanmaq, bu dünyada öz yerini axtarmaq, hobbi, etiqad və s. vaxt ayırmaq arzusu baş qaldırır.

TƏLƏBATLARIN İYERARXİYASI – bu və ya digər tələbatın ödənilməsi qaydası. A.Maslonun motivasiya nəzəriyyəsinə görə, aşağı səviyyədə yerləşmiş tələbatlar ilkin olaraq ödənilir və bundan sonra yuxarıdakı tələbatların ödənilməsinə keçilir. Kleyton Alderfer isə hesab edir ki, tələbatların ödənilməsi hər iki istiqamətdə baş verə bilər. Əgər aşağı tələbatlar ödənilibsə, yuxarı, daha yuxarı tələbatlar ödənilməyibsə, onda aşağı tələbatların ödənilməsi baş verir.

TƏLƏBƏ GÜZƏŞT (SESSİYA) – kreditorun ilk hüququnun yeni kreditora keçməsi; öhdəlik əsasında kreditora məxsus hüquq (tələb) onun tərəfindən saziş üzrə (tələbə güzəşt) başqasına verilə və ya qanunvericilik aktı əsasında başqa şəxsə keçə bilər; kreditor (tsedent) tərəfindən ona məxsus hüququn başqa şəxsə (tsessionari) verilməsi o halda mümkündür ki, bu, qanuna, başqa hüquqi aktlara və müqavilələrə zidd olmasın. Borclunun razılığı olmadan kreditorun şəxsiyyəti borclu üçün önəmli olduğu öhdəlik üzrə tələbə güzəştə yol verilmir. Sazişdə əsaslandırılan tələbə güzəşt adi yazılı və ya notarial formada hazırlanmalı; dövlət qeydiyyatından keçmiş sazişdə müvafiq yazıya uyğun formada olmalı; bu sazişin qeydiyyatı üçün müəyyən edilmiş qaydada qeydiyyatdan keçməli; orderli qiymətli kağızda isə həmin qiymətli kağızın üzərində indossament yolu ilə həyata keçirilir. Qeyd etmək lazımdır ki, əvvəlki kreditor tələbə güzəşt etməklə yeni kreditor qarşısında ona verilmiş tələbin etibarsızlığı üçün cavabdehdir, lakin bu tələbin borclu tərəfindən icra edilməməsinə cavabdeh deyil. Bu halda əvvəlki kreditorun borclu üçün yeni kreditor qarşısında zəmanət verdiyi hallar istisnadır.

TƏLƏBİN ÇARPAZ ELASTİKLİYİ – bir əmtəənin qiymətinin dəyişməsi nəticəsində, digər bir əmtəəyə olan tələbin həcminin nə qədər dəyişməsinin ölçüsüdür və birinci əmtəəyə olan tələbin həcminin faiz dəyişməsinin ikinci əmtəənin qiymətinin faiz dəyişməsinə nisbəti kimi hesablanır:

$$E_x^D = \frac{dQ_a / Q_a}{dP_b / P_b} = \frac{dQ_a}{dQ_d} \times \frac{P_b}{Q_a}$$

TƏLƏBİN ELASTİKLİYİ (*elasticity of demand*) – tələbin həcminin qiymətin azalması nəticəsində nisbi dəyişməsi; başqa sözlə, əmtəənin qiymətinin bir faiz dəyişməsi ilə sərbəst bazarda həmin əmtəəyə olan tələbin neçə faiz dəyişməsini səciyyələndirən göstərici, yaxud məcmu tələbdə əmtəə və xidmətlərin qiymətlərinin azalması ilə əlaqədar dəyişiklikləri ifadə edən göstərici.

Tələbin elastikliyini həm tələbin qövsşəkilli elastikliyi kimi (məsələn, orta nöqtə metodu ilə, bax: Qövsşəkilli elastiklik):

$E_d = [((Q_1 - Q_0) : (Q_1 + Q_0)] / [(x_1 - x_0) : (x_1 + x_0)]$,

həm də nöqtəvi tələbin elastikliyi kimi hesablamaq olar (bax: Nöqtəvi elastiklik):

$E_d = lim\ (DQ / Q_0) : (Dx / x_0) = x_0 / Q_0\ D\ (x_0),\ x \to \infty$.


Burada: Q_0, Q_1 – qarşıdakı və sonrakı anlarda müəyyən nemətə tələbin qiymətidir;

x_0, x_1 – qarşıdakı və sonrakı anlarda endogen dəyişənin (qiymət, gəlir və s.) qiymətidir;

D kəmiyyəti isə $Q=D(x)$ tələb funksiyasının birinci tərtib törəməsidir.

Qiymətə görə tələbin elastikliyi iqtisadçıları daha çox hallarda maraqlandırır.

Xətti tələb funksiyasının qiymətə görə elastikliyi



Qiymətə görə xətti funksiya olan tələbin elastikliyi *0*-dan *e*-a qədər dəyişir. Tələbin elastikliyinə görə onu beş sahəyə bölürlər: tamamilə elastik tələb ($E_d = 0$), elastik tələb ($E_d < 1$), elastikliyi vahidə bərabər olan tələb ($E_d = 1$), qeyri-elastik tələb ($E_d > 1$) və tamamilə elastik

tələb ($E_d \rightarrow \infty$). Bəzi qeyri-xətti tələb əyriləri qiymətə görə sabit elastikliyə malik ola bilər.

Tələbin qiymətə görə elastikliyinə təsir göstərən amillər bunlardır: a) əvəzedici nemətlərin mövcud olması: nemətin substitutları nə qədər çox olsa, həmin nemətə tələb bir o qədər elastikdir; b) istehlakçının büdcəsində nemətin xüsusi çəkisi: bu göstərici nə qədər yüksəkdirsə, tələb bir o qədər elastikdir; c) gəlirin həcmi; ç) əmtəənin keyfiyyəti: əmtəə nə qədər keyfiyyətli olsa, ona tələb bir o qədər az elastik olur; d) nemətin zərurilik dərəcəsi: firavanlıq əşyalarına tələbat zəruri predmetlərə tələbatla müqayisədə daha elastik olur; e) ehtiyatların həcmi: müəyyən nemətin ehtiyatı istehlakçıda nə qədər çox olsa, ona tələb bir o qədər elastik olar; ə) istehlakçının ehtimalları. Müasir iqtisad elmində tələbin gəlirə görə elastikliyi, alıcıların sayına görə tələbin elastikliyi, eləcə də tələbin çarpaz elastikliyi göstəricilərindən də istifadə edilir. Makroiqtisadiyyatda məcmu tələbin qiymətə görə elastikliyi – qiymətlərin ümumi səviyyəsinin dəyişməsinə məcmu tələbin reaksiyasının sürəti hesablanır. Bu halda belə hesab edirlər ki, məcmu tələb əyrisi qeyri-elastikdir.

Tələbin gəlir elastikliyi – istehlakçının gəlirinin dəyişməsi nəticəsində əmtəəyə olan tələbin həcminin nə qədər dəyişməsinin ölçüsüdür. Tələbin həcminin faiz dəyişməsinin gəlirdəki faiz dəyişməsinə nisbəti kimi hesablanır.

TƏLƏBİN GƏLİR ÜZRƏ ELASTİKLİYİ – tələbin həcminin alıcıların gəlirlərinin dəyişməsinə reaksiyası.

$$E_R^D = \frac{\text{Tələb həcminin faizlə dəyişməsi } (Q)}{\text{Gəlirin faizlə dəyişməsi}}$$

burada: E_R^D – gəlirə görə tələb elastikliyi əmsalı; R – gəlirdir.


TƏLƏBİN HƏCMİ – müəyyən qiymət səviyyəsində alıcıların almaq istədikləri və almağa qadir olduqları əmtəənin miqdarı.

TƏLƏBİN İDARƏ EDİLMƏSİ – tələbin stimullaşdırılmasına və ya onun dəyişmələrinin tənzimlənməsinə yönəlmiş tədbirlər kompleksi.

Tələbin stimullaşdırılması təkcə firmanın təkliflərinin cəlbediciliyini artırmaq deyil, həm də onun məhsullarına sözün hərfi mənasında tələbat yaradılması deməkdir. Tələbin kəmiyyətində sıçrayışlar yarandıqda (məsələn, mövsümi dəyişikliklər), yaxud tələb təklifdən çox olduqda tənzimləmə zəruridir. Bu halda tələbin idarə edilməsi əməliyyatlarının məqsədi il ərzində tələbi daha müntəzəm etmək, ayrı-ayrı dövrlərdə onun ümumi səviyyəsini azaltmaqdır (əmtəənin demarketinqinin həyata keçirilməsi).

Tələbin idarə edilməsinin əsas vasitəsi reklamdır. Reklamın müsbət cəhəti ondan ibarətdir ki, o, eyni vaxtda çoxsaylı insanlara təsir göstərir və hər istehlakçıya düşən xərclər cüzi olur. Lakin reklam elanları standartlaşdırılmış olduğuna görə onlar kifayət qədər çevik olmur. Bu elanları auditoriyanın ehtiyaclarına və tələbatına uyğunlaşdırmaq çətindir. Məsələn, ərzaq mağazasının şəhər qəzetində verdiyi reklam yalnız bilavasitə həmin mağazanın yaxınlığında yaşayan oxucuların az bir qismi üçün faydalı ola bilər. Bundan əlavə, reklam kifayət qədər sanballı xərc tələb edir (məsələn, ümummilli telekanalda birdəqiqəlik reklamın dəyəri bir neçə min dollara bərabərdir). Yuxarıda artıq qeyd etdiyimiz kimi, reklamın nisbi xərci yüksək deyil. Buna görə də müəssisələr reklamla yanaşı, tələbin stimullaşdırılmasının başqa formalarından da istifadə edirlər. Onlar sərgilər, müsabiqələr, lotereyalar təşkil edir, əmtəələri güzəştli qiymətlə almaq hüququ verən kuponlar yayırlar, kommivoyajerlər göndərirlər və s. İstehlakçıların əksəriyyətinin reaksiyasının intensivliyi, ümumiyyətlə, tələbin idarə edilməsi vasitələrindən istifadəsi intensivliyi ilə tərs mütənasibdir – tələbi idarə etməyə çalışan müəssisələrin çoxunda satışın həcmi artır.

TƏLƏB İNFLYASİYASI – təklifə münasibətdə artıq tələbdə təzahür olunan inflyasiya; başqa sözlə, məcmu tələbin məcmu təklif üzərində qısamüddətli yüksəlməsi ilə şərtlənən inflyasiyadır. Tam məşğulluq və güclərin tam yüklənməsi zamanı istehsal, buraxılan məhsulun real həcminin zəruri artması ilə tədavüldə pul vəsaitlərinin artıqlığına cavab vermək iqtidarında deyil. Tələbin yaranan artıqlığı istehsal olunan məhsulun qiymətlərinin yüksəlməsinə gətirib çıxarır. Məcmu tələbin artımı son məhsulun qiymətlərinin artımını, istehsalın real həcminin artımını, işsizliyin azalmasını, bunun ardınca is-



Sxem 1

tehsal amillərinin qiymət artımını doğurur.

TƏLƏBİN QİYMƏT ELASTİKLİYİ – bir əmtəənin qiymətinin dəyişməsi nəticəsində ona olan tələbin həcminin dəyişməsi ölçüsüdür və tələbin həcminin faiz dəyişməsinin qiymətdəki faiz dəyişməsinə nisbəti kimi hesablanır.

$$E_P^D = \frac{Q \text{ dəyişmə faizi}}{P \text{dəyişmə faizi}}$$

burada: E_P^D – qiymətə görə elastiklik əmsalı;

Q – tələb edilən əmtəənin kəmiyyətidir;


P – əmtəənin bazar qiymətidir.

TƏLƏBİN QİYMƏTİ – alıcının əmtəənin müəyyən kəmiyyəti üçün ödəməyə hazır olduğu maksimum qiymət.

TƏLƏBİN STATİSTİK TƏHLİLİ – tələbin proqnozlaşdırılması zamanı satışın həcminə təsir göstərən ən mühüm real amillərin (qiymət, gəlir səviyyəsi, istehlakın strukturu, əmtəənin təbliğ edilməsi metodları və s.) və onların tələbin kəmiyyətinə təsir dərəcəsini müəyyən etmək üçün istifadə edilən statistik prosedurların məcmusu. Tələbin statistik təhlilində çox vaxt reqressiya təhlili metodlarından istifadə edilir.

TƏLƏBİN TAM TƏMİN EDİLMƏSİ – bir sıra əmtəə və xidmətlər üçün xarakterik olan tələbin əhəmiyyətli dərəcədə azalmasını və ya tam dayanmasını əks etdirən kateqoriya (gəlirlərin və qiymətlərin, eləcə də bu cür nemətlərin yığılmış ehtiyatlarının müəyyən səviyyəsində); tələbin tam təmin edilməsi amili əhalinin rifah halının, xalq istehlakı malları istehsalının planlaşdırılmasında və marketinqdə nəzərə alınır. Bu və ya digər nemətə tələbin tam təmin edilməsi ilə tədiyə qabiliyyətli tələbin tam təmin edilməsini fərqləndirmək lazımdır. Əgər gəlirlər artdıqda (və ya qiymətlər hər hansı şəkildə azaldıqda) müəyyən nemətin istehlakı artmırsa, həmin nemətə tələbatın tam təmin edilməsi barədə danışmaq olar (bax: sxem 1).

TƏLƏBİN TƏHLİLİ (ing. *demand analysis*) – ən gəlirli (mənfəətli) fəaliyyət istiqamətlərini müəyyənləşdirmək üçün



Sxem 1

tələbin kəmiyyətinin və tələblə təklif arasında tarazlığın pozulmasının, fərqin təhlili.

TƏLƏBİN VAHİD ELASTİKLİYİ (ing. *unitary-elastic demand*) – tələbin bu səviyyəsində qiymətin azalma faizi satışın həcminin elə faiz artımına səbəb olur ki, ümumi gəlir dəyişməz qalır. Yaxud qiymətin artması müqabilində satışın həcmi elə azalır ki, gəlir dəyişmir.

TƏLƏBKAR, REQRESSANT – başqa şəxsin xeyrinə xərc çəkməklə (məsələn, ödəniş etməklə) zərərə düşmüş şəxs tərəfindən həmin zərərin ona kompensasiya edilməsi haqqında əks tələb təqdim edən şəxs.

TƏLƏBLİ ƏMANƏT – bank əmanəti müqaviləsinin əmanətin ilk tələb üzrə verilməsi şərti ilə bağlanması.

TƏMƏRKÜZLƏŞMƏ – istehsalın, kapitalın, iş qüvvəsinin bir əldə və ya bir yerdə cəmləşməsi, bazarda bir və ya bir neçə firmanın üstün olması. Kapitalın təmərküzləşməsi müxtəlif sahiblərin, mülkiyyətçilərin kapitallarının birləşməsi vasitəsi ilə, eləcə də mənfəətin kapitala çevrilməsi hesabına kapitalın artmasıdır. İstehsalın təmərküzləşməsi kiçik region hədlərində (sərhədlərində), iri müəssisələrdə bir və ya bir neçə "qohum" məhsul növlərinin istehsalının cəmləşməsidir. İş qüvvəsinin təmərküzləşməsi eyni və ya yaxın məhsul növləri istehsalında işçilərin birləşməsidir.

TƏMƏRKÜZLƏŞMİŞ DİVERSİFİKASİYA – mövcud əmtəələrə əlavə olaraq, yeni əmtəələrin buraxılışı yolu ilə çeşidin genişlənməsi.

TƏMİN EDİLMİŞ BORC – əmlak və ya maliyyə dəyərləri ilə təmin edilən (bu dəyərlərin girov qoyulması müqabilində), eləcə də üçüncü şəxsin zəmanəti ilə verilmiş borc.

Borclu kreditora münasibətdə öz öhdəliklərinə əməl etmədikdə, borcun təminatı kimi qoyulmuş əmlak üzərində hüquq kreditora keçir. Kreditor bu əmlak barəsində öz mülahizəsinə görə sərəncam verə (sata, icarəyə verə və s.) bilər.

Əgər borcun təminatına üçüncü şəxslərin zəmanətləri olmuşdursa və əsas borclu hər hansı səbəblərə görə öhdəliklərini yerinə yetirə bilmirsə və ya yerinə yetirmək istəmirsə, bu halda kreditor borcun qaytarılmasını həmin şəxslərdən tələb etmək hüququna malikdir.

Banklar və digər kredit müəssisələri pul vəsaitlərini yalnız təminatla verir (xüsusi hallar istisna olmaqla).

TƏMİN EDİLMİŞ İSTİQRAZLAR – bələdiyyə istiqrazlarının bu növü üzrə gəlirlər və onların nominal dəyəri onların maliyyələşdirdiyi layihənin gəlirləri hesabına ödənilir.

TƏMİNAT (zəmanət) – alındıqdan müəyyən müddət sonra xarab olduğu təqdirdə, istehsalçının öz məhsulunun defektini pulsuz kənarlaşdırması üzrə öhdəliyi.

TƏMİNAT HESABI – dövlət zəmanəti üzrə öhdəliklərin yerinə yetirilməsini təmin etmək üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən açılan xüsusi büdcə hesabı.

TƏMİNAT XƏRCLİYİ (pul təminatı) – hərbi qulluqçuların hərbi xidmətdən buraxıldıqları günə aldıqları miqdarda (sonrakı artımlar da nəzərə alınmaqla) aylıq vəzifə maaşından, rütbə maaşından, xidmət illərinə görə əlavədən, ərzaq payı əvəzinə verilən pul kompensasiyasından, vəzifə maaşından hesablanan digər əlavələrdən, artımlardan ibarət məbləğ.

TƏMİNAT SİSTEMİNİN BİRİNCİ RİSKİ – əmlak sığortasında zərərlərin ödənilməsi sistemlərindən biri. Bu sığorta növündə zərər sığorta məbləğinə qeyri-proporsional nisbətdə örtülür. Sistem bütün mümkün zərərlərin riskini iki hissəyə bölür: bu riskin birinci hissəsini (sığorta məbləği həddinə qədər) sığortaçılara həvalə edir və riskin ikinci hissəsini tam olaraq sığortalıda saxlayır (bax: sxem 1).

TƏMİNAT VEKSELİ – borcun uzun müddət ödənilmədiyi, borclunun məsuliyyətsiz və ya etibarsız olduğu hallarda ondan tələb edilə bilən veksel. Sonradan dövriyyəyə buraxılmaq üçün nəzərdə tutulmayan bu veksel borcverənin depozit hesabında saxlanır və ondan ssudanın təminatı kimi istifadə olunur. Ssudanın ödənişi yubadılırsa, borcluya qarşı iddia qaldırılır.

TƏMİNATLI İNVESTİSİYA MÜQAVİLƏSİ (ing. *Guaranteed investment contract (GİC)*) – əsas borc məbləğinin ödənildiyi tarixdə faizlərin müəyyən səviyyədən aşağı olmayan dərəcədə ödənilməsini nəzərdə tutan investisiya məhsulu. Bu cür investisiya məhsulları faiz riskinin azaldılması üçün istifadə edilir və investisiya normalarına təminat verən şirkətə mükafatın ödənilməsini nəzərdə tutur (məsələn, təminatlı depozit sertifikatları).

TƏMİNATLI İSTİQRAZ (ing. *Wrapped Bond*) – xüsusi sığorta şirkətinin qeyd-şərtsiz maliyyə təminatı verdiyi istiqraz. Təminat istiqrazın reytinqinin sığorta şirkətinin reytinqinədək qaldırılmasına imkan verir.

TƏMİNATLI KREDİTOR – girovsaxlayan kreditor.

TƏMİNATSIZ KREDİTOR – digər şəxslərlə müqayisədə güzəştli qaydada ödənilməsini təmin edən aktivlər haqqında borclu ilə razılıq bağlamayan kreditor.

TƏMİNEDİCİ TRANŞ – eyni sövdələşmə çərçivəsində buraxılmış, daha yüksək statuslu qiymətli kağızlar üçün təminat qismində çıxış edən, kredit kartları üzrə daxilolmaların sekyuritizasiyası çərçivəsində buraxılmış qiymətli kağızların tabeli olunan termin.

TƏMİRƏ GÖRƏ MÜLAYİM XƏRCLƏR – əgər gəmi sığorta şərtləri ilə örtülən təhlükələr nəticəsində zədələnmişsə, sığorta məbləğinin həqiqi sığorta məbləğinə uyğun gəlib-gəlməməsindən asılı olmayaraq, sığortaçı təmirin münasib, ağlabatan dəyərini ödəməsini nəzərə alaraq təmiri həyata keçirən firmanı seçmək hüququna malikdir.

TƏNBƏL BAZAR – bu bazar şəraitində alqı-satqı prosesi praktiki olaraq müşahidə edilmir.

TƏNZİMLƏNƏN ARBİTRAJ ƏMƏLİYYATLARI – kredit-maliyyə təşkilatlarının o əməliyyatlarıdır ki, onlar müxtəlif ölkələrdəki normativ tənzimləmənin fərqlərindən istifadəyə yönələrək, kapitalların, bank və maliyyə fəaliyyətində xeyli məhdudiyyətlər qoyulmuş dövlətlərdən, tənzimləmə rejiminin sərtliyi daha az olan ölkələrə köçürülməsinə gətirib çıxarır.

TƏNZİMLƏNƏN VALYUTA – Mərkəzi Bankın hazırkı anlamdakı kredit və vergi siyasətlərinin köməkliyi ilə tənzimlənən istənilən valyuta.

TƏNZİMLƏNƏN VALYUTA NƏZƏRİYYƏLƏRİ – inkişaf etmiş ölkələrdə dövlətin pul tədavülü və kredit sferası vasitəsilə iqtisadiyyata müdaxiləsinin yollarını və metodlarını əsaslandıran nəzəriyyələr. Tənzimlənən valyuta nəzəriyyələrinin bazası nominalizm və pulun kəmiyyət nəzəriyyəsidir. Tənzimlənən valyuta nəzəriyyələrinin inkişafını bir neçə mərhələyə bölürlər. XX əsrin əvvəlində pulun dövlət nəzəriyyəsinin nümayəndələri T.Knapp, F.Bendiksen (Almaniya) pulla

qızıl arasında daxili əlaqəni qəbul etmir. Dövləti "pul yaradan" və pulun dəyərini müəyyənləşdirən qüvvə hesab edir, valyuta münasibətlərinin (valyuta məzənnələrinin) dövlət tənzimlənməsinin gücləndirilməsinin zəruri olmasını əsaslandırırdılar. 20-30-cu illərdə "pulun alıcılıq qabiliyyətinin sabitləşməsi" nəzəriyyəsi geniş yayılmışdı. Bu nəzəriyyənin nümayəndələri İ.Fişer, K.Viksell, Q.Uorren, Q.Mitçel (ABŞ) və başqaları pul vahidlərinin tərkibindəki qızılın miqdarının, faiz dərəcələrinin və pul emissiyasının həcminin ixtiyari şəkildə dəyişdirilməsi yolu ilə tsikllik dəyişmələrin aradan qaldırılmasının mümkünlüyünü sübut etməyə çalışırdılar. 30-40-cı illərdə tənzimlənən valyuta nəzəriyyəsi daha da inkişaf etdirilmişdir. C.Keyns, R.Xoutri (Böyük Britaniya), E.Hansen və başqa iqtisadçılar öz əsərlərində qızılın monetizasiyasını "keçmişin varvar qalığı" elan edərək buna son qoyulmasını tələb edir və sübut edirdilər ki, qızılla mübadilə edilməyən kağız pullar təkrar istehsal proseslərinə dövlətin müdaxiləsi üçün qat-qat səmərəli vasitədir. Keyns və onun tərəfdarları qızıl standartının avtomatizmini, bu halda pulun alıcılıq qabiliyyətini sabit saxlamaq naminə məşğulluğun və iqtisadi artım tempinin aşağı düşməsini vurğulayaraq əsas diqqəti tələbatın səmərəli təmini probleminə cəlb edirdilər. Onlar radikal vasitə kimi dövlət büdcəsinin sistematik artırılmasını təklif edirdilər. 60-70-ci illərdə monetarizm nümayəndələri tənzimlənən valyuta nəzəriyyələrinin Keyns variantını tənqid edərək, pul kütləsinin artım sürətini sabit saxlamağın tərəfdarı kimi çıxış edirdilər. Onların fikrincə, bu, inflyasiyanın zəifləməsinə və istehsalın tsikllik xarakterinin tənzimlənməsinə gətirib çıxarmalı idi. Tənzimlənən valyuta nəzəriyyələri ideyaları beynəlxalq valyuta-maliyyə münasibətləri sahəsində qızıl ilə bağlılıqdan azad olan tədiyə vasitələri yaratmaqdan, valyuta məzənnələrinin dövlət inhisarı vasitəsilə tənzimlənməsinin müxtəlif metodlarının işlənib hazırlanmasından ibarət idi.

Məsələn, R.Triffin (ABŞ) 60-cı illərin ortalarında Keynsin ideyalarını təkmilləşdirərək inkişaf etmiş ölkələrin valyuta münasibətlərinin islahatı barədə öz layihəsini təklif etmişdi. O, beynəlxalq kredit pullarının yaradılmasının tərəfdarı idi. Belə pulların dövriyyəsi mərkəzi bankların vahid hesablaşma və ehtiyat mərkəzi tərəfindən tənzimlənə bilərdi. 70-80-ci illərdə valyuta tənzimlənməsi konsepsiyalarında valyuta məzənnələrinin müəyyən edilməsi problemi mühüm yer tutur. Neokeynsçilərə görə, valyutaların təsbit olunmuş paritetləri beynəlxalq pul dövriyyəsinin sabitliyini təsbit edilməmiş valyuta paritetləri ilə müqayisədə daha yaxşı təmin edir. Monetaristlər bunu əsas götürürlər ki, valyutaların kortəbii şəkildə qərarlaşan "üzən" məzənnələr sistemi tədiyə balanslarının bərabərləşməsinin bazar mexanizmini fəallaşdırır və bununla da valyuta-maliyyə münasibətləri sahəsində xroniki disproporsiyaların yaranmasının qarşısını alır.

TƏNZİMLƏNMƏYƏN SIĞORTA İDDİASI – sığorta hadisəsinin baş verməsi ilə əlaqədar yaranan bildirilmiş zərərdir ki, buna dair sığortaçının öhdəlikləri yerinə yetirilməmişdir və ya hesabat dövrünə natamam yerinə yetirilmişdir.

TƏRƏFDAŞ POLİS – xarici təcrübədə şəxsi sığorta müqaviləsini təsdiq edən polisdir. Biznes üzrə tərəfdaşlardan birinin ölümü ilə əlaqədar xeyir güdənə, yaxud faydalanana (benefissiara) sığorta məbləğinin ödənişini nəzərdə tutur. Benefissiarın varisləri tərəfindən biznes üzrə ölən tərəfdaşın kapital payının ləğv edilməsi (aradan götürülməsi) üzündən həmin benefissiarın müvəqqəti maliyyə çətinliklərinin aradan qaldırılması məqsədini güdür.

TƏSADÜFİ GƏLİR – pul aktivlərinin və ya pul öhdəliklərinin (şirkətin kənar şəxslərə münasibətdə sabit kəmiyyətlərlə ifadə edilmiş öhdəlikləri) mövcud olmasının təsdiqi kimi pul vahidinin alıcılıq qabiliyyətinin əvvəlcədən nəzərdə tutulmayan dəyişməsi nəticəsində əldə edilən gəlir.

Deflyasiya dövründə xalis pul borcunun sahiblərindən fərqli olaraq, xalis pul aktivlərinin sahibləri pul vahidinin alıcılıq qabiliyyətinin azalması hesabına qazanırlar; inflyasiya halında bunun əksi müşahidə olunur. ABŞ praktikasında müqayisəli qiymətlərlə uçot sistemindən istifadə edildikdə, bu cür gəlirlər və zərərlər mühasibat hesabatında əks olunur.

TƏSADÜFİ QƏZA (dəniz daşımalarında) – gəminin və ya yükün əzilməsi ilə nəticələnən

təsadüfi dəniz daşımaları itkiləridir. Təsadüfi qəzalar zamanı olan itkilərə görə bilavasitə ziyan çəkən tərəf və yaxud məsuliyyəti üzərinə götürən cavabdehlik daşıyır. Əgər gəmi sığortalanıbsa, onda məsuliyyəti sığortaçı daşıyır.

TƏSADÜFİ MƏŞĞULLUQ – müəyyən iş yeri və daimi əmək haqqı olmadan yeri düşəndə daimi olmayan işdir. Belə vəziyyət inkişaf etmiş ölkələrdə istisna hal olsa da, inkişaf etməkdə olan ölkələrdə əksinədir. Belə əsaslarla şəxsi biznesə malik bir çox şəxslər işləyir ki, bu da ölkənin qeyri-rəsmi iqtisadiyyatını təşkil edir.

TƏSBİT OLUNMUŞ ANNUİTET – qiymətlərin tərəddüd etməsindən və inflyasiyadan asılı olmayaraq, sığortalanmış şəxsə bütün və ya həyat dövrü ərzində təsbit olunmuş ödənişlərə zəmanət verən sığorta polisi.

TƏSBİT OLUNMUŞ FAİZ DƏRƏCƏLƏRİ – müəyyən müddətə müəyyən edilən və bu müddət ərzində dəyişilə bilməyən kreditə görə faiz dərəcəsi.


TƏSDİQ OLUNAN BÜDCƏ AYIRMALARI – "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa görə, qanunvericiliklə təsdiq olunan və dövlət büdcəsində, Naxçıvan Muxtar Respublikasının büdcəsində və yerli büdcələrdə maddələr üzrə xərclənə biləcək vəsaitin yuxarı həddi.

TƏSDİQLƏNMİŞ ÇEK – bank tərəfindən imzalanmış, yəni onun tədiyə sənədi şəklində ödəniş üçün qəbul edilməsini göstərən çek.


TƏSƏRRÜFAT ƏMƏLİYYATLARI – müəssisənin, idarənin, təşkilatın və başqa təsərrüfat subyektlərinin əmlakını, kapitalını, öhdəliklərini, onların hərəkətini, maliyyə nəticələrini və ümumiyyətlə, maliyyə-təsərrüfat fəaliyyətini ayrı-ayrılıqda özündə əks etdirən faktlar.

TƏSƏRRÜFAT FƏALİYYƏTİNİN TƏHLİLİ – müəssisənin, firmanın, sahənin istehsal təsərrüfat fəaliyyəti prosesini və nəticələrini öyrənən vasitə. Ümumi və məqsədli ola bilər. Ümumi təsərrüfat fəaliyyətinin köməyi ilə müəssisənin (firmanın) fəaliyyəti təsdiq olunur. Məqsədli təsərrüfat fəaliyyətli

Təsərrüfat fəaliyyətinin əsas prosesləri




Sxem 1



Sxem 2

təhlil xüsusi vəzifələrin ayrı-ayrı istiqamətlərini və həllini əhatə edir (məsələn, təkrar maddi resurslardan istifadə). Təsərrüfat fəaliyyətinin predmetlərinə aiddir: müqavilə öhdəliklərinə riayət olunması; əsas istehsal fondlarından, maddi, əmək və maliyyə resurslarından istifadə; məhsulun maya dəyəri; istehsalın modernləşməsi və yenidən qurulması və s. İstehsalın, mənfəətin və rentabelliyin öyrənilməsi, onların artımı ehtiyatlarının aşkara çıxarılması xüsusi yer tutur. Müqayisəli və faktor təhlil metodları fərqləndirilir. Müqayisəli təsərrüfat fəaliyyətinin təhlili zamanı müəssisənin faktiki göstəriciləri plan göstəriciləri ilə, eləcə də keçən ilin müvafiq dövrünün, sahənin müəssisələrinin göstəriciləri və digər firmalarla müqayisə ol-

Təsərrüfatın axınlarının dövriyyəsi



Sxem 3

unur. Bəzən kənarlaşma səbəblərini aşkar etmək üçün faktiki göstəriciləri normativ göstəricilərlə müqayisə edirlər. Faktor təhlili ayrı-ayrı amillərin öyrənilən göstəricinin dəyişməsinə təsirini müəyyən edir. Təsərrüfat fəaliyyətinin təhlili onun metodlarından asılı olmayaraq təsirli olmalı, aşkar edilmiş çatışmazlıqların aradan qaldırılmasının, fəaliyyətin müsbət istiqamətlərinin inkişafı üzrə tədbirlərin işlənib hazırlanmasının əsası olmalıdır.


Dövlət müəssisələri üçün təsərrüfat fəaliyyətinin təhlili predmetlərinə istehsalın inkişafı, iqtisadi həvəsləndirmə və s. sosial inkişaf fondları aiddir. Təsərrüfat fəaliyyətinin təhlili həmçinin amortizasiya fondlarına, maddi həvəsləndirmə və əmək haqqı fondlarına şamil olunur.

Bazar iqtisadiyyatı şəraitində müəssisə fəaliyyətinin istiqamətlərinin "portfel təhlili", "məhsul göndərənlərin təhlili", "istehlakçının təhlili", "üstünlüyün təhlili" kimi təsərrüfat fəaliyyətinin təhlili növləri mühüm əhəmiyyət kəsb edir (bax: sxem 1, 2, 3).

TƏSƏRRÜFAT HÜQUQU – mülki və cinayət hüququ normalarının məcmusudur. Bunlar da səciyyəvi iqtisadi şərtilikləri (məsələn, kooperativ hüququ) və gündəlik iqtisadi (təsərrüfat) fəaliyyəti (əsasən, təchizat haqqında müqavilələr və s.) reqlamentləşdirir.

TƏSƏRRÜFAT MEXANİZMİ – ictimai, qrup halında və şəxsi mənafelərin əlaqələndirilməsinə, uzlaşdırılmasına, iqtisadiyyatın fəaliyyətinin və inkişafının təmin olunmasına kömək edən iqtisadi strukturların, təsisatların, təsərrüfatçılıq formaları və metodlarının məcmusu. Y.Kronrodun verdiyi tərifə görə, təsərrüfat mexanizmi iqtisadi tələblərin, mənafelərin


Təsərrüfat müqavilələrinin təsnifatı



Sxem 3

və stimulların, idarəetmənin və təsərrüfatçılığın mərkəzləşdirilmiş və mərkəzsizləşdirilmiş formalarının qarşılıqlı əlaqəsini və qarşılıqlı təsirini ifadə edən obyektiv iqtisadi formaların məcmusundan ibarət iqtisadi qanunların təsir mexanizmidir. Təsərrüfat fəaliyyətinin konkret üsulu, iqtisadi prosesin idarə edilməsinin konkret sistemi kimi təsərrüfat mexanizmi konkret iqtisadi formaların elə qarşılıqlı əlaqəli sistemidir ki, burada iqtisadiyyatın qanunları fəaliyyət göstərir və mənafelər sistemi reallaşdırılır. L.Abalkin təsərrüfat mexanizminin təşkilati-hüquqi cəhətini vurğulayaraq ona ictimai istehsala xas forma və metodlar, iqtisadi stimullar və hüquqi normalarla birlikdə bu istehsalın təşkil edilməsinin üsulu kimi tərif verir.

1960-1970-ci illərdə SSRI-nin planlaşdırma və iqtisadi həvəsləndirmə sistemlərində, eləcə də iqtisadi tərəqqinin tələblərinə köküdən zidd olan qərarlaşmış təşkilati-təsərrüfat formalarında islahatlar aparılması cəhdləri ilə əlaqədar təsərrüfat mexanizmi kateqoriyası sovet iqtisadi ədəbiyyatında geniş yayılmışdır. Lakin köhnə inzibati-amirlik sisteminin məhdud çərçivəsində


DÜNYA TƏSƏRRÜFATI
DİNAMİKANIN AMİLLƏRİ
• əməyin beynəlxalq bölgüsü və ixtisaslaşması
• kapitalın, istehsalın beynəlmiləlləşdirilməsi və ETT
• beynəlxalq rəqabət və kapitalın, əmtəənin, işçi qüvvəsinin və EET nəticələrinin miqrasiyası
SUBYEKTLƏR
• milli təsərrüfatlar
• regional birliklər və dövlətlər ittifaqı
• beynəlxalq və transmilli korporasiyalar
• beynəlxalq maliyyə və ticarət təşkilatları
STRUKTUR ELEMENTLƏRİ
• ümumdünya əmtəə bazarı
• kapital bazarı
• işçi qüvvəsi bazarı
• ETT nailiyyətləri bazarı
• informasiya bazarı
Xarakterizə edilir
Beynəlxalq əmək bölgüsünün (BƏB) dərinləşməsi nəticəsində məhsuldar qüvvələrin beynəlmiləlləşdirilməsi səviyyəsinin artması
Müxtəlif beynəlxalq iqtisadi əlaqələr sisteminin yaranması (BİƏ)
Ölkələr arasında, millətlərarası təsərrüfat mübadiləsinin tənzimləmə mexanizmlərin yaradılması
BƏB-nin DƏRİNLƏŞMƏSİ AMİLLƏRİ
• ETT qeyri-bərabərliyi
• milli bazarlarının müxtəlif dolğunluğu və istehlak strukturu
• yaşayış səviyyəsi ilə ayrı-ayrı ölkələrin sosial-iqtisadi inkişafında uyuğunsuzluqların aradan qaldırılması zərurəti
• təsərrüfatların idarə olunması sahəsində təcrübə mübadiləsinin keçirilməsi ehtiyacı
BİƏ FORMALARI
• beynəlxalq ticarət
• kapitalın beynəlxalq hərəkəti
• işçi qüvvəsinin miqrasiyası
• elmi-texniki informasiya və texnologiyalarla beynəlxalq mübadilə
• beynəlxalq valyuta-kredit münasibətləri
MİLLƏTLƏRARASI ƏLAQƏLƏR MEXANİZMLƏRİ
• xüsusi beynəlxalq təşkilatlar, birgə müəssisələr, təsisatlar
• beynəlxalq kommunikasiya şəbəkələri, infrastruktur
• transmilli strukturlar, TMK, müəssisələrin, bankların xaricdə olan filialları
BƏB-də İŞTİRAK GÖSTƏRİCİSİ
ixrac kvotası = ixracın həcmi / ÜDM-in həcmi x 100%
MÜASİR MƏRHƏLƏ
Milli təsərrüfatların daha çox açıqlığa meyilliyi, istehsal amillərinin beynəlxalq hərəkətinə olan maneələrin aradan qaldırılması ilə xarakterizə olunur
ƏSAS
Texnoloji və təşkilati-iqtisadi tərəqqinin ümumi tendensiyaları

Sxem 1

təsərrüfat mexanizminin təkmilləşdirilməsi tədbirləri nə sosial iqtisadi effektivliyin artırılmasına, nə də xalq təsərrüfatının tarazlaşdırılmasına gətirib çıxara bildi. Ən yeni iqtisadi ədəbiyyatda "təsərrüfat mexanizmi" terminindən istifadə edilmədiyinə baxmayaraq, təcrübədə mövcud iqtisadi sistemlərin, onların sosial-institusional hüdudlarının yeni texnologiyalara və struktur dəyişikliklərinə, iqtisadi inkişafın yeni tipinə adaptasiya edilməsi mexanizmlərindən söhbət gedəndə məhz təsərrüfat mexanizmi nəzərdə tutulur. Müasir mərhələdə bu mexanizmlərin tətbiqi texnoloji uklad ın, iqtisadi və sosial münasibətlərin tənzimlənməsinə xidmət edir. Bu mexanizmlərin tətbiqinə dünya təsərrüfatlarının qloballaşması da təsir göstərir (bax: sxem 1).

TƏSƏRRÜFAT MÜQAVİLƏSİ – firmaların, şirkətlərin, müəssisələrin, təşkilatların iqtisadi fəaliyyətin həyata keçirilməsi prosesində qarşılıqlı öhdəliklərin yerinə yetirilməsi məqsədilə bağladığı müqavilə. Təsərrüfat müqavilələrinin əsas növləri malgöndərmə müqaviləsi, tikinti üçün podrat müqaviləsi, yüklərin daşınması barədə müqavilədir (bax: sxem 1).

TƏSƏRRÜFAT MÜSTƏQİLLİYİ – hüquq normaları ilə təmin olunan təsərrüfat qərarlarını müstəqil qəbul etmək, risklə bağlı qanunla qadağan edilməyən hər hansı bir hərəkəti həyata keçirmək imkanı. Təsərrüfat müstəqilliyi bazar iqtisadiyyatının ayrılmaz tərkib hissəsidir, çünki normal fəaliyyət göstərən bazar təsərrüfat qərarlarını sərbəst qəbul edən subyektlərsiz mövcud ola bilməz.

Təsərrüfat müstəqilliyi müxtəlifdir. Tam ölçüdə əmlak mülkiyyətçisi yalnız ona malikdir ki, bunun hesabına o, öz öhdəliklərinə görə əmlak məsuliyyəti daşıyır və öz səlahiyyətlərini digər subyektlərə verə bilər. Verilən səlahiyyətlərin həcmindən asılı olaraq onların subyektindən alınan təsərrüfat müstəqilliyinin dərəcəsi artır və ya azalır. Belə ki, təsərrüfatın aparılması hüququna əsaslanan unitar müəssisə onun fəaliyyət predmetinin və məqsədinin müəyyən edilməsi ilə bağlı məsələlərin həllində məhduddur. Əmlakın istifadə edilməsi üzrə onun hərəkətlərinə icra strukturları tərəfindən nəzarət olunur. O, öz mənfəətinin bir hissəsini mülkiyyətçiyə verməyə borcludur və mülkiyyətçinin razılığı olmadan daşınmaz əmlakı satmaq və ya digər üsulla onun üzərində sərəncam vermək hüququ yoxdur.

Bütün bunlar göstərilən tipdən olan müəssisənin təsərrüfat müstəqilliyini məhdudlaşdırır. Bu məhdudiyyətlərlə yanaşı, təsərrüfatın aparılması hüququna əsaslanan müəssisələr öz strategiyasını və istehsal planını işləyib hazırlayır, maliyyəni bölüşdürür, öz məhsullarına qiymət qoyur, onun satışını təşkil edir və s. Dövlət müəssisələrində iş başqa cürdür, təsərrüfat müstəqillikləri yuxarı orqanlar tərəfindən onlara icazə verilmiş həcmdə fəaliyyətə şamil olunur. Əmlak məsuliyyəti də təsərrüfat müstəqilliyinin dərəcəsindən asılıdır. Mülkiyyətçi öz borclarına görə tam məsuliyyət daşıyır. Təsərrüfatın aparılması hüququna əsaslanan müəssisə, həmçinin öz əmlakının öhdəliklərinə görə cavabdehdir, dövlət müəssisəsinin borcuna görə subsidiar məsuliyyət daşıyır. Beləliklə, az və ya çox həcmdə təsərrüfat müstəqilliyinə əmlak dövriyyəsində iştirak edən bütün şəxslər malikdir.

TƏSƏRRÜFAT ORTAQLIĞININ ƏMLAKINA SƏRMAYƏ QOYULMASI – təsərrüfat ortaqlığının təsisçiləri (iştirakçıları) tərəfindən sərmayə kimi qoyulmuş pul, qiymətli kağızlar, digər əşyalar və ya əmlak hüquqları və ya pul dəyərinə malik olan başqa hüquqlar.

TƏSƏRRÜFAT PROSESİ – şirkətin aşağıdakıları özündə cəmləyən istehsal (təsərrüfat) fəaliyyətinin metod və növləridir:

1) tədarükün həyata keçirilməsi; bu zaman istehsal və təsərrüfat ehtiyacları həyata keçirilir və satış üçün malların mənimsənilməsindən ötrü zəruri mal-material kapitalı (əsas vəsaitlər) əldə olunur;

2) istehsal-işləmə prosesi; məhsulun hazırlanması, onun buraxılışı, xidmət göstərilməsi, başqa sözlə, tam işçi prosesi;

3) reallaşma; bu mərhələdə sifarişçi və alıcılar qarşısında müqavilə öhdəliklərinin həyata keçirilməsi baş verir. Bu zaman məhsul satışından, görülən işlərdən və göstərilən xidmətlərdən əldə olunan gəlir hesablaşma hesabına köçürülür və ya debitor borcu yaranır.

TƏSƏRRÜFATIN APARILMA HÜQUQU – mülkiyyət hüququnun növlərindən biri. Təsərrüfatın aparılma hüququnun subyekti rolunda, istisna olaraq,

dövlət və ya bələdiyyə səviyyəsində unitar müəssisələr çıxış edə bilər. Təsərrüfatın aparılma hüququ mülkiyyət hüququ ilə münasibətdə bir qədər məhdudlaşdırılıb. Beləliklə, təsərrüfatın aparılmasında əmlakın mülkiyyətçisi, əgər onun hərəkətləri qanuna zidd deyilsə, öz əmlakının hüquqi taleyinə öz mülahizəsinə uyğun sərəncam vermək hüququna malikdir. Müəssisə isə mülkiyyətçinin razılığı və icazəsi olmadan belə hərəkətləri həyata keçirə bilməz. Müəssisənin sahibliyində olan qalan əmlaka gəldikdə isə, hüquqi aktlarla müəyyən edilən hallar istisna olmaqla, onlara sərbəst sərəncam verilə bilər.

"TƏSƏVVÜR OLUNAN (XƏYALİ)" ƏMANƏT – cari hesabdakı əmanətdir ki, buna bank tərəfindən real pul vəsaitlərinin köçürülməsi ilə müşayiət olunmayan məbləğ hesablanır. Başqa sözlə, xüsusi şəxslərin və firmaların kreditləşmə üsulu kimi pul vəsaitlərinin real haqqı ilə müşayiət olunmayan müştərinin cari hesabına bankın kredit yazısıdır. Bu əməliyyatlar cari hesabda ayrı-ayrı müştərilərin real əmanətlərindən artıq məbləğdə pul olanda həmin müştərilərin bank tərəfindən kreditləşmə formasıdır. Dünya təcrübəsində bu cür əmanətlərin ən geniş yayılmış forması overdraftla (ing. overdraft – kreditin üstələnməsi) cari hesabıdır ki, buna görə bu hesabda olan vəsaitlərin kəmiyyət qalığı üzərində hesaba görə silinməsi məbləğinin çox olması mümkündür: artım qısamüddətli xarakter daşıyır və təsadüfdən təsadüfə, qeyri-müntəzəm baş verir. Bundan əlavə, ayrı-ayrı əməliyyatların aparılması üçün təsəvvür olunan (xəyali) hesabların (hesablaşma və borc hesablarının) açılması imkanı istisna olunmur. Bu hesabın əsas təyinatı – fiziki və hüquqi şəxslərin cari hesablarında olan vəsaitlərin daxil olması və xərclənməsi arasında müvəqqəti fərqlərin (ayırmaların) örtülməsinə ehtiyacı olan bu fiziki və hüquqi şəxslərin bank tərəfindən kreditləşməsidir. Bu halda kreditin alınması çekin və ya cari hesabda olan vəsaitlərin qalığından çox olan məbləğdə tədiyə tapşırığının yazılması yolu ilə baş verir. Overdraft üzrə kreditin məbləği cari hesabın açılması zamanı əvvəlcədən razılaşdırılır və əvvəlcədən təsbit olunmuş kəmiyyətdən çox ola bilməz. Müştəri həm təsəvvür olunan (xəyali) əmanətdən, həm də real əmanətdən istifadə edə bilər: o, çek yaza bilər, cari hesabda qeyd olunan məbləğ həddində pulu nağd ala bilər. Təsəvvür olunan (xəyali) əmanətlərin yaradılması üzrə bankın imkanları bank tərəfindən cəlb edilən real pul vəsaitlərinin ölçüləri ilə müəyyən olunur, nəzərdən keçirilən əməliyyatın aparılması üçün bankın razılığı ilə onun müştəriyə inamından asılıdır.

TƏSHİHEDİCİ VERGİ – nemətlər istehsalı üçün bu vergi vasitəsilə fərdi xərclərin yuxarı həddi ictimai xərclərin yuxarı həddi səviyyəsinə qədər artır və beləliklə, qiymətlərin artmasına təkan verir. Nəticədə məhsul buraxılışı azalır.

Təshihedici vergi (Piqu vergisi) mənfi mallar (üzvi sənaye tullantıları) istehsalçılarından tutulur. Bu verginin dərəcəsi istehsal edilən nemətin hər vahidinə düşən kənar xərclərin yuxarı həddi səviyyəsində müəyyən edilir. ABŞ-da təshihedici vergi cüzi yayılmışdır, amma AFR-də bir qədər fəal tətbiq edilir.



Təshihedici vergi anlayışını ingilis iqtisadçısı, Kembric məktəbinin nümayəndəsi A.Piqu tətbiq etmişdir. O göstərmişdir ki, sosial əhəmiyyətli xarici effektlər aradan qaldırıldıqda sistemin nöqsanlı cəhətləri üzə çıxır, o, fiaskoya uğrayır, çünki bu effektləri pul ilə qiymətləndirmək mümkün deyil. Yaranmış münaqişələri həll etmək üçün A.Piqu zahiri effektlərə səbəb olmuş şəxslərdən xüsusi vergi tutulmasını təklif etmiş və bu məsələyə dövlətin müdaxiləsinin zəruri olduğunu göstərmişdir.

TƏSİS İCLASI (*founders meeting, constituent assembly*) – müəssisə və təşkilatların yaradılması üçün təsisçilər tərəfindən mövcud qaydaya uyğun keçirilən iclas. Seçki orqanı kimi konstitusiya assambleyası rolunu oynayır.

TƏSİS MÜQAVİLƏSİ (*memorandum of association, founders agreement*) – müəssisənin (şirkət və ya assosiasiya) yaradılmasında iştirak edən fiziki və hüquqi şəxslər tərəfindən qəbul edilən əsas sənəd. Bu müqavilədə müəssisənin yaradılması, fəaliyyəti və ləğv edilməsi zamanı təsisçilərin iştirak şərtləri öz əksini tapır.

TƏSİSÇİ SƏHMLƏRİ – səhmdar şirkətlərinin təsisçiləri arasında paylanan və başqa səhmdarlarla müqayisədə onlara müəyyən üstünlüklər verən səhmlər. Məsələn, təsisçi səhmləri səhmdarların ümumi yığıncaqlarında əlavə səs hüququ, səhmlərin əlavə buraxılışında onları birinci növbədə almaq, təsisçi mənfəətinin bir hissəsini almaq hüququ verir.

TƏSNİFAT – hər hansı bilik sahəsində bir-birinə tabe olan anlayışlar sistemi; bu və ya digər obyektlərin ümumi əlamətlərindən asılı olaraq siniflər (şöbələr, dərəcələr) üzrə bölgüsü.

TƏSNİFAT XÜSUSİYYƏTİ (*qualificatory reference*) – hakimiyyət sistemində müxtəlif mütəxəssislərdən tələb olunan əsas bilik, bacarıq, onların hüquq və vəzifələri.

TƏSNİFAT İNDEKSİ – təsnifat sxeminin təsnifat bölgüsü ilə və sistemli və başqa kataloq kartoçkalarında qoyulan şərti işarəsi (rəqəm, hərf, qarışıq). Həmçinin sənəd və işlərdə qoyula bilər.

TƏSVİRİ TƏDQİQAT – alıcıların rəyləri, nəyə üstünlük vermələri və davranışlarının təsviri məqsədilə başlanılmış tədqiqat.


TƏŞKİLATİ (İNSTİTUSİONAL) SEKTORLAR (BÖLMƏLƏR) – MHS-nin ən ümumi yanaşma metodu. Makroiqtisadiyyatın aşağıdakı tərkib hissələri vardır: qeyri-maliyyə təşkilatları (şirkətləri); maliyyə təşkilatları (şirkətləri); dövlət idarəetmə orqanları; ev təsərrüfatlarına xidmətlər göstərən qeyri-kommersiya təşkilatları; ev təsərrüfatları.

TƏŞKİLATİ (İNSTİTUSİONAL) VAHİD – aktivlərə malik, öhdəliklər götürən, müəyyən iqtisadi fəaliyyətlə məşğul olan və digərləri ilə müxtəlif əməliyyatlar aparan müstəqil iqtisadi vahid. Təşkilati (institusional) vahidlərin əsas xarakterizəsi aşağıdakı əlamətlər üzrə müəyyən edilir: 1) mal və aktivlərə sahib olmaq, onları digər təşkilati (institusional) vahidlərə satmaq və almaq kimi əməliyyatlar aparmaq; 2) iqtisadi fəaliyyət barədə qərarlar qəbul etmək, seçim etmək, öhdəliklərinin yerinə yetirilməsinə bilavasitə özünün məsuliyyət daşıması və qanunvericilik qarşısında hesabat vermək; 3) öz adından maliyyə və digər öhdəliklər götürmək və ona uyğun kontraktlar (müqavilələr) bağlamaq; həm iqtisadi, həm də hüquqi baxımdan tələb olunan bütün zəruri hesabları tərtib etmək (aktiv və passivlərin balansı da daxil edilməklə). Təşkilati (institusional) vahidlər hüquqi və fiziki şəxslər, kiçik, orta və iri sahibkarlar kimi qruplara bölünür. MHS-də onlar rezidentlər (ölkənin öz vətəndaşlarının hüquqi və fiziki şəxsləri) və qeyri-rezidentlər (xarici ölkələrin vətəndaşlarının hüquqi və fiziki şəxsləri) kimi nəzərə alınır. Onların fəaliyyət nəticələri isə bazar və qeyri-bazar buraxılışı, yəni satmaq vasitəsilə və yaxud pulsuz xidmətlər formasında istehlak olunması əsas şərt kimi qəbul edilir.

TƏŞKİLATİ STRUKTUR – bölmələr və idarəetmə orqanları üzrə işlərin tərkibini, birgə tabeçiliyini, qarşılıqlı fəaliyyətini və bölgüsünü müəyyən edən təşkilatın formal daxili strukturudur ki, bu bölmələr və idarəetmə orqanları arasında hakimiyyət səlahiyyətlərinin, komanda axınlarının, informasiyaların reallaşması səbəbinə görə müəyyən münasibətlər müəyyən olunur.

Təşkilati strukturun bir neçə tipi fərqləndirilir ki, bunlardan bəziləri "elementar" və ya "baza təşkilati struktur" adlandırılır.

Baza təşkilati strukturlar




Sxem 1

Beynəlxalq ticarətdə üstünlük prinsipləri

Mütləq üstünlük nəzəriyyəsi üzrə (Adam Smit)	Müqayisəli (mütləq və nisbi) üstünlük nəzəriyyəsi üzrə (David Rikardo)	İstehsal amillərinin nisbəti nəzəriyyəsi üzrə (Eli Hekşer və Bertil Olin)
Ölkənin müəyyən məhsul növünün istehsalında üstünlüyü bu ölkənin mövcud texnologiyalar və konkret resurslar əsasında rəqiblərindən daha da artıq həcmdə müəyyən məhsulun istehsal etmə qabiliyyətini bildirir	Ölkənin müəyyən məhsul növünün istehsalında nisbi üstünlüyü, potensial ticarət rəqiblərindən eyni məhsul növünün daha aşağı qiymətə istehsal etmə qabiliyyətini bildirir	Hər ölkə özündə daha çox olan istehsal amillərinin (kapital, əmək, torpaq ...) əsasında məhsullar istehsal etməyə çalışır

Sxem 2

Təşkilati struktur formaları



Sxem 1

Xətti təşkilati struktur çox sadədir, ali rəhbərlikdən bilavasitə orta səviyyəli "xətti" menecerlərə və daha sonra təşkilatın işçilərinə birbaşa tabeçiliyi və məsuliyyət xəttini nəzərdə tutur.

Xətti-qərargah təşkilati struktur konkret vəzifələrin (tədqiqatlar və işləmələr, planlaşdırma, bölgü, ictimaiyyətlə əlaqələr və s.) yerinə yetirilməsində xətti rəhbərləri ixtisaslaşmış məsləhət yardımının göstərilməsi ilə təmin edir. Kiçik təşkilatlarda ayrı-ayrı köməkçilər konkret funksiyanın reallaşmasına görə cavab verir. Böyük təşkilatlarda xətti təşkili tamamlayan qərargah xidmətlərini əmələ gətirən xüsusi bölmələr yaradılır.

Funksional təşkilati struktura xalis formada, demək olar ki, rast gəlinmir. İdeal funksional təşkilati struktur yüksək (həddən artıq) ixtisaslaşmanı tələb edir ki, bu zaman bir rəhbər istehsalın başında durur, digər rəhbər planlaşmaya cavab verir, üçüncüsü təmir işlərinə cavabdehdir və s. Onların hamısı birbaşa bilavasitə işçilərə çıxırlar. İstehsalın bu cür təşkili praktikada işləmir, çünki bir işçinin çoxlu sayda rəhbəri olur. Bunun əvəzinə funksional ixtisaslaşma prinsipi əmtəə və ya xidmətin istehsalı və satışı (və ya istehlakçıya çatdırılması), yaxud müəyyən funksiyanın yerinə yetirilməsində zəruri olan yaxın vəzifələrin qruplaşması üçün istifadə olunur. Səlahiyyətlər xətti ali rəhbərlikdən onun spesifik funksiyaların yerinə yetirilməsinə məsul olan müavininə keçir. Xətti rəhbərlər bu müavinlərə tabedirlər. Daha sonra iyerarxiya üzrə aşağı vəzifələr, həmçinin proseslər üzrə funksional təşkilati struktur sadə texnologiyalardan istifadə edən və nisbətən sabit və sadə şəraitdə fəaliyyət göstərən kiçik təşkilatlar üçün tipikdir.

Real təşkilatların spesifik xarakteristikasından və vəzifələrindən asılı olaraq baza təşkilati strukturların elementlərinin kombinasiyası tətbiq olunur. Belə təşkilati strukturlar hibrid təşkilati strukturlar adlanır.

Hibrid təşkilati strukturlar

Xətti-qərargah funksional təşkilati struktur ixtisaslaşmış fəaliyyət növlərində (keyfiyyət müfəttişliyi, kadr xidməti, təchizat və s.) səlahiyyətlərə bölünür. Bu funksiyaları öz xətti rəhbərlərinə tabe olan xətti bölmələrin əməkdaşlarından ayrıca olan ixtisaslaşmış heyət yerinə yetirir. Əgər qərargah və xətti bölmələr arasında narazılıq yaranarsa, bu narazılıq yalnız eyni zamanda hər iki bölməyə münasibətdə hakimiyyət səlahiyyətlərinə malik olan rəhbər

tərəfindən həll edilə bilər. Böyük təşkilatlarda qərargah funksiyaları qeyri-mərkəzləşdirilə bilər. İri firmalara məxsus olan zavodlar və ya dövlət idarələrinin regional bölmələri kimi ayrı-ayrı əməliyyat (operativ) vahidləri yerli xətti rəhbərlərə tabe olan xüsusi qərargah bölmələrinə malikdir.


Divizional-təşkilati struktur (öz xərcini ödəyən bölmə, mənfəət mərkəzi) böyük təşkilatlar üçün xətti-funksional qərargah tipli təşkilati strukturun ən geniş istifadə olunan modifikasiyasıdır. Təşkilatın miqyasları artdıqca divizional-təşkilati struktura keçid meyli təzahür edir. Bir rəhbərin tabeliyində konkret məhsula, xidmətə və ya onların qruplarına, eləcə də konkret müştəriyə və ya müştərilər qrupuna (istehlakçılara) və konkret regiona yönəldilmiş başlanğıc funksiyaları yerinə yetirən mütəxəssislər qruplaşdırılır. Divizional-təşkilati struktur, adətən, daha mürəkkəb texnologiyada işləyən və daha az sabit və daha çox mürəkkəb xarici şəraitdə işləyən təşkilatlarda tətbiq olunur. Onların mühüm üstünlükləri ayrı-ayrı funksiyaların yerinə yetirilməsi zamanı ən yaxşı əlaqələndirmə (koordinasiya), eləcə də konkret məhsullar, xidmətlər və ya fəaliyyət növlərində dürüst təmərküzləşmədir.

Xətti funksional qərargah təşkilati struktur koordinasiyanın və kooperasiyanın gücləndirilməsinin mürəkkəb kompleks problemlərinin həlli zamanı müvəqqəti komitələrlə yanaşı, xüsusi komitələrin yaradılmasını da nəzərdə tutur. Səlahiyyətlərdən asılı olaraq komitə ya konsultativ (məsləhət) orqan, ya da konkret qərarlar qəbul edən orqan ola bilər. Birinci halda o, qapalı formal təşkilat daxilində məhdud funksiyaları yerinə yetirir; ikinci halda təşkilati struktur xarici mühitin qeyri-müəyyənliyini və mürəkkəbliyini daha yaxşı nəzərə almağa imkan verir. O, "edhokratiya" (amerikalı futuroloq E.Tofflerin "Futuroşok" kitabında ilk dəfə işlənən ingiliscə "adhocracy" terminindən götürülmüşdür) adını almışdır. Edhokratiya iyerarxiyanın rolunu azaldır və işçilərlə bölmələr arasında əməkdaşlıq münasibətlərinin rolunu artırır: Edhokratiya vaxtında minimum ləngimə ilə bir mürəkkəb məsələdən digərinə keçməyə qadir olan maksimum çevik və adaptiv strukturdur. Edhokratiya prinsipinin reallaşmasına misal olaraq matris təşkilati strukturu göstərmək olar. Matris təşkilati struktur superhibrid təşkilati struktur adlandırıla bilər. Burada funksional və divizional strukturların qurulmasından istifadə olunur. Bir işçinin bir neçə rəisi ola bilər. Layihələrin rəhbərləri bütövlükdə yalnız öz layihələrinin bitməsinə cavab verirlər. Təşkilatın başlıca məqsədi layihənin rəhbəri ilə funksional rəhbərlər arasında tarazlığın təmin edilməsidir.

Matris təşkilati strukturun istifadə edilməsi üçün üç başlıca əsaslandırma mövcuddur: 1) həddən artıq informasiya yüklənməsi zamanı iş üçün ən çox dərəcədə uyğunlaşdırılmışdır; 2) miqyasa qənaətin effekti hesabına qıt və ya bahalı resurslardan daha səmərəli istifadə olunur; 3) həm texnoloji və texniki məsələlərə (funksional xidmətlərə), həm də məhsullara, xüsusən fəaliyyət növlərinə (divizional bölmələrə, layihələrə) bərabər diqqət yetirilir.

Şəbəkə təşkilati struktur postindustrial inkişaf mərhələsi üçün xarakterikdir. O, xaricdən əmək resurslarının cəlb edilməsi ilə bərabər, yeni texnika və texnologiyaların üstünlüklərindən istifadəyə imkan verir. Nəşriyyat, tikinti şirkətləri, tikiş fabrikləri kimi təşkilatlarda xarici müqavilələrin bağlanması təcrübəsi həmişə mövcud olmuşdur. Kommunikasiya sahəsində son nailiyyətlər praktikada onlardan digər fəaliyyət növlərində belə istifadə etməyə imkan verir. Şəbəkə təşkilati struktur komandaların axını, iyerarxiya sifarişləri axını, digər təşkilatlarla əlaqələrin koordinasiyası ilə əvəz olunur. Təşkilati strukturun üstünlüyü onun dinamikliyindən ibarətdir. O, qaimə xərclərini, kapital qoyuluşlarına olan tələbatları əhəmiyyətli dərəcədə azaltmağa, yeni texnologiyalara sürətlə uyğunlaşmağa imkan verir və yüksək innovasiya potensialına malikdir. Şəbəkə strukturunun mənfi tərəfi ondan ibarətdir ki, əgər məhsul göndərənlərin məhsulu həmin bazarda və ya rəqiblərə satılırsa, onda o, məhsul göndərənlər tərəfindən rəqabətə həssasdır.

TƏŞKİLATIN HƏYAT TSİKLİ – müəssisənin bütün fəaliyyəti dövründə keçdiyi bütün mərhələlərin məcmusu: doğulma, uşaqlıq, gənclik, kamillik, ahıllıq, dirçəliş.



Sxem 1




Təşkilatın həyat tsiklinin mərhələləri

Hər hansı müəssisə üçün onun doğulması, ilk növbədə, onunla bağlıdır ki, bazarda "öz yuvasını" axtarıb tapmaq və istehlakçıların maraqlarını tam təmin etmək lazımdır. Bu mərhələdə təşkilatın tərəfdaşlarının sayının az olması səciyyəvidir. Bu halda həmin mərhələdə müəssisənin əsas məqsədi salamat qalmaqdır. Uşaqlıq mərhələsi yüksək dərəcədə riskli mərhələdir. Riskin dərəcəsinin yüksək olması müəssisənin sürətlə böyüməsi ilə şərtlənir. Buna görə də idarəçilərin təcrübəsizliyi və səriştəsizliyi ucbatından uğursuzluğa düçar olmaq ehtimalı böyükdür. Bu dövrdə müəssisənin əsas məqsədi bazarda mövcud mövqeləri möhkəmlətmək, xüsusən məhsulun rəqabət qabiliyyətini artırmaqdır. Eyni zamanda müəssisənin əsas məqsədi yüksək artım sürətini təmin etməkdən ibarətdir.

Gənclik mərhələsi həmfikirlərdən ibarət kiçik komanda tərəfindən həyata keçirilən müəssisənin kompleks menecmenti metodlarının tətbiqindən maliyyələşdirmənin, planlaşdırmanın və proqnozlaşdırmanın sadə formalarından istifadə yolu ilə diferensiasiya edilmiş menecment metodlarına keçid mərhələsidir. Bu dövrdə təşkilatın əsas vəzifəsi sürətli artımı təmin etmək və bir qayda olaraq, bazarda özünə aid hissəni tamamilə ələ keçirməkdir. Bu mərhələ həm də onunla səciyyəvidir ki, risklərin intuitiv qiymətləndirilməsinin tətbiq edilməsi kifayət etmir. Müəssisənin rəhbərliyi müəyyən riskin təsiri nəticəsində potensial itkilərin riyazi üsullarla qiymətləndirilməsindən istifadə etməyə məcbur olur. Bu halda müəssisənin məhdud ixtisas biliklərinə malik mütəxəssislərə zəruri ehtiyacı yaranır.


Kamillik mərhələsində təşkilatın inkişafının məqsədi davamlı struktur və dəqiq idarəetmə bazasında tarazlaşdırılmış artıma

Təşkilati strukturların baza sxemləri

Xətti sxemlər	
Dairəvi sxemlər (funksional əlaqələr)	
"Təkər" sxemi (xətti funksional əlaqələr)	
"Ulduz" sxemi (xətti əlaqələr)	

Sxem 1

Satış bazarında marketinq sisteminin subyektlərinin qarşılıqlı əlaqəsi



Sxem 2

nail olmaqdır. Bir qayda olaraq, bu dövrdə təşkilatın rəhbəri idarəetmə sisteminin məntiqi və düzgün olmasını təmin edir. Bu, təşkilatın xarici mühitdəki dəyişikliklərə, eləcə də mərkəzsizləşmədə baş verən yeniləşməyə uyğunlaşmasına kömək edir. Müəssisənin yetkinlik mərhələsi onun yeni fəaliyyət sahələrinə nüfuz etməsi, habelə genişlənməsi və diferensiasiyası ilə səciyyəvidir. Bu dövrdə idarəçilikdə bürokratizmin güclənməsi neqativ haldır. Müəssisənin yetkinliyinin üç mərhələsini fərqləndirirlər: erkən, aralıq və son yetkinlik mərhələsi. Erkən yetkinlik dövründə təşkilat sistematik olaraq böyüyür. Aralıq yetkinlik dövründə böyümə tarazlaşır, son yetkinlik isə bütün idarəetmə sisteminin davamlı fəaliyyəti ilə xarakterizə olunur.

TƏŞKİLATIN XARİCİ MÜHİTİ – təşkilatın fəaliyyət göstərdiyi ətrafı xarakterizə edən amillərin məcmusu. Bu amillərin şərti olaraq siyasi-hüquqi (mülkiyyət formaları, dövlət idarəetməsi və tənzimlənməsinə dair qanunverici aktlar konsepsiyası), iqtisadi (əmək bazarının, kapitalın, məhsulun vəziyyəti), texnoloji (istehsal və idarəetmə sahəsində texnologiyaların inkişafı, texniki standartlar) və sosial (sosial baxışlar və dəyərlər, etik normalar) amillər baxımından qruplaşdırılmasıdır.

Xarici mühit amilləri həmçinin birbaşa təsir amillərinə (iqtisadiyyatın vəziyyəti, vergilərin, kreditlərin dərəcələri, iş qüvvəsinin qiyməti, rəqabət, təhlükəsizlik standartları) və dolayı təsir amillərinə (sosial-mədəni) bölünür. Təşkilatın xarici mühitlə qarşılıqlı fəaliyyəti onun fəaliyyət göstərməsinin ən mühüm şərtlərindən biridir, onun bütün tərkib hissələrini və strukturlarını müəyyən edir. Xarici mühit amillərinin tərkibinə təşkilata təsir göstərməyənlər və ya əhəmiyyətli təsir etməyənlər aid olunmur. "Təşkilatın xarici mühiti" anlayışı "sistem" anlayışı ilə sıx əlaqədardır; xarici mühit amilləri təşkilati sistemlərin layihələndirilməsinə, təhlilinə və təkmilləşdirilməsinə sistemli yanaşma zamanı nəzərdən keçirilir.

TƏŞKİLATIN MİSSİYASI – idarəetmə nəzəriyyəsi termini; təşkilatın mövcudluğunun dəqiq təcəssüm edilən səbəbi, onun son vəzifəsi.

TƏŞKİLATIN STRUKTURUNUN QURULMA PRİNSİPLƏRİ – təşkilati strukturun layihələşdirilməsi zamanı aşağıdakı prinsiplərə riayət etmək lazımdır:

1) vahid rəhbərlik prinsipi: hər bir işçinin ancaq bir xətti rəhbəri olmalıdır;

2) nəzarətin həcmi prinsipi: heç bir rəhbər idarəetmə normasına uyğun olmayan işçi sayını səmərəli idarə edə bilməz. Orta hesabla bu norma obyektin (bölmənin, əməkdaşın) 7±2-ni təşkil edir. Ali rəhbərlər üçün –azdır, aşağı halqa rəhbərlər üçün – çoxdur;

3) işlərin istisnası prinsipi: rəhbər və ya mütəxəssis daha aşağı vəzifəli işçinin və ya daha aşağı peşəkarlığa malik mütəxəssisin yerinə yetirə biləcəyi işi görməməlidir;

4) vertikal iyerarxiya prinsipi: "yuxarıdan aşağı" olan bütün sərəncamlar və "aşağıdan yuxarı" bütün məlumatlar idarəetmənin bütün pillələri üzrə ardıcıl olaraq baş verməlidir;

5) məqsədlərin razılaşdırılması prinsipi: bölmələrin və işçilərin şəxsi məqsədləri bütün təşkilatın ümumi maraqlarına tabe etdirilməlidir;


6) səlahiyyətlərin balansı prinsipi: bölmə və işçilərin öhdəlikləri, hüquq və məsuliyyəti öz aralarında həm keyfiyyət, həm də kəmiyyət cəhətdən razılaşdırılmalıdır;

7) emosional neytrallıq prinsipi: tapşırıqların verilməsi zamanı və başlıcası, məsuliyyətin bölüşdürülməsi zamanı rəhbər üstünlük verdiyi şəxsi məsələləri əsas tutmalı deyil.

Bu prinsiplər idarəetməyə ümumi yanaşmada baxıla bilər, amma hər bir konkret vəziyyətdə onlar görünüşcə dəyişə bilərlər. Onlar, əsasən, matrisa strukturlarında tam yerinə yetirilmir (bax: sxem 1).


TƏTİL – sahibkarları (onların birliklərini) və ya hökuməti təqdim edilən iqtisadi və ya siyasi tələbləri yerinə yetirməyə məcbur etmək məqsədilə işin kollektiv olaraq dayandırılması; başqa sözlə, işə götürənlərin güzəştə getməyə və əmək haqqını artırmağa, iş gününün müddətini (uzunluğunu) azaltmağa, əmək şəraitini yaxşılaşdırmağa məcbur etməkdən ötrü işçilərin bir hissəsinin mütəşəkkil olaraq işləməkdən imtina etməsidir. Təqdim edilən tələblərdən asılı olaraq tətil iqtisadi, siyasi, ümumi olur. Tətil çox zaman nümayişlər və silahlı toqquşmalarla müşayiət olunur. Tətil formaları müxtəlifdir. İşin tamamilə da-

Cənubi Qafqaz regionunda sığorta bazarının bəzi əsas göstəriciləri (mln. ABŞ dolları)




Qrafik 1

Cənubi Qafqaz regionunda sığorta haqqının ÜDM-də xüsusi çəkisi




Qrafik 2

Sığorta haqlarının strukturu, 2011 (mln. ABŞ dolları)



Qrafik 3

Cənubi Qafqaz regionunda brutto sığorta haqları, 2011 (mln. ABŞ dolları)



Qrafik 4

Cədvəl 1

Sığorta bazarının zəif və güclü cəhətləri, inkişaf imkanları

Gənc bazardır
Keçmiş SSRİ sığorta bazarından qalan mənfi fikir
Xidmət çeşidlərinin az olması
Müasir satış texnologiyalarının çatışmazlığı
Müasir İT platformalarının çatışmazlığı
Korporativ idarəetmənin çatışmazlığı
Qiymətə həssas bazar
Sığorta şirkətlərinin şəxsi tutumunun az olması

Cədvəl 2

Yeni bazar və böyük inkişaf imkanları
Minimum 3 dildə danışan alitəhsilli peşəkar kadrlar
Böyük enerji və infrastruktur layihələri
Sığorta fəaliyyəti ilə bağlı qanunların qəbulu
Həyat sığortası üçün vergi güzəştləri
Sığorta xidmətlərinə ƏDV tətbiq olunmaması
Zərərlilik dərəcəsinin yüksək olmaması
Kapitallaşma səviyyəsinin müntəzəm olaraq artması
Qanunvericilik bazasının təkmilləşməsi istiqamətində işlərin davam etdirilməsi

Cədvəl 6

Problemlər və imkanlar

Bazar penetrasiyasının aşağı olması
Geniş inkişaf potensialı
İnternet üzərindən satışa investisiya
İnformasiya resurslarına investisiya
Bacarıqlı menecmentə investisiya
İT platformalara investisiya
Analitik və modelləşdirmənin inkişafı
Tənzimləyici (hüquqi) dəyişiklikləri əvvəlcədən görmək (proqnozlaşdırmaq)
Mövcud məhsul və xidmətlərin və satış kanallarının mükəmməlləşdirilməsi istiqamətində işlərin görülməsi

yandırılması, işin gedişinin ləngidilməsi, digər müəssisələri müdafiə etmək məqsədilə işin dayandırılması (həmrəylik nümayişi), müəssisələrdən çıxmadan işin dayandırılması, sahibkar tərəfindən işçilərə olan tələblərin təqdim edilməsi məqsədilə müəssisənin bağlanması (lokaut adlanır) və s. Tətil hərəkatının yüksək forması ümumi siyasi tətildir.

Tətil iri sənaye istehsalının meydana gəlməsi ilə inkişaf etməyə başlamışdır. Artıq XVI-XVII əsrlərdə kortəbii qiyamlarla yanaşı, tətil yarandı. Sahibkarların, maraqlarına uyğun olaraq hökumət tətilə qarşı qanunlar verməyə başladı. 1799-1800-cü illərdə Böyük Britaniyada tətilləri, hər hansı bir fəhlə təşkilatının yaradılmasını və fəaliyyətini qadağan edən qanunlar qəbul edildi. Fransada burjua inqilabı zamanı tətilləri qadağan edən Le Şapelye qanunu (1791-ci ildə) qəbul edilmişdi. Buna baxmayaraq, tətil yayılmaqda davam edirdi. XIX əsrin ortalarında onlar geniş və təşkil olunmuş xarakter aldılar, tətillər üsyana çevrildi (1831-ci ildə Lion üsyanı, Sileziya toxucularının 1844-cü il üsyanı), tətilin artımı bir sıra ölkələrdə həmkarlar ittifaqlarının təşkil olunmasına gətirib çıxardı. Onlar isə tətil mübarizəsində rəhbərliyi öz üzərlərinə götürdülər. Tətil hərəkatı Rusiyada 1905 və 1917-ci illər inqilablarının təsiri altında xeyli gücləndi. Birinci və ikinci dünya müharibələri dövründə tətil hərəkatı praktiki olaraq dayandı. Müharibədən sonrakı dövrdə tətil hərəkatının yeni formaları müşahidə olundu. Tətil,



bir qayda olaraq, sosial stabilliyə təhlükə yaratmır, sakit və mütəşəkkil xarakter daşıyır.

"TƏYİNAT MƏNTƏQƏSİNƏ QƏDƏR DAŞIMA VƏ SIĞORTALANMA ÖDƏNİLMİŞDİR" – bu daşıma şərtinə görə, satıcı "daşıma ödənilmişdir" şərtində olduğu kimi məsuliyyət daşıyır. Lakin əlavə olaraq satıcı daşıma zamanı alıcının əmtəələrinin (mallarının) itkisi və zərər dəyməsi riskinə qarşı yükün sığortalanmasını təmin etməlidir.

TƏZƏ MAL (yeni əmtəə) – istifadəsində istehlakçı üçün əhəmiyyət kəsb edən yeni və ya əlavə funksional tətbiq və ya dizayn imkanları olan mal (əmtəə). Yeniliyin bir neçə səviyyəsi mövcuddur: əvvəllər istehsal edilməmiş və istehlakçıya məlum olmayan, tamamilə yeni əmtəə növü; bazarda məlum olan əmtəələrə yeni komponentlər daxil edilməklə həmin əmtəəyə tədiyə qabiliyyətli tələbatın artması.

TƏZMİNAT DİVİDENDİ – ümumi qəzanın təzminat dəyərinə faiz nisbəti. Bu nisbət ümumi dəyərinin yük, gəmi və fraxt arasında mütənasib bölünən hissəsinin təyin olunması vaxtı istifadə edilir.

TİBBİ XƏRCLƏRİN SIĞORTALANMASI – ciddi hallar, məsələn, transplantasiya cərrahiyyəsindən savayı, xəstəxana şəraitində əksər hallarda müalicə üçün təsbit olunmuş məbləğin ödənilməsini təmin edir. Cərrahın əməyinin ödənilməsindən başqa, bu polis xəstəxananın saxlanması, tibbi dərmanlar və s. çəkilən xərcləri örtür.

TİBBİ SIĞORTA – əhalinin sağlamlığının mühafizəsi sisteminin ünsürüdür ki, bunun vəzifəsi toplanmış vəsaitlər hesabına ödənişli əsasda tibbi yardımın alınmasında vətəndaşlara təminat verməkdir. Bununla tibbi sığorta bütün səviyyələrdə dövlət büdcələrindən maliyyələşən pulsuz səhiyyədən fərqlənir. Tibbi sığorta sağlamlığın qorunması sahəsində əhalinin sosial müdafiəsi forması olmaqla, sığorta hadisəsi baş verdikdə ölkə əhalisinin tibbi və dərman yardımı almasına təminat verir. Tibbi sığorta icbari və könüllü formada həyata keçirilir.

İcbari sığorta dövlət sosial sığortasının bir hissəsidir və sığorta subyektləri arasında (işləyənlər üçün işə götürənlər, işləməyənlər üçün dövlət) və xüsusilə sığortaçılar (bu fəaliyyət növünə lisenziyası olan hüquqi şəxslər) arasında müqavilə əsasında sığortalanmışın xeyrinə icbari proqramlarla müəyyən olunan həcmdə və şərtlərdə təqdim olunan tibbi və dərman yardımının alınmasında bərabər imkanları bütün vətəndaşlar arasında təmin edir. Könüllü sığorta eyni müqavilə üzrə həyata keçirilir, lakin icbari xarakter daşımır. Hər bir sığortalanmış tibbi polis alır ki, bu da bütün ölkə ərazisi üzrə təsdiq olunmuş sənəd hesab olunur. Xüsusi tibbi fondlara ayrılan icbari və ya könüllü sığorta haqları sığorta üzrə səhiyyə müəssisələrinin tibbi xidmətlərinin maliyyə mənbələridir. Vətəndaşların sağlamlığının mühafizəsi sahəsində dövlət siyasətinin reallaşması üçün müstəqil qeyri-kommersiya maliyyə təşkilatı kimi icbari tibbi sığortanın ümummilli və ərazi fondları yaradılır. Dövlət və bələdiyyə səhiyyə təşkilatlarının maliy-

yələşməsinə yönəldilən vəsaitlər vergiyə cəlb olunmur.

TİBBİ SIĞORTA MÜQAVİLƏSİ – qanunvericilikdə müəyyən olunmuş qaydada sığorta edənlə tibbi sığorta təşkilatları arasında bağlanan, sığorta olunana tibbi sığorta proqramına uyğun olaraq göstərilən tibbi yardımın maliyyələşdirilməsini və təşkilini müəyyən edən, sığorta olunanın digər mənafelərini müdafiə edən yazılı saziş.

TİBBİ SIĞORTA OBYEKTİ – sığorta hadisəsinin meydana gəlməsi zamanı tibbi yardımın göstərilməsi üçün çəkilən məsrəflərlə əlaqədar sığorta riski.

TİBBİ SIĞORTA ŞƏHADƏTNAMƏSİ – sığorta olunana yaşayış yerindən asılı olmayaraq ölkənin bütün ərazisində, habelə Azərbaycan Respublikası ilə tibbi sığorta sahəsində müqavilə bağlayan digər dövlətin ərazisində tibbi sığorta proqramında göstərildiyindən az olmayan həcmdə tibbi yardım almağa təminat verən sənəd.

TİBBİ SIĞORTA TƏŞKİLATI – mülkiyyət formasından asılı olmayaraq tibbi sığortanı həyata keçirmək üçün qanunvericilikdə müəyyən olunmuş qaydada xüsusi razılıq almaqla fəaliyyət göstərən və müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən zəruri nizamnamə fonduna malik olan sığorta təşkilatı.

TİBBİ SIĞORTA TƏŞKİLATLARINI LİSENZİYALAŞDIRAN SIĞORTA FƏALİYYƏTİ – ərazi icbari tibbi sığorta proqramlarına, sığortalanmış şəxslərə tibbi yardımın göstərilməsi haqqında tibb idarələri ilə müqavilələrə və s. uyğun olaraq qeyri-kommersiya əsasında icbari tibbi sığortanın aparılması üzrə fəaliyyət.

TİBU MODELİ – ictimai xidmətlər təklifinin K.Tibu tərəfindən 1956-cı ildə irəli sürülən modeli.

Kommunal xidmətləri yerli idarə tərəfindən təklif olunursa, fərdlər bu xidmətlərə münasibətdə öz üstünlük vermələrini nümayiş etdirə, onları arzu etdikləri dəstdə və müxtəlif yerli idarələrə aid olan ərazilər arasında yerlərini dəyişməklə üstünlük vermələrinə müvafiq olan vergiləri əldə edə bilərlər. Bu model nəzərdə tutur ki, müxtəlif xidmətlər dəsti ilə bərabər, həm də vergilər təklif edən çoxsaylı yerli icmalar var və fərdlər onlar arasında seçim edə bilərlər.

TİCARƏT (ing. *trade, commerce;* alm. *handel*) – əmtəələrin dövriyyəsini, onların mübadiləsini, alqı-satqısını, eləcə də əmtəələrin satışı prosesində alıcılara xidmət göstərilməsini, əmtəələrin çatdırılmasını, saxlanmasını və onların satış üçün hazırlanmasını təmin edən iqtisadiyyat sahəsi və iqtisadi fəaliyyət növü. Malların alqı-satqısı, kommersiya.

Ticarətin aşağıdakı növlərini fərqləndirirlər: topdansatış – əmtəələrin istehsalı, istehlakı və ya təkrar satışı üçün onların iri partiyalar şəklində satışı; pərakəndə satış – son istehlakçıya xidmət göstərən, tək-tək əşyaların və ya onların az bir miqdarının satışı.

Xüsusi ticarət – aşağıdakı əmtəə axınlarını əhatə edən xüsusi ticarət sistemi:

– sərbəst tədavülə və ya onların daxil olmasından sonra anbarlarda saxlanılaraq istehlaka buraxılmış malların idxalı – aktiv emal üçün idxal (giriş) və passiv emaldan sonra idxal (çıxış);

– ölkədə istehsal olunmuş və ya bu ölkədə sərbəst tədavülə buraxılmış malların ixracı – aktiv və passiv emaldan sonra ixrac.

Tranzit mallar və anbarlar üzrə mal dövriyyəsi xüsusi ticarət sisteminə daxil edilmir.

(*Azərbaycan Respublikasında ticarətin inkişafını xarakterizə edən göstəricilər aşağıdakı cədvəl və sxemlərdə verlilir*) (qrafik 1-5, cədvəl 1, 2).

TİCARƏT AVTOMATLARI VASİTƏSİLƏ SATIŞ – alıcılar üçün sərfəli yerlərdə quraşdırılan və bütün gün ərzində işləyən avtomatlar vasitəsilə pərakəndə ticarət.


TİCARƏT AZADLIĞI (sərbəstliyi) – ayrı-ayrı şəxslər, firmalar, dövlətlər arasında ticarətdə süni (hökumət tərəfindən müəyyən edilən) maneələrin olmaması.

TİCARƏT BALANSI – əmtəə və xidmətlərin ixracı, idxalı ilə birlikdə ölkənin ticarət balansını təşkil edir.

TİCARƏT BALANSININ AKTİV SALDOSU – xarici ticarət əməliyyatlarının aparılmasının müsbət nəticəsini xarakterizə edən göstərici. İxracın məcmu həcminin idxalın məcmu həcmindən artıq olmasında ifadə olunur. Ticarət balansının aktiv və ya müsbət saldosu o deməkdir ki, ölkə ixracdan əldə etdiyi məbləğə gətirdiyi əmtəələrə nisbətən daha çox əmtəə göndərmişdir.


Ticarət balansının aktiv saldosu göstərir ki, bir ölkənin məhsulu digər ölkəyə nisbətən dünya

Azərbaycan Respublikasında hər nəfərə düşən pərakəndə əmtəə dövriyyəsinin və pullu xidmətlərin həcmi



Qrafik 1


Azərbaycan Respublikasında pərakəndə əmtəə dövriyyəsinin və əhaliyə göstərilən pullu xidmətlərin strukturu, faizlə



Qrafik 2


Azərbaycan Respublikasında pərakəndə əmtəə dövriyyəsinin makrostrukturu

2006



Qrafik 3

2010



Qrafik 4

Cədvəl 1


Azərbaycan Respublikasında ticarət və xidmət müəssisələri, vahidlə

	2006	2007	2008	2009	2010
Hüquqi şəxs statuslu ticarət və xidmət müəssisələrinin sayı – cəmi	30 817	32 544	35 088	35 156	37 732
ondan:					
iri və orta müəssisələr	2 698[1)]	2 577[1)]	2 714[1)]	1 677[2)]	1 508[2)]
Əşya, ərzaq və qarışıq mallar yarmarkalarının və bazarların sayı	161	149	133	127	122
Bazarlarda və yarmarkalarda ticarət yerlərinin sayı	64 310	59 850	43 885	41 593	37 451
Hüquqi şəxs yaratmadan ticarət və xidmətlə məşğul olan fərdi sahibkarların sayı	147 552	149 903	152 460	154 546	164 130
Mağazaların sayı	48 056	48 173	48 595	51 308	55 960
Mağazaların ticarət sahəsi, min m²	2 385,6	2 394,2	2 420,6	2 442,3	2 647,3
Köşklərin sayı	5 665	5 690	5 745	5 810	5 603
İaşə müəssisələrinin sayı	7 590	7 645	7 918	7 985	8 697
İaşə müəssisələrində oturacaq yerlərinin sayı, min yer	242,1	244,3	251,9	263,5	289,5
Məişət xidməti üzrə emalatxanaların, atelyelərin sayı	9 005	13 278	13 702	14 093	19 871
Apteklərin sayı	2 436	2 530	2 562	2 568	2 570

[1)] İşçilərinin sayı: – pərakəndə ticarət, digər xidmətlər üzrə 5 və 5-dən artıq olan müəssisələr;
– topdansatış ticarət üzrə 10 və 10-dan artıq olan müəssisələr.


[2)] İşçilərinin sayı: – pərakəndə ticarət, digər xidmətlər üzrə 10 və 10-dan artıq olan müəssisələr;
– topdansatış ticarət üzrə 15 və 15-dən artıq olan müəssisələr.

Azərbaycan Respublikasında pərakəndə ticarət və ictimai iaşə dövriyyəsinin mülkiyyət formaları üzrə həcmi (yekuna görə faizlə)



Qrafik 3

Azərbaycan Respublikasında pərakəndə ticarət və ictimai iaşə dövriyyəsində ərzaq və qeyri-ərzaq mallarının xüsusi çəkisi



Qrafik 4

Azərbaycanda pərakəndə əmtəə dövriyyəsi (1991 = 100, faizlə)




Qrafik 5

Cədvəl 2

Azərbaycan Respublikasında pərakəndə əmtəə dövriyyəsinin və pullu xidmətlərin iqtisadi rayonlar üzrə xüsusi çəkisi (faizlə)

	2006	2007	2008	2009	2010
Ölkə üzrə	100,0	100,0	100,0	100,0	100,0
Bakı	53,50	53,66	53,97	53,89	53,81
Abşeron iqtisadi rayonu	3,87	4,00	4,21	4,23	4,16
Gəncə-Qazax iqtisadi rayonu	9,27	9,38	8,98	9,07	8,95
Şəki-Zaqatala iqtisadi rayonu	4,21	4,18	4,08	3,95	3,94
Lənkəran iqtisadi rayonu	5,95	5,84	5,53	5,38	5,39
Quba-Xaçmaz iqtisadi rayonu	3,61	3,56	3,59	3,69	3,71
Aran iqtisadi rayonu	13,29	13,32	13,31	13,29	13,25
Yuxarı Qarabağ iqtisadi rayonu	1,16	1,07	1,05	1,00	0,97
Dağlıq Şirvan iqtisadi rayonu	1,89	1,87	1,94	1,91	1,90
Naxçıvan iqtisadi rayonu	3,24	3,12	3,33	3,59	3,93

Ticarət növlərinin təsnifatı



Peşə və ixtisaslar
Satıcı, barmen, ofisiant, xəzinədar, yükləyən, bükücü, sürücü, anbardar, əmtəəşünas, kulinar, aşpaz, məsləhətçi, reklam agenti, ekspeditor və s.

Sxem 1

Beynəlxalq ticarətdə üstünlük prinsipləri

Mütləq üstünlük nəzəriyyəsi üzrə (Adam Smit)	Müqayisəli (mütləq və nisbi) üstünlük nəzəriyyəsi üzrə (David Rikardo)	İstehsal amillərinin nisbəti nəzəriyyəsi üzrə (Eli Hekşer və Bertil Olin)
Ölkənin müəyyən məhsul növünün istehsalında üstünlüyü bu ölkənin mövcud texnologiyalar və konkret resurslar əsasında rəqiblərindən daha da artıq həcmdə müəyyən məhsulun istehsaletmə qabiliyyətini bildirir	Ölkənin müəyyən məhsul növünün istehsalında nisbi üstünlüyü, potensial ticarət rəqiblərindən eyni məhsul növünün daha aşağı qiymətə istehsal-etmə qabiliyyətini bildirir	Hər ölkə özündə daha çox olan istehsal amillərinin (kapital, əmək, torpaq ...) əsasında məhsullar istehsal etməyə çalışır

Sxem 2

...Xarici əlaqələr artır və biz xarici bazarlara daha da məqsədyönlü şəkildə çıxmalıyıq. Öz biznes strukturlarımıza kömək etməliyik. Xarici siyasət sahəsində tərəfdaşlarla danışıqlarda bu mövzu daim mövcud olmalıdır. Bizə xarici bazarlar lazım olacaqdır. Biz ənənəvi bazarlara və yeni bazarlara daha da böyük həcmdə çıxmalıyıq.

İlham Əliyev

bazarında daha yüksək rəqabət qabiliyyətinə malikdir. Ticarət balansının aktiv saldosu həmçinin daxili və dünya bazarlarında qiymətlərdəki fərq, xammal resurslarının artıqlığı (və ya çatışmazlığı) ilə şərtlənən dünya qiymətlərinin xeyli tərəddüd etməsi hesabına formalaşa bilər. Ölkə daxilində əmtəə-pul balansının saxlanması üçün istehsal olunmuş ümumi daxili məhsul (ÜDM) pul kütləsinin həcminə (dövriyyənin sürəti nəzərə alınmaqla) uyğun olmalıdır. Ölkənin iqtisadiyyatına ticarət balansının aktiv saldosunun müsbət təsiri haqqında birmənalı fikir yoxdur. Çünki ixracın idxaldan sabit artıqlığı (yaxud əksinə) ölkənin özündə makroiqtisadi tarazlığın pozulmasına gətirib çıxarır. İdxalın ixracdan artıq olması mahiyyətcə idxal mallarının borc alınması deməkdir. Dünya ölkələrinin inkişaf səviyyəsindəki böyük fərqlər idxal-ixrac nisbətlərinə də ciddi təsir edir (bax: cədvəl 1-3).

TİCARƏT BANKI (ing. *merchant bank*) – ölkə haqqında böyük informasiyaya malik beynəlxalq ticarətin maliyyələşməsi üçün ixtisaslaşan bank. Səhmlərin emitenti kimi fəaliyyət göstərən bankdır, kreditlər, səhmdar kapitalı cəlb edir; veksel və xarici valyuta ilə fəaliyyət göstərir.

TİCARƏT DEFİSİTİ – idxalın ixrac üzərində artıqlığı.

TİCARƏT ƏLAVƏSİ – 1. Buraxılış qiymətinə (əldə etmə qiymətinə) əlavə. 2. Malın pərakəndə satış qiymətinin ticarət, tədarük-satış təşkilatlarının və müəssisələrinin sərəncamında dövriyyə xərclərinin ödənilməsi və mənfəət yaranması üçün qalan tərkib hissəsi. Bir qayda olaraq, ticarət əlavələri ayrı-ayrı əmtəələr, əmtəə qrupları, coğrafi rayonlar, eləcə də ticarət sistemləri üzrə diferensiasiya edilir. Bu, dövriyyə xərclərinin səviyyəsindəki fərqlərlə və həmin müəssisələrin normal rentabelliyini təmin etmək zərurəti ilə bağlıdır. Ticarət əlavəsi əmtəənin əldə edilmə qiymətinə nisbətən faizlə müəyyən edilir.

Cədvəl 1

Dünyanın ən böyük xarici ticarət saldosu olan 20 ölkəsi

№	Ölkə	Xarici ticarət saldosu, mlrd. dollar
1.	Çin	426,1
2.	Almaniya	243,6
3.	Yaponiya	156,6
4.	Səudiyyə Ərəbistanı	132,6
5.	Rusiya	102,4
6.	Norveç	88,3
7.	Küveyt	64,8
8.	Niderland	41,9
9.	İsveçrə	41,2
10.	İsveç	40,3
11.	Venesuela	39,2
12.	Liviya	37,4
13.	Əlcəzair	35,3
14.	Malayziya	33,8
15.	Sinqapur	25,8
16.	BƏƏ	22,3
17.	İran	20,2
18.	Anqola	17,1
19.	Azərbaycan	16,5
20.	Qətər	15,1

Cədvəl 2

Dünyanın ən çox mal ixrac edən 20 ölkəsi

№	Ölkə	İxrac, mlrd. dollar
1.	Almaniya	1498
2.	Çin	1435
3.	ABŞ	1277
4.	Yaponiya	746,5
5.	Fransa	601,9
6.	İtaliya	546,9
7.	Niderland	531,7
8.	Rusiya	471,6
9.	Böyük Britaniya	466,3
10.	Kanada	459,1
11.	Cənubi Koreya	433,5
12.	Belçika	371,5
13.	Sinqapur	342,7
14.	Səudiyyə Ərəbistanı	313,4
15.	Meksika	291,3
16.	İspaniya	285,9
17.	İsveçrə	241,3
18.	BƏƏ	239,2
19.	Malayziya	198,7
20.	Barziliya	197,9

Cədvəl 3

Dünyanın ən çox mal idxal edən 20 ölkəsi

№	Ölkə	İxrac, mlrd. dollar
1.	ABŞ	2117
2.	Almaniya	1232
3.	Çin	1074
4.	Yaponiya	708,3
5.	Fransa	692,0
6.	Böyük Britaniya	639,3
7.	İtaliya	546,9
8.	Niderland	474,8
9.	Cənubi Koreya	427,4
10.	İspaniya	415,5
11.	Kanada	415,2
12.	Belçika	387,7
13.	Hindistan	315,1
14.	Sinqapur	309,6
15.	Meksika	308,6
16.	Rusiya	291,9
17.	İsveçrə	227,4
18.	Polşa	204,4
19.	Avstraliya	194,2
20.	Türkiyə	193,9

TİCARƏT HÜQUQU (*business law, commercial law, law merchant*) – bir sıra ölkələrdə hüququn müstəqil sahəsi kimi fəaliyyət göstərib, mülki hüquqla bərabər ticarət münasibətlərini tənzimləyir. O bir çox hallarda ticarət yoldaşlıqlarının, qiymətli kağızların dövriyyəsinin, ticarət əməliyyatlarının və s. yaradılması, fəaliyyəti və ləğvinin qaydalarını müəyyən edir. Fransa, Almaniya, Yaponiya və digər ölkələrdə ticarət məcəllələri işləyir.

TİCARƏT İNTEQRASİYASI (ing. *trade integration*) – bir neçə ölkə arasında beynəlxalq ixtisaslaşmadan faydalanmaq məqsədilə azad ticarətin qurulması. Ticarət inteqrasiyasının ticarət tərəfdaşlarının azad assosiasiyasından başlamış tam inteqrasiya etmiş dövlət qruplarına qədər dörd əsas forması mövcuddur:

a) azad ticarət zonası. Onun iştirakçı ölkələri öz aralarında ticarət maneələrini aradan qaldırır, lakin onlardan hər biri başqa ölkələrlə həmin maneələri saxlamaqda davam edir;

b) gömrük ittifaqı. Bu ittifaqın üzvləri aralarında olan maneələri aradan qaldıraraq başqa ölkələrlə də ticarətdə eyni maneələri, xüsusilə bəzi xarici tarifləri qoyurlar;

c) ümumi bazar, yəni gömrük ittifaqı. Bu da həmçinin milli sərhədlər vasitəsilə əməyin və kapitalın azad hərəkətini təmin edir;

ç) iqtisadi ittifaq. Tərkibində olan ölkələrin iqtisadi artım və s. üzrə ümumi məqsədlərinin birləşməsini və pul, vergi və s. təmin edən ümumi bazar.

TİCARƏT MANEƏLƏRİ – dövlətin daxili bazarı xarici

rəqabətdən qorumasına və ölkələr arasında əmtəə və xidmətlərin sərbəst mübadiləsinin süni surətdə məhdudlaşmasına istiqamətlənmiş iqtisadi siyasətinin tədbirlər sistemi. Ticarət maneələri iki qrupa bölünür: tarif və qeyri-tarif. Tarif ticarət maneələri idxal olunan malların gömrük rüsumlarının yüksək dərəcələrinin nəticəsidir. Ticarət maneələri ən müxtəlif formaya (1000-ə yaxın növü var) malikdir; ən geniş yayılmış növü idxalın miqdarca məhdudlaşmasıdır (kontingentləşmə, lisenziyalaşma, idxalın "könüllü" məhdudiyyətləri); inzibati qaydalar; milli, texniki, ekoloji, sanitar standartlara və normalara idxal olunan əmtəələrin uyğunluğu tələbləri; antidempinq və kompensasiya rüsumlarının tətbiqi və s. "Gizli" himayədarlığa yerli istehsalçıların saxlanmasına və daxili bazarın xarici rəqabətdən qorunmasına yönəldilmiş tədbirlər daxildir.



TİCARƏT MARKASI (alm. *marke*) – malın üzərində və ya onun qabında göstərilən nişan (damğa). Bir satıcının və ya satıcılar qrupunun əmtəələri və xidmətləri eyniləşdirməsi, onların rəqiblərinin əmtəə və xidmətlərindən fərqləndirilməsini nəzərdə tutan ad, termin, işarə, rəmz, şəkil, möhür və vasitədir. Ticarət markasından istifadə etməkdə məqsəd – əmtəənin reklamının fabrik möhürünü təmin etmək, onun keyfiyyətini, fərqləndirici xüsusiyyətlərini qeyd etməkdir. Markadan istifadə edilməsi həm də istehlakçıya təsirin psixoloji effekti ilə bağlıdır: istehlakçı müəyyən ticarət markalarına adət edir və onlara etimad bəsləyir. Ticarət markası seçimi və "təqdim edilməsi" diapazonu kifayət qədər genişdir: adlar, rəsmlər, emblemlər, rəmzi sözlər və s. Bir qayda olaraq, ticarət markası əmtəənin qablaşdırılmasının tərtibatı ilə assosiasiya edilir.

Ticarət markası bir sıra əlamətlərə görə qradasiya edilir: müəyyən istehsalçının fərdi ticarət markası və ya onun bütün əmtəələri üçün vahid ticarət markası, əmtəə qrupu üçün kollektiv ticarət markası.

Ticarət markası firmanın, müəssisənin əmtəə nişanının tərkib hissəsidir, lakin ticarət markasından fərqli olaraq, əmtəə nişanı hüquqi qaydada qorunur: adətən, əmtəə nişanının sahibi həmin nişandan istifadə etmək üçün müstəsna hüquqa malik olur.

TİCARƏT MƏRKƏZİ – planlaşdırılan, tikilən və bütöv tam kimi sahibliyində olan qarşılıqlı asılılığa malik ticarət müəssisələri kompleksi. Ticarət mərkəzinə ticarət, ictimai iaşə, məişət və digər növ xidmət müəssisələri daxildir. Xidmət edən ticarət zonasının yerləşməsini, kəmiyyətini və tipini xidmət tipinə daxil olan mağazaların tipləri və ölçüləri müəyyən edir. Ticarət mərkəzinin xidmətlərinə rabitə xidmətləri, əhalinin qeyri-istehsal fəaliyyətinə xidmət göstərilməsi və s. aiddir.

Ticarət mərkəzi sənaye mallarından tutmuş sağlamlaşdırıcı xarakterli xidmətlərə qədər əhalinin ən geniş dairədə tələbatlarının ödənilməsinə istiqamətlənmişdir.

Ticarət mərkəzi, adətən, şəhərlərin və kənd yerlərinin ictimai mərkəzlərinin tərkibinə daxildir. Ticarət mərkəzinin belə yerləşməsi kütləvi tələbə və kütləvi istehlaka yönəlməyə imkan verir, eləcə də təklif olunan əmtəələrin və xidmətlərin reklamının və əmtəələrin nümayiş etdirilməsinin yaxşılaşmasına təsir göstərir. Dəyişən bazar konyunkturası zamanı (ayrı-ayrı əmtəə və xidmətlərə istehlak tələbinin artması və ya azalması zamanı) ticarət mərkəzi dar pro-

filli ticarət müəssisələri ilə müqayisədə üstünlüklərə malikdir.

TİCARƏT MÜHARİBƏSİ (ing. *trade war*) – beynəlxalq ticarətdə iştirak edən ölkələrin idxal rüsumlarının, kvotaların və idxalın başqa məhdudiyyətlərinin köməyi ilə rəqabət edən idxalın miqdarını azaltmaq və ixraca stimul yaratmaq hesabına öz idxallarını artırmaq üçün çalışdıqları vəziyyət. Qonşunu var-yoxdan çıxarmağın bu üsulu arxasınca və adətən, özünü dağıdır, beynəlxalq ticarətin ümumi həcmini azaldır, dünya üzrə gəlirlərin səviyyəsinin düşməsinə doğru aparır.

TİCARƏT PALATASI – əsasən başqa ölkələrlə xarici iqtisadi və xarici ticarət münasibətlərinin genişləndirilməsi hesabına iqtisadiyyatın inkişafına şərait yaradan ictimai təşkilat. 1919-cu ildə Parisdə dünyanın 100-dən çox ölkəsinin ticarət palatalarını, sahibkarlıq və bank assosiasiyalarını birləşdirən Beynəlxalq Ticarət Palatası (*International Chamber of Commerce – ICC*) təsis edilmişdir. Onun nəzdində beynəlxalq ticarət mübahisələrini tənzimləmək üçün arbitraj məhkəməsi fəaliyyət göstərir. Milli və regional ticarət-sənaye palataları (TSP), bir qayda olaraq, sənəd mərkəzlərinə (məlumat banklarına) malik olur. Onlar ilk növbədə üzv müəssisələrə (əksər ölkələrdə müəssisələrin TSP üzvü olmaları məcburidir) ayrı-ayrı bazarlarda vəziyyət barədə genişçeşidli informasiya xidmətləri təqdim edirlər. TSP müəssisələrin xarici iqtisadi əməliyyatlar aparmasına, əcnəbi tərəfdaşlarla əməkdaşlığın tənzimlənməsinə və başqa məsələlərə kömək edirlər. Azərbaycanda da Ticarət-Sənaye Palatası yaradılmışdır və bu gün də fəaliyyət göstərir.

TİCARƏT PREFERENSİYALARI – ticarət-siyasi rejimdə güzəştlər. Bir dövlət onları digərinə birtərəfli qaydada və ya qarşılıqlı əsaslarla təqdim edə bilər. Ticarət-iqtisadi fəaliyyətin ən müxtəlif sahələrində təqdim edilə bilər (gömrük tənzimlənməsində, valyuta hesablaşmalarında, kreditləşmədə, sığortada, standartlaşmada və s.). Ticarət preferensiyaları çoxtərəfli müqavilələr əsasında, inteqrasiya prosesləri və beynəlxalq təşkilatlar çərçivəsində də təqdim oluna bilər. İnkişaf etməkdə olan ölkələrə çoxtərəfli əsaslarla təqdim olunan ticarət preferensiyaları böyük əhəmiyyətə malikdir.

TİCARƏT PROFİSİTİ – ixracın idxal üzərində artıqlığı.

TİCARƏT SAHƏSİ ÜÇÜN REKLAM – reklamın bu növü pərakəndə və topdansatış ticarəti ilə məşğul olan satıcıları cəlb etmək üçün tətbiq olunur. Adətən, bu reklam poçt vasitəsilə birbaşa göndərilmə, xüsusi jurnallar və digər vasitələrlə həyata keçirilir.

TİCARƏT SAZİŞLƏRİ – firmalar və ya hökumətlər arasında bağlanan sazişlər, eləcə də ticari-iqtisadi əməkdaşlığı, əmtəə dövriyyəsi məsələlərini, ödənişlərin şərtlərini və formalarını tənzimləyən sazişlər.

TİCARƏT SİYASƏTİ – əmtəə və xidmətlərin ixrac və idxalının dövlət tənzimlənməsi. Ticarət siyasətinin iki qütbü vardır – azad ticarət və tam proteksionizm. Bu iki qütb arasında xüsusi məhdudiyyətlər siyasətinin çoxlu sayda variantları vardır.

Dövlətlər əmtəə və xidmətlərin onların ölkələrindən və ya onların ölkələrinə axınları yolunda müxtəlif baryerlər yarada bilər. Bu baryerlərin ən əhəmiyyətlisi gömrük tariflərdir (gömrük rüsumları). XX əsrin ikinci yarısından başlayaraq gömrük tariflərinin tədricən azaldılması meyli müşahidə olunur. Lakin tariflərin azaldılması ilə əlaqədar bir sıra dövlətlər qeyri-tarif tənzimləmə metodlarından getdikcə daha fəal istifadə etməyə başlamışlar. Bu metodlar arasında idxal kvotaları və ixrac subsidiyaları daha geniş yayılmışdır.

TİCARƏT SİYASƏTİ TƏDBİRLƏRİ – Ümumdünya Ticarət Təşkilatının qərarlarının tətbiq olunmasının bir hissəsi kimi malların idxalı və ixracını qanunvericiliklə müəyyən olunmuş formada tənzimləyən qeyri-tarif tədbirləri.

TİCARƏT STATİSTİKASI – statistikanın əmtəələrin tədavülü dairəsində kütləvi hadisə və prosesləri öyrənən sahəsi. Xarici və daxili ticarətin inkişafında olan amilləri, qanunauyğunluqları və meyilləri tədqiq edir, ticarət sahəsində mürəkkəb qarşılıqlı əlaqəni aşkar edir və modelləşdirir. Ticarət statistikasının vəzifələrinə aiddir: bazarlar haqqında statistik informasiyanın toplanması və işlənməsi, bazarın konyunkturasının qiymətləndirilməsi və təhlili, onun strukturunun, o cümlədən regional strukturun xarakteristikası, bazarın inkişaf

meyillərinin təhlili və qiymətləndirilməsi, ticarətin inkişafının sosial və iqtisadi nəticələrinin xarakteristikası. Ticarət statistikasının göstəriciləri aşağıdakıları xarakterizə edir: a) tələb və təklifin tədqiqi, onların inkişafı və nisbəti meyillərinin aşkar edilməsi əsasında bazar (bazar konyunkturunun) vəziyyəti və formalaşması; b) qiymətin əmələ gəlməsi, qiymətin səviyyəsi və dinamikası; c) əmtəə kütləsinin mövcudluğu və hərəkəti (əmtəə dövriyyəsi, əmtəə ehtiyatları, əmtəə dövriyyəliliyi); ç) bazar infrastrukturunun inkişaf vəziyyəti və meyilləri; d) ticarətin sosial-iqtisadi nəticələri və səmərəliliyi. Ticarət statistikasında aşağıdakı riyazi-statistik metodlardan istifadə olunur: mütləq və nisbi kəmiyyətlər, variasiyalar, qruplaşdırmalar, balanslar, indekslər və modellər. Ayrı-ayrı sahələrin iqtisadi ticarət statistikası dedikdə sahənin satış potensialını, o cümlədən bazarın vəziyyətini, tələb və təklifin nisbətini, rəqabət aparan firmaları, regional strukturu müəyyən etməyə imkan verən məlumatların (verilənlərin) toplanması və işlənməsi başa düşülür.

...Müasir texnologiyalara əsaslanmış sement zavodu tikilir. İsveçrə şirkəti tərəfindən bu il istifadəyə veriləcəkdir. Ondan sonra növbəti sement zavodu tikilir. Yəni, biz elə etməliyik ki, növbəti 3-4 il ərzində özümüzü tam şəkildə sementlə təmin edək...

Biz gərək özəl investorları stimullaşdıraq, onlara şərait yaradaq ki, onlar bu sahəyə daha çox investisiya qoysunlar. Dövlət də kömək göstərməlidir. Yəni, bu sahədə biz özümüzü tikinti materialları ilə tam təmin etməliyik.

İlham Əliyev

TİCARƏT TERMİNLƏRİ QRUPLAŞMASI – müəyyən əlamətlər üzrə ticarət terminlərinin məcmusu.

1990 və 2000-ci illərin redaktəsində terminlər dörd bazis qrupunda birləşir:

1. E qrupu – ancaq EXW şərtini özündə cəmləyir: alıcı malı satıcının anbarında əldə edir.

2. F qrupu – FCA, FAS, FOB şərtlərini özündə cəmləyir: satıcı malı daşıyıcıya çatdırmalıdır.

3. C qrupu – CFR, CİF, CPT, CİP şərtlərini özündə cəmləyir: satıcı daşıma müqaviləsi bağlamalıdır, amma yükləmə və ya malın yola salınmasından sonra malın itirilməsi və ya zədələnməsi riskini və əlavə xərcləri daşımır.

4. D qrupu – DAF, DES, DEQ, DDU, DDP şərtlərini özündə cəmləyir: satıcı malın təyinat məntəqəsinə çatdırılması ilə bağlı bütün riski daşıyır.

TİCARƏT VAHİDİ – ticarətin aşağıdakı vahidlərini fərqləndirirlər:

1) əmtəə birjasında kontraktın standart həcmi;

2) topdansatış ticarətində satış partiyasının standart həcmi, məsələn, konteyner, vaqon.

TİCARƏT VASİTƏÇİLƏRİ BAZARI – malları yenidən satmaq məqsədi ilə alan təşkilatlar. Məsələn, poçt sifarişləri üzrə ticarət edən şirkətlər və ya supermarketlər.

TİCARƏT VASİTƏÇİSİNİN MARKASI – ticarət vasitəçisi və ya pərakəndə tacir tərəfindən işlənib hazırlanan və onun sahib olduğu marka. Əksər hallarda xüsusi marka, şəxsi marka və distribüter markası adları işlədilir.

TİCARƏTÇİ (ing. *merhant*) – 1. Mal alan və satan şəxs. 2. Sonradan satmaq üçün aldığı mal barəsində müvəqqəti sahiblik hüququ əldə edən vasitəçi.

"TİCARƏTLƏŞMƏ" QİYMƏTİ – müxtəlif əsaslardan və arqumentlərdən, taktiki və psixoloji fəndlərdən istifadə edərək, satıcı tərəfindən ilkin təyin edilən qiymətin azaldılması hesabına kommersiya danışıqları gedişində alıcının əldə etməyə cəhd göstərdiyi qiymət.

TİCARƏT-SƏNAYE PALATASI (TSP) – Azərbaycan müəssisələrini və Azərbaycan sahibkarlarını birləşdirən qeyri-dövlət, qeyri-kommersiya tipli ictimai təşkilat. O, özünün nizamnamə vəzifələrinin yerinə yetirilməsi üçün zəruri dərəcədə sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər. Əldə edilmiş mənfəət TSP üzvləri tərəfindən bölüşdürülmür. TSP hüquqi şəxsdir.

TİK (titrəmə, əsmə, rəqs) – birjada kursun qaydalarla müəyyən olunmuş yol verilən minimal rəqsi.

TİKER – birjada qiymətli kağızlarla əməliyyatlar zamanı son satış qiymətləri və satışın həcmi barədə fasiləsiz olaraq ən yeni

Cədvəl 1

Azərbaycan Respublikasında tikintinin əsas sosial-iqtisadi göstəriciləri (faktiki qiymətlərlə, min manat)

	2000	2005	2006	2010	2011
İstifadəyə verilmişdir:					
yaşayış evlərinin, ümumi sahə, min kv. m	487	1 593	1 583	2 049	1 922
ondan vətəndaşların şəxsi vəsaiti hesabına	370	1 115	882	1 151	1 649
xəstəxanalar, çarpayı	40	72	680	886	254
ambulatoriya – poliklinika müəssisələri, növbədə qəbul	70	441	480	710	210
ümumtəhsil məktəbləri, şagird yeri	2 410	44 668	47 646	19 183	2 608
məktəbəqədər uşaq müəssisələri, yer	-	53	150	1 010	380
tikinti sahəsində işçilərin orta siyahı sayı, min nəfər	62,2	58,8	60,0	68,3	77,5

informasiyanı verən elektron sistem.

TİKİLİLƏRİN SIĞORTA QİYMƏTLƏNDİRİLMƏSİ NORMASI – tikililərin dövlət sığortası zamanı müvafiq qiymətlər və tariflər üzrə yeni tikilinin hesablanan ölçü vahidinin pulla ifadə edilmiş dəyəri.

TİKİLİLƏRİN SIĞORTALANMASI – fiziki şəxslərin mülkiyyətində olan obyektlərin – yaşayış evlərinin, bağ evlərinin, təsərrüfat tikililərinin və s. sığortalanması.

TİKİLİLƏRİN YENİDƏN QİYMƏTLƏNDİRİLMƏSİ – vətəndaşlara məxsus tikililərin təkrar qiymətləndirilməsi; icbari sığorta zamanı aparılır.

TİKİNTİ – tikinti obyektlərinin inşası, təmiri, yenidən qurulması, bərpası və ya sökülməsi məqsədi ilə həyata keçirilən fəaliyyət. Bununla yanaşı, aşağıdakı anlayışlara da rast gəlmək olar:

Tikinti-quraşdırma işləri – tikinti layihəsində nəzərdə tutulmuş işlərin, o cümlədən tamamlama və abadlıq işlərinin yerinə yetirilməsi nəticəsində obyektin inşası və ya təmiri, yenidən qurulması, yaxud bərpası.

Tikinti obyektinin cari təmiri – obyektin istismar keyfiyyətinin saxlanılması məqsədilə konstruksiyalarda, mühəndis-kommunikasiya təminatı sistemində və ya xətlərində dəyişikliklər edilmədən vaxtaşırı təmir-tikinti işlərinin yerinə yetirilməsi.

Tikinti obyektinin əsaslı təmiri – obyektin istismar müddətini uzatmaq və ya istismar keyfiyyətini yaxşılaşdırmaq məqsədilə müvafiq layihə əsasında yükdaşımayan konstruksiyaların, mühəndis-kommunikasiya təminatı sisteminin və xətlərinin dəyişdirilməsi və ya bərpası, eləcə də zəruri hallarda yükdaşıyan konstruksiyaların müəyyən elementlərinin uyğunları ilə əvəzlənməsi və ya bərpası işlərinin yerinə yetirilməsi.

Tikinti obyektinin yenidən qurulması (rekonstruksiyası) – obyektin mövcud təyinatının dəyişdirilməsi və ya istismar keyfiyyətinin müasirləşdirilməsi məqsədilə müvafiq layihə əsasında yeni texnologiyaların tətbiqi, yaxud yeni bina və ya qurğuların inşası, o cümlədən mühəndis-kommunikasiya təminatı xətlərinin quraşdırılması ilə bağlı tikinti-quraşdırma və buraxılış-sazlama işlərinin yerinə yetirilməsi.

Tikinti layihəsi – şəhərsalma və tikinti normativ sənədləri ilə müəyyən edilmiş və konkret obyektin tikintisi (inşası, təmiri, yenidən qurulması, bərpası və ya sökülməsi) ilə bağlı hazırlanmış texniki sənədlər toplusu.

Tikintiyə dövlət nəzarəti – tikinti obyektlərinin etibarlığının təmin edilməsi, tikinti işlərinin layihəyə uyğun aparılması, tikinti materialları, konstruksiyaları və məmulatının istehsalı ilə bağlı dövlət standartlarının, şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə əməl edilməsi üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilən fəaliyyət.

Tikinti məmulatı – sənaye üsulu

ilə hazırlanan və tikintidə istifadə olunan hazır məhsul. (Azərbaycan Respublikasında tikinti sahəsinin bəzi əsas göstəriciləri cədvəl 1, qrafik 1 və əlavələrdə göstərilmişdir). Aşağıda son 10 ildə respublikada istifadəyə verilmiş yeni, çoxsaylı istehsal, xidmət müəssisələrinin bəziləri barədə müvafiq materiallar verilir.

TİKİNTİ XƏRCLƏRİ – tikinti, onun hər hansı bir sahəsinin fəaliyyəti, son nəticəsi ilə bağlı çəkilən xərcləri nəzərdə tutur.


TİKİNTİ MEYDANÇASININ QORUNMASININ SIĞORTASI – tikintidə əmlak sığortasıdır ki, burada sığorta obyekti kimi tikinti meydançası seçilir.

TİKİNTİ-QURAŞDIRMA İŞLƏRİ ZAMANI ÜÇÜNCÜ ŞƏXSLƏR QARŞISINDA MƏSULİYYƏT SIĞORTASI – ümumi qəbul edilmiş şərtlərə uyğun olaraq bu sığorta növü üzrə sığortaçı tikinti-quraşdırma və buraxılış-sazlama işlərinin istehsalı zamanı və istismar zamanəti müddəti gedişində bədbəxt hadisələr nəticəsində üçüncü şəxslərin şəxsiyyətinə və əmlakına dəymiş zərərə görə məsuliyyəti öz üzərinə götürə bilər.

TİKİNTİ-QURAŞDIRMA İŞLƏRİNİN SIĞORTALANMASI – sığorta müqaviləsində göstərilən tikinti meydançası sərhədlərində yerləşən binaların, tikililərin, avadanlığın, maşınların, mexanizmlərin və tikinti-quraşdırma obyekti olan digər əmlakın sığortalanması.

TİKİNTİ-QURAŞDIRMA RİSKLƏRİNİN SIĞORTALANMASI – beynəlxalq təcrübədə ümumi qəbul edilmiş tikinti-quraşdırma risklərinin sığortalanması şərtlərinə uyğun binaların və tikililərin tikintisinin və avadanlığın quraşdırılmasının sığortalanması idxalçının öz ölkəsində və ya avadanlığın göndərildiyi tikinti-quraşdırma işlərinin aparıldığı digər ölkələrin ərazisində müvafiq sığorta cəmiyyəti tərəfindən həyata keçirilə bilər. Sığortanın obyektinə aiddir: sığorta müqaviləsində göstərilən, tikinti meydançasında yerləşən, tikinti və quraşdırma üçün nəzərdə tutulan binalar, tikililər, maşınlar, onların ehtiyat hissələri, material və əmlak.

Azərbaycan Respublikasında yaşayış evlərinin istifadəyə verilməsi (əvvəlki ilə nisbətən, faizlə, ümumi sahə)



Qrafik 1

"SALOĞLU" (www.saloglu.com)

2000-ci ildə fəaliyyətə başlayan Azərbaycanın ən böyük müasir mebel istehsalçılarından biridir. 10000 m²-lik istehsal sahə və gənc, dinamik kadr potensialına malik olan müəssisə keyfiyyətli materialları ən yüksək texnologiyalar işləyərək müştərilərinin istifadəsinə təqdim edir. Hədəf yüksək səviyyəli istehsal və müştəri məmnuniyyətidir. "SALOĞLU" İSO 9000 sertifikatına malikdir.






www.SALOĞLU.COM
SALOĞLU
GİRİŞ
MEBEL
GİRİŞ






AZER YOD

1926-30-cu illərdə, keçmiş SSRİ-də ilk dəfə olaraq, buruq sularından yod alınması üsulları işlənib hazırlandı və bunun nəticəsində Neftçala yod-brom (1931), Suraxanı (1931) və Ramana (1932) yod zavodları işə salındı. Beləliklə yod-brom sənayesinin əsası qoyuldu. Böyük Vətən müharibəsi illərində yod-brom sənayesi cəbhəni və arxanı lazımi məhsullarla təmin edirdi. Müstəqilliyimizin ilk illərində sahə xeyli tənəzzülə uğradı, SSRİ-nin dağılması nəticəsində məhsulun ixracı dəfələrlə azaldı, köhnə texnologiyalar əsasında işləyən zavodlar fəaliyyətlərini dayandırdılar. Son illər bu sahənin inkişafında yeni mərhələ başlandı. Neftçalada müasir Azer Yod zavodu işə salındı. Zavod yod ehtiyatına görə Avropada ən iri zavoddur. Hasilatın son məhsulu tərkibində minimal əsas maddə 99,5% olan QOST 4159 markalı reaktiv yod və tərkibində minimal əsas maddə 90% olan TU 2112-002-39750786-99 markalı kiçik kristallı yoddur. Zavodun gücü ildə 500 ton, məhsuldarlığı – ildə 350 tondur.







BİOLOJİ TƏBABƏT klinikası

Müasir dövrdə insanların sağlamlıqlarının qorunması məsələsi ənənəvi təbabət üsulları ilə yanaşı vaxtı ilə geniş istifadə edilmiş, lakin sonradan unudulmuş bioloji təbabətin inkişafına təkan vermişdir. Hazırda bioloji təbabətin ümumdünya mərkəzi Almaniyanın Baden-Baden şəhərində yerləşir. Bu mualicə metodu dünyanın 50-dən çox ölkəsində tətbiq olunur.
Bioloji təbabət orqanizmin özünübərpa və müdafiə sistemlərinin pozulmuş funksiyalarını bərpa edən və səbəbin aradan qaldırılmasına yönəldilən müasir müalicə metodudur.
Bioloji təbabətin fəlsəfəsi:
– özünübərpa və müdafiə sistemlərinin pozulmuş pozulmuş funksiyalarının bərpası;
– səbəbin aradan qaldırılmasına yönəldilən müalicə;
– xəstəliyin deyil, xəstənin müalicəsi;
– yalnız təbii tərkibli potensiyalaşdırılmış dərman preparatlarından istifadə.
2001-ci ildən Elxan Ənvər oğlu Yaqubovun rəhbərlik etdiyi Planeta İKŞ Bioloji təbabət müalicə metodundan istifadə ilə bağlı hazırlıq işlərinə başlanmışdır. Almaniyadan yüksəkixtisaslı mütəxəssisləri Azərbaycana dəvət edilərək həkimlər üçün çoxsaylı seminarlar, kurslar və konfranslar təşkil olunmuşdur.
2 fevral 2009-cu ildə müasir maddi-texniki bazaya malik olan Azərbaycan Respublikasının Bakı şəhərində (www.biolojitababat.az) Bioloji Təbabət klinikası açılmışdır. Bununla da respublikada ilk dəfə olaraq bioloji təbabət müalicə metodlarını həyata keçirən struktur yaradılmış və innovativ texnologiyalara əsaslanan bioloji təbabətin inkişafı üçün geniş imkanlar açılmışdır.
Bioloji Təbabət klinikası keçmiş Sovet İttifaqı ölkələri və digər yaxın dövlətlər arasında ilk və geniş profilli bioloji təbabət metodları ilə müalicə edən klinikadır.



ANT ŞİRKƏTLƏR QRUPU
(www.ant.az)

2002-ci ildə, hazırda şirkətlər qrupunun tərkibində olan "ANT İnşaat Təmir-Tikinti" MMC adı altında Azərbaycanın tikinti sektorunda fəaliyyətə başlamışdır. Respublikada biznesin inkişafı üçün yaradılmış münbit şərait nəticəsində şirkət daha da böyüyərək, beton, pvs qapı-pəncərə, alkopan və geniş çeşiddə mebel istehsalını, ixtisaslaşdırılmış müasir tikinti və nəqliyyat texnikasını özündə cəmləşdirən, yüksək ixtisaslı kadr potensialına malik çoxşaxəli şirkətlər qrupu səviyyəsinə yüksəlmiş və Azərbaycanın tikinti sektorunda aparıcı şirkətlər arasında öz layiqli yerini tutmuşdur.

Şirkətlər qrupunda daimi prioritet təşkil edən istiqamətlərdən biri də müasir texnika və texnologiyaların alınması, idarəetmə sistemlərində və istehsal sahələrində müasir komputer proqramı vasitələrinin tətbiq edilməsidir.

İş fəaliyyətində "sistemli idarəetmə və keyfiyyətli material, keyfiyyətli nəticə deməkdir" prinsipinə əsaslanan şirkətə 2005-ci ildə keyfiyyət idarəetmə sistemi üzrə İSO 9001:2000 və 2007 ci ildə təhlükəsizlik sistemi üzrə OHSAS 18001 beynəlxalq dərəcəli sertifikat verilmişdir.

ANT şirkətlər qrupu "hər şey insanın rifahı naminə" devizini əsas tutaraq, milli memarlıq ənənərini özündə əks etdirən, şəhər və qəsəbələri gözəllik verən keyfiyyətli, rahat və yaraşığlı binaların tikintisi sahəsində uğurlu fəaliyyətini davam etdirir.





ANT GROUP

CASPIAN PIPE COATINGS
(www.caspianpipecoatings.com)

Caspian Pipe Coatings (www.caspianpipecoatings.com) Məhdud Məsuliyyətli Cəmiyyəti (keçmiş EUPEC Pipe Coatings Azerbaijan BM-nin hüquqi varisi) 2002-ci ildə təsis edilmiş və həmin vaxtdan etibarən Azərbaycanda fəaliyyət göstərir. Müəssisə Xəzər region boyuncaboru örtükləmə xidmətləri (bir qat izolyasiya: epoksid boya; üç-qat polietilen/polipropilen; boru xətlərinin daxili təmizlənməsi; daxili epoksid örtüyü; qaz boruların daxili divarlarındakı nahamarlıqların azaldılması məqsədilə çəkilən örtük; betonla örtükləmə; kiçik diametrli borular, boru dirsəkləri və dayaqları üzrə xüsusi örtüklər, (GFVE), polixloropren) sahəsində özünəməxsus yer tutur. Şirkətin təsisçiləri Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) və Azərtrans Məhdud Məsuliyyətli Cəmiyyətidir. CPC EUPEC France şirkəti ilə əməkdaşlığa dair saziş imzalamışdır.

CPC təcrübəli və peşəkar boru örtükləmə mütəxəssislərindən ibarət kollektivə malikdir.

CPC-nin əsas sifarişçiləri BP və ARDNŞ-dir. Müəssisənin ilk istehsalat layihəsi Hasilatın Pay Bölgüsü Sazişi çərçivəsində Azəri-Çıraq-Günəşli və Şahdəniz yataqları üzrə boruların korroziyaya qarşı izolyasiyası və betonla örtüklənməsindən ibarət olmuşdur. Bunun ardınca CPC Bakı-Tbilisi-Ceyhan layihəsi ilə əlaqədar ARDNŞ və CCİC üçün beton örtükləmə əməliyyatlarını yerinə yetirmişdir. Daha sonra Şirkət Azəri-Çıraq-Günəşli yataqlarının texniki su ilə təchizatının planlaşdırılması üzrə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin Lay Suları Layihəsini başa çatdırmışdır. 2007-2008-ci illərdə CPC ARDNŞ-nin "Neft Daşları-Bahar" və "Bahar-Hövsan" layihələri üzrə örtükləmə əməliyyatlarını həyata keçirmişdir. 2009-cu ilin may-iyun aylarında EUPEC France şirkətinin sifarişi ilə Kaşaqan layihəsi (Qazaxıstan) çərçivəsində təmir və yenidən örtükləmə işlərini yerinə yetirmişdir. Ötən müddət ərzində CPC 2100 km-dən çox müxtəlif diametrli boru örtükləmişdir. Hazırda ARDNŞ və BP ilə işgüzar əlaqələr zəminində Xəzər regionu ölkələrində təmir və örtükləmə əməliyyatlarının əlaqələndirilməsi və aparılması üzrə işlər davam etdirilir. CPC-nin zavodu Bakıda (Nobel prospekti 36) yerləşir. Zavodun yerləşdiyi ərazi təxminən 250,000 m^2-lik sahəni əhatə edir.














DET.AL HOLDING

Det.Al Holding (www.detalholding.az) qabaqcıl texnologiyaları tətbiq edərək, mədən, qara və əlvan metallurgiya sənayesinin aparıcı sahələri olan dəmir filizinin və alunit filizinin hasilatı, dəmir filizi konsentratının emalı, pelet, DRİ, polad, alüminium oksidi və ilkin alüminium istehsalı sahələrində fəaliyyət göstərir.

Det.Al Holding Daşkəsən Filizsaflaşdırma ASC-ni özəlləşdirmiş, "Azəralüminium" açiq səhmdar cəmiyyətləri ilə əməkdaşlıq müqavilələri imzalamışdır. Holdinqə daxil olan Det.Al Alüminium MMC Gəncə şəhərində illik istehsal gücü 100000 ton ilkin alüminium olan alüminium istehsalı zavodunun tikintisini uğurla həyata keçirir. Bundan əlavə Holdinq Azərbaycanda Polad Kompleksinin bünövrəsini qoyaraq tərkibində 64-67% dəmir olan dəmir dənələrinin istehsalı üzrə dənələşdirmə zavodu (ildə 2 mln ton), ardıcıl reduksiya zavodu (ildə 1,1 mln ton) və poladəritmə zavodundan (ildə 1 mln ton) ibarət metallurgiya kompleksinin tikintisi layihəsini həyata keçirir. Hazırda Det.Al Holding 4,000 nəfəri işlə təmin etmişdir.


"Azəralüminium" ASC Sumqayıt şəhərində yerləşən və ildə 60,000 ton ilkin alüminium istehsal edən alüminium zavodundan və Gəncə şəhərində yerləşən və ildə təxminən 450000 ton metallurji növlü gil-torpaq istehsal edən zavoddan ibarətdir. Bundan əlavə holding 300 mln tonluq ehtiyatı olan Alunit mədəninin sahibidir.

Det.AL Holding Gəncə Gil-torpaq zavodundan alınan xammal əsasında fəaliyyət göstərəcək ən yüksək texnoloji, ekoloji və keyfiyyət standartlarına cavab verəcək zavodunun Gəncə Alüminium tikintisinə başlayıb. Birinci istehsal mərhələsi kimi nəzərdə tutulan 2011-ci ilin may ayında müəssisə 50 min ton alüminium külçəsi istehsal edəcək. 2012-ci ildə müəssisə 2-ci istehsal mərhələsini də 50 min külçə istehsalı ilə bitirib, tam gücü ilə - illik 100 min ton ilkin alüminium istehsalı ilə fəaliyyətə başlayacaq.

Det.Al Holding Yeni Gəncə Alüminium Zavodundan alınan ilkin alüminium külçələri əsasında fəaliyyət göstərəcək Yarım-Fabrikat Zavodunun layihəsinə başlayıb. Zavod 2012-2013 ildə nəzərdə tutulub.







TİKİNTİ-QURAŞDIRMA SIĞORTASI – yüksək ixtisaslaşdırılmış sığorta növü; bu sığorta növündə təsnifat yoxdur və hər bir risk fərdi olaraq qiymətləndirilir. Risklərin qiymətləndirilməsinin əsas bazalarına aiddir: sığorta marağı, sığortalanmış risklər, sığorta predmeti.

TİNBERGEN (TINBERGEN) YAN (1903-1994) – Niderland iqtisadçısı, ekonometrikanın



yaradıcılarından biri, dinamika nəzəriyyəsi, iqtisadi tsikllər, dünya iqtisadiyyatı üzrə mütəxəssis. "Dinamik modellərin inkişafı və onların iqtisadi proseslərin təhlilinə tətbiqinə görə" iqtisadiyyat üzrə ilk (R.Friş ilə birlikdə) Nobel mükafatı laureatı (1969). Leyden Universitetinin fizika fakültəsini bitirmişdir. 1929-cu ildə fizika üzrə doktorluq dərəcəsi almışdır. 1929-1945-ci illərdə Haaqada Niderland hökuməti yanında Mərkəzi Statistika Bürosunda işləmiş, Cenevrədə Millətlər Liqasının iqtisadi eksperti (1936-1938), Niderland Mərkəzi Planlaşdırma Bürosunun direktoru (1945-1955) olmuşdur. 1931-1933-cü illərdə Amsterdam Universitetində statistikadan dərs demişdir. 1933-1973-cü illərdə Rotterdamda Niderland iqtisadiyyat məktəbinin iqtisadiyyat professoru olmuşdur. "İqtisadi təhlilə töhfə" (*"Contributions to Economic Analysis"*) jurnalının redaktoru, Hindistan, Misir, Türkiyə, Surinam, Çili, İndoneziya, Suriya, İraq və Liviya hökumətləri yanında məsləhətçi-müşavir funksiyalarını yerinə yetirmiş, beynəlxalq təşkilatlara, o cümlədən Dünya Bankına, Avropa Kömür və Polad Birliyinə (AKPB), BMT-nin müxtəlif bölmələrinə məsləhətlər vermişdir. 1966-cı ildə Tinbergen BMT-nin İnkişafın Planlaşdırılması Komitəsinin sədri olmuşdur. Avropa Mədəniyyət Fondunun Erazm (Rotterdamlı) adına mükafata, müxtəlif universitetlərin və kolleclərin 20-dən çox fəxri elmi dərəcəsinə layiq görülmüşdür. XX əsrin 20-ci illərinin axırlarından etibarən Tinbergen iqtisadi proseslərin tədqiqinə riyazi aparatı birinci olaraq tətbiq etməyə başlayanlardan biri olmuşdur. 1930-cu ildə o, R.Friş və İ.Fişer ilə birlikdə Beynəlxalq Ekonometrika Cəmiyyətinin yaradılması təşəbbüsü ilə çıxış etmişdir. Tinbergen "hörümçək toruna oxşar teoremi" kəşf etməklə ekonometrikanın erkən dövrdə inkişafına sanballı töhfə vermişdir. Bu teorem bəzi malların (ilk növbədə, kənd təsərrüfatı mallarının) istehsalının və onların qiymətlərinin müntəzəm tsiklik dəyişmələrini izah etmək cəhdi idi. 1936-cı ildə Tinbergen Millətlər Liqası xətti ilə İqtisadi tsiklin nəzəri tədqiqi üzrə layihəsi üzərində işə cəlb edilmiş, bu layihə çərçivəsində iqtisadi tsikl nəzəriyyələrinin statistik yoxlanılmasını həyata keçirməklə ekonometriyaya sanballı töhfə vermişdir. "Metod və onun investisiya aktivliyində tətbiq edilməsi" (*"A Mentod and its Application in Investment Activity"*) və "1919-1932-ci illərdə Amerika Birləşmiş Ştatlarında iqtisadi tsikllər" (*"Business Cycles in the United States of America, 1919-1932"*) adlı əsərlərində Tinbergen Niderland və ABŞ iqtisadiyyatlarının tam riyazi modellərini işləyib hazırlamışdır. Tinbergenin ideyaları müharibədən sonrakı dövrdə onun Niderland iqtisadiyyatının bərpa edilməsi siyasətinin həyata keçirilməsi ilə əlaqədar hökumət sənədlərində öz təcəssümünü tapmışdır.

50-ci illərin ortalarından etibarən Benilüks İqtisadi İttifaqının və Avropa İqtisadi Birliyinin (AİB) yaradılması ilə əlaqədar Tinbergen iqtisadi əməkdaşlıq problemlərinin tədqiqi ilə fəal məşğul olmuşdur. O, "üçüncü dünya" ölkələrinin (bu termini elmi dövriyyəyə Tinbergen daxil etmişdir) iqtisadi inkişafı məsələlərinə də böyük diqqət yetirir, "varlı Şimal" ilə "yoxsul Cənub" arasında fərqin aradan qaldırılmasının zəruri olmasını əsaslandırırdı. 70-80-ci illərdə Tinbergen öz səylərini dünyanın qlobal problemlərinin həlli yollarının axtarılması və optimal iqtisadi quruluşa malik olan cəmiyyət qurulması məsələləri üzərində cəmləşdirmişdi. 1975-ci ildə Roma Klubunun tapşırığına əsasən, o, qlobal sosial-iqtisadi problemlərə (sürətlə silahlanma, ərzaq, xammal və enerji qıtlığı, ekoloji şərait, varlı və yoxsul ölkələr arasında həyat səviyyəsində fərq) həsr edilmiş məruzə hazırlayan komissiyanın işinə rəhbərlik etmişdir. Yeni kompleks elm olan qlobalistikanın konsepsiya və metodologiyasının ifadə edildiyi bu məruzənin müddəaları "Beynəlxalq

nizama yeni baxış" (*"Reshaping the International Order"*) adlı monoqrafiyada (1976) şərh edilmişdir. Tinbergen bəşəriyyətin salamat qalması və nüvə müharibəsinin qarşısının alınması perspektivlərinin qlobal probleminə öz yanaşmalarını D.Fişerlə birgə yazdığı "Müharibə və rifah. Siyasi təhlükəsizliyin təmin edilməsinin sosial-iqtisadi siyasətə inteqrasiyası" (*"Warfare and Welfare: Integrating Security Policy into Socio-Economic Policy"*) adlı kitabında (1987) inkişaf etdirmişdir.

TİPİK FƏALİYYƏT – mühasibat uçotu kontekstində tipik fəaliyyət özündə, adətən, müəssisə tərəfindən həyata keçirilən istehsal və maliyyə fəaliyyətlərini birləşdirir. Fövqəladə fəaliyyətlər bura daxil edilmir.

Tipik fəaliyyətdən gəlir – tipik istehsal və maliyyə fəaliyyətlərindən olan gəlirlərin cəmi. Bu, əmtəə və xidmətlərin satışından (dövriyyədən) gəlirlərin, subsidiyaların, istehsalla bağlı investisiyadan gəlirlərin, faizlər və buna oxşar maliyyə gəlirlərinin cəmidir.

Əsas fondların satışı bura daxil edilmir.

Bu gəlir uçotun aşağıdakı maddələri üzrə birbaşa yolla hesablanır:

Təmiz dövriyyə
+ istehsal fəaliyyətindən olan digər gəlir;
+ kapitalda iştirakdan olan gəlir;
+ əsas fondların bir hissəsini təşkil edən digər investisiya və ssudalardan olan gəlir;
+ alınan faizlərdən yaranan və buna oxşar digər gəlirlər;
= tipik fəaliyyətlərdən gəlir.

TİPİK QURAŞDIRMA – statistika məcmusunun yekcins hissələrə və ya ictimai-iqtisadi tiplərə ayrılması. Burada məqsəd kimi, yekcins olmayan sosial-iqtisadi hadisələrin yekcins tiplərə ayrılması nəzərdə tutulur. Müəssisələrin təşkilati-hüquqi formasına, mülkiyyət növlərinə və s. görə qruplaşdırılmasını misal göstərmək olar.

TİPİK TƏHLİL – tətbiq olunan obyektlərin qruplara (siniflərə) bölünməsinə və oxşar obyektlərin araşdırılmasına əsaslanır. Tipoloji təhlilə olan zərurət oxşar olmayan obyektlər çoxluğunun araşdırılması və ya hər hansı bir qanunauyğunluğun öyrənilməsi ilə bağlıdır. Tipoloji təhlil məsələlərinin həllində çox vaxt müşahidələrin çoxölçülü təsnifləşdirilməsi metodlarından istifadə edilir.

Tipləşdirmə (oxşar qrupların aşkar edilməsi) prosesi aşağıdakı mərhələləri əhatə edir: konkret tədqiq olunan çoxluğun (məcmunun) təhlilində istifadə olunan tipləşdirici əlamətlərdən ekspert və statistik qiymətləndirilməsindəki əlamətlərin seçilməsi; təsnifləşdirmənin alqoritmlərinin seçilməsi və istifadə edilməsi; nəticələrin təhlili, alınmış siniflərin yayılması. Belə prosesə, məsələnin qoyuluşuna müvafiq olaraq ("obyektlərin yaxınlığı" dərəcəsinə, sinifdaxili səpələnmənin qiymətinə görə və s.) qiymətləndirilən, nəzərdə tutulan eyni tipli obyektlərin alınmasınadək bir neçə təsvir (şərh) daxil edilə bilər.

Tipoloji təhlil iqtisadi və sosioloji tədqiqatlarda tətbiq olunur.

TİTUL (lat. *titulus* – yazı, fəxri ad) – 1. Fəxri rütbə (məsələn, qraf, hersoq). 2. Ayrı-ayrı şəxslərin cəmiyyətdə xüsusi, imtiyazlı mövqeyini vurğulayan və müvafiq titul verilməsini (məsələn, zati-aliləri, əlahəzrət) tələb edən genetik və ya mənimsədilən status. Silkli feodal cəmiyyətində geniş yayılmışdı, bəzi burjua ölkələrində isə (məsələn, Böyük Britaniyada) titul hələ də mövcuddur. 1917-ci il Oktyabr inqilabının qələbəsindən sonra Rusiyada titullar ləğv edilmişdir. 3. Burjua cəmiyyətində hər hansı qanunvericilik hüququnun əsası, məsələn, alqı-satqı, bağışlama, mübadilə titulu və s.

TİTUL SIĞORTASI – digər şəxslərin həmin əmlaka mülkiyyət hüququnun mübahisələndirilməsi ilə əlaqədar onların iddiaları əsasında əmlaka mülkiyyət hüququnun itirilməsi riskindən sığorta. Titul sığortası yanğın, subasma, qəza və s. kimi fiziki risklərdən deyil, sırf hüquqi risklərdən sığorta təminatıdır. Baxmayaraq ki, ikişaf etməkdə olan sığorta bazarlarına malik ölkələrdə məhkəmə qərarları ilə əmlaka mülkiyyət hüququnun etibarsız hesab edilməsi ilə əlaqədar mənzillərlə bağlı qeyd olunan risk çox tez-tez meydana çıxır, bununla bağlı sığorta təminatı alanlar isə azdır, bəzi ölkələrdə heç bir sığorta şirkəti bu cür təminat nəzərdə tutmur. Bir çox hallarda vətəndaş dəyərini tam olaraq ödəməklə müvafiq hüquqi müqavilə bağlamaqla qanuni əsaslarla mənzil alır. Lakin sonradan məlum olur ki, ona qədər həmin mənzil başqa şəxsə də eyni qanuni əsaslarla satılıbmış. Buna səbəb mənzil satanın ya eh-

tiyatsızlıq üzündən yol verdiyi səhv, ya da qəsdən etdiyi dələduzluq əməli, yaxud da mənzilə mülkiyyət hüququnu qeydiyyatı prosesinə cəlb edilən müvafiq dövlət orqanlarının qeyri-peşəkar yanaşması ola bilər. Hər bir halda, əgər qanunla mənzili əvvəl alanın mülkiyyət hüququ tanınırsa, mənzili sonradan alan çox güman ki, həmin mənzili itirir. Belə olan halda vətəndaşın itirdiyi mənzillə bağlı maliyyə problemlərinin həlli üçün səmərəli üsul kimi problemin yaranmasından əvvəl bağlanmış titul sığortası müqavilələsindən istifadə etmək olar. Bəzi ölkələrdə titul sığortası müddətsiz bağlanır və konkret sığorta məbləği müəyyən edilmir. Yəni sığorta müqaviləsi qüvvəyə mindikdən sonra mənzilə olan mülkiyyət hüququnun nə zaman itirilməsindən asılı olmayaraq, sığorta şirkəti məhkəmədə qaldırılmış iddia nəticəsində itirilmiş mənzillə eyni şəraitdə və dəyərdə olan başqa bir mənzilin alınmasına lazım olan məbləğdə sığorta ödənişi verir. Bu cür təminata görə ödənilən sığorta haqqı adətən mənzilin dəyərinin 0,4-1% olur ki, bu da istənilən halda mənzilə yaşayış hüququnun itirilməsi zamanı evsiz qalmaqla və kompensasiya almaq imkanının olduqca çətin olduğu şəraitin göz önünə gətirildiyi şəraitə baxanda, cüzi bir məbləğdir.

TOBİN (TOBIN) CEYMS (1918-2002) – amerikalı iqtisadçı, Keynsçi maliyyə bazarları nəzəriyyəsi sahəsində mütəxəssis. 1981-ci ildə "Maliyyə bazarlarının vəziyyətinin və onların məsrəflər, məşğulluq, istehsalat və qiymətlər sahəsində qərarlar qəbul edilməsi siyasətinə təsirinin təhlilinə görə" iqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür.



Harvard Universitetini bitirmişdir (1935-1939). 1941-1943-cü illərdə Vaşinqtonda (Kolumbiya) Qiymətlərin Tənzimlənməsi İdarəsinin, Mülki Təchizat və Hərbi İstehsal Şurasının iqtisadçısı işləmiş, ABŞ hərbi dəniz donanmasında xidmət etmişdir. 1946-1949-cu illərdə Harvard Universitetinin təqaüdçüsü olmuşdur, 1949-cu ildə Kembric Universitetində Tətbiqi iqtisadiyyat bölməsində (Böyük Britaniya) işləmişdir. 1950-ci ildən Yel Universitetinin adyunkt professoru, 1957-ci ildən həqiqi (tam) professoru olmuşdur. 1955-1961-ci və 1964-1965-ci illərdə iqtisadi araşdırmalar üzrə Koulz komissiyasına, 1961-1962-ci illərdə ABŞ prezidenti C.F.Kennedinin yanında iqtisadi şuraya başçılıq etmişdir. Bir sıra hökumət və özəl təşkilatların, o cümlədən Federal Ehtiyat Sisteminin, ABŞ Maliyyə Nazirliyinin, Konqresin Büdcə Komitəsinin, Ford Fondunun müşaviri və məsləhətçisi olmuşdur. 1967-ci və 1970-ci illərdə Nyu-Heyven şəhərinin (Konnektikut ştatı) Şəhər Plan Komissiyasının sədri, 1969-1970-ci illərdə inflyasiyanın tənzimlənməsi və iqtisadi rifah üzrə Nyu-York şəhər komissiyasının üzvü, Amerika Milli Elmlər Akademiyasının, Amerika Fəlsəfə Cəmiyyətinin, Amerika Elm və İncəsənət Akademiyasının, Amerika İqtisadiyyat Assosiasiyasının üzvü (1970-ci ildə prezidenti) kimi fəaliyyət göstərmişdir. Sirakuz, İllinoys, Yeni Lissabon universitetlərinin, Britaniya Dartmut kral hərbi dəniz kollecinin, Suortmor kollecinin fəxri elmi dərəcələrinə layiq görülmüşdür.

Tobin müasir keynsçilik nəzəriyyəsinə bir neçə strateji istiqamət üzrə, xüsusən, bu nəzəriyyəyə pul və kapital bazarlarında ümumi tarazlıq modelinin daxil edilməsi, kapital təklifinin qiymətinin Keyns konsepsiyasına əsaslanan yeni investisiya nəzəriyyəsinin işlənib hazırlanması, sabitləşmə siyasəti problemlərinin təhlilinə keynsçi yanaşmanın təkmilləşdirilməsi hesabına mühüm töhfələr vermişdir. Müasir iqtisadi nəzəriyyədə onun adı, ilk növbədə, "Milli iqtisadi siyasət" (*"National Economic Policy"*) adlı əsərində orijinal "portfel investisiyalarının seçim nəzəriyyəsi"nin işlənib hazırlanması ilə bağlıdır. Bu nəzəriyyə fərdi təsərrüfat və firmalar səviyyəsində onların aktivlərinin strukturunun necə təyin olunmasını təsvir edir. Tobinə görə, investorlar yalnız nadir hallarda bütün başqa amillərə məhəl qoymadan ən yüksək mənfəət əldə etməyə çalışırlar. O göstərmişdir ki, investorlar öz investisiya portfellərində tarazlığa nail olmaq üçün yüksək riskli investisiyaları daha az riskli investisiyalarla əlaqələndirməyə çalışırlar. Tobin aktivlərin tarazlığı modellərindən və qiymətli ka-

ğızlar ehtiyatlarının hərəkətinin təhlilindən çıxış edərək, "q faktoru" konsepsiyasını irəli sürmüşdür. Bu əmsal aktivlərin maddi-material formada bazar dəyərinin onların əvəz edilməsi üçün məsrəflərə nisbətini ifadə edir. O, *q* əmsalının empirik tədqiqatlarını "Yeni iqtisadiyyat: on ildən sonrakı baxış" (*"The New Economics: One Decade Older"*) adlı kitabında davam etdirərək fond bazarlarındakı vəziyyətin özəl investisiyalara təsirinin əhəmiyyətini göstərmişdir. C.Keynsin qısamüddətli makroiqtisadi təhlilini uzunmüddətli artım modellərinə şamil etmişdir. Bu, iqtisadi sazişin problemlərinə keçməyə imkan vermişdir. Tobinin portfel investisiyaları modeli fiskal siyasətin iqtisadiyyata təsirini öyrənmək üçün də yararlı olmuşdur.

Tobin ABŞ prezidenti R.Reyqanın iqtisadi siyasətinin və 80-ci illərdə Federal Ehtiyat Sistemi tərəfindən yeridilən sərt maliyyə siyasətinin ən fəal tənqidçilərindən biri olmuşdur. O, M.Fridmanın makroiqtisadi siyasət məsələlərinə dair tövsiyələrinin əleyhinə kəskin çıxışlar etmişdir. "Tərəqqi siyasəti. Keynsçilik baxımından oçerklər" (*"Policies for Prosperity: Essays in a Keynesian Mode"*) adlı əsərdə on ildən artıq dövrdə ABŞ iqtisadiyyatının vəziyyəti kompleks təhlil edilmişdir. 80-ci illərdə ABŞ-da yeridilən maliyyə, vergi və monetar siyasətin müxtəlif aspektləri Tobinin "Reyqanomika" (*"Reaganomics"*) kitabında da təhlil edilmişdir.

TODARO MODELİ – inkişaf etməkdə olan ölkələr çərçivəsində miqrasiyanın mövcud modellərindən ən məşhur olan iqtisadi model.

Modelin müəllifi bir müddət Afrikada işləmiş amerikalı iqtisadçı M.Todaro olmuşdur.

Model inkişaf etməkdə olan ölkələrin əksəriyyətində müşahidə edilən əhalinin kənd yerlərindən şəhərlərə miqrasiyasının yüksək sürətinin iqtisadi baxımdan nə üçün kifayət qədər səmərəli hadisə hesab olunmasını izah edir. Miqrasiyanı müəyyən edən amil, kənd yerləri ilə şəhər arasında real gəlirin gözlənilən fərqidir. Potensial miqrant əvvəlcə onun ixtisas səviyyəsinə müvafiq işdən şəhərdə əldə edə biləcəyi real gəliri qiymətləndirir. Sonra o, bu cür iş tapmaq ehtimalını subyektiv baxımdan qiymətləndirir. Bundan sonra o, gözlənilən gəliri kənd yerində almaq ümidində olduğu gəlirlə müqayisə edir. Onun miqrasiya barədə qərarı alınan fərqə əsaslanır.

Bu modeldən istifadə edilməsi ilə bağlı məsələlərin əhatə dairəsi çox genişdir. Məsələn, əgər ölkə hökuməti şəhərlərin sənaye cəhətdən inkişafına şərait yaratmağa çalışırsa, şəhərlərdə məşğulluq artacaq, nəticədə kənd sakini üçün şəhərdə iş tapmaq ehtimalının subyektiv qiyməti də artacaqdır. Miqrasiya genişlənəcək və sənayenin inkişafı nəticəsində şəhərdə işsizlik səviyyəsi inkişaf proqramı həyata keçirilməndən əvvəl mövcud olmuş səviyyədən yüksək ola bilər. Şəhərdə işsizliyin müəyyən səviyyəsində tarazlıq yaranacaq, yəni miqrasiya prosesi dayanacaqdır. Potensial miqrantlar bu barədə qərar qəbul edərkən uzunmüddətli perspektivi əsas götürə bilərlər. Onlar qərara gələ bilərlər ki, gözləmə dövründən (məsələn, bir neçə aydan) sonra onların iş tapmaq şansı artacaqdır. Şəhərdə gözlənilən gəlirlərin diskontlanmış dəyərini kənd yerində gəlir səviyyəsi ilə müqayisə edərək, müəyyən dövr ərzində şəhər iqtisadiyyatının qeyri-rəsmi sektorunda daha aşağı gəlirə qane ola bilərlər. Uzunmüddətli planda bu cür qərar səmərəli ola bilər.

Todaro modelinin əsasını təşkil edən problemin kökü müasir sənaye sektorunda və kənd təsərrüfatında gəlirlər arasında mühüm fərqlərdir. Müxtəlif səbəblər üzündən sənayedə gəlirlər çox vaxt bazarda tarazlıq səviyyəsindən xeyli yüksək olur. Şəhər və kənd rayonlarının real gəlirləri arasında fərqi azaltmaq məqsədilə həm şəhərlərin, həm də kənd rayonlarının inkişaf proqramlarının işlənib hazırlanması və həyata keçirilməsi bu problemin uzunmüddətli həllidir.

TOXUMUN KEYFİYYƏTİNƏ NƏZARƏT ÜZRƏ BEYNƏLXALQ ASSOSİASİYA (İSFA) – 1929-cu ildə Niderlandın Kopenhagen şəhərində III Beynəlxalq Konqres tərəfindən yaradılmış Toxumun Keyfiyyətinə Nəzarət Assosiasiyasının varisi kimi 1924-cü ildə Böyük Britaniyanın Kembric şəhərində yaradılmışdır.

TOXUNULMAZ ƏMANƏTLƏR – faizlərin hesablanmasından və ya uduşların əlavə edilməsindən başqa, heç bir əməliyyatın son 10 il ərzində baş vermədiyi bütün tip əmanətlərdir (müddətli və uşaqlar üçün məqsədli əmanətlər istisna ol-

maqla). Hər il iyun ayında bu cür əmanətlər saxlanmaq üçün filiallardan (agentliklərdən) əmanət bankının əməliyyat şöbələrinə verilir. Hesabın açılmasından 2 il keçən müddət ərzində həyata keçirilməyən və əmanət kitabçasının verilmədiyi əməliyyat üzrə nağdsız yolla dəyişməz əmanətlərə, həmçinin əmanət bankının əməliyyat şöbələrinə filiallardan (agentliklərdən) hər il iyun ayında verilməlidir. Toxunulmaz əmanətlərin verilməsi əmanətçinin ilkin tələbi ilə, lakin əmanət bankının müdirinin və baş mühasibinin icazəsi ilə aparılır.

TOKİO RAUNDU – Tariflər və Ticarət üzrə Baş Sazişin (QATT) himayəsi altında sayca yeddinci danışıqlar raundu. 6 il (1973-cü ildən 1979-cu ilə qədər) davam etmiş bu raundda çoxtərəfli ticarət danışıqları aparılmışdır.

Əvvəlki raundlardan, məsələn, Kennedi raundundan fərqli olaraq, Tokioda aparılan danışıqlarda həm tariflər, həm də beynəlxalq ticarətdə qeyri-tarif baryerləri məsələsinə toxunulmuşdur. Danışıqlarda iştirak edən ölkələrin əksəriyyəti sənaye tariflərinin tədricən (1980-1987-ci illər dövründə) orta hesabla 25-30% azaldılması barədə razılığa gəlmişlər. Qeyri-tarif ticarət baryerlərinin azaldılması ixracatçıların başqa ölkələrdə dövlət kontraktları almaq imkanlarını artıran dövlət təqaüdlərini, məhsul barəsində standartlar və sertifikatlaşdırma sistemləri ilə yaranan texniki baryerlərin azaldılmasını, eləcə də gömrük qiymətləndirməsinin ümumi metodunun bəyənilməsini əhatə edirdi.

TOLLİNQ (ing. *tolling*) – beynəlxalq əməkdaşlığın bir forması. Bu halda bir ölkənin şirkətləri digər ölkənin şirkətlərinə xammal, dəstləşdirmə məmulatları satır, həmin məhsullar ikinci ölkədə emal edilir (təkmilləşdirilir), sonra isə birinci ölkə hazır məhsulu geri alır.

Adətən, Tollinq dövriyyəsində məhsuldan vergi tutulmur, çünki o, gömrük rüsumlarından azad edilir.

Tollinqin (xidmət haqqının) mahiyyəti ondan ibarətdir ki, məhsulu emal edən xammal ehtiyatlarını pulsuz alır, onları emal edir və artıq hazır məhsulu bu prosesin haqqını pul şəklində və ya hazır məhsulun bir hissəsi ilə ödəmiş sahibinə göndərir. Xammal sahibi tollinqdən o halda istifadə edir ki, o, özü emal ilə məşğul olmasın və ya mövcud materialların emal edilməsi üçün onun istehsal imkanları olmasın. Xammalı emal edən tərəf müvafiq işləri daha az məsrəflə yerinə yetirə biləcəyi hallarda da xammal sahibi tollinqdən istifadə edir. Emalçı tollinqdə o halda iştirak edir ki, bunun iqtisadi üstünlükləri olsun (məsələn, xammal (o cümlədən, parça) almaq üçün vəsait yoxdur, lakin sərbəst istehsal gücləri (məsələn, paltar tikmək üçün) və ya artıq işçi qüvvəsi vardır). Bununla bərabər, nəzərə almaq lazımdır ki, bəzi hallarda dövlət tollinq üçün kvotalar tətbiq edir (bax: sxem 1).

"TOM-NEKST" – birjada faktiki olaraq "sabahdan" "birisigünədək" mövcud olan kombinəedilmiş əqd. Bu o deməkdir ki, birja malı (o cümlədən valyuta da) alıcıya yalnız bir gün müddətində – əqd bağlanandan dərhal sonra məxsus olur.

TONTİNA – müəyyən şəxslər qrupuna münasibətdə ömürlük renta sığortası növü. Sığortanın bu növündə nəzərdə tutulur ki, qrupun üzvlərindən birinin ölməcəyi təqdirdə onun almış olduğu rentanın məbləği qrupun qalan üzvləri arasında bölüşdürülsün.

TOPDANSATIŞ ANBARLARINDAKI EHTİYATLAR – istehsal olunan və anbarlarda saxlanılan əmtəələrin həcmini əks etdirir. Onun artımı satışın azalmasından, iqtisadiyyatın ağır vəziyyətindən xəbər verir və valyutanın alıcılıq qabiliyyətinin aşağı düşməsinə səbəb olur.


TOPLU MALİYYƏ BALANSI – konkret dövr üçün ölkədə maliyyə vəsaitlərinin yaranma mənbələri və istifadə istiqamətləri barədə məlumatları özündə əks etdirən maliyyə sənədi.

TORQ – (ing. *lender* – borc verən; *auction* – auksion, hərrac, açıq satış) – əmtəə alışının bir forması. Torqlara, əsasən, alıcı satıcı arasında müəyyən texniki-texnoloji və digər xüsusiyyətlərə malik olan əmtəə üçün konkurs elan edilir.

TORQLARIN ORTA SUTKALIQ HƏCMİ – torqların valyuta, fyuçers və ya opsion üzrə aktivlik dərəcəsi.

TORPAĞA TƏLƏB – istehsal amili olan torpağa tələb onun təklifindən və rentadan asılıdır. Sabit torpaq təklifinin qrafiki şaquli xətdir. Tələb qrafikinə gəldikdə isə, bu əyrinin vəziyyəti rentanın məbləğindən asılıdır və təklif əyrisi ilə tarazlıq nöqtəsində kəsişir. Bundan əla-

Klassik tollinqin növləri



Sxem 1

və, adətən, rentanın məbləğindən və torpağa tələbdən asılı olaraq, rentanın qiyməti yuxarıda adını çəkdiyimiz tarazlıq nöqtəsi ətrafında dəyişir. Rentanın qiyməti tarazlıq nöqtəsindən yuxarı olduqda torpağa tələb azalır. Nəticədə torpağın bir hissəsi istifadəsiz qalır və torpaq sahibi onu aşağı qiymətə icarəyə verməli olur. Rentanın tarazlıq nöqtəsindən aşağıda qalması da çox davam edə bilməz. Bu halda torpaq sahələrinə tələbin artması rentanın artırılmasına səbəb ola bilərdi. Torpağa tələb yalnız tarazlıq nöqtəsində torpaq təklifinə bərabər olacaqdır. Torpaq rentası yalnız tələblə təklifin tarazlaşdığı nöqtədə təyin edilir.

TORPAĞIN İCARƏ HAQQI – torpaqdan müddətli istifadəyə görə icarəçinin icarəyə verənə ödədiyi vəsait.

TORPAĞIN QİYMƏTLƏNDİRİLMƏSİ – a) torpağın keyfiyyətcə qiymətləndirilməsi – torpağın münbitliyinin kəmiyyət göstəriciləri əsasında, onun aqronomik səciyyəsi. Burada əsasən becərilən kənd təsərrüfatı bitkilərinin çoxillik məhsuldarlığının qiyməti götürülür; b) torpaqların keyfiyyətcə qiymətləndirilməsi (bonitirovkası) hər bir ərazidən istifadə edilərkən sahələrin keyfiyyətcə müxtəlifliyini təyin edən torpaqların məhsuldarlığının nisbətcə ölçülməsi sistemi. Torpağın keyfiyyətcə qiymətləndirilməsində əsas məqsəd müəyyən sistem daxilində keyfiyyətcə aşağı olan torpaqlardan başlayaraq yüksək-keyfiyyətli bütün torpaqları qruplaşdırmaqdan ibarətdir. Torpaq ehtiyatlarının istehsal və xalq təsərrüfatlarında istifadəsində onun qiymətləndirilməsinin böyük əhəmiyyəti vardır. Bu



Sxem 1


torpaqların səmərəli istifadəsi və yaxşılaşdırılmasının elmi əsaslarla həyata keçirilməsinə imkan verilir.

TORPAĞIN MƏHSULDARLIĞI VƏ KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI ÜZRƏ BEYNƏLXALQ MƏRKƏZ (İFDC) – beynəlxalq təşkilat statusunda 2002-ci ildə ABŞ-da yaradılmışdır.


İnkişaf etməkdə olan ölkələrdə, Mərkəzi və Şərqi Avropada ərzaq məhsullarının artırılmasına nail olmaq; mineral gübrələrin, ekoloji təhlükəsizlik texnologiyalarının tətbiqi əsasında bitkiçiliyin məhsuldarlığının yüksəldilməsi məqsədi ilə yaradılmışdır.

TORPAĞIN MONİTORİNQİ – neqativ proseslərin nəticələrinin vaxtında aşkar edilməsi üçün torpaq fondunun vəziyyəti üzərində müşahidə sistemi, başqa sözlə, səmərəli təsərrüfat istifadəsi məqsədilə ölkənin torpaq fondunun vəziyyətinə nəzarəti təmin edən tədbirlər sistemi. Torpaq üzərində mülkiyyət formalarından, məqsədli təyinatdan və istifadə xarakterindən asılı olmayaraq, bütün torpaqlar torpaq monitorinqinin obyektidir (bax: sxem 1).

TORPAQ AUKSİONU (hərrac) – torpaq satışı və ya ondan istifadə etmək hüquqi ilə bazar sövdələşməsi forması. Torpaq sahələrinin və ya ondan istifadə etmək hüquqlarının alqı-satqısı zamanı rəqabət mühitinin yaradılmasına imkan verir. Torpaq sahələrinin auksion satışı torpaq vasitələrinin banka qaytarılması zamanı ipoteka kreditləşməsi təcrübəsində nəzərdə tutulmuşdur. Torpaq auksionuna ayrı-ayrı sahələr və ya bir çox torpaq sahələrini ehtiva edən massivlər çıxarıla bilər. Şəhərlərdə torpaq auksionunu icra hakimiyyəti orqanları həyata keçirir, belə ki, onların ixtiyarında torpaq sahələri vardır. Onlar da sahənin təyinatlı istifadəsinə görə əlavə şərtləri və ilkin qiyməti müəyyən edirlər. Kənd yerlərində torpaq auksionuna bələdiyyələrə və vətəndaşlara məxsus sahələri qoymaq olar. İnkişaf etməkdə olan ölkələrdə təsərrüfatdaxili auksionlar kollektivin üzvlərinə torpaq payı hesabına konkret sahələrin ayrılması üzrə keçirilir. Bu auksionu kənd təsərrüfatı müəssisələrinin yenidən təşkili üzrə təsərrüfatdaxili komissiya hazırlayır və həyata keçirir. Auksionun iştirakçılarına kənd təsərrüfatı istehsalı ilə məşğul olan müəssisələr və sahibkarlar


TORPAQ XƏRİTƏSİ
Miqyas 1:3 150 000
RUSİYA FEDERASİYASI
DAĞISTAN
GÜRCÜSTAN
ERMƏNİSTAN
İRAN İSLAM RESPUBLİKASI
TÜRKİYƏ RESPUBLİKASI
XƏZƏR DƏNİZİ
BAKI
SUMQAYIT
NAXÇIVAN
XANKƏNDİ
GƏNCƏ
MİNGƏÇEVİR
ŞİRVAN
Balaken
Zaqatala
Qax
Şəki
Oğuz
Qəbələ
Qusar
Xaçmaz
Quba
Şabran
Siyəzən
Xızı
İsmayıllı
Şamaxı
Göyçay
Ağdaş
Yevlax
Ucar
Berdə
Tərtər
Kürdəmir
Zərdab
Ağsu
Mərəzə
Xırdalan
Pirallahı
Neft Daşları
Hacıqabul
Sabirabad
Saatlı
İmişli
Salyan
Biləsuvar
Neftçala
Cəlilabad
Masallı
Lənkəran
Lerik
Yardımlı
Astara
Kəlbəcər
Ağdam
Xocalı
Xocavənd
Beyləqan
Füzuli
Laçın
Şuşa
Qubadlı
Cəbrayıl
Zəngilan
Ordubad
Culfa
Babək
Şahbuz
Qıvraq
Şərur
Heydərabad
Şəmkir
Tovuz
Ağstafa
Qazax
Naftalan
Daşkəsən
Xanlar
Goranboy
Göyçə gölü
Kür
Araz
Qarasu
Qotur
Samur
Qusarçay
Qaraçay
Şirvan kanalı
Pirsaat
Bəş Şirvan kollektoru
Sarısu
Yuxarı Qarabağ kanalı
Şəmkirçay
Tərtərçay
Həkəri
Viləşçay
1 İbtidai və torflu dağ-çəmən
2 Çimli dağ-çəmən
3 Bozqır dağ-çəmən
4 Qonur dağ-meşə
5 Sarı-qonur dağ-meşə
6 Sarı dağ-meşə
7 Qəhvəyi dağ-meşə
8 Dağ-qara
9 Dağ-boz qəhvəyi (şabalıdı)
10 Dağ-şabalıdı (boz-qəhvəyi)
11 Psevdopodzollu-sarı
12 Şabalıdı (boz-qəhvəyi)
13 Çəmən-şabalıdı və şabalıdı-çəmən
14 Boz
15 Boz-çəmən
16 Boz-qonur
17 Çəmən-meşə, tuqay
18 Subasar allüvial-çəmən
19 Çəmən-bataqlıq və bataqlıq
Şoranlar və şorakətlər
Qumluqlar

DÜNYA. TORPAQ EHTİYATLARI


KƏND TƏSƏRRÜFATI ƏRAZİLƏRİ
1 Becərilən torpaqlar
2 Becərilən torpaqlar, çəmənlər, otlaqlar
3 Çəmənlər və otlaqlar (quraqlıq vilayətlərdə becərilən torpaq mənbəyi ilə otlaqlar)
4 Maralların otlaqları (tundra)
5 Az becərilən torpaq sahələri və zəif otlaq kimi istifadə olunan ərazilər
6 İstifadə olunmayan və az istifadə olunan torpaqlar
BECƏRİLƏN TORPAQ MƏNBƏYİ İLƏ MEŞƏLƏR
7 Tropikdən kənar
8 Tropik və subtropik
Otlaqların deqradasiyası
QƏRBİ AVROPA
ŞİMALİ AMERİKA
CƏNUBİ AMERİKA
AFRİKA
ASİYA
AVSTRALİYA
ANTARKTİDA
HİND OKEANI
SAKİT OKEANI
ŞİMAL BUZLU OKEANI
ATLANTİK OKEANI
Qrenlandiya (Dan.)
Frans-Iosif Torpağı
Severnaya Zemlya
Novosibir a-n
Vrangel a.
Dikson
Dudinka
Yakutsk
Saxalin a.
Komandor a-ri (Rus.)
Douson
Cuno
Vinnipeq
Prins-Rupert
Vankuver
Sietl
San-Fransisko
Los-Anceles
Nyu-York
Halifaks
Bermud a-ri (Brit.)
Azor a-ri (Port.)
Madeyra a-ri (Port.)
Kanar a-ri (İsp.)
Nassau
Kuba
Puerto-Riko a. (ABŞ)
Meksika körfəzi
Panama kanalı
Karib dənizi
Santu-Antan a.
Santyaqu a.
Sokotra a. (Yəmən)
Andaman a-ri (Hind)
Sumatra a.
Kalimantan a.
Sulavesi a.
Yava a.
Timor
Darvin
Brisben
Sidney
Kanberra
Melburn
Perth
Yeni Kaledoniya a. (Fr.)
Tasmaniya a.
Yeni Zelandiya
Vellinqton
Nukualofa
Tokelau (Yunion) a-ri (Y. Zel.)
Feniks a-ri (Kiribati)
Carvis a-ri (ABŞ)
Samoa
Amerika Samoası (ABŞ)
Çamiyyat a-ri. (Fr.)
Reünyon a. (Fr.)
Madaqaskar a.
Komor adaları
Seyşel adaları
Maskaren a-ri
Amsterdam a. (Fr.)
Kergelan a-ri (Fr.)
Sen Pol a. (Fr.)
Prins-Eduard a-ri (CAR)
Kroze a-ri (Fr.)
Herd a. (Avstral.)
Kempbell a. (Y.Zel.)
Folklend (Malvin) a-ri
Cənubi Georgiya a.
Tristan-da-Kunya a-ri (Brit.)
Qof a. (Brit.)
Trindadi a-ri (Braz.)
Müq. Yelena a. (Brit.)
San-Paulu a-ri (Braz.)
Vozneseniya a. (Brit.)
Qotho (Nuk)
Arxangelsk
Sankt-Peterburq
Murmansk
Yakutsk
Moskva
Samara
Astana
Ulan-Bator
Monqolustan
Qazaxistan
Vladivostok
Pekin
Tokio
Tayvan a. (Çin)
Şanxay
Nyu-Delhi
Hindistan
Mumbai
Şri-Lanka
Kabul
İslamabad
Nepal
Tehran
İran
Bakı
Türkiyə
Parisi
Fransa
Almaniya
Belarus
Ukrayna
İrlandiya
Portuqaliya
Madrid
Cəzair
Liviya
Misir
Çad
Mali
Niger
Liberiya
Nigeriya
Kamerun
Konqo
Angola
Zambiya
Namibiya
Botsvana
Zimbabve
Mozambik
Madaqaskar
Somali
Efiopiya
Keniya
Tanzaniya
Sudan
Cənubi Sudan
Mərakeş
Əlcəzair
Tunis
Meksika
Kuba
Qvatemala
Nikaraqua
Panama
Kolumbiya
Venesuela
Qayana
Surinam
Ekvador
Peru
Boliviya
Braziliya
Çili
Argentina
Paraqvay
Uruqvay
Santyaqo
Buenos-Ayres
Braziliya
Lima
La-Pas
Karakas
Kito
Qayana(Fr.)
San-Tome və Prinsipi
Seneqal
Qambiya
Qvineya-Bisau
Qvineya
Sierra-Leone
Nuakşot
Bamako
Niamey
Abuja
Yaunde
Libreville
Brazzaville
Kinşasa
Luanda
Lusaka
Harare
Maputo
Antananarivu
Mbabane
Maseru
Pretoriya
Keyptaun
Vindhuk
Kabo-Verde
Qahirə
Trablus
Xartum
Cuba
Addis-Abeba
Nairobi
Kampala
Kigali
Bujumbura
Dodoma
Moroni
Port-Luis
Mahe
Malabo
Libreville
Yaunde
Abuja
Niamey
Bamako
Nuakşot
Dakar
Banjul
Bissau
Konakri
Freetaun
Monrovia
Yamusukro
Akra
Lome
Kotonu
Abidjan
Yamusukro
Akra
Lome
Kotonu
Abidjan
Yamusukro
Akra
Lome
Kotonu
Abidjan

aiddir. Bunun üçün müəssisələr və sahibkarlar icarə, alqı-satqı müqavilələri, nizamnamə kapitalına, pay fonduna, rentaya və ömürlük yığıma payın keçirilməsi (və ya ondan istifadə etmək hüququ) vasitəsilə mülkiyyətçilərin torpaq paylarını cəlb edirlər. Paylar ballo hektarlarla nəzərə alınır (hesablanır); cəlb olunan payların miqdarı kənd təsərrüfatı istehsalının hansı sahələrdə aparılmasından asılı olur. Bütün torpaq sahələri auksiona lot formasında çıxarılır. Lot aşağıdakı xarakteristikalarla konkret torpaq sahəsidir: kənd təsərrüfatına yararlı torpaqların sahəsi, tipi, 1 ha torpağın balla qiymətləndirilməsi, ballo hektarla bütün sahənin qiymətləndirilməsi, yerləşməsi. Torpaq lotlarının formalaşması zamanı təsərrüfatdaxili komissiya sahədə meliorasiya sistemlərinin, çoxillik əkmələrin, əkin sahələrinin və ya digər bitməmiş istehsalın olub-olmamasını da göstərir.

Müəssisələr, sahibkarlar sahə üçün sifariş verirlər. Hər bir müəssisənin, sahibkarın sifariş verdiyi ballohektarla sahələrin məcmu qiymətləndirilməsi hər bir iştirakçının topladığı torpaq paylarının ballohektarla məcmu qiymətindən çox ola bilməz. İştirakçıların verdiyi sifarişlərin əsasında torpaq auksionunun protokolu formalaşır. Auksion üç raunddan ibarətdir. Birinci raunda bir sifarişdən çox daxil olan lotlar düşür. İkinci raunda bir sifarişin daxil olduğu lotlar düşür. Üçüncü raunda sifariş daxil olmayan lotlar düşür. Start qiyməti – torpaq müqayisəsinə görə müəyyən edilən 1 hektara görə balla qiymətləndirmədir. Torq (müzaidə) 1 hektara görə balla müəyyən olunur. Torpaq auksionu qaydaları elə tərtib edilmişdir ki, onun sonunda bütün ballohektarlar istifadə edilmişdir və bütün lotlar iştirakçılar arasında istifadə edilmişdir.

TORPAQ BANKI – əsasən, torpağın girovuna görə uzunmüddətli ssudalar verən bank.

TORPAQ BAZARI – torpaq dövriyyəsi proseslərində torpaq sahələrinin alqı-satqısı, girov qoyulması, bağışlanması, habelə mülkiyyət, istifadə və icarə hüquqlarının digər formalarda dəyişməsi ilə bağlı dövlət orqanları, bələdiyyələr, fiziki və hüquqi şəxslər arasında yaranan iqtisadi və hüquqi münasibətlər.

TORPAQ EHTİYATLARI – istifadə olunan və ya istifadə oluna bilən torpaqlar.

TORPAQ İCARƏSİ – müqavilə əsasında əvəzi ödənilməklə torpaqdan müddətli istifadə.

TORPAQ MÜLKİYYƏTİ – torpağın tarixən müəyyən ictimai (fərdi və ya kollektiv) formada müddətsiz mənimsənilməsi (sahiblənməsi).

Torpaq mülkiyyətinin əsasında, ümumiyyətlə, torpağın məhdudluğu durur. Müəyyən tarixi mərhələlərdə ona inhisar formasında yiyələnməsi (sahib olması), torpaq rentası alınması hüququnu verir ki, bu da torpaq mülkiyyətinin iqtisadi ifadəsidir. İctimai (dövlət, icma və s.) və xüsusi torpaq mülkiyyəti fərqləndirilir. Aqrar sferada torpağa sahiblik və özgəninkiləşdirmə hüququna malik torpaq mülkiyyətçisi və torpaqdan istifadə hüququna malik icarədar ayrılır. Onlar arasında iqtisadi münasibətlər icarə haqqı kateqoriyası ilə ifadə olunur.

Azərbaycanda torpaq mülkiyyəti Konstitusiya, Torpaq Məcəlləsi, "Aqrar islahatların əsasları", "Torpaq islahatı haqqında", "İcarə haqqında", "Kolxoz və sovxozların islahatı haqqında" və digər qanunlarla tənzimlənir.

TORPAQ PAYI – bir mülkiyyətçiyə ayrılan torpaq massivi; mülkiyyətçilər kollektivinin ümumi pay mülkiyyətinə verilən kənd təsərrüfatına yararlı torpağın bir hissəsi. Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə görə, islahat zamanı torpaq payını aşağıdakılar əvəzsiz olaraq əldə edə bilərlər: təsərrüfatın daimi işçiləri; təsərrüfatın ərazisində yaşayan təqaüdçülər; təsərrüfatın ərazisində yerləşən sosial sfera obyektlərinin işçiləri və s.

TORPAQ RENTASI – torpaq sahəsinin istifadəçisi (icarəçi) tərəfindən onun sahibinə (icarəyə verənə) ödənilən pul məbləği. Torpaq rentasının formaları:

Mütləq torpaq rentası – torpaq üzərində mülkiyyətdən əldə edilən gəlirin bir növü. Torpaq mülkiyyətçisinin torpağa tətbiqən kapitaldan istifadə edilməsinə icazə verdiyinə görə ona ödənilən haqq. Mütləq torpaq rentası icarəçi tərəfindən istifadə edilən torpaq sahələrinin münbitliyindən və mövcud resurslardan asılı olmayaraq bütün torpaq sahələrinə görə ödənilir. Mütləq torpaq rentası torpaq üzərində xüsusi və ya dövlət mülkiyyətinin inhisarı ilə şərtlənir;

2. Diferensial torpaq rentası –

torpaq sahəsinin daha məhsuldar olması və əmək məhsuldarlığının artırılması sayəsində əldə edilən əlavə gəlir.

Diferensial torpaq rentasının iki forması ola bilər:

1) nisbətən yaxşı və orta münbitlikli torpaqlarda yüksək məhsuldar əmək hesabına, eləcə də torpaq sahələrinin satış bazarlarına, nəqliyyat yollarına, müəssisələrə və başqa obyektlərə münasibətdə yerləşməsindəki fərqlər hesabına yaranan renta;

2) müəyyən torpaq sahəsinə gələcəkdə əlavə mənfəət alınmasını təmin edən əlavə kapital qoyuluşları ilə əlaqədar renta.

Diferensial renta torpaq resurslarının məhdudluğunun nəticəsidir: kənd təsərrüfatı məhsullarının istehsal qiyməti orta və ya yaxşı sahələrdə deyil, ən pis sahələrdə istehsal şərtləri ilə müəyyən edilir, çünki tədiyə qabiliyyətli bütün tələbin ödənilməsi üçün təkcə orta və yaxşı torpaq sahələrində istehsal edilmiş məhsul kifayət etmir. Ən pis torpaq sahələrindən də istifadə edilməlidir. Diferensial renta ən pis torpaq sahələrində istehsalın qiyməti ilə orta və yaxşı torpaq sahələrində istehsalın fərdi qiyməti arasındakı fərq kimi yaranır (bu, bir növ uduşdur).

Diferensial rentanın mövcud olması kənd təsərrüfatı məhsulları istehsalının müstəsna şərtləri üzərində inhisarçılıqla bağlıdır. İnhisarçı torpaq rentası rentanın bu növünün xüsusi formasıdır. Bu gəlir kənd təsərrüfatı məhsullarının müəyyən növünün inhisar qiyməti olan və həmin malların bazar dəyərindən xeyli yüksək olan qiymətə satılması hesabına yaranır. Bu qiymətin yuxarı həddi yalnız tədiyə qabiliyyətli tələbatın səviyyəsi ilə məhdudlaşır.

Sənaye məqsədləri üçün, məsələn, faydalı qazıntılar hasilatı, tikinti və s. məqsədlərlə istifadə edilən torpaqlardan alınan renta da torpaq rentasına aiddir.

TORPAQ SAHƏLƏRİNİN BALANSI – torpağı, torpaqdan istifadə edənlərin kateqoriyasını, növləri üzrə torpaq sahələrinin həcmini və onların dəyişməsini xarakterizə edən göstəricilər sistemi. Kənd təsərrüfatı istehsalı ilə məşğul olan müəssisələr hər il torpaq sahələri balansını, o cümlədən suvarılan və qurudulan torpaq sahələri balansını tərtib edirlər.

TORPAQ TUTUMLU ƏMTƏƏ – kənd təsərrüfatında əmtəənin istehsal edilməsi üçün torpağın tutumluluğu xeyli dərəcədə bilavasitə kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı ilə bağlıdır.

TORPAQ VERGİSİ – torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq, torpaq sahəsinə görə hər il sabit şəkildə tutulan vergi.

TORPAQ, ONUN TƏRKİ, TƏBİİ RESURSLAR ÜZƏRİNDƏ MÜLKİYYƏT – torpağın, onun təkinin və onunla əlaqədar təbii resursların, məsələn, suyun mənimsənilməsi, istifadəsi və sərəncam verilməsinə görə insanlar arasında meydana gələn iqtisadi, mülki-hüquqi və əmlak münasibətləri sistemi. Torpaq üzərində mülkiyyət hüququnun konkret iqtisadi reallaşması forması kimi torpaq rentası çıxış edir.

TORPAQŞÜNASLIĞIN BEYNƏLXALQ İTTİFAQI (İUSS) – 1924-cü il mayın 19-da İtaliyanın Roma şəhərində torpaqşünaslıq üzrə dördüncü beynəlxalq konfransda yaradılmışdır. Torpaqşünaslığın bütün sahələrinin inkişafı və alınan nəticələrin praktikada tətbiqinin dəstəklənməsi, torpaqşünaslığın problemlərini öyrənən, bu sahədə olan nailiyyətlərin tətbiqi ilə məşğul olan alimlər və digər kateqoriya işçilər arasında əlaqələrin təmini məqsədilə beynəlxalq torpaqşünaslıq konfransında təsis edilmişdir.

TOTALİZATOR – 1. Azartlı oyunlar keçirilən müəssisə, burada iştirakçılar mümkün oyun variantına, idman və ya başqa sosial əhəmiyyətli vəziyyətə, real, sənədli faktlarla təsdiqlənən proqnozla tam və ya qismən üst-üstə düşməsindən asılı olan qələbəyə proqnoz verirlər. 2. Dərəcələrin qeydiyyatına xidmət edən texniki qurğu.

TOVALOP SAZİŞİ – neftin çirklənməsi nəticəsində dəymiş zərərə görə mülki məsuliyyət haqqında 1969-cu il iyunun 19-da qüvvəyə minən Beynəlxalq Konvensiya. Konvensiyanın şərtlərinə uyğun olaraq ona qoşulan ölkələrin hökumətləri müvafiq sığorta və ya digər maliyyə zəmanətlərinin mövcudluğunu təsdiq edən sertifikatı bortunda 2 min tondan artıq nefti olan hər bir gəmiyə verməlidir. Bu cür sertifikat olmadan gəmilər Konvensiyanı imzalayan ölkələrin limanları arasında neft və neft məhsullarını daşıya bilməz. Bu vəziyyəti nəzərə alaraq tankerlərin sahibləri öz aralarında 1969-cu ildə



İspaniya sahillərində "Prestij tankeri"nin qəzaya uğraması nəticəsində neftin dənizə dağılması (2002)

suların neftlə çirklənməsinə görə məsuliyyət haqqında könüllü saziş (TOVALOP) imzaladılar.

TÖHFƏ – təsbit olunmuş müddətin sonunda və ya bu müddətə qədər ölüm baş verərkən ödənilən sığorta məbləği.

TÖRƏMƏ BANK – nizamnamə kapitalında səsvermə hüququ verən səhmlərin əllidən çox faizi təsisçi banka və ya bank-holdinq şirkətinə məxsus olan bankdır. Yaxud elə bankdır ki, onunla təsisçi bank və ya bank-holdinq şirkəti arasında bağlanmış müqaviləyə əsasən təsisçi banka və ya bank-holdinq şirkətinə onun qərarlarının qəbul edilməsinə mühüm təsir göstərmək imkanı verir.

TÖRƏMƏ CƏMİYYƏT – qanunvericilik məqsədləri üçün idarə edilməsində əsas təsisçisinin (səhmdarının) əhəmiyyətli nəzarətə malik olduğu hüquqi şəxs.

TÖRƏMƏ GƏLİR – ilkin gəlir bazasında gəlirin bir hissəsinin onun bəzi sahiblərindən başqalarına verilməsi yolu ilə yaranan gəlir.

İqtisadiyyatda gəlirlərin daxilolmalarının və verilməsinin müsbət və mənfi saldosu yaranır, çünki verilmiş və alınmış gəlirlərin ümumi məbləğləri üstüstə düşür, gəlirlərin sahiblərinin hər biri üzrə bu məbləğlər isə kəskin şəkildə fərqlənir. Milli hesablar sistemində gəlirlərin sahibləri institusional vahidlər və ya onların məcmuları (iqtisadiyyatın sektorları) olur. Dünya xalq təsərrüfatı balansında gəlirlərin saxlayıcıları rolunda əhali və dövlət (dövlət büdcəsi), eləcə də müxtəlif mülkiyyət formalı müəssisə və təşkilatlar çıxış edir.

Törəmə gəlirlərə aşağıdakılar aiddir: vergilər, sığorta müqavilələri üzrə ödəmələr, istehsalat üçün dövlət subsidiyaları, ayrı-ayrı sosial qruplara ödənilən pensiyalar və müavinətlər, ev təsərrüfatlarına pulsuz və (və ya) güzəştli qiymətlərlə xidmətlər göstərilməsi, natural və pul şəklində ifadə edilən sair sosial transfertlər.

TÖRƏMƏ QİYMƏTLİ KAĞIZLARI – fyuçerslər, opsionlar və qanunvericiliklə müəyyən edilmiş digər qiymətli kağızlar.

TÖRƏMƏ TƏLƏB – digər mala tələbdən törəmə olan müəyyən mala tələb. Məsələn, xarrat məmulatlarına olan tələb, heç olmazsa, qismən yeni evlərə olan tələbdən asılıdır.

TÖRƏMƏ TƏSƏRRÜFAT CƏMİYYƏTİ – təsərrüfat cəmiyyəti o halda törəmə cəmiyyət sayılır ki, digər (əsas) təsərrüfat ortaqlığı və ya cəmiyyəti onun nizamnamə kapitalında üstün iştirakına görə və ya onlar arasında bağlanmış müqaviləyə müvafiq surətdə həmin cəmiyyətin qəbul etdiyi qərarları müəyyənləşdirmək imkanına malik olur.

TÖVSİYƏ EDİLƏN ALICILAR – məhsulunun potensial istehlakçıları kimi təşkilata tövsiyə edilən alıcılar.

TRAFİK – elektrorabitə şəbəkəsi üzrə ötürülən məlumatlar məcmusu.

TRAKTASİYA – sazişlərin bağlanmasında əlaqəsi olanların, alıcıların və ya satıcıların imkanını aydınlaşdırmaq məqsədilə malın satılması və ya alınması haqqında ilkin təklif.

TRAMVAY BONLARI – ilkin ödənişdən sonra verilən, tramvay və digər nəqliyyat növləri tərəfindən istifadə olunma hüququ. Sərnişinlər tərəfindən ödənişin yüngülləşməsi üçün buraxılır. "Bonlar" termini həmçinin istifadə edilməkdən çıxarılan və kolleksiya predmeti olan



kağız pullara münasibətdə tətbiq edilir.

TRANSAKSİYA MƏSRƏFLƏRİ – əqdlərin icrasına çəkilən məsrəflər. Belə məsrəflərə investisiya strategiyasının reallaşdırılmasına çəkilən məsrəflər, o cümlədən komisyon mükafatları, icraetmə məsrəfləri və alternativ məsrəflər aid edilir.

TRANSAKSİYALI TƏLƏB NƏZƏRİYYƏLƏRİ – bu nəzəriyyələr əhalinin əlində olan nağd pul barədə qərar qəbul etməsi amillərini aşkar edir və pulun tədavül vasitəsi funksiyasını fərqləndirir.

TRANSFERLƏR (ƏVƏZSIZ KÖÇÜRMƏLƏR) – hüquqi və fiziki şəxslərin birinin digərinə, əvəzi ödənilməmək şərtilə əmtəə, xidmət və yaxud aktivlər (maliyyə və qeyri-maliyyə) verməsi əməliyyatını (köçürülməsini) səciyyələndirir. MHS-də istifadə edilən göstərici.

TRANSFERT (ing. *transfer* – ötürmə; lat. *transfere* – köçürmə, keçirmə, aparmaq) – səhmdar sertifikatının satıcı brokerdən alıcı brokerə çatdırılması və mülkiyyət hüququnun alıcıya keçməsi. Səhmlər barəsində mülkiyyət hüququnun keçməsinin səhmdar cəmiyyətinin kitablarında qeydiyyata alınması; yeni səhmdarın adı qeyd edilməndən sonra emitent tərəfindən qiymətli kağızların saxlayıcılarına göndərilən dividendlər, səhmdarların yığıncaqları barədə məlumatlar və bütün başqa informasiya bilavasitə həmin qiymətli kağızların yeni sahibinə göndərilir. Xarici valyutanın və ya qızılın bir ölkədən başqa ölkəyə köçürülməsi. Ümumi milli məhsulun yenidən bölüşdürülməsi prosesində dövlətin iqtisadi agentlərə təmənnasız ödəmələri. Bu termin transfer şəklində də yazıla bilər. Transfert pulun bir maliyyə idarəsindən başqasına və ya ölkədən ölkəyə köçürülməsi deməkdir.

TRANSFERT-AGENT – qiymətli kağızlar bazarının peşəkar iştirakçısı; qeydiyyatçı ilə müqaviləyə əsasən qiymətli kağızların sahiblərindən və ya onların müvəkkil etdikləri nümayəndələrindən reyestrə dəyişikliklər edilməsi üçün zəruri olan informasiyanın və sənədlərin qəbul edilməsi və onların qeydiyyatçıya verilməsi funksiyalarını, eləcə də qeydiyyatçıdan informasiya və sənədlərin qəbul edilməsi və qeydiyyatçıdan alınmış informasiya və sənədlərin qiymətli kağızların sahiblərinə və ya onların səlahiyyətli nümayəndələrinə verilməsi funksiyalarını yerinə yetirən hüquqi şəxsdir Transfert-agent qeydiyyata alınmış şəxslərin şəxsi hesablarının açılması, bu hesabların aparılması əməliyyatlarını və reyestrdə başqa əməliyyatları yerinə yetirmir.

TRANSFERT QİYMƏT – bir şirkətin gəlir gətirən struktur bölmələri arasında qarşılıqlı hesablaşmalar üçün istifadə olunan qiymət. Bəzən digər ölkə ilə müqayisədə bir ölkədə yüksək olmayan vergilərin üstünlüklərinin istifadə olunması üçün tətbiq olunur.

TRANSFER RİSKİ – maliyyə-bank sistemində risklərin bir növü də transfer risk hesab edilir. Transfer risk dövlətin riski ilə bağlı olan komponentdir. Borclu tərəfin yaşadığı dövlətin siyasəti və ya orada mövcud olan iqtisadi vəziyyət hərdən onun borclarına xidmət olunması üçün tələb olunan valyutanı almağa maneçilik törədir.

Risk kreditorun vəziyyətini pisləşdirə bilər.

TRANSFORMASİYA OLUNAN LİDERLƏR – menecerlər və təşkilat rəhbərləri istehsal funksiyalarını yerinə yetirməklə məşğul olsalar da, bəzən bu iki işin bir əldə cəmlənməsinə zərurət yaranır. Bu tələbləri transformasiya olunan liderlər yerinə yetirirlər. Onlar bir növ xarizmatik liderləri xatırlatsalar da, rəhbərliyə adətən strateji dəyişikliklər zamanı cəlb edilirlər.


TRANSMİLLİ BANK (ing. *transnational bank*) – əməliyyatları müxtəlif ölkələrdə, sferalarda və valyutalarda həyata keçirən, geniş şəbəkədə filiallara malik olan universal tipli beynəlxalq maliyyə-kredit kompleksi. Transmilli banklar sənaye inhisarları ilə çulğalaşma sayəsində dünya borc kapitalları və maliyyə-kredit xidmətləri bazarının iqtisadi cəhətdən bölüşdürülməsində fəal iştirak edir. Transmilli bankın dünya borc kapitalı bazarında inhisarlaşması ona mərkəzləşdirilmiş rəhbərlik, baş idarənin vahid strategiyası və taktikası sayəsində iri olmayan banklara öz şərtlərini diktə etməyə imkan verir. Dünya borc kapitalları bazarına borc alanların əlyetərliliyi məhdudlaşıb və diferensiallaşıb. Bu bazarda əsas borc alanlar transmilli korporasiyalar (TMK), hökumətlər, beynəlxalq valyuta-kredit və maliyyə təşkilatlarıdır. Transmilli banklar beynəlxalq əməliyyatların əsas hissəsini öz əlində cəmləşdirən dünya maliyyə mərkəzlərinə meyil edir. Transmilli bankların şöbələri (filialları), onların hüquqi cəhətdən sərbəst xarici bölmələri təsisçi bankların tərkib hissəsidir. Xarici şəbəkənin formalaşmasında maliyyə metodu transmilli banka xarici maliyyə-kredit şirkətlərinin kapitalına nəzarət etməyə imkan verir. Tam nəzarət olunan şirkət özünün nizamnaməsinə, kapitalına, firma adına malikdir, balansı təsisçidən ayrı aparır. Lakin o, bütün mənfəəti öz təsisçisinə keçirməlidir. Xarici ticarətə nisbətən üstün olan kapital mübadiləsinə xidmət transmilli bankın balanslarının həm passiv, həm də aktiv tərəfinə öz izini qoyur. Depozitlərin nəzərə çarpan hissəsi həmçinin bankın daxilində ssudalaşmaq nəticəsində transmilli bankların özlərinin çərçivəsində borc kapitalının ümumi fondunun yenidən bölgüsü hesabına əmələ gəlir. Transmilli bankın strategiyası xarici ticarət dövriyyəsi vasitəsi ilə izafi dəyərin reallaşmasına xidmət göstərməklə bitmir, əksinə, transmilli bankın kapitalının dövriyyəsinin bütün mərhələləri ilə kreditləşməni əlaqələndirir.

Transmilli bankın genişlənən fəallığının istiqamətlərindən biri – emissiya-təsisat və vasitəçilik işidir. Transmilli banklar beynəlxalq birja ticarətinin ən iri mərkəzlərində – Nyu Yorkda, Londonda, Tokioda əməliyyatlar aparır; TMK-lar, hökumətlər, dövlətlərarası təşkilatlar, beynəlxalq bankların özləri üçün iri istiqrazların buraxılması və yerləşməsi məqsədilə bir sıra bank birliklərinə, beynəlxalq emissiya konsorsiumlarına qovuşmuşdur. Transmilli bankın investisiya strategiyasına bütün çoxcəhətli vasitəçi emissiya əməliyyatları aid edilir: beynəlxalq istiqrazların buraxılışı, öz hesabına və ya müştərilərin tapşırığı ilə qiymətli kağızlarla ticarətin aparılması, investorlara məsləhətlərin verilməsi, qiymətli kağızların məzənnəsinin dəyişməsində uzunmüddətli meyillərin tədqiq edilməsi.

Maliyyə-valyuta sisteminin qeyri-sabitliyi şəraitində vasitəçilik birbaşa bank kreditləşməsi ilə müqayisədə üstünlüyə malikdir. Belə ki, kommersiya riski qiymətli kağızların son sahiblərinin üzərinə qoyulur.

Pensiya və digər fondların idarə edilməsi üzrə vəkalət əməliyyatları əhalinin geniş təbəqələrinin gəlirlərinə, pərakəndə xidmətlər bazarında fəaliyyətin aktivləşdirilməsinə transmilli banklar üçün yol açır. Transmilli bankda kütləvi müştərilərlə əməliyyatlardan əldə edilən mənfəətin xüsusi çəkisi ümumi (məcmu) kreditlərlə əhaliyə verilən ssudaların xüsusi çəkisinə nisbətən yüksəkdir.

Transmilli bank üçün vacib şərt – məcmu gəlirdə bilavasitə xaricdəki əməliyyatlardan əldə olunan mənfəətin sabit və yüksələn xüsusi çəkisi, bütövlükdə bankın fəaliyyətinin məhsuldarlığına bu cür gəlirlərin əhəmiyyətli təsiridir. Transmilli bankın gəlirlərinin strukturunda onların fəaliyyətinin çoxfunksiyalı, diferensifikasiyalı xarakteri əks olunur. Faizsiz xarici gəlirlər, yəni faiz gəlirinə münasibətdə kreditləşmə ilə əlaqədar gəlirlər artır. Transmilli banklar Avropa valyutaları və fond dəyərləri bazarında fəaliyyət göstərir, valyuta möhtəkirliyində iştirak edir.


Ümumi gəlirlər, alınmış rəsmi transferlər
Ümumi gəlirlər
Alınmış rəsmi transferlər
Cari gəlirlər
Əsaslı gəlirlər
Daxili
Xarici
Vergi gəlirləri
Qeyri-vergi gəlirləri
Cari
Əsaslı
ƏDV, mənfəət vergisi, kapitalın bazar dəyərinin artırılmasına vergilər
Sosial sığorta ayırmaları
Əmək haqqı üzrə vergilər
Mülkiyyət vergiləri
Xidmət və əmtəələrə daxili vergilər
Xarici ticarət vergiləri
Digər vergilər
Mülkiyyətdən və sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlər
İnzibati yığım və ödənişlər, qeyri-kommersiya və digər satışdan əldə edilən gəlirlər
Cərimə və sanksiyalardan daxilolmalar
Pensiya fonduna və dövlət sektorunda qulluqçuların sosial təminatına ayırmalar
Digər qeyri-vergilər
Satışdan əldə olunan gəlirlər
Dövlət ehtiyatlarının və mallarının satışından əldə olunan gəlirlər
Torpaq və qeyri-maddi aktivlərin satışından əldə olunan gəlirlər
Qeyri-dövlət mənbələrindən əsaslı transferlər
Dövlət maliyyəsinin beynəlxalq statistikasında dövlət büdcəsi gəlirlərinin və alınmış rəsmi transferlərin təsnifatlaşdırılması

Sxem 1

TRANSMİLLİ KORPORASİYA (TMK) – xarici investisiya fəaliyyətini birbaşa həyata keçirən şirkət; başqa sözlə, öz əməliyyatlarının əsas hissəsini ölkənin sərhədlərindən kənarda həyata keçirən şirkət. TMK-nın ölkə mənsubiyyəti onun mənzil-qərargahının yerləşdiyi ölkəyə əsasən müəyyən edilir. Tədiyə balansı baxımından, əsasən investor ölkənin rezidentlərinin mülkiyyətində olan xarici müəssisəyə hər hansı kreditlər verilməsi və ya həmin müəssisənin səhmlərinin (nizamnamə kapitalındakı payının) alınması (portfel investisiyasından fərqli olaraq) birbaşa xarici investisiyadır. Müəssisəyə nəzarətin bu kritik dərəcəsi ölkələr üzrə fərqlənir. Belə ki, ABŞ-da nizamnamə kapitalının 10%-nə investorun malik olduğu və ya onun aldığı, yaxud investorun yerləşdiyi ölkədən olan mülkiyyətçilər qrupunun nəzarət paketinə malik olduğu müəssisəyə hər hansı sərmayə qoyuluşu, hətta ayrıca götürülmüş investorun malik olduğu səhm paketinin həcmi nizamnamə kapitalının 10%-dən çox olmadıqda belə, formal baxımdan birbaşa xarici investisiyalaşdırma hesab edilir.

Birbaşa investisiyalaşdırma heç də həmişə kapitalın birbaşa yerdəyişməsini nəzərdə tutmur. Bəzən "ana şirkət" bütün zəruri maliyyə resurslarının hamısını qəbuledici ölkədə alır, bu halda öz ticarət markasından, idarəetmə texnologiyalarından və digər qeyri-maddi aktivlərindən istifadə edir. Filial rentabelli olduqda o, öz mənfəətini və yenidən kredit kimi alınmış vəsaitləri sərmayə qoymaq hesabına genişlənməyə başlayır, mənfəətin bir hissəsi isə investisiyaları, demək olar ki, nəzərə çarpmayan "ana şirkət"ə köçürülür. Maliyyə kapitalının adi yerdəyişməsi ilə müqayisədə idarəetmə xidmətləri üçün müqavilənin üstün tutulmasının ən ehtimallı səbəbi ölkəyə kapital axını tükəndikdə və onun ölkədən axını (dividendlər və ya faizlər şəklində) başlandıqda ekspropriasiya tədbirlərinin və ya yüksək vergilərin tətbiq edilməsi qorxusudur.

Müharibədən sonrakı ilk illərdə birbaşa investisiyalaşdırma çox sürətlə artırdı. O dövrdə ABŞ ən iri investor idi. 70-ci illərin əvvəlindən etibarən xarici investisiya qoyuluşlarının artımı ləngidi və bu prosesin istiqaməti dəyişdi. İnvestisiyaların getgedə daha az hissəsi inkişaf etməkdə olan ölkələrə, daha çox hissəsi isə ABŞ, AİB üzvü olan ölkələrə və ÇXR-ə yönəldilirdi. 80-ci illərin əvvəlində beynəlxalq tədiyə böhranından sonra bu meyil daha da gücləndi. Şərqi Avropada və SSRİ-də kommunist rejimlərinin süqutundan sonra birbaşa xarici investisiyalar bir qədər həmin ölkələrin xeyrinə yenidən bölüşdürüldü. TMK-ların fəaliyyətinə münasibət müxtəlif ölkələrdə müxtəlif olub, çox vaxt həmin ölkələrin netto kapital ixracatçıları və ya idxalatçıları olmasından asılıdır. Baza ölkəsi birbaşa xarici investisiyalar qoyulması ilə məşğul olarkən, fundamental bazar iqtisadiyyatı prinsipləri əsasında investorlar özləri baza ölkəsinin tamhüquqlu vətəndaşları kimi səs hüququnu saxladıqları müddətdə qazanc əldə edirlər. Əgər həmin investorların bu cür hüquqları yoxdursa, yaxud onların investisiyalar hesabına əldə etdikləri gəlir millətin birbaşa investisiyadan əldə etdiyi qazancın məbləğindən çıxılırsa, onda birbaşa investisiyaların baza ölkəsindən axması nəticəsində həmin ölkə zərərə düşür.

Qəbul edən ölkələrin birbaşa investisiyalar axınını məhdudlaşdırması üçün səbəblər baza ölkəsi ilə müqayisədə qat-qat azdır. Yeni texnologiyalar (o cümlədən, idarəetmə texnologiyaları) almaq imkanı məşğulluğun, eləcə də istehsalın həcminin və vergi yığımlarının artması sərt vergitutma qaydaları tətbiq etmək əvəzinə, birbaşa investisiyalar axınını stimullaşdırmaq istəyi yaradır. Bununla bərabər, nəzərə almaq lazımdır ki, bəzi hallarda TMK-ların fəaliyyəti yerli müəssisələrin "boğulmasına", milli iqtisadiyyatın inkişafının məhdudlaşmasına gətirib çıxara bilər və bu halda siyasi münaqişələr təhlükəsi yaranır.

TMK-ların sayı sürətlə artır: 1970-ci ildə dünyada 7,3 min TMK var idi, onların dövriyyəsi 626 mlrd. dollar təşkil edirdi. 90-cı illərin əvvəllərində onların sayı 37 min, dövriyyəsi 7 mlrd. dollar təşkil edirdi, dünya üzrə sayı isə 82 min idi ki, onların da dövriyyəsi 30 trln. dollardan artıq idi. TMK-ların əksəriyyəti sənaye şirkətləridir ("Toyota Motor Corporation", "Ford Motor Company", "General Electric") (bax: cədvəl 1).

Müasir mərhələ üçün inkişaf etməkdə olan bazarlar və keçid iqtisadiyyatı yaşayan ölkələrdə

Cədvəl 1

XX əsrin sonu – XXI əsrin əvvəllərində transmilli korporasiyaların təkamülü

Ölkə	İlkin vəziyyət	İnstitusional transformasiyanın istiqaməti	Birbaşa xarici investisiyaların (BXİ) və birləşmələrin istiqaməti	Menecment və strukturun dəyişməsi
ABŞ	Maliyyə koalisiyası, TMK-ın bir-biri ilə sıx əlaqələrinin olması. TMK əsasən kütləvi istehsal sahələrində mövcuddur.	Qlobal şirkətlərin "yeni iqtisadiyyata" çevrilməsi. Ənənəvi şirkətlər qlobal şirkətlərə çevrilməyə çalışır.	BXİ əsasən xidmət sahəsinə istiqamətlənir, baxmayaraq ki, bütün dünyada onların digər sahələrə də yönəldilməsi saxlanılmaqdadır. Yaponiya və Cənubi Koreyanın şirkətləri alınır. ABŞ TMK-sı isə Avropa TMK-sı tərəfindən udulur. Qlobal şirkətlərin daxili alyansları yaranır.	Strukturun qloballaşması, geomərkəzi beynəlxalq kollektiv, virtual şirkətlər, əmtəə üzrə idarəetmə.
AFR	Banklarla sıx əlaqədə olan məhdud sayda iri şirkətlər. Konqlomeratlar əksəriyyət təşkil edir. Şirkətlərin səhmləri əsasən banklara məxsusdur. Dövlətin rolu böyükdür.	Konqlomeratlar öz yerlərini dar ixtisaslaşmış konsernlərə verir, TMK-la bankların əlaqələri zəifləyir. Qlobal şirkətlər azlıq təşkil edir.	Şirkətlərin əsas fəaliyyət sahəsi BXİ-dir. Bu, özünü xüsusən Avropa və ABŞ-da göstərir. Avropa, ABŞ və Cənubi-Şərqi Asiya ölkələri şirkətlərinin aktiv birləşdirilməsi və udulması.	
Fransa	Şirkətlər ənənəvi olaraq xarici şirkətlərlə (əsasən ingilis-Amerika) birləşmələrdən qaçır. Dövlətin rolu böyükdür.	Metakorporasiyaların milli sisteminə xarici kapital daxil olur.	Avropa ölkələrinin (xüsusən də Almaniya ilə) şirkətləri ilə inteqrasiya gedir.	
Yaponiya	Əsasını ağır sənaye təşkil edən altı paralel iqtisadiyyat – südanlar. Oliqopolistik struktur, bankların və ticarət şirkətlərinin sərt nəzarəti.	Südanlar böhranla əlaqədar olaraq ciddi ziyana düşür, "yeni iqtisadiyyat" fəal inkişaf edir, lakin qlobal şirkətlər rüşeym halında mövcuddur.	ABŞ və Avropa şirkətləri ilə alyanslar. Daha səmərəli istehsalı təşkil etmək üçün BXİ-dən fəal istifadə olunur.	Strukturun regionlaşması və xarici menecerlərin idarə etməyə buraxılması.

Cənubi Koreya	Dövlətlə sıx əlaqədə olan, intensiv inkişaf edən ailə konqlomeratı – çebol sistemi.	Çebollar məhv olur, dövlət tərəfindən onların bərpası üçün tədbirlər görülür.	BXİ-dən elə də fəal istifadə olunmur. Şirkətlər ABŞ və Avropa TMK tərəfindən alınır.	
Böyük Britaniya	I və II nəsil TMK-nın rolu böyükdür. ABŞ TMK ilə sıx əlaqələr mövcuddur.	TMK modernləşir, qlobal şirkətlər yaranır, ABŞ TMK ilə sıx əlaqələr saxlanılır.	ABŞ TMK ilə birləşmə.	Xarici menecerlərin TMK-nın idarə edilməsinə cəlb olunmasının yüksək səviyyəsi.
Meksika	Dövlətin sərt nəzarəti altında olan nəhəng maliyyə-sənaye qrupları (MSQ).	Liberallaşma nəticəsində aparıcı MSQ güclənir və TMK yaranır.	BXİ-nin ABŞ-ın cənub ştatlarında və Latın Amerikası ölkələrində fəallaşması.	

olan TMK-lar xarakterikdir ki, bu da qloballaşmanın həmin dövlətlərin iqtisadiyyatlarına təsiri ilə şərtlənir.

1990-cı illərin əvvəllərində inkişaf etmiş ölkələrdə TMK-ların 90%-ə qədər ana şirkətləri yerləşirdi və 50%-ə qədər xarici filialları fəaliyyət göstərirdi. İnkişaf etməkdə olan (o cümlədən, keçid iqtisadiyyatlı ölkələrdə) ölkələrdə isə bu göstərici müvafiq olaraq 12 və 43% idi. 1990-cı illərin ikinci yarısından bu ölkələrin TMK-larının fəaliyyətinin aktivləşməsi müşahidə olunur. Belə ki, 2008-ci ildə onların dünya TMK ana şirkətlərinin ümumi sayında payı 28,4% (inkişaf etməkdə olan ölkələrdə 26,4%, keçid iqtisadiyyatlı ölkələrdə 2%), törəmə şirkətlər və filiallarda isə 55%-ə qədər artdı (müvafiq olaraq 53 və 2%).

TMK-ların fəaliyyətinin genişlənməsi ilə dünya bazarında ümumi rəqiblər qarşısında (Aİ, NAFTA, ASEAN və başqaları) qlobal üstünlüklərə nail olmaq məqsədilə müxtəlif ölkələrin dövlətlərarası ittifaqlarının mərhələlərlə inkişafı baş verir.

Regional, dövlətlərarası səviyyədə inteqrasiya prosesləri tədricən ayrı-ayrı milli iqtisadiyyatların əhəmiyyətinin zəifləməsinə gətirir. Bu prosesə təsərrüfat fəaliyyətinin şərtlərinin unifikasiyası fəal kömək edir və burada artıq yarım əsrdən artıqdır ki, əsas rolu GATT/ÜTT oynayır. Bununla əlaqədar olaraq, beynəlxalq ticarətin intensivləşdirilməsi qloballaşma prosesinin ən mühüm amillərindən birinə çevrilir.

Praktiki olaraq dünyanın bütün ölkələrində ticarət iqtisadiyyatın nisbətən təcrid olunmuş sahələrindən təsərrüfat prosesinin ümumi elementinə çevrilmişdir. 1990-cı illər ərzində mallarla beynəlxalq ticarət 60% artmışdır. Halbuki məcmu dünya istehsalının miqyasları yalnız 20% yüksəlmişdir. 2001-ci ildə mal və xidmətlərin ixracının illik həcmi 7,615 trln. dollar təşkil etmiş, 2008-ci ildə isə 62% artaraq 19,695 trln. dollara çatmışdır. Həmin dövrdə məcmu dünya mal və xidmətlər istehsalı 35% artmış, dünya ümumi daxili məhsulunun (DÜDM) real həcmi yalnız 15% artmışdır. Bəzi qiymətləndirmələrə görə, hazırda dünyanın bütün ölkələrində emal sənayesində məşğul olanların 45%-i və xidmətlər sahəsində çalışanların təxminən 10-12%-i birbaşa və ya dolayısı ilə xarici ticarətlə əlaqədardır.

Dünya üzrə korporasiyanın müəssisələrində məşğul olanların sayı 2008-ci ildə 77 mln. nəfərə çatmışdır ki, bu da Almaniyanın əmək qabiliyyətli əhalisindən iki dəfə artıqdır. 200 qabaqcıl TMK-ların ümumi satış həcmi dünyanın 187 ölkəsinin məcmu ÜDM-dən çoxdur ki, bu da dünya əhalisinin üçdə birindən az məşğul əhali ilə dünya ÜDM-nin 30%-dən çoxunu təşkil edir. Müasir şəraitdə texnoloji yeniliklərin qlobal infrastrukturu gələcək inkişafa qədəm qoymuşdur. 90-cı illərdən başlayaraq, ETTSİ-ə qlobal

xərclər artmağa başlayaraq 2002-ci ildə 677 mlrd. dollara çatmışdı. On aparıcı ölkəyə dünya üzrə ETTSİ-lərə çəkilən xərcin beşdə bir hissəsindən artıq düşür. Qabaqcıl onluğa iki inkişaf etməkdə olan ölkə – Çin və Koreya Respublikası daxildir.

1999-cu ildən başlayaraq, Çin hər il orta hesabla ETTSİ-ə çəkdiyi xərcləri 20% artırır və hazırda bu göstərici üzrə ABŞ-dan sonra dünyada ikinci yeri tutur. Koreya Respublikası isə ETTSİ-ə investisiyaların həcmi üzrə dünyada altıncı yeri tutur ki, bu da ÜDM-in 3%-ni təşkil edir (2006-cı ildə 250 mlrd. dollar). 2000-ci ildən başlayaraq, dünyada patent ərizələrinin sayı hər il 23% artır (bax: qrafik 1). Qlobal texnoloji yeniliklər infrastrukturunun formalaşması prosesinin mühüm iştirakçıları TMK-lardır. Ekspertlərin qiymətləndirmələrinə görə, onların payına ETTSİ-lərə olan qlobal xərclərin, demək olar ki, yarısı və tədqiqatlara çəkilən kommersiya xərclərinin üçdə iki hissəsindən az olmayan hissəsi düşür (450 mlrd. dollar qədər). ETTSİ-lərin artan beynəlmiləlləşməsinə şahid TMK-ların xarici filiallarının tədqiqatlarda rolunun güclənməsidir.

YUNKTAD-ın xarici ölkələrdə apardığı tədqiqata görə, ETTSİ-lərin sayına görə lider mövqeləri ABŞ və Böyük Britaniyanın şirkətləri tutur. Bütövlükdə xaricdə aparılan tədqiqatların ən böyük payı Qərbi Avropa ölkələrinin korporasiyalarının üzərinə düşür və onlardan sonra ABŞ və Yaponiya gəlir.

ETTSİ-ə əsas xərclər avtomobil sənayesində, istehsalda və telekommunikasiya avadanlıqlarında, əczaçılıqda və biotexnoloji sahələrdə cəmləşmişdir.

ETTSİ-lərin beynəlmiləlləşməsi Asiya ölkələri üçün də daha xarakterik olmağa başlayır. Hazırda ən iri 300 TMK-dan 65%-nin xarici ölkələrdə bölmələri vardır ki, onlardan 44%-nin bölmələri Hindistanda, Çində və başqa Asiya ölkələrindədir.

Müasir informasiya texnologiyalarının inkişafı informasiya iqtisadiyyatının formalaşmasına səbəb olmuş, dünyanın qabaqcıl ölkələrində iqtisadi artımın və təsərrüfat həyatının qloballaşması proseslərinin sürətlənməsinə təkan vermişdir. İnternetin, elektron məlumat mübadiləsinin, elektron poçtun, peyk rabitəsi sisteminin, mobil rabitə sistemlərinin, simsiz texnologiyaların yaranması və inkişafı prinsip etibarilə informasiyanın alınması, ötürülməsi və emalının yeni sistemlərinin formalaşmasına səbəb oldu. Bütün bunlar nou-hau və peşəkar xidmətlər bazarları da daxil olmaqla, maliyyə və əmtəə bazarlarını birləşdirən qlobal şəbəkələr yaratmağa imkan verdi. Əgər 1990-cı ildə dünyada 300 minə qədər internet istifadəçisi vardısa və onlardan 90%-i ABŞ-da yerləşirdisə, 2008-ci ildə bu rəqəm 1,5 mlrd. nəfərə çatdı, qeydiyyatdan keçmiş saytların sayı 186 mln. oldu. Yeni informasiya texnologiyaları istehsal, elmi-texniki, kommersiya vəzifələrini operativ, vaxtında və effektiv həll etməyə, praktiki olaraq maliyyə informasiyasını ani yerdəyişməyə, sazişlər imzalamağa, vəsaitləri dünyanın bir yerindən digər yerinə göndərməyə imkan verir. İnformasiya sistemlərinin formalaşması maliyyə və investisiya axınlarının forma və metodlarına yenidən baxmağa imkan vermiş, mal və xidmətlərin reallaşdırılmasının yeni formaları meydana gəlmişdir. 2006-cı ildə informasiyanın yayılması vasitələrinin qlobal sahəsində satış həcmi 472 mlrd. dollara çatmışdır. Müasir şəraitdə informasiya biznesi həcminə və xüsusi çəkisinə görə DÜDM-də maşınqayırmanı, kimya sənaye-

Cədvəl 1

TMK-ların və onların törəmə şirkətlərinin sayının artım dinamikası

İllər	Ana şirkətlərin sayı	Törəmə şirkətlər/ filiallar
1991	35 000	150 000
1995	39 000	270 000
1998	52 000	510 000
2000	63 000	630 000
2002	64 000	870 000
2005	77 175	773 019
2007	79 000	790 000
2008	82 000	810 000


sini, metallurgiyanı və kənd təsərrüfatını 3 dəfə üstələmişdir. Məsələn, ABŞ-da internet-biznesin həcmi 1993-cü ildə 43 mlrd. dollar, 2003-cü ildə isə 1,3 trln. dollar təşkil etmişdir. YUNKTAD-ın məlumatlarına görə, 2005-ci ildə informasiya texnologiyalarının qlobal sahəsinin payına DÜDM-in 6,8%-i düşmüş və 250 aparıcı şirkətin gəliri 3 trln. dollar təşkil etmişdir.

İnvestisiya fəaliyyəti TMK-ların müasir şəraitdə iqtisadi proseslərə təsirinin başlıca vasitəsidir. O, hər şeydən əvvəl, birbaşa xarici investisiyalar formasında həyata keçirilir və onların illik axını 1980-ci ildən 2007-ci ilə qədər, demək olar ki, 4 dəfə artmışdır (513 mlrd. dollardan 1,979 trln. dollara çatmışdır).

Birbaşa xarici investisiyaların 70%-i daha çox inkişaf etmiş ölkələrin firmaları arasında birləşmələr və udulmalar sayəsində həyata keçirilir. Firmalararası birləşmələr və udulmalar onların fəaliyyətinin transmilliləşdirilməsini və onların iri inteqrir edilmiş strukturlara çevrilməsini əks etdirən TMK-ların qlobal strategiyaları çərçivəsində həyata keçirilir.

Beynəlxalq biznesin artan miqyasları beynəlxalq maliyyə bazarının (BMB) genişlənməsinə və bu bazara daxil olmağa çalışan ölkələrin və şirkətlərin artmasına və özlərinin iqtisadi inkişafı üçün akkumulyasiya edən kapitalın böyük həcmlərindən istifadə etməyə kömək edir. BMB-nin ölçülərinə və strukturuna son on ildə güclənən maliyyə inteqrasiyası təsir

Tədqiqatların ümumi büdcəsində və dünyanın qabaqcıl ölkələrində xarici ETTSİ-lərin payı, faizlə



Qrafik 1

etmişdir ki, bu da milli bazarlar arasında maneələrin aradan qaldırılmasına, kapitalın ayrı-ayrı bazarları inteqrasiya etmiş vahid məkanda birləşdirən kapitalın transsərhəd həcmlərinin artmasına kömək edir. Müasir şəraitdə dünya (qlobal) maliyyə bazarı qlobal dünya iqtisadiyyatının ayrılmaz hissəsinə çevrilmişdir (bax: qrafik 2).

Maliyyə axınlarının kəsişmə mərkəzi ABŞ-dır. Təmiz kapital ixracatçıları olan ölkələrin (Yaponiya, Çin, Yaxın Şərq) daxilolmalarının 85%-i məhz ABŞ-ın üzərinə düşür. Kapitalın əsas kütləsi (80%) ABŞ, Böyük Britaniya və Avropa zonası arasında yerini dəyişir. 2009-cu ildə kapitalın transsərhəd axınlarının həcmi 6 trln. dollardan artıq təşkil etmişdir ki, bu da 2002-ci ilin səviyyəsindən iki dəfə çoxdur. Əgər 1993-cü ildə ümumdünya maliyyə aktivlərinin dəyəri 53 trln. dollar təşkil edirdisə, 2007-ci ildə bu göstərici 140 trln. dollara çatdı. Birbaşa xarici investisiyaların ümumi həcmi XXI əsrin əvvəllərində dünya ticarətinin 2/3-nə çatmış, 2008-ci ildə isə bu göstərici 1,697 trln. dollar təşkil etmişdir.

Qlobal maliyyə bazarının formalaşması milli iqtisadiyyatlar arasında qarşılıqlı iqtisadi əlaqənin güclənməsinə və inteqrasiyaya səbəb olmuşdur. Bu bazarın mövcud olması mühiti qlobal informasiya məkanı və qlobal informasiya şəbəkələridir ki, bunlar maliyyə vəsaitlərinin praktiki olaraq Yer kürəsinin istənilən nöqtəsinə sürətlə ötürmək imkanını təmin edir. Qloballaşmanın gedişində maliyyə kapitalının ölkələrarası yerdəyişmələrinin bir çox hallarda real istehsalla əlaqəsi olmayan sürəti və həcmi artır. Böhranlar vaxtı isə maliyyə bazarlarına, bir qayda olaraq, ciddi zərər yetirilir.

Qloballaşma proseslərinin güclənməsi qlobal şirkətlərin yaranmasına səbəb olmuşdur. Bu termin XX əsrin 80-ci illərinin əvvəllərində meydana çıxmışdır. Bunlara satış həcminə, mən-

Cədvəl 1

Satış həcminə görə dünyanın ən iri şirkətlərinin siyahısı (2009-cu il)

Reytinqdə yeri	Şirkət	Ölkə	Satışların həcmi, mlrd. dollar
1	Royal Dutch Shell	Böyük Britaniya	458,361
2	Exxon Mobil	ABŞ	442,851
3	Wal-Mart Stores	ABŞ	405,607
4	BP	Böyük Britaniya	367,053
5	Chevron	ABŞ	263,159
6	Total	Fransa	234,674
7	ConocoPhillips	ABŞ	230,764
8	ING Group	Niderland	226,577
9	Sinopec	Çin	207,814
10	Toyota Motor	Yaponiya	204,352

Cədvəl 2

Sahələr üzrə 100 iri şirkətin transmillilik indeksi (TMİ)

Sahə	100 ən iri TMK		İnkişaf etməkdə olan ölkələrin 100 ən iri TMK	
	2007	TMK	2007	TMK
Avtomobilqayırma	13	56	3	39,3
Neftin çıxarılması və emalı	10	56,2	9	24
Elektronika və elektrotexnika avadanlıqları	9	57,7	19	59,9
Ərzaq məhsulları, içkilər və tütün məmulatları	9	68,1	7	60,5
Əczaçılıq	9	63,6	1	50,4
Kommunal təsərrüfat	8	55,5	2	41,6
Telekommunikasiyalar	8	70,3	7	47,7
Bütün sahələr	**100**	**62,4**	**100**	**54,4**

fəətə, aktivlərə, kapitallaşmaya və məşğulların sayına görə ən böyüklərini aid edirlər. Müasir şəraitdə qlobal korporasiyalar istehsal, ticarət, maliyyə və elmi-tədqiqat profilli iri inteqrir edilmiş biznes-strukturlardır. Belə TMK-ların fərqli xüsusiyyətləri aşağıdakılardır:

– bazarın planetar mövqelərdən nəzərdən keçirilməsi və dünya miqyasında rəqabətin həyata keçirilməsi;

– törəmə şirkətlər və filialların idarə edilməsinə qlobal yanaşmadan istifadə edilməsi, filiallar arasında hərəkətlərin yeni informasiya texnologiyaları əsasında koordinasiyası, mühasibat uçotunun və auditin vahid formada təşkili və korporasiya strukturunun adaptivliyi;

– mənfəətin böyük hissəsinin elmi tədqiqatlara (hər şeydən əvvəl, yüksək texnologiyalar sahəsində) yönəldilməsi;

– dünya bazarlarının bu cür qlobal TMK-larla bölüşdürülməsi;

– biznesin coğrafi bölgüsünün vaxtında dəyişməsi ilə sahəvi strukturunun TMK miqyasında inteqrasiya edilməsi yolu ilə yüksək rentabelliyin təmin edilməsi;

– birləşmə və udulmalar yolu ilə, həmçinin strateji müqavilələr və alyanslar formasında qlobal şirkətlərin bir-birinə inteqrasiyası.

Ekspertlər 500 ən iri qlobal şirkəti fərqləndirir: Amerika TMK-ları (140 şirkət), sonra yapon şirkətləri (67), fransız şirkətləri (40), alman şirkətləri (39), Çin şirkətləri (37), Britaniya şirkətləri (26) lider mövqelərdədir. BRHÇ ölkələrindən olan TMK-lar dinamik inkişaf edir: Bra-

ziliya (6), Rusiya (8), Hindistan (7) və Çin (bax: cədvəl 1).

Qlobal TMK-lar ardıcıl olaraq istehsal, ticarət və maliyyə şirkətlərini birləşdirən iri qrupların yaranma strategiyasını aparır. Müasir şəraitdə qlobal korporasiyalar müasir maliyyə kapitalının bütün gücünü göstərir. Qloballaşmaya daha çox informasiya, elektron, kimya, elektrotexnika, neft, avtomobil, bank və bəzi başqa sahələr meyillidir.

100 qlobal korporasiya dünya əhəmiyyətlidir. 2008-ci ildə bu şirkətlərin aktivləri xarici aktivlərin ümumi sayının 9%-ni, satış həcminin 16%-ni və bütün məşğul TMK-ların 11%-ni təşkil edirdi. 100 ən iri firmanın xarici şəbəkəsinə təxminən 4% DÜDM düşür.

Beləliklə, transmilliləşmə və iqtisadiyyatın qloballaşması prosesinin əsas hərəkətverici qüvvəsi TMK-lardır. 1990-cı ildən başlayaraq, YUNKTAD öz sənədlərində və nəşrlərində "şirkətlərin transmillilik indeksi" anlayışından istifadə edir.

1991-ci ildən 2008-ci ilə qədər 100 ən iri TMK-nın transmillilik indeksi 12% artmışdır (51%-dən 63%-ə qədər), həm də əsas artım xarici aktivlərin üzərinə düşürdü. Qrafik 3-də son 5 ildə indeksin artımı göstərilmişdir. Müxtəlif şirkətlər müxtəlif transmillilik göstəricilərinə malikdir. Daha transmillilərə əczaçılıq, telekommunikasiyalar, avtomobilqayırma və s. daxildir (bax: cədvəl 2).

Deməli, şirkətlərin fəaliyyətinin milli bazarların hüdudlarından kənarda genişləndirilməsi qloballaşma prosesini doğurdu. Statistik məlumatlar bu prosesdə TMK-ların müəyyənedici rolunu bir daha təsdiqləyir. Biznesin inkişafı və qlobal bazar şəraiti TMK-ları öz strategiyalarını dəyişməyə və istənilən dəyişikliklərə uyğunlaşmağa qabil olan daha güclü innovativ strukturlara çevrilməyə məcbur edir.

TRANSAKSİON MƏSRƏFLƏR (ing. *transaction cost*) – bazardan istifadə zamanı istehsal faktorları və son məhsulların alqı-satqısı üçün meydana çıxan məsrəflər. Transaksion məsrəflərə tədarükçülərin və ya istehlakçıların axtarışı, onlarla müqavilə bağlanması, müqavilələrə riayət etmələrinə nəzarət, hüquqi müdafiə və s., həmçinin bazarın mükəmməl olmaması (məsələn, malların qiymətləri və keyfiyyəti haqqında informasiya almağın çətinlikləri, tədarükün etibarsız mənbələri, pərakəndə ticarət məntəqələrinin sayının məhdud olması) ilə bağlı məsrəflər daxildir.

TRANSAKSİON RƏHBƏRLƏR – işçilərə tapşırıqları izah etmək, mükafatlandırma, sosial tələbləri ödəmək qayğısı transaksion rəhbərə xas olan xüsusiyyətlərdəndir. Əməksevərlik, təmkinlilik, açıq düşüncəli səmərəli fəaliyyətlə fəxretmə, qaydalara, normativlərə nöqsansız riayət, təşkilat qarşısında borcu fədakarlıqla yerinə yetirmək transaksion rəhbərin xarakter arsenalını təşkil edən elementlərdəndir.

TRANSLYASİYA RİSKİ (ing. *translation risk*) – bir valyutadan digərinə keçid zamanı aparılan hesablamalarda, məsələn, hər il valyuta borcunun yenidən qiymətləndirilməsi zamanı valyuta itkisi riski.

TRANSŞİPMENT (ing. *transshipment of cargo*) – dəniz daşıyıcısının konosamentə uyğun olaraq daşınan yükün və ya onun bir hissəsinin səbəbdən və vaxtdan asılı olmayaraq gəmidən boşaldılması, onun sahildə anbara yığılması, başqa gəmiyə yüklənməsi hüququ. Bu əməliyyatlar da həmin yükün daşıyıcıya məxsus olub-olmamasından asılı deyildir. Bu halda yük sahibinin qarşısında müqavilə şərtlərinin icrasına görə məsuliyyət daşıyıcının üzərində qalır.

Transşipment beynəlxalq sazişlərdə konosamentlər haqqında zəruri müddəalara müvafiqdir.

TRANŞ (fr. *tranche* – hissə, pay) – adətən, beynəlxalq xarakterli, seriyalar şəklində, gələcəkdə bazar infrastrukturunun optimallaşması proqnozu ilə əlaqədar və ya istiqrazı müxtəlif ölkələrdə ssuda kapitalı bazarlarında yerləşdirmək məqsədilə buraxılan istiqrazın bir hissəsi. Bu halda istiqrazın şərtləri bütün tranşlar üçün eyni qalır: BVF-də 25 %-lik kvota payı.

TRANŞA (ing. *trannche*) – bir qayda olaraq, beynəlxalq istiqraz borcunun seriyası. Dünya Bankının suveren borc alanlara (dövlətlərə) verdiyi kreditə oxşar hissələrə bölünmüş müddətli və ya digər kreditlər üzrə ayrı-ayrı maliyyə öhdəlikləridir. Borc öhdəliyinin bir hissəsi kimi buraxılan borc qiymətli kağızların təsnifatı, müxtəlif investorların tələbatını ödəmək üçün müxtəlif ödənilmə müddətli tranşa ilə qiymətli kağızlar buraxılır.

TRANZİT (lat. *transitus* – keçmə) – sərnişin, yük və əmtəə-

lərin bir məntəqədən digərinə üçüncü məntəqə vasitəsi ilə daşınması.

TRANZİT BİZNESİ (ing. *entrepot business*) – bankların öz qeyri-rezidentlərindən başqa, qeyri-rezidentlərə vermək üçün xarici valyutada depozit götürdüyü əməliyyatlar.

TRANZİTİVLİK (ing. *transitivity*) – üstünlüklərin bu xassəsi aşağıdakı fikri təsvir edir: əgər A dəsti B dəstindən, B dəsti isə C dəstindən üstün tutulursa, seçim edən şəxs ranqlaşdırma prinsipi əsasında A dəstini C dəstindən üstün tutmalıdır.

Bundan əlavə, tranzitivlik xassəsinə görə A və B alternativ üstünlükləri ilə B və C alternativ üstünlükləri arasında fərq olmadıqda A və C arasında fərq yoxdur.

TRASSANT (alm. *trassant;* ital. *trassante*) – köçürmə vekselini – trattanı verən şəxs.

TRASSASİYA (*traslama*) (*drawing*) – köçürmə vekselin (*trattanın*) təqdim edilməsi; xarici valyuta şəklində borcun ödənilməsi üsulu. Veksel dövriyyəsinin, valyuta əməliyyatlarının, beynəlxalq hesablaşmaların müasir formalarının tərkib hissəsidir. Trassat – vekseli akseptləşdirən və bununla da həmin veksel üzrə tədiyə müddəti çatdıqda ödəniş etmək öhdəliyini öz üzərinə götürən şəxsdir. Trassatın göstərişi köçürmə vekselin məcburi rekvizitidir. Trassant – trattanın vekselvericisidir. Veksel üzrə akseptə və tədiyəyə cavabdehdir. Trassant aksept üzrə məsuliyyəti öz üzərindən götürə bilər, lakin tədiyə üçün məsuliyyəti öz üzərindən götürmək üçün hər hansı şərt yazılmamış hesab olunur.

TRASSAT – köçürmə vekseli – tratta üzrə ödəməyə borclu olan şəxs.

TRAST – benifisiarilərin əmlakının idarə edilməsini etibarnaməyə əsasən həyata keçirən və bununla əlaqədar, əmlakın idarə edilməsi, qiymətli kağızların saxlanması, onlarla bağlı əqdlərin, o cümlədən investisiya xarakterli əqdlərin reallaşdırılması funksiyalarını yerinə yetirən maliyyə institutu.

Trastda, adətən, iki tərəf iştirak edir: trastın təsisçisi və etibar edilmiş mülkiyyətçi – əmlakın idarəçisi. Əgər təsisçi mənfəətin üçüncü şəxsə – benefisiariyə verilməsi şərtini irəli sürərsə, bu halda trastın təsis olunmasında üç tərəf iştirak edir. Etibar edilmiş mülkiyyətçi əmlakın idarə edilməsinə görə həmin əmlakın idarə edilməsindən alınan gəlirin xüsusi razılaşdırılmış faizini alır. Benifisiari (həm təsisçi, həm də üçüncü şəxs) tərəfindən əldə edilən gəlirlərdən trastın şərtlərinə görə ümumi qaydada vergi tutulur.

Trast institutu orta əsrlərdə İngiltərədə yaranmışdır. Hazırda Qərbdə, xüsusən ABŞ-da geniş yayılmışdır. Etibar edilmiş mülkiyyətçi rolunu çox vaxt kommersiya bankları öz üzərinə götürür. Etimad müqaviləsinə əsasən, təşkil edilən trast-fondlar özünün fəaliyyət və təsir dairəsini tədricən genişləndirərək əksər hallarda mühüm maliyyə qüvvəsinə və ciddi institusional investora çevrilir.

TRASTİ – investorların maraqlarını təmsil etmək səlahiyyəti verilmiş üçüncü şəxs, adətən, xüsusi trast korporasiyası və ya bank bölməsi.

TRAST ƏMƏLİYYATLARI – etibar əməliyyatları, trast haqqında bağlanmış müqaviləyə əsasən, bankın müştərilərinə, fiziki və ya hüquqi şəxslərə təqdim etdiyi xidmət növü. Trast əməliyyatları vəkalətnamə vermiş şəxsin adından həyata keçirilən əməliyyatlardır.

TRAST SAZİŞİ – bank ilə müştəri arasında bağlanan saziş. Bu sazişə əsasən, bank müştərinin pul vəsaitlərinin idarə edilməsini öz üzərinə götürür.

TRAST-BİZNES – əmlakın və ya pulun idarə edilməsi, müştərilərin mənafeyi naminə xidmətlər təqdim edilməsi və kredit-maliyyə müəssisələri və ya ixtisaslaşdırılmış trast-şirkətlər tərəfindən həyata keçirilən əməliyyatların bütün növləri.

Müəssisələr üçün trast əmlak barəsində sərəncam vermək hüquqlarını, agent və depozitari funksiyalarının yerinə yetirilməsini, tədiyə funksiyalarının həyata keçirilməsini (dividendlər verilməsini), eləcə də şirkət ləğv edilən halda onun müvəqqəti idarə edilməsini nəzərdə tutur. Ayrı-ayrı şəxslərə (vətəndaşlara) münasibətdə trast-əmlak barəsində məhkəmənin qərarına uyğun sərəncam verilməsini, depozitari və qəyyum funksiyalarının yerinə yetirilməsini nəzərdə tutur.

TRAST-ŞİRKƏT – müştərilərin əmlakının etibarnamə əsasında idarə olunmasını həyata keçirən, onların qiymətli kağızlarını saxlayan və həmin kağızlarla etimad əməliyyatları və digər əqdləri həyata keçirən maliyyə institutu. Trast şir-

kətinin funksiyalarına aşağıdakılar daxildir: vərəsə əmlakının aşkar edilməsi, onu idarə etməyə başlamaq, vəsiyyətçinin arzusuna və qanuna müvafiq olaraq mirasın bölüşdürülməsi; öz əmlakını özlərinin idarə etmək imkanı olmayan uşaqların, dul qadınların və başqa şəxslərin əmlakının müvəqqəti idarə edilməsi; fiziki və hüquqi şəxslərin qiymətli kağızlarının idarə olunmasını ona etibar etdiyi halda, bu qiymətli kağızların idarə edilməsi, həmin vəsaitdən müştərilərin bu və ya digər məsrəflərinin (sığorta fondlarına tədiyələr, ailə üzvlərinə müavinətlər ödənməsi) həyata keçirilməsi; sərvətlərin və sənədlərin saxlanması və onların bir kontragentdən digərinə verilməsi əməliyyatlarının yerinə yetirilməsi.

Kommersiya xarakterli hüquqi şəxslərlə – korporasiyalar, cəmiyyətlər, firmalarla münasibətdə trast-şirkət etibar edilmiş şəxs, transfert, qeydiyyat üzrə agent, əmlakın ləğv edilməsi (müflisləşmə halında) və əməliyyatlar üzrə müvəkkil kimi çıxış edir. Əgər trast-şirkət xırda səhmdarların qiymətli kağızlarını saxlayırsa, o, fiskal agent rolunu yerinə yetirir: dividendlər, faizlər ödəyir, istiqrazları, öhdəlikləri, notları girovdan çıxarır. Adlı səhmlər verilən halda bu əməliyyat səhmdar cəmiyyətinin kitablarında zəruri qeydlərlə müşayiət olunur.

Trast-şirkət pensiya fondlarını da idarə edə bilər. Bu halda trast-şirkət həmin fondların yaradılmasına yönəldilən vəsaitin toplanmasını həyata keçirir, bu fondlara nəzarət edir, onların aktivlərini qiymətli kağızlar şəklində yerləşdirir, həmin qiymətli kağızlar üzrə gəlir əldə edir. Beləliklə, trast-şirkət praktiki olaraq təsərrüfat fəaliyyətinə aid olan istənilən əməliyyatları apara bilər.

Bu və ya digər cəmiyyətin fəaliyyətinə nəzarət edilməsi məqsədilə həmin cəmiyyətin səhmlərinin saxlayıcıları öz aralarında razılaşmaya əsasən, səsvermə hüququna malik trast və ya votinq-trast təsis edirlər. Votinq-trast səhmdarlardan onların səhmlərini alır, əvəzində onlara öz sertifikatlarını verir. Səhmlər isə saxlanılmaq üçün trast-şirkətə verilir. Bundan sonra trast-şirkət dividendləri inkassasiya edir və onları voltinq-trast sertifikatlarının sahibləri arasında bölüşdürür.

Trast-şirkətlərin inkişafı prosesində onlar universal banklara çevrilmişlər. Kommersiya bankları trast aktivlərini cəmləşdirdikdən sonra özlərinin fəaliyyət və təsir sahəsini əhəmiyyətli dərəcədə genişləndirmək və beləliklə, yüksək mənfəət təmin etmək imkanına malikdir.

TRATTA – köçürmə vekseli.

TRAYDER – broker firmasının qiymətli kağızların alış-satışı üzrə sifarişləri həyata keçirən, birja ticarətində bilavasitə iştirak edən işçisi; birjada sövdələşmə bağlamaq hüququna malik olan istənilən hüquqi və ya fiziki şəxs.

TRAYEKTORİYANIN ÖYRƏNİLMƏSİ – adətən, bu termin altında pərakəndə ticarət auditi nəzərdə tutulur. Bunun gedişatında kassa aparatı vasitəsilə malların hərəkəti və ya istehlakçıların mallar haqqında məlumatlılığının dəyişilməsi, yaxud müəyyən vaxt kəsiyində onların mallara münasibəti nəzarət altında saxlanılır.

TREND – əsrlik göstəricilərin dəyişməsinin uzunmüddətli meylidir. Proqnostik modellərdə trend proqnozlaşdırılan zaman sırasının əsas tərkib hissəsi kimi çıxış edir, digər tərkib hissələr, məsələn, mövsümi dəyişmələr isə onun üzərinə əlavə olunur.

TREND TƏHLİLİ (ing. *trend analysis*) – iqtisadi göstəricilərin dəyişməsi istiqamətinin təhlili. Bu istiqamət iqtisadi tərəqqi və ya tənəzzülün davamlı meylləri əsasında hesabat və statistik məlumatların işlənib hazırlanması yolu ilə müəyyən edilir.

TREST (ing. *trust* – etimad, inam) – mülkiyyət və idarəetmə barədə bütün hüquqların iştirakçılardan birinə və ya xüsusi orqana (idarə heyətinə, müdiriyyətə) verilməsi və vahid hüquqi şəxs yaradılması barədə hüquqi şəkildə sazişlə rəsmiləşdirilmiş şirkətlər birliyinin təşkilati-hüquqi forması. Hazırda yenidən təşkil edilmə prosedurları əsasında birləşməni həyata keçirən səhmdar cəmiyyətləri tərəfindən praktiki olaraq sıxışdırılmışdır. Bir və ya bir neçə sahəyə aid müəssisələrin istehsalat və kommersiya müstəqilliyini tam ləğv etməklə onların inhisarçı birliyi. Trestin əsas təşkilati forması səhmdar şirkətidir. Trestə İdarə Heyəti başçılıq edir. O, birliyə daxil olan müəssisələrin maliyyə, istehsalat və ticarət fəaliyyətinə vahid rəhbərliyi həyata keçirir. Trestin hər bir iştirakçısı ödəmiş olduğu kapital hissəsinə müvafiq olaraq müəyyən səhm paketi, idarəetmədə iştirak et-

mək və mənfəətdən müəyyən pay almaq hüququ əldə edir. Kartel və sindikat ilə müqayisədə kapitalın daha yüksək dərəcədə təmərküzləşməsi trestin yüksək rəqabət qabiliyyətini təmin edir.

ABŞ-da ilk trestlər XIX əsrin son rübündə yaranmışdır (1879-cu ildə "Standart Oyl" ölkədə neftayırma sənayesinin 25%-nə nəzarət edirdi). Avropada trestlər 1914-1918-ci illər Birinci Dünya müharibəsindən sonra maksimum dərəcədə inkişaf etmiş, 30-cu illərdə Almaniyada trestlərin (əsasən sahəvi xarakterli) yaradılması və onların fəaliyyətinə nəzarət edilməsi dövlət siyasətinin mühüm istiqamətinə çevrilmişdi. 1920-1940-cı illərdə aparıcı kapitalist ölkələrinin iqtisadiyyatında trestlərin hökmranlıq etməsi böhran proseslərini stimullaşdırır və gərginləşdirirdi. Trest istehsalın həcmi kəskin şəkildə azaldıqda qiymətlərin yüksək səviyyəsini süni şəkildə saxlayır, bu isə təklif ilə tədiyə qabiliyyətli tələb arasında tarazlığın bərpa edilməsini çətinləşdirirdi. 1950-ci illərin əvvəllərində inkişaf etmiş kapitalist ölkələrinin əksəriyyətində "Antitrest" qanunvericilik aktları qəbul edilmişdir. Trest əvəzinə konsernlər, konqlomeratlar və inhisarçı birliklərin başqa, daha çevik formaları yaranmışdır. Yeni iqtisadi siyasət dövründə RSFSR-də, sonra isə SSRİ-də sənayenin spesifik təşkilati-istehsal forması olmuşdur. Əmək və Müdafiə Şurasının (ƏMŞ) 1921-ci il 12 yanvar tarixli qərarına müvafiq olaraq təşkil edilmişdir. Onlar ən iri, texniki avadanlıqlarla təchiz olunmuş, coğrafi baxımdan birbirinə nəzərən münasib şəkildə yerləşmiş və işçi qüvvəsi ilə təmin olunmuş müəssisələri birləşdirirdi. Milliləşdirilmiş, lakin icarəyə verilməmiş bütün sənaye müəssisələrinin 90%-ə qədərini özündə birləşdirən trestlər 20-ci illərin axırlarına qədər sovet sənayesində əsas istehsal vahidi olaraq qalırdı.

Trest təsərrüfat müstəqilliyi və təsərrüfat hesabı prinsipləri əsasında fəaliyyət göstərirdi.

TREYDER – broker firmasının bilavasitə birja ticarətində iştirak edən işçisi; birjada saziş bağlamaq hüququna malik olan istənilən hüquqi və ya fiziki şəxs; pozişn-treyder və ya flo-treyder – nisbətən uzun müddətə (skalper və ya cobberdən fərqli olaraq) spekulyativ əməliyyatlara pul qoyan və bununla da kapitalın bir bazardan başqa bazara axınına kömək edən və əmtəə birjalarında spekulyativ fəallığın səviyyəsini müəyyən edən birja alverçisi tipi; tacir; birja hərraclarında hərrac iştirakçısı etibarnaməsi ilə ona verilən səlahiyyətlər çərçivəsində xarici valyuta alqı-satqısı sazişlərinin imzalanmasını həyata keçirən fiziki şəxs.

TREYDİNQ – qısamüddətli və tez gəlir əldə etmək məqsədi ilə qiymətli kağızların və əmtəələrin alış və satışı.

TRİGGER HADİSƏSİ – sekyuritizasiyaya münasibətdə borcalanın və ya sövdələşmədə iştirak edən digər tərəfin maliyyə vəziyyətinin pisləşməsindən xəbər verən hadisə. Adətən, bu cür hadisələr sövdələşmə üzrə sənədləşmədə müəyyənləşdirilir. Bu cür hadisənin baş verdiyini biləcəyi halda, sövdələşmənin strukturunun və ya prioritetlərin dəyişiklikləri də elə orada müəyyənləşdirilir.

TROYA UNSİYASI – "t oz" abreviaturası. Yuvarlaqlaşdırılmış halda qəbul olunur ki, 1 t oz = 31,1035 qram. Daha dəqiq isə 1 t oz təxminən 31,103 476 qrama bərabərdir. Bir metrik tonda (1000 kq) 32151 troya unsiyası var. Qeyd edək ki, oz işarəsi ilə ifadə olunan standart unsiya təxminən 28,35 qrama bərabərdir. Standart və troya unsiyalarının işarələrində olan oxşarlıqlara görə ölçüləri unsiyalarla ifadə edərkən ehtiyatlı olmaq lazımdır.

TSİKLLİK İŞSİZLİK – özünü istehsal durğunluğu zamanı büruzə verir. Əmtəələrə və xidmətlərə olan məcmu tələb azaldıqda məşğulluq ixtisara salınır, işsizlik isə artır. Bəzən bu növ işsizliyi "tələb defisitliyi işsizliyi" də adlandırılır. Tsikllik işsizlik – bazar iqtisadiyyatının təbiətinə uyğun olaraq onun tsikllik inkişafı ilə əlaqədar yaranır. Belə işsizlik iqtisadi inkişafın yüksəliş dövründə sıfıra düşə, böhran dövründə isə maksimal səviyyəyə qalxa bilər.

TURAGENT – turizm sahəsində turoperatorların ticarət agenti olan və müvafiq xüsusi razılığa (lisenziyaya) malik hüquqi və ya fiziki şəxs.

TURAGENT FƏALİYYƏTİ – turoperatorun fəaliyyətinin davamıdır. Turagent turoperator adından turist məhsulunun alqı-satqısı üzrə bazar sövdəsini başa çatdırır.

TURİST – turizm məhsullarının istehlakçısı olmaqla, tura hazırlaşan (turizm məqsədi olan) və

ya turda iştirak edən getdiyi yerdə 24 saatdan 6 ayadək müddətdə ümumi, xüsusi və ya fərdi yerləşdirmə yerində, o cümlədən tur üçün nəzərdə tutulmuş yerləşdirmə yeri olan nəqliyyat vasitəsində (kruiz gəmisində, turizm qatarında və s. uzaqyol nəqliyyatında) müvəqqəti qalan fiziki şəxs.

TURİST GÖNDƏRİŞİ – ciddi hesabat sənədi olan, turizm xidmətlərinin göstərilməsinə dair müqavilənin mövcudluğunu, turizm xidmətləri zərfi ilə nəzərdə tutulmuş xidmətlərin ödənildiyini və bu xidmətlərin alınmasına dair turistin hüquqlarını və müvafiq turizm təşkilatçısının (təşkilatlarının) öhdəliklərini təsdiq edən sənəd.

TURİST POLİSİ – sığorta müqaviləsini təsdiq etmək üçün sığorta şirkəti tərəfindən turistə verilən sənəd. Turist polisində sığorta şərtlərinin tam siyahısı və ya sığorta hadisəsi haqqında hospitalda və ya polis idarəsində doldurulmaq üçün blanklar ehtiva olunur. Turist polisi, adətən, turizmdə sığortalanma sferası üçün xarakterik olan 8-ə yaxın və daha çox sığorta hadisəsini nəzərdə tutur: bədbəxt hadisə, tibbi xərclər, baş tutmayan səfər və ya onun ləğv olunması, üçüncü şəxslərə zərərin vurulması, yükün itməsi və s.

TURİSTLƏRİN SIĞORTALANMASI – vətəndaşların səyahət etməsi, turist bazasında, kempinqdə, yürüşdə, ekskursiyada olması zamanı onların sığorta müdafiəsini təmin edən sığorta növü. Həm turistlərin əmlakının itirilməsi və ya zədələnməsinə görə məsuliyyəti, həm də onların həyatının və sağlamlığının sığortalanmasını ehtiva edə bilər.

Cədvəl 1

2011-ci ildə ən çox turist cəlb etmiş ölkələr (dünya turizm təşkilatının məlumatına əsasən, mln. nəfər)

1. Fransa	–	81,9
2. İspaniya	–	59,23
4. ABŞ	–	56,0
5. İtaliya	–	43,7
6. Böyük Britaniya	–	30,7
7. Almaniya	–	24,4
8. Ukrayna	–	23,1
9. Türkiyə	–	22,2
10. Meksika	–	21,4

2011-ci ildə ən çox turist gəlmiş dünya şəhərləri (mln. nəfər)


1. London (Böyük Britaniya)	–	15,3
2. Honkonq (Çin)	–	12,5
3. Banqkok (Tailand)	–	10,84
4. Sinqapur (Sinqapur)	–	10,28
5. Paris (Fransa)	–	8,76
6. Nyu-York (ABŞ)	–	7,65
7. Toronto (Kanada)	–	6,63
8. Dubay (BƏƏ)	–	6,54
9. İstanbul (Türkiyə)	–	6,45
10. Roma (İtaliya)	–	6,12

TURİZM – hər hansı bir dövlətin vətəndaşının, əcnəbinin və vətəndaşlığı olmayan şəxsin daimi yaşayış yerindən kənarda müvəqqəti olacağı yerdə yerli mənbədən maliyyələşdirilən ödənişli fəaliyyətlə məşğul olmamaq və müvəqqəti yerləşmə yerində bir dəfədən az olmayaraq gecələmək şərtilə istirahət, sağlamlaşdırma-bərpa (sanatoriya-kurort), tanışlıq, bilgilənmə (öyrənmə), tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə, iş-peşə, idman, dini, habelə ictimai mənəviyyat və ictimai qayda tələblərinə cavab verən digər məqsədlərlə azı 24 saat müddətində həyata keçirdikləri yerləşmə.

Turizm bəşəriyyətin real inkişaf amillərindən birinə çevrilir. Təşkil olunan ekskursiyalar əhalinin çox hissəsinin həyatına daxil olur. Son 20 ildə beynəlxalq turizm də geniş yayılmışdır (bax: cədvəl 1).


Beynəlxalq turizmin inkişafı əsasən aşağıdakı amillərlə əlaqədardır:

Azərbaycan Respublikasında mehmanxana və mehmanxana tipli müəssisələrdə yerləşdirilmiş şəxslərin sayı (nəfər)




Qrafik 1

Azərbaycan Respublikasında mehmanxana və mehmanxana tipli müəssisələrdə yerləşdirilmiş şəxslərin səfərlərinin məqsədinə görə sayı (nəfər)



Qrafik 2

Azərbaycan Respublikasında mehmanxana və mehmanxana tipli müəssisələrdə gecələmələrin sayı (min adam gecə)



Qrafik 3

– iqtisadi inkişaf səviyyəsi və sosial tərəqqi nəinki işgüzar səfərlərin həcmini genişləndirmiş, həm də öyrənmək məqsədi ilə olan səfərləri artırmışdır;
– nəqliyyatın bütün növlərinin təkmilləşdirilməsi səfərləri ucuzlaşdırmış, onları əhalinin bir çox təbəqələri üçün mümkün etmişdir;
– əməyin intensivləşdirilməsi və zəhmətkeşlər tərəfindən daha uzunmüddətli məzuniyyətlər götürülməsi daha məzmunlu istirahət nəzərdə tutur;
– dövlətlərarası əlaqələrin və mədəniyyət mübadilələrinin inkişafı həm regionlar arasında, həm də regionların daxilində şəxsiyyətlərarası əlaqələrin genişlənməsinə səbəb olmuşdur;
– xidmətlər sahəsinin inkişafı telekommunikasiyalar sahəsində texnoloji tərəqqini stimullaşdırmış, müxtəlif ölkə və regionlara səfərlərə marağı artırmışdır;
– bir çox ölkələrdə valyutanın ölkədən çıxarılmasına olan məhdudiyyətlərin zəifləməsi və sərhəd rəsmiləşməsinin sadələşdirilməsi də turizmin inkişafını stimullaşdırır.

Beynəlxalq turizmin inkişafı turistləri qəbul edən ölkəyə valyuta daxilolmalarını artırır; ödəniş balansının göstəricilərinin strukturunu yaxşılaşdırır; turizm sahəsinə xidmət edən müəssisələr, eləcə də ayrı-ayrı sahələrin inkişafına güclü təsir edir.

Turizm xidmətlərinin xarakterik cəhəti ondan ibarətdir ki, onun bəzi növləri hiss olunmayan, qeyri-maddi xarakterlidir. Ekskursiya rəhbərinin söhbəti turistlərə dərin emosional təsir göstərə bilər və bunu maddi izah etmək, əvvəlcədən görmək, yaxud hiss etmək mümkün deyil. Turizmin digər xidmətləri maddi xarakter daşıyır: turist gətirilmiş, müalicə edilmiş, istirahət etmiş olur. Lakin hər iki halda turist xidmətlərinin spesifikası ondan ibarətdir ki, onlar təqdim edilməmişdən əvvəl mövcud deyillər. Başqa sözlə, bizdə turist xidmətlərinin istehsalının və istehlakının ayrılmamazlığı var. Bu vəziyyət turizmin müxtəlif təsərrüfat subyektlərini özünə daxil edən vahid dinamik fəaliyyət göstərən xidmətlər sistemi olduğu nəticəsinə gəlməyə imkan verir.

Müasir turizm sistemi təşkilati olaraq aşağıdakı təsərrüfat subyektlərinə malikdir: – turist xidmətləri istehsal edən firmalar (müalicə müəssisələri, sanatoriyalar, istirahət evləri, işgüzar məsləhətxanalar və s.);
– turoperator, yəni əsasən topdansatış əsasda turist məhsulunun işlənib hazırlanması və satışı ilə məşğul olan firmalar;
– turoperatorlar tərəfindən formalaşan turist məhsulu satıcısı kimi çıxış edən turagent firmalar;
– yerləşdirmə üzrə xidmətlər (pansionatlar, istirahət evləri, motellər, mehmanxanalar və s.) təqdim edən ixtisaslaşmış firmalar;
– ixtisaslaşmış qida müəssisələri (restoranlar, barlar, kafelər, yeməkxanalar və s.);
– ixtisaslaşmış nəqliyyat müəssisələri (aviasiya müəssisələri, avtomobil müəssisələri, dəmiryol idarələri, dəniz və çay nəqliyyatı müəssisələri və s.);
– turistlər üçün məhsulda ixtisaslaşmış ticarət müəssisələri və ticarət firmaları;

– turizmdə asudə vaxt sahəsi müəssisələri (kinokonsert zalları, oyun avtomatları zalları və s.);
– reklam-informasiya turist müəssisələri (reklam agentlikləri, reklam büroları, turist-informasiya mərkəzləri və s.);
– dövlət müəssisələri (unitar və ya səhmdar xarakterli, turizmlə kommersiya və ya sosial əsaslarla məşğul olan milli, regional, bələdiyyə müəssisələri).

Dünyanın bir çox ölkələrində turizm insanların sağlamlığında, asudə vaxtlarının səmərəli istifadəsində, iqtisadiyyatda önəmli yer tutur, regionların sosial inkişafına təkan verir, büdcəyə əlavə vəsaitlərin cəlb edilməsinə əlverişli şərait yaradır. Bu gün dünya milli məhsulunun, dünya investisiyalarının, iş yerlərinin və dünya istehlak xərclərinin 10%-i turizmin payına düşür.

Qeyri-neft sahələrinin yüksəlişi ilə davamlı iqtisadi inkişafın təmin edilməsi müasir dövrdə ölkəmizdə qarşıda duran mühüm vəzifədir. Çoxsaylı tədqiqatlar göstərir ki, turizm öz perspektivliyinə görə qeyri-neft sahələri arasında aparıcı mövqelərdən birini tutur.

Zəngin mədəni-tarixi irsə və əlverişli təbii şəraitə malik olan Azərbaycan turizm sahəsində böyük inkişaf perspektivlərinə malikdir. Ölkəmizdə turizmin əksər növlərinin (kənd, müalicə-sağlamlıq, ekoloji, mədəni, sosial, kommersiya, idman, dini, xüsusi maraq kəsb edən və s.) inkişafı üçün geniş imkanlar mövcuddur.

Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi nəticəsində turizmin inkişafı üçün münbit şərait yaradılmış, beynəlxalq turizm bazarına inteqrasiyanın təmin olunmasının əsası qoyulmuş, milli turizm kompleksinin rəqabətə davamlılığı yüksəlmişdir. Görülən kompleks işlərin nəticəsi olaraq ölkəyə gələn turistlərin sayı ilbəil artır, ölkədə fəaliyyət göstərən turizm şirkətləri şəbəkəsi genişlənir (bax: cədvəl 1).

2002-ci ildən başlayaraq, hər il Azərbaycanda beynəlxalq turizm sərgisi təşkil olunur. Ölkədə turizmin əhəmiyyətini artırmaq, turizm potensialını təbliğ etmək, yerli adət-ənənələri, milli mətbəxi, mədəni və tarixi irsi tanıtmaq məqsədi ilə tematik nəşr məhsulları (kitab, buklet, CD və DVD-lər və s.) hazırlanır və yayılır, dünyanın müxtəlif televiziya kanallarında reklam çarxı nümayiş etdirilir, həyata keçirilən yeni layihələr barədə reklam və elanlar verilir, bu istiqamətdə internet imkanlarından və digər elektron daşıyıcı vasitələrindən də geniş istifadə edilir.

Turizm sahəsində çalışanların peşə hazırlığının artırılması məqsədi ilə 2006-cı ildə Turizm İnstitutu yaradılmış, onun nəzdində müxtəlif peşələr üzrə daimi fəaliyyət göstərən kurslar açılmış, eyni zamanda, Ümumdünya Turizm Təşkilatının və Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə müxtəlif təlim proqramları həyata keçirilməkdədir.

Bununla yanaşı, turizmin inkişafı və turizm sektorunun ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsi bu gün Azərbaycanda ən mühüm vəzifə olaraq qarşıda durur. Son illər Azərbaycanda əldə olunmuş sosial-iqtisadi irəliləyiş bu vəzifənin yeni imkanlara adekvat səviyyədə həllinə şərait yaradır.

Azərbaycan Respublikasında turizm sektorunun dayanıqlı inkişafını təmin etmək və turizmin ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2010-cu il 6 aprel tarixində "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalamışdır.

Dövlət Proqramının başlıca məqsədi Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsidir. Bu məqsədə nail olunması aşağıdakı əsas vəzifələrin həllini nəzərdə tutur:
– ölkədə turizm infrastrukturunun yüksək beynəlxalq tələblər səviyyəsində qurulmasına istiqamətlənmiş məqsədyönlü fəaliyyətin həyata keçirilməsi;
– daxili və xarici investisiyaların turizm sahəsinə cəlb edilməsi məqsədi ilə bu sahədə təşviqləndirici investisiya və biznes mühitinin formalaşdırılması;
– turizm sahəsində qabaqcıl beynəlxalq təcrübədən istifadə edilməklə səmərəli dövlət tənzimlənməsi və idarə edilməsi mexanizmlərinin yaradılması;
– ölkənin turizm sahəsinin təq-

Cədvəl 1

Respublikada turizm müəssisələrinin bəzi əsas göstəriciləri

	2005	2006	2007	2008	2009	2010	2011
Müəssisələrin sayı, vahid	81	96	117	123	124	126	141
İşçilərin sayı (kənar əvəzçilər də daxil edilməklə), nəfər	646	779	1115	1 174	1 393	1 418	1541
ondan: turizm fəaliyyəti ilə məşğul olan işçilərin sayı, nəfər	564	612	745	749	1136	1159	1279
Müəssisələrin əldə etdiyi gəlir, min manat	6020,9	8480,0	15966,6	17120,5	17839,6	19065,3	22634,8
Məhsul (xidmət) istehsalına çəkilən xərclər, min manat	5661,4	7054,4	13843,0	15612,1	16907,9	17811,3	20662,1
Əhaliyə satılmış turizm yollayış blanklarının sayı, ədəd	16 444	20256	26008	27 055	28 509	34 121	42583
Əhaliyə satılmış turizm yollayış blanklarının dəyəri, min manat	3253,3	7697,1	10356,9	11148,9	15071,7	25848,7	29316,6

dim etdiyi xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin artırılması.

Dövlət Proqramı aşağıdakı istiqamətlərdə məqsədyönlü tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:

– turizm sahəsində normativ hüquqi bazanın və dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi;

– turizm və rekreasiya zonalarında müvafiq infrastrukturun yaradılması;

– ölkənin turizm potensialından istifadə imkanlarının genişləndirilməsi;

– ölkənin bütün regionlarında turizm fəaliyyətinin stimullaşdırılması;

– turizm sahəsinə yerli və xarici investisiyaların cəlb edilməsi;

– turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, yeni turizm marşrutlarının yaradılması;

– turizm xidmətlərinin keyfiyyətinin artırılması məqsədi ilə mütərəqqi üsulların və standartların hazırlanması və tətbiq edilməsi;

– mehmanxanaların və digər turizm xidməti müəssisələri şəbəkəsinin genişləndirilməsi;

– turizm sahəsi üçün kadr hazırlığı və ixtisasartırma sisteminin təkmilləşdirilməsi, xarici dövlətlərdə məqsədli təhsil üzrə layihələrin həyata keçirilməsi;


– Azərbaycanın milli-tarixi, mədəni və mənəvi irsinin, milli adət-ənənələrin dünyada təbliği, ayrı-ayrı regionların və şəhərlərin tarixini əks etdirən materialların nəşr etdirilməsi və yayılması, müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsi;

– milli sənətkarlıq və suvenir məhsullarının istehsalının və satışının təşviqi;

– turizmin inkişafı sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi.

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaitləri, o cümlədən dövlət büdcəsində Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi üçün nəzərdə tutulmuş vəsaitlər, habelə qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

TURİZM EKSPERTİZASI – turizm sərvətləri barədə məlumat daşıyıcısı olan obyektlər,


TURİST XƏRİTƏSİ
Miqyas 1:3 150 000
RUSİYA FEDERASİYASI
DAĞISTAN
GÜRCÜSTAN
ERMƏNİSTAN RESPUBLİKASI
İRAN İSLAM RESPUBLİKASI
TÜRKİYƏ
Xəzər
Balakən
Zaqatala
Yuxarı Çardaqlar
Minarəli məscid, XVII- XIX əsrlər
Qax
Şəki Xan sarayı, XVIII-XIX əsrlər
Şəki
Ağstafa
Qazax
Tovuz
Məbəd, V-VIII əsrlər
Didvan qülləsi, VI-VII əsrlər
Şəmkir
Düz körpü, XIX əsr
Gədəbəy
Daşkəsən
Göygöl
Böy.Hinaldağ
Xudavəng monastırı, XIII - XVII əsrlər
Kəlbəcər
Qarabağlar Tarix Memarlıq kompleksi, XII-XIV əsrlər
Heydərabad
Şərur
Qıvraq
Qarabağlar
Şahbuz
NAXÇIVAN
Babək
Culfa
Ordubad
Mömünə xatın türbəsi, 1186-1187-ci illər
Cümə məscidi, XVII əsr.
Mingəçevir
Göyçay
Ağdaş
Yevlax
Ucar
Tərtər
Bərdə
Zərdab
Ağcabədi
Ağdam
Xocavənd
Şuşa
XANKƏNDİ
Laçın
Füzuli
Cəbrayıl
Qubadlı
Zəngilan
Araz
Kür
Qarasu
Şəki Xan sarayı, XVIII-XIX əsrlər
Qusar
Quba
Xudat
Nabran
Xaçmaz
Şahdağ 4243
Birinci Nüqədi
Afurca
Şabran
Siyəzən
Sumqayıt
Bakı
Mərdəkan
Suraxanı
Qobustan
Hacıqabul
Şabirabad
İmişli
Saatlı
Şirvan
Salyan
Biləsuvar
Neftçala
Cəlilabad
Masallı
Yardımlı
Lerik
Lənkəran
Astara
Kömürköy d.
Qobustan Dövlət Tarix-Bədii qoruğu
Qız qalası, VI-XII əsrlər
Dairəvi qüllə, XIII əsr
Dördbucaqlı qəsr XII-XIV əsrlər
"Atəşgah" məbəd kompleksi, XVIII əsr
Kempinqlər
Kurortlar
Uşaqlar üçün istirahət yerləri
Çimərliklər
Turistlərin qış istirahət yerləri
Cıdır
Piyada gəzinti yerləri
Speleoturizm
Alpinist düşərgələri
Suda gəzinti yerləri
Təbiətin mənzərəli yerləri
Şəlalələr
Hava limanı
Dəniz limanı
Yanalma körpüləri
Gömrük
Meşələr
Avtomobil yolları(məsafələr km-lə)
Mineral su mənbələri
İri şəhərlərin və rayonların mərkəzlərində servis (mehmanxana, restoran, yanacaq-doldurma stansiyası, texniki xidmət) mövcuddur

hadisələr və proseslər haqqında elmin, texnikanın, incəsənətin və sənətkarlığın müxtəlif sahələrində xüsusi biliklər əsasında, müxtəlif sahədə təcrübi vərdişlərdən istifadə etməklə aparılan tədqiqatlar, o cümlədən turizm-rekreasiya zonalarının və turizm inkişaf ərazilərinin hərtərəfli tam və obyektiv öyrənilməsi və təhlili, turizmin davamlı inkişafının təmin edilməsi imkanlarının öyrənilməsi, ağlabatan antropogen yük nəzərə almaq şərti ilə turist axınının gücləndirilməsi imkanlarının və turizm sərvətlərinin məşhurlaşdırılması imkanlarının öyrənilməsi və təhlili.

Öz-özlüyündə ayrıca götürülmüş hər turist xidməti (yerləşdirmə, qidalanma, daşınma, məişət xidməti, ekskursiyalar, mədəni-kütləvi tədbirlər, idman, sağlamlaşdırıcı tədbirlər və s.) turistin bütün tələblərini ödəyə bilməz. Bu şəraitdə ən müxtəlif turist xidmətlərinin vahid kompleksə kooperasiyasına – tur və ya turist məhsuluna obyektiv zərurət meydana çıxır. Turistlərin tələbatını daha tam ödəmək məqsədi ilə turist xidmətləri kompleksinin formalaşdırılması zərurəti, öz növbəsində, turizm iqtisadiyyatında, turist bazarında mühüm rol oynayan tur təşkilatçıları – turoperatorlar və turagentlər doğurmuşdur.

Turoperator fəaliyyəti – turist məhsulunun bu bazara hərəkəti və onun satışı üzrə müxtəlif xidmətləri əks etdirən turist məhsulunun formalaşması üzrə fəaliyyətdir.

TURİZM FƏALİYYƏTİ – ayrı-ayrı və ya bir qrup turizm xidmətlərinin (turizm məhsulunun) yaradılması, hərəkətə gətirilməsi, satışı, turların hazırlanması, təşkili və həyata keçirilməsi, o cümlədən tura daxil olan xidmətlərin göstərilməsi (turizm məhsulunun icrası) üzrə turizm təşkilatçıları tərəfindən birbaşa və ya dolayısı ilə həyata keçirilən fəaliyyət. Turizmin aşağıdakı növləri məlumdur: sosial, işgüzar, idman, dərketmə, dini, mədəni, elmi konfrans, nostalji, hadisə, kənd-yaşıl, etnik, ekoloji, ekstremal, müalicə və s.

TURİZM İQTİSADİYYATI – iqtisad elminin bir sahəsi olub, təsərrüfatın bu sahəsində əhalinin böyük hissəsinin turist xidmətlərinə olan tələbatlarını ödəmək məqsədilə istehsal edən, paylayan, mübadilə və istehlak edən insanların hərəkətlərini öyrənir.

Turizmin iqtisadiyyatı predmetinin əsas məsələləri aşağıdakılardır:

– insanların turist xidmətlərinə olan tələbatlarını doğuran obyektiv amillər;

– insanların turist xidmətlərinə olan tələbatlarının məzmunu və xarakteri, həmçinin bu tələbatların müxtəlif meyarlar üzrə təsnifatı;

– turist məhsulunu istehlak edən insanların iqtisadi davranışı və maraqları;

– turist məhsulunun istehsal proseslərinin iqtisadi xüsusiyyətləri, turist sənayesinin və turizm sahəsinin əmək potensialının təhlili;

– müasir daxili və xarici bazar şəraitində turist məhsulunun formalaşması, mübadiləsi və satışı proseslərinin iqtisadi xüsusiyyətləri;

– turizmin həm müəssisə səviyyəsində, həm də sahə səviyyəsində fəaliyyət mexanizmlərinin iqtiadi və maliyyə spesifikası;

– həm mikro səviyyədə, həm də makro səviyyədə turizmin iqtisadi və sosial səmərəliliyi.

Turizm iqtisadiyyatının xüsusiyyətlərindən biri ondan ibarətdir ki, o, özünəməxsus dinamikliyə malikdir və dəyişkəndir. O, cəmiyyətin, səyahətlərin və turizmin inkişafı ilə birgə inkişaf etmişdir. Turizm bütövlükdə milli və dünya təsərrüfatında baş verən dəyişikliklərlə birlikdə həm iqtisadi, həm də sosial cəhətdən dəyişmişdir.

Müasir mərhələdə turizm iqtisadiyyatı (həm daxili, həm beynəlxalq) yeni xüsusiyyətlərlə xarakterizə olunur: ən müxtəlif növ və formalarda topdansatış turist firmaları, pərakəndə turoperatorlar və turagentlər, dünya, milli və regional turist təşkilatları meydana gəlmişdir.

Turizm iqtisadi sistemini dörd əsas hissəyə (yarımsistemə) ayırmaq olar:

– turist xidmətləri istehsalı;

– turist məhsulunun formalaşması;

– turist məhsulunun satışı;

– turist məhsulunun istehlakı.

Ümumiqtisadi aspektdə turist tələbatları turistlərin maraqlarını formalaşdırır. Bazar münasibətləri nöqteyi-nəzərindən bu tələbatlar turist məhsuluna olan istehlak tələbində yerləşir. Turist xidmətlərinin istehsalı turist sənayesini formalaşdırır. Bazar nöqteyi-nəzərdən bu istehsal turist xidmətlərinin təklifini formalaşdırır.

Müasir turizm dövlət və digər maliyyə, iqtisad institutları və

Cədvəl 1

Azərbaycan Respublikasında mehmanxana və mehmanxana tipli müəssisələrin ümumi iqtisadi göstəriciləri

	2005	2006	2007	2008	2009	2010	2011
Mehmanxana və mehmanxana tipli müəssisələrin ümumi sayı, vahid	262	285	320	370	452	499	499
Birdəfəlik tutum, yer	22 492	24 706	25 483	28 286	30 571	30793	30 793
Nömrələrin sayı, vahid	10 661	11 403	11 829	12 789	13 964	14 158	14 158
Gecələmələrin sayı, min adam / gecə	1 064,8	1 115,0	1 131,4	1 360,3	1 315,1	1 358,3	1 358,3
o cümlədən:							
xarici vətəndaşlar üzrə	539,8	557,3	573,1	636,7	561,3	568,1	568,1
Mehmanxana və mehmanxana tipli müəssisələrin: gəlirləri, mln.man.	**66,5**	**74,3**	**89,8**	**98,6**	**97,0**	**105,9**	**105,9**
xərcləri, mln. manat	**47,3**	**50,0**	**80,0**	**91,7**	**82,3**	**87,9**	**87,9**

Cədvəl 2

Azərbaycan Respublikasında mehmanxana və mehmanxana tipli müəssisələrin nömrə fondu (vahid)

	2005	2006	2007	2008	2009	2010	2011
Nömrələrin (otaqların) ümumi sayı	**10 661**	**11 403**	**11 829**	**12 789**	**13 964**	**14 158**	**14 815**
o cümlədən:							
lüks nömrələr	1 283	1 592	1 849	1 994	2 286	2 445	2 645
I dərəcəli nömrələr	5 839	5 690	6 008	6 066	6 700	5 825	5 974
turist dərəcəli nömrələr	3 539	4 121	3 972	4 729	4 978	5 888	6 196
Turistlərin sayının daha çox olduğu dövrdə maksimum istifadə olunan nömrələrin (otaqların) sayı – cəmi	6 529	5 839	6 644	7 908	8 151	9 015	9 148
Turistlərin sayının daha çox olduğu dövrdə maksimum istifadə olunan yerlərin sayı – cəmi	12 029	12 736	13 560	17 428	16 860	18 722	18 746

Cədvəl 3

Respublikanın rayonları (şəhəri) üzrə mehmanxana və mehmanxana tipli müəssisələrin birdəfəlik tutumu və gecələmələrin sayı

	Birdəfəlik tutum, yer			Gecələmələrin sayı, vahid		
	2009	2010	2011	2009	2010	2011
Respublika üzrə	**30571**	**30793**	**31979**	**1315135**	**1358286**	**1504312**
Naxçıvan MR	1495	1502		43667	56108	78729
Bakı	7768	10040	1021	831654	799607	862916
Gəncə	967	956	953	15488	8594	10555
Mingəçevir	764	788	929	12208	12207	11848
Xaçmaz	4869	6084	5738	128414	268263	270962
İsmayıllı	558	618	670	8077	5360	6589
Qax	494	484	377	22556	21194	9518
Qəbələ	602	602	506	17406	25666	13095
Quba	979	1293	1367	13179	32836	17487
Qusar	283	319	319	5809	4639	6620
Lerik	648	542	567	2052	19902	19276
Masallı	1248	1325	1349	82756	17489	33530
Şəki	566	576	596	21993	7471	9407
Zaqatala	357	357	357	4514	5293	5737

təşkilatları tərəfindən nəzarət edilən və nizamlanan bazar mühitində fəaliyyət göstərir. Turizmdə, hər bir iqtisadi sahədə olduğu kimi, iki təhlükədən qaçmaq lazımdır:

a) tamamilə kommersiya xarakterli nağd pullardan istifadədən;
b) sırf inzibati təşkilat sistemindən. Turizm bazarının öyrənilməsində əsas aspektlər bunlardır:

Cədvəl 4

Azərbaycan Respublikasında mülkiyyət növləri üzrə mehmanxana və mehmanxana tipli müəssisələrin birdəfəlik tutumu (yer)

	2005	2010
Birdəfəlik tutum	22 492	30 793
o cümlədən:		
dövlət	12 256	5 189
xüsusi	8 852	23 868
xarici	782	1 254
birgə	602	482

1) turizm bazarının fəaliyyət mexanizmi, onun seqmentasiyası, mövsümi xarakteri;
2) turizm bazarının və onun seqmentlərinin funksiyaları;
3) qiymətlərin formalaşması və turizmdə qiymətqoyma;
4) turizm sahəsində tələbata təsir edən amillərin öyrənilməsi, qiymətlərin və gəlirlərin alıcılıq qabiliyyətli tələbə təsiri;
5) turizm xidmətləri təkliflərinə təsir edən amillərin öyrənilməsi, həmçinin qiymətlərin və qiymətə aid olmayan amillərin xarakterlərinin təsirinin öyrənilməsi (investisiyaların və digər qiymətə aid olmayan təklif determinantlarının).

Turizm bazarında uzunmüddətli perspektivdə iqtisadi tarazlıq,

turizm sənayesinin obyektiv olaraq dərin maliyyə-iqtisadi təhlilini tələb edir (onun strukturunu, meyillərini və inkişaf şəraitini, funksional rolunu və istiqamətləndirilməsini). Turizm ehtiyatlarının və maddi-texniki bazasının təhlili turizm təklifinin, turizm xidmətlərinə tələbatın və təklifin tarazılığı, eləcə də turizm məhsulunun keyfiyyəti haqqında real imkanları məsələsinin həllinə yaxınlaşmaq imkanı verir.

Turizm iqtisadiyyatının ən mühüm problemi bu sahədə işçi qüvvəsindən istifadədir. Turizm iqtisadiyyatı əsas problem kimi sahibkarlıq fəaliyyəti və turizm şirkətinin bazarda davranışı məsələsini tədqiq edir. Bu, turizmdə sahibkarlıq fəaliyyətinin spesifik xüsusiyyətini, kommersiya hesabını dərindən bilmək, bu fəaliyyətin planlaşdırılmasını və ən əsas biznes planlaşdırmanı, eləcə də mühasibatlıq və idarəetmə uçotunu nəzərə almağı tələb edir.

Turizmdə sahibkarlığın əsas problemi turist şirkətinin xərclərinin, qazancının, ümumi mədaxilin və son gəlirin təhlilidir. Son xərcləri və son gəlirləri bilmək turizm bazarında şirkətin hərəkəti məsələsini həll etmək imkanı verir.

Fundamental iqtisadiyyat nöqteyi-nəzərindən turizmin inkişafı immament (daxili) səbəblərdən çox daha yüksək dərəcədə dünya təsərrüfat prosesləri və münasibətləri ilə izah edilən, özözlüyündə iqtisadi kompleks kimi görünür. Lakin turizm həmçinin bir çox sürətlə inkişaf etməkdə olan ölkələrin **iqtisadi artımının katalizatorudur**, onlar başqa ölkələrdə yeni iş yerləri yaradırlar.

Müasir turizm iqtisadi hadisə kimi:

– sənaye formasına malikdir;

– yığım və daşınma qabiliyyəti olmayan turist məhsulu və xidməti kimi iştirak edir;

– yeni iş yerləri yaradır və çox vaxt yeni ərazilərin istifadə edilməsində pioner və milli iqtisadiyyatın sürətli inkişafında katalizator kimi çıxış edir;

– milli gəlirin turizm sahəsi üzrə ixtisaslaşdırılmış ölkələrin xeyrinə yenidən bölüşdürülməsi mexanizmi kimi iştirak edir;

– məşğulluğun və yerli infrastrukturun inkişafının və yerli əhalinin yaşayış səviyyəsinin inkişafının yüksəlməsinin multiplikatorudur;

– yüksək səviyyəli effektivliklə və investisiyaların tezliklə geri qaytarılması ilə xarakterizə olunur;

– təbiətin və mədəni irsin qorunmasında səmərəli vasitə kimi çıxış edir, belə ki, məhz bu elementlər onun resurs bazasının əsasını təşkil edir;

– praktiki olaraq bütün təsərrüfat sahələri və insan fəaliyyəti ilə uyğunlaşır, çünki məhz onların diferensiasiyası və diskretliyi insanların yerdəyişmə və dərk etməsi tələbatlarının rekreasion mühitinin potensiallarının fərqini yaradır.

Beləliklə, turizm inkişaf etdiyi regionun (yaxud ölkənin) iqtisadiyyatına, onun təsərrüfat, sosial və humanitar əsaslarına fəal təsir göstərə bilər.

Turizmə iqtisadi hadisə kimi diqqət yetirənlərdən ölkələrin iqtisadi inkişaf mərhələləri arasında korrelyasiyanı və onlarda turizmin inkişafına olan xarakterik xüsusiyyətləri təyin etmiş Amerika iqtisadçısı P.Rotou birincilərdən olmuşdur. Hazırda turizmin iqtisadi sahəsinə iqtisadi təsir modeli həddindən artıq mürrəkəbləşib və nəzəri konsepsiyalara və mülahizələrə deyil, statistik məlumatlara əsaslanır. P.Rotounun modelinə gəldikdə isə, o, turizm iqtisadiyyatının ən hörmətli şəxsləri tə- rəfindən indiyə kimi klassik model kimi qəbul edilir. Doğrudan da, 1959-cu ildən dünya turizminin və iqtisadiyyatının əsaslı surətdə dəyişməsinə baxmayaraq, P.Rotounun mülahizəsi nəinki köhnəlməyib, o hətta yeni statistik məlumatlarla və müasir meyillərlə təsdiqlənməkdə davam edir.

P.Rotounun əvvəlcədən dediyi kimi, inkişafda olan ölkələrdə xidmətlər sahəsində gəlirin multiplikasiya vasitəsi, yerli əhalinin məşğulluq vasitəsi və infrastrukturun inkişafı kimi daxili turizm tez inkişaf edir. Xarici turizm xarici investisiyaların olduğu halda inkişaf edir.

ÜTT-nin ekspertləri dünya turist bazarının dinamikasını aşağıdakı kimi xarakterizə edirlər:

– xidmətlər həcminin artması davam edəcək;

– artım əsasən Asiya, Orta Şərq, Mərkəzi və Cənubi Amerika və Avropanın səfərlər bazarı hesabına əldə olunacaq;

– turistlərin qəbul edilməsi üçün daha əlverişli şərait Asiyada olacaqdır, lakin bütün digər rayonlar da orta artım perspektivinə malikdir;

– daxili turizmin daha yüksək sürətlə inkişaf etməsi davam edəcəkdir;

– uzunmüddətli beynəlxalq turizm qısamüddətli turizmdən daha sürətlə inkişaf edəcəkdir;
– turizmə xarici amillərin: iqtisadi vəziyyətin, siyasi mühitin, səyahətlərin təhlükəsizlik səviyyəsinin təsiri güclənəcəkdir.

Turizm fəaliyyəti Azərbaycan Respublikası iqtisadiyyatının prioritet sahələrindən biri kimi qəbul edilmiş və bu sahədə dövlət aşağıdakı prinsipləri rəhbər tutur:
– turizm fəaliyyətinə kömək edir və onun inkişafı üçün əlverişli şərait yaradır;
– turizm fəaliyyətinin prioritet istiqamətlərini təyin edir və onlara dəstək verir;
– Azərbaycan turizm üçün əlverişli ölkə olduğu haqqında təsəvvür yaradır;
– Azərbaycan turistlərinin, turoperatorlarının, turagentliklərinin və onların birliklərinə dəstəyi təmin edir.

Turizm fəaliyyətinin dövlət tənzimlənməsinin əsas məqsədləri aşağıdakılardır:
– vətəndaşların istirahət hüququnu, səyahətlər zamanı azad hərəkət etmə və digər hüquqlarının təmin edilməsi;
– ətraf aləmin təbiət mühitinin qorunması;
– turistlərin maarifləndirilməsinə, tədrisinə və sağlamlığına yönəldilmiş fəaliyyət üçün şərait yaradılması;
– vətəndaşların səyahət zamanı tələbatlarını ödəyən turizm sənayesinin inkişafı;
– yeni iş yerlərinin yaradılması;
– dövlətin və vətəndaşların gəlirlərinin artması, beynəlxalq əlaqələrin inkişafı;
– turistlərə göstəriləcək obyektlərin qorunması, təbii və mədəni irsdən səmərəli istifadə edilməsi.

Turizm fəaliyyətinin dövlət tənzimlənməsinin prioritet istiqamətləri daxili, ölkəyə gəlmə, sosial və şəxsi fəaliyyət turizminin dəstəklənməsi və inkişafıdır.

Son illərdə respublikada turizm fəaliyyətinin dövlət tənzimlənməsinin konkret istiqamətləri ilə əlaqədar böyük işlər görülmüşdür. Belə ki, turizm sahəsində münasibətlərin təkmilləşdirilməsinə yönəldilmiş müvafiq normativ-hüquqi aktlar yaradılmış; turistlərin hüquq və maraqlarının müdafiəsi, onların təhlükəsizliyinin təmin edilməsi ilə bağlı konkret tədbirlər görülmüş; turizm sahəsində lisenziyalaşdırma, standartlaşdırma, turizm məhsulunun sertifikatlaşdırılması işləri xeyli təkmilləşdirilmiş; turizmin inkişaf maraqları nəzərə alınaraq, ölkəyə gəlmək, getmək və onun ərazisində qalmaq qaydaları sadələşdirilmiş; turizmin inkişafı ilə bağlı büdcədən maliyyələşən məqsədli proqramlar işlənib hazırlanmışdır. Eyni zamanda turizmin inkişafı ilə əlaqədar güzəştli kreditlərin verilməsi, turizm fəaliyyətinin kadrlarla təmin edilməsinə kömək, turistlərin, turoperatorların, turagentlərin və onların birliklərinin beynəlxalq turizm proqramlarında iştirakına kömək etmək, kartoqrafik məhsullarla təmin etmək işləri xeyli təkmilləşdirilmişdir.

Respublikada turizmin inkişafına dövlət dəstəyi ildən-ilə artır. Turizm sahəsinin inkişafında özəl sektorun xüsusi payı vardır. Hazırda Azərbaycanda aşağıda adları qeyd edilən turizm şirkətləri fəaliyyət göstərir: "Elegant-M"LTD, "Atlas Tur" MMC, "N Travel", "Improtex Travel Tours & Conferences", "SW Travel", "PASHA Travel", "Royal-Travel Azerbaijan", "Gilan Tourism", "VIP-F Tour", "Royal Travel", "Buta Tourism", "ISR Travel", "Elite Travel" və s.

"Gilan Turizm" hazırda Azərbaycanın iqtisadi inkişafına öz töhfələrini verən "GİLAN" MMC-yə məxsusdur. Azərbaycanın gözəl təbiəti, xoş iqlimi, insanlarının qonaqpərvərliyi dünyanın bir cox ölkələrindən turistləri məhz bu məkanda istirahət etməyə cəlb edir.

"Gilan Turizm" Azərbaycanda turizmin inkişafı sahəsində böyük işlər görməkdədir. Şirkət turizm sahəsinə külli miqdarda sərmayə qoymağa və yüksək səviyyəli kadrlar hazırlamaq imkanına malikdir. "Gilan Turizm"in həyata keçirdiyi layihələr Azərbaycan gənclərinin turizm sahəsində professional təhsil alaraq yeni turizmçi və idarəedici kadrları kimi yetişməsinə kömək etməkdədir. Şirkət Səyahət Agentliyi, Otel və Komplekslərindən ibarətdir. "Gilan Turizm" səyahət agentliyi, incoming (daxili turizm) və outgoing (xarici turizm) fəaliyyətləri yerli və xarici turistlərə keyfiyyətli istirahət keçirməyə imkan təqdim etməkdədir. Fərqli tur yerləri, geniş istirahət proqramları ilə səyahət agentliyi qonaqlarına unudulmaz anlar yaşamaq zəmanəti verir.

"Gilan Turizm"in nəzdində 6 otel, 1 İstisu sanatoriyası, olimpik kompleksi var. Bunlara Qafqaz Resort Hotel (Qəbələ)*****, Qafqaz Point Hotel (Bakı)*****,



foto: Ülkər Mirbağırlı

Yeni Four Seasons oteli çox nüfuzlu ərazidə yerləşir: Xəzər dənizinə baxan küçənin kəsişməsində, bina yandan sahilyanı bulvar, digər tərəfdən Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və şimaldan yenicə salınmış parkla əhatə olunur



Qubek Hotel (Balakən)



Ramada Plaza
(Gəncə)

AF Hotel
Aqua Park
(Novxanı)






Daştvand Hotel
(Masallı)



Atlant istirahət mərkəzi (Nabran)

Palıdlı Sahil (Lənkəran)






"Uludağ Turizm və İstirahət Kompleksi" (İlisu – Qax)



Yengicə istisu və sağlamlıq və istirahət kompleksi (Qəbələ)


Relax (Lerik)





Narın Qala (Şəki)


Kür


Turac



Quzugötürən


Hörümçək


Dələ


İkar göyçəsi


Nəcib maral


Ceyran


Qaraçörəkotu
Meşə ekosistemi erkən yazda
Saqqızağac
Şmidt tülpanı
Qayalıq kəkliyi
Daşçevirən
Qəşəng durna
Ağ suzanbağı


Afurca şəlaləsi
Laza şəlaləsi
Durusu şəlaləsi
LERİK
50m Qalabın şəlaləsi
Yardımlı şəlaləsi
Yeddi gözəl şəlaləsi



Alp çəməniyi



Batabat




Bayan kəndində Alban məbədi



Bədə – Basqal turizm zonası



Darıdağ – mineral suyatağı



Dilman kəndi



Haçaqaya geoloji təbiət abidəsi



İlisu kəndi


Əsgəran qalası XVIII əsr



Göyəzən dağı


Kəpəz dağı


Kiş kəndi


Zərnəva yolu – Lahıc


Qədim Şabran-xarabalıqları


Şahbuz – Badamlı kəndi


Xoşbulaq



Şərq çinarı



Təndir bulaq – Əshabə Kəhf





Əshabə Kəhf



Yanar su – Paytaxt qəsəbəsi



Paytaxt qəsəbəsi – Türbələr kompleksi



Böyük Mərdəkan qalası

Kiçik Mərdəkan qalası

Nardaran qalası

Ramana qalası

Gülüstan qalası – XIII əsr

Qobustan qalası



Buzovna – "Mirvari çimərliyi"
foto: Ülkər Mirbağırlı

Gilan Hotel (Qəbələ)***, Qəbələ Hotel (Qəbələ) ***, Musado Hotel (Bakı)****, Qafqaz Sahil Hotel (Lənkəran) ****, Yengicə İsti su Sanatoriyası, Samaxı Olimpiya Kompleksi aiddir.

"PASHA Travel" agentliyi Azərbaycanda ən böyük holdinqlərdən biri olan daşınmaz əmlak və tikinti, sığorta və bank işi sahələrində fəaliyyət göstərən "PASHA Group" şirkətlər qrupunun bölmələrindən biri kimi 2003-cü ildə təsis edilib. Bu vaxt ərzində agentlik özünü etibarlı və peşəkar tərəfdaş kimi tanıtmağa müvəffəq olmuşdur. "PASHA Travel" Azərbaycanda ən tanınmış korporativ turizm agentliklərindən biri kimi güclü nüfuza malikdir. Şirkət öz müştərilərinə aviabiletlər, mehmanxanalar, transferlər və turların əvvəlcədən sifarişlə edilməsi (bron), habelə viza xidmətlərinin göstərilməsi və korporativ tədbirlərin təşkili də daxil olmaqla, dünyanın istənilən nöqtəsinə səfərlər üzrə xidmətlərin tam spektrini təklif edir.

Şirkətin peşəkar kollektivi hər bir konkret müştərinin fərdi standartları və korporativ siyasətinə yönəldilmiş yüksək keyfiyyətli xidmətləri təmin edir.

"PASHA Travel" agentliyi Bey-

nəlxalq Hava Nəqliyyatı Assosiasiyası (IATA) və Amerika Səyahət Agentlikləri Cəmiyyətinin (ASTA) üzvüdür.

SW Travel – yerli və xarici şirkətlərə, o cümlədən turistlər üçün dünyanın istənilən nöqtəsinə səfər və səyahətlərin, aviabiletlərin, mehmanxanaların, transferlərin, turların, viza xidmətlərinin və s. təşkili üzrə fəaliyyət göstərən şirkətdir.

Peşəkar əməkdaşların yüksək səviyyəli xidmətləri hər bir korporativ və müştərilərin tələb və standartlarını təmin etməyə istiqamətlənmişdir.

SW Travel-ın iş prinsipləri: iş tərəfdaşlarına qarşı səmimiyyət, müştəriləri qarşısındakı öhdəliklərə məsuliyyət; turizm sahəsində peşəkar, etibarlı, keyfiyyətli xidmət; ən ali beynəlxalq standartlara əsaslanaraq müştərilərə sərfəli səyahət seçimləri təqdim etmək.

"İmproteks" Şirkətlər Qrupu – şirkət öz başlanğıcını 1991-ci ildə yaranmış "İmprotex" MMM-dən götürmüşdür. İlk vaxtlar şirkət Azərbaycanda və keçmiş sovet respublikalarında yalnız ölkə daxilinə turizm turları təşkil edirdi. Bu, çox az müddət davam etdi. İndi isə şirkət biznesin müxtəlif sahələrində böyük təcrübəyə malikdir.

Azərbaycanda ilk özəl avia şirkətin – "İmair"in yaradılması məhz İmproteks Qrupun adı ilə bağlıdır.

Bu gün "İmproteks" Şirkətlər Qrupu dünyanın ən məşhur şirkətləri ilə əməkdaşlıq edir, bir sıra xarici dövlətlərdə nümayəndəliyini yaradır, tanınmış brendlərin Azərbaycan bazarına gətirilməsinə nail olur, ölkənin qeyri-neft sektorunun inkişafına öz töhfəsini verir.

"İmprotex Travel, Tours & Conferenses" Azərbaycanın ilk turizm agentliklərindən biridir. Şirkətin 100-dən artıq ölkələrlə əlaqələri vardır. Şirkət mühüm turizm sərgilərində iştirak edir, "İATA"-nın üzvü və "Lufthansa", "Aeroflot", "Domodedovskie Avialinii" və s. kimi qabaqcıl avia şirkətlərin satış üzrə agentidir. 1996-cı ildə "İmproteks Travel, Tours & Conferences" şirkəti "Lufthansa City Center" kimi dünyanın ən iri turizm şirkətləri silsiləsinə qoşulub.

"Improtex Trayding" şirkəti Azərbaycanın istehlak bazarında məşhur elektronika və məişət texnikası istehsalçılarının məhsullarının satışı ilə məşğuldur. "İmproşop" satış salonları şəbəkəsi vasitəsi ilə "PHİLIPS", "AIWA", "SONY", "KENWOOD", "SHARP", "PANASONIC", "TOMSON", "MERLONI", "CITIZEN" markalı elektronika məhsullarını, məişət texnikası üzrə "BRAUN", "MOULINEX", "ARISTON", "INDESIT" və Fransa qabqacağı – "ARC.INTL.", "PARKER" ve WATERMAN" aksesuarlarını, "Delta", "Sherzer", "Eme", "Zwilling C.A. Henckels" brendlərini alıcılara təqdim edir.

"İmprotex Motors" şirkəti "BMW" və "MİNİ" avtomobillərinin Azərbaycanda rəsmi importyorudur. Şirkət yüksək keyfiyyətli texniki xidmət sahəsi, peşəkar diaqnostika avadanlığı və gözəl satış salonuna malikdir.

"İmintex Tikinti və Quraşdırma" şirkəti bir sıra sahələrdə, o cümlədən energetika sahəsində nəzəri, araşdırma-layihə işlərinin icrası, yeni texnologiyanın respublikada tətbiqinin istiqamətlərini və yerini müəyyənləşdirməklə məşğul olur. Şirkət tikinti sahəsində də böyük təcrübəyə malikdir.

"İmprotex Trans Express" şirkəti Azərbaycanda biznes-turizm sahəsində öz turizm və yükdaşıma xidmətlərini göstərir.

"Improtex Marine & Sport Facilities" əsasən aktiv istirahət üçün dəniz və idman avadanlıqlarını alıcılara təqdim edir. Zəngin çeşidlərə malik olan şirkətimiz yaxtalar, kiçik və orta həcmli yelkənli qayıqlar, katerlər, sadalanan mallar üçün müxtəlif həcmli (2-300 at gücünədək) mühərriklər, dəniz motosikletləri və bu kimi digər dəniz texnikasının satışını təşkil edir.

"İmprotex Trucks & Buses" şirkəti Almaniyanın tanınmış "MAN" şirkətinin də Azərbaycanda eksklüziv strateji portnyorudur.

TURİZM İNFRASTRUKTURU – turizm məhsulu istehsalı təşkilinin kompleksli sistemi, yaxud mehmanxana və digər yerləşdirmə-yerdəyişmə, nəqliyyat vasitələrinin, ictimai iaşə, əyləncə obyektləri və vasitələrinin, tanış olma, idraki, iş-peşə, sağlamlaşdırma, idman və digər təyinatlı obyektlərin, turoperator və turagent fəaliyyətini həyata keçirən ixtisaslaşdırılmış müəssisə və təşkilatların, həmçinin ekskursiya və bələdçi (bələdçi-tərcüməçi) xidmətləri göstərən təşkilatların məcmusu.

TURİZM İNFRASTRUKTURU SUBYEKTLƏRİ – turizm təşkilatçıları, turizm sahəsində maliyyəçi qismində çıxış edən

şəxslər, o cümlədən sərmayəçilər, həmçinin turizm məhsulunun satışına digər şəkildə rəvac verən və (va ya) turizm infrastrukturunun fəaliyyətində iştirak edən sair şəxslər.

TURİZM MƏHSULU – turistlərin turla bağlı tələbatlarının ödənilməsinə yönəldilmiş və turistlərə göstərilən xidmətlərin (turistlərin yerləşdirilməsi, nəql edilməsi, qidalanması üzrə xidmətlərin, habelə ekskursiya, bələdçi (bələdçi-tərcüməçi) xidmətlərinin və səfərin məqsədlərindən asılı olaraq göstərilən digər xidmətlərin), turla bağlı görülən işlərin və təqdim edilən malların (reklam məhsulu, turist yeməkləri və s.) məcmusu.

TURİZM MƏHSULU İSTEHLAKÇILARI – turizm məhsulunu və ya ayrıca turizm xidmətini sahibkarlıq fəaliyyəti göstərmək və (və ya) gəlir əldə etmək məqsədilə deyil, müstəsna olaraq özünün istehlakı və ya ictimai istehlak məqsədi ilə sifariş etmək arzusunda olan, sifariş edən və ya istehlak edən turistləri, ekskursantları, yerləşdirmə yerlərinin qonaqlarını, turizm obyektlərinin digər müştərilərini, o cümlədən korporativ sifarişçiləri.

Turizm iqtisadi sisteminin son halqası – turist məhsulunun istehlakıdır. Ənənəvi olaraq turist məhsulu istehlakının aşağıdakı xüsusiyyətləri vardır:

Turist istehlakının birinci xüsusiyyəti. Turist məhsulunun bütövlükdə və ya ayrı-ayrı xidmətlərlə istehlakı üçün istehlakçının özü turist məhsulu istehsal olunan yerə çatdırılmalıdır. Turist istehlakının bu xüsusiyyəti, öz növbəsində, törəmə multiplikasiya effekti doğurur: turistin turist məhsulunu istehlak edəcəyi yerlərdə bütövlükdə nəqliyyat xidmətlərinin, yaşayış, qida, qonaq qəbulu sisteminin olması, müalicə, əyləncələr, təhsil, yeni təəssüratlara olan tələbatın ödənilməsi, həmçinin ekoloji cəhətdən sağlam mühit, təhlükəsizlik və s. yaradılması zəruridir.

Turist istehlakının ikinci xüsusiyyəti ondan ibarətdir ki, turistin xərcləri, bir qayda olaraq, kəmiyyətcə onun daimi yaşadığı yerdə olan xərclərindən artıq olur. Bu, nəqliyyata, yaşayışa, qidalanmaya, həmçinin mədəni və işgüzar tədbirlərə olan yüksək xərclərlə bağlıdır. Yüksək xərclərin bir hissəsi turist istehlakının nüfuzluluğu amili ilə bağlıdır.

Turist istehlakının üçüncü xüsusiyyəti ondan ibarətdir ki, məhsulun son faydalılığı turistin özünün nöqteyi-nəzərindən onun yaşadığı ölkə, onun səfər etdiyi ölkə və bazar nöqteyi-nəzərindən müxtəlifdir. Bütün bu subyektlərin son faydalılıqları həm kəmiyyətcə, həm də keyfiyyətcə müxtəlifdir. Cəmiyyət, turist və bazar nöqteyi-nəzərindən də həm daxili, həm də ölkədən çıxmaqla turist xidmətlərinin faydalılıq səviyyələri də müxtəlifdir.

TURİZM MƏHSULUNUN İDXALI – gəlmə turizmlə bağlı, habelə xaricdə satılmış, istehsal olunmuş turizm məhsulunun, ayrıca turizm xidmətinin Azərbaycan Respublikası ərazisində icrası ilə əlaqədar turizm fəaliyyəti.

TURİZM MƏHSULUNUN İXRACI – xarici (getmə) turizmi ilə bağlı, habelə Azərbaycan Respublikasında satılmış və ya istehsal olunmuş turizm məhsulunun Azərbaycan Respublikası hüdudlarından kənarda icrası ilə əlaqədar turizm fəaliyyəti.

TURİZM REYESTRİ – çağdaş informasiya texnologiyalarına əsaslanan turizm sərvətləri, turist ehtiyatları, təbiət və mədəniyyət irsi barədə məlumatları, turizm sənayesinin subyektləri haqqında məlumat bazasını, turizm sərvətləri, turist ehtiyatları, turizm sənayesi və turizm fəaliyyəti barəsində statistik məlumatları və onların monitorinqi barəsində məlumatları əks etdirən məlumat bankı.

TURİZM SƏNAYESİ – turizm xidməti obyektləri, nəqliyyat vasitələri, qidalanma obyektləri, əyləncə obyektləri və vasitələrinin, tanışlıq, işgüzar, müalicəvi, idman və digər növ obyektlərin məcmusu.

Turizm sənayesinin məqsədi turist, turist xidmətlərinin istehlakçısına xidmətdir. Onun tələbatları və onların ödənilmə dərəcəsi – turist məhsulunun keyfiyyət meyarıdır. Bunun üçün mütəşəkkil turist müəssisələri və birlikləri yaradılır.

TUROPERATOR – turların qruplaşdırılması və zərfləşdirilməsi (turpaketin hazırlanması), turizm məhsulunun ərsəyə və hərəkətə gətirilməsi, eləcə də bu məhsulun satışı və müvafiq turizm xidmətlərinin tam və ya qismən göstərilməsi ilə, həmçinin ekskursiya zərfinin hazırlanması, ekskursiya xidmətlərinin hərəkətə gətirilməsi, satışı, tam və ya qismən həyata keçirilməsi ilə məşğul olan, turizmlə

XX əsrin 80-ci illərindən etibarən isə turizmin yeni növü olan ekoturizm prioritet istiqamətə çevrildi. Artıq ekoturizm turizmin yeni sektoru kimi formalaşmağa başladı. Bu gün ekoturizmin inkişaf tempi bütün turizm industriyasının inkişaf tempindən 2-3 dəfə çoxdur.

Turizmin inkişafı sahəsində həyata keçirilən kompleks tədbirlər çərçivəsində qarşıya qoyulan əsas məqsədlər sırasında ekoturizm ehtiyatlarının öyrənilməsi və genişləndirilməsi, turistlərin istirahəti, onların tələbatının ödənilməsi üçün zəruri olan xidmətlərin müasir standartlara uyğunlaşdırılması kimi amillər dayanır.

Ölkəmizdə aparılan uğurlu islahatlar iqtisadiyyatımızın hərtərəfli və çoxşaxəli tərəqqisinə, xalqın rifah halının yüksəldilməsinə, sosial tələbatların daha dolğun ödənilməsinə münbit şərait yaratmışdır. Bunun nəticəsidir ki, ölkənin siyasi və iqtisadi qüdrəti getdikcə yüksəlir. Azərbaycanda son 8 il ərzində neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun da davamlı inkişafı böyük perspektivlərə yol açır. Əsrarəngiz və özünəməxsus təbiətə, zəngin mədəni irsə malik olan Azərbaycan çox qısa zamanda dünyanın ən cəlbedici turizm-rekreasiya ölkəsinə çevrilə bilər. Çeşidli bioloji müxtəliflik və landşaft müxtəlifliyi, unikallıq, urbanizasiyanın və kənd təsərrüfatının toxunulmamış landşaftlara malik Azərbaycan təbiəti ekoturizmin inkişafı üçün ideal şərtlərə malikdir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatlarına əsasən bu gün Azərbaycanda ümumi sahəsi 310534 ha olan 8 milli park, ümumi sahəsi 218335,2 ha olan 11 dövlət təbiət qoruğu, ümumi sahəsi 361157 ha olan 24 dövlət təbiət yasaqlığı, 3000-dək dünya, dövlət və yerli əhəmiyyətli təbiət abidəsi vardır. Qoruq ərazilərinin ümumi sahəsi 890026,2 ha (10,3%) təşkil edir. Bütün bu sadalananlar Azərbaycan təbiətinin turizm-rekreasiya potensialının sistemli təsnifatının yaradılmasını zəruri edir.

Bu baxımdan akademik Qərib Məmmədov, Elman Yusifov, Mahmud Xəlilov, Vüqar Kərimov tərəfindən hazırlanmış "Azərbaycan: ekoturizm potensialı" adlı 2 cildlik kitab diqqəti cəlb edir.

Əsərdə qeyd edilir ki, tədqiqat dövrü ərzində Azərbaycanın regionları ekoturizm baxımından maraq kəsb edə biləcək bioloji, geoloji, landşaft kompleksləri tədqiq edilmiş, ərazinin bioloji müxtəlifliyinin monitorinqi aparılmış, əldə edilmiş məlumatlar ekoloji və ekoturizm mövqeyindən sistemləşdirilmişdir. Təbii sərvətlər relyef, geoloji quruluş, səth suları, iqlim torpaq örtüyü bioloji müxtəliflik, tarixi-etnoqrafik və s. mövzular üzrə qruplaşdırılmışdır. Təbiət abidələri bioloji, geoloji və paleontoloji təsnifat əsasında verilmişdir. Bir sıra unikal təbiət abidələri, nadir, nəsli kəsilməkdə olan bitki və heyvan növləri haqqındakı məlumatlar, onların fotoşəkilləri ilk dəfə olaraq təqdim edilir.



Kəlbəcər dağları

məşğul olmaq üçün zəruri xüsusi razılıq (lisenziya) almış hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan turizm sahəsində sahibkalıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs, habelə turizm sahəsində fəaliyyət göstərmək səlahiyyəti olan digər qurumdur, o cümlədən ailə kəndli təsərrüfatı.

TUTULMA – öhdəliyin yerinə yetirilməsinin təmin edilməsi üsulu. Borclunun öhdəliyi yerinə yetirilməyincə, borcluya məxsus olan və kreditorun yanında olan müəyyən əşyanın kreditor tərəfindən saxlanması. Tutulma təkcə saxlanılan əşyanın dəyərinin ödənilməsi ilə deyil, həm də borclunun kreditor qarşısında ola biləcək başqa öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı olan tələblərlə təmin edilə bilər. Hətta borclu kreditorun əlində olan əşya barəsində hüquqlarını üçüncü şəxsə satmış olduqda belə (bu əşya kreditora verildikdən sonra) kreditor onda olan əşyanı saxlaya bilər. Müəyyən şəxsə çatası pul məbləğinin ya köçürməni həyata keçirən şəxs tərəfindən, ya da üçüncü şəxslər tərəfindən, həmin şəxsə təqdim edilən tələblərin təminatı kimi çatmalı məbləğin bir hissəsinin hesaba köçürülməməsidir (verilməməsidir). Məsələn, işçilərdən gəlir vergisinin, pensiya fonduna ödənişlərin, alimentlərin və s. tədiyələrin tutulması əmək haqqından tutulma formasında həyata keçirilir. Əmək haqqından tutulmuş bütün məbləğlər işçinin hesablaşma cədvəlində əks etdirilməlidir.



Bol məhsullu püstə ağacı (Buzovna kəndi) *foto: Üzeyir Muradov*

U



UCUZLAŞDIRILMA – 1. Aktivin balans dəyərindən aşağı qiymətləndirilməsi. 2. Komisyon ucuzlaşdırma komissiyaya qəbul edilmiş və satışa qoyulmuş, lakin müəyyən edilmiş müddətdə (adətən, 20 təqvim günü) satılmamış əşya üçün komitent tərəfindən müəyyən edilmiş ilkin qiymətin aşağı salınması. Komisyon ucuzlaşdırma, adətən, əşyanın ilkin qiymətinə nisbətən faizlə müəyyən edilir. Əşya satışdan çıxarılana qədər təkrar komisyon ucuzlaşdırma və üçüncü ucuzlaşdırma mümkündür.

UCUZLAŞDIRILMIŞ MAL – bazarda satışa qoyulduqdan sonra ilkin qiyməti kəskin şəkildə aşağı düşmüş mal (malın qiymətinin ucuzlaşması). Bir qayda olaraq, mövsümi məhsulların (malların), eləcə də istehlakçılar arasında tələbatı aşağı olan malların qiymətləri müntəzəm olaraq aşağı salınır.



"UCUZ PULLAR" – dövlət ekspansionist pul-kredit siyasəti yeritdiyi halda, mərkəzi banklar tərəfindən aşağı faiz dərəcəsi ilə kommersiya banklarına verilən kredit resursları. Bu siyasətə sərbəst pul ehtiyatlarının artırılması üçün uçot dərəcələrinin, məcburi ehtiyat normalarının azaldılması, dövlətə məxsus qiymətli kağızların (ilk növbədə istiqrazların) girovdan çıxarılması tədbirləri daxildir.

"Ucuz pullar" dövlətdə pul-kre-

dit sisteminin tənzimlənməsinin əsas qeyri-inzibati metodlarından biridir. Dövlət hakimiyyət orqanları "ucuz pullar"dan həm də müəssisələrin və sahələrin lazımi səviyyədə saxlanması üçün istifadə edir.

Dövlət ölkədə iqtisadi inkişafın stimullaşdırılması üçün "ucuz pullar" siyasəti yeridir.

UÇOT – təşkilatın təsərrüfat həyatında bütün sistemin ümumi görünüşünü səciyyələndirən vasitə kimi çıxış edir. Uçot işi cəmiyyətin hesablaşma apardığı erkən zamanlardan, təxminən 6 min il öncə mövcud olsa da, ikili yazılış sistemi üzərində qurulan mühasibat uçotunun ilk simptomları XIII əsrdə italyan riyaziyyatçısı Luka Poçollinin (1445-1517) "Hesabın, həndəsənin məbləği, nisbətlər və münasibətlər" əsərində verilmişdir. Uçotun ikili yazılış sistemi əsasında qurulması faktları istehsalın, idxalın, ixracın uçotu, statistikasına dair materiallara Nəsirəddin Tusinin əsərlərində, akademik Əbdülkərim Əlizadənin "XIII-XIV əsrlərdə Azərbaycanın sosial-iqtisadi sənayesi tarixi" adlı kitabında (rus dilində) öz əskini tapmışdır. Uçotun təşkilində hazırda dördpilləli: birinci pillə *qanunlar*, ikinci *standartlar*, üçüncü *metodik göstərişlər*, dördüncü işləmə sənədlərini əhatə edən *normativ sənədlər* məcmusu mövcuddur. Bazar iqtisadiyyatı sistemində uçotun əsas beş növü və formasından istifadə olunur: maliyyə, idarəetmə, statistik, operativ və mühasibat uçotu.


İlkin uçot, bir qayda olaraq, ilkin uçot sənədlərində (məsələn, doğum haqqında şəhadətnamə, tapşırıq, faktura, qəbzlər, aktlar və s.) müxtəlif faktlar (baş verən hadisələr, dəyişən proseslər və s.) üzrə aparılan qeydiyyat. İlkin uçotun funksiyalarına müşahidə əməliyyatları, yəni məlumatların və yekunların hesablanmasının qeydiyyatı aid edilir. İlkin uçot sənədləri digər uçot növləri mühasibat, statistika üçün məlumat mənbəyi hesab edilir.

UÇOT BAZARI (DİSKRET BAZAR) – pul bazarının bu hissəsində qısamüddətli pul vəsaitləri ödəniş müddəti bir ilə qədər olan veksellərin və qiymətli kağızların alqı-satqısı yolu ilə kredit təsisatları arasında bölüşdürülür. Uçot (diskret) bazarı XI əsrdə ticarətin və bank işinin inkişafı bazasında yaranmışdır.



UÇOT DƏRƏCƏSİ – uçot faizinin nisbi kəmiyyətidir ki, bu da bank tərəfindən vekselin uçotu (alqısı) məqamında həmin vekselin məbləğindən tutulur. Veksellərin ödəmə müddəti başa çatana qədər onların alışından ibarət uçot dərəcələrinin həyata keçirilməsi zamanı yaranır, nəticədə veksellər veksel sahibindən (saxlayandan) tədiyəni tələb etmək hüququ ilə birlikdə bankın sərəncamına keçir. Veksellərin uçotu borcun verilməsi üsullarından biridir. Belə əməliyyata görə bank faiz tutur ki, bu da uçot dərəcəsi və ya diskont adlanır. Mərkəzi Bankın kommersiya banklarına borc verdiyi və onların veksellərinin təkrar uçotu dərəcəsi rəsmi uçot dərəcəsi və ya Mərkəzi Bankın uçot dərəcəsi adlanır. O, kommersiya banklarının resurslarına təsir üçün istifadə edilən pul-kredit və valyuta siyasətinin əsas alətlərindən biridir. Pul kütləsinin artmasına yönəldilmiş "ucuz pullar" siyasəti rəsmi uçot dərəcəsinin azalması ilə müşayiət olunur. Mərkəzi Bankın uçot dərəcəsinin yüksəlməsi "bahalı pullar" siyasəti aparılarkən baş verir və pul kütləsinin azalmasına aparıb çıxarır. Valyuta tənzimlənməsi çərçivəsində rəsmi uçot dərəcəsinin yüksəlməsinin ən mənfəətli tətbiqini axtaran Mərkəzi Bank "qaynar pullar" formasında xaricdən vəsaitlərin axınını stimullaşdırır. Mərkəzi Bank kommersiya bankları tərəfindən uçot faizinin dərəcəsinin hesablanması zamanı baza rolunu oynayır. Eyni zamanda banklar da Mərkəzi Bankda təkrar uçot üçün vekselin əlverişliliyinə, eləcə də vekselə görə tə-

Uçot siyasətinə təsir göstərən amillər



Sxem 1


diyəçi müəssisəsinin kredit bazarında etibarlılığına və nüfuzuna diqqət yetirir.

Kommersiya bankları üçün uçot dərəcəsi ehtiyatların əldə olunması ilə yaranan xərclərdir. Uçot dərəcəsinin enməsi kommersiya banklarını əlavə ehtiyatlar almağa stimullaşdırır ki, bu da pul təklifini artırır. Əksinə, uçot dərəcəsinin artımı pul təklifinin məhdudlaşmasına gətirib çıxarır. Beləliklə, uçot dərəcəsi kredit münasibətlərinin ən mühüm şərtlərini yaradır və bununla işgüzar fəallığa təsir göstərir.

UÇOT EVİ (ing. *discount house, corporation*) – veksellərin uçotu üzrə ixtisaslaşan və qısamüddətli dövrdə kredit əməliyyatları ilə məşğul olan kredit müəssisəsi.

Uçot evləri kommersiya banklarının Mərkəzi Bankla qarşılıqlı fəaliyyətində vasitəçi rolu oynayır. Bununla da tələb olunana qədər ssuda vəsaitləri cəlb edir və həmin vəsaitləri xəzinə veksellərinə, qısamüddətli istiqrazlara sərmayə qoyurlar.

Uçot evlərinin başlıca və əsas funksiyası xəzinə veksellərini yerləşdirmək və veksellərin uçotunu aparmaqdır. Kredit müəssisələri (uçot evləri) bankların likvid fondlarının tələb üzrə tə-



Sxem 2

minatlı depozitlər vasitəsilə (müəyyən tarixə qədər razılaşdırılmış kredit dərəcəsi üzrə və ya həmin dərəcə həddində) səmərə əldə etməklə satışını təmin edir. Müxtəlif aktivlərin, o cümlədən qısamüddətli xəzinə istiqrazlarının, kommersiya veksellərinin və birinci dərəcəli fond kağızlarının alınması həmin likvid fondlar hesabına həyata keçirilir.

Uçot evləri həm də kredit veksellərinin satıldığı və alındığı bazardır. Uçot evlərinin fəaliyyəti mübadilə buferinin fəaliyyətinə oxşayır. Mərkəzi Bank bu fəaliyyət vasitəsilə hər hansı bir ölkənin qalan bank sistemini maliyyə resursları ilə təchiz edir, həmin resursları götürür, eləcə də faiz dərəcələrinə təsir göstərir.

Uçot evləri çox vaxt veksellərin diskontlanması (təkrar uçotu) vasitəsilə borc vəsaitləri verir, portfel investisiyalarına qısamüddətli sərmayə qoyuluşunun müxtəlif formalarını təklif edir. Hökumətin maliyyələşdirilməsi sahəsində uçot evlərinin əsas vəzifəsi qısamüddətli xəzinə istiqrazlarının satışını təmin etməkdən ibarətdir. Bu istiqrazlar

qısamüddətli imtiyazlı borc tədbirlərinin sanballı hissəsini təşkil edir.

Uçot evləri yerli hakimiyyət orqanlarının qiymətli kağızlarının, eləcə də hökumətin qısamüddətli səhmlərinin və istiqrazlarının satışı üzrə fəal agentlər rolunu oynayır.

UÇOT MƏLUMATLARI ÜÇÜN KEYFİYYƏT PRİNSİPİ – beynəlxalq mühasibat uçotu prinsipidir ki, uçot məlumatlandırılmasına aşağıdakı tələbləri təxmin edir:

1) *aydınlıq* – məlumatlar istifadəçi üçün aşkar olmalıdır, müəyyən bilik səviyyəsini özündə cəmləməlidir. Bəzən bu prinsip bəyan olunmasa da, hesabatın təqdim olunmasının bütün məntiqi ilə nəzərdə tutulur.

2) *münasiblik* – əgər məlumatlar iqtisadi qərarlara təsir edib, istifadəçilərə keçmiş və ya gələcək hadisələri qiymətləndirməyə kömək edirsə, həmçinin keçmiş qiymətləndirmələri təsdiq və ya dürüstləşdirməyə kömək edirsə, onlar münasib və ya işə aidiyyəti olan hesab olunacaq.

3) *doğruluq, etibarlılıq* – əgər məlumatlarda əhəmiyyətli səhvlər və ya ədalətsiz qiymətləndirmələr yoxdursa və o, təsərrüfat fəaliyyətini obyektiv əks etdirirsə, etibarlı hesab olunur.

UDULMA (əldə etmə) – bir şirkətin digərini alması.

UDULMANIN TƏHLİLİ – bir şirkətin digər şirkət tərəfindən alınması (udulması) zamanı alınan şirkətin sahibləri və səhmdarları ilə hesablaşmalar üçün aparılan maliyyə təhlili.

UDUŞLU ƏMANƏT – 1. Əmanət bankına fiziki şəxs tərəfindən köçürülən tələb olunana



qədər pul əmanətinin bir növü. 2. Müntəzəm keçirilən tiraj üzrə uduş formasında ödənilməklə pul əmanəti və gəlir.

Uduşlu əmanətə görə faizlər hesablanmır, tələb olunana qədər əmanətlər üçün ödənilən müəyyən ölçüdə gəlir uduşlar şəklində əmanətçi tərəfindən ödənilir. Bunlar da il ərzində keçirilən tiraj zamanı və əmanətin keçən yarım il ərzindəki orta qalığından hesablanır. Uduşlu əmanətin qəbulu və verilməsi üzrə əməliyyatlar adi tələb olunana qədər əmanətlərlə oxşardır. Onlara görə hər hansı eyni bir əməliyyat həyata keçirilir: mədaxil, məxaric, köçürmə əməliyyatları və s.

UDUŞLU İSTİQRAZLAR (ing. *premium bond*) – istiqrazların bu növünə görə gəlir il ərzində müntəzəm keçirilən tirajlar üzrə uduş şəklində ödənilir.

UDUŞLU OPSİON *(inn the-money)* – opsionun dəyəri müsbət olduqda onun xarakteristikası, yəni opsionun dərhal vaxtının keçməsi onun sahibinə mənfəət gətirəcək.

UDUŞSUZ OPSİON *(at the money)* – icra qiyməti opsionun əsasında olan qiymətli kağızın cari bazar qiymətinə bərabər opsion.

UĞURUN KRİTİK AMİLLƏRİ – uğur əldə etməyə çalışan təşkilatın nəzərə almalı olduğu amillər.

UİLYAMSON OLİVER (1932)– Amerika iqtisadçısı, neoinstitusionalizmin nümayəndəsi.



Massaçusets Texnoloji İnstitutunun bakalavrı (1955), Stenford Universitetinin magistrı (1960), Karnegi-Mellon Universitetinin fəlsəfə doktoru (1963) olmuşdur. Pensilvaniya (1965-1983), Yel (1983-1988) universitetlərində dərs demişdir. 1988-ci ildən Kaliforniya Universitetinin professorudur. 2004-cü ildə Nektenvald mükafatına layiq görülmüşdür. 2007-ci ildən Amerika İqtisad Assosiasiyasının fəxri

üzvüdür. 2009-cu ildə "İqtisadi təşkilatçılıq sahəsindəki tədqiqatlarına görə" Nobel mükafatına layiq görülmüşdür.

ULİN (OLİN) (OLIHN) BERTİL QOTTHARD (1899-1979) – İsveç iqtisadçısı, beynəlxalq ticarət nəzəriyyəçisidir.



1977-ci ildə "Beynəlxalq ticarət və kapitalın beynəlxalq hərəkəti nəzəriyyəsinə verdiyi töhfələrə görə" iqtisadiyyat üzrə Nobel mükafatı laureatı (C.Mid ilə birlikdə) olmuşdur.

Lund Universitetində, Stokholm iqtisadiyyat və işgüzar administrasiya məktəbində və Stokholm Universitetinin aspiranturasında təhsil almış, Kembric (1922) və Harvard (1922-1923) universitetlərində təcrübə keçmişdir. İsveç iqtisadi şurası katibinin köməkçisi olmuş (1920), 1921-1922-ci illərdə İsveç hərbi dəniz donanmasında xidmət etmişdir. Kopenhagen Universitetinin (1924-1929) və Stokholm iqtisadiyyat məktəbinin (1930-1965) iqtisadiyyat professorudur. XX əsrin 20-ci illərinin axırlarında Cenevrədə Millətlər Liqasında işləmişdir. İsveç Parlamentinin üzvü (1938), İsveç Liberal Partiyasının lideri (1944-1967), Koalisiya hökumətində ticarət naziri (1944-1945) olmuş, 1969-1970-ci illərdə Avropa Şurasında İsveçi təmsil etmişdir. İsveç hökumətinin Kral Şimal Ulduzu ordeni ilə təltif edilmiş (1961), Danimarka hökumətinin Danneborq ordeninə, eləcə də bir sıra fəxri elmi dərəcələrə layiq görülmüşdür.

Ulinin adı ilk dəfə Almaniya tərəfindən ödənilən reparasiyalar məsələsi və transfert ödəmələri problemi ilə əlaqədar məşhurlaşmışdır. C.M.Keyns ilə mübahisəyə girən Ulin iddia edirdi ki, dünya bazarında valyutanın hərəkətinə baxmayaraq, tarazlığı saxlamaq mümkündür. Bu diskussiyanın gedişində o, ilk dəfə olaraq effektiv tələbatda dəyişikliklərin (nisbi qiymətlərdə irəliləyişlərin əvəzinə) vacibliyini vurğulamışdır. O, Keynsin "Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi" kitabının bəzi ideyalarını qabaqlamışdır.

Ulinin "Regionlararası və beynəlxalq ticarət" ("Interregional and International Trade") işi onun iqtisad elminə ən sanballı töhfəsi sayılır. O dövrdə bu əsər beynəlxalq iqtisadi münasibətlərin ən ciddi araşdırması kimi qəbul edilmişdir. Ulinin ticarət nəzəriyyəsində əsas yeri Xekşer-Ulin modeli tutur. Ulin belə bir fərziyyəyə əsaslanırdı ki, ölkələrin istehsal texnologiyaları eyni səviyyədə olsa belə, beynəlxalq ticarət müxtəlif "gəlir amillərinə" malik ölkələr arasında yaranır (torpağın, əməyin və kapitalın nisbi təklifində müxtəliflik). Gəlir amillərində müxtəliflik labüd olaraq nisbi qiymətlərin müxtəlifliyini şərtləndirəcəkdir. Bu təklifdən çıxış edən Ulin özünün əmtəə axınları nəzəriyyəsini əsaslandıraraq uzaqgörənliklə bildirirdi ki, ölkələr daxili ticarət olmadıqda nisbətən ucuz malları ixrac, özlərində nisbətən bahalı olan malları isə idxal edəcəklər. Bu halda da ticarət yoxdur. Ulin modeli beynəlxalq ticarət nəzəriyyəsini ümumi tarazlıq nəzəriyyəsinin təsir sahəsi ilə birləşdirmək üçün struktur əsas yaratmışdır. Bu, ticarətin gəlirlərə və onların bölgüsünə təsirini aydınlaşdırmaq üçün zəruri idi. Faktiki materialla zəngin olan bu iş ticarət nəzəriyyəçilərinə tam bir sıra depozitlər təklif edirdi. Ulinin tədqiqatları və siyasi fəaliyyəti İsveçdə maddi rifah dövlətinin formalaşmasına şərait yaratmışdır. Bu dövlətdə klassik liberalizm sosial-demokrat siyasəti elementləri ilə uğurlu şəkildə birləşirdi. İkinci Dünya müharibəsindən sonra o, İsveç sosial-demokratlarının (başda Q.Mürdal olmaqla) əsas opponenti idi. 1972, 1975 və 1978-ci illərdə Ulinin şərəfinə elmi simpoziumlar keçirilmişdir.

ULTİMO (ital. *ultimo* – sonuncu, axırıncı) – bank təcrübəsində ayın, rübün və ya ilin axırıncı gününü bildirən termin.

UNİFİKASİYA – müxtəlif növ məhsulların, hissələrin, qovşaqların və digər konstruksiya elementlərinin, tətbiq edilən materialların, texnoloji proseslərin səmərəli şəkildə eyni hala salınmasının təmini. Unifikasiya istehsalın seriyalılığının yüksəldilməsinə, yüksək məhsuldar və avtomatlaşdırılmış vasitələr və onları hazırlayan mütərəqqi texnologiyaların tətbiq edilməsinə, istehsalın ixtisaslaşdırılması və kooperativləşdirilməsinin dərinləşməsinə səbəb olur. Unifikasiya nəticəsində əmək və maddi ehtiyatlara qənaət edilir, yeni məhsul növlərinin işlənilməsi və mənimsənilməsi vaxtının, onun

hazırlanmasının istehsal tsiklinin müddəti qısaldılır, əmək məhsuldarlığı, məhsulun keyfiyyəti və istehsalın səmərəliliyi yüksəldilir.

UNİTAR MÜƏSSİSƏ – malik olduğu əmlak üzərində sahibkarlıq hüququ olmayan müəssisə. Bu hallarda sahibkarlıq hüququ ya dövlətə, ya da bələdiyyə hakimiyyəti orqanına məxsus olur. Dövlət və ya bələdiyyə mülkiyyətində olan müəssisə təsərrüfat və ya operativ idarəetməyə verilir. Müəssisənin rəhbəri də müvafiq olaraq dövlət və ya bələdiyyə tərəfindən təyin edilir. Əmlak üzərində həyata keçirdiyi əməliyyatlara görə müəssisə məsuliyyət daşıyır. Əmlak üzərindəki öhdəliklərə görə isə dövlət və ya bələdiyyə məsuliyyət daşıyır (bax: sxem 1).

UNİTAR VERGİQOYMA (ing. – *unitary taxation*) – bu vergiqoyma sisteminə görə, xarici kapitallı transmilli şirkətlərə vergi qoyulması onların həmin ölkə daxilində əldə etdikləri gəlirlə deyil, ümumi (dünya) gəlirinə proporsiyası ilə nəzərdə tutulur.

Unitar vergiqoyma həm vergiqoymadan olan gəlirlərin artırılması, həm də transmilli şirkətlərin həyata keçirdikləri transfert qiymətqoymaya qarşı dura bilmək üçün tətbiq oluna bilər.

UNİVERSAL AKSİZ – kütləvi istehlak mallarının satışından əldə edilən mədaxildən tutulan və malların pərakəndə satış qiymətlərinin artmasına gətirib çıxaran dolayı vergitutma forması (əlavə dəyər vergisi (ƏDV), dövriyyə vergisi).

UNİVERSAL BANK – bank əməliyyatlarının bütün əsas növlərini: depozit, kredit, fond hesablaşma, vəkalət və s. (banknotların emissiyası istisna olmaqla) həyata keçirən kredit təşkilatı.

UNİVERSAL BİRJA – təkcə əmtəələrin geniş kütləsi ilə deyil, həmçinin valyuta, qiymətli kağızlar, eləcə də fraxt kontraktları ilə əməliyyatların həyata keçirildiyi birja.

UNİVERSAL MAĞAZALAR – elə pərakəndə ticarət müəssisələridir ki, burada bir-biri ilə bağlı olmayan mal qrupları müxtəlif şöbələrdə satılır.

UNİVERSAL TƏDQİQAT – marketinq tədqiqatlarından biri. Sifarişçi onu maraqlandıran sualları şəxsi və ya telefon müsahibələri üçün anketlərdə yerləşdirmək imkanı əldə edir. Belə müsahibə bir çox mövzuları o halda əhatə edə bilər ki, "anket məkanı" bir neçə müştəri tərəfindən alınsın; bu zaman ayrı-ayrı müştərilər digərləri ilə birgə anketin istifadəsi hesabına böyük qənaətə nail ola bilər.

UNSİYA (lat. *uncia*) – troya unsiyası 31,1 qramdır, qızıl və digər qiymətli metalların müasir çəki vahidi.

UORTON MODELİ – iqtisadi fəallığın və işsizlik səviyyəsinin rüblük proqnozlaşması üçün nə-



Sxem 1

zərdə tutulan ABŞ iqtisadiyyatının ekonometrik modellərindən biri. Pensilvaniya Universitetinin Uorton maliyyə-kommersiya məktəbində işlənib hazırlanmışdır. Təxminən 60 riyazi tənliyi, o cümlədən istehsal funksiyasını (Kobba-Duqlas funksiyası kimi), Filips əyrisini, maliyyə-büdcə sistemini xarakterizə edən bir sıra tənlikləri özündə cəmləyir. Sonuncu nəzəriyyə Uorton modelini Kleyn-Holdberger modelindən fərqləndirir. Uorton modelində əsas istehsal sahələrinə, qiymətlərin dinamikasına dəqiqliklə baxılır. 60-cı illərin axırlarında yaradılan Uorton modeli sonralar ABŞ və bir sıra ölkələrdə həm daha mürəkkəb və çətin, həm də daha sadə iqtisadi modellərin işlənməsi üçün əsas olmuşdur.

URBANİZASİYA – şəhərlə bağlı olan cəmiyyətin inkişafında şəhərlərin rolunun artmasını göstərən tarixi proses olub, özündə əhalinin sosial-peşə və demoqrafik strukturunu, həyat tərzini, mədəniyyətini, məskunlaşması və məhsuldar qüvvələrin yerləşdirilməsi məsələlərini birləşdirir.

İndi dünyanın şəhərlərində 2,4 mlrd., inkişaf etməkdə olan ölkələrin 20 şəhərində isə 130 mln. nəfərdən çox insan məskunlaşmışdır. Müasir urbanizasiya prosesi keçmiş dövrlərin urbanizasiya prosesindən iri şəhərlərin coğrafiyasının, tiplərinin, formalarının, üslublarının universallığı, şəhər mühiti inkişafı proseslərinin keyfiyyət göstəriciləri ilə fərqlənir. Urbanizasiya proseslərinin yaranmasında, inkişafında bir sıra meyillər özünü göstərir. İlk növbədə, şəhərdə urbanizasiya və onunla cəmiyyət arasındakı qarşılıqlı əlaqə inkişaf edir. Müəyyən iqtisadi, sosial şəraitdə məskunlaşma və şəhəri əhatə edən ətraf rayonlarla çoxcəhətli əlaqə yaranır. Əsaslandırılmış elmi tədqiqatlarda urbanizasiya prosesi, ilk növbədə, müxtəlif məzmunlu, funksional xarakterli və şəhər ilə sıx əlaqəli "urbaniləşmiş mühitlə" əlaqədar öyrənilir. "Urbaniləşmiş mühit" insanların həyatı, sənaye, digər istehsal müəssisələrinin fəaliyyəti və mövcudluğu, cəmiyyətlə təbiətin qarşılıqlı əlaqələri üçün xüsusi mühit kimi qiymətləndirilir.

Urbanizasiya üçün təmərküzləşmə prosesi, qeyri-kənd təsərrüfatı istehsalının, nəqliyyatın intensiv inkişafı, şəhər yaşayış tərzinin formalaşması, məskunlaşmanın mütərəqqi formaları, şəhər mədəniyyətinin, təhsil və

Cədvəl 1

Urbanizasiya səviyyəsi

Urbanizasiya səviyyəsi yüksək olan ölkələr	**Urbanizasiya səviyyəsi orta olan ölkələr**	**Urbanizasiya səviyyəsi aşağı olan ölkələr**
Şəhər əhalisinin payı 50%-dən çoxdur	Şəhər əhalisinin payı 20-50%	Şəhər əhalisinin payı 20%-dən aşağıdır
Böyük Britaniya Venesuela Küveyt İsveç Avstraliya Yaponiya	Əlcəzair Boliviya Nigeriya Hindistan Zair Misir	Çad Efiopiya Somali Niger Mali Zambiya

Cədvəl 2

Dünya şəhər əhalisinin dinamikası

İllər	**Əhali milyon nəfər**	**Bütün əhalidə payı, %**
1900 1950 1970 1990	220 740 1350 2280	13 29 36 43
2025 (proqnoz)	Təqribən 5000	Təqribən 61

səhiyyənin qabaqcıl sahələrinin inkişafı səciyyəvidir. Geniş mənada özünəməxsus sosial, iqtisadi inkişafda olan şəhər münasibətləri urbanizasiyanın məzmununu təşkil edir. Şəhər tarixi fenomen kimi konkret cəmiyyətdə yenilik gətirən və öndə gedən obyektdir.

Yüz il əvvəl dünyada tək-tək şəhərlərin əhalisi 100 min nəfər olduğu halda, indi belə şəhərlərin (Avropada) sayı 800-dən çoxdur. Əhalisinin sayı 10 milyondan artıq olan onlarca şəhər var. Artıq dünyada şəhər əhalisi ilə kənd əhalisinin sayı bərabərləşmişdir. Gələcəkdə şəhər əhalisinin artması meyli daha da güclənəcəkdir. Bu isə qlobal miqyasda iqtisadi, sosial-demoqrafik baxımdan həyəcan təbili çalan və mürəkkəb proses kimi qiymətləndirilən, bəşəriyyətin qarşısında çətin həll edilə bilən, bir sıra problemlər yaradan superurbanizasiyadır.

Urbanizasiya proseslərinin, şəhərlərin genişlənməsinin dərk edilməsi onunla çətinləşir ki, mahiyyəti, məzmunu, miqyası,



Dakka (Banqladeş)



Manila (Filippin)

Mexiko (Meksika)





San Frasisko (ABŞ)

istehsal sahələrinin təmərküzləşməsinə görə "şəhər" məhfumu dəqiq anlayışa malik deyil. Bəzi hallarda onun sərhədi "şəhər şəhər deyil" kimi də mübahisə doğurur. Elə kəndlər, şəhərtipli qəsəbələr var ki, onların əhalisi, istehsal təmayülü, funksiyası bir sıra şəhərlərin funksiyasından geri qalmır. Əlbəttə, belə obyektiv proses o demək deyil ki, bu kimi yaşayış məntəqələrinin hamısı gərək şəhərə çevrilsin.

Urbanizasiyanı stimullaşdıran, gücləndirən amil ictimai əmək bölgüsü, o cümlədən intellektual əməyin təraqqisi, elmin bilavasitə məhsuldar qüvvələrə çevrilməsi şəraitində qeyri-kənd təsərrüfatı sahələrinin fəaliyyət dairəsinin artırılmasıdır.

Urbanizasiya ərazi aspekti hər hansı rayonun, buna məruz qalan zonaların (ancaq zonaların, areal və rayonların yox), urbaniləşmiş ərazilərin bölgüsü, şəhər yaşayış məntəqələrinin ayrılması ilə deyil, məskunlaşmanın intensivliyi ilə ifadə edilir. Urbanizasiya şəhər mühitində sıx əhali məskunlaşmasının təzahürüdür. İnkişaf etmiş ölkələrdə sənaye, nəqliyyat, ticarət, mədəniyyət sahələrinin sıx yerləşdiyi mərkəzlərdə bu urbaniləşmiş şəhər mühiti suburbanizasiya yaradır. Bu, iri şəhərlərin, şəhərətrafı zonaların sürətli inkişafının nəticəsində meydana gəlir. Belə proses bir çox şəhərtipli qəsəbələrin kiçik, orta şəhərlərin, şəhərətrafı yaşayış məntəqələrinin birləşməsi vasitəsilə bütövlükdə aqlomerasiya yaradır.

Bakı və Sumqayıt şəhərlərinin

Cədvəl 3

Urbanizasiya səviyyəsinə görə ölkələrin təsnifatı (%)

Yüksək urbanizasiyalı	**Orta urbanizasiyalı**	**Aşağı urbanizasiyalı**
50%-dən yuxarı	20-50%	20%-ə qədər
– Belçika (95), Almaniya, Danimarka, Böyük Britaniya, İslandiya, İspaniya, Niderland və s.; – İsrail (90), Küveyt (94) və s.; – ABŞ (74), Qvadelupa (90), Qviana (81), Argentina (86), Uruqvay (89), Çili (84); – Avstraliya (85)	– Portuqaliya (30), Albaniya (36); – Çin (40), Hindistan (27), İndoneziya (31); – Tacikistan, Türkmənistan, Özbəkistan, Moldova	Kamboca (11), Laos (16), Butan (13), Nepal (7), Oman (9), Burkino-Faso (9), Burundi (5), Ruanda (7), Efiopiya (12)
İnkişaf etmiş ölkələr: 75 % AB ölkələri: 80,8 %	Dünya: 47 % İnkişaf etməkdə olan ölkələr: 41%	Zəif inkişaf etmiş ölkələr: 14,7 %

Cədvəl 4

Şəhər əhalisinin sayına görə dünyanın iri ölkələri (2010)

Ölkələr	Şəhər əhalisi, milyon nəfər	Şəhər əhalisinin payı
Çin	470	36
Hindistan	280	28
ABŞ	220	77
Braziliya	125	81
Rusiya	106	73
Yaponiya	90	79
İndoneziya	85	40
Meksika	74	74
Almaniya	71	87
Böyük Britaniya	53	29
Nigeriya	48,1	43
Türkiyə	48,1	74
Fransa	43,9	75
Filippin	41,1	56
İtaliya	38,6	67

Bizim ümumi xəttimiz, siyasətimiz, şəhərsalma proqramlarımız vardır... Mən Bakının yeni şəhərsalma konsepsiyasını təsdiq etmişəm. Biz vaxtı ilə köhnəlmiş, ekoloji cəhətdən təhlükəli sənaye müəssisələrini şəhərin mərkəzindən çıxarırıq, yeni yerlərə köçürürük. Eyni zamanda, köhnəlmiş müəssisələrin fəaliyyətə davam etməsi də lüzumsuzdur. Biz yeni, güclü sənaye potensialı yaradırıq. Əlbəttə, çalışmalıyıq ki, ən qabaqcıl texnologiyalar tətbiq edilsin. Şəhərin mərkəzində – köçürülən köhnəlmiş sənaye müəssisələrinin yerlərində ictimai istifadə üçün yerlər yaradılmalıdır. Parklar, avtomobil dayanacaqları, bağçalar salınmalıdır ki, insanlar üçün daha da yaxşı şərait yaradılsın. Yaşıllıq zolaqları, ağaclar əkilməlidir... Çünki bu, həyatımızdır, sağlamlığımızdır, gələcəyimizdir... Eyni zamanda, şəhərimizdə və ətraf qəsəbələrdə çirklənmiş göllər həddindən artıq çoxdur. Təxminən 30-a qədər göl vardır. O göllərin yaranması tarixi bizə bəllidir. Oraya lay suları, kanalizasiya suları axır. Bu, əlbəttə ki, Bakının müasir simasına uyğun gəlmir... Biz bu gölləri təmizləməliyik, abadlaşdırmalıyıq, kanalizasiya və drenaj sistemlərini yaratmalıyıq ki, bu göllərdən Bakı sakinləri və onun qonaqları istifadə etsinlər. Hazırda çox acınacaqlı mənzərə təşkil edən bu göllər gözəl, şəffaf göllərə çevrilməlidir. Mən hesab edirəm ki, biz buna nail olacağıq... Bunun ölkəmizin gələcəyi üçün çox böyük əhəmiyyəti olacaqdır.

İlham Əliyev

ərazisini müəyyən mənada aqlomerasiya, suburbanizasiya adlandırmaq olar. Suburbanizasiya prosesi mərkəzdə yerləşən ərazinin məhdudlaşması, bəzən tükənməsi üzündən müəyyən mərkəzə yaxın aqlomerasiya ərazilərinin, əyalətlərin qarışdırılmasının (birləşdirilməsinin) ifadəsidir.

Urbanizasiya prosesi müasir dövrdə də inkişaf etməkdə, dəyişməkdə olan şəhər mühitinin tələblərini, onun həyata keçirilməsi mexanizmini müəyyənləşdirən fasiləsiz fəaliyyət göstərən sosial-iqtisadi vasitədir. Bu baxımdan urbanizasiya hərəkəti, sadəcə olaraq, yeni element deyil, müəyyən çərçivə (şəhər mühiti) daxilində sosial inkişafın mühüm elementidir.

Şəhərin inkişafı ətraf rayonların, ekoloji mühitin, demoqrafik proseslərin təsirindən asılıdır. Bir mühüm amili də nəzərə almaq lazımdır ki, əgər işçi qüvvəsi axını bilavasitə şəhərləri əhatə edən inzibati rayonlar hesabına baş verirsə, ticarət, nəqliyyat əlaqələrinin inkişafı, şəhər əhalisinin kənd təsərrüfatı məhsulları ilə təmini nisbətən uzaq rayonlar hesabına aparılır.

Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilmişdir. Bakının inkişafında neftçıxarma sənayesi həlledici rol oynayır. 1897-ci ildə Bakıda 112 min nəfər yaşayırdısa, 2000-ci ildə bu rəqəm 1,8 mln. nəfər təşkil etmişdir.

1941-1945-ci illər müharibəsindən sonra Azərbaycanda yeni şəhərlərin salınması iki təmayüllü olmuşdur: a) peyk şəhəri, mikrorayonlar; b) mühüm sənaye mərkəzləri olan yeni şəhər-






BAKI






"2011-2013-CÜ İLLƏRDƏ BAKI ŞƏHƏRİNİN VƏ ONUN QƏSƏBƏLƏRİNİN
SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR DÖVLƏT PROQRAMI"NIN
İCRASININ BİRİNCİ İLİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ
KONFRANS
Bakı, 20 iyun 2012






QƏSƏBƏSİNDƏ GÖRÜLƏN İŞLƏR
36 saylı MƏKTƏB
ELEKTRİK ŞƏBƏKƏ


HEYDƏR PARKI



Qara Şəhərin yerində yeni müasir şəhər



Bakının müasir mərkəzi həm də şəhər nəqliyyatının yeni şəbəkəsinin yaradılması sayəsində universal olacaqdır. Belə ki, məsələn, burada Bakı Ağ Şəhər-nin mərkəzi meydanına çıxışı olan metro stansiyasının inşa olunması, habelə avtobus nəqliyyatı şəbəkəsinin inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Bütün sahil boyu tramvay xəttinin çəkilməsi da planlaşdırılır. Habelə, su nəqliyyatından istifadə edilməsi üçün, bütün Bulvar xətti boyu dəniz yolunun salınması da nəzərdə tutulmuşdur.

Bakı Ağ Şəhər-nin İnfrastruktur kommunikasiyalarının işçi layihələri işlənib hazırlanmışdır.

Paytaxtda yeni müasir mərkəzin yaradılması yerli və əcnəbi sərmayəçilərin cəlb edilməsi üçün əlavə imkanlar açır. Bu məqsədlə, sərmayəçilər üçün xüsusi şərtlər nəzərdə tutulmuşdur.

Bakının ekoloji cəhətdən ən yararsız, neft və neft tullantıları ilə çirklənmiş ərazilərində yeni inkişaf layihəsinə uyğun olaraq ən müasir və böyük yaşayış mərkəzi yaradılacaqdır. Burada, həmçinin inzibati binalar, müxtəlif ticarət mərkəzləri tikiləcək, istirahət parkları və yeni yaşayış mərkəzini dənizlə birləşdirəcək bulvar salınacaqdır. "Bakı Ağ şəhər"də sosial infrastruktur ən müasir tələblər səviyyəsində qurulacaqdır. "Bakı Ağ şəhər" layihəsi Azərbaycan Prezidenti İlham Əliyevin xüsusi Fərmanı ilə təsdiq olunub.





"Bakı şəhərində çox gözəl layihə başlayır. Şəhər içində şəhər yaradacağıq. "Ağ şəhər" layihəsi artıq bundan sonra icra edilməyə başlayır. Bu, ölkəmiz, şəhərimiz üçün çox əlamətdar hadisədir. Bu şəhərin adı da gözəldir, memarlığı, quruluşu da. Bu şəhərin Bakıda yaradılması rəmzi məna daşıyır. Çünki "Qara şəhər" ərazisində "Ağ şəhər" yaradılır. Bakının, Azərbaycanın zəngin neft yataqlarından müxtəlif insanlar istifadə etmişlər. Öz maddi imkanlarını yaxşılaşdırmışlar. Ancaq şəhərimizin ekoloji vəziyyətinə çox böyük zərbələr vurmuşdular. Ekoloji normalara riayət etmədən neft əməliyyatlarının aparılması nəticəsində bura "Qara şəhər"ə çevrildi. İndi bu ərazini təmizləmək üçün nə qədər böyük səylər göstərilir. Bir neçə metr dərinlikdən neft tullantıları çıxarıldı, ekoloji tədbirlər görüldü. Ümumiyyətlə, bu ərazinin təmizlənməsi Bakının ekologiyası üçün əvəzsiz məsələdir. Ancaq təmizləyəndən sonra bu ərazidə yeni şəhərin salınması müasir Azərbaycanın inkişafını göstərən vacib hadisədir. Bu şəhər tikiləcək. Bu şəhər yaşayacaq. Şəhər içində "Ağ şəhər"də on minlərlə insan yaşayacaq. Gözəl ofislər, yaşayış binaları tikiləcək, ictimai yerlər, dənizkənarı yeni bulvar salınacaqdır.

Beləliklə, gün gəldi ki, biz "Ağ şəhər"in təməl daşını qoyduq. Bir müddət bundan əvvəl bütün hazırlıq işləri təşkil edilmişdir. Mənim tərəfimdən müvafiq Sərəncam verilmişdir".


İlham Əliyev
"Bakı Ağ şəhər"in təməl daşının qoyulması
mərasimindəki çıxışından.
24 dekabr 2011-ci il







Bakı şəhər İcra Hakimiyyətinin dövlət mənzil fondunda olan yüksək mərtəbəli binalardakı liftlərin işləmə müddətinə görə sayı



Qrafik 1

Şəhərlərdə uca mərtəbəli binaların tikintisi bütövlükdə lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsini, rahat, sürətli liftlərin quraşdırılmasını tələb edir. Son illərdə respublikada bu istiqamətdə xeyli işlər görülür, müasir standartlara cavab verən lift istehsal edən müəssisə istifadəyə verilmiş, liftlərin istismarı, təmiri ilə bağlı işlərin həcmi genişləndirilmişdir.

Bakı şəhər İcra Hakimiyyətinin dövlət mənzil fondunda olan yüksək mərtəbəli binalardakı quraşdırılmış liftlərin illər üzrə sayı




Qrafik 2


Cədvəl 1

Bakı şəhəri İcra Hakimiyyətinin Dövlət mənzil fondynda olan binalarında aparılan əsaslı təmir və yenisilə əvəz edilmiş liftlərin illər üzrə sayı

Görülən iş	Əsaslı təmir	Yenisilə əvəz edilən	Əsaslı təmir	Yenisilə əvəz edilən	Əsaslı təmir	Yenisilə əvəz edilən	Əsaslı təmir	Yenisilə əvəz edilən	Əsaslı təmir	Yenisilə əvəz edilən	Əsaslı təmir	Yenisilə əvəz edilən	Əsaslı təmir	Yenisilə əvəz edilən
Liftin sayı	162	35	46	46	62	71	216	58	295	129	375	80	1156	419



Qrafik 1



Qrafik 1

Dünyanın nəhəng ölkələrində şəhər əhalisinin payı (faizlə):

Avstraliya	– 89%	Argentina	– 92%	Banqladeş	– 27%
Braziliya	– 86%	Böyük Britaniya	– 90%	Almaniya	– 74%
Hindistan	– 29%	İndoneziya	– 52%	İran	– 68%
İtaliya	– 68%	Kanada	– 80%	Çin	– 43%
Kolumbiya	– 74%	Konqo (paytaxt Kinşasa)	– 34%	Meksika	– 77%
Nigeriya	– 48%	Pakistan	– 36%	Rusiya	– 73%
ABŞ	– 82%	Ukrayna	– 68%	Fransa	– 77%
Efiopiya	– 17%	Yaponiya	– 66%		

Mənbə – www.rgo.ru

lər. Birinciliyə, Bakının "cazibə qüvvəsi" altındakı Qaradağ, Xırdalan qəsəbələri, doqquz mikrorayon, ikinciyə metallurgiya, kimya, sənaye mərkəzi Sumqayıt, neftçıxarma, elektroenergetika mərkəzi Əli Bayramlı (Şirvan), güclü energetika sənayesinə malik Mingəçevir, dağ-mədən sənayesinə malik Daşkəsən şəhərləri daxildir.

1950-ci illərdən sonra yaradılmış şəhərlərin hamısı (Sumqayıt müstəsna olmaqla) təbii sərvətlərin – metallurgiya, kimya, yanacaq-energetika, tikinti sərvətlərinin mənimsənilməsi və istifadəsi, onların bazasında müvafiq sənaye komplekslərinin inkişafına əsaslanmışdır. Müharibədən sonrakı dövrdə "təmiz yerdə" yaranan şəhərlər tam mənada təbii sərvətlərdən istifadə edilməsi ilə əlaqədardır. Professor V.Əfəndiyev Azərbaycan şəhərlərinin sistem əmələgətirici amillərinin aşağıdakı qrupda formalaşdırılmasını məqsədyönlü hesab edir:

– sırf sənaye istehsalı zonasında intensiv təmərküzləşməyə, urbanizasiyaya malik, ətrafında aqrosənaye sahələri inkişaf etdirilən şəhərlər (Bakı, Sumqayıt);

– iqtisadiyyatın, xüsusilə sənayenin inkişaf bazasını təmsil edən energetika, metallurgiya, kənd təsərrüfatı məhsulları əsasında işləyən yeyinti, yüngül sənaye müəssisələrinə malik şəhərlər (Gəncə, Əli Bayramlı (Şirvan), Mingəçevir, Naxçıvan);

– əsasən yerli kənd təsərrüfatı məhsullarının emalı üzrə ixtisaslaşan, əhalinin məşğuliyyətində mühüm yer tutan, kənd tə-

Cədvəl 5

Urbanizasiya səviyyəsi yüksək olan dünyanın 20 ölkəsi

№	Ölkə	Urbanizasiya səviyyəsi, %
1.	Vatikan	100
2.	Monako	100
3.	Nauru	100
4.	Sinqapur	100
5.	Küveyt	98
6.	Belçika	97
7.	Qətər	96
8.	Malta	94
9.	San-Marino	94
10.	Venesuela	93
11.	Argentina	92
12.	İslandiya	92
13.	İsrail	92
14.	Uruqvay	92
15.	Böyük Britaniya	90
16.	Andorra	89
17.	Avstraliya	89
18.	Bəhreyn	89
19.	Çili	88
20.	Danimarka	87

Cədvəl 6

Urbanizasiya səviyyəsi aşağı olan dünyanın 20 ölkəsi

№	Ölkə	Urbanizasiya səviyyəsi, %
1.	Burundi	10
2.	Papua-Yeni Qvineya	12
3.	Trinidad və Tobaqo	13
4.	Uqanda	13
5.	Lixtenşteyn	14
6.	Şri-Lanka	15
7.	Niger	16
8.	Efiopiya	17
9.	Nepal	17
10.	Ruanda	18
11.	Solomon adaları	18
12.	Malavi	19
13.	Burkina-Faso	20
14.	Eritreya	21
15.	Kamboca	22
16.	Keniya	22
17.	MFŞ	22
18.	Samoa	23
19.	Əfqanıstan	24
20.	Lesoto	25

sərrüfatı seyrək urbanizasiyaya malik şəhərlər (buraya əsasən orta şəhərlər daxildir);
– yerli kənd təsərrüfatı məhsullarını emal edən, yeyinti, yüngül sənaye müəssisələrinə, seyrək əhali məskunlaşmasına, əhalisinin əksəriyyəti qeyri-sənaye sahəsində, inzibatçılıq, idarəçilik xidməti ilə məşğul olan kiçik şəhərlər (rayon mərkəzləri və s.);
– qarışıq tipli yerli sənaye sahələrinə, xidmət sferasına, seyrək əhali məskunlaşmasına malik şəhərtipli qəsəbələr.
V.Əfəndiyevin XX əsrin sonlarında apardığı tədqiqatın nəticələrinə görə, əhali məskunlaşması dərəcəsinə görə Azərbaycan şəhərlərini aşağıdakı qruplara bölmək olar:
– əhalisi iki milyon nəfərdən çox Bakı – paytaxt şəhəri;
– əhalisi 300 minə çatan Gəncə, Sumqayıt şəhərləri;
– əhalisi 20 mindən 100 min nəfərə qədər (24) orta şəhərlər;
– əhalisi 5 mindən 20 minə qədər (42) kiçik şəhərlər;
– əhalisi min nəfərdən 7 min nəfərə qədər olan 114 şəhər tipli qəsəbələr.

Rurbanizasiya (ing. *rural* – kənd və urbanizasiya) – şəhər formaları və həyat şəraitinin kənd yerinə yayılması prosesi.

UŞAQLARIN SIĞORTALANMASI – şəxsi sığorta növü. Valideynlərlə, övladlığa götürənlərlə və uşağın digər qohumları ilə bağlanan fərdi müqavilələrlə tərtib olunur.

UTİLİTARİZM – hökumətin cəmiyyətdəki hər bir kəsin məcmu rifahını yaxşılaşdırmaq üçün siyasət aparmalı olduğunu hesab edən siyasi fəlsəfə.

UYĞUNLAŞMA (ADAPTİV) MODELİ – geniş mənada özünü təshih edən (düzəldən), özözünə qurulan (nizamlanan) modeldir ki, şərait vaxtına görə dəyişmələri əks etdirmə qabiliyyətinə malikdir. Zaman ardıcıllığının (zaman sırasının) müxtəlif üzvlərinin informasiya qiymətlərini (sərvətlərini) nəzərə alır və tədqiq edilən sıranın gələcək üzvlərini qiymətləndirməyə imkan verir. Uyğunlaşma modeli, hər şeydən əvvəl, qısamüddətli statistik proqnozların hazırlanması, həmçinin uzunmüddətli meyillərin seçilməsində təhlillər üçün nəzərdə tutulur.
Qısa mənada uyğunlaşma modeli statistikada eksponensial çəkili sürüşkən orta (eksponensial uyğunlaşdırma – hamarlama) ifadəsindən istifadəyə əsaslanan model, təshihetmə üsulu kimi qəbul olunmuşdur.

Uyğunlaşma parametri – öyrənilən vaxt sıralarının dinamikasında uyğunlaşma modelinin dəyişmə reaksiyasının tezliyini xarakterizə edən kəmiyyət. Retrospektiv statistik materiallardan ən yaxşı uyğunlaşma parametrlərinin seçilməsi üçün istifadə edilir. Eksponensial hamarlıq üçün:

$$S_t=\beta S_{t-1}+\alpha x_t=S_{t-1}+\alpha(x_t-S_{t-1})=$$
$$=S_{t-1}+\alpha e_t$$

düsturundan istifadə edilir.

Burada: $0<\alpha<1$; $\alpha=conts$; $\beta=1-\alpha S_t$ t anında eksponensial orta göstəricidir, x_{t+1}, gələcək sıra üzvünün proqnozu kimi qəbul edilir; e_t – bir addımda proqnozlaşdırma səhvidir; daimi hamarlığın uyğunlaşma parametri hesab edilir. Uyğunluq modeli özündə fasiləli uyğunlaşma parametrlərini cəmləşdirə bilər, bu da modelə *alqoritmlərin* tətbiqi ilə müəyyən olunur. Modeldə bir neçə uyğunlaşma parametri ola bilər.

Uyğunluq – riyazi obyektlərin son vəziyyətini (ədədi ardıcıllığı və sıraları, inteqralları, terminləri və s.) əks etdirən riyazi anlayış. Miqdara yaxınlaşan məsələlərin həllində istifadə edilir (məsələn, mürəkkəb fiqurların sahə və həcmlərinin, funksiyalarının parça-xətti hissələrlə yaxmlaşdırılması yolu ilə inteqralların təqribi hesablanması üçün).

Uyğunluq meyarları – hipotezanı, paylanma qanununu tam, yaxud parametrlərin məhdud hissəsini dəqiqliklə müəyyənləşdirilən meyarlardan biri. Uyğunluğun daha çox yayılmış meyarları Kolmoqorovun və Kolmoqorov-Smirnovun omeqakvadrat, x_1 – kvadrat meyarlarıdır. Öyrənilən *təsadüfi kəmiyyətin* paylanması funksiyası haqqında hipoteza statistikanın köməyi ilə aşağıdakı düsturla yoxlanılır:

$$D_n=\underset{-\infty<x<\infty}{Sup}|F_n(x)-F(x)|$$

Burada: $F_n(x)$ və $F(x)$ – paylanmanın seçmə və model funksiyalarıdır; K.Pirsonun x_1– kvadratının uyğunluq meyarı $p_k=P(E_k)$ hipotetik ehtimalının E_1, E_2, E_3 təsadüfi hadisələrinin, müstəqil n müşahidələrindən seçmələrdə onların nisbi tezliyinin uyğunluğunu yoxlayır. Bir çox əlavələrdə E_k hadisəsi ondan ibarət olur ki, təsadüfi kəmiyyət müəyyən intervala düşür. Belə ki, meyarlar x kəmiyyətinin hipotetik nəzəri paylanmasının onun emprik paylanması ilə müqayisəsinə imkan verir.

UYĞUNLUQ NİŞANI – məhsulun, prosesin, yaxud xidmətin təsdiq edilmiş tələblərə uyğunluğunu göstərən, sertifikatlaşdırma sisteminin qaydalarına uyğun verilən və tətbiq olunan, müəyyənləşdirilmiş qaydada qeydiyyata alınan nişan.

UYĞUNLUQ PRİNSİPİ – beynəlxalq mühasibat uçotu prinsipidir ki, bütün daxilolmaların satış, mallarla təchizat və xidmət göstərilməsi dövrünə aid olması və hesabat dövründə ancaq bu dövrün gəlirlərinə gətirib çıxaran xərclərin qeydiyyata alınması deməkdir.

Uyğunluq prinsipinin tətbiqi zamanı aşağıdakı qaydalar fəaliyyət göstərir:

1) əgər hasil olunan məsrəflər gələcək mənfəətə gətirib çıxarırsa, onlar aktiv kimi əks olunur;

2) əgər onlar cari gəlirlərə səbəb olursa, xərclər kimi göstərilir;

3) əgər heç bir gəlir yaratmırsa, ziyan kimi əks olunur.

Bəzən bu prinsipi yığım prinsipi adlandırırlar. Bu həmçinin menecmentin prinsipidir ki, qarşıda qoyulan vəzifələri yerinə yetirmək üçün rəhbəri zəruri səlahiyyətləri işçiyə təqdim etməyə məsul edir.


UYĞUNLUQ SERTİFİKATI – məhsula, prosesə və ya xidmətə təqdim edilən bütün müəyyən olunmuş tələblərə riayət edilməsinin təsdiqlənməsi üçün sertifikatlaşdırma sistemnin qaydaları əsasında verilən sənəd.

Uyğunluq nişanı – müəyyən olunmuş qaydada müdafiə edilmiş, lazımi qaydada identifikasiyalaşdırılmış məhsulun, prosesin və ya xidmətin konkret standarta və ya başqa normativ sənədə uyğunluğuna zəruri əminlik yaradan nişan. Sertifikatlaşdırılmış məhsulun tələblərə müvafiq olmasım müəyyənləşdirmək və ona nəzarət etmək üçün məhsulun sertifikatlaşdırılması qaydasına uyğun olaraq vaxtaşırı təftiş nəzarəti aparılması zəruridir.

UYĞUNSUZLUQ SERTİFİKATI – (sertifikat) sertifikatlaşdırma sisteminin qaydaları üzrə sertifikatlaşdırılmış məhsulun müəyyən edilmiş tələblərə uyğunsuzluğunun təsdiqi üçün verilmiş sənəd.

"UZANAN" SİSTEMLƏR – "dəqiq müddət" konsepsiyasının prinsiplərindən istifadə edən logistik sistemlər. Bu sistemlərdə maddi ehtiyatların və ya hazır məhsul ehtiyatlarının artırılması üçün sifarişlərin yerləşdirilməsi kəmiyyət baxımından böhranlı səviyyəyə çatdıqda baş verir. Bu halda logistik zəncirlər üzrə ehtiyatlar malgöndərənlərdən istehlakçılara qədər "uzanır". "Dəqiq müddət" prinsipində resursların bütün kanallar üzrə sonrakı hərəkətini müəyyən edən tələb aparıcı rol oynayır. "Dəqiq müddət" konsepsiyası logistik strukturun bütün səviyyələrində məhsulun keyfiyyət səviyyəsinə nəzarəti gücləndirməyə və sabit saxlamağa doğru aparır. JİT (Just İn Time)

Müəssisənin bazar şəraitinə uyğunlaşması modeli



Sxem 1

texnologiyasının həyata keçirilməsinin səmərəliliyi üçün etibarlı telekommunikasiya sistemlərinin və onların informasiya-kompüter dəstək vasitələri olmalıdır. Müasir JİT texnologiyaları və logistik sistemlər daha çox inteqrasiya edilmişdir və logistik istehsal konsepsiyalarının və paylaşdırma sistemlərinin müxtəlif variantlarından təşkil olunur, məsələn, logistik kanallarda ehtiyatları minimallaşdıran sistemlər; ehtiyatların səviyyəsini sürətlə bərabərləşdirməyə imkan verən logistik sistemlər; avtomatlaşdırılmış çevik preventiv istehsal; qrup texnologiyaları; məhsulun keyfiyyət tsikllərinə ümumi statistik nəzarət və idarəetmə üçün müasir logistik sistemlər və s. Nəticədə müasir dövrdə bu texnologiyaları "dəqiq vaxtında" konsepsiyasının yeni versiyası olan JİT-2 konsepsiyasına aid edirlər. JİT-2 logistik konsepsiyasının

əsas məqsədi istehlakçıların tələblərini maksimum təmini üçün firmanın bütün logistik funksiyalarını maksimum inteqrasiya etdirməkdir. JİT-2 ideologiyasına əsaslanan sistemlərdə alıcıların tələbatının əvvəlcədən proqnozlaşdırılması əsasında kiçik həcmli hazır məhsul buraxılışı üçün çevik istehsal texnologiyalarından istifadə edilir.

UZANSİYA (lat. *usus* – adət) – 1) ticarət adəti, bəzi münasibətlərdə müqavilənin şərtlərini tamamlayır; işgüzar praktika; 2) növbəti saziş bağlanarkən tərtibatında əvvəlkilərin istifadəsi, tətbiq təcrübəsindən istifadə.

UZLAŞMA ANLAYIŞI – İngiltərədə standart mühasibat praktikası (SSAP) prinsiplərindən biri. Bu prinsip mühasibat hesablarının hazırlanmasında tətbiq edilir. Həmin hesablarda analoji maddələrin vahid hesabatlar paketində eyni şəkildə şərhi baxımından uzlaşmaya riayət edilməlidir.

Bundan əlavə, bir hesabat dövründən digərinə keçid halında bu meyar zəruridir, çünki o, müxtəlif zaman kəsiklərində alınmış məlumatları müqayisə etməyə və tutuşdurmağa imkan verir.

UZUFRUKT – Roma hüququnda qanunla və ya müqavilə ilə müəyyən dövr üçün başqa şəxsə məxsus olan, gətirdiyi məhsullar da daxil olmaqla, lakin həmin əmlakın mahiyyətinin qalmağı şərtilə əmlakdan istifadə. Həm ömürlük, həm də müəyyən dövr üçün təyin edilir ki, bu dövrün başlanmasını uzufruktari hüququ (istifadəçi) dayandırır.

UZUFRUKTARİ – şəxsi servituta malik şəxs, yəni başqasına məxsus şeydən istifadə etmək hüququ olan şəxs.

UZUN MÖVQE *(long position)* – qiyməti artırmaq üçün oyun, qiymətli kağızın alınması.


UZUNMÜDDƏTLİ AKTİVLƏR – müəssisə tərəfindən onun istehsal fəaliyyətində (istehsal prosesində) istifadə edilən, xidmət müddəti 1 ildən çox olan aktivlər. Uzunmüddətli aktivlər bütün istismar müddətində öz natural formasını saxlayır və köhnəldikcə tədricən öz dəyərini itirir. Bu dəyər hissə-hissə istehsal edilmiş məhsulun üzərinə keçir və amortizasiya ayırmaları şəklində pul formasında mülkiyyətçiyə qaytarılır.

UZUNMÜDDƏTLİ BORCUN ÖDƏNİLMƏSİ ƏMSALI – uzunmüddətli borcun məcmu aktivlərə və ya səhmdar kapitalına nisbəti.

UZUNMÜDDƏTLİ ƏMANƏT – uzun müddət üçün (bir ildən yuxarı) əmanətin saxlanması şərtilə bankda və ya digər maliyyə idarəsində fiziki şəxsin əmanəti. Uzunmüddətli əmanətin bankdan çıxarılmasına yalnız müəyyən edilmiş vaxt bitdikdən sonra icazə verilir. Uzunmüddətli əmanətlərə, məsələn, uşaqlar üçün məqsədli əmanətlər və yığım əmanətləri aiddir. Bu cür əmanətlər bəzən on illərlə qorunub saxlanır və məqsədli təyinata köçürülə bilər.

UZUNMÜDDƏTLİ HƏYAT SIĞORTASI – keçmiş SSRİ-də 3 formada tətbiq olunurdu: ölüm və əmək qabiliyyətinin itirilməsi halından sığorta; qarışıq

Uzunmüddətli investisiyaların maliyyələşdirmə mənbələri strukturu



Sxem 1

həyat sığortası; ömürlük həyat sığortası.

UZUNMÜDDƏTLİ İNVESTİSİYALAR – satış üçün nəzərdə tutulmayan, dövriyyədən kənar uzunmüddətli istifadə aktivlərinin mənimsənilməsinə yönələn xərclər. Bu zaman dövlətin qiymətli kağızlarına və digər şirkətlərin nizamnamə kapitallarına uzunmüddətli investisiyalar istisna təşkil edir. Uzunmüddətli kapital qoyuluşları yeni tikinti, fəaliyyətdə olan müəssisələrin və qeyri-istehsal sahələrinin, obyektlərinin modernləşdirilməsi, yenidən qurulması, genişlənməsi və texniki silahlanması üçün zəruridir; onlar, həmçinin, təbiətdən istifadə obyektlərinin və torpaq sahələrinin mənimsənilməsi ilə; bina, qurğu, texnika və texnologiya, avadanlıq, nəqliyyat vasitələri, digər obyektlər və ya onların hissələrinin mənimsənilməsi ilə; qeyri-maddi xarakterli aktivlərin: patentlərin, proqram məhsullarının, lisenziyaların, təbii resurslardan istifadə hüquqlarının, torpaq sahələrinin, ETTKİ nəticələrinin və s. mənimsənilməsi, yaxud yaradılması ilə əlaqəlidir.

UZUNMÜDDƏTLİ İSTEHLAK MALLARINA SİFARİŞ – istehlakçıların inam göstəricisidir. 3 il və daha çox müddətə istifadə olunan əmtəələrə sifarişi əks etdirir. Onun artımı iqtisadiyyatın dayanıqlığını, valyutanın möhkəmlənməsini, azalması isə əksini göstərir. Bu göstəricinin artımı həmçinin hərbi-sənaye kompleksində olan sifarişlər hesabına da baş verə bilər. Odur ki, göstərici hesablanarkən bütün sənaye sahələri nəzərə alınmalıdır.

UZUNMÜDDƏTLİ İŞSİZLİK – 8-18 ay işsiz qalmaq. Bu növ işsizlik üçün bilik və bacarıqların itirilməsi xasdır.

UZUNMÜDDƏTLİ QABAQLAYICI İNDİKATORLAR İNDEKSİ – konyunkturanın bir il sonra necə olacağını əks etdirən Böyük Britaniyada istifadə olunan hökumət indeksi.

UZUNMÜDDƏTLİ QEYRİ-PUL AKTİVLƏRİ – xidmət müddəti 1 ildən çox olan, satış üçün nəzərdə tutulmayan aktivlər. Onların dəyəri sonradan xərclərə daxil edilir.

UZUNMÜDDƏTLİ QOYULUŞLAR BANKI – kapital qoyuluşlarının maliyyələşməsini və kreditləşməsini həyata keçirən kredit təşkilatı.

UZUNMÜDDƏTLİ LİKVİDLİK NORMATİVİ – kommersiya bankları üçün Mərkəzi Bank tərəfindən təsdiq edilən normativdir. Kredit təşkilatı tərəfindən verilmiş, ödənilmə müddəti bir ildən artıq kreditlərin kredit təşkilatının kapitalına, eləcə də kredit təşkilatı tərəfindən depozit hesabları, alınmış kreditlər və müddəti bir ildən artıq başqa borc öhdəliklərinə nisbətidir. N4 yol verilə bilən maksimal qiyməti 120% həcmində müəyyən edilir.

UZUNMÜDDƏTLİ MÜQAVİLƏ – tərəflərin uzun dövr üçün bağladığı müqavilə. Adətən, bir ildən artıq müddət uzunmüddətli dövr hesab edilir. Uzunmüddətli müqavilələr irimiqyaslı işlərin aparılması, məsələn, bina tikilməsi və ya xammal, materiallar satışı üçün bağlanır. Bu halda alıcı firma malgöndərmələrin şərtlərinin sabit olmasında və müddətlərə riayət edilməsində maraqlıdır.

UZUNMÜDDƏTLİ SIĞORTA – bir ildən çox müddəti əhatə edən sığorta təminatı.

Ü

ÜÇ "İ" (ing. *three i's (formerly) investors in industry*) – kommersiya banklarının mülkiyyətində holdinq şirkəti olub, riskli layihələrə borc və şəxsi kapitalını verir.

ÜÇTƏRƏFLİ SAZİŞ – üç tərəfin iştirak etdiyi müqavilə.

ÜÇÜNCÜ QİYMƏT – səhmləri qiymətli kağızların təkrar bazarında dövriyyədə olmayan şirkətin mülkiyyətinin alğı-satqısı şərtlərinin hazırlanması vaxtı istifadə edilən qiymət; belə şirkətin bazar qiyməti dəqiq müəyyən edilə bilməz.

ÜÇÜNCÜ ŞƏXSİN XEYRİNƏ MÜQAVİLƏ – burada tərəflər müəyyənləşdirirlər ki, borclu kreditora yox, öhdəliklərin icrasını öz xeyrinə tələb etmək hüququna malik olan, müqavilədə göstərilən və ya göstərilməyən üçüncü şəxsə icranı həyata keçirməyə borcludur. Bu müqavilə növü sığortada geniş yayılmışdır. Burada sığortalı sığorta hadisəsi (ölümü, müəyyən yaşa çatma və s.) baş verən zaman üçüncü şəxsə sığorta məbləğinin ödənişini nəzərdə tuta bilər.

ÜÇÜNCÜ ŞƏXS (TƏRƏF) – sığorta müqaviləsinin iştirakçısı olmayan, lakin sığorta hadisəsi nəticəsində zərər çəkən və (və ya) sığorta edənin hərəkəti, yaxud hərəkətsizliyi nəticəsində dəyən zərərin əvəzini almaq hüququna malik şəxs.

ÜÇÜNCÜ TƏRƏFİN XEYRİNƏ SIĞORTALAMA – üçüncü tərəfin riskini örtən sığorta polisi. Məsələn, avtomobil sahibi digər şəxsə onun mülkiyyətinə və ya sağlamlığına zərər vuran zaman baş verir.

ÜFÜQİ DİVERSİFİKASİYA – ənənəvi alıcıların yeni oxşar əmtəələrə olan tələbinin yüksəlməsi məqsədilə bu əmtəələr hesabına çeşidin genişlənməsi.

ÜFÜQİ ƏDALƏTLİLİK – vergi ödəmək qabiliyyətləri eyni olan vergi ödəyicilərinin eyni məbləğ ödəmələrini nəzərdə tutan fikir.

ÜFÜQİ SAZİŞLƏR – istehsal silsiləsinin eyni səviyyəsində olan, yaxud eyni bazarda birbirləri ilə rəqabətə yol verməmək məqsədilə fəaliyyət göstərən təsərrüfat subyektləri arasında sazişlər.

ÜMİDSİZ BORC – debitor borcunun tutulmasından arbitrajın və ya məhkəmənin imtinası və ya borclunun tədiyyə qabiliyyətli sayılmaması nəticəsində qaytarılması məhkəmə tərəfindən mümkün olmayan (ümidsiz) hesab edilmiş hissəsi. *Ümidsiz borcun xüsusi növü* iddia müddəti keçmiş debitor borcudur. Bu halda müəssisə öz təqsiri üzündən mübahisəsiz borcu almaq hüququnu itirir.

Bir qayda olaraq, ümidsiz borclar "Müxtəlif debitorlar və kreditorlarla hesablaşmalar" hesabının kreditindən "Mənfəət və zərərlər" hesabının debetinə zərər kimi silinir. Müəssisələr əvvəllər borclulara verilmiş pul vəsaitlərini imkan daxilində qaytarmağa çalışır. Bu, onunla əlaqədardır ki, ümidsiz borcların mövcudluğu onların maliyyə fəaliyyətinin nəticələrinə əlverişsiz təsir göstərir.

ÜMUMİ DAXİLİ MƏHSULDA (ÜDM) KREATİV İNDUSTRİYANIN PAYI – əqli mülkiyyət (müəlliflik hüququ və əlaqəli hüquqlar) sənayesinin ümumi iqtisadiyyatdakı səviyyə göstəricisi. Onun konkret qiyməti və qiymətinin dəyişməsi əqli mülkiyyət sahəsinin qorunması, idarə olunması və təminatı proseslərinin səviyyəsini müəyyənləşdirməyə imkan yaradır.

ÜMUMDÜNYA ƏQLİ MÜLKİYYƏT TƏŞKİLATI (ÜƏMT) – BMT-nin ixtisaslaşdırılmış hökumətlərarası beynəlxalq təşkilatı. Stokholm konvensiyasına uyğun olaraq yaradılmışdır (1967) və Cenevrə şəhərində yerləşir.

Uzv dövlətlərin sayı 147-dir (1995). Azərbaycan da ÜƏMT-nin üzvüdür.

ÜƏMT-nin üzvü ya Paris, ya da Bern ittifaqlarının üzvü olan hər bir dövlət, eləcə də BMT-nin üzvü və ya onun ixtisaslaşmış təşkilatlarından biri, ya da Atom Enerjisi üzrə Beynəlxalq Təşkilat (MAQATE) ola bilər.

Əqli mülkiyyət sənaye mülkiyyətinə (ixtiralara, əmtəə nişanlarına, sənaye nümunələrinə, modellərə) və ədəbi, musiqi, bədii, fotoqrafiya, kinematoqrafiya və audiovizual əsərlərə olan hüquqdur.

ÜƏMT-nin rəsmi məqsədi iştirakçı ölkələrin yaratdığı ittifaqlar arasında inzibati qarşılıqlı fəaliyyət və dövlətlər arasında əməkdaşlıq yolu ilə əqli mülkiyyətin mühafizəsinə yardım göstərməkdir. ÜƏMT yeni beynəlxalq müqavilələrin bağlanmasına, milli qanunvericiliyin təkmilləşməsinə təsir göstərir, texniki və hüquqi yardım göstərir, elmi tədqiqatların nəticələrini və seminarların mətnlərini dərc etdirir.

Rəhbər orqanları Baş assambleya (məclis), əlaqələndirmə üzrə komitə, konfrans, sənaye mülkiyyətinə dair informasiya üzrə daimi komitə və beynəlxalq bürodur.

Baş assambleya təşkilatın siyasətinin müzakirə olunması, büdcənin təsdiq edilməsi və 6 il müddətinə baş direktorun seçilməsi üçün ildə iki dəfə toplanır. Beynəlxalq büro ÜƏMT-i katibliyidir, ona baş direktor rəhbərlik edir Təşkilatın inzibati-texniki xidmətini təmin edir, beynəlxalq qeydiyyat xidmətlərinin (patentlər, əmtəə nişanları, sənaye nümunələri və ya modellər, əmtəənin mənşəyinin ifadə edilməsi, audiovizual əsərlər və s.) işinə rəhbərliyi həyata keçirir.

Sənaye mülkiyyətinə dair informasiya üzrə daimi komitə patent informasiyasının bütün sferalarında dövlətlərin əməkdaşlığını həyata keçirir. Komitəyə patent kooperasiyası haqqında müqavilə və beynəlxalq patent təsnifatı ittifaqı üzv ölkələrinin, eləcə də (öz arzusu ilə) Paris ittifaqı üzvlərinin nümayəndələri daxildir.

ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATI (ÜTT) – əvvəllər Tariflər və Ticarət üzrə Baş Saziş (QATT) adlanmışdır. 1986-1994-cü illərdə çoxtərəfli ticarət danışıqları ("Uruqvay raundu") nəticəsində qəbul olunan saziş əsasında ÜTT-yə çevrilmişdir. 1994-cü ildən məcburi qüvvəyə malik bu saziş "Uruqvay raundu" çərçivəsində imzalanmış sazişlərdə və razılaşmalarda əks olunan beynəlxalq ticarət sistemini tənzimləyən ümumi normaları və qaydaları müəyyənləşdirir.

ÜTT-də mübahisələrin xüsusi tənzimlənmə mexanizmi və ticarət siyasətinin yenidən nəzərdən keçirilməsi mexanizmi fəaliyyət göstərir. İqamətgahı Cenevrə şəhərində yerləşir. Üzv dövlətlərin sayı 153-dür (2008). Azərbaycan da ÜTT-yə üzv olmağa hazırlaşır.

ÜTT-nin əsas məqsədi ticarət əlaqələrinin çoxtərəfli tənzimlənməsi mexanizmi vasitəsilə əmtəə və xidmətlərin istehsalı və ticarətin artımı, xammal mənbələrindən səmərəli istifadə, ətraf mühitin qorunması əsa-



ÜTT-in qərargahı (Cenevrə şəhəri, İsveçrə)

Cədvəl 1

Azərbaycan və ÜTT - üzvolma xronologiyası

Azərbaycan Respublikasının ÜTT-yə üzvolma istəyini əks etdirən ərizənin ÜTT Katibliyinə təqdim olunması	23 iyun 1997-ci il
ÜTT Katibliyində Azərbaycan üzrə İşçi Qrupunun yaradılması	16 iyul 1997-ci il
Azərbaycan Respublikasının xarici ticarət rejimi haqqında Memorandumun ÜTT Katibliyinə təqdim olunması	22 aprel 1999-cu il
Azərbaycan Respublikası Nazirlər Kabinetinin 226s saylı Sərəncamı ilə Azərbaycan Respublikasının ÜTT-yə üzv olması prosesinin sürətləndirilməsi işləri üzrə təşkilatlararası Əlaqələndirmə Qrupunun yaradılması	19 noyabr 1999-cu il
Cenevrədə ÜTT-nin Azərbaycan üzrə İşçi Qrupunun Birinci İclasının keçirilməsi	03 - 07 iyun 2002-ci il
Azərbaycan Respublikası Nazirlər Kabinetinin 175s saylı Sərəncamı ilə Azərbaycan Respublikasının ÜTT-yə üzv olmasına hazırlıq işləri üzrə Komissiyanın yaradılması	22 avqust 2003-cü il
Cenevrədə ÜTT-nin Azərbaycan üzrə İşçi Qrupunun İkinci İclasının keçirilməsi	14 oktyabr 2004-cü il
Cenevrədə ÜTT-nin Azərbaycan üzrə İşçi Qrupunun Üçüncü İclasının keçirilməsi	30 iyun 2005-ci il
Cenevrədə ÜTT-nin Azərbaycan üzrə İşçi Qrupunun Dördüncü İclasının keçirilməsi	30 mart 2006-cı il
Cenevrədə ÜTT-nin Azərbaycan üzrə İşçi Qrupunun Beşinci İclasının keçirilməsi	6 may 2008-ci il
Cenevrədə ÜTT-nin Azərbaycan üzrə İşçi Qrupunun Altıncı İclasının keçirilməsi	11 dekabr 2008-cı il
Cenevrədə ÜTT-nin Azərbaycan üzrə işçi qrupunun 7, 8, 9-cu iclaslarının keçirilməsi	2009-2011-ci illər

ÜTT-ə ÜZVOLMA PROSEDURU

1. ÜTT-yə üzvolma istəyini əks etdirən ərizənin ÜTT Katibliyinə təqdim olunması;

2. ÜTT Katibliyində üzv olmaq istəyən ölkə üzrə İşçi Qrupunun yaradılması;

3. Üzv olmaq istəyən ölkənin xarici ticarət rejimi haqqında Memorandumun ÜTT Katibliyinə təqdim olunması;

4. ÜTT-yə üzv olan ölkələr tərəfindən Memorandum dair sualların təqdim olunması;

5. Memorandum dair təqdim olunmuş sualların cavablarının ÜTT Katibliyinə təqdim olunması;

6. Üzv olmaq istəyən ölkə üzrə İşçi Qrupunun ilk iclasının keçirilməsi;

7. Üzv olmaq istəyən ölkə tərəfindən ÜTT Sazişləri ilə nəzərdə tutulmuş sənəd və cədvəllərinin ÜTT Katibliyinə təqdim olunması;

8. ÜTT-yə üzv olmaq istəyən ölkə ilə üzv ölkələr arasında ikitərəfli danışıqların keçirilməsi;

9. Üzv olmaq istəyən ölkə üzrə İşçi Qrupunun ardıcıl iclaslarının keçirilməsi;

10. Üzv olmaq istəyən ölkə üzrə İşçi Qrupu tərəfindən Yekun Hesabatın hazırlanması;

11. Yekun Hesabat əsasında Baş Şura tərəfindən Üzvolma Protokolunun qəbul olunması;

12. Üzvolma Protokolunun Nazirlər Konfransı tərəfindən təsdiq olunması;

13. Üzvolma Protokolunun üzv olmaq istəyən ölkənin parlamenti tərəfindən ratifikasiya olunması.

Hazırda Azərbaycan danışıqların 10-cu mərhələsindədir.

Funksiyalar

ÜTT-nin əsas məqsədi ticarətin tarazlı, maneəsiz, ehtimal olunan şəkildə və azad aparılmasını təmin etməkdir. Bu məqsədə aşağıdakılar vasitəsilə nail olunur:
– Ticarət sazişlərinin idarə olunması;
– Ticarət danışıqları üçün forum kimi çıxış olunması;
– Ticarət mübahisələrinin həlli;
– Milli ticarət siyasətlərinin nəzərdən keçirilməsi;
– Texniki yardım və treninq proqramları vasitəsilə inkişaf edən ölkələrə ticarət siyasətə məsələlərində dəstək;
– Digər beynəlxalq təşkilatlarla əməkdaşlıq.

ÜTT-nin dünya ticarətinin 97%-dən artığını əhatə edən 153 üzvü var. 30-a yaxın ölkə ilə üzvlük barədə danışıqlar davam etdirilir. Qərarlar bütün üzvlərin razılığı ilə qəbul olunur. Bu adətən konsensus əsasında baş verir. Səslərin əksəriyyəti ilə də qərar qəbulu mümkündür, lakin bu ÜTT-də indiyədək heç vaxt baş verməyib, ÜTT-nin sələfi olan GATT-da isə çox nadir hallarda baş verib. ÜTT-nin qərarları bütün üzv ölkələrdə ölkə parlamentləri tərəfindən ratifikasiya olunur.

ÜTT-yə üzv olmaqda əsas məqsədlər aşağıdakılardan ibarətdir:

• Dünya iqtisadiyyatı sisteminə inteqrasiya prosesini sürətləndirmək;
• ÜTT-yə üzv olan ölkələrin bir-birinə verdikləri güzəştlərdən faydalanmaq;
• Dünyanın əksər ölkələri ilə ÜTT tərəfindən qəbul edilmiş ümumi qaydalar əsasında ticarət əməliyyatları həyata keçirmək;
• Ölkədə aparılan iqtisadi islahatlara beynəlxalq təşkilatlar və eləcə də ölkələr tərəfindən yardımın artırılmasına nail olmaq;
• ÜTT qaydalarını tətbiq etdikdən sonra daha çox həcmdə birbaşa xarici investisiyaları cəlb etmək;
• ÜTT-nin mübahisələrin həlli mexanizmindən istifadə etmək imkanını əldə etmək

sında beynəlxalq ticarətin liberallaşmasıdır.

ÜTT aşağıdakı prinsiplər əsasında fəaliyyət göstərir: "ən əlverişli rejim" prinsipi (üzv ölkələr üçün eyni ticarət şəraitinin yaradılması), "milli rejim" prinsipi (idxal olunmuş əmtəə və xidmətlərlə yerli mal və xidmətlər arasında ayrı-seçkiliyə yol verilməməsi), ticarətin tənzimlənməsində tarif metodlarına üstünlük verilməsi, ticarətdə kəmiyyət məhdudiyyətlərinin aradan qaldırılması, ticarət siyasətinin aydın və şəffaf olması, daxili bazarların ancaq ÜTT qaydaları əsasında qorunması, azad rəqabət üçün əlverişli şərait yaradılması, ticarət mübahisələrinin danışıqlar yolu ilə həll edilməsi.

ÜTT-nin rəhbər orqanları aşağıdakılardır:


Nazirlər Konfransı – ÜTT-nin ali orqanı hesab olunur. Bütün üzv ölkələrin təmsil olunduğu Nazirlər Konfransı Uruqvay Raundu Sazişləri ilə bağlı yaranan problemlərin müzakirəsi və prinsipial məsələlər üzrə qərarların qəbul edilməsi üçün ən azı iki ildə bir dəfə çağırılır. Nazirlər Konfransı ÜTT-nin Baş direktorunu təsdiqləmək, müvafiq komitələri formalaşdırmaq, təşkilata yeni üzv qəbul etmək və s. bu kimi mühüm səlahiyyətlərə malikdir. İndiyə kimi altı belə konfrans (1996-cı ilin dekabrında Sinqapurda, 1998-ci ilin mayında Cenevrədə, 1999-cu ilin dekabrında Sietldə, 2001-ci ilin noyabrında Dohada, 2003-cü ilin sentyabrında Kankunda, 2005-ci ilin dekabr ayında Honq Konqda) keçirilmişdir.

Baş Şura – Nazirlər Konfransına tabe olan bu qurum cari işlərin yerinə yetirilməsinə cavabdehdir. Üzv ölkələrin səfirlər və ya nümayəndəliklərin başçıları ilə təmsil olunduqları Baş Şura Cenevrədə yerləşən mənzil-qərargahda ildə bir neçə dəfə toplanır. Baş Şuranın funksiyalarına çoxtərəfli ticarət sazişlərinin və Nazirlər Konfransının qərarlarının yerinə yetirilməsinə nəzarət olunması, mübahisələrin həll edilməsi və ticarət siyasətinin dövri icmalının həyata keçirilməsi daxildir. Baş şuranın hazırki sədri cənab Muhamad Nurdur (Malaziya).

Əmtəələrlə ticarət üzrə Şura – Baş Şuraya tabe olan bu qurum ÜTT prinsiplərinə riayət olunmasına və GATT 1994 Sazişinin həyata keçirilməsinə nəzarət edən 10 ixtisaslaşmış komitənin (Bazara çıxış, kənd təsərrüfatı, sanitar və fitosanitar tədbirlər, ticarətə texniki maneələr, subsidiyalar, antidempinq, gömrük qiymətləndirməsi, malın mənşə ölkəsi, idxalın lisenziyalaşdırılması və s.) fəaliyyətinə rəhbərlik edir.

Xidmətlərlə ticarət üzrə Şura – GATS Sazişinin həyata keçirilməsinə nəzarət edir. Tərkibinə iki komitə daxildir.

Əqli mülkiyyət hüquqlarının ticarət aspektləri üzrə Şura



Sxem 1

TRIPS Sazişinin yerinə yetirilməsinə nəzarət edir. **Katiblik** ÜTT-nin icraçı orqanı hesab olunur. Katibliyə Nazirlər Konfransı tərəfindən təyin olunan Baş direktor rəhbərlik edir. Cenevrədə yerləşən Katibliyin 625 əməkdaşı vardır. Katibliyin əsas vəzifəsi Nazirlər Konfransına, müxtəlif şuralara, komitələrə, İEOÖ-lərə (inkişaf etməkdə olan ölkələr) texniki yardım göstərməkdən və dünya ticarətinin təhlilini həyata keçirməkdən ibarətdir. Katibliyin 2007-ci il üçün büdcəsi təxminən 182 milyon İsveçrə frankı təşkil etmişdir.

ÜTT çərçivəsində kənd təsərrüfatı ilə əlaqədar olaraq xüsusi saziş fəaliyyət göstərir ki, həmin sazişdə kənd təsərrüfatı istehsalçılarına dövlət yardımı, ixrac subsidiyaları və idxal tariflərinin səviyyəsi əksini tapmışdır. Bununla yanaşı, güzəştləri aşağıdakı kriteriyalara ayırmaq olar:

1. "Mavi səbət" tədbirləri özündə istehsalın həcminin azalması ilə əlaqədar ödənişləri əks etdirir. Belə ödənişlər istehsalçıların gəlirlərinin azalması ilə əlaqədar olaraq kompensasiya formasında ödənilir və beynəlxalq aqrar bazarda təklifin artmasına təsir göstərmir. "Mavi səbət" tədbirləri Avropa Birliyi tərəfindən taxıl, ət və süd məhsullarının istehsalının azalması ilə əlaqədar kompensasiya formasında yaradılmışdır.
2. "Yaşıl səbət" tədbirlərinə (YST) isə kənd təsərrüfatında konsaltinqin inkişafına çəkilən xərcləri, pensiya təminatının və məhsulların sığortalanması sisteminin təkmilləşdirilməsi məsələlərini misal göstərmək olar. Belə tədbirlər də, öz növbəsində, aqrar istehsalın həcmini artırmır və labüd olaraq beynəlxalq ticarətə sarsıdıcı zərbə endirmək imkanına malik deyildir.
3. Xüsusi və diferensiallaşdırılmış rejimlər tədbirləri investisiya subsidiyalarını, material-texniki vasitələrin alışı zamanı kompensasiyaların verilməsini nəzərdə tutur. Belə tədbirlər yalnız İEOÖ üçün nəzərdə tutulmuşdur.
4. "Sarı səbət" tədbirləri özündə yerdə qalan bütün tədbirləri cəmləşdirir. Bunlara beynəlxalq aqrar bazarda normal rəqabət üçün əlverişsiz şərait yaradan istehsalın stimullaşdırılmasına yönəldilən hər cür tədbirlər aiddir. Bunlara həmçinin dövlətin vergi güzəştlərini, kredit subsidiyalarını və kənd təsərrüfatı müəssisələrinin borclarının silinməsini aid etmək olar.

Yuxarıda sadalanan tədbirlərin ilk üçünün həcmi azaldılmır, çünki onlar bilavasitə bazar münasibətlərinə və rəqabət şərtlərinə təsir göstərmirlər. Lakin ÜTT-nin qaydalarına əsasən, "Sarı səbət" tədbirlərinin həcmi İEÖ üçün kənd təsərrüfatı məhsulunun həcminin 5%-ni, İEOÖ üçün isə 10%-ni aşmamalıdır.

Beləliklə, ÜTT üzvləri müəyyən dövr ərzində kənd təsərrüfatına dövlət yardımlarını, ixrac subsidiyalarını və idxal tariflərini mərhələlərlə aşağı salmağı öhdələrinə götürürlər. Eyni zamanda belə tələblər ÜTT-yə daxil olmaq istəyən digər ölkələrə qarşı da tətbiq edilir.

Azərbaycan da öz növbəsində ÜTT-yə üzv olmağa çalışır. Bununla əlaqədar olaraq ÜTT katibliyində İşçi Qrupu 16 iyul 1997-ci ildə yaradılmışdır. Həmin ildən respublikamız ÜTT yanında müşahidəçi statusunu malikdir. Ölkəmiz 2004-cü ildən etibarən üzv ölkələrlə danışıqlar aparmaqdadır. İndiyədək Türkiyə, Oman, BƏƏ, Gürcüstan və Qırğızıstanla danışıqlar başa çatdırılmış və protokollar imzalanmışdır. Moldova ilə isə protokol imzalanma mərhələsindədir. Azərbaycan ABŞ, Yaponiya, Braziliya, Ekvador, Şri-Lanka, Avropa Birliyi, Norveç, Hindistan, Cənubi Koreya, Tayvan, Kanada və İsveçrə ilə ikitərəfli danışıqlar aparır. Danışıqlar nəticəsində milli qanunvericilik bazası ÜTT tələblərinə uyğunlaşdırılır, mövcud ticarət rejimi təkmilləşdirilir. Bu baxımdan 40-50 qanunvericilik aktı təşkilatın tələblərinə cavab verməlidir ki, onlardan da 30 sənəd artıq unifikasiya edilmişdir.

Hazırda bu istiqamətdə işlər davam edir. Milli maraqların gözlənilməsi, iqtisadiyyatın rəqabətədavamlılığı istiqamətində ciddi tədbirlər həyata keçirilir ki, Azərbaycan ÜTT-yə üzv olduğu təqdirdə milli iqtisadiyyatda çətinliklər yaşanmasın.

Mansur Mədətov

ÜMUMİ (XALİS) MƏNFƏƏT – işçilərin əmək haqqı, istehsala görə vergilərin dəyərini çıxdıqdan sonra istehsalçılarda qalan əlavə dəyərin bir hissəsi ümumi mənfəət, ondan əsas kapitalın istehlakını (köhnəlməsinin dəyərini) çıxdıqdan sonra isə xalis mənfəət sayılır. Milli Hesablar Sistemində istifadə edilən göstərici.

Cədvəl 1

Ümumi daxili məhsulun strukturu (yekuna görə, faizlə)

Göstəricilər	2000	2005	2008	2009	2010
Ümumi daxili məhsul, (cari qiymətlərlə)	100,0	100,0	100,0	100,0	100,0
ondan:					
məhsul istehsalı	58,6	67,9	71,1	62,4	65,5
xidmətlər	35,8	25,1	23,7	31,3	28,5
maliyyə vasitəçilərinin şərti hesablanmış xidmət haqları	-0,6	-0,6	-1,5	-1,6	-1,1
məhsula və idxala xalis vergilər	6,2	7,6	6,7	7,9	7,1

Cədvəl 2

Ümumi milli gəlirin tərkibi (mlyn. manat)

Göstəricilər	2000	2005	2008	2009	2010
Əmək ödənişləri	1021,1	2820,5	5724,0	6211,8	…
İstehsala və idxala vergilər	342,5	1071,2	3118,4	3182,2	…
Subsidiyalar	-11,2	-27,6	-190,6	-133,7	…
Ümumi mənfəət	3365,7	8658,4	31485,4	26341,2	…
Bazar qiymətlərində ümumi daxili məhsul	**4718,1**	**12522,5**	**40137,2**	**35601,5**	**41574,7**
Qalan dünyadan alınmış əmək haqqı[1)]	170,7	254,3	286,0	259,0	…
Qalan dünyaya verilmiş əmək haqqı	-42,4	-106,2	-138,3	-93,0	…
Mülkiyyətdən alınmış gəlirlər	95,4	65,1	404,9	384,6	…
Mülkiyyətdən verilmiş gəlirlər	-308,3	-1641,5	-4677,2	-3178,6	…
İlkin gəlirlərin ümumi qalığı	4633,5	11094,2	36012,5	32973,5	…
Əsas fondların istehlakı	590,0	1244,3	2219,6	2122,4	…
Xalis milli gəlir	4043,5	9849,9	33792,9	30851,1	…
Alınmış cari transferlər [1)]	644,5	1156,2	1715,1	1506,2	…
Verilmiş cari transferlər	-97,9	-134,6	-369,4	-458,7	…
Sərəncamda qalan xalis gəlir	4590,1	10871,5	35138,7	31898,6	…

[1)] Nağd pul şəklində daxil olan transferlər nəzərə alınmaqla.


Cədvəl 3

Ümumi daxili məhsulun strukturu və dəyişməsi

Göstəricilər	2000	2005	2008	2009	2010
Ümumi daxili məhsul, cari qiymətlərlə, mlyn. manat	**4718,1**	**12522,5**	**40137,2**	**35601,5**	**41574,7**
ondan:					
məhsul istehsalı	2765,9	8507,2	28533,3	22209,6	27207,7
xidmətlər	1688,4	3141,3	9496,0	11150,8	11856,8
maliyyə vasitəçilərinin şərti hesablanmış xidmət haqları	-27,4	-72,5	-580,7	-568,9	-456,8
məhsula və idxala xalis vergilər	291,2	946,5	2688,6	2810,0	2967,0
ÜDM-in deflyatoru, əvvəlki ilə nisbətən, faizlə	**112,5**	**116,1**	**127,8**	**81,2**	**111,3**
ÜDM-in artım sürətləri, əvvəlki ilə nisbətən, faizlə	**111,1**	**126,4**	**110,8**	**109,3**	**105,0**

ÜMUMİ DAXİLİ MƏHSUL (ÜDM) – statistikanın ümumiləşdirilmiş iqtisadi göstəricisi; il ərzində ölkə daxilindəki, eləcə də digər ölkəyə məxsus istehsal amillərindən istifadə etməklə bazar qiymətləri əsasında istehsal olunan son məhsulun (məhsulun, əmtəə və xidmətin) məcmu dəyərini əks etdirir (bax: cədvəl 1, 2). Üç metodla hesablanır: şərti xalis məhsulun gəlirləri, xərcləri və əlavə dəyəri üzrə. Milli Hesablar Sistemində (MHS) tətbiq olunur və ən mühüm göstəricilərindən biridir. "İstehsal" hesabında MHS üzrə ÜDM ümumi buraxılış həcmi və aralıq istehlak arasında fərq kimi; "Gəlirlərin yaranması" hesabında muzdlu işçilərin əməyinin ödənilməsi, xalis istehsal vergilərinin və iqtisadiyyatın ümumi mənfəətinin məbləği kimi; "Gəlirlərdən istifadə" hesabında isə son istehlaka və yığıma ayrılan məsrəflərin məbləği kimi hesablanır. Xalis daxili məhsul göstəricisindən əsas kapitalın istehlakının kəmiyyəti ilə fərqlənir. ÜDM faktiki olaraq əsas və bazar qiymətləri (nominal ÜDM), real ÜDM deflyasiya metodu ilə hesablanır. ÜDM dinamikasının öyrənilməsi üçün sabit qiymətlər tətbiq olunur.

Əhalinin hər nəfərinə düşən ÜDM (ABŞ dolları ilə)



Sxem 1

ÜDM-in xərclər üzrə hesablanması:

$$ÜDM = C + İ + G + X$$

Burada: C – əhalinin istehlak

xərcləri, *İ* – investisiyalar, *G* – dövlət satınalmaları, *X* – xalis ixrac (ixracla idxalın fərqi).

ÜDM-in gəlirlər üzrə hesablanması: $ÜDM = W + R + F + M$


Burada: *W* – əmək haqqı, *R* – renta, *F* – faiz ödənişləri, *M* – mənfəət.

Belə üsulla hər bir istehsalçının bu göstəricilərin yaradılmasında xidmətləri müəyyənləşdirilir. Bu halda əlavə dəyər, yəni hər bir müəssisənin istehsal olunmuş məhsulun dəyərinə əlavə etdiyi yeni dəyər təyin edilir. Yeni yaradılmış dəyər məhsulun satışından əldə olunan pul ilə istehsalın maddi amillərinə çəkilən xərclər arasındakı fərq kimi müəyyənləşdirilir. Yeni yaradılmış dəyərə amortizasiya əlavə olunur.

ÜDM göstəricisi yalnız hazır son məhsulu ehtiva edir.



ÜMUMİ DAXİLİ MƏHSULUN DEFLYATOR İNDEKSİ – inflyasiya və deflyasiya ÜDM-in hesablanmasını çətinləşdirir. ÜDM-in həqiqi kəmiyyətini – real ÜDM-i almaq üçün nominal ÜDM-i inflyasiyanın təsirindən təmizləmək, yəni qiymətlərin indeksasiyasını tətbiq etmək lazımdır. Nominal ÜDM-in real ÜDM-ə nisbəti ÜDM-in qiymətlərin yüksəlməsi hesabına artmasını göstərir və ÜDM deflyatoru adlanır. ÜDM deflyatoru inflyasiyanın və ya əks prosesin – deflyasiyanın intensivliyini ölçür. Qiymət indeksi kəmiyyəti 1-dən böyükdürsə, deməli, ÜDM-in deflyasiyası, qiymət indeksi 1-dən az olarsa, inflyasiyası baş vermişdir. ÜDM-in deflyatoru ölkədə istehsal olunmuş məhsulların hamısının qiymətlərini nəzərə aldığı halda idxal olunmuş məhsulların qiymətlərini nəzərə almır. O, ÜDM-in tərkibinin dəyişməsinə müvafiq olaraq əmtəə və xidmətlər dəstində dəyişikliklərə yer qoyur.



ÜMUMİ DÖVRİYYƏ – 1. Müəyyən vaxt (məs., 1 il) ərzində müəssisənin istehsal sexlərinin hamısı tərəfindən istehsal olunan bütün məhsul növlərinin və sənaye xarakterli işlərin yekun həcmi. Ümumi dövriyyənin tərkibinə öz istehsalından istehlak olunan (məs., avadanlığın cari təmiri) və kənara buraxılan (müəssisədən kənar işlər və s.) hazır məhsul, yarımfabrikatlar, köməkçi sexlərin məhsulları daxildir. Ümumi dövriyyə zavoddaxili planlaşdırmada, ayrı-ayrı sahələrdə isə yekun məhsulu müəyyənləşdirmək üçün istifadə edilir. 2. Müəyyən müddət ərzində təşkilatın ümumi satış göstəricisi.

ÜMUMİ GƏLİR – maddi istehsal xərcləri ilə mədaxil ara-

sındakı fərq. Özündə əmək haqqını və təmiz gəliri birləşdirir.

ÜMUMİ İSTİQRAZLAR (ing. *general obligation bond*) – bələdiyyə istiqrazlarının bu növü üzrə faizlər və onların nominal dəyəri emitentin gələcəkdə vergi daxilolmaları hesabına əldə etmək niyyətində olduğu vəsaitlərdən ödənilir. Ümumi istiqrazların aktivlərinin spektri konkret obyektdən əldə edilən gəlir vasitəsilə təmin olunmuş istiqrazlarla müqayisədə daha genişdir.

ÜMUMİ İTKİ – 1. Tam dağıdılmış və ya xarab olmuş, təmirə məruz qalmayan sığortalanmış əşyanın (predmetin) itkisi. 2. Bütün sığorta məbləğinin ödənilməsinə səbəb olan itki.

ÜMUMİ QƏZA – fövqəladə, gözlənilməz hadisələrin baş verməsi ilə əlaqədar gəminin, gəmidə daşınan yükün xilası üzrə qəsdən edilmiş hərəkətlərin nəticəsində dəymiş zərər.

ÜMUMİ QƏZA (dəniz daşınmalarında) (ing. *general (gross) average*) – gəmini və yükü (fraxt da nəzərə alınmaqla) ümumi təhlükədən və ya tam məhv olmaqdan qorumaq məqsədilə düşünülmüş və ağıllı tədbirlərin qəbulu nəticəsində itkilər. Ümumi qəza üzrə itkilər gəmi, yük və fraxt (daşıma üçün ödənilən haqq) arasında, onların dəyərinə uyğun, sığortalanmış obyektlər (gəmi, yük, fraxt) üzrə müəyyənləşdirilmiş dispaşaya (bax) görə ödənilir. "İtkilər" dedikdə gəmi bortunda kənara atılmış yükün müəyyən hissəsi və ya bəzi gəmi avadanlıqları, gəmidə baş vermiş yanğın nəticəsində dəymiş ziyan, gəminin sahilə yaxın yerdə torpağa batması zamanı (yedəyə qoşulması, yükləmə və boşaldılma və s.) çəkilən xərclər başa düşülür.

ÜMUMİ QƏZAYA GÖRƏ İTKİ – bilavasitə ümumi qəza aktı ilə sığortalanmışın mənafeyinə vurulan zərər. Burada xərclər və ianələr nəzərdə tutulur.

ÜMUMİ MƏNFƏƏT VƏ ÜMUMİ QARIŞIQ GƏLİRLƏR – ümumi əlavə dəyərdən muzdlu işçilərin əmək haqqını, istehsala və idxala vergilərin məbləğini çıxdıqdan sonra istehsalçılarda qalan hissə. Bu göstəriciyə mülkiyyətdən alınan gəlir daxil edilmir və istehsaldan əldə edilən mənfəətin (və ya zərərin) məbləğini xarakterizə edir. Ev təsərrüfatlarına məxsus fərdi müəssisələrin (təsərrüfatların) sahiblərinə və ya ev təsərrüfatı üzvləri muzdlu işçilər tərəfindən sərf edilən oxşar əməyə görə aparılan ödənişlər ümumi mənfəət və qarışıq gəlirlərə daxildir. Milli Hesablar Sistemində istifadə edilən göstəricidir.

ÜMUMİ MƏSULİYYƏT SIĞORTASI – ev sahiblərinin məsuliyyətinin sığortalanması və ümumi mülkiyyətin örtülməsi.

ÜMUMİ MİLLİ GƏLİR – hüquqi və fiziki şəxslərin (rezident-vahidlərin) əldə etdikləri ilkin gəlirləri göstərir. Ona "xarici aləm (qalan dünya)" ilə iqtisadi əlaqələr nəticəsində yaranan (verilən və alınan) ilkin gəlirlərin qalığı (saldosu) da daxil edilir. Ümumi milli gəlir ümumi daxili məhsuldan başqa ölkələrə verilmiş və ya başqa ölkələrdən alınmış ilkin gəlirlərdən asılı olaraq fərqlənir. Başqa ölkələrə verilmiş ilkin gəlirlər Azərbaycan ərazisində fəaliyyət göstərən xarici sahibkarların (şirkətlərin), yəni qeyri-rezidentlərin gəlirləridir, odur ki, milli gəlirə daxil edilmir. Başqa ölkələrdən alınmış ilkin gəlirlər Azərbaycan vətəndaşlarının (sahibkarlarının), yəni rezidentlərin xarici ölkələrdəki iqtisadi fəaliyyətindən əldə etdikləri gəlirlərdir və milli gəliri hesablayarkən ona daxil olunur. Başqa sözlə, ümumi milli gəlir ümumi daxili məhsulun həcmindən xarici ölkələrin rezident-vahidlərinin (verilmiş) ilkin gəlirlərini çıxmaq və ölkə rezidentlərinin xarici ölkələrdəki (alınmış) ilkin gəlirlərini üstə gəlməklə hesablanır. Milli Hesablar Sistemində istifadə edilən göstəricidir.

ÜMUMİ MİLLİ MƏHSUL (ÜMM) (ing. *gross national income*) – ÜDM-dən xarici kapitalın köməkliyi ilə həmin ölkənin ərazisində yaradılmış dəyərlərin məbləğini çıxdıqdan və həmin ölkə vətəndaşlarına məxsus resurslardan istifadə əsasında xaricdə yaradılmış dəyərlər məbləğini əlavə etdikdən sonra alınan məbləğ.

ÜDM kimi ÜMM-i də xərclər, gəlirlər və istehsal metodları vasitəsi ilə hesablamaq olar. Müxtəlif metodlarla hesablamalar nəticəsində alınmış məbləğlər eyni olmalıdır. Bu, onunla əlaqədardır ki, bazar təsərrüfatında bir təsərrüfatçılıq subyektinin xərcləri eyni zamanda digərləri üçün gəlirdir.

Xarici təcrübədə, geniş tətbiq olunan ölkə təcrübəsində iqtisadi hesablaşmalara, ilk dəfə 1988-ci ildən daxil edilən ümumiləşdirilmiş makroiqtisadi göstərici sayılan milli gəlirdən fərq-

li olaraq, ÜMM-yə istehsal və qeyri-istehsal əsas fondların amortizasiyasından və xarici iqtisadi fəaliyyətdən, eləcə də qeyri-istehsal sferasından qazanılan gəlirlər aiddir. ÜMM əlavə dəyərlərin, məsrəf axını və gəlir axınlarının cəmlənməsi metodları ilə müəyyən edilə bilər. ÜMM həmçinin bütün müəssisə, təşkilat, idarə, xalq təsərrüfatında maddi nemətlərin istehsalı ilə məşğul əhalinin gəlirlərinin məbləği kimi inteqrasiya metodu ilə əmək haqqı və digər əmək ödənişi formaları, sosial sığortaya ayırmaları, mənfəət və digər gəlirlər, o cümlədən amortizasiya ayırmaları kimi müəyyən edilə bilər. Son istifadə metodu üzrə ÜMM-in müəyyənləşdirilməsi zamanı əhalinin istehlak etdiyi mal (əmtəə) və xidmətlər (həm ödənilən, həm də pulsuz təqdim edilən), ictimai təşkilatların xidmətlərinin dəyəri, elm və idarəetmə idarələrinə göstərilən xidmətlərin istehlakı, yığım (kapital qoyuluşları və material dövriyyə vəsaitlərinin artımı), xarici ticarət saldosu, iqtisadi fəaliyyətdən gəlirlərin saldosu cəmlənir.

ÜMM kəmiyyətinə qiymətlər indeksi formasında təcəssüm olunan qiymətlərin səviyyəsi (artması və ya azalması) təsir göstərir. ÜMM-in qiymət indeksi ÜMM deflyatorudur. ÜMM qiymət indeksinin köməyi ilə hər bir ilin istehsal həcminin qiymətini bazis ilində istehsalın oxşar həcminin qiyməti ilə müqayisə etmək olar. Cari qiymətləri əks etdirən ÜMM göstəricisini "nominal ÜMM" adlandırırlar. Qiymətlərin səviyyəsini (inflyasiya və deflyasiya) nəzərə almaqla dürüstləşdirilən ÜMM göstəricisini "real ÜMM" adlandırırlar. Bu, milli iqtisadiyyatın daha dəqiq xarakteristikasıdır.

Xalis milli məhsul – ÜMM-dən kapitalın istehlak olunan hissəsini (amortizasiya) çıxdıqdan sonra yerdə qalan hissədir.

ÜMUMİ MİLLİ MƏHSULUN DEFLYATORU – ümumi milli məhsulu (ÜMM) formalaşdıran əmtəə və xidmətlərə orta ölçülü əmsal və ya qiymət səviyyəsi. Başqa sözlə, xalq istehlakı və istehsal təyinatlı ən müxtəlif növ mallar dəstinin satışının orta dəyər dəyişməsi kimi hesablanan qiymət indeksi. Əgər əvvəlki dövrün qiymətləri saxlanılsa, o, istehsalın cari həcminin nə qədər olacağını müəyyən etməyə imkan verir. Bazis ilinin qiymətləri üzrə olan ÜMM deflyatorunun köməyi ilə gətirilən qiymətlərlə hesablanan ümumi milli məhsul real ÜMM, cari qiymətlərlə olan isə nominal ÜMM adlanır. ÜMM-in deflyatorunu aşağıdakı əmsalla hesablayırlar:

ÜMM deflyatoru = Nominal ÜMM/Real ÜMM*100%

ÜMM-in deflyatoru istehlak qiymətlərinin aqreqat indeksi ilə yanaşı, inflyasiya sürətini xarakterizə də edən qiymətlər indeksi kimi istifadə olunur. İstehlak qiymətlərinin aqreqat indeksindən fərqli olaraq, ÜMM-in deflyatoru nəinki istehlak qiymətləri, həm də daha geniş qiymətlər dairəsi üçün hesablanır. Belə müxtəlif bazada qurulan göstəricilər çox zaman inflyasiyanın səviyyəsinin eyni olmayan qiymətlərini verir. Həmçinin ümumi daxili məhsulun analoji

ÜMUMİ MİLLİ MƏHSULUN HESABLAMA METODLARI:

ÜMM-un məsrəflər uzrə hesablanması:

1) əhalinin istehlak xərcləri – (*C*),
2) umumi xususi investisiyalar – (*I*),
3) əmtəə və xidmətlərin dovlət alışı – (*G*),
4) xalis ixracat (idxal və ixracın fərqi) – (*Xn*).

Deməli,

$$ÜMM = C + I + G + Xn$$

ÜMM-un gəlirlər uzrə hesablanması:

1) əmək haqqı – (*W*),
2) faiz – (*r*),
3) renta – (*R*),
4) mənfəət – (*m*).

Bu gəlirlərin cəminə amortizasiya ayırmaları (*d*), dolayı vergilər (*T*) və mulkiyyətdən vergi (*T1*) də əlavə edilir. Onda

$$ÜMM = W + r + R + m + d + T + T1$$

Olkədə fəaliyyət gostərən daxili və xarici vətəndaşların gəlirləri ÜDM-də daxil edilir.

Sxem 1



deflyatoru tətbiq olunur. Bir çox ekspertlər hesab edirlər ki, xarici iqtisadi əlaqələrin çox böyük rol oynamadığı ölkələrdə ÜDM deflyatorunun tətbiqi daha məqsədəuyğundur.

ÜMUMİ MÜLKİ MƏSULİYYƏT SIĞORTASI – məsuliyyət sığortası növüdür ki, bu da özündə şəxsi işgüzar və eventual (yəni əlverişli şəraitdə mümkün olan) məsuliyyət sığortalarını ehtiva edir.

ÜMUMİ MÜLKİYYƏT – fərdi mülkiyyətçi hüquqlarına malik şəxslərin birliyi tərəfindən yaradılan forma. Ümumi mülkiyyətin iştirakçıları bir-birindən əmlakın həcminə görə fərqlənə bilər. Lakin onların əhəmiyyətli səlahiyyətlər toplusu fərqlənmir. Ümumi mülkiyyətin pay mülkiyyəti (iştirakçıların əmlak payları ayrılmış olduqda) və birgə mülkiyyət (paylar ayrılmamış olduqda) növləri olur. Ümumi mülkiyyətin ən çox rast gəlinən funksional-istehsal növü kooperativ mülkiyyətidir. Ümumi mülkiyyətin ailə mülkiyyəti növü də ola bilər.

ÜMUMİ POLİS – bir məbləğ altında bir neçə sığorta obyektlərini örtən sığorta polisi.

ÜMUMİ RİFAH DÖVLƏTİ – 1. Qərb iqtisadi nəzəriyyəsinin institusional istiqaməti çərçivəsində işlənib hazırlanmış konvensiya. İctimai rifah institutları sisteminin inkişafı burada ictimai məhsulun yenidən bölüşdürülməsi sahəsində uzunmüddətli meyillərlə bağlı universal proses kimi baxılır. 2. İnkişaf etmiş ölkələrdə formalaşan dövlətin inkişaf səviyyəsi.

Ümumi rifah dövləti gəlirlər, məşğulluq və sosial proseslərin birbaşa və dolayı tənzimləmə üsulları ilə bazar iqtisadiyyatında sosial siyasətin ön plana çəkilməsini nəzərdə tutur. Bu zaman sosial infrastrukturun müxtəlif sahələrinin – elm, mədəniyyət, təhsil və səhiyyənin inkişaf proqramları həyata keçirilir.

Elmi-texniki tərəqqi və struktur islahatlar nəticəsində əldə olunmuş iqtisadi inkişaf səviyyəsi müxtəlif sosial təbəqələrin, əhali qruplarının yüksək həyat standartları, iqtisadi və sosial strukturun dinamizmi sosial müdafiənin şaxələnmiş sistemini qurmağa, müvafiq sosial mexanizmlərdən istifadə etməyə imkan verir.

Bütün bunlar ehtiyacın yoxlanmasına əsaslanmış sosial sığorta və sosial yardım növləridir.

Ümumi rifah dövlətinin nümunəsi XX əsrin 60-cı illərində İsveçdə formalaşmış qarışıq iqtisadiyyat modeli hesab olunur. Bu modeldə dövlət büdcəsi vasitəsilə ümumi milli məhsulun təxminən 3/5-nün yenidən bölüşdürüldüyü yüksək, birbaşa və dolayı vergilərdən, gəlirlərin aşağı diferensiasiyasından əlavə, burada işsizliyin aşağı səviyyəsini təmin edən əmək haqqı və məşğulluğun tənzimlənməsinin spesifik mexanizmləri tətbiq olunur. Eyni zamanda İsveç iqtisadiyyatında son illərdə bir sıra problemlər peyda olmuşdur ki, onları da, bir sıra ekspertlərin fikirlərinə görə, sosial imtiyaz-

ların azaldılması hesabına həll etmək olar.

ÜMUMİ RİSK – eyni zamanda bütün iqtisadi agentlərə təsir edən risklərə deyilir.

ÜMUMİ SIĞORTA, DAXİLİ – yüksək sığorta risklərinin sığortalanmasında öz ödəmə qabiliyyətinin təmin olunması və sığortalıların əmlak mənafelərinin müdafiəsinə zəmanət verilməsi üçün sığortaçıların öz aralarında bağladıqları saziş əsasında qarşılıqlı sığorta fəaliyyətinin təşkili forması.

ÜMUMİ SPRED – emitent tərəfindən buraxılmış qiymətli kağızlara görə alınan qiymətlə investor tərəfindən həmin qiymətli kağızların alınması üçün ödənilən qiymət arasındakı fərq.


ÜMUMİ TARAZLIĞIN TƏHLİLİ (ing. *general equilibrium analysis*) – 1. Konkret bazarda əmtəəyə tələbatın və ya əmtəə təklifinin dəyişmələrinin başqa bazarlarda qiymətlərə və əmtəənin həcminə təsirinin təhlili; 2. Borc kapitalları və depozitləri bazarlarının bir-birinə qarşılıqlı təsirinin təhlili. Bu, iki bazarın bir-birindən qarşılıqlı asılılığını nəzərə alır.

ÜMUMİ TARAZLIQ NƏZƏRİYYƏSİ – tələb və təklif nəzəriyyəsinin, faydalılığın yuxarı həddi nəzəriyyəsinin, məhsuldarlığın yuxarı həddi nəzəriyyəsinin ümumiləşdirilməsinə əsaslanan tarazlıq modelləri sistemi.

Ümumi tarazlıq nəzəriyyəsinin nümayəndəsi isveçrəli iqtisadçı Leon Valras (1834-1910) olmuşdur.

Valras modeli

Valras modeli dörd qrupa bölünmüş tənliklərdən ibarətdir:



1) istehsal edilmiş məhsula tələbin qiymətinin tənliyi – qiymətlərin funksiyası;

2) məhsuldar xidmətlər təklifinin tənliyi – qiymətlərin funksiyası;

3) hazır məhsulların qiymətinin məhsuldarlıq əmsalları əsasında istifadədə olmuş xidmətlərin istehsal qiymətləri ilə ifadə edildiyi tənlik;

4) bazarda artıq satılmış istehsal xidmətlərinin ümumi miqdarı ilə istifadədə olmuş bəzi istehlak predmetlərinin miqdarı arasında tarazlığı ifadə edən tənliklər.

Son məhsulların ümumi təklifinin pul şəklində ifadəsi mülkiyyətçilərin istehsal amillərindən əldə etdiyi gəlirlərin məbləği kimi onlara ümumi tələbə bərabər hesab olunur.

Valras modelinin müddəaları

Valras öz modelində aşağıdakı müddəaları əsas götürmüşdür:

1) hər bir bazar təsərrüfatı tarazlığa meyil edir;

2) bazar iqtisadiyyatının əsas elementləri arasında qarşılıqlı asılılıq prinsipi vahid sistemin mövcud olmasını təmin edir və tarazlığa meylin reallaşmasına təsir göstərir;

3) Tarazlığın təhlilinin çıxış

nöqtəsi istehsalçılarla istehlakçılar arasında məhsul mübadiləsinin təhlilidir; mübadilə qarşılıqlı fayda və ekvivalentlik əsasında həyata keçirilir.

ÜMUMİ TƏYİNATLI MALİYYƏ HESABATLARI (*general purpose financial statements*) – maliyyə hesabatlarının əsas prinsiplərinə uyğun olaraq və geniş istifadəçi kütləsinin ümumi məlumat tələbatını ödəmək üçün hazırlanmış maliyyə hesabatları.

ÜMUMİ TUTULMA – öz riskinə görə sığortaçı tərəfindən qəbul edilən öhdəliklərin ümumi həcmi (yəni xalis xətt, üstəgəl bütün təkrar sığorta sessiyaları). Həmçinin "ümumi xətt" kimi də tanınır.

ÜNVANLI DÖVLƏT SOSİAL YARDIMI – aztəminatlı ailələrə dövlət tərəfindən göstərilən pul yardımı. "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan respublikasının Qanunu" ilə tənzimlənir. Ünvanlı dövlət sosial yardımını almaq hüququna orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən (ailə üzvlərinin əmək qabiliyyətsiz olması, ailənin əmək qabiliyyətli üzvünün müvafiq icra hakimiyyəti orqanında işsiz kimi qeydə alınması, vəfat etməsi, məhkəmə tərəfindən itkin düşmüş və yaxud ölmüş hesab edilməsi, azadlıqdan məhrum edilməsi, ailə üzvünün olduğu yerin məlum olmaması və s.) hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan aztəminatlı ailələr malikdirlər.

Ünvanlı sosial yardımın məqsədi aztəminatlı ailələrin sosial müdafiəsinin təmin edilməsindən ibarətdir. Bu növ sosial yardımın əsas prinsipləri aşağıdakılardan ibarətdir:

– ünvanlılıq – sosial yardım yalnız aztəminatlı ailələrə təyin olunur;

– ədalətlilik – sosial yardım ailənin orta aylıq gəliri ilə hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusu arasındakı fərq məbləğində təyin olunur;

– bərabərlik – sosial yardım bütün aztəminatlı ailələrə təyin olunur.

Sosial yardım dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir.

Sosial yardım aztəminatlı ailələrə yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təyin olunur. Qüvvədə olan qanuna görə sosial yardımın məbləği ailənin orta aylıq gəliri ilə hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusu arasında yaranan fərq məbləğində hesablanır. Ehtiyac meyarının mərhələlərlə ölkə üzrə yaşayış minimumuna çatdırılması iqtisadi, sosial siyasətin vacib məqsədlərindən biri hesab edilir.

ÜSTƏLİK İZAFİ DƏYƏR – ayrı-ayrı qabaqcıl müəssisə və cəmiyyətlərin əmtəəsinin fərdi dəyəri ilə bu əmtəənin reallaşma qiymətini müəyyən edən ictimai dəyər arasında fərq. Üstəlik izafi dəyər texnikada, texnologiyada, əməyin və istehsalın təşkilində və istehsal prosesinin digər parametrlərində başqa müəssisələri üstələyən müəssisələrdə yaranır. Bu, onlara həmin sahədə, uyğun istehsal olunan əmtəə vahidinin dəyərində orta səviyyə ilə müqayisədə əmək məhsuldarlığının artımında xeyli ötməni təmin edir. Bu müəssisə üçün üstəlik izafi dəyər müvəqqəti xarakter daşıyır. Belə ki, sahənin digər müəssisələrində yeni texnika və texnologiya, eləcə də istehsal təkmilləşdirmələri yayıldıqca və bu əsasda qabaqcıl müəssisələrin əmək məhsuldarlığının səviyyəsinə nail olduqca əmtəələrin ictimai dəyərinin azalması baş verir. Fərdi dəyərlə ictimai dəyər arasında fərq aradan qalxır. Üstəlik izafi dəyər texnika və texnologiyanın təzələnməsi yolu ilə istehsal olunmuş əmtəələrin keyfiyyətcə təkmilləşməsinə, fərdi məsrəflərin daim azalmasına sövq edərək, rəqabət mexanizminə daxildir. Bütün bunlar elmi-texniki və təcrübə-konstruktor işlərinin inkişafına sövq edir. Beləliklə, üstəlik izafi dəyərin mühüm funksiyası elmi-texniki tərəqqinin (ETT) stimullaşdırılması və bütövlükdə məhsuldar qüvvələrin inkişafıdır. Bununla belə, üstəlik izafi dəyər inhisarçı meyillərlə əlaqədardır.

ÜZBƏÜZ HƏMLƏ – rəqabət mübarizəsinin aparılma strategiyası. Bu zaman həmlə edən şirkət müdafiə olunan şirkətə ön tərəfdən yönələn həmlə edir.

ÜZƏN (DƏYİŞKƏN) DƏRƏCƏLİ İPOTEKALAR – borcun müddəti ərzində kreditora faiz dərəcəsini dəyişmək imkanı verən girov kağızları.

ÜZƏN MƏBLƏĞLƏ HƏYAT SIĞORTASI – həyat sığortası növüdür ki, burada təsbit edilmiş mükafatın bir hissəsi maliyyə aktivlərinə investisiya olunur. Bu isə polisləri saxlayanlara kapitalın artımında iştirak etməyə imkan verir; sığorta şirkəti ölüm zamanı minimum ödənişlərə zəmanət verir. Polisə

görə kredit almaq olar və ya onu nağd pula döndərmək olar.

ÜZƏN UÇOT DƏRƏCƏSİ – Mərkəzi bankın, pul bazarının baza dərəcələrinin (faizin) dəyişməsindən asılı olaraq qalxıbenən, məsələn, təsbitlənən uçot dərəcəsindən fərqli olaraq, xəzinə öhdəlikləri üzrə Mərkəzi Bank tərəfindən onun pul kredit siyasətinə uyğun müəyyən səviyyədə təsbit olunan və bu siyasətin icrasına nəzarət vasitələrindən biri olan uçot dərəcəsidir.

ÜZƏN VƏ YA DƏYİŞƏN KURSU OLAN PREFAKSİYALAR – dividend ödəmələri faiz səviyyəsinin titrəyişindən asılı olaraq dəyişən səhmlər: əgər o artırsa, dividend də artır və əksinə. Belə prefaksiyalar o zaman bazara buraxılır ki, birbaşa prefaksiyaları realizə etmək çətin olsun. Bəzən buraxılışı konversiya (belə ki, kapitalın ikiləşməsi mümkündür) və ya reaktivə (sahiblər buraxılışı ödəmək tələbini təqdim edə bilər) çevirmək olmaz.

ÜZMƏ RAYONU SƏRHƏDLƏRİ – dünya okeanı rayonlarını məhdudlaşdıran taym-çarter şərtidir ki, burada icarədarlar icarəyə götürülmüş gəmidən maneəsiz olaraq istifadə edə bilərlər. Adətən, taym-çarterdə üzmə rayonu sərhədləri sadalanmır. Mövsümi amil nəzərə alınmaqla dünya okeanının bütün rayonlarını ətraflı sadalayan sığorta şirkətlərinin qaydalarına istinad edilir ki, gəmilərin bu yerlərdə olması sığorta şərtləri ilə örtülmür.

ÜZÜMÇÜLÜK – üzümün becərilməsi ilə məşğul olan kənd təsərrüfatı sahəsi. Üzümçülük əhalini üzüm və kişmişlə, şərabçılıq və konserv sənayesini xammalla təmin edir. Bununla əlaqədar olaraq üzümçülük 4 istehsal sahəsinə ayrılır: 1. süfrə üzümçülüyü – yerli istehlak üçün təzə üzümün istehsalı, daşınması və saxlanması. 2. qurudulmuş üzümün xammal bazası kimi kişmiş sortlarının yetişdirilməsi. 3. şərabçılıq sənayesinin xammal bazası kimi – zavodların şərab, şampan şərabı və brendi istehsalı üçün texniki sortlarla təmin edilməsi. 4. konserv sənayesinin xammal bazası kimi – şirə, kompot, mürəbbə və s. spirtsiz içkilər üçün xammal istehsal edilməsi.



Dünya üzümlüklərinin təqribən yarısı İspaniya, İtaliya və Fransanın payına düşür. Üzümçülük, həmçinin Türkiyə, Əlcəzair, Portuqaliya, Rumıniya, Macarıstan, Bolqarıstan və ABŞ-da inkişaf etmişdir. keçmiş SSRİ-də üzümlüklərin ümumi sahəsi 1 mln. 300 min *ha*-a çatırdı (1982). Rusiya (Stavropol, Qroznı, Krasnodar, Rostov, Dağıstan və s.), Ukrayna, Maldova, Gürcüstan, Ermənistan, Orta Asiya respublikalarında və xüsusilə Azərbaycanda üzümçülük kənd təsərrüfatının əsas sahələrindən biri idi.

Üzümçülük gəlirli sahə kimi qədimdən məlumdur. Eneolit və Tunc dövründə yabanı Avropa üzümü becərilirdi; üzüm cənubi Qafqaz, Orta Asiya və Ön Asiyanın yaxınlığındakı rayonların ərazisində eramızdan bir neçə min il əvvəl məlum idi. Azərbaycan, Ermənistan, Gürcüstan və Türkmənistanda indi də yabanı üzümlərə rast gəlinir.

Qədim müəlliflərin məlumatları, qayaüstü rəsmlər və heykəltaraşlıq abidələri, həmçinin arxeoloji qazıntılar zamanı tapılmış üzüm toxumları və şərab qalıqları sübut edir ki, Xəzər, Qara və Aralıq dənizləri hövzələrindəki rayonlar üzümçülük və şərabçılığın ən qədim ocaqlarıdır. İnsanlar ilk dəfə yabanı üzüm kolunu tədricən mədəniləşdirmiş, onu meşədən açıq, günəşli yerlərə köçürmüş, mütərəqqi aqrotexniki üsullarla becərərək çoxlu üzüm növləri yetişdirmişlər. Yaxın Şərqdə üzüm hələ 7-9 min il əvvəl məlum idi. Suriya, Fələstin, Kiçik Asiya, Yunanıstan və Misirdə üzüm bu ərazilər məskunlaşandan becərilirdi. Təqribən 3500 il bundan əvvəl Mesopotamiyada, bir qədər sonra isə Zaqafqaziyada üzümçülük və şərabçılıq geniş yayılmışdı. Üzümçülüyün yayılmasında və onun müxtəlif sortlarının meydana gəlməsində Qədim Elladanın üzümçülük mədəniyyətini mənimsəmiş Romanın mühüm rolu olmuşdur. Üzümçülük Romadan Fransa, İspaniya və Avropanın digər ölkələrinə keçmişdir. Şərqi Avropaya üzüm tənəyini Krım və Qara dəniz vasitəsilə qədim yunan mühacirləri gətirmişlər. E.ə. 5-ci əsrdə Skif padşahlığına gəlmiş Herodotun məlumatına görə Dneprin aşağı axarlarının sakinləri (borisfenlər) mədəni üzümçülüklə məşğul olurdular.








Üzümçülük Azərbaycanda tarix etibarı ilə ən qədim, məişətdə tutduğu yerə görə geniş yayılmış təsərrüfat sahələrindən biridir. Azərbaycan üzümçülük hələ Tunc dövründən məlum idi. Göygöl, Qazax (Sarıtəpə), Ağdam (Üzərliktəpə), Ağstafa (Şomutəpə) və s. yerlərdən tapılmış üzüm toxumları, kömürləşdirilmiş üzüm gilləri, içərisində şərab xıltı olan küplər, üzüməzən daşlar, həmçinin təsərrüfat alətləri (dəhrə, bıçaq, qayçı və s.), xırda qablar (matra, kuzə, qədəh, cam və s.) Azərbaycanda hələ 5-7 min il bundan əvvəl üzümçülük və şərabçılıqla məşğul olunduğunu göstərir. Antik dövrdə və erkən orta əsrlərdə üzümçülük daha da inkişaf etmişdi. Azərbaycanda üzümdən kişmiş, mövüc, doşab, riçal, sirkə, abqora və s. hazırlanır, xarici ölkələrə də ixrac olunurdu. Üzüm və üzüm məhsullarından müxtəlif xəstəliklərin müalicəsində də istifadə edilirdi. 19-cu əsrin ortalarından Azərbaycanda üzümçülük daha da inkişaf etdi və sənaye xarakteri daşımağa başladı. 1913-cü ildə Azərbaycanda üzümlüklərin sahəsi təqribən 26 min ha, üzüm istehsalı 105 min *t* olmuşdur. Sovet hakimiyyəti illərində Azərbaycanda üzümçülüyün inkişafına xüsusi fikir verilirdi. Azərbaycan SSR XKS-nin 1922-ci il 25 aprel tarixli dekretinə əsasən torpaq komissarlığı yanında üzümçülük-şərabçılıq idarəsi (Azərşərab) təşkil edildi. 1925-ci ildə Azərşərab idarəsi Azərbaycan Dövlət Şərab-Spirt Trestinə çevrildi. Azərbaycanın rayonlarında üzümçülüklə məşğul olan sovxozlar və kolxozlar

yaradıldı. SovİKP MK-nın və SSRİ Nazirlər Sovetinin "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" (1979, fevral) qərarı respublikada ixtisaslaşdırılmış üzümçülük sovxozlarının yaradılmasına və sənaye əsasında inkişaf etdirilməsinə geniş imkan yaratdı. Azərbaycan SSR-də 314 ixtisaslaşdırılmış üzümçülük sovxozunda 300 min hadan çox üzüm plantasiyası var idi. Üzüm istehsalında və tədarükündə Azərbaycan SSR ölkədə birinci yerə çıxmışdır (2 mln. *t*-dan çox, 1984).

Azərbaycanda 250 yerli üzüm sortu seçilib təsvir edilmişdi. İstehsalat əhəmiyyəti olan 67 yerli üzüm sortunun təsviri Azərbaycan SSR-in ampeloqrafiyasında verilmişdi. Azərbaycanda üzümlüklərin 90%-ni texniki və 10%-ni süfrə üzümü sortları təşkil edirdi.

1985-1986-cı illərdə SSRİ-də alkoqolizmə qarşı siyasi kampaniyanın başlanması texniki üzüm sortlarının kütləvi surətdə ləğv edilməsinə səbəb oldu. SSRİ-də üzümçülük və şərabçılıq məhsulları istehsalının 25%-nin Azərbaycanın payına düşdüyündən həmin kampaniya Azərbaycana xeyli ziyan vurdu. Şamaxı, Cəlilabad, Tovuz, Qazax, Göygöl, Füzuli və Ağdam rayonlarında üzümlüklər qısa müddətdə ləğv edildi. Şərab zavodlarında milyon dekalitrlərlə şərab məhsulu uzun müddət saxlandığına görə keyfiyyətini itirdi. 1984-cü ildə Azərbaycanda 2 mln. *t* üzüm istehsal olunduğu halda, 1995-ci ildə bu











rəqəm 308,7 min *t*-a, üzüm sahələri 1985-ci ildə 267,8 min *ha*-dan 1995-ci ildə 97,7 min *ha*-a endi.

1998-ci ildə bütün şərab və ilkin şərab emalı, şampan və brendi zavodları özəlləşdirilməyə açıq elan edildi. Onların bazasında 33 səhmdar cəmiyyəti yaradıldı, qalan 82 emal müəssisəsi isə kiçik müəssisəsi kimi özəlləşdirildi.

2001-ci ildə "Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanun Azərbaycan Respublikasında üzümçülüyün təşkilinin, üzüm və şərabçılıq məhsulları istehsalının və dövriyyəsinin tənzimlənməsinin, habelə keyfiyyətinin təmin edilməsinin hüquqi əsaslarını müəyyən edir.

Qanunun məqsədi respublikada üzümçülüyün və şərabçılığın inkişafını təmin etməklə istehlak bazarına beynəlxalq standartların tələblərinə cavab verən, rəqabət qabiliyyətli üzüm və şərabçılıq məhsulları çıxarılmasına təşkilati, iqtisadi və hüquqi zəmin yaratmaqdır.

Qanunla üzümçülük və şərabçılıq sahəsində dövlət siyasətinin əsas istiqamətləri də müəyyənləşdirilmişdir. Onlar aşağıdakılardır:

– üzümçülük və şərabçılıq sahələrinin inkişaf etdirilməsi məqsədilə elmi tədqiqatların müasir tələblərə uyğun aparılmasının gücləndirilməsi;

– informasiya və təcrübə mübadiləsinin genişləndirilməsi;

– beynəlxalq standartların tələblərinə uyğun məhsul istehsalına təminat verən normativ hüquqi bazanın yaradılması;

– kadrların hazırlanması və təkmilləşdirilməsi, elmi-təcrübi seminarların, konfransların təşkili;

– istehsal olunaraq istehlak bazarına çıxarılan və ya ixrac olunan rəqabət qabiliyyətli üzüm və şərabçılıq məhsullarının keyfiyyətinin yüksəldilməsi üçün yeni texnika və müasir texnologiyanın tətbiq edilməsi;

– istehsal və ixracın artırılması, daxili bazarın haqsız rəqabətdən qorunması.

Üzümçülük və şərabçılıq sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

– üzümçülüyün təşkili, üzüm və şərabçılıq məhsullarının, üzüm əkini materiallarının istehsalının, dövriyyəsinin və keyfiyyətinin yüksəldilməsi tədbirlərinin tənzimlənməsinə dair normativ hüquqi aktlar qəbul etmək;

– üzüm və şərabçılıq məhsullarının bazarını öyrənmək, proqnozlar vermək, sahənin inkişafı üzrə məqsədli dövlət proqramları hazırlamaq və həyata keçirmək;

– Azərbaycan Respublikası ərazisində xəstəlik və zərərvericilərə qarşı dözümlü üzüm sortlarını yetişdirmək, tinglik təsərrüfatlarını inkişaf etdirmək, rayonlaşdırılmış üzüm sortlarını çoxaltmaq, habelə coğrafi adlar verilən keyfiyyətli şərabçılıq məhsullarının istehsalını stimullaşdırmaq məqsədilə investisiya qoymaq, subsidiyalar və uzunmüddətli kreditlər vermək;

– şərabçılıq məhsullarının istehsalı və dövriyyəsi sahəsində sahibkarlıq fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsinin qaydalarını müəyyən etmək;

– üzüm və şərabçılıq məhsullarının idxalını və ixracını tənzimləmək;
– şərabçılıq məhsullarına dair aksiz vergilərinin dərəcələrini müəyyən etmək.
Qanunda, həmçinin üzüm əkini materiallarının istehsalı, üzüm əkini materiallarının yetişdirilməsi, üzümlüklərin salınması, əmtəəlik üzüm istehsalı üzrə zəruri hesab edilən normativ sənədlərdən, keyfiyyət göstəricilərini nizamlayan müvafiq icra hakimiyyəti orqanları tərəfindən təsdiq edilmiş standartlardan bəhs edilir. İstehsal mənşəyinə görə adlar verilən şərablar hazırlanması üçün üzüm istehsalının xüsusiyyətləri açıqlanır. Qeyd etmək lazımdır ki, istehsal mənşəyinə görə adlar verilən şərablar hazırlanması üçün üzüm istehsalı müvafiq inzibati-ərazi vahidində və ya yerdə ərazinin relyefi, torpaq-iqlim və ekoloji şəraitinin xüsusiyyətləri nəzərə alınmaqla müəyyən üzüm sortlarının xüsusi aqrotexniki üsullarla yetişdirilməsi əsasında həyata keçirilir. İstehsal mənşəyinə görə adlar verilən şərablar hazırlanması üçün üzüm sortlarının becərilməsində herbisidlərdən istifadəyə yol verilmir.
Şərabçılıq məhsullarına üzümdən hazırlanmış şərablar, o cümlədən şampan şərabları və brendi daxildir.
Şərabçılıq məhsulları müvafiq standartların tələblərinə, sanitariya normalarına və qaydalarına riayət edilməklə, təsdiq edilmiş texnoloji təlimatlara və resepturaya uyğun istehsal olunur və onların hazırlanmasında yalnız yeyinti məhsullarından alınan etil spirtindən istifadə edilir.
Şərabçılıq məhsullarının sinkləşdirilmiş metal, kapron və karton qablara süzülməsinə və saxlanmasına yol verilmir. Şampan və qazlaşdırılmış şərabların istehsalı və saxlanması proseslərində hermetikləşmə şərtlərinə əməl olunmalıdır.
Hazırlanma texnologiyalarına görə şərablar təbii və xüsusi olur. Təbii şərablar üzümün tam və ya qismən spirt qıcqırması yolu ilə alınır. Xüsusi şərablar üzüm və ya şərab materialından müxtəlif texnoloji üsulların tətbiqi ilə alınır. Belə şərablar xammala və hazırlanma texnologiyasına məxsus dad keyfiyyətinə malik olurlar.
Keyfiyyət xüsusiyyətlərinə və saxlanma müddətinə görə şərablar adi (ordinar) və yüksək keyfiyyətli (markalı) olurlar. Adi şərablar ümumi texnologiya üzrə hazırlanır, məhsul yığımı ilində və ya növbəti ilin əvvəlində satışa buraxılır. Markalı şərablar yüksək keyfiyyətli xammaldan, xüsusi texnologiyanın tətbiqi ilə hazırlanır və texnoloji tutumlarda bir ildən üç ilədək dincə qoyulur. Butulkalarda əlavə olaraq xüsusi şəraitdə iki il yarımdan az olmayaraq saxlanılan markalı şərablar kolleksiya şərabları hesab olunurlar.
İstehsal mənşəyinə görə şərablara adlar onların hazırlanmasında istifadə edilən üzüm sortlarının yetişdirildiyi inzibati-ərazi vahidinin və ya yerin adına uyğun olaraq verilir. Bu şərablar müəyyən üzüm sortlarının yüksək keyfiyyətli üzümlərindən ənənəvi və ya orijinal texnologiyaların tətbiqi əsasında hazırlanır və onların istehsalında etil (yeyinti) spirtinin, saxarozanın, üzüm konsentratlarının, ətirli və süni boya maddələrinin, digər inqrediyentlərin istifadəsinə yol verilmir. Belə şərabların hazırlanmasında istifadə edilən üzümlərdə şəkərlilik dərəcəsi qüvvədə olan standartların tələblərinə uyğun olmalıdır. Hər şərab növünə onun hazırlanması üzrə ayrıca texnoloji təlimat tərtib edilir və məhsulun attestasiyası zamanı təsdiq olunur.
İstehsal mənşəyinə görə adlar verilən şərabları istehsal edən müəssisələrə məhsulun attestasiyasına dair şəhadətnamə təqdim edilir. İstehsal mənşəyinə görə adlar verilən şərabların attestasiyasının müddəti 5 ildir. Bu müddət qurtardıqdan sonra məhsulun attestasiyası yenidən aparılır.
Brendi istehsalı üzümdən hazırlanmış şərab materialından spirtin çəkilməsi, dincə qoyulması və son məhsulun istehsalı kimi texnoloji prosesləri əhatə edir.
Şərabçılıq məhsullarının yeni növləri və çeşidləri istehsala hazırlanarkən onların nümunələri tələb olunan sənədlərlə birlikdə müvafiq icra hakimiyyəti orqanının mərkəzi dequstasiya komissiyasına təqdim edilməlidir. Məhsulların dequstasiyadan keçirilməsi və sənədləşdirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş əsasnamə ilə müəyyən olunur.
Yeni ad altında dövlət reyestrində qeydiyyata alınmış, istehsala və istehlak bazarına attestasiya edilmiş şərabçılıq məhsulları ölkə qanunvericiliyinə uyğun olaraq patentləşdirilir.







Şərabçılıq məhsullarının qablaşdırılması, etiketləşdirilməsi, saxlanması və daşınması qüvvədə olan normativ sənədlərin tələblərinə uyğun olaraq həyata keçirilir.

İstehsal mənşəyinə görə adlar verilmiş şərabların bədii tərtib edilmiş arxa etiketlərində məhsulun hazırlanma texnologiyası, keyfiyyət göstəriciləri, üzüm sortunun yayılma arealı barədə də qısa məlumatlar göstərilə bilər.

İxrac edilən şərabçılıq məhsullarının etiketləri tərəflər arasında bağlanmış müqavilə şərtlərinə uyğun tərtib oluna bilər.

Şərabçılıq məhsullarının saxlanması və daşınması onların kəmiyyət və keyfiyyət göstəricilərinin sabitliyini təmin edən vasitələrlə həyata keçirilir.

Şərabçılıq məhsullarının istehsalı üzrə texnoloji avadanlıqlar mütləq qaydada spirtölçmə-nəzarət cihazları və spirtölçmə sayğacları və avtomatlaşdırılmış (say və həcm üçün) uçot sayğacları ilə təchiz edilməlidir.

Üzümçülüyün və şərabçılığın inkişafını sürətləndirmək üçün səmərəli iqtisadi tənzimlənmə metodları ön plana çəkilir.

Qanunda nəzərdə tutulur ki, kommersiya banklarını üzümçülük və şərabçılıq üzrə dövlət proqramları çərçivəsində üzümçülüyün inkişafı sahəsində həyata keçirilən layihələrin kreditləşdirilməsinə həvəsləndirmək və risklərini azaltmaq üçün məqsədli kreditlərə görə bank faizi üzrə güzəştlər dövlət büdcəsinin fermer təsərrüfatlarına kredit güzəştləri fondu və bu kimi digər vəsaitlər hesabına ödənilir.

Üzümçülüyün və şərabçılığın inkişafında kooperasiyanı sü-

rətləndirmək üçün aşağıdakı üzümçülük və şərabçılıq subyektlərinə məqsədli kreditlərin ayrılmasında üstünlük verilir:
– hüquqi şəxslərə – 10 hektardan artıq yeni üzüm bağlarının salınmasına, 2 hektardan artıq calaqaltı və calaqüstü anaclıqların yaradılmasına;
– fiziki şəxslərə - 1 hektardan artıq yeni üzüm bağlarının salınmasına, 0,5 hektardan artıq calaqaltı və calaqüstü anaclıqların yaradılmasına;
– 50 hektardan az olmayan yeni üzümlüklərin salınması üçün hüquqi və fiziki şəxslərlə uzunmüddətli müqavilə bağlamış üzüm emalı müəssisələrinə.

Üzüm və şərabçılıq məhsullarının keyfiyyətinin təmin edilməsi sahəsində normalaşdırılma bu məhsulların keyfiyyətinə və təhlükəsizliyinə dair tələbləri, onların istehsal, daşınma, saxlanma, qablaşdırma, etiketləşdirmə, markalanma və satış şərtlərini müəyyən edən texniki, sanitariya, ekoloji və digər standartlar, norma, qayda və tələblər vasitəsilə həyata keçirilir.

Şərabçılıq məhsulları istehsal edən müəssisələr, müstəqil şəxslər, sınaq laboratoriyaları və digər istehsal bölmələri istehsal olunan məhsulların insanların həyatı və sağlamlığına, habelə ətraf mühitin mühafizəsinə zəmanət verən texniki, ekoloji, sanitariya, yanğından mühafizə normalarına və qaydalarına uyğunluğuna görə icbari attestasiyadan keçirilir.

Müəyyən olunmuş müddətdə attestasiyadan keçirilmədən və təsdiq edilmiş texnoloji normalara uyğun üsullara, resepturaya və materiallara riayət



edilmədən istehsal olunmuş şərabçılıq məhsulları saxta hesab olunur.

Daxili bazarın saxtalaşdırılmış şərabçılıq məhsullarından qorunması məqsədilə şərabçılıq fəaliyyəti subyektləri istehsal etdikləri məhsulları qanunvericiliklə müəyyən olunmuş qaydada attestasiyadan keçirməli, sertifikatlaşdırmalı, qablaşdırmalı və məhsulun xarici tərtibatını üzümçülük və şərabçılıq haqqında qanunun müvafiq maddəsi ilə müəyyən edilmiş qaydada aparmalıdırlar.

Azərbaycanda bu sahədə də köklü dönüş yaratmaq üçün konkret tədbirlər həyata keçirilir. Dövlət başçısı çıxışlarının birində xüsusi vurğulamışdır ki, keçən əsrin 80-ci illərinin ortalarında keçmiş sovet rəhbərliyi anti-alkoqol kampaniyası pərdəsi altında Azərbaycanda üzümçülüyün inkişafının qarşısının alınması məqsədilə sərt tədbirlər həyata keçirdi: üzüm bağları məhv edildi, emal müəssisələri bağlandı, əhalinin xeyli hissəsi gəlir mənbəyindən məhrum oldu. Son illər üzümçülükdə yaranmış vəziyyəti sağlamlaşdırmaq, onu ölkə iqtisadiyyatının vacib sahələrindən birinə çevirmək istiqamətində başlıca işlər görülür, sahənin yaxın və uzaq gələcəyə inkişafını nəzərdə tutan proqram hazırlanır. Bu sahədə dövlətin dəstəyilə özəl sektor tərəfindən atılan addımlar öz bəhrəsini verir. Yüksək məhsuldarlığı, keyfiyyəti ilə fərqlənən üzüm bağları salınır, müasir texnologiyalara əsaslanan emal müəssisələri tikilir. Azərbaycan şərabları beynəlxalq sərgilərdə uğurlar qazanır. Bu məhsulların xarici bazarlara çıxmaq imkanları genişlənir.

ÜZÜMÇÜLÜK VƏ ŞƏRABÇILIQ ÜZRƏ BEYNƏLXALQ TƏŞKİLAT (OİV) – hökumətlərarası müqaviləyə əsasən, 29 noyabr 1924-cü ildə Fransanın Paris şəhərində ya-

OIV
Organisation Internationale de la Vigne et du Vin

radılmış və 1927-ci ilin 15 aprelində ratifikasiya olunmuşdur. Hazırkı əsasnaməsi 4 sentyabr 1958-ci ildə qəbul edilmişdir. Məqsədi üzümçülük və şərabçılıq sahəsində üzv ölkələrin hökumətlərinə müvafiq təlimatların hazırlanması, elmi araşdırmalara köməklik göstərilməsi, üzümçülüyün, onun məhsulu ilə əlaqəli (şərab, süfrə üzümü, kişmiş və üzüm şirəsi) bütün məsələləri barədə elmi, texniki, iqtisadi məlumatların yığılması, öyrənilməsi və nəşr edilməsidir.





V

VAHİD AKSİZ – keyfiyyətinə və qiymətinə görə bir-birindən az fərqlənən mallar (məsələn, duz, şəkər və s.) üçün tətbiq edilir.

VAHİD XALQ TƏSƏRRÜFATI KOMPLEKSİ (VXTK) – inzibati idarəetmə çərçivəsində keçmiş SSRİ-də xalq təsərrüfatının xüsusi fərqləndirici cəhətlərinin məcmusu idi. VXTK-nın yaradılması iki məqsəd güdürdü: a) hər hansı bir məhsul istehsalı üçün əlverişli şərtlərin mövcudluğu zamanı həmin məhsulun istehsalına çəkilən xərclərin minimum səviyyəyə endirilməsi; b) maddi və maliyyə resurslarının əsas növlərinin yenidən bölgüsü, ayrı-ayrı regionların əhalisinin həyat səviyyəsinin tarazlaşması və məhsuldar qüvvələrin bərabər yerləşməsi üçün mərkəzi idarəetmə orqanlarından istifadə edilməsi. VXTK təsərrüfat inkişafının qeyri-əmtəə variantı, I və II bölmələrdə istehsal olunan məhsulların qiymətlərinin kəskin sıçrayışla xarakterizə olunan təkrar istehsal prosesinin bir çox təzahürləri naturallaşmış modellə, ticarət və tədavülün nizama salınmış formaları ilə, dünya təsərrüfat əlaqələrindən xeyli təcrid olunmaqla üzvi surətdə əlaqədar idi. VXTK bütün istehsal halqalarının (sahə, regional, sahələrarası, regionlararası) ictimai tələbatları ilə istehsalın strukturunun, həmçinin, onların əlaqələndirilməsini təmin edən material balanslarının, fondlaşmanın, istehsalın və nəqliyyatın, hasilatın emal sənayesinin və s. əsasında formalaşmışdı. VXTK I və II bölmələrin məhsullarını istehsal edən respublikaların və regionların sərt bölgüsünü, əhalinin istehsal təyinatlı məhsullara olan sosial ehtiyaclarının ödənilməsində bu respublikaların və regionların bir-birindən həddən artıq asılılığını, SSRİ-nin respublikalarının və regionlarının sıx qarşılıqlı əlaqəsini şərtləndirmişdi. Yük dövriyyəsinin artım sürəti məhsulun artım sürətindən üstünlük təşkil edirdi, respublikalararası dövriyyə isə burada böyük xüsusi çəkiyə malik idi. SSRİ-nin keçmiş respublikalarında yaradılan ÜDM-in 20%-dən çoxu respublikalararası mübadiləyə daxil olurdu. Əlaqələrin naturallaşmış xarakteri daxili qiymətlərin rublla və dünya qiymətlərinin müvafiq ekvivalentinin kəskin fərqləndirilməsini şərtləndirərək ayrı-ayrı ərazilər üzrə ictimai məhsulun və milli gəlirin dəyər ifadəsində ölçülərini təhrif edirdi. Bu, regionların və respublikaların tələbatlarının natural və dəyər formasında təmin olunmasında disproporsiya doğururdu və onlar arasında real dəyər əlaqələrinin müəyyən edilməsini çətinləşdirirdi (bax: cədvəl 1, sxem 1).

VAHİD QİYMƏT QANUNU (*law of one price*) – bu qanuna görə rəqabət bazarında eyni aktivlərin bazar qiymətləri səviyyəsi eyni olmalıdır.

VAHİD MARKETİNQ PROQRAMI (ing. *United marketing program*) – marketinq proqramlarının ayrı-ayrı bazarları, iqtisadi tsiklin mərhələlərini, eynicinsli məhsul qruplarını əhatə edən qarşılıqlı əlaqə sistemi. Elmi tədqiqat işləri, istehsal, məhsulun və malların satışı planlarının işlənib hazırlanması üçün əsasdır.

VAHİD SƏNAYE VƏ YENİ SƏNAYE CƏMİYYƏTİNİN NƏZƏRİYYƏLƏRİ – vahid sənaye cəmiyyəti nəzəriyyəsinin yaranması, hər şeydən əvvəl, Fransa sosioloqu Raymon Aronun adı ilə bağlıdır. O, təsdiq edir ki, müxtəlif ölkələrin sənayeləşməsinin gedişatında onlar üçün vahid cəmiyyət formalaşır. Sovet və Qərb sistemləri isə ancaq onun növlərindəndir. Vahid sənaye cəmiyyəti nəzəriyyəsinin


Cədvəl 1

Xalq təsərrüfatının bərpası (1943-1951-ci illər)

İstiqamətləri			
Hərbi dövrün məhdudiyyətlərinin ləğv olunması	Sosial sfera	Sənaye	Kənd təsərrüfatı
• 8 saatlıq iş gününün və məzuniyyətlərin bərpası • Məcburi əlavə işin ləğvi • Hərbi dövrün qanun və məhdudiyyətlərinin ləğvi	• Ehtiyata buraxılmış və reputasiya olunmuşların işlə təmin olunması • Kartoçka sisteminin ləğvi (1947-ci il) • Ərzaq və sənaye məhsullarının qiymətinin aşağı salınması • Yaşayış binaların tikintisinin artması • Xalq istehlakı mallarının istehlakının artması • Pul islahatı (1947-ci il)	• Müəssisələrin qismən sülh dövrü məhsullarının istehlakına keçirilməsi • Dağılmış sənaye obyektlərinin (ilk növbədə ağır sənaye) bərpası • Yeni texnika və texnologiyaların tətbiqi • Yeni müəssisələrin tikintisi	• MTS-lərin bərpası, kəndin kənd təsərrüfatı maşınları ilə təchizatı • Taxıl tədarükü normasının yüksəlməsi, vergilərin artması • Məcburi borc alma • Kənd gənclərinin sənayenin və şəhərlərin bərpası üçün cəlb edilməsinin təşkili

Bərpa mənbələri
• Fəaliyyətdə olan müəssisənin mənfəəti • Əmək intizamı. Qabaqcılların hərəkatı • 1947-ci il pul islahatı • SSRİ-nin qərb regionlarında kollektivləşmə • Əhalini yığıma məcbur etmə və onun istiqraz və lotereyalar vasitəsi ilə alınması • SSRİ-nin qərb regionlarında din əleyhinə kompaniya • İstehsal və əmək normalarının yüksəlməsi • Xammal və kənd təsərrüfatı məhsullarının ixracının artması • QULAQ dustaqlarının və hərbi əsirlərin əməyindən istifadə (1,5 milyon nəfər alman, 0,5 milyon nəfər yapon) • Birbaşa və dolayı vergilərin yüksəldilməsi (xüsusilə kəndlilər üçün) • 1947-ci ildəki ərzaq məhsulları və ilkin zərurət əşyalarının bölgüsünün kartoçka sisteminin mövcudluğu • Almaniya, İtaliya, Macarıstan, Rumıniya, Finlandiyadan təzminat
Nəticələr. Bərpa dövrünün nəticələri birmənalı olmamışdır. Biz tərəfdən müharibənin yaraları sağaldılmış, 1946-1950-ci illər ərzində sənaye yenidən qurulmuş, hətta istehsalın həcmi artmışdır. Digər tərəfdən – əhalinin real həyat səviyyəsi aşağı düşmüş, ağır yaşayış və məişət şəraiti xarakterik hala çevrilmişdir. Ərzaq məhsullarının bölgüsünün kartoçka sisteminin ləğv edilməsi və 1947-ci ildə pul islahatlarının həyata keçirilməsi bərpa dövrünün ağırlığını daha da artırdı. Mənfi nəticələrdən biri də kənd təsərrüfatının son dərəcədə müflisləşməsi idi. Cüzi gəlir əldə edən kəndlilərə sosial zəmanətlər aid edilmirdi. Onlar həm də həyətyanı təsərrüfatlara görə tətbiq edilmiş böyük vergilər ödəməli olurlar.

SSSR-də xalq təsərrüfatının bərpası (1945-1953)



Sxem 1

digər müəllifi fransız Ellülin fikrincə, texniki tərəqqi, nəinki iqtisadi qanunların tətbiqini, həm də qanunların özünün mahiyyətini modifikasiya edir. Mülkiyyətin aparıcı rolu məhv olur, iqtisadi hakimiyyət iri korporasiyalara keçir, dövlətin köməyi ilə varlı və kasıb qütbləri ləğv edilir.

Beləliklə, kapitalist mülkiyyətçiləri tərəfindən, əvvəllər "idarə edənlərin inqilab" nəzəriyyəsində inkişaf etmiş, təkrar istehsal prosesi üzərində hakimiyyətinin itirilməsi haqqında ideya yeni sənaye cəmiyyətinin nəzəriyyəçiləri üçün də xarakterikdir. Onlar təsdiq edir ki, sənaye sivilizasiyası problemi-

nin həlli idarə edən menecerlərin əlinə keçib. Həm də Aron və yeni sənaye cəmiyyətinin digər tərəfdarlarına əsasən, müasir korporasiyaların strukturu inhisarçı xarakter daşımır. Belə ki, o, nəinki mənfəətin əldə olunmasına, həm də bir sıra həyati vacib sosial funksiyaların yerinə yetirilməsinə yönəlmiş-


dir. Sübut kimi ona istinad edilir ki, artan korporativ gəlirlər istehlakçıların tələbatlarının daha yaxşı ödənilməsinə, şəhərlərin yenidən salınmasına, ətraf mühitin müdafiəsinə, elmi tədqiqatların inkişafına və digər bu qəbildən olan məqsədlərə yönəlir. Yeni sənaye cəmiyyəti nəzəriyyəsi Amerika iqtisadçısı Con Gelbreytin bir sıra əsərlərində təsvir olunmuşdur. Buna ən bariz nümunə "Yeni sənaye cəmiyyəti"dir (1967). Hələ 1957-ci ildə "Bolluq cəmiyyəti" əsərində Gelbreyt sübut etməyə çalışmışdı ki, mürəkkəb və həddən artıq təkmil texnikanın tətbiqi kapitalizmin daxilən yeniləşməsinə, bazarın istehlak malları ilə bolluğuna, yaxşı təşkil olunmuş xidmət sisteminə və bunun nəticəsi kimi, əvvəlki sosial təzadların silinib getməsinə aparıb çıxarır. Müasir kapitalizmin bütün iqtisadi sistemi onun tərəfindən iki müxtəlif "planlaşdırma sistemi" və "bazar sistemi" sektorlarının məcmusu kimi təsvir olunmuşdur. Birinciyə nəinki qiymətlər, məsrəflər, texnologiyalar üzərində, həm də cəmiyyət və dövlət üzərində hakimiyyətə malik iri korporasiyalar dünyası; ikinciyə, xırda firmalar, ölüb getməkdə olan sənət, xidmət sahəsi və s. aiddir. Bunlar hakimiyyətdən məhrum olsalar da qeyri-keçici iqtisadi, mədəni, mənəvi və sosial qiymətlilərin mərkəzi kimi çıxış edirlər. "Planlaşdırma sistemi" qeyri-sabitlik və təzadların güclənməsi mənbəyi kimi sonsuz ekspansiya və ictimai maraqlara etinasızlığa səy etməsinə görə mühakimə olunur. Aronun və xüsusilə Gelbreytin nəzəriyyəsindən dünya iqtisadiyyatı üçün hansı nəticələr çıxarmaq olar? Dövləti "planlaşdırma sistemi"nin hakimiyyətindən çıxaran, onu qeyri-inhisarçı sektora xidmətə istiqamətləndirən, rəqabət qabiliyyətliliyini təmin edən və "bazar sistemi"nin alıcılıq qabiliyyətinin artımına gətirib çıxaran xüsusi islahatlar seriyası təqdim olunur.

VAHİD SİVİLİZASİYA NƏZƏRİYYƏSİ – vahid sivilizasiya sosial-mədəni nəzəriyyəsinin əsasında bütün dünya ölkələrinin vahid siyasi, sosial və iqtisadi quruluşa – liberal demokratiyaya tədricən hərəkəti haqqında liberal ideya dayanır. Bu nəzəriyyənin müasir tərəfdarlarının fikrincə, belə quruluşa artıq Qərbdə nail olunmuşdur. Dünyanın qalan ölkələri isə, öz liberallaşma səviyyələrinə uyğun buna nail olduqdan sonra dünya vahid cəmiyyətə çevriləcək və ona görə də, bir növ "tarixin sonu" baş verəcək. Bu nəzəriyyənin ən məşhur müəlliflərindən biri, yapon mənşəli amerikalı Frensis Fukuyamanın fikrincə, vahid sivilizasiya nəzəriyyəsi dünya ölkələrini vahid cəmiyyətdə birləşdirən daha güclü qüvvələrə diqqət yetirir, onların qarşılıqlı asılılığını gücləndirir, arasındakı sərhədləri silir. Bu qüvvələr iqtisadiyyatın qloballaşmasına qədər böyüyən və hər şeydən əvvəl, onun transmilliləşməsində, inteqrasiyasında təcəssüm edən beynəlmiləlləşmə qüvvələridir. Belə modernləşmə nəticəsində cəmiyyətin ilk dəfə Qərbdə yaranan müasir sənayeləşmə və postsənayeləşmə əlamətləri dünyanın qalan ölkələrinin də əlamətlərinə çevrilir.

Eyni zamanda, vahid sivilizasiya nəzəriyyəsi nəzərdə tutur ki, modernləşmə vesternləşmə ilə (yəni digər ölkələr tərəfindən Qərb mədəniyyətinin təkrarlanması) oxşardır. Amma əvvəlki əsrlərdə Rusiya və Yaponiyanın, XX əsrdə Şərqi və Cənubi-Şərqi Asiya ölkələrinin təcrübəsi göstərir ki, modernləşmə vesternləşmə olmadan da baş verə bilər və onun gedişatında ölkələr Qərb sivilizasiyasına deyil, digər sivilizasiyaya mənsub olduqlarını saxlaya bilərlər. Bu, ilk növbədə, mədəniyyətə aiddir, amma iqtisadiyyatda da, məsələn, Yaponiyada olduğu kimi, orijinallıq saxlanıla bilər. Vahid sivilizasiya nəzəriyyəsi iqtisadi və siyasi həyatda ölkələr arasındakı sosial-mədəni fərqləri yaradan din və millətçiliyin vacibliyini təqdir etsə də, liberalizm gücləndikdə onların əngəl olmayacağını düşünür (bax: sxem 1).

VAHİD TARİF CƏDVƏLİ – büdcə təşkilatçıları işçilərinin əmək haqqının hesablanması üçün nəzərdə tutulmuş normativlərin məcmusu. Bu sistem əməyi aşağı səviyyədə ödənilən işçidən tutmuş, rəhbər işçiyədək bütün işçilərin əmək haqqının tarifləşdirilməsini özündə əks etdirir. Vahid tarif cədvəli aşağıdakı prinsiplər əsasında formalaşdırılmışdır: vahid bazanın qanunvericiliklə müəyyən edilmiş minimum əmək haqqı səviyyəsində qəbulu, mütəxəssislərin ixtisas səviyyəsinin yüksəlməsi nəticəsində əməyin maddi həvəsləndirilməsi nəzərə alınmaqla vahid tarif dərəcələrinin artırılması. Görülmüş işin ağırlıq səviyyəsi, əməyin

Sivilizasiya nəzəriyyəsinə əsas yanaşmalar



Sxem 1

gərginliyi, onun tətbiq edildiyi sahənin əhəmiyyəti regional xüsusiyyətlər, kollektiv və individual əməyin kəmiyyət və keyfiyyəti nəzərə alınarkən, vahid tarif cədvəli bazis kimi qəbul olunmalıdır. Bu sistem dövlət büdcəsindən maliyyələşən bütün işçi kateqoriyalarının əməyinin ödənilməsini tənzimləyir.

VAXT NORMASI – məhsulun bir vahidinin istehsal edilməsinə (işin bir vahidinin görülməsinə) sərf edilən iş vaxtı. Onu adam-saatlarla (dəqiqələrlə, günlərlə, aylarla və s.) müəyyən edirlər. Vaxt norması müəyyən iqlim şəraitində və təşkilati-iqtisadi şə-

Cədvəl 1

Əmək normaları sistemi

Vaxt norması (Nv)	Bir işçinin və ya briqadanın iş (məhsul) vahidinin yerinə yetirilməsi üçün zəruri xərclər. Vaxt norması adam-dəqiqə (adam-saat) ilə ölçülür.
İşlənmə norması (Ni)	Verilmiş zaman kəsiyində (saat, növbə) bir işçi və ya briqada tərəfindən hazırlanmış məhsul vahidlərinin sayı. Natural vahidlərlə ölçülür.
Xidmət norması (Nx)	Bir işçi və ya briqadaya xidmət olunmaq üçün təhkim olunmuş dəzgah, iş yeri, istehsal sahəsi vahidi və digər istehsal obyektlərinin zəruri miqdarını müəyən edir.
Miqdar norması (Nm)	Müəyyən iş həcminin yerinə yetirilməsi üçün zəruri işçi sayını müəyyən edir.
İdarəolunma norması (Ni)	Bilavasitə bir rəhbərə tabe olmalı işçilərin tabeliyində olanların sayını müəyyən edir.
Normalşdırılmış tapşırıq (Nt)	Bir işçi və ya briqada tərəfindən müəyyən vaxt ərzində (növbə, sutka, ay) yerinə yetirməli olan işlərin növünü və həcmini müəyyən edir. İşlənmə norması kimi normalaşdırılmış tapşırıqda işçilərin fəaliyyətinin zəruri nəticələrini müəyyən edir. Lakin işlənmə normasından fərqli olaraq normalaşdırılmış tapşırığın işlənməsi yalnız natural vahidlərdə deyil, norma-saat, norma-manatla da təyin edilə bilər. Bununla əlaqədar olaraq işlənmə norması normalaşdırılmış tapşırığın ayrıca halıdır.

raitdə işləyən bir və ya bir neçə icraçının əmək sərfinə uyğun müəyyən edilir.

Vaxt norması mühəndis hesablamaları və xronometraj ölçmələr əsasında təyin edilir. Onun tərkibinə iş vaxtının normallaşdırılan elementləri daxildir: əsas, köməkçi, təşkilati xidmət, texniki xidmət, istirahət və təbii ehtiyaclar, texnoloji və təşkilati səbəblərlə əlaqədar aradan qaldırılması mümkün olmayan fasilələr.

Vaxt norması işləmə normasının hazırlanması, məhsulun əmək tutumunun müəyyən edilməsi üçün bazadır. Qüvvədə olan vaxt normalarının vaxtlı-vaxtında, elm və texnikanın nailiyyətlərinin, qabaqcıl təcrübənin nəzərə alınması əsasında yenidən nəzərdən keçirilməsi, elmi cəhətdən əsaslandırılmış vaxt normalarının tətbiqi əmək məhsuldarlığının və istehsalın səmərəliliyinin artırılmasına şərait yaradır (bax: cədvəl 1).

VAXTA QƏNAƏT QANUNU – ümumi təbiət qanunlarının təcəssüm formalarından biridir ki, fizik-alimlər bunu daha az hərəkət prinsipi adlandırırlar. Bioloqlar bu qanunu enerjinin qənaətcilliyi prinsipi kimi təyin edirlər ki, burada da orqanizmlərin istənilən uyğunlaşmasına nəinki funksional səmərəlilik, həm də energetik dəyər kimi baxılır.

Vaxta qənaət qanununun mahiyyəti əmək prosesində vaxt və digər resursların məsrəflərinin azalmasından ibarətdir ki, bu da konkret məqsədə nail olunmasına istiqamətlənir. Təbiət qanununun təcəssüm forması kimi vaxta qənaət qanunu və ya məsrəflərin azaldılması istənilən əməyə xasdır, o, təkcə qeyri-iqtisadi əmək sahəsində *təşkil edilmiş məqsəd* xassəsini alır. Beləliklə, iqtisadiyyat iki məqsədi yerinə yetirən əmək sahəsidir: tələbatların ödənilməsi üçün rifahların yaradılması və əmək məsrəfləri kəmiyyətinin azaldılması (vaxta qənaət). Şedevr yaradan rəssam və ya çox vacib elmi problemi həll edən alim vaxt və əmək məsrəfləri haqqında düşünmür. Amma əgər birinci şəkil çəkir, ikinci isə kiminsə müəyyən tələbatlarının ödənilməsi üçün elmi tədqiqatlar aparırsa, onlar bəzən öz əməklərini qurban verərək, müddət və məsrəflərə riayət etməlidirlər.

VAXTI UZADILMIŞ KREDİT – köhnə ssudanın əvəzinə yeni ssudanın verilməsi yolu ilə və ya köhnə istiqrazların kreditorlara sərfəli şərtlərlə yenisinə dəyişdirilməsi yolu ilə uzadılan kredit: orta və ya uzun-

müddətli kreditdir ki, ödənilmə müddətləri bir neçə vaxt kəsiyinə bölünür, bu zaman onların hər biri üçün özünün faiz dərəcəsi müəyyən olunur. O, kreditorun borc alana ssuda təqdim etməsi üçün vəsait axtardığı – qısamüddətli kapital bazarının konyunkturası üzrə müəyyən edilir.

VAXTI UZADILMIŞ RENTA – illik gəlirin sığortalanmasıdır ki, bunun ödənişi sığorta müqaviləsi bağlandıqdan müəyyən illər keçdikdən sonra başlanır. Vaxtı uzadılmış renta elə rentadır ki, onun ödənilməsi müəyyən gələcək dövrə qədər təxirə salınmışdır.

VAXTINDAN ƏVVƏL AYLIQ ÖDƏNİŞ DƏRƏCƏSİ (ing. *SMM Single Monthly Mortality*) – müəyyən ayda əsas borcun əvvəlcədən ödənilmiş hissəsi (faizlə).

VAXTINDAN ƏVVƏL İNFLYASİYA – iqtisadiyyatda tam məşğulluğun təmin olunmasına qədər yaranan inflyasiya.

VAXTINDAN ƏVVƏL ÖDƏMƏLƏR ƏYRİSİ 100% PSA *(Public Securities Association – Dövlət Qiymətli Kağızları Assosiasiyası)* – İstiqraz Bazarı Assosiasiyası tərəfindən vaxtından əvvəl ödəmələri əks etdirmək üçün hazırlanmış etalon cədvəli. Vaxtından əvvəl ödəmələr əyrisinin köməyi ilə defoltların baş verməsi ehtimalının, pulun bütün kreditlərinin əsas borc hissəsinin qalığı üzrə orta hesabla ölçülmüş, "pul çıxarışı"ndan asılılığı qrafik cədvəllə göstərilir. 100% PSA əyrisi vaxtından əvvəl ödəmənin şərti faizinin hər ay 0,2% (20 baza nöqtələri) artacağını və 30-cu aydan etibarən 6%-ə çataraq pulun müddətinin sonunadək dəyişməyəcəyini nəzərdə tutur.

VAQNER QANUNU – elə bir hipotezdir ki, buna görə iqtisadi inkişaf ümumi milli məhsulda dövlət xərclərinin payının artması ilə müşayiət olunur. Bu qanun alman iqtisadçısı Adolf Vaqner (1835-1917) tərəfindən "Maliyyə təsərrüfatı" (1883) əsərində ifadə edilmişdir. Bu əsərdə Vaqner dövlətin genişlənən fəaliyyət qanununu ifadə etmişdir. Bu qanun iqtisadiyyata və cəmiyyətə münasibətdə dövlətin rolunun artması meylini əks etdirir. Bir halda ki, tələbatlar xərcləri doğurur, onda adı çəkilən meyil Vaqnerə görə, dövlətin artan maliyyə tələbatları ilə konkretləşir. Vaqnerə görə, iqtisadi inkişafın ÜMM-də dövlət xərclərinin payının artması asılılığının əsas səbəblərinə aiddir: dövlətin idarə edilməsinə, qanunçuluğun və qaydaların təminatına çəkilən xərclərin, eləcə də cəmiyyət inkişaf etdikcə iqtisadi fəaliyyətin tənzimlənməsi, məsrəflərinin nisbi artımı, gəlir vahidinə görə dövlətin mədəni və xeyriyyə fəaliyyətinə olan tələbin elastikliyinin artması (bu xidmətlərə olan tələb gəlirə nisbətən sürətlə artır), sənaye inkişaf etdikcə iqtisadiyyatın inhisarlaşması dərəcəsinin artmasıdır. Bu da güclü dövlət nəzarətini tələb edir.

Baxmayaraq ki, Vaqnerin qabaqcadan dedikləri xeyli dərəcədə təsdiq olundu, onun qanunu həm də kəskin tənqidin predmetinə çevrildi. Xüsusilə sübut olunurdu ki, Vaqnerin dəlilləri ciddi insan davranışı nəzəriyyəsinə və ya hökumətin hərəkətlərinə əsaslanmırsa, onda Vaqner qanununu gələcəyin proqnozlaşmasının əsası kimi nəzərdən keçirmək olmaz.

VALİDEYNLƏRİNİ İTİRMİŞ VƏ VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ UŞAQLAR ÜÇÜN MÜƏSSİSƏLƏR – valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olunmuş uşaqların saxlanıldığı, təhsil və (və ya) tərbiyə aldığı təhsil müəssisələri, ailə tipli uşaq evləri, əhalinin sosial müdafiəsi



müəssisələri (uşaq evləri, əqli geriliyi və fiziki çatışmazlığı olan əlil uşaqlar üçün internatlar, sosial reabilitasiya mərkəzləri, sosial sığınacaqlar), səhiyyə sistemi müəssisələri və qanunvericiliklə müəyyən edilmiş qaydada yaradılan digər dövlət və qeyri-dövlət müəssisələri.

VALİDEYNLƏRİNİ İTİRMİŞ VƏ VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ UŞAQLARIN TAM DÖVLƏT TƏMİNATI – valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara müvafiq dövlət və ya bələdiyyə müəssisəsində, qəyyumun (himayəçinin) ailəsində olduqları müddətdə pulsuz yemək, paltar və ayaqqabı dəsti verilməsi, yaşaması, təhsil alması və tibbi xidmət göstərilməsi və ya onların tam dəyərinin dövlət büdcəsi hesabına ödənilməsi. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi üzrə tədbirlər, onlar üçün nəzərdə tutulmuş güzəştlər, onların tibb və təhsil xidmətləri, əmlak və yaşayış sahəsi, əmək hüququ üzrə təminatları "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə təsbit olunmuşdur. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, habelə onların arasından olan şəxslərin sosial müdafiəsi mövcud qanunvericiliyə uyğun olaraq dövlət tərəfindən təmin olunur və qorunur.

VALOR SIĞORTALAMA – xüsusilə qiymətli əşyaların (şeylərin), vasitələrin sığortalanması.

VALRAS (WALRAS) MARİ ESPRİ LEON (1834-1910) – isveçrəli iqtisadçı, siyasi iqtisadda riyazi məktəbin banisi və dahi nümayəndəsidir. Fransada anadan olmuş, 1870-ci ildən 1892-yə qədər Lozanna Universitetində (İsveçrə) siyasi iqtisad kafedrasına rəhbərlik etmişdir. Valras artıq "Xalis siyasi iqtisadın elementlər"i (1874-1877) adlı əsas əsərinin ilk nəşrində kapitalist iqtisadiyyatının ümumiləşmiş riyazi modelinin (riyazi tənlik sistemi) qurulmasına cəhd göstərmişdir. O, kapitalların mübadiləsini, istehsalını, yaranmasını və pul tədavülünü ehtiva edirdi.



Valrasın sistemi riyazi iqtisadiyyatın inkişafına, onların riyazi aspektlərinin iqtisadi qarşılıqlı fəaliyyət modellərinin qurulmasının ümumi prinsiplərinin yaranmasına böyük təsir göstərdi. Valrasın ümumi tarazlıq sistemi ideyası ekonometrikanın, xüsusilə Nobel mükafatı laureatı V.Leontyev tərəfindən hazırlanmış "Məsrəflər-buraxılış" modelinin əsasıdır.

VALRAS AUKSİONERİ – qiymətlər toplusunu təklif etmiş və həmin qiymətlərin tarazlaşmış səviyyəsində hərrac prosesində çatmaq imkanı verən nəzəri agent. Valras auksioneri bazar qiymətinin müəyyən edilməsi prosesinin Valras modelinin əsas elementidir.


VALRAS QANUNU – təsdiq edir ki, tələbin ümumi kəmiyyəti qiymətlərin müvafiq sistemi zamanı ümumi tələb kəmiyyətinə bərabərdir. Bu qanunauyğunluq zamanı tənliklər sistemində bəzi tənliklər təxmin edilə biləcək kimi konkret mal və resursların ümumi sayına bərabər olmayıb, onlardan bir vahid azdır. Sonuncu bərabərlik əvvəlkilərin məcmusundan yaranır. Sözsüz ki, Valras qanunu bir qədər ideallaşdırılmışdır. Burada nəzərdə tutulur ki, hər istehlakçının özünün tələb və təklif, texniki əmsalları və özləri bilən digər göstəriciləri var.

Ümumi tarazlıq qanunu təkmil rəqabətdən törəyir, bu da bütün resursların yüksək sürətlə hərəkətini, iştirakçıların tam məlumatlılığını nəzərdə tutur. Həqiqətdə isə, əlbəttə, hər şey bu qədər ideal deyil.

VALRASIN TƏNLİKLƏR SİSTEMİ – İsveçrə iqtisadçısı A.Valras tərəfindən işlənib hazırlanan və bazar iqtisadiyyatının dövriyyədə olan resursların və əmtəələrin miqdarının, habelə bütün qiymətlərin qarşılıqlı şərtlənməsini göstərərək bazar iqtisadiyyatının ümumi tarazlığa cəhd göstərməsi prosesini təsvir edən ilk riyazi-iqtisadi modellərdən biri (bu, ayrı-ayrı əmtəələr üçün təhlil olunan xüsusi tarazlıqdan fərqli ümumi tarazlıqdır).

Ümumi tarazlıq modeli tələb və təklifin təhlilinə əsaslanır və bir neçə tənliklər sistemindən ibarətdir. İqtisadiyyatda fəaliyyət göstərən hər bir ayrıca istehlakçı və istehsalçı üçün Valras xətti tənliklər formasında tarazlıq şərtlərini təsvir etmişdir. Bu tənliklərdə dəyişən kəmiyyətlər kimi əmtəə və resursların miqdarı, eləcə də bu əmtəə və re-

Valras nəzəriyyəsinin mahiyyəti sxemdə əks olunmuşdur



Sxem 1

sursların hər birinin tələb və təklifi balanslaşdıran qiymətləri çıxış edirdi. Valras qanunu adlanan əsas bərabərlikdə deyilir ki, tələbin ümumi kəmiyyəti müvafiq qiymət sistemi zamanı təklifin ümumi kəmiyyətinə bərabərdir. Bu əsasda sübut olunur ki, sistemdə tənliklərin lazımi sayı təsəvvür edildiyi kimi, nəzərdən keçirilən əmtəə və resursların ümumi sayına bərabər deyil, bir vahid aşağıdır. Sonuncu tənlik bütün məcmu tənliklərdən irəli gəlməlidir.

Valras öz modeli üzərində, demək olar ki, bütün ömrü boyu işləmişdir. Valrasın daxil olduğu ümumi tarazlıq nəzəriyyəsində bütün əmtəələrin (malların) bazarları qarşılıqlı əlaqəlidir. Nemətlərin, bütün qiymətli əmtəələrin buraxılışı və resursların mövcudluğu iqtisadiyyatın fəaliyyət göstərdiyi prosesdə qarşılıqlı olur və eyni zamanda razılaşdırılır. Bu iqtisadiyyatın bütün bölmələri və iştirakçıları faydalılığı maksimum səviyyəyə çatdırılmasına səy göstərirlər.

Valras sistemi xətti cəbrdən və xətti proqramlaşdırmadan istifadə yolu ilə daha da inkişaf etmişdir. Bu sistemin tədqiqi zamanı üç əsas məsələni ayırmaq lazımdır: 1) bu tənlik sisteminin həlli mövcuddurmu, yəni bir-birinə birgə olan əmtəə və resursların miqdarı, qiymətlər sistemi mümkündürmü; 2) bu həll o mənada yeganədir ki, hər bir dəyişən kəmiyyət üçün yalnız bir qiymət mövcuddur; 3) bu sistem sabitdirmi və bu sistemin tarazlığının pozulması zamanı ona qayıtmağa qadirdirmi?

Məhsuldar xidmətlər və istehlak malları kimi iki bazarın tarazlığını xarakterizə edən sistemlər aparıcı yer tutur. Məhsuldar xidmətlər bazarının tarazlığı aşağıdakı tənliklər sistemi ilə təsvir olunur:

$$O_t = a_t D_a + b_t D_b + \ldots$$
$$O_p = a_p D_a + b_p D_b$$
$$O_k = a_k D_a + b_k D_b + \ldots,$$

Burada: O_t – torpaq xidmətlərinin təklifinin ölçüsü;

O_p – əmək xidmətlərinin təklifinin ölçüsü;


O_k – pul kapitallarının təklifinin ölçüsü;

D_a və D_b – məhsullara olan məcmu tələbin kəmiyyətləri;

a və b – tarazlıq vəziyyətində onların təklifinin ölçüsünə bərabərdir;

a_t, a_p, a_k, b_t, b_p, b_k – a və b-yə uyğun olaraq məhsul vahidinin

Tarazlığın fundamental iqtisadi-riyazi modellərindən biri XIX əsrin sonunda isveçrəli iqtisadçı L.Valras (1834-1910) tərəfindən işlənilmişdir. Valras iqtisadi sistemdə ayrı-ayrı bazarların qarşılıqlı əlaqəsini əks etdirən dəqiq idarəetmə sistemini qurmuşdur. Beləliklə, ilk dəfə riyazi olaraq isbat olunmuşdur ki, azad rəqabət şəraitində bütün bazarlarda və bütün təsərrüfatdakı tarazlığa nail olmaq mümkündür.



Q_1 – tam məşğulluğa müvafiq istehsal həcmi;
Q_2 – aşağı səviyyəli tələb şəraitində istehsal həcmi;
P_3 – qiymətlərin inflyasiya səviyyəsi.

XX əsrin 50-60-cı illərində Valras modeli xətti proqramlaşdırılmış vasitələri ilə yenidən qurularaq aşağıdakı şəkli almışdır:

$$\sum_i p_i x_1 = \sum_j v_j y_1$$

Burada: p – istehsal olunmuş nemətlərin qiyməti; x – istehsal olunmuş nemətlərin həcmi; v – satılmış məhsuldar xidmətlərin qiyməti; y – verilmiş və istehlak olunmuş məhsuldar xidmətlərin həcmidir.
Göründüyü kimi, formulun sol tərəfi tənliyin dəyər həcmini, sağ tərəfi isə mənbəyin istehsal amillərinin və onların vasitəsilə yaradılan xidmətlərin satışından əldə olunan gəlirlər təşkil edən ümumi tələbdir. Valras modelində mərkəzi yeri əmtəə və istehsal amilləri bazarlarında qiymət tarazlığı tutur.
Düsturu aşağıdakı kimi oxumaq olar: "Son məhsulların ümumi təklifi pul ifadəsində bütün istehsal amillərinin öz mülkiyyətlərinə gətirdikləri gəlirlərin həcmi kimi onlara olan bütün tələbə bərabər olmalıdır".

Sxem 2

istehsalı üçün məsrəf olunan istehsal xidmətlərinin miqdarı. Valras həm O-nu, həm də D-ni bütün xidmət və məhsullarını qiymətlərindən asılılığı kimi qəbul edir. Buna görə də bu asılılığı əks tərəfə çevirərək tarazlığın qiymətini müəyyən etmək üçün düsturu çıxartmaq olar. Belə çıxır ki, bu cür qiymətlər tələb və təklifin bir-birinə bərabər olduğu zaman onların (tələb və təklifin) məcmu kəmiyyətləri ilə şərtlənir. Valrasa görə, məhz bu qiymətlər iqtisadi sistemin hər bir səmərəli iştirakçısına maksimum faydalılığı təmin edir.

VALYUTA (lat. *valeo* – dəyərə malikəm, ital. *valuta* – qiymət, dəyər) – 1. Ölkənin beynəlxalq

iqtisadi mübadilədə və digər beynəlxalq əlaqələrdə iştirak edən pul vahidi, milli banknot (dollar, avro, rubl, manat və s.). 2. Pul sistemi tipi (qızıl, gümüş, kağız). 3. Xarici dövlətlərin pul nişanları, eləcə də beynəlxalq hesablaşmalarda istifadə edilən və xarici pul vahidlərində kredit və tədiyə sənədləri (çek, veksel, kommersiya sənədləri, tratta, köçürmələr). Valyutaya eyni zamanda beynəlxalq razılıqlar əsasında yaradılan hesablarda yazı kimi mövcud olan hesablaşma pul vahidləri də daxildir. Bütün milli valyutalar "kağız"dır. Kapitalizm dövründə pul sisteminin hökmran formaları kimi ya bimetallizmi, ya da gümüş monometallizmi ayırmaq olar. XIX əsrin əvvəllərində Böyük Britaniyada (XIX əsrin ikinci yarısından digər ölkələrdə) qızıl bimetallizm yayılmağa başladı – kapitalizmin ümumi böhranı dövrü üçün kağız bimetallizm xarakterikdir. Burada ümumi ekvivalent rolunu qızıla dəyişdirilməyən banknotlar və yalnız tədavül və tədiyə vasitəsi funksiyalarını qızılı əvəz edən kağız pul yox, qızıl oynayır. Bununla belə, dəyər nişanları, bir qayda olaraq, qızılın azalan miqdarını təmsil edir, çünki banknotlar və kağız pullar inflyasiyaya məhkumdur.


Bimetallizmin aşağıdakı növləri fərqləndirilir: bazis bimetallizmi – ölkədə digər valyutaların kotirovkası (qiymətləndirilməsi) üçün əsasdır; qapalı, dönərli olmayan bimetallizm – bir ölkə daxilində istifadə olunur; dönərli bimetallizm – hər hansı digər bimetallizmə sərbəst mübadilə olunur; yumşaq bimetallizm – öz nominalına və digər bimetallizm məzənnəsinə münasibətdə qeyri-sabitdir; milli bimetallizm – mərkəzi bank tərəfindən buraxılır və ilk növbədə ölkənin ərazisində hərəkət edir; tədiyə bimetallizmi xarici ticarət əməliyyatları zamanı əmtəənin ödənildiyi bimetallizmdir. Onun sövdə bimetallizmi ilə uyğun gəlməməsi zamanı sonuncunun tədiyə bimetallizminə yenidən (təkrar) hesablanması üçün köçürmə məzənnəsindən istifadə olunur; sövdə bimetallizmi ya xarici ticarət müqaviləsində əmtəənin qiymətinin müəyyən edildiyi, ya da verilmiş xarici kreditin məbləğinin ifadə olunduğu bimetallizmdir; möhkəm, güclü bimetallizm stabil məzənnə ilə sabit bimetallizmdir; qiymət bimetallizmi əmtəənin qiymətinin ifadə edildiyi müqavilədə pul vahididir.



VALYUTA AUKSİONU – valyuta vəsaitlərinin alqı-satqı əməliyyatlarının keçirilməsinin mütəşəkkil forması. Valyuta auksionda satılan xarici valyuta şəklində vəsaitlərin mənbəyi müəssisə və təşkilatların bank




Valyuta bazarlarının təsnifatı



Sxem 1

Valyuta bazarlarının elementləri



Sxem 2



Sxem 3





müəssisələrindəki valyuta hesablarında olan valyuta ehtiyatlarıdır.

VALYUTA AYIRMALARI (ing. *Currency retention*) – xarici valyutalarda mənfəətin bir hissəsi müəssisə tərəfindən xüsusi valyuta məzənnəsi üzrə dövlətə satılmalıdır. Xaricdə dövlət alışlarının maliyyələşdirilməsi və xarici dövlət borcu üzrə ödənişlərin maliyyələşməsi üçün xarici valyutaların çatışmaması şəraitində valyuta ayırmaları təcrübəsi tətbiq olunur.

VALYUTA BƏYANNAMƏSİ – sərhədi keçən zaman fiziki şəxs tərəfindən gömrükxanaya və bu şəxs tərəfindən aparılan xarici valyuta və nominallaşmış xarici valyutada qiymətli kağızlar haqqında məlumatları ehtiva edən sənəd. Başqa sözlə, valyuta bəyannaməsi ərizə formasında keçirilən valyuta barədə məlumatı özündə əks etdirən, gömrük nəzarət məntəqəsinə təqdim olunan sənəddir.

VALYUTA BİRJASI (ing. *currencu market*) – xarici valyutanın alış-verişi və mübadiləsi üzrə təşkil olunmuş, müntəzəm fəaliyyət göstərən ticarət meydançası. Valyuta birjası xarici valyuta məzənnələrini müəyyənləşdirən bazar təsisatıdır. Adətən, xarici valyuta ticarəti əməliyyatlarının yalnız bir hissəsi valyuta birjası vasitəsi ilə həyata keçirilir. Alverin yekununa görə xarici valyutaların milli valyutaya nisbətdə məzənnəsi formalaşır və sonra birja bülletenlərində dərc edilir.

Valyuta birjasının xüsusi rolu ondan ibarətdir ki, qeydə alınan rəsmi valyuta məzənnələri qeyri-bank sektorunun müştəriləri ilə valyuta hesablaşmalarında, maliyyə və statistika hesablaşmalarında əsas götürülür.

Valyuta birjasının fəaliyyətində mərkəzi bank mühüm rol oynayır. Hər hansı valyutanın məzənnəsinin yuxarı həddini aşmaq təhlükəsi yarandıqda mərkəzi bank həmin valyutaya təklifi genişləndirir. Əgər məzənnə aşağı düşürsə, bank pariteti saxlamaq üçün valyutanı almalıdır. Belə hallarda mərkəzi bankın intervensiyasından söhbət gedir.

Valyuta birjası iki əsas əməliyyat növünü həyata keçirir:

– spot (təcili valyuta tədarükü ilə əməliyyat);

– fyuçers (şərtləşdirilmiş vaxtda əqd bağlandığı zaman mövcud olan məzənnə üzrə valyuta tədarükü ilə əməliyyat).

Rəsmi birja bülletenində adətən yalnız satış məzənnəsi ilə alış məzənnəsi dərc edilir. Bunlar maksimal məzənnələr kimi qəbul edilir. Kredit təsisatları öz müştəriləri ilə hesablaşmalarında buna əsaslanırlar.

1993-cü ilin 26 iyul tarixində Azərbaycanda valyuta birjasının (Bakı Banklararası Valyuta Birjası, BBVB) yaradılması təşəbbüsünü ölkənin Mərkəzi Bankı

Cədvəl 1

*Azərbaycan Respublikasında valyutalar üzrə cəmi depozit bazasının strukturu (dövrün sonuna) **

İl, ay	Cəmi depozitlər	o cümlədən:			
		manatla		xarici valyuta ilə	
		tələb olunanadək	müddətli	tələb olunanadək	müddətli
2007	4127,2	962,8	939,4	754,2	1470,8
2008	6460,2	1054,1	1240,1	1025,3	3140,7
2009	6379,1	1133,0	1220,3	1057,8	2968,0
2010					
01	6178,0	952,3	1264,9	982,8	2978,1
02	6135,9	962,9	1164,8	911,5	3096,7
03	6737,6	971,8	1293,0	1322,1	3150,7
04	6780,8	970,8	1328,7	1297,8	3183,5
05	6536,7	957,9	1341,8	1086,7	3150,2
06	6596,9	1066,9	1336,4	926,6	3267,0
07	6286,9	995,1	1406,7	891,1	2994,1
08	6591,3	1016,0	1486,1	972,5	3116,7
09	6741,7	1078,6	1506,5	1079,6	3077,1
10	6968,6	1133,8	1546,3	1338,0	2950,6
11	6915,9	1043,5	1730,1	1180,5	2961,8
12	7625,8	1486,3	1719,0	1438,6	2981,9
2011					
01	7321,3	1131,1	1735,9	1449,7	3004,6
02	7315,0	1217,5	1711,2	1361,8	3024,6
03	7751,1	1288,2	1789,4	1216,7	3456,8
04	7788,8	1293,9	1831,2	1136,9	3526,8
05	7959,1	1305,2	1884,9	1279,7	3489,4
06	8126,8	1342,3	1949,5	1373,9	3461,1
07	8345,8	1576,1	1991,1	1506,6	3272,1
08	8449,7	1470,2	2018,1	1401,3	3560,1
09	8740,6	1440,5	2176,4	1582,9	3540,8
10	8707,8	1413,8	2262,4	1505,2	3526,4
11	8892,8	1585,6	2303,0	1566,3	3437,9
12	9447,0	1756,6	2524,1	1671,9	3494,4
2012					
01	9281,2	1629,9	2551,9	1568,1	3531,3
02	9507,0	1570,1	2640,5	1696,3	3600,2

**) Qeyri-rezidentlərin və dövlət idarəetmə orqanlarının depozitləri daxil olmaqla*

və dövlət kredit idarələri – Beynəlxalq, Əmanət, Sənaye-investisiya və Aqrosənaye bankları öz üzərlərinə götürmüşlər. Maliyyə sisteminin əsas hissəsinə çevrilən BBVB öz fəaliyyətinin başlanğıcında valyuta bazarının mütəşəkkil şəkildə formalaşdırılması məqsədini güdmüşdür. Gələcəkdə maliyyə xidmətləri spektrinin genişlənməsi birja meydanının formalaşmasının universal prinsipini qabaqcadan müəyyən etmişdir. BBVB və onun səhmdarlarının öncə həyata keçirdiyi layihələr arasında Maliyyə Nazirliyinin Dövlət Qısamüddətli İstiqraz vərəqələri emissiyalarının müraciətinin xidmət olunmasını, səhmlər bazarı sektorunda ilk razılaşmaların təşkilini, qiymətli kağızlar depozitariyasının yaradılmasını, fond bazarında mühasibat uçotu əməliyyat standartlarının təsdiqlənməsini, listinq üzrə xüsusi komissiyanın yaradılmasını, ilk banklararası kredit hərraclarının, həmçinin, universal ticarət-hesablaşma birja kompleksinin işə salınmasını qeyd etmək olar. 2001-ci ildə birja tərəfindən buraxılmış və Qafqazda ilk birja ticarət sistemi olmuş BETS informasiya-ticarət sisteminin sonuncu nümunəsidir.

İndi isə Bakı Banklararası Valyuta Birjasının 2010-cu il üzrə fəaliyyətini nəzərdən keçirək.

2010-cu ildə Bakı Banklararası Valyuta Birjasının valyuta və kredit seqmentlərində fəaliyyəti bir neçə əsas meyillərlə yadda qaldı. Bu, həm manatın ABŞ dolları və avroya nisbətən bahalaşması, həm də 2009-cu illə müqayisədə valyuta və kredit bazarlarında iştirakçı sayının azalmasıdır.

Təhlil etdiyimiz on iki ay ərzində Birja Elektron Ticarət Sistemi (BETS) çərçivəsində BBVB-nin valyuta bölməsində hərracların toplam həcmi 710 milyon manat təşkil edib. Bu o deməkdir ki, 2009-cu ilə nisbətən hərracların həcmi 2,6 dəfə azalıb.

Hərracların strukturunda, əvvəlki illərdə olduğu kimi, ABŞ dolları üstünlük təşkil edib. 2010-cu ildə USD/AZN aləti üzrə ümumi həcmi 680 mln. manat olan hərraclar keçirilib ki, bu da bütün hərracların 95,8%-nə bərabərdir. 2010-cu ilin yay aylarında SWAP_USD/AZN aləti ilə bağlanmış əqdlərə xüsusi tələbat nəzərə çarpıb. Həmin alətin dövriyyəsi 27,4 milyon manat, başqa sözlə, BBVB-nin valyuta bölməsində keçirilmiş hərracların 3,9%-ni təşkil edib. Beləliklə, bütün hərracların 99,7% ABŞ dolları ilə bağlanmış əqdlərin payına düşüb. EUR/AZN alətinin dövriyyəsi isə 2,4 milyon manat və ya hərracların 0,3%-ni təşkil edib.

Aşağıdakı diaqramda BBVB-nin valyuta seksiyasında baş tutmuş hərracların strukturu göstərilib.

2010-cu ildə BBVB-nin valyuta bölməsində baş tutmuş hərraclarında cəmi 30 bank iştirak edib, 241 ticarət sessiyası keçirilib və 442 əqd bağlanıb.

2010-cu ilin yanvar-sentyabr aylarında BBVB-nin valyuta hərraclarında milli valyutanın ABŞ dolları və avroya qarşı nisbi stabilliyi diqqəti cəlb edib.

Dördüncü rübdə vəziyyət dəyişib. Manatın birja məzənnəsi ABŞ dollarına nisbətən 0,7% möhkəmlənib. Birja hərraclarının yekunlarına görə 2010-cu ildə ABŞ dollarının Azərbaycan manatına (AZN) məzənnəsi 2009-cu illə müqayisədə 0,3% enərək 0,8012 AZN təşkil edib. Ümumavropa valyutasının da AZN-ə nisbi məzənnəsi 1,0048 AZN-dək (otən il həmin məzənnə 1,1572 AZN olub), yəni 13% enib. SWAP_USD/AZN aləti üzrə dolların məzənnəsi 2010-cu ildə 0,8055 AZN-ə bərabər olub, yəni ötənilki göstəricidən 0,05% aşağı düşüb. Milli manat bivalyuta səbətə nisbətən 2010-cu ildə kifayət qədər möhkəmlənib, Azeri light markalı neftin qiymətinin 80 dollar/bareldən yuxarı qalxması buna əhəmiyyətli təsir göstərib. Qeyd edək ki, 2010-cu ildə manatın ABŞ dollarına qarşı bu kimi bahalaşması son 10 il ərzində müşahidə olunmayıb.

Qlobal böhranın əqdlərin həcmlərinə, valyuta strukturuna və bazar seqmentlərinə görə paylaşmasına vurduğu mənfi təsirini təsdiq etmək olar. Lakin eyni zamanda onu da qeyd edək ki, birja valyuta seqmentində üstünlük təşkil edən hərrac obyekti ABŞ dolları olaraq qalıb. Bu şəraitdə, valyuta hərraclarının ümumi həcmində BEST-də birja elektron valyuta hərraclarının xüsusi çəkisi bir qədər azalıb, lakin buna baxmayaraq, manatın birja məzənnəsinin kəskin tərəddüd etməməsi nəticəsində həmin seqment banklar üçün yüksək cəlbediciliyə malikdir.

BBVB-nin pul meydançasında – Mütəşəkkil Banklararası Kredit Bazarında (MBKB) 2010-cu ildə manatla kreditləşmənin həcmi 54 milyon, avro ilə 9,3 milyon, dollar ilə isə 72 milyon təşkil edib. Manatla kredit əqd-

lərinin səviyyəsi ötən ilə nisbətən 28% yüksəlib, dollar kreditləri 1,4 dəfə artıb, avro ilə kreditləşmə isə 4 dəfə məhdudlaşıb. Bütövlükdə 2010-cu ilin 12 ayı ərzində manat kreditlərinin həcmi manat ekvivalenti ilə 121 milyona bərabər olub. Kredit bazarı iştirakçılarının yüksək fəallıq səviyyəsi 2010-cu ilin aprel ayına təsadüf edib, il ərzində bağlanmış əqdlərin 28%-i bu dövrə təsadüf edib. İyul ayında isə passivlik qeydə alınıb. Belə ki, həmin ayda əqdlərin cəmi 2%-i bağlanıb.

Əgər Bakı Banklararası Valyuta Birjasının (BBVB) valyuta bölməsində aparıcı rolu ABŞ dolları ifa edibsə, kredit bazarında o, öz yerini milli valyutaya – manata verib, amma avroya nisbətdə dollar üstünlük təşkil edib. Belə ki, Mütəşəkkil Banklararası Kredit Bazarında verilmiş kreditlərin 50%-i manatla, 45,2%-i ABŞ dollarında, 4,8%-i isə Avropa valyutası – avroda ayrılıb.

MBKB-də 2010-cu ildə cəmi 61 əqd bağlanılıb. 90 günlük əqdlər böyük tələbata malik olub. MBKB-də market-meyker banklarının sifarişləri əsasında hesablanan orta faiz dərəcələri 2010-cu ildə aşağı düşüb. Belə ki, manat vəsaiti üzrə 90 günlük BakıBİD-in orta illik faiz dərəcəsi il ərzində 2,53% faiz bəndi azalaraq, illik 6,97%-ə düşüb. BakıBOR-un manat üzrə eyni müddətli faiz dərəcəsi 1,32 bənd, illik 14,51%-dək aşağı düşüb. Pul bazarının daha ətraflı göstəriciləri aşağıdakı cədvəldə göstərilib.

2010-cu ildə kredit bazarının inkişafı 2009-cu ilin sonunda

Cədvəl 1

Pul bazarının göstəriciləri

	Dekabr 2009	**Dekabr 2010**
Valyuta depozitlərinin müddətə görə faiz dərəcələri (%, illik, USD)	BakıBID	
1 ay 3 ay 6 ay 1 il	7,53 9,17 10,04 12,04	5,60 7,10 8,78 9,68
Manat depozitlərinin müddətə görə faiz dərəcələri (%, illik)	BakıBID	
1 ay 3 ay 6 ay 1 il	7,96 9,32 9,76 10,86	5,07 6,79 8,11 8,69
Valyuta kreditlərinin müddətə görə, faiz dərəcələri (%, illik, USD)	BakıBID	
1 ay 3 ay 6 ay 1 il	15,16 16,21 17,79 21,98	12,97 14,51 16,28 18,50
Manat kreditlərinin müddətə görə faiz dərəcələri (%, illik)	BakıBID	
1 ay 3 ay 6 ay 1 il	14,93 15,83 16,61 19,62	12,96 14,51 15,39 18,67
AMB-nin rəsmi məzənnəsi (doll./manat)	0,8029	0,7989
USD/AZN_TOD Birja məzənnəsi	0,8032	0,7975
Birja valyuta bazarında Brutto – dövriyyə (min manat)	157432	111280
Birja kredit bazarının dövriyyəsi (min manat)	12749	7000

**Cədvəldə BakıBID və Bakı BOR-un orta aylıq göstəriciləri təqdim olunub.*

MBKB-də yeni seqment – təminatlı pul bazarının (TPB) istismara verilməsi nəticəsində yeni impuls alıb. Hazırda 10 bank artıq həmin seqmentə qoşulub. Bu bazarda ən çox istifadə olunan 14 günlük kreditlər olub. TPB-də faiz dərəcələri illik 1,5%-dən 11%-dək tərəddüd edib (bax: cədvəl 1).

Bəhruz Əhmədov

VALYUTA BLOKADASI – ölkədə digər ölkənin valyutasının hərəkətinin məhdudlaşması. Başqa sözlə, müəyyən tələblərin yerinə yetirilməsinə digər ölkələri məcbur etmək məqsədilə bu ölkələrə münasibətdə dövlətin istifadə etdiyi valyuta tədbirlərinin məcmusu. Valyuta blokadası – həmçinin, hər hansı bir dövlət tərəfindən digər dövləti müəyyən tələbləri yerinə yetirməyə məcbur etmək məqsədilə həmin ölkənin valyutasının ölkə ərazisinə buraxılmasına məhdudiyyət qoyulmasıdır.

VALYUTA DEMPİNQİ (ing. *currency dumping*) – ölkə daxilində milli valyuta məzənnəsinin onun alıcılıq qabiliyyətindən kifayət qədər aşağı olduğu şəraitdə ixracın aşağı qiymətlərlə artırılması. İxracatçı malları daxili bazarın kifayət qədər aşağı qiymətləri ilə alır, onları daha "güclü" valyuta ilə satır. Sonra milli valyutaya konvertasiya edir və beləliklə, məzənnə mənfəəti götürür. Bəzən valyuta dempinqi xarici iqtisadi ekspansiyanın, satış bazarları uğrunda mübarizənin aləti kimi çıxış edir. Valyuta dempinqinin qarşısının alınması Ümumdünya Ticarət Təşkilatının funksiyalarından biridir. Valyuta dempinqinin mövcudluğu zamanı Beynəlxalq Antidempinq Məcəlləsi müxtəlif sanksiyaların tətbiq edilməsini nəzərdə tutur (rüsumların, cərimələrin artması və s.).

VALYUTA DƏHLİZİ – valyuta məzənnəsinə dövlət və maliyyə institutlarının inzibati təsiri şəraitində çevik və qabaqcadan məlum olan valyuta məzənnəsi. Maliyyə-iqtisadi vəziyyətin sabitliyini pozan böhran hadisələrinin qarşısını almaq məqsədi ilə müəyyən olunur. İqtisadi inkişafın mənfi meyillərini yumşaldan təbii amillərin zəifləməsi zamanı valyuta dəhlizinin tətbiqi məqsədəuyğundur. Valyuta dəhlizinin fəaliyyət göstərmə mexanizmi ondan ibarətdir ki, valyuta məzənnəsinin nəzarət olunan dəyişməsi iqtisadi vəziyyətdəki real dəyişikliklərə uyğun olaraq baş verir. Lakin valyutaların məzənnə nisbətlərinin dəyişməsi prosesi birja sessiyaları zamanı görünməmiş (bəzən müzaidənin iştirakçıları tərəfindən qəsdən törədilən) hərəkətlərin təsirinə məruz qalmır. Başqa sözlə, məzənnə nisbətlərinin dəyişməsi və valyuta məzənnəsinin müəyyən edilməsi yalnız ciddi məhdudlaşdırılmış və normativ-hüquqi aktlarla möhkəmlənmiş hədlərdə tərəddüd edə bilər. Mahiyyətcə valyuta dəhlizinin tətbiqi iqtisadiyyatda real dəyişikliklərə uyğun olaraq valyutaların məzənnə nisbətlərindəki üzən və əvvəlcədən bilinən dəyişikliklərin zəruriliyinin hökumət tərəfindən qəbul və eyni zamanda məzənnələrin əsaslandırılmayan artması, yaxud azalması hesabına möhtəkirlik əməliyyatlarının (və müvafiq olaraq mənfəətin) həyata keçirilməsi imkanının kəsişməsi deməkdir. Valyuta dəhlizi iqtisadi vəziyyəti tam dəqiqləşdirməyə və deməli, xarici iqtisadi əməliyyatların aparılması zamanı riski azaltmağa imkan verir. Bu, bütövlükdə bütün iqtisadiyyat üçün kifayət qədər ciddi sabitləşdirici amildir. Lakin bu amil o vaxta qədər müsbət hesab oluna bilər ki, valyuta dəhlizinin fəaliyyət göstərməsi nəticələri işin real vəziyyətinə uyğun gəlir. Verilmiş çərçivədə məzənnəyə qəsdən təsir göstərmə valyuta dəhlizinin nəticəsi ola bilər. Elə bir vəziyyət də mümkündür ki, bu zaman valyuta dəhlizi artıq valyutaların real nisbətini əks etdirmir və xarici ticarət, idxal-ixrac əməliyyatlarının aparılması əlverişli olmur. Müzaidənin nəticələri ilə dəqiq müəyyən olunan süni azaldılmış (və ya artırılmış) məzənnə ilə valyutaların məzənnəsində real, şərtlənmiş qiymət paritetinin xeyli aralanması zamanı valyuta dəhlizi çərçivəsində, rəsmi birja meydançalarından kənarda valyuta ilə ticarət sövdələşmələrinin həyata keçirilməsi mümkündür.

VALYUTA DƏYƏRLƏRİ – xarici valyuta; xarici valyutada nominallaşmış qiymətli kağız; hər hansı bir formada və halda qiymətli metallar (qızıl, gümüş, platin qrupundan olan metallar – palladium, iridium, radium, rutenium və osmium) və bu metallardan və daş-qaşlardan hazırlanmış zərgərlik və digər məişət məmulatları istisna olmaqla, xammal və işlənmiş formada qiymətli metalların qırıntıları. Foreks dünya valyuta bazarında zaman keçdikcə dərəcələrin də-

yişilməsi hesabına mənfəət əldə etmək məqsədilə valyutaların alış-satışı üzrə əməliyyatlar *valyuta dilinqi* adlanır.

VALYUTA EHTİYATLARININ DİVERSİFİKASİYASI – dövlətin, bankların və transmilli korporasiyaların (TMK) beynəlxalq hesablaşmalarının təmini və onların valyuta risklərindən müdafiəsi məqsədilə valyuta ehtiyatları strukturunun tərkibinə müxtəlif xarici valyutaların daxil edilməsi yolu ilə tənzimlənməsinə yönəldilən siyasət.

VALYUTA ƏMƏLİYYATLARI – bir ölkə valyutasının digər ölkə valyutasına dəyişdirilməsi prosesi.

VALYUTA ƏMSALI – qiymətlərin və bir valyutadan digər valyutaya pul məbləğinin yenidən hesablanması zamanı istifadə olunan valyuta məzənnələri arasında nisbət. Bəzən eyniadlı əmtəələrlə sövdələşmələr üzrə valyutaların alıcılıq qabiliyyəti nəzərə alınmaqla müəyyən olunur. Bir sıra ölkələrdə əmsal ticarət əməliyyatları üçün "valyuta məzənnələri" adlanır.

VALYUTA FYUÇERSİ – standart forvard müqaviləsi, bir neçə çox istifadə olunan valyuta üçün tətbiq edilən birtipli forvard müqaviləsi.

VALYUTA İNTERVENSİYASI – dövlətin Mərkəzi bankının valyuta bazarına təsiri kimi başa düşülür. Bunun nəticəsində dövlətin marağına uyğun olaraq xarici valyutanın məzənnəsinin tənzimlənməsi məqsədilə həmin valyutanın böyük miqdarda alqı və ya satqısı həyata keçirilir.

VALYUTA İSTİQRAZLARI (ing. *currency bonds*) – qiymətli kağızlar bazarının elementi. Qanunvericiliyə müvafiq olaraq hüquqi şəxslər qarşısında öhdəliklər dövlət daxili istiqrazları şəklində yenidən rəsmiləşdirilmişdir. Bu istiqrazların ödəniş müddəti 1 ildən 15 ilə qədərdir. İstiqraz üzrə faiz dərəcəsi illik 3 faiz təşkil edir. Müəssisələr valyuta istiqrazlarını bazarda əcnəbi investorların sifarişlərinə əsasən müəyyən edilən qiymətə satmaq hüququna malikdir. Rusiya daxili bazarında praktik olaraq ödənilməsi 10-15 il təxirə salınan valyuta istiqrazlarına pul vəsaiti sərf etmək istəyən sahibkarlar yoxdur. Bu isə xarici iqtisadiyyat bankının istiqrazlarının xaricə köçürülməsinə şərait yaradır. Əcnəbi investorlar bu cür qiymətli kağızlara kapital qoyarkən onların yüksək gəlir gətirəcəyinə ümid edirlər. Valyuta istiqrazlarının sahibləri hüququnu özündə saxlamağı arzu edən müəssisələr ya həmin istiqrazlar müqabilində kredit almaq, yaxud onları etimada əsaslanan idarəçiliyə vermək variantları arasında seçim edə bilərlər. Lakin Rusiyada valyuta istiqrazları bazarı hələ inkişaf etmədiyinə görə qiymətli kağızların etimada əsaslanan idarəçiliyə verilməsi ləngidilir.

VALYUTA İTTİFAQI – ölkələrin qrup halında birləşməsi və onların öz milli valyutalarının məzənnələrinin qarşılıqlı dəyişməsi sərhədlərinin müəyyən edilməsi.

VALYUTA KOMPENSASİYASI MƏBLƏĞLƏRİ (ing. *monetary compensatory amounts*) – AİB ölkələrində "yaşıllar"la bazar valyuta kursları arasında olan fərqi kompensasiya edən və kənd təsərrüfatı məhsullarına olan qiymətləri fəlakətli kurs dəyişkənliklərindən azad etmək üçün subsidiyalar və kreditlər (bu, müxtəlif ölkələrdə qiymətləri tutuşdurmağa imkan verir və kurs uduşu naminə əmtəə ticarətinin qarşısını alır).


VALYUTA KOTİROVKASI – bir-birinə münasibətdə müxtəlif valyutaların məzənnələrində nisbətin qeydiyyatı prosesi və eyni zamanda nəticəsi. Valyuta kotirovkasının məqsədi ya həmin an üçün daha əlverişli məzənnəni, ya da real məzənnəni (valyuta dəyərlərinin bir-birinə həqiqi nisbətini əks etdirən) müəyyən etməkdir. Valyuta kotirovkasının üç əsas növü mövcuddur: a) digər valyutalara nisbətən milli valyutanın təsbit olunmuş məzənnəsinin inzibati cəhətdən müəyyən edilməsi. Bu halda ya həddən artıq yüksəldilmiş, ya da həddən artıq azaldılmış nisbət idxal-ixrac əməliyyatlarının həcminə təsir göstərəcəkdir. Təsbit olunmuş məzənnənin üstünlüyü ondan ibarətdir ki, valyuta əməliyyatları üzrə bağlanan sövdələşmələr minimum riskə malikdir. Lakin təsbit olunmuş məzənnə zamanı elə vəziyyət yarana bilər ki, bu məzənnə real iqtisadi şəraitə qeyri-adekvat olsun; b) valyuta göstəricilərinə olan tələblə onların təklifi arasındakı fərqin konkret təklifi kimi valyuta məzənnəsinin sərbəst formalaşması qiymətlərin nisbətini daha real əks etdirir. Lakin bu cür kortəbii formalaşma zamanı valyuta məzənnəsinin gözlənilməz dəyişməsi nəticəsində itki riski yüksəlir. Valyuta birjasında məzənnənin sərbəst formalaşması zamanı həmin anda ayrı-ayrı oyunçular

Xarici valyutalarda beynəlxalq yığımlar

	1995	1996	1997	1998	1999	2000	2001	2002	2003	2004	2005	2006	2007	2008	2009	2010	2011
USD	59,0%	62,1%	65,2%	69,3%	70,9%	70,5%	70,7%	66,5%	65,8%	65,9%	66,4%	65,7%	64,1%	64,1%	62,1%	61,8%	62,1%
EUR					17,9%	18,8%	19,8%	24,2%	25,3%	24,9%	24,3%	25,2%	26,3%	26,4%	27,6%	26,0%	25,0%
DEM	15,8%	14,7%	14,5%	13,8%													
GBP	2,1%	2,7%	2,6%	2,7%	2,9%	2,8%	2,7%	2,9%	2,6%	3,3%	3,6%	4,2%	4,7%	4,0%	4,3%	3,9%	3,9%
YEN	6,8%	6,7%	5,8%	6,2%	6,4%	6,3%	5,2%	4,5%	4,1%	3,9%	3,7%	3,2%	2,9%	3,1%	2,9%	3,7%	3,7%
FRF	2,4%	1,8%	1,4%	1,6%													
CHF	0,3%	0,2%	0,4%	0,3%	0,2%	0,3%	0,3%	0,4%	0,2%	0,2%	0,1%	0,2%	0,2%	0,1%	0,1%	0,1%	0,1%
Digərləri	13,6%	11,7%	10,2%	6,1%	1,6%	1,4%	1,2%	1,4%	1,9%	1,8%	1,9%	1,5%	1,8%	2,2%	3,1%	4,4%	5,1%

Avrodan istifadə edən ölkələr

Ölkə	Köhnə valyuta	Keçid tarixi	Dəyişdirilmə kursu
Avropa Birliyinin üzvü olmayıb, amma Avropa Mərkəzi Bankı ilə razılaşmaya əsasən rəsmi surətdə avrodan istifadə edən ölkələr			
Vatikan	İtalyan lirası Vatikan lirası Sanmarin lirası	1 yanvar 1999-cu il	1936,27 VAL
Mayotta	Fransa frankı	1 yanvar 1999-cu il	6,55957 FRF
Monako	Fransa frankı Monako frankı	1 yanvar 1999-cu il	6,55957 MCF
San-Marino	İtalyan lirası Vatikan lirası Sanmarin lirası	1 yanvar 1999-cu il	1936,27 SML
Sen-Pyer və Mikelon	Fransa frankı	1 yanvar 1999-cu il	6,55957 FRF
Qeyri-rəsmi olaraq avrodan istifadə edən ölkələr və ərazilər			
Akrotiri və Dekeliya	Kipr funtu	1 yanvar 2008-ci il	0,585274 CYP
Andorra	Fransa frankı İspan pesetası	1 yanvar 1999-cu il	6,55957 FRF 166,386 ESP
Kosovo	Alman markası	1 yanvar 2002-ci il	1,95583 DEM
Sen-Bartelmi	Fransa frankı	1 yanvar 1999-cu il	6,55957 FRF
Sen-Marten	Fransa frankı	1 yanvar 1999-cu il	6,55957 FRF
Çernoqoriya	Alman markası	1 yanvar 2002-ci il	1,95583 DEM
Avrodan istifadəsi planlaşdırılan tarix			
Bolqarıstan	Bolqar levi	1 yanvar 2015-ci il və ya gec	1,95583 BGN
Böyük Britaniya	Funt sterlinq	planlaşdırılmır	0,8593 GBP
Macarıstan	Macar forinti	yaxın zamanlarda planlaşdırılmır	271,9117 HUF
Danimarka	Danimarka kronu	yaxın zamanlarda planlaşdırılmır	7,46038 DKK
Latviya	Latviya latı	1 yanvar 2014-cü il və ya gec	0,702804 LVL
Litva	Litva liti	1 yanvar 2014-cü il və ya gec	3,4528 LTL
Polşa	Polşa zlotı	2015-ci ildən tez olmayaraq	3,9786 PLN
Rumıniya	Rumın leyi	1 yanvar 2015-ci il	4,2076 RON
Çexiya	Çex kronu	yaxın zamanlarda planlaşdırılmır	24,291 CZK
İsveç	İsveç kronu	yaxın zamanlarda planlaşdırılmır	8,8859 SEK



Sxem 1

üçün valyutaların zəruri nisbətinin formalaşmasına maliyyələşmə imkanları hesabına bu oyunçulara təsir etmək üçün valyuta möhtəkirliyi mümkündür; c) məzənnənin qarışıq formalaşması – valyuta kotirovkasının nəticəsidir ki, bu zaman sərbəst müzaidələr məzənnələrin nisbətinə nail olunmasına qədər iştirakçılar tərəfindən aparıla bilər. Bundan sonra müzaidə ya dayandırılır, ya da Mərkəzi bankın valyuta investisiyaları hesabına məzənnə tarazlaşır. Belə metod maliyyə fəaliyyətinin subyektlərinə bu cür sövdələşmələrin nəticələrini daha dəqiq proqnozlaşdırmağa imkan verərək, qısa dövr ərzində valyutaların nisbətinin müəyyən edilməsi zamanı məzənnənin tərəddüd etməsini azaltmağa imkan verdi.

Müxtəlif valyuta məzənnələrinin qeydiyyatı üsulu kimi valyuta kotirovkası, bir tərəfdən ölkələr arasında iqtisadi ziddiyyətlərin yumşalmasına, digər tərəfdən, maliyyə əməliyyatları üzrə tərəfdaşlara qeyri-aşkar iqtisadi təzyiq göstərilməsinə imkan verir. Valyuta kotirovkası prosesinin ziddiyyəti və nəticəsi ondan ibarətdir ki, valyuta müzaidələri əsasında müəyyən olunan valyuta nisbətlərini həqiqi hesab etmək olmaz. Çünki onlar yalnız iki sistem arasında real maliyyə qarşılığı münasibətlərini deyil, mövcud konkret konyunkturanı əks etdirirlər. Bununla belə, müzaidənin nəticələrinə bəzi əmtəələrin qiymətlərinin tərəddüd etməsindən tutmuş, müvafiq idarəetmə strukturlarının dəyişikliklərə qədər ən gözlənilməz amillər təsir göstərə bilər.

VALYUTA QANUNVERİCİLİYİ – elə hüquq normaları sistemidir ki, həm ölkə daxilində, həm də bir ölkənin təşkilat və vətəndaşlarının digər ölkənin təşkilat və vətəndaşları ilə qarşılıqlı münasibətlərində valyuta qiymətləri əsasında beynəlxalq hesablaşmaların, digər əqdlərin baş-vermə qaydasını müəyyən edir. Bir çox ölkələrdə valyuta qanunvericiliyi dövlətin valyuta inhisarına əsaslanır və predmeti valyuta qiymətlisi olan bütün münasibətlərə tətbiq edilir. Valyuta qanunvericiliyi ölkənin valyuta təsərrüfatına, onun beynəlxalq hesablaşmalarına mərkəzləşmiş rəhbərliyin aparılması üçün hüquqi baza yaradır.

VALYUTA QİYMƏTLİLƏRİ – xarici valyuta; xarici valyuta ilə qiymətli kağızlar, ödəniş sənədləri (çek, veksel, akkreditiv

və s.), fond qiymətliləri (səhmlər); xarici valyutada ifadə olunmuş digər borc öhdəlikləri; qiymətli daş və metallar.

VALYUTA MƏHDUDİYYƏTLƏRİ (ing. *foreiqn exchange restrictions*) – xarici valyuta ilə, qızılla və nominasiya edilmiş xarici valyutalı qiymətli kağızlarla əməliyyatları reqlamentləşdirən normalar; bu, hər şeydən əvvəl, xarici valyutada ödənişlər, xaricə valyutanın köçürülməsi, xarici valyutaların alqı-satqısıdır. Başqa sözlə, inzibati və ya qanunvericilik qaydasında müəyyən edilən, xarici valyuta və digər valyuta dəyərləri ilə əməliyyatların məhdudlaşmasına (əməliyyatlar üzərində dövlət nəzarəti, xaricə köçürmələrin məhdudlaşdırılması, valyuta gəlirinin qarşısının alınması və s.) yönəldilmiş normativ qaydalar sistemidir. Valyuta məhdudiyyətləri tədiyə balansının kəsirinin azaldılması üçün tətbiq edilir.

VALYUTA MƏZƏNNƏLƏRİNİN TƏRƏDDÜD EDİLMƏSİNDƏ SIĞORTALANMA – bəzi inkişaf etmiş ölkələrdə iqtisadiyyatın qeyri-sabitliyi şəraitində valyuta məzənnələrinin tərəddüdü baş verir ki, bu da idxalatçıların və ixracatçıların xeyli itkilərinə gətirib çıxarır. Xarici ticarəti təşviq etmək məqsədilə bir çox ölkələrin hökumətləri, əksəriyyət hallarda, xüsusi dekretlərlə, valyutaların məzənnələrin tərəddüdündən sığortalanmanı tətbiq edirlər.

VALYUTA MƏZƏNNƏSİ – bir ölkənin pul vahidinin digər ölkənin pul vahidində ifadə olunan qiyməti. Valyutanın məzənnəsinin müəyyən edilməsi "valyuta kotirovkası" adlanır. Təsbit olunmuş valyuta məzənnəsi sistemi (1944-cü il – 1970-ci illərin başlanğıcı) qızıl-valyuta standartlarına əsaslanırdı ki, burada ehtiyat kimi dollar və qızıl çıxış edirdi. Dünya valyuta münasibətləri haqqında sazişi imzalayan ölkələr dollarda və ya qızılda (1 unsiya qızılın 35 dollara nisbəti zamanı) öz valyutalarının məzənnələrini təsbit etdilər. Yamayka valyuta sistemi çərçivəsində üzən valyuta məzənnəsi rejimi qanuni hal aldı və Beynəlxalq Valyuta Fondu (BVF) vasitəsilə dövlətlərarası valyuta tənzimlənməsi gücləndi. Yamayka sazişlərinə uyğun olaraq, valyuta məzənnəsinin etalonu və hesablama nöqtəsi sayılan xüsusi borc alınmış hüquqlar (SDR) – BVF tərəfindən buraxılan, habelə, BVF-nin hesablama vahidi qismində və xüsusi hesablarda yazılı qeydlər etmək yolu ilə nağdsız beynəlxalq hesablaşmalar üçün istifadə olunan beynəlxalq tədiyə və ehtiyat vasitələridir. Müasir şəraitdə SDR-lə dünyanın əksər ölkələrinin milli valyutalarının kotirovkası həyata keçirilir.

Beynəlxalq valyuta münasibətləri sferasında birbaşa kotirovka yayılmışdır ki, burada xarici valyutanın müəyyən vahidinin qiyməti (adətən 1, 100) bu ölkənin pul vahidlərində ifadə olunur. Mərkəzi emissiya bankı, yaxud hər hansı hökumətin valyuta orqanı tərəfindən müəyyən edilən rəsmi məzənnə və valyuta bazarında (birjalarda) yaranan sərbəst məzənnə fərqləndirilmir.


Valyuta məzənnəsinin dəyişməsi xarici iqtisadi əlaqələrin vəziyyətinə əhəmiyyətli dərəcədə təsir etmək iqtidarındadır. Belə ki, milli valyutanın məzənnəsinin aşağı düşməsi, bir qayda olaraq, ölkənin ixracat imkanlarını yüksəldir, məzənnənin artması isə onu pisləşdirir. Valyuta məzənnəsinin qeyri-sabitliyi risk dərəcəsini və beynəlxalq sövdələşmələrdə qeyri-müəyyənliyi gücləndirir. Qanunauyğun haldır ki, valyuta məzənnəsi dövlət tənzimlənməsinin mühüm obyektidir. Tənzimlənmə aləti kimi dövlət aşağıdakılardan istifadə edir: valyuta müdaxiləsi, diskont siyasəti, valyutaların devalvasiyası və revalvasiyası, eləcə də valyuta proteksionizmi (valyuta məhdudiyyətləri) və liberalizm siyasəti çərçivəsində manevr edir. Valyutanın alıcılıq qabiliyyəti və digər amillərlə müəyyən olunur. Təsbit edilmiş valyuta məzənnəsi, valyuta pariteti ətrafında tərəddüd edən valyuta məzənnəsi və iqtisadi konyunkturadan asılı olaraq üzən valyuta məzənnəsi kimi fərqləndirilir.

VALYUTA MÖHTƏKİRLİYİ (ing. *currency speculations*) – valyuta məzənnələrindəki fərqdən mənfəət əldə edilməsi məqsədilə iqtisadi agentlər tərəfindən həyata keçirilən əməliyyatlar; başqa sözlə, müəyyən vaxtda və ya müxtəlif bazarlarda valyuta məzənnələrinin dəyişməsi nəticəsində mənfəət əldə etmək məqsədi ilə bank idarələrinin, firmaların, hüquqi və fiziki şəxslərin əməliyyatları, eləcə də qəsdən valyuta riskinin qəbulu. Valyuta möhtəkirliyi həm xarici valyuta ilə birbaşa ticarət, həm də qapalı forma-

Valyuta kursu

- Sərbəst üzmə
- İdarəolunan üzmə
- Fiksə edilmiş kurs
- Məqsədli zonanın kursu (valyuta dəhlizi)
- Valyuta kurslarının hibrid sistemi

S – valyuta təklifi,
D – valyutaya olan tələbat,
E(*Q*,*e*) – tarazlıq nöqtəsi,
e – tarazlı valyuta kursu



Xarici valyuta miqdarı
Tarazlı valyuta kursunun (məzənnəsinin) formalaşması

Valyutaların alıcılıq qabiliyyəti pariteti

- eyni əmtəə istehlak dəstlərinin alınmasını təmin edir
- valyutaların tarazlı mübadilə kursunun formalaşmasına gətirib çıxarır


Valyuta kursu müəyyən olunur → Qısa və orta vaxt dövründə bazardakı tələb və təklif → Uzunmüddətli dövrdə alıcılıq qabiliyyəti pariteti

Tədiyə balansını müəyyən edən amillər

VALYUTA KURSUNU MÜƏYYƏN EDƏN AMİLLƏR

- istehlakçıların zövqlərindəki dəyişikliklər əmtəə və xidmətlərin idxal və ya ixracının artmasına gətirib çıxarır ki, bu da xarici valyuta tələbinin həcmini dəyişir;
- əmtəələrin idxal və ixracını, bununla da valyutaya tələb və təklifi dəyişən dövlətin aktiv ticarət siyasəti;
- idxal olunmuş əmtəələrə tələbin elastikliyi;
- gəlirlərdə nisbi dəyişiklikləri milli gəlirin artımına səbəb olan bütün amillər valyuta kursunun aşağı düşməsinə səbəb ola bilər;
- inflyasiya və tədavüldəki pul kütləsinin artması valyutaların mübadilə kursunun aşağı düşməsinə gətirib çıxarır;
- nisbi real faiz dərəcələrinin səviyyəsi, kapitalın ölkəyə axmasına səbəb olan amillər (faiz yüksəlməsi) milli valyuta kursunun yüksəlməsinə kömək edir;
- iqtisadiyyatın dövlət makrotənzimlənməsi; rəsmi valyuta ehtiyatlarından istifadə, ticarət siyasəti, valyuta nəzarəti və valyuta bazarında səmərəlilik, maliyyə və pul-krediti siyasəti.

Sxem 1


Valyuta kurslarının (məzənnələrinin) növləri
1
fiksə edilmə kursuna görə
Fiksə edilmiş
Üzən
Qarışıq
2
hesablaşma üsuluna görə
Paritet
Faktiki
3
valyuta əməliyyat-larının növündən asılı olaraq
Təcili əməliyyatların kursu
Spot əməliyyatların kursu
Svot əməliyyatlarının kursu
4
təyin olunması üsuluna görə
Rəsmi kurs
Qeyri-rəsmi kurs
5
alıcılıq qabiliyyəti paritetinə görə
Yüksəldilmiş
Aşağı salınmış
Paritet
6
əməliyyat iştirakçı-larına görə
Alış kursu
Satış kursu
Orta kurs
7
inflyasiyanın nəzərə alınmasına görə
Real
Nominal

Sxem 1

larda, məsələn, "Lifds and Legs" əməliyyat tipi formasında həyata keçirilə bilər. "Lifds and Legs" əməliyyat tipi valyuta məzənnələrinin dəyişməsindən xeyir əldə etmək məqsədilə kontragentlərlə hesablaşmaların sürətlənməsi və ya ləngiməsidir.

VALYUTA MÜDAXİLƏSİ – 1. Milli valyutanın məzənnəsinin yüksəldilməsinin və azaldılmasının müəyyən hədləri ilə əlaqədar onun dinamikasını məhdudlaşdırmaq üçün xarici valyutanın alqı-satqısı üzrə məqsədli əməliyyatlar. 2. Mərkəzi bankın valyutanın məzənnəsini saxlamaqdan ötrü öz ölkəsinin valyutasını almaqdan və ya satmaqdan ibarət əməliyyatlar; başqa sözlə, valyuta bazarına ölkənin Mərkəzi bankının xeyli (əhəmiyyətli) dərəcədə birdəfəlik məqsədyönlü təsiridir. Yaxud iri partiyada xarici valyutanın bank tərəfindən alqı-satqısı yolu ilə həyata keçirilən valyuta müdaxiləsidir və dövlətin mənafeləri naminə xarici valyutaların məzənnəsinin tənzimlənməsi üçün həyata keçirilir.

VALYUTA NƏZARƏTİ – 1. Elə bir sistemdir ki, bunun vasitəsi ilə dövlət xarici valyutanın əldə edilməsi və onunla əməliyyatın aparılması qaydasını tənzimləyir. Xarici valyuta ilə əməliyyatların aparılmasına lisenziyanı verməyə səlahiyyətli orqan əsasən ya Maliyyə Nazirliyi, ya da Mərkəzi Bank hesab edilir. 2. Milli valyutanın, qiymətli kağızların, valyuta dəyərlilərinin ölkənin sərhədində (sərbəst gömrük zonalarının və sərbəst anbarların perimetrləri istisna olmaqla) yerdəyişməsi üzərində nəzarətdir.

VALYUTA OPSİONU (ing. *option of exchange*) – valyutaya aidiyyəti olan və ödənişin forması, metodları, yeri ilə əlaqədar kontraktın alternativ şərtlərini seçmək hüququ. Valyuta opsionu barədə müqavilədə qeyd-şərt göstərilir. Onu müəyyən olunmuş müddətdə və ya razılaşdırılmış hallar yarandıqda müvafiq tərəfə təqdim edirlər. O, sanballı valyuta mənfəətinə və ya itkilərə şərait yaradır. Məsələn, onun köməyilə valyuta arbitrajı üçün şərait yaranır.

VALYUTA PARİTETİ – valyutalar arasındakı nisbətdir ki, bu da qanunvericilik qaydasında və ya hökumətlərarası xüsusi razılaşmaların bağlanması yolu ilə müəyyənləşdirilir. 1978-ci ilə qədər valyuta pariteti valyutaların qızıl məzmunu ilə müəyyən edilirdi. Sonrakı dövrdə Beynəlxalq Valyuta Fondunun üzv dövlətləri üçün valyuta pariteti hesablanması bazasına xüsusi borc alma hüquqları (SDR) təqdim edildi. 1979-cu ildə Avropa Valyuta İttifaqı fəaliyyət göstərməyə başladı. O, valyuta paritetini müəyyən edilmiş hədlərdə saxlamağa və milli valyutaların bazar məzənnələrindən, razılaşdırılmış sərhədlərdən qarşılıqlı kənarlaşmalarına şərait yaratmamaq üzrə Avropa İqtisadi Əməkdaşlıq Təşkilatının iştirakçısı olan ölkələrin öhdəliklərini təsbit etdi.

VALYUTA RİSKLƏRİ (ing. *exchange rate exposure*) – xarici ticarət, kredit, valyuta əməliyyatları, fond və əmtəə birjalarında əməliyyatlar aparılarkən xarici valyutanın milli valyutaya nisbətən məzənnəsinin dəyişməsi ilə əlaqədar valyuta itkiləri təhlükəsi. Bu təhlükə açıq valyuta mövqeyi olduqda yaranır. İxracatçılar və idxalatçılar üçün valyuta riskləri, qiymət valyutası onlar üçün xarici valyuta olduğu halda yaranır. Onlar kontraktın bağlanması ilə kontrakt üzrə ödəniş arasındakı müddətdə maddi itkiyə məruz qala bilərlər. Lakin məzənnələr əks istiqamətdə dəyişdikdə ixracatçılar və idxalatçılar ziyana düşür.

Əgər borcluların borcu və kreditorların krediti başqa ölkələrin valyutası şəklində ifadə edilmişdirsə, borclular və kreditorlar, xarici valyuta şəklində avuarların (bax: *Avuar*) saxlayıcıları, dövlət təşkilatları və banklar, eləcə də ölkələrin rəsmi valyuta ehtiyatları valyuta risklərinə məruz qala bilərlər. Ölkələrin valyuta risklərindən müdafiə vasitəsi, ilk növbədə, forvard kontraktları və svoplar haqqında sazişlərdir.

Valyuta risklərini minimallaşdırmağın əsas istiqamətləri: tədiyə valyutası kimi milli valyutadan istifadəsi, müqaviləyə valyuta məzənnəsinin dəyişməsindən asılı olaraq pul öhdəliklərinin dəyişməsi haqqında şərtlər daxil edilməsi, valyuta fyuçerslərinin köməyi ilə hecirləmə.

Valyuta risklərinin üç növü fərqləndirilir:

İqtisadi risk – gələcəkdə valyuta məzənnəsinin dəyişməsi nəticəsində aktivlərin və passivlərin dəyəri dəyişə bilər. Bu, səhmləri və ya borc öhdəlikləri xarici valyuta şəklində gəlir gətirən kənar investorlara da aiddir.

2. *Köçürmə riski* – firmanın aktivlərinin və passivlərinin xarici valyuta şəklində mühasibat uço-

Cədvəl 1

Avropa Birliyinin üzvü olub avro zonasına qoşulmağı planlaşdıran ölkələrin uyğunluq göstəriciləri

Ölkə	İl	İnflyasiyanın sürəti, %	Dövlət büdcəsinin saldosu, ÜDM-dən %-lə	Ümumi dövlət borcu, ÜDM-dən %-lə	Uzunmüddətli % dərəcəsi
Bolqarıstan	2008	12,0	1,8	14,1	5,4
	2009	2,5	–3,9	14,8	7,2
	2010*	1,7	–2,8	17,4	6,9
Çexiya	2008	6,3	–2,7	30,0	4,6
	2009	0,6	–5,9	35,4	4,8
	2010	0,3	–5,7	39,8	4,7
Latviya	2008	15,3	–4,1	19,5	6,4
	2009	3,3	–9,0	36,1	12,4
	2010	0,1	–8,6	48,5	12,7
Litva	2008	11,1	–3,3	15,6	5,6
	2009	4,2	–8,9	29,3	14,0
	2010	2,0	–8,4	38,6	12,1
Macarıstan	2008	6,0	–3,8	72,9	8,2
	2009	4,0	–4,0	78,3	9,1
	2010	4,8	–4,1	78,9	8,4
Polşa	2008	4,2	–3,7	47,2	6,1
	2009	4,0	–7,1	51,0	6,1
	2010	3,9	–7,3	53,9	6,1
Rumıniya	2008	7,9	–5,4	13,3	7,7
	2009	5,6	–8,3	23,7	9,7
	2010	5,0	–8,0	30,5	9,4
Göstəricilərin normativ əhəmiyyəti		1,0	–3,0	60,0	6,0

** Bütün ölkələr üçün 2010-cu ilin göstəricisi 2009-cu ilin aprelindən 2010-cu ilin martınadək olan dövrü əks etdirir.*
Mənbə: ECB Convergence Report. May 2010. — European Central Bank, 2010. — P. 33.

tundakı fərqlərlə bağlıdır. Əgər şirkətin aktivlərinin ifadə edildiyi valyutanın məzənnəsi azalarsa, onların dəyəri də azalır.

3. *Əqdlər riski* – xarici valyuta ilə konkret əməliyyatlar üzrə zərər yaranması ehtimalı. Bu ehtimal həm ticarət kontraktları bağlanarkən, həm də kreditlər alınan və verilən anda yaranır.

VALYUTA SAZİŞLƏRİ – tərəflərin qarşılıqlı hüquq və vəzifələri, eləcə də beynəlxalq hesablaşmalar və kreditvermə barəsində şərtlərin, valyuta münasibətlərinin normaları müəyyən edilən ikitərəfli və ya çoxtərəfli dövlətlərarası müqavilələr.

"VALYUTA SƏBƏTİ" – inkişaf etmiş aparıcı ölkələrin məzənnələrinin kəsişən nisbətinin nəticələrini əks etdirən şərti anlayış. İki və daha artıq valyutaya münasibətdə (nisbətdə) bir valyutanın orta (ölçülü) məzənnəsinin müəyyənləşdirilməsi metodudur. Termin 1930-cu illərin iqtisadi böhranından sonrakı dövrdə əmələ gəlmişdir. Bu zaman əyani surətdə görünürdü ki, nə dollar, nə də daha az möhkəm valyuta dünya maliyyə sistemində hökmran rol oynaya bilməz. "Valyuta səbəti" əsasən dollar, avro, funt-sterlinq, iyen və s. qarşılıqlı məzənnələrinin nisbəti kimi formalaşır.

"Valyuta səbəti" anlayışının zəruriliyi onunla şərtlənir ki, dünya maliyyə sistemində ABŞ dollarının aparıcı rol oynadığı əvvəlcə qızıl, sonradan isə qızıl-dollar standartının ləğvindən sonra "başlıca" valyuta olan ABŞ dollarının məzənnəsinin görünməmiş dərəcədə enməsindən (və ya artımından) sığorta-

Cədvəl 1

Valyuta kurslarının rejimləri

Valyuta rejimləri	Ölkələrin sayı	Bəzi nümunələr
Fiksə edilmiş kurslar:		
1) Dolların istifadə edilməsi	15	Panama, Puerto-Riko, Vatikan
avronun istifadə edilməsi	8	Çernoqoriya
2) Əlaqələndirilmiş valyuta idarəetməsi:		
dollarla əlaqələndirilən	1	Honkonq, Bolqarıstan
avro ilə əlaqələndirilən	2	Bosniya-Herseqovina
3) Əlaqələndirmə:		
dollar ilə	11	Malayziya, Suriya
avro ilə	25	Danimarka, Yeni Kaledoniya
SDR ilə	8	Bəhreyn, Qətər
digər valyuta səbətləri ilə	6	Küveyt, Mərakeş
4) Qeyri-rəsmi əlaqələndirmə		
dollar ilə	8	Misir, Çin
avro ilə	1	Rumıniya
Çevik fiksə edilmiş kurslar:		
5) Sürüşkən əlaqələndirmə		
dollar ilə	8	Hindistan, Yamayka
avro ilə	4	Əlcəzair
6) Sürüşkən valyuta dəhlizi:		
dollara münasibətli	18	Ermənistan, Venesuela
avroya münasibətli	–	
Üzən kurslar:		
7) Azad "üzmə"		ABŞ, B. Britaniya, İtaliya, İsveçrə
8) İdarə edilən üzmə:		
dollara münasibətli	19	Rusiya, Braziliya, Gürcüstan
avroya münasibətli	9	Rusiya, Tunis, İsveç
9) Verilmiş parametrlər üzrə		digərləri

lanan beynəlxalq maliyyə əməliyyatlarının aparılması zamanı müəyyən ölçü lazım idi. "Valyuta səbəti"nə daxil olan valyutaların dəyəri və məzənnəsinin əsasında xüsusi borclanma hüququnun (SDR) orta çəkili məzənnəsi müəyyən edilirdi. Baxmayaraq ki, bu beynəlxalq nağdsız pullar nəticədə dollara nisbətdə öz dəyərini ifadə edir. "Valyuta səbəti", beynəlxalq valyuta əməliyyatlarının aparılması zamanı valyuta itkilərindən sığortalanmağa imkan verir. Bununla yanaşı, hökumətlərarası müqavilələrdə SDR düzəlişindən istifadə edilir. Bu düzəliş SDR vahidlərində, yəni orta hesabla beş valyutada dəyişməz qalan məbləğin kreditora qaytarılmasını təmin edir. "Valyuta səbəti"nin formalaşmasında beş aparıcı valyutadan istifadə edilməsi əsasən onunla şərtlənir ki, bu ölkələrin iqtisadiyyatı ixrac olunan rəqabət qabiliyyətli məhsulun ən çox həcminə malikdir.

VALYUTA SƏBƏTİ ÜZRƏ XARİCİ BORCLAR – ödəniş məbləği valyuta səbəti bazasında müəyyən olunan beynəlxalq kreditin əsas forması. Dövlətlər arasında qarşılıqlı hesablaşmalar üçün kreditlər üzrə valyuta paritetləri BVF-nin nizamnaməsinə əsasən, valyuta səbəti əsasında müəyyən olunur. Hər

5 ildən bir səbətdə valyutaların tərkibi və payı dəyişilir. BVF hər gün valyuta səbətinin dəyərini dollarla müəyyən edir, bu zaman üzən məzənnənin dəyişilməsi nəzərə alınır. Bu bir valyutanın orta ölçülü məzənnənin digər valyutaların müəyyən toplusuna (ixracın həcmində daha çox payı olan ölkələrin valyutaları) münasibətdə müqayisə metodudur. Xarici borc zamanı borcu verən borcluya müəyyən müddətə şərtləndirilmiş pul vəsaiti məbləğini verir ki, o da həmin müddət bitənə qədər kreditora götürdüyü məbləği faizlərlə geri qaytarmaq öhdəliyini daşıyır.

Xarici borclar zamanı valyuta təshihləri mövcuddur. Borcu təqdim edən özünü valyuta risklərindən müdafiə üçün çoxvalyutalı təshihlərdən istifadə edir ki, bu zaman da ödəniş anına valyuta səbətinə və kredit müqaviləsinin imzalanma gününə kursa münasibətdə ödəniş valyutasının kursunun müqayisə prinsipi tətbiq olunur. Kredit razılaşmalarına müdafiə təshihlərinin daxil olunması bəzən kontragentlər arasında razılaşmanın digər şərtləri üzrə mürəkkəb razılaşma və qarşılıqlı güzəştlər tələb edir. Valyuta təshihlərinin fəaliyyət mexanizminin tərkib elementləri kredit razılaşmasının imzalanma günü və ya əvvəlki gün, ödəniş anına valyuta səbətinin şərti dəyərinin müəyyən edilmə tarixidir ki (müddəti), bu da valyuta səbətinin bazis dəyərinin tarixidir (adətən bilavasitə ödəniş günündən əvvəlki və ya buna bir neçə gün qalmış olan iş günü). Çoxvalyutalı təshihlərin formalaşması zamanı nəzərə alınır ki, razılaşmanın imzalanma gününə valyuta səbətinin dəyəri kreditin valyutasının hansısa vahidini təşkil edir və bu şərtə əsaslanaraq, kredit üzrə ödəniş məbləği, kredit üzrə hesablanmış faizlərin məbləği müəyyən olunur. Əgər ödəniş gününə valyuta səbətinin dəyəri dəyişsə, onda növbəti ödəniş elə həmin proporsiyada (nisbətdə) dəyişiləcək. Çoxvalyutalı təshih bazası kimi valyuta səbətinin tətbiqi əsasən ondan ibarətdir ki, onun müntəzəm və ümumi qəbul olunmuş kotirovkaları ödəniş məbləğinin hesablanması zamanı dövri qarşıdurmaları istisna edir.

Valyuta səbətinin müəyyən olunma metodları:

Valyuta səbətinin müəyyən edilməsinin bir neçə metodu var ki, bunlar da valyuta tərkibinə görə fərqləndirilir:

1. Eyni xüsusi çəkiyə malik olan (simmetrik səbət);
2. Müxtəlif xüsusi çəkiyə malik olan (asimmetrik səbət);
3. Valyuta vahidinin müəyyən tətbiq dövrünə təshih valyutası qismində təsbit olunmuş (standart səbət);
4. Bazar amillərindən asılı olaraq dəyişən (tənzimlənən səbət).


VALYUTA SƏRVƏTLƏRİ – 1. Xarici valyuta. 2. Xarici valyutada qiymətli kağızlar, xarici valyutada ifadə edilmiş ödəniş sənədləri (çeklər, veksellər, akkreditivlər və s.), fond dəyərləri (səhmlər, istiqrazlar) və digər borc öhdəlikləri. 3. Qiymətli metallar – zərgərlik, digər məişət məmulatı və bu məmulatın qırıntıları istisna olmaqla, hər hansı növdə və halda olan qızıl, gümüş, platin və platin qrupundan olan metallar (palladium, iridium, radium, rutenium və osmium). 4. Xam və emal edilmiş (zərgərlik, digər məişət məmulatı və bu məmulatın qırıntıları istisna olmaqla) təbii daş-qaş (almaz, yaqut, zümrüd, sapfir, aleksandrit, mirvari).

VALYUTA SİSTEMİ – valyutanın fəaliyyəti ilə bilavasitə bağlı olan iqtisadi və hüquqi münasibətlərin məcmusu. *Milli, regional* və *dünya valyuta sistemləri* fərqləndirilir.

Valyuta sisteminin məqsədi

Valyuta sisteminin məqsədi ölkə daxilində və ölkələr arasında pul hesablaşmalarının təmini üçün şərait yaratmaqdır. Valyuta sisteminin ən mühüm elementləri valyuta məzənnəsinin seçilməsi, valyuta məhdudiyyətlərinin mövcud olub-olmaması, valyutaların qarşılıqlı çevrilməsi şərtləri, beynəlxalq hesablaşmaların formaları, beynəlxalq valyuta və qızıl bazarlarının işi, beynəlxalq valyuta-kredit təşkilatlarının, məsələn, Beynəlxalq Valyuta Fondunun statusu və s.

Dünya valyuta-maliyyə sistemi – tədiyə dövriyyəsinin iştirakçıları arasında yalnız onun üçün səciyyəvi olan valyuta-maliyyə müəssisələri sisteminə malik hesablaşmaların qaydası. Bu qayda tarixən əmtəə istehsalının, pul dövriyyəsinin və beynəlxalq iqtisadi münasibətlərin inkişafı bazasında yaranmışdır və hökumətlərarası sazişlərə, beynəlxalq təşkilatların nizamnamələri ilə ciddi tənzimlənir. Tədiyə balanslarından istifadə sayəsində nisbi müstəqilliyə malik valyuta münasibətləri, valyuta məzənnələri. Kredit və hesablaşma əməliyyatları icti-



Sxem 1

mai təkrar istehsalın gedişinə, ölkələrin iqtisadi inkişafının istiqamətlərinə, sürətinə və nisbətlərinə, onların beynəlxalq iqtisadi münasibətlərinə müxtəlif dərəcədə təsir göstərir. Əksər hallarda bu təsir təsərrüfat həyatı ukladlarının daha da beynəlmiləlləşməsinin, inteqrasiya meyillərinin dünya iqtisadiyyatına tətbiqinin, milli təkrar istehsal prosesində xarici amillərin rolunun əhəmiyyətli dərəcədə artmasının, dünyada valyuta ticarəti həcminin çoxalmasının, yeni maliyyə alətlərinin yaranmasının və ildırım sürəti ilə yayılmasının nəticəsidir. Dünya təsərrüfat sistemində təkrar istehsalın təmini üçün zəruri şərait yaradılması valyuta münasibətlərinin sosial-iqtisadi mahiyyətini təşkil edir.

Valyuta münasibətlərinin subyektləri qismində xarici-iqtisadi fəaliyyətlə məşğul olan dövlətlər, müəssisələr və fiziki şəxslər çıxış edir. Bu münasibətlər mübadilə məzənnələrinin hesablanması qaydasını, beynəlxalq tədiyə vasitələrindən istifadəsi və onların buraxılması qaydalarını müəyyən edən mexaniz-

Cədvəl 1

Beynəlxalq valyuta sisteminin inkişafı

Mərhələ	Dövr	Adı	Məzmunu
Birinci	XIX əsrin sonu – XX əsrin 30-cu illəri	Qızıl standart (Paris valyuta sistemi)	◆ Müəyyən ölkələrin valyutaları azad şəkildə qızıla mübadilə olunurdu ◆ Ölkələr öz pul vahidlərinin dəyişməz olan qızıl məzmununu müəyyən edirdilər ◆ Ölkənin qızıl ehtiyatı ilə daxili pul təklifi arasında çox ciddi nisbət gözlənilirdi
İkinci	1944-1975-ci illər	Fiksə edilmiş tənzimlənən valyuta (Bretton-Vuds valyuta sistemi)	◆ Beynəlxalq Valyuta Fondunun (BVF) yaradılması ◆ BVF-yə daxil olan hər bir ölkə öz pul vahidlərinin qızıl məzmununu təyin edirdi ki, bu da valyutaların nominal paritetini və valyuta kursunu müəyyən edirdi ◆ BVF-yə daxil olan hər bir ölkə dəyişməz valyuta kursunu təmin etməli idi. ◆ Valyuta ehtiyatı rolunda qızıl və ABŞ dolları çıxış edirdi
Üçüncü	1976-cı il	Valyuta kurslarının tənzimlənən şəkildə üzməsi (Yamayka valyuta sistemi)	◆ Qızılın dəyər ölçüsü funksiyasının ləğvi və valyuta kurslarının hesabatının əsasları ◆ Ölkələrə valyuta kursu rejiminin seçilməsi imkanının verilməsi
			◆ Milli valyutaların lider valyutalara (ABŞ dolları, alman markası, yapon yeni və sair) təhkim eidlməsi ◆ SDR standartının tətbiqi nağdsız hesablaşmalara əsaslanan beynəlxalq tədiyə, ehtiyat və hesablaşma üsulları
	1976-1997-ci illər	Yeni beynəlxalq valyutanın – avronun tətbiqi	◆ Avropa ölkələrində milli valyutaların sıxışdırılıb tədavüldən çıxarılması ◆ Beynəlxalq hesablaşmalarda istifadə olunan ABŞ dollarının aparıcı valyuta mövqeyindən sıxışdırılıb çıxarılması ehtimalı ◆ "Valyuta plüralizmi"nin inkişafı – ölkələr valyuta kurslarının müəyyən edilməsi variantını sərbəst şəkildə seçilirlər

min köməyi ilə həyata keçirilir.

Valyuta sisteminin əsas elementləri

Valyuta münasibətlərinin təşkilinin dövlət-hüquqi forması valyuta sistemi adlanır. Valyuta sisteminin tərkibinə bir-biri ilə qarşılıqlı əlaqəli və qarşılıqlı asılı olan valyuta və onun dönərlilik dərəcəsi, valyuta və qızıl bazarlarının işi, beynəlxalq valyuta likvidliyinin reqlamentləş-

Cədvəl 2

31.12.1998-ci ildə Avropa Birliyi Şurasının maliyyə nazirləri səviyyəsində Avropa valyutalarının avroya münasibətdə təyin etdiyi kurs

Valyutanın adı	Valyutanın kodu	1 avroya münasibətdə kurs
Avstriya şillinqi	ATS	13.760300
Belçika frankı	BEF	40.339900
İrland funtu	IEP	0.787564
İspan pesetası	ESP	166.386000
İtaliyan lirası	ITL	1936.270000
Lüksemburq frankı	LEF	40.339900
Alman markası	DEM	1.955830
Niderland quldeni	NLG	2.203710
Portuqal eskudosu	PTE	200.482000
Fin markası	FIM	5.945730
Fransa frankı	FRF	6.559750
Yunan draxması	-	340.750

dirilməsi kimi elementlər daxildir. Beynəlxalq valyuta likvidliyi dedikdə beynəlxalq öhdəliklərin yerinə yetirilməsi üçün zəruri tədiyə vasitələrinin mövcudluğu və beynəlxalq hesablaşmaların reqlamentləşdirilməsi başa düşülür. Valyuta sisteminin bir elementi də tənzimləmə, nəzarət və idarəetmə orqanlarıdır. Valyuta sistemlərinin milli və dünya növləri fərqləndirilir.

Milli valyuta sistemi ölkənin valyuta münasibətlərinin təşkilinin milli qanunvericiliklə müəyyən edilmiş formasıdır. Milli valyuta sisteminin əsasını ölkənin pul vahidi təşkil edir. Sözün daha geniş mənasında valyuta dedikdə beynəlxalq hesablaşmalarda istifadə edilən və milli valyuta ilə ifadə olunan pul öhdəliyi və ya hər hansı tədiyə sənədi nəzərdə tutulur. Valyutaya tələb və təklif ölkənin müxtəlif valyutalar şəklində ifadə edilmiş xidmətlərin, əmtəələrin beynəlxalq mübadiləsində və kapitalın hərəkətində vasitəçi rol oynayan pul öhdəliklərindən və pul tələblərindən asılıdır. Ölkələrin valyuta qanunvericiliyi milli valyutadan beynəlxalq hesablaşmalarda istifadə etməyin formalarını və mümkünlüyünü, eləcə də milli valyutanın xarici ölkələrin pul vahidləri ilə mübadilə edilməsi qaydasını tənzimləyir. Valyutanın dönərlilik rejimlərinin müəyyən edilə bilməsi ölkənin dünya təsərrüfat sisteminə inteqrasiya dərəcəsindən və başqa şərtlərdən asılıdır. Valyutanın dönərliliyi öz iqtisadi məzmununa görə bazar təsərrüfatı elementidir. Milli valyutanın xarici valyuta ilə mübadiləsi də valyuta bazarında baş verir, yəni alqı-satqı əməliyyatları bu bazarda aparılır. Milli valyutanın dönərli olması, bu valyutanın sahiblərinə pul ehtiyatları barəsində ölkə daxilində və onun hüdudlarından kənarda sərbəst sərəncam vermək imkanı yaradır və nəticə etibarı ilə ölkə iqtisadiyyatının dünya təsərrüfat sisteminə qoşulmasına şərait yaradır.

Dünya valyuta sistemi beynəlxalq valyuta, kredit və hesablaşma münasibətlərinin dövlətlərarası sazişlərdə təsbit edilən təşkilati formasıdır. Tarixən birinci dünya valyuta sistemində pul qismində yalnız qızıl və gümüş kimi nəcib metallardan sonra isə yalnız qızıldan istifadə edilmişdir. *Qızıl standartı* adlanan bu mexanizm qızıl-sikkə, qızıl-külçə və qızıl-deviz standartları şəklində mövcud olmuşdur. XIX əsrdə beynəlxalq ticarətin inkişaf etməsi ilə əlaqədar əksər ölkələrdə *qızıl-sikkə standartı* tətbiq edilmişdir (Paris valyuta sistemi). Həmin vaxtdan etibarən valyutaların məzənnəsi və dəyəri pul vahidinin tərkibindəki qızılın miqdarı ilə müəyyən edilməyə başlanmışdır. Qızıl sikkələr sərbəst şəkildə zərb edilirdi. Bu halda bəzi dəyər nişanları, məsələn, başqa metallardan hazırlanmış sikkələr və bank biletləri qızıl ilə sərbəst mübadilə edilə bilərdi. Valyuta idarələri və ya dövlət bankları

Cədvəl 2

Avropa valyutalarının avroya dəyişdirilməsi qaydaları və müddəti

Ölkə	Milli valyutanın dövriyyədən çıxarılması tarixi	Banklar tərəfindən milli valyutanın avroya dəyişdirilməsinin son tarixi	Avropa Birliyi Mərkəzi Bankı tərəfindən milli valyutaların avroya dəyişdirilməsinin son tarixi
Avstriya	28.02.2002	Müəyyənləşdirilməyib	Qeyri məhduddur
Belçika	28.02.2002	31.12.2002	Qeyri məhduddur
Finlandiya	28.02.2002	Fərdi müəyyənləşdirilir	01.01.2012
Fransa	17.02.2002	30.06.2002	17.02.2012
Almaniya	31.12.2001	28.02.2002	Qeyri məhduddur
Niderland	31.12.2002	01.01.2032	01.01.2032
Yunanıstan	28.02.2002	Müəyyənləşdirilməyib	01.01.2012
İrlandiya	09.02.2002	30.06.2002	Qeyri məhduddur
İtaliya	28.02.2002	Müəyyənləşdirilməyib	01.01.2012
Lüksemburq	28.02.2002	31.06.2002	Qeyri məhduddur
Portuqaliya	28.02.2002	30.06.2002	01.01.2022
İspaniya	28.02.2002	30.06.2002	Qeyri məhduddur

Vahid valyutaya keçidin əsas prinsipləri aşağıdakılardan ibarət idi:
– milli valyutaların fiksə olunmuş kursla dəyişdirilməsinə 1 yanvar 1999-cu ildən başlanmışdır.
– 1 yanvar 1999-cu ildən hüquqi sənədlərdə EKYU ilə aparılmış qeydlər 1:1 nisbətilə avro ilə əvəzlənir.
– hüquqi sənədlərdə milli valyuta ilə aparılmış qeydlər avroda aparılmış kimi qəbul olunaraq qüvvədə qalacaqdır.
– müqavilələrin fasiləsizliyi prinsipi: 1) avronun tətbiqi sənədlərdə hər hansı bir şərtin və sənədin özünün birtərəfli qaydada dəyişdirilməsinə və ya ləğvinə yol vermir; 2) üzv ölkənin milli valyutada və ya avroda əks olunmuş ixtiyari ödəniş öhdəliyi borclu tərəfindən avro və ya milli valyutada ödənilməlidir.
– 1 yanvar 1999-cu ildən 31 dekabr 2001-ci ilədək əməliyyatlarda azad seçim prinsipi (milli valyuta və ya avro). Nəzərə almaq lazımdır ki, yeni valyuta sisteminin üzvü olan ölkələr tərəfindən mövcud vəziyyətdə iştirakçılara münasibətdə məcburetmə və qadağalara yol verilmir. Bu onu göstərir ki, yeni müqavilələrdə və onunla əlaqədar bütün sənədlərdə ixtiyari denominasiyadan istifadə oluna bilərdi.

kağız pulları müvafiq miqdarda qızıla mübadilə etməyə borclu idi. Banklar qızılı çox vaxt beynəlxalq bazarda tədarük edirdi. Hər bir milli valyutanın qızıl tərkibi vardı və bu tərkibə uyğun olaraq həmin valyutanın pariteti müəyyən edilirdi.

Valyuta pariteti müxtəlif ölkələrin pul vahidlərinin tərkibində olan qızılın çəki ilə miqdarının nisbətidir.

Bretton-Vud valyuta sistemi 1944-cü ildə Bretton-Vud konfransında dünya pul münasibətlərinin və hesablaşmalarının təşkilati forması kimi müəyyən edilmişdir. Bu sistemə görə, dünya pulu rolu ABŞ dollarına məxsusdur.

VALYUTA SİYASƏTİ – dövlət tərəfindən milli valyutanın məzənnəsinin tənzimlənməsi üçün görülən tədbirlər kompleksi. Nəzəriyyədə valyuta siyasətinin *beş əsas variantı* nəzərdən keçirilir:

1) Tədiyə balansının müsbət və mənfi saldosunun ehtiyatlarda və pul öhdəliklərində dəyişikliklər vasitəsilə maliyyələşdirilməsi. Bu cür maliyyələşdirmə müvəqqəti və ya daimi xarakter daşıya bilər. Müvəqqəti maliyyələşdirmə tarazlığı bərpa edə bilər, lakin o, gələcək tarazlıq

məzənnəsinin dəqiq proqnozlaşdırılmasını tələb edir, bunu həyata keçirmək isə çətindir. Tədiyə balansının kəsirinin daimi maliyyələşdirilməsi yalnız əsas valyuta ölkələrində (məsələn, ABŞ-da) mümkündür.

2) Sabit valyuta məzənnəsinin təmin olunması üçün tətbiq edilən valyuta nəzarəti. Kəsirin maliyyələşdirilməsi ilə müqayisədə daha ciddi uyğunlaşma tədbirləri tələb edən variantlar arasında valyuta nəzarəti sosial baxımdan daha məqbul sayılır.

3) Dəyişkən valyuta məzənnəsinin tətbiq edilməsi. Bu halda, valyuta məzənnəsi rəsmi müdaxilə olmadan valyuta bazarı tərəfindən müəyyən edilir. Valyutaya tələb artdıqda həmin valyutanın məzənnəsi də artacaq və dövlət bu məsələyə müdaxilə etməyəcəkdir. Analoji olaraq valyutaya tələbat azalan halda da dövlət valyuta məzənnəsinin tam tarazlıq bərpa edilənə qədər azalmasına imkan verəcəkdir.

4) Məzənnələrin fiksə edilməsi halında dövlət iqtisadiyyatda elə dəyişikliklər edir ki, o, qərarlaşmış valyuta məzənnəsinə müvafiq olsun. Əgər ölkə valyuta tədiyələrinin daimi qıtlığını hiss edirsə və əcnəbilər həmin ölkənin valyutasını almaq istəmirlərsə, hökumət valyuta ehtiyatlarının tükəndirilməsi hesabına pul kütləsi təklifini azaltmaq, deflyasiya siyasəti yeritmək, qiymətləri və gəlirləri azaltmaq imkanına malikdir.

5) Valyuta məzənnələri rejimlərinin kombinasiyası.

VALYUTA SVOP ƏMƏLİYYATI – xarici valyutanı sonradan geriyə almaq şərtilə onun alınması və dəyərinin milli valyuta ilə dərhal ödənilməsi.

VALYUTA TƏNZİMLƏNMƏSİ – beynəlxalq hesablaşmaların və valyuta qiymətliləri ilə əməliyyatların həyata keçirilməsi sahəsində dövlətin məqsədyönlü fəaliyyəti.

VALYUTA VƏ QİYMƏTLİ KAĞIZLAR (MALİYYƏ) BAZARI – bura valyutaların, səhmlərin, istiqrazların, çeklərin, akkreditivlərin, veksellərin və digər pul öhdəliklərini yerinə yetirə bilən qiymətli kağızların sərbəst alqı-satqısı daxildir.

VALYUTALAŞMAMIŞ POLİS – sığorta məbləğinin yalnız ən yüksək həddinin göstərildiyi polis.

Vahid valyutanın milli iqtisadiyyatlar üçün gətirdiyi məsrəflər və üstünlüklər baxımından, vahid valyutası olan bir neçə ölkədən ibarət zonanın yaradılması imkanını nəzərdən keçirən konsepsiya *optimal valyuta zonası* adlanır. Optimal valyuta zonası yarada biləcək ölkələrin qarşısında siyasi məqsədlərin üst-üstə düşməsi, iqtisadi strukturların uyuşqanlığı və əmək bazarının müvafiqliyi ilə bağlı tələblər qoyulur. Optimal valyuta zonası nəzəriyyəsi 1960-cı illərin əvvəllərində Mandell tərəfindən irəli sürülmüşdür.

VALYUTALAŞMIŞ POLİS – dəniz sığortasında polisdir ki, burada sığorta məbləği göstərilir.

VARİSİ OLMAYAN VƏFAT EDƏNİN ƏMANƏTİ – nə qanunla, nə də faktiki vəziyyətlə varisi olmayan ölən əmanətçiyə məxsus əmanət, yaxud varis olmadan sahibinin ölümündən sonra qalan əmanət. Vəfat edənin əmanəti o zaman "varisi olmayan əmanət" sayılır ki, varislərdən heç biri varisliyi qəbul etmir və ya bütün varislər vəsiyyət edən tərəfindən varislik hüququndan məhrum edilir, əmanətçinin ölümü zamanı əmanət bankının hər hansı faktla bağlı vəziyyət sərəncamı daxil olmur. Faizlərlə birlikdə bu cür əmanət həmin əmanətin miras verilməsi üçün dövlətin hüququ haqqında notariat kontorunun şəhadətnaməsinə əsaslanan maliyyə orqanının yazılı tələbi ilə büdcənin gəlirinə köçürülür.

VARQA YEVGENİ SAMUİLOVİÇ (1879-1964) – macar mənşəli sovet iqtisadçısı, SSRİ EA-nın akademiki (1939), Lenin mükafatı laureatı (1963). Müəllim ailəsində anadan olmuş, Budapeşt Universitetini fəlsəfə elmləri doktoru dərəcəsi ilə bitirmişdir (1909). 1918-ci ildə Budapeşt Universitetinin siyasi iqtisad professoru olmuş, 1922-1947-ci illərdə SSRİ EA-nın Dünya Təsərrüfatı və Dünya Siyasəti İnstitutunun direktoru işləmişdir. 1929-1933-cü illər böhranının baş verəcəyini öncədən demiş və bir çoxlarından fərqli olaraq, bunun kapitalist sisteminin iflası ilə nəticələnəcəyini rədd etmişdir. SSRİ EA-nın həqiqi üzvü, 1939-1946-cı illərdə iqtisadiyyat və hüquq şöbəsinin akademik-katibi, 1945-ci ildə sovet nümayəndə heyətinin tərkibində Yalta və Postdam konfranslarında eks-





pert olmuşdur. 1946-cı ildə keynsçilik nəzəriyyəsinin təhlili nəticəsində belə qənaətə gəlmişdi ki, kapitalizm cəmiyyətində böyük depressiyaya dövlətin müdaxiləsi nəticəsində qalib gəlmək mümkün olmuşdur. 1956-cı ildə SSRİ EA-nın Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunda işləmişdir.

VARRANT (ing. *warrant* – səlahiyyət, hüquq, ixtiyar) – 1. İkiqat anbar şəhadətnaməsinin hissələrindən biri (girov şəhadətnaməsi). 2. Qiymətli kağızların tədavülə buraxılmasına qədər, nominala görə bu qiymətli kağızlar paketinin əldə olunması imkanını nəzərdə tutan sertifikat növü. 3. Gələcək emissiyaların istiqrazlarının və səhmlərinin alınması hüququnu verən uzunmüddətli opsion koll; sonuncu şərt variantı artıq tədavülə buraxılan qiymətli kağızlardan ibarət ənənəvi opsion kolldan fərqləndirilir. 4. Başqa bir şəxsin (vəkalət verənin) adından sövdə və ya digər qanunauyğun hərəkətləri həyata keçirmək üçün nümayəndənin səlahiyyətləri təsbit olunan sənəd. Varrantın xüsusiyyəti sertifikatların və qiymətli kağızların əldə edilməsi müddətlərində fərqdir. Varrantın qiyməti bu qiymətli kağızın məzənnə dəyərindən irəli gələn (yaranan) kəmiyyətdir. Varrantın alqısı zamanı qiymət və mükafat dərhal ödənilir. Qiymətli kağızların alqısından imtina etmək olar, lakin mükafat tədiyəçiyə qaytarılmır. Əksər varrantlar adi səhmlər üçün yazılır və adətən, istiqrazlarla paketdə şirkətlər tərəfindən satılır. Lakin bəzi şirkətlər varrantları istiqrazlar üçün buraxır. Fond birjalarında sərbəst tədavül olunan ənənəvi opsion kollun dəyərinə nisbətən səhmlər üçün varrantın dəyərinin qiymətləndirilməsi bir qədər çətindir. Çünki kapitalın gələcəkdə səpələnməsi amilinin, eləcə də varrantın sahibinin dividendlərin əldə olunmaması nəticəsində ziyana düşməsi amilinin nəzərə alınması zəruridir. İstiqraz üçün varrantın dəyərinin qiymətləndirilməsi zamanı nəzərə almaq lazımdır ki, istiqrazın dəyəri təsadüfi olaraq dəyişilir. İstiqrazın ödənilməsi müddəti yaxınlaşdıqca o, istiqrazın nominal dəyərinə qayıdır. Buna görə də Blek-Skoulz düsturu həm səhm kimi, həm də istiqraz kimi varrantın dəyərinin qiymətləndirilməsi üçün birbaşa təsbit oluna bilməz və hər bir halda müvafiq modifikasiya tələb edir. Varrant, adətən, risk şirkətləri tərəfindən buraxılır. İstiqraz paketi və səhm üçün varrant mahiyyətcə kənar investorların şirkətin fəaliyyətində spesifik iştirakı formasıdır. O, istiqraz sahibinə özünün "işə girməsinə" imkan yaradır və yalnız istiqrazların sahibi kimi yox, həm də şirkətin mülkiyyətçilərindən biri kimi riski daşımağa şərait yaradır. Əgər şirkətin fəaliyyəti uğurlu olarsa, varrant bir tərəfdən yüksək mənfəət əldə etməyə, digər tərəfdən risklərdən sığortalanmağa imkan verən kifayət qədər cəlbedici alətdir.

Anbar varrantı – müəyyən miqdar əmtəənin (malın) anbara çatdırılmasını təsdiq edən qəbzdir. Bu qəbz sövdənin predmeti ola bilər və satıcıdan alıcıya əmtəənin mülkiyyət hüququnun verilməsi üçün istifadə oluna bilər.

VARRANT, "AVROXƏZİNƏDARLIQ" – avronotlarla buraxılan və ABŞ xəzinədarlıq veksellərinin müəyyən edilmiş qiymətə razılaşdırılmış müddətlərdə almaq hüququ verən varrant.

VARRANT, DOK – evin anbarında yerləşən malın sahibinə verilən, həmin mala sərəncam vermək haqqında sənəddir, onun bu mala olan hüququnu təsdiq edir.

VARRANT, İMZALI – istiqrazla və ya imtiyazlı səhmlə birlikdə buraxılan və sahibinə həmin emitentdən müəyyən sayda adi səhm almaq imkanı verən qiymətli kağız.

VARRANT, MÜDDƏTSİZ – müddətində hər hansı məhdudiyyətlər olmadan emitentin səhmlərinin müəyyən sayda olması hüququ verən investisiya sertifikatı.

VARRANT, "PƏNCƏRƏ" – yalnız müəyyən günlərdə və ya müəyyən dövr ərzində istifadə olunan varrant.

VARRANT, REİNVESTİSİYALI – kupon gəlirinin həmin tip istiqrazlara reinvestisiya hüququ verən istiqraz varrantı.

VARRANT, VALYUTA – eyni borclunun başqa valyutada əlavə qiymətli kağızlarını almaq hüququ verən istiqraz varrantı.

VARRANT, "ZƏRƏRSİZ" – istiqraz saxlayanı vaxtından əvvəl ödəməkdən, emitenti isə borcun artmasından (varrantdan istifadə ondan əvvəl buraxılmış istiqrazların qaytarılması şərti ilə qabaqcadan razılaşdırılır) müdafiə edir.

VASİTƏÇİLƏR – distribütorlar və ya resellerlər (malların alınıb satılması ilə məşğul olan şəxslər, yaxud təşkilatlar).

VASİTƏÇİLƏR BAZARI – 1. Ticarət fəaliyyəti əsasında təşkilatların, firmaların və başqa hüquqi şəxslərin yenidən satmaq üçün mal və xidmət əldə etməsindən ibarət olan bazar. Satış predmeti həm real əmtəə, həm də mal və xidmətlərə olan sənədlərdir. Vasitəçilərin bazarı təşkilati cəhətdən birjalar, hərraclar, yarmarkalar və auksionlar şəklində fəaliyyət göstərir.



2. Birja məhsulları bazarlarının təşkili forması. Onun fərqli cəhətləri çoxlu sayda ticarət iştirakçılarının, o cümlədən xırda, orta və iri ticarət firmalarının, bütün satıcı və alıcıların açıq rəqabəti üzərində qurulan azad qiymətqoymanın olması, nümunəvi müqavilələr, tacirlər assosiasiyasının böyük rolunun olmasıdır.

VASİTƏÇİLİK QAYDASINDA AKSEPT – tədiyəçi aksept haqqında təklifi rədd etdikdən sonra həyata keçirilən əqdin mahiyyəti vekseli borclunun üçüncü şəxsə (veksel üzrə borcluya münasibətdə) ödəməli olduğu eyni şərtlər daxilində və eyni həcmdə ödəmək öhdəliyini öz üzərinə götürməkdən ibarətdir. Aksept veksel üzərində akseptin həyata keçirilməsini təsdiq edən müvafiq dərkənar ilə sənədləşdirilir.

VASİTƏÇİNİN DEQRESSİV MÜKAFATLANDIRILMASI – vasitəçiyə elə ödəniş üsuludur ki, bu zaman reallaşma həcminin dəyişilməsindən asılı olaraq mükafatın məbləği də dəyişilir.


VASİTƏLİ TƏCRÜBƏ – müəyyən vəziyyətlərdə iştirak təcrübəsi əldə etmək və ya həyat tərzini sınaqdan keçirmək mümkünlüyüdür ki, digər şəraitdə insanın buna imkanı olmur.

VAUÇER – 1. Özəlləşdirilən müəssisələrin səhmlərinin alınması üçün özəlləşdirmə prosesində verilən əmlak kuponu, özəlləşmə çeki. 2. Yazılı şəhadətnamə, tapşırıq zəmanəti və ya tövsiyədir. 3. Təhsil vauçeri təhsil haqqı kimi istifadə edilmək üçün şagirdlərin valideynlərinə dövlətin verdiyi pul sertifikatıdır.

Bir çox postsosialist ölkələrində bu dövlət qiymətli kağızı hər bir vətəndaşın payı kimi ictimai mülkiyyətin dövlətsizləşdirilməsi prosesində iştirak etmək üçün əhaliyə verilirdi. Çek, üzərində işarə edilmiş qiymətə malikdir. Rusiyada bu, 1992-ci ilin qiymətləri ilə 10000 rubl təşkil edirdi. O, satış hüququ olmadan, lakin miras hüququ ilə "adlı" (Çexiyada və Slovakiyada) və ya təkrarsatış hüququ ilə "təqdim edənə" (Rusiyada olduğu

kimi) formasında ola bilər. Vauçer, həmçinin, özəlləşmə çeki ilə əməliyyatların aparılması üçün səlahiyyətli olan investisiya fondlarının səhmlərinə mübadilə oluna, ya da digər fiziki və ya hüquqi şəxslərə satıla, hədiyyə edilə, yaxud miras (vərəsəlik) kimi verilə bilər. Vauçer RF-nin bütün ərazisində, verilmə yerindən asılı olmayaraq fəaliyyət göstərmişdir. Fəaliyyəti dövründə vauçer geniş satılmış, eyni zamanda birjalarda böyük miqdarda çeklər səhmlərə dəyişdirilmişdir. Lakin vauçerin bazar qiyməti heç bir zaman onun nominalına çatmamış, əksər hallarda yalnız onun yarısını təşkil etmişdir. Rusiyada çek özəlləşməsini uğursuz hesab etmək olar, belə ki, əsas çek kütləsini udan investisiya fondlarının əksəriyyəti öz fəaliyyətini dayandırmışdır. Onların yalnız bəziləri çeklərə alınmış səhmlərə xalis rəmzi dividendlər ödəyirdilər. Azərbaycanda vauçeri özəlləşdirmə payı (çekləri) əvəz edir.

VEBER ALFRED (1868-1958) – məşhur iqtisadçı Maks Veberın qardaşı Alfred Veber



iqtisad elmini yalnız "İstehsalın yerləşdirilməsi nəzəriyyəsi" kitabı ilə zənginləşdirmişdir ki, bu monoqrafiya hələ də istehsalın yerləşdirilməsinə həsr olunmuş ədəbiyyatlara təsir edir. Veberdən əvvəl Tünen və Launxardt iqtisad elminin ayrıca bir sahəsi kimi iqtisadi fəaliyyətin yerləşdirilməsi nəzəriyyəsini yaratmışdılar. Hər halda Veberin kitabını yerləşdirmə nəzəriyyəsi üzrə birinci uğurlu traktat adlandırmaq olar, çünki bu kitabın işıq üzü görməsi bu sahədə tədqiqatların artmasına və istehsalın yerləşdirmə nəzəriyyəsinin ayrıca ixtisaslaşdırılmış bir sahəyə çevrilməsinə səbəb olmuşdur. Veberin ərazilərin istehsal nöqteyi-nəzərindən istifadəsinə dair fikirləri bir çox aspektlərdə Launxardtın mülahizələri ilə üst-üstə düşmüşdür. Amma Veber nəzəriyyəsini davam etdirərək, öz təhlilini differensiallaşmış əmək xərcləri və differensiallaşmış nəqliyyat xərcləri ilə genişləndirərək, yeni terminologiyanı əlavə etmişdir – "aqlomerasiya üzrə qənaət", yəni ümumi xərclərin zavodların yaxın ərazilərdə aqlomerasiyası və ya təmərküzləşməsi hesabına azaldılmasıdır. Hətta istehsalın yerləşdirilməsi nəzəriyyəsində geniş istifadə olunan klassik "üç nöqtə problemi" (burada sənaye zavodunun istifadə etdiyi xammal iki fərqli məkanda, xidmət etdiyi bazar isə üçüncü məkanda yerləşir) Veberin traktatında Launxardta nisbətən daha sadə və daha ümumi qrafik analiz metodlarına əsaslanmışdır.

Tünenin üslubunu tamamilə təkrarlayaraq, Veber öz təhlilini iqtisadi fəaliyyətin yerləşdirilməsi üzrə xalis nəzəriyyə adlandırır və hesab edirdi ki, onun qurduğu model topoqrafik, iqlim, nəqliyyat texnologiyaları, onların idarəetmə keyfiyyəti və s. kimi amillərdən deyil və tamamilə nəqliyyat xərclərindən asılıdır.

Veberin ünvanına yönəldilən tənqidlər istehsalın yerləşdirilməsi üzrə tarixin şablon əsasını təşkil etmişdir. Onu həmişə tələbi nəzərə almadığına, subyektləri bütün iqtisadi məkana yaymaqdansa, bir nöqtədə təmərküzləşən istehlakçı və istehsalçı məsələsini daim diqqət mərkəzində saxlamasına, çəkidən və məsafədən xətti asılı olan nəqliyyat funksiyalarından istifadə etməsinə və nəhayət, xammalın və istehsal proseslərinin yalnız iqtisadi nöqteyi-nəzərdən izahına, yəni əmsallarla qiymətləndirilməsi və fiziki amilləri nəzərə almadığına görə günahlandırırdılar. Buna baxmayaraq, Veber ona yönələn tənqidin heç bir maddəsinə cavab verməmiş, onun ideyaları 20 il sonra tələbələri tərəfindən istifadə edilərək alman sənayesinin yerləşdirilməsinin təhlilində istifadə olunmuşdur.

VEBER MAKS (1864-1920) – məşhur sosioloq Maks Veber Marks və Dürkheymlə bərabər,



müasir sosiologiyanın banisi hesab olunur. Amma Maks Veber həm də ideal tiplərin və dəyərlərdən azad olan fikirlərin istifadəsini təklif edən iqtisadçı və kapitalizmin protestant mənbələrini araşdıran iqtisadçı-tarixçi kimi məşhur olmuşdur.

Maks Veber 1864-cü ildə Almaniyanın Erfurt şəhərində anadan olmuşdur. Heydelberq, Hettingen və Berlində orta məktəbə, universitetə getmiş, burada hüququ öyrənmişdir. 1886-cı

ildən hüquq sahəsində dərəcə aldıqdan sonra o, 1889-cu ildə İspaniya və İtaliyanın orta əsr ticarət şirkətləri haqqında dissertasiya yazmışdır və bundan sonra Roma aqrar tarix sahəsi üzrə kvalifikasiya rütbəsinə layiq görülmüşdür (1891). 1892-ci ildə Berlin Universitetinin hüquq fakültəsində ilk akademik vəzifəsini aldıqdan sonra, o, 1894-cü ildə Frayburq Universitetində, sonra isə 1896-cı ildə Heydelberq Universitetində iqtisadiyyat professoru vəzifəsinə layiq görülmüşdür.

Veber üçün səciyyəli baxışlar onun "Sosial və sosial-siyasi biliklərin obyektivliyi haqqında" (1906) və "Protestant etika və kapitalizmin ruhu" adlı məşhur tarixi tezislər kitablarında (1904-1905) öz əksini tapmışdır.

Veberin "Protestant etika və kapitalizmin ruhu" kitabı (daha məşhur Touninin interpretasiyasında "Din və kapitalizmin mənşəyi" adı altında, 1926) xüsusi maraq doğurur. Çox vaxt deyirlər ki, bu kitab Marksın nəzəriyyəsini alt-üst etmişdir. Çünki Veber hesab edirdi ki, kapitalizm texnologiyaların və siniflər arasındakı münasibətlərin dəyişməsinə görə yox, XVI-XVII əsrlərdə protestantizmin yayılması nəticəsində ideoloji elementlərin dəyişməsinə görə əmələ gəlmişdir. Əslində Veber Marksın nəzəriyyəsini inkar etməmişdir. O, sadəcə, iddia edirdi ki, Marksın nəzəriyyəsi çox bəsitdir və protestantizm kapitalizmin inkişafında stimullaşdırıcı rol oynayır. Əlbəttə, ola bilsin ki, elə protestantizmin özünün yaranmasını iqtisadi amillərə aid etmək olar, amma Veber bu cür mülahizələri səhv sayırdı.

Öz tədqiqat proqramını bitirmək üçün onun ömrü yetmədi və o, kitabında qarşısına qoyduğu fundamental suala cavab verə bilmədi. Həmin sualı isə belə ifadə etmək olardı: sənaye kapitalizminin əmələ gəlməsi üçün protestantizm kimi bir hadisə zəruri və ya sadəcə, kafi şərtdir.


VEBLEN PARADOKSU (EFFEKTİ) – əmtəənin qiymətinin dəyişməsi nəticəsində ona olan tələbin azalması zamanı yaranan hadisə. Belə ki, bəzi istehlakçılar qərara gəlirlər ki, bu əmtəənin keyfiyyətinin pisləşməsi nəticəsində baş vermişdir və həmin əmtəənin istehlakını azaldır. O əmtəənin qiyməti nə qədər aşağıdırsa, ona tələb bir o qədər çoxdur. Həmçinin elə dairələr də müşahidə olunur ki, burada əmtəənin istehsalının başlanması, tələbin genişləndiyi bahalı əşyaların alınması daha nüfuzlu sayılır.

Veblen paradoksu zamanı bazar tələbi əyrisi, adi şəraitdə gözlənilənə nisbətən üzən meylə malikdir və daha yuxarıya gedə bilər. Effekt iqtisad elmində institusionalizm nəzəriyyəsinin banilərindən biri olan ABŞ iqtisadçısı və sosioloqu T.Veblenin adı ilə bağlıdır.

VEKSEL (alm. *Wechsel* – mübadilə) – 1. Müstəsna olaraq sənədləşmiş formada mövcud olan borc, order, adlı, tədavül olunan, qeyri-emissiya kağızı. 2. Yazılı ödəmə vədi, yaxud borc təəhhüdü, kredit pulu növü. 3. Qanun formasında ciddi müəyyən edilmiş yazılı borc öhdəliyi. Bu borc öhdəliyi kreditora (veksel sahibinə) borclu (veksel verən) tərəfindən vekseldə göstərilən pul məbləğinin vaxtı çatdıqdan sonra ödənilməsini tələb etmək hüququ verir. 4. Orderli qiymətli kağız olub, veksel verənə onun vasitəsilə müəyyən şəxsə müəyyən məbləğ ödəmək barəsində başqa şəxsə (ödəyiciyə) göstəriş verir (köçürmə vekseli), yaxud hər hansı müəyyən şəxsə və ya bu şəxsin sərəncamına müəyyən məbləğ ödəməyi öhdəsinə götürür (sadə veksel).

Veksel vekseldə göstərilən müəyyən məbləğin (veksel məbləğinin) vekselin qanuni sahibinə (veksel sahibinə), vekseldə ifadə olunanın tədiyəçi tərəfindən veksel üzrə tədiyənin ödənilməsinin şərtsiz öhdəliyidir. Vekselin iqtisadi təbiəti ya onun bilavasitə pul formasında, ya da əmtəə krediti formasında borc (istiqraz) münasibətlərinə xidmət sferasında meydana gəlir. Veksel üzrə tədiyəçi pul vəsaitlərini cəlb edir və ya vekselin fəaliyyət göstərdiyi müddətdə əmtəə krediti alır. Ötürücü yazının (indossamentin) köməyilə, eləcə də kreditin alınması üçün girov aləti kimi öz kreditorlarına vekseli ötürərək veksel sahibi özünün pul öhdəliklərini vekselə ödəyən zaman, veksel öhdəliyinin mücərrədliyi və şərtsizliyi vekseli əlverişli tədiyə vasitəsinə çevirir. Vekseli bank vasitəsilə sataraq onu pula çevirmək olar (bu əməliyyat vekselin uçotu adlanır). Vekselin göstərilən keyfiyyətləri həm onun rekvizitlərinin dəsti kimi, həm onların məzmunu kimi, həm də onun tədavülü ilə bağlı qaydalar kimi vekselin ciddi formalaşmasını tələb edir. Formalaşma 1930-cu illərdə beynəlxalq müqavilələrlə müəy-

Vekselların təsnifatı




Sxem 1

yən edilmişdir. Bu qaydalardan kənarlaşma ən yaxşı halda vekselə borc qəbzi gücü (hüququ) verməklə vekseli veksel qabiliyyətindən məhrum edir. Vekselin ən geniş yayılmış iki növü fərqləndirilir: sadə və köçürmə. Sadə veksel veksel verənin vekseldə işarə edilən müddətdə vekseldə göstərilən məbləğin qanuni veksel sahibinə ödədiyi öhdəliyidir. Köçürmə vekseli (yaxud tratta) tədiyəçinin vekselində vekseldə ifadə olunan müddətdə vekseldə göstərilən məbləğin qanuni veksel sahibinə ödənilməsinin göstərildiyi öhdəlikdir. Köçürmə vekseli bir qayda olaraq, öz kreditor borcunu ödəmək üçün veksel üzrə tədiyəçinin kreditoru tərəfindən tərtib edilir (başqa sözlə, veksel verən veksel üzrə öz kreditor borcunu tədiyəçiyə köçürür). Veksel üzrə tədiyəçinin öhdəliyi onun apardığı veksel aspektində ifadə olunur (vekseldə müvafiq yazıya uyğun yazılı formada ifadə olunan ödəniş razılığı). Vekselə görə tədiyə üzrə zamin kimi üçüncü şəxs – avalçı çıxış edə bilər (onun zəmanəti vekseldə müvafiq yazı – aval qoyulması ilə ifadə olunur).

VEKSEL, ADİ – veksel verənin vaxtı çatana qədər veksel sahibinə (veksel saxlayana) müəyyən məbləğdə pul ödəmək üçün sözsüz pul öhdəliyini təsdiq edən qiymətli kağız.

VEKSEL AKSEPTİ – akseptantın vekselin ödənilməsinə veksel üzərində müvafiq qeyd şəklində rəsmiləşdirilən razılığı. Aksept, ilk növbədə, trattalarla (köçürmə veksellərlə) bağlıdır. Adi veksellərdən fərqli olaraq, adətən borcalan tərəfindən deyil, kreditor tərəfindən təqdim edilir. Bəzi hallarda trassant (köçürmə vekselin saxlayıcısı) borc pul götürdükdən sonra tratta verir. Həmin trattaya əsasən remitent (vekselin köçürüldüyü şəxs) aksepti, sonra isə trassantın hesabı açılmış bank tərəfindən

Vekselverənin krediti



1. Müştəriyə vekselin (bank vekseli və ya veksellər paketinin) əldə olunması üçün kredit xəttinin açılması və veksellərin verilməsi.
2. Veksellərin indossasiyası.
3. Həvalə indossamenti.
4. Vekselin inkassasiya üçün banka verilməsi.
5. Kreditin ödənilməsi.
6. Veksel saxlayanın bankı tərəfindən vekselin inkassasiya olunması.
7. Qalığın nəzərə alınması şərti ilə müştərinin bankı tərəfindən vekselin ödənilməsi.

Sxem 1

vekselin ödənişini ala bilər. Bank aksepti olan veksellər ödəniş üçün daha yaxşı qəbul edilir. Bu isə həmin sənədlərin dövriyyə sahəsini genişləndirməyə şərait yaradır. Akseptant ödənişin hansı şəxsin olduğu yerdə aparılmalı olduğunu göstərmək hüququna malikdir. Akseptdən imtina edilməsi veksel protesti şəklində sənədləşdirilir.

VEKSEL AUKSİONU – əvvəlcədən təsdiq edilmiş cədvəl üzrə xəzinə veksellərinin pərakəndə satışı. Məsələn, ABŞ-da bu cür satış xəzinə veksellərini almaq arzusunda olanların verdiyi sifarişlər əsasında həyata keçirilir.

VEKSEL, BLANKLI – benefisiarın adı göstərilməyən veksel.

VEKSEL, BODMEREYLI – gəmi və ya yük girov qoyulan veksel.

VEKSEL BORCU – bankla borclu arasında münasibət nəticəsində borclu bankdan vekselini mülkiyyətinə alır və müqavilədə göstərilən müddət keçdikdən sonra bankın vekselini borc məbləğində faizləri ödəməklə qaytarmağı öhdəliyinə götürür.

VEKSEL BROKERİ (bill-broker) – vekselsaxlayanlardan veksellər alıb bank müəssisələrinə və uçot evlərinə satan, yaxud ödəniş vaxtınadək özündə saxlayan broker, veksellərin uçotu və yenidən uçota alınması üzrə əqdlərdə vasitəçi. Veksel brokerlərinin xidmətindən Böyük Britaniyada daha çox istifadə olunur. Lakin orada da onların rolu azalmaqdadır. Belə ki, orada veksellərin uçotu və yenidən uçota alınması əsasən banklar və uçot idarələri tərəfindən həyata keçirilir.

VEKSEL, DEPOZİTƏ QOYULMUŞ – krediti təmin etmək üçün verilmiş veksel.

VEKSEL DÖVRİYYƏSİ – veksellərin dövriyyədə pul sənədləri kimi hərəkəti, iki şəxs arasında veksel hesablaşmalarının zəruriliyi ilə əlaqədar olaraq bir əldən başqa ələ keçməsi. Veksellərin emitentləri rəsmi tanınmış bütün təsərrüfat subyektləri ola bilərlər.

Veksellərin yüksək dövriliyi qarşılıqlı hesablaşma və ödəməmə problemlərini həll etmək imkanı yaradır. İndossament-

lərin sayı heç nə ilə məhdudlaşdırılmadığı üçün likvidliyi kifayət qədər yüksək olan vekseller qısa müddət ərzində ödəmələri vekselərin nominalından on dəfələrlə artıq məbləğdə ixtisar edə bilər. Kontragentlərə, yerli büdcəyə və dövlət büdcədənkənar fondlarına olan borclar vekseller ilə ödənilir.

Fond (o cümlədən, birja) meydançalarında vekselərlə sərbəst ticarət, daimi veksel auksionlarının keçirilməsi vekselərin geniş yayılmasına təkan vermişdir. Korporativ vekselərin üstünlüyü ondadır ki, vergi xidmətləri onları puldan fərqli olaraq, borclara görə dərhal hesabdan silə bilmir. Vekselləri girov qoymaq, yeni yaranan müəssisənin nizamnamə kapitalına üzvlük haqqı kimi daxil etmək mümkündür. Onları bankda hesaba almaq, yəni banka satmaq olar.

Veksel əməliyyatları

Vekselərlə müxtəlif əməliyyatlar aparılır:

Domisilləmə. Bu, bankda əvvəlcədən əldə olunmuş razılığa görə daimi yaşayış yerini göstərən müştərinin (vekselverənin) tapşırığı ilə vekselin ödənilməsidir.

İnkassoetmə. Bu, müəyyən vaxtda veksel üzrə ödənilməli tədiyələrin alınmasına dair vekselsaxlayanın tapşırığının yerinə yetirilməsidir.

Vekselərin diskontu. Bu, onların bankda hesaba alınması (uçotu), qəbul edilməsi, satın alınmasıdır. Bu zaman bank uçot haqqı alır.

Forfeytləşmə, yəni veksel borclarının alınması. Bu zaman veksel saxlayan vekselin üzərində alıcı üçün yazdığı barat qeydində belə bir qeyd-şərt də edir: "Mənə qaytarılmaması şərti ilə". Vekselərin deponentləşməsi, yəni saxlanması üçün ixtisaslaşdırılmış maliyyə-kredit və investisiya təsisatlarına verilməsi.

Veksel dövriyyəsinin şərtləri

Effektiv veksel dövriyyəsi üçün aşağıdakı şərtlər tələb olunur:

– veksel üzrə borcun operativ alınması sistemi və veksel mübahisələrinə baxılmasının effektiv sistemi;

– veksel iddialarına baxılması və ödənməmələr üzrə cərimələmə prosedurunun sürətləndirilməsi üçün veksel məhkəmələrinin yaradılması;

– korporativ borc öhdəliklərinə xidmət üzrə veksel mərkəzlərinin (maliyyə vasitəçiləri qismində) fəaliyyəti və s.

VEKSEL, ENDİRİMLƏ ALINMIŞ – nominal qiymətə endirimlə alınmış veksel. Bu, məsələn, xəzinədarlıq, bank vekseli və s. ola bilər.

VEKSEL, ETİRAZ EDİLMİŞ – borclunun ödənişdən imtinasının veksel saxlayan tərəfindən notarial təsdiq edən veksel. Ödəmə günündən əvvəl bir neçə gün ərzində imtinanın vaxtında baş verməsi veksel saxlayana baş borclu üçün məsuliyyət daşıyan bütün şəxslərə iddia irəli sürməyə imkan verir.

VEKSEL GÖZƏLLİYİ – veksel üzrə müddəti keçdikdə ödəniş vaxtının uzadılması.

VEKSEL HÜQUQU – veksel dövriyyəsinin və veksel münasibətlərini nizamlayan hüquqi normaların cəmi. Veksel ciddi forması olan sənəddir. Vekselin forması, onun ödənişə təqdimi, ödənişi, dövriyyəsi qaydası, tərəflərin hüquq və vəzifələri və veksellə bağlı bütün başqa hüquqi münasibətlər (məsələn, akseptdən və ya ödənişdən imtina halında iddia irəli sürmə qaydası) veksel qanunvericiliyi ilə tənzimlənir. Onu da nəzərə almaq lazımdır ki, vekselərlə bağlı hər hansı bir şərt veksel normativ aktlarında qeyd olunmamışdırsa, etibarsız (yazılmamış) hesab edilir.

Hər hansı bir vacib rekvizitin olmaması vekseli, sadəcə, öhdəliyə və ya yazılı tapşırığa çevirərək, onu veksel qüvvəsindən məhrum edir (xüsusi şərtləşdirilmiş hallar istisna olmaqla). Vekselin spesifikliyi ondadır ki, onunla əməliyyatlar xüsusi, faktiki olaraq beynəlxalq veksel qanunvericiliyi, məsələn, 1930-cu ildə qəbul olunmuş Cenevrə Konvensiyası ilə tənzimlənir. Veksel qanunvericiliyinin uyğunlaşdırılması məqsədi ilə BMT-nin Beynəlxalq ticarət hüququ üzrə komissiyası çərçivəsində iş aparılır.

Veksel qanunvericiliyinin funksiyaları:

Ümumiləşdirici veksel qanunu veksel qanunlarının uyğunlaşdırılmasına və beynəlxalq hesablaşmalarda vekselərdən istifadə olunarkən qarşıya çıxan çətinliklərin aradan qaldırılmasına yönəldilmişdir və əksər ölkələrdə milli qanunvericilik üçün baza rolunu oynayır.

Veksel qanunvericiliyi vekselərin uçot və dövriyyəsini, vekselərlə əməliyyatları tənzimləyir.

Veksel qanunvericiliyi veksel dövriyyəsi terminologiyasını, "indossament", "vekselverən", "indossant", "akseptant", "aval-

çı" və s. kimi anlayışları müəyyənləşdirir.

VEKSEL, XARİCİ – ölkənin bankları tərəfindən onların xarici müxbirləri (xarici banklar) üçün verilən bank vekseli.

VEKSEL, İNDOSSİR EDİLMİŞ – əks tərəfində ötürücü yazı olan veksel.

VEKSEL, İNDOSSAMENTSİZ – əks tərəfindən ötürücü yazı olmayan veksel.

VEKSEL, İNKASSASİYA – banka borc çıxarmaq məqsədilə verilmiş veksel. Məbləğ müştəri hesabına debitor tərəfindən borc ödənildikdən sonra (inkassasiya) akkreditə olunur.

VEKSEL, İNKASSO ÜÇÜN – hesab prosedurları – inkasso əməliyyatları nəzərdə tutulan veksel.

VEKSEL İNTİZAMI – veksel öhdəliklərinin dəqiq yerinə yetirilməsi qaydalarının məcmusu.

VEKSEL, İPOTEKA ÜÇÜN – ipoteka kreditini və ya onun faizlərini ödəmək üçün yazılı öhdəlik; bu kağız rolunu sadə veksel oynaya bilər, burada borcun əsas məbləği, faiz dərəcəsi, ödəmə şərtləri göstərilir, kreditin təmin edilməsi üçün mülkiyyət hüququ verilir.

VEKSEL KİTABÇASI – dərhal ödəmə üçün universal vasitə olaraq kitabça (broşura) şəklində hazırlanan veksellər. Veksel kitabçası dövriyyəyə buraxılır və kommersiya bankları tərəfindən satılır. Hər kitabçada müəyyən sayda veksel olur və hər vekselin məbləği onun sahibi tərəfindən müəyyən edilir. Müştərilərin hesablaşma hesablarından bütün vəsait belə kitabçaların alınmasına yönəldilə və veksellərə döndərilə bilər. Veksel kitabçalarının üstünlüyü ondadır ki, hesablaşma hesablarındakı vəsaitlərdən fərqli olaraq, bank veksel məbləğinə faiz hesablayır. Veksellərlə hesablaşmalar da bank sistemindəkindən daha sürətlə aparılır.

VEKSEL, KLOUZLAŞDIRILMIŞ – ödənilməsinin xüsusi şərtləri göstərilən veksel.

VEKSEL, KOMMERSİYA – borclu tərəfindən mal girov qoymaqla verilən veksel.

VEKSEL, KOMPLEKTDƏ – bir və ya iki dublikatla buraxılan veksel. Birinin ödənilməsi digərlərini ləğv edir. Veksellərin hər birində eyni nömrə mövcuddur, qəbul üçün isə yalnız bir nömrə lazım olur. Əgər trassat bir vekseldən artıq qəbul edərsə, bunun üçün məsuliyyət daşıyır.

VEKSEL KREDİTİ – bank tərəfindən vekselsaxlayana, yəni veksel üzrə pul alacaq şəxsə vekseldə göstərilən məbləğin vaxtından əvvəl verilməsi. Bu zaman vekselin uçota alınması anından tədiyə müddətinədək faizlər, habelə bank komissiyasının məbləği çıxılır. Vekselsaxlayan bu cür veksel krediti alarkən veksel üzrə hüquqlarını indossament vasitəsilə banka verir.

Veksel kreditinin zəmanətləri

Borc alanın vekselinin təminatı qismində aşağıdakılar qəbul edilir:

– bankların və maliyyə strukturlarının zəmanətləri;

– sığorta öhdəlikləri;

– dövlət idarəetmə orqanlarının zəmanətləri;

– dövlət və bələdiyyə qiymətli kağızları, istiqraz vərəqələri;

– borcalanın mülkiyyətində olan səhmlər və qiymətli kağızlar;

– borcalanın daşınmaz əmlakı və əmlak hüquqları;

– borcalanın xidmətlərinə görə ödəniş;

– anbar və mal idarəetmə sənədləri ilə təsdiq olunmuş əmtəə aktivləri;

– operatorun kifayət hesab etdiyi başqa təminat formaları.

Kreditorun hüquqları

– borcalandan borc müqaviləsi üzrə zəruri sənədləri, borcalanın vekselinin gəlir səviyyəsinin göstərilməsini tələb etmək;

– borcun təminat obyektlərinin likvidliyi təsdiq olunmadığı halda borcun verilməsindən imtina etmək;

– borcalanın vekselinin birja və birjadankənar dövriyyəsini təşkil etmək;

– borcalanın razılığı ilə və ya borcalan borc müqaviləsinin şərtlərini pozduqda onun veksellərinin alqı-satqısını həyata keçirmək və s.

Borcalanın hüquqları

– girovun verilməsi başa çatanadək vekselləri borcalanın bankında "depo" hesabında öz məsuliyyəti altında saxlamaq;

– bilavasitə baş operatorlarla müqavilələr bağlamaq;


– borcalanın təmin olunmuş veksellərinin satışı barədə operatorlarla forvard kontraktları bağlamaq;

– ödənməmələrin ləğvi üzrə proqram tədbirləri birgə yerinə yetirildiyi hallarda operatorlardan muzd almaq.

VEKSEL KURSU – xarici vekselin yerli valyuta ilə qiyməti.

VEKSEL "QISA" – təqdim edildiyi zaman ödənilən və ya qısa müddət ərzində (10 gündən artıq olmayaraq) ödənilən veksel.

Veksellə bank krediti



1. Ödəniş müddəti "dəqiq vaxtında təqdim olunması ilə" və ya "təqdim olunan andan müəyyən gün ərzində" və ya "təqdim olunan vaxt" (vekselin verilməsindən ən çoxu 1 il)
2. N – vekselin nominalı
   D1–Dn – diskont

Sxem 1

VEKSEL, QISAMUDDƏTLI – tələb üzrə ödənilməli və ya çox qısa müddət ərzində ödənilməli veksel.

VEKSEL, MƏHSUL – gəminin reys zamanı istifadə üçün göyərtəyə götürdüyü bütün yüklərin siyahısı. Bu siyahı gömrük nümayəndələrinə gömrük təmizləməsi üçün təqdim edilməlidir.

VEKSEL MÜDDƏTİ – depozit və ya borcun ilkin müddəti; svopun davamlılığı, müddəti, yəni svop razılaşması üzrə ödənişlərin həyata keçirildiyi müddət.

VEKSEL, MÜƏYYƏN EDİLMİŞ MÜDDƏTƏ – tələblə deyil, qabaqcadan müəyyən edilmiş tarixdə ödənilən köçürülən veksel. Köçürülmə vekselinin ödənilməsi üçün, adətən, üç gün ayrılır.

VEKSEL, NƏZƏRƏ ALINMIŞ – veksel saxlayandan bank və ya ixtisaslaşmış maliyyə müəssisəsi tərəfindən, ödəmə müddəti keçənə qədər alınmış veksel. Satıcıya uçot (diskont) dərəcəsi çıxmaqla vekselin məbləği ödənilir.

VEKSEL NİŞANI – köçürmə vekselinin rekvizitlərindən biri, "veksel" adı, sənədin tərtib edildiyi dildə yazılır.

VEKSEL, ÖDƏNMƏSİ ETİRAZ OLUNMUŞ – vaxtında (təcili ssuda üçün) və ya birinci tələbdən (tələb olunana qədər ssuda üçün) ödənilməyəcək məcburi veksel.

VEKSEL PORTFELİ – məlum anda bankın və ya müəssisənin sərəncamında olan veksellərin məcmusu.

VEKSEL REKVİZİTLƏRİ – veksel qanunvericiliyinə uyğun olaraq, vekseldə hökmən olmalı ünsürlər (rekvizitlər).

Cenevrə Konvensiyasına uyğun olaraq vekseldə hökmən aşağıdakı rekvizitlər olmalıdır:

– veksel nişanı – sənədin mətnində "veksel" adı;

– müəyyən məbləğin ödənilməsi barədə əmr və ya qeyd-şərtsiz öhdəlik;

– tədiyəçinin və birinci veksel-saxlayanın adı;
– tədiyə müddətinin göstərilməsi;
– tədiyə yerinin göstərilməsi;
– remitentin adı;
– sənədin tərtib edildiyi tarixin və yerin göstərilməsi;
– vekselverənin imzası.

Veksel qanunvericiliyində xüsusi göstərilmiş hallardan başqa, bu rekvizitlərin olmadığı sənəd veksel qüvvəsinə malik olmur. Məsələn, vekselin tədiyə müddəti göstərilməyibsə, hesab olunur ki, o, təqdim edildikdə ödənilməlidir. Xüsusi göstəriş olmadıqda tədiyəçinin adının yanında göstərilən yer (sənədin tərtib edildiyi yer) tədiyə yeri və tədiyəçinin (vekselverənin) daimi yaşayış yeri hesab edilir. Tərtib edildiyi yerin göstərilmədiyi veksel vekselverənin adının yanında göstərilmiş yerdə imzalanmış hesab olunur. Bununla yanaşı, vekseldə veksel qeyd-şərtləri – mətndə göstərilən xüsusi hallar haqqında qanunda nəzərdə tutulmuş qeydlər ola bilər.

VEKSEL REQRESSİ – veksel üzrə birgə məsuliyyət daşıyan əvvəlki indossantlara və veksel saxlayıcısına qarşı əks tələb irəli sürmək hüququ; protest edilmiş vekseli ödəmiş indossant tərəfindən veksel üzrə birgə məsuliyyət daşıyan əvvəlki indossantlara və veksel verənə qarşı əks tələb irəli sürmək hüququ.

VEKSEL SAXLAYAN – vekseldə göstərilən pul məbləğini almaq hüququ olan veksel sahibi. Bu zaman vekseldə alan kimi göstərilən şəxs birinci veksel saxlayan (remitent) adlanır. Veksel ötürülərkən qanuni veksel saxlayan şəxs fasiləsiz indossament sırasında öz hüququnu əsaslandırandır. Əgər veksel saxlayan vekseli əldə edərkən kobud səhvə yol vermişsə, bu zaman onu əvvəlki sahibinə qaytarmalıdır.

VEKSEL, SAXTA – saxta, həqiqiyə uyğun olmayan, hər hansı müəyyən məqsədlə (fırıldaq) istifadə edilən veksel.

VEKSEL, SƏNƏDLƏŞDİRİLMİŞ – əsasında tərtib olunduğu mala sərəncam verən sənədlərlə müşayiət edilən bank vekseli.

VEKSEL, SƏNƏDSİZ – veksel tələbi hüququnun qurulması borclu (veksel verən) tərəfindən kreditora (birinci veksel saxlayana) köçürmə və ya sadə vekseller kimi tanınan, lakin veksel saxlayanın müəyyənləşdirilmiş pul məbləğinin sənədsiz formada almaq tələbi olan yazılı sənədin faktiki verilməsi baş verə bilər. Bu zaman veksel saxlayanın veksel üzrə ödəmə məbləğini almaq hüququnun verilməsi, həmçinin, bu hüququn indossament nəticələri ilə güzəşt edilməsi köçürmə və ya sadə veksel kimi tanınan ayrıca yazılı sənəd göstərilmədən həyata keçirilir.

VEKSEL, SƏRƏNCAMLA ÖDƏNİLƏN – alanın adı qeyd edilmişsə və vekselin verilməsinə məhdudiyyətlər qoyulmamışsa, bu halda veksel ödənməlidir.

VEKSEL, TERSİYA – köçürmə vekselinin sahibinə (veksel verənə) öhdəliyin vaxtı keçdikdə borcludan vekseldə göstərilən pul məbləğini tələb etmək hüququ verən üçüncü nüsxəsi.

VEKSEL, TƏCİLİ – ödəmə müddəti qeyd olunan veksel.

VEKSEL TƏDAVÜLÜ – tədavül sferasında pulu əvəz edən vekselərin hərəkəti. Kommersiya krediti əsasında yaranaraq, veksel tədavülü onun çərçivəsini genişləndirir. Həmçinin, kommersiya kreditinin tətbiqini birbiri ilə bilavasitə bağlı istehsalın ayrı-ayrı sahələri arasında münasibətlər çərçivəsində kənara yayır. Lakin veksel ancaq qarşılıqlı tədiyə qabiliyyətindən xəbərdar olan məhdud dairədə tədavül edə bilər. Veksel tədavülünün bu məhdudiyyəti şəxsi kommersiya vekselərini bank biletləri ilə əvəz etməyi zəruri edir.

VEKSEL, TƏLƏB OLUNANA QƏDƏR – təqdim edilən, o cümlədən mala sərəncam verən sənədlərlə birlikdə təqdim edilən veksel.

VEKSEL TƏNƏZZÜLÜ – şikayət vekselini ödəmiş indossant tərəfindən özündən əvvəlki, veksel üzrə birgə məsuliyyət daşıyan indossantlara və veksel verənə əks tələb hüququ.

VEKSEL, ÜNVANLI – yeni sahibinin adı göstərilən köçürmə veksel.

VEKSEL, VALYUTA – veksel verənin veksel saxlayana xarici valyuta ilə müəyyən məbləğ ödəmək öhdəliyini nəzərdə tutan bank vekseli; xüsusi uçot kitabında qeydiyyatdan keçməlidir; rezidentlər sərəncamlarında olan valyuta vəsaitləri hüdudunda və ya rublun birinci sinif valyutasına konvertasiyasından sonra valyuta vekselləri əldə edirlər; yüksək likvidli qiymətli kağızdır; müddətlər adətən banklar tərəfindən geniş diapazonda

göstərilir ki, bu da potensial alıcılara özləri üçün bu və ya digər məqsədlərindən asılı olaraq yararlı müddət seçməyə imkan verir; bu zaman veksellər üzrə faizlər banklar tərəfindən hər ay ödənilir və ya reinvestisiya olunur.

VEKSEL YARMARKALARI – vaxtaşırı təşkil olunmuş qiymətli kağız – veksel bazarları. Bu, yarmarkalarda təqdim olunan veksellər yarmarka tələblərinə uyğun olmalıdır.

VEKSEL, YERLİ – öhdəlikləri həmin ölkə rezidentinin üzərinə qoyulan veksel.

VEKSEL, ZƏMANƏTLİ – veksel verənin veksel saxlayandan vekseldə göstərilən məbləği almadan təsərrüfat sazişini təmin etmək üçün verdiyi veksel.

VEKSELLƏR, ƏMTƏƏ ÜÇÜN – borcluya əmtəə, dəyərlər və xidmətlərə müvafiq kompensasiya aldığını təsdiq edən veksel.

VEKSELLƏRİN UÇOTU – veksel dövriyyəsinin əsas elementi. Veksellərin uçotu ödəyici müəssisələr üzrə, alınmış məbləğlər və trattalar, ödəniş müddəti çatmış veksellər üzrə və s. elementlərə görə aparılır. Veksellərin uçotu – ödəniş vaxtı çatana qədər vekselsaxlayan tərəfindən vekselin uçot təşkilatına verilməsi və onun müqabilində, veksel məbləğindən diskont məbləği çıxılmaqla, qalan məbləğin alınması. Veksellərin uçotunda ödəniş müddətlərinin ayrılması qiymətli kağızların hər bir növü üzrə iqtisadi cəhətdən əsaslandırılmış gəlirin məbləğini müəyyən etmək məqsədi güdür. Bundan əlavə, müddət amili veksellərin qısamüddətli və ortamüddətli maliyyə qoyuluşları şəklində fərqləndirilməsinə təsir göstərir və onların ödəniş üçün təqdim olunması anına qədər ayrıca uçotun aparılmasını tələb edir. Sadə veksellərin uçotunun təşkili veksel dövriyyəsinin mahiyyətini təşkil edən əsas göstəricilərə ciddi riayət edilməsini nəzərdə tutur. Bu cür göstəricilərə aşağıdakılar aiddir: ödəniş tarixi, vekselin yazıldığı müddət, ssuda faizi və faiz dərəcəsi, ödənişin məbləği və uçot dərəcəsi; uçota alınmış veksel üzrə ödəniş.

Veksel hüququ sistemində bu göstəricilərin hər birinin müəyyən əhəmiyyəti olsa da, əsas göstərici birincidir. Çünki o, vekselin ödəniş tarixi çatdıqda borclunun veksel üzrə ödənişi şərtsiz yerinə yetirmək öhdəliyini təsdiq edir.

Bütün bu informasiyanı tam həcmdə əldə etmək üçün mühasibatlıqda və ya qiymətli kağızlar bölməsində aşağıdakı uçot registrləri açılır: veksellərin uçotu kitabı (siyahısı); veksellərin təhvil-təsliminin qeydiyyat kitabı (siyahısı); veksellərin uçotu kartotekası. Uçot informasiyasının formalaşması dövriyyədə olan veksellərin hüquqi cəhətdən daha əsaslandırılmış şəkildə qiymətləndirilməsinə, onların iqtisadi cəhətdən etibarlılıq dərəcəsinin və veksel dövriyyəsinin səmərəliliyinin müəyyən edilməsinə şərait yaradır.

Diskont veksellərinin analitik uçotu vekselverənlər, veksellərin nominal dəyəri, onların ödənilmə müddəti və onların diskontlandığı bank müəssisələri üzrə aparılır. Azərbaycan Respublikasının Mərkəzi Bankı qısamüddətli öhdəliklər üzrə uçot faizini (diskontu) diskont siyasəti vasitəsilə tənzimləyir. Bank uçot faizinin qiymətini dəyişməklə vekselin məzənnəsini, qiymətlərin səviyyəsini, pul dövriyyəsini, sahibkar mənfəətini müəyyənləşdirir və son nəticədə sərbəst vəsaitlərin axınına, kredit müəssisələrinə təsir göstərir. Köçürmə veksellərinin uçotunda veksel dövriyyəsi iştirakçılarından birinin adına köçürülmə barədə qeyd nəzərə alınmalıdır. Vekselin ödənilmə müddəti çatdıqda, onu könüllü şəkildə ödəmədikdə veksel sahibi həmin vekseldən protest vermək hüququna malikdir. Veksel saxlayıcısı öz iddiasını indossantlara, veksel saxlayıcısına və tədiyə müddəti çatdıqda, ödəniş həyata keçirilmədiyi hallarda ödənişi yerinə yetirməli başqa şəxslərə qarşı yönəldə bilər. Əgər ödəniş tədiyə vaxtından əvvəl yerinə yetirilməmişdirsə, tədiyəçi və vekselverən müflisləşmişdirsə, akseptdən tamamilə və ya qismən imtina olunmuşdursa, veksel saxlayıcısı öz iddiasını həmin şəxslərə qarşı yönəldə bilər. Akseptdən və ya tədiyədən imtina edilməsi ümumi qaydada tərtib olunmuş aktla (akseptin və ya tədiyənin yerinə yetirilməməsindən protest) təsdiq edilməməlidir. Protest köçürmə vekselin ödənilməli olduğu tarixdən sonrakı iki iş gününün birində notariusa təqdim edilir. Notariat kontor vekseli protest üçün qəbul etdiyi gündə borcluya vekselin ödənilməsi və ya aksepti barədə tələb ünvanlayır. Protest lazımi qaydada icra edilmədikdə aşağıdakı

nəticələr yaranır: a) məhkəmə orqanları, barəsində protest verilmiş veksellərə əsaslanan iddialar üzrə məhkəmə qərarları çıxarmaq hüququna malikdir; b) adi vekselə görə iddosantların, köçürmə vekselinə görə – indossantların və trassantın məsuliyyəti yaranır; bu şəxslər veksel saxlayıcısı qarşısında birgə məsuliyyət daşıyırlar.

VEKSEL-PRİMA – köçürmə vekselinin ilk nüsxəsinin adı. Əgər veksel ilk əldə edənin xahişi ilə bir neçə nüsxə-nümunədə tərtib olunursa, trattada qeyd olunur. Bütün veksel nümunələri vahid vekseli təşkil edir, amma onların hər biri tam veksel öhdəliyinə malikdir.

VEKSELVERƏN – kreditora (vekselsaxlayana) vekselverən, bu veksel üzrə kredit alaraq, onu müəyyən müddətədək ödəməli olan borclu. Vekselverən və ya veksel üzrə ödəniş üçün hər hansı bir şəxsi göstərə bilər.

Veksel saxlayan vekselverənə qarşı tələblər irəli sürdükdə vekselverən aşağıdakıları ödəməyə borcludur:

1) akseptləşdirilməmiş və ya ödənilməmiş veksel məbləğini faizləri ilə (bu, şərtləşdirilmiş olduqda);

2) ödəniş müddətinin çatdığı gündən faizləri;

3) iddia üzrə çəkilən xərcləri və digər məsrəfləri;

4) ödəniş müddətinin çatdığı gündən penyaları.

VELFER (ing. *welfare* – rifah) – pul formasında sosial müavinət; ABŞ-ın sosial yardım sisteminə daxil olan sosial müavinətlərin məişətdə işlədilən adıdır. Bura həm pul transfertləri, həm də natura şəklində müavinətlər kimi müxtəlif səviyyələrdə büdcələrin vəsaitlərindən ödənilən müxtəlif müavinət növləri aiddir. Pul müavinətlərinə yoxsulluğa görə müavinətlər, ailə və uşaq müavinətləri, o cümlədən çoxuşaqlı ailələrə verilən müavinətlər, qiymət subsidiyaları və s. daxildir. Natura şəklində müavinətlər ərzaq yardımından başqa, pulsuz təhsil və səhiyyə xidmətlərini, xəstələrə və qocalara hamilik edilməsini ehtiva edir.

Amerika sosial yardım sisteminin əsasında ehtiyacı olmağın yoxlanması durur. Velferin təyinatı həm gəlirlərin, həm də əmlakın yoxlanmasını tələb edir. Velfer yalnız bütün mənbələrdən gəliri və ya əmlakı müəyyən səviyyəni xeyli ötən şəxslərə təyin olunur. Bu səviyyə (yoxsulluq həddi də adlanır) "istehlak səbəti"nə daxil olan bütün əmtəələr dəstinə əsasən təyin edilən yaşayış minimumu ilə müəyyən olunur. Velferin alıcısının gəliri artdıqca, onun ölçüsü azalır, gəlirin müəyyən səviyyəsinə nail olunması zamanı ödəniş dayandırılır.

VENÇUR BANK (ing. *venture bank*) – risk layihələrinin, məsələn, qeyri-müəyyən və ya vaxta görə müəyyən effektlə texniki işlərin kreditləşməsi üçün yaradılan bank; kredit resursları əsasən dövlətin haqları, eləcə də sponsor dəstəyi hesabına formalaşır; elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin uğurla başa çatması zamanı bank innovasiyaların tətbiqindən əldə olunan mənfəətdən müəyyən pay, təsisat gəliri alır.

VENÇUR FİRMASI (ing. *venture* – risk etmək, risk) – vençur kapitalının, yəni risk kapitalının institusionallaşma forması. Vençur firmasının məhsulu risklə bağlı olan müxtəlif innovasiyalardır: elmi araşdırmalar, texnologiyalar, yeni məhsulların istehsalının təşkili, marketinq. Vençur firması "elm-istehsalat" zəncirində xüsusi bir halqadır. Məhsulun inkişafının ilk pilləsi olan vençur firması elmi və ya texniki ideyanın seçilməsi, işlənib hazırlanması, sınaqdan çıxarılması, sonradan sənaye istehsalı mərhələsinə verilmək üçün nümunələr, modellər yaradılması ilə məşğul olur. Çox vaxt müəyyən məhsul üzərində işi başa çatdırdıqdan sonra firma öz mövcudluğuna xitam verir. Vençur firması daxil olan layihələrin yalnız yüzdə bir, bəlkə də mində bir hissəsini reallaşdırır. Çünki işlənilmək üçün qəbul edilmiş layihələrin 30-40%-nin zərərli olması aşkar edilir, vençur firmasının əksəriyyəti müflisləşir.

Adətən, vençur firmalar kiçik və orta innovasiya biznesinə aid edilir. Vençur firmaların potensialı elmtutumlu, texniki cəhətdən mürəkkəb sahələrdə daha yaxşı reallaşır. Bu sahələrdə o, iri şirkətlərin yüksək istehsal və maliyyə imkanları ilə vəhdətdə fəaliyyət göstərə bilər. Vençur firmaların fəaliyyəti üçün ən əlverişli sahələr məhsulun həyat tsiklinin böyük olmadığı sahələrdir (ABŞ-ın mikroelektronika sənayesində bu göstərici orta hesabla 4-5 il təşkil edir). Məhsul nomenklaturunun sürətlə dəyişməsi bəzi firmaların bir innovasiyadan başqasına keçməsinə imkan verir.

Müasir mərhələdə vençur fir-

malarının geniş yayılması elmi-texniki tərəqqinin (ETT) xarakterilə, iqtisadiyyatın strukturunun mürəkkəbləşməsi, onun dinamizminin güclənməsi və dövlətin dəstəyi ilə şərtlənmişdir. Vençur firmaları texnopolislərin, sahibkarların sahə və region şəbəkələrinin tərkib hissəsidir. Müstəqil vençur firmalarından əlavə, iri şirkətlərdə müvəqqəti vençur qrupları da (daxili vençur) təşkil edilir. Onlar hər hansı elmi-tədqiqat, istehsal və ya marketinq məsələsinin həlli üçün yaradılır.

VENÇUR KAPİTALI (ing. *venture* – risk etmək, risk) – risk kapitalı, texniki-texnoloji yeniliklərin kommersiyalaşması prosesinin prinsipcə yeni maliyyələşmə formasıdır, başqa sözlə, yeni texnika və texnologiyanın tətbiqi ilə bağlı biznes sahəsinə yönəldilən yüksək riskli kapitaldır. Vençur kapitalı həm mal-material formasında, həm də pul vəsaitləri və maliyyə aktivləri şəklində mövcud ola bilər.

Vençur kapitalı, firmalar tərəfindən müxtəlif xarici mənbələr, başlıca olaraq xüsusi sığorta şirkətlərindən daxil olan fondlar kimi formalaşır ki, bunlar da sonradan vençur şirkətlərində reallaşan məqsədli ideya və layihəyə investisiya kimi qoyulur. Vençur kapitalı əksər firmalar – yüksəkixtisaslı sahibkarlar, menecerlər tərəfindən yaradılan məhdud məsuliyyətli kiçik (3-5 nəfər) yoldaşlıqlardır. Vençur kapitalının bir hissəsi müstəqildir, digər hissəsi iri korporasiyalardan və maliyyə qruplarından törəmədir. Üçüncü hissəsi isə banklardan, sığorta şirkətlərindən və pensiya fondlarından ayrılmışdır. Vençur maliyyələşməsi forması ənənəvi büdcə maliyyələşməsindən və bank kreditləşməsindən fərqlənir, belə ki, kapital geriyə qayıtmadan investisiya olunur. İnvestorun marağı həm patentləşmiş, həm də patentləşməmiş (nou-hau), eləcə də uğur qazanan vençur şirkətlərin inkorporasiyalaşmasından əldə olunan təsisat mənfəətində yeniliklərin qazanılan hüququndan ibarətdir.

VENÇUR MALİYYƏLƏŞDİRMƏSİ – elmi-texniki araşdırmaların, kəşflərin, ixtiraların, kiçik və yeni şirkətlər tərəfindən aparılan hər hansı riskli, lakin perspektiv xarakter daşıyan yeniliklərin tətbiq edilməsinin kreditləşdirmə və maliyyələşdirmə forması və müvafiq mexanizmin elementi.

Banklar və kredit qurumları adətən, kredit riskinin minimum olduğu sahələrə üstünlük verir. Buna görə də yeni şirkətlərin kreditlərdən istifadə etmək imkanı həmişə məhduddur. Şirkətlərin mövcud olması müddətinə dair sərt tələblər (3-5 il), onun aktivləri, minimum emissiyasının həcmi, kiçik şirkətlərin öz qiymətli kağızları ilə fond bazarına çıxmalarına mane olan səhmlər buraxılması prosedura ilə bağlı tələbləri həmin şirkətlərin qiymətli kağızlar bazarına çıxmasını qeyri-mümkün edir. Bu vəziyyət kiçik tədqiqatlarla və tətbiq layihələri ilə məşğul olan firmaların fəaliyyətinin maliyyələşdirilməsi üçün vençur maliyyələşdirməsi normasının yaranmasına səbəb olmuşdur.

Pul kapitalı sahibləri ixtiraçılara və sahibkarlara ssudalar verərkən kredit müqabilində əmlakın girov qoyulması barədə iddialar təqdim etmək və ya onların dəqiq müəyyən olunmuş müddətdə öz yeniliklərini bazara çıxaracaqlarına, mənfəət əldə edəcəklərinə və borcun faizlə bərabər qaytarılacağına zəmanət vermələrini tələb edə bilməzlər. Kreditorlar ssuda kapitalı üçün səciyyəvi olan bütün maddələr üzrə öz kapitalını riskə məruz qoyur. Buna görə də bu cür riskin dərəcəsi ən yüksək hesab edilir.

Bununla bərabər, yüksək risk müqabilində öz kapitalını dövlətin qiymətli kağızları, sənaye müəssisələri və bankların səhmləri şəklində (zəmanətlə) yerləşdirməklə, birjada möhtəkirlik etməklə əldə edilə biləcək qazancdan qat-qat artıq gəlir əldə etmək imkanı yaranır. İnvestorlar riskin ən az olması üçün eyni vaxtda bir neçə firmaya iflasa uğramış firmaların düşdüyü zərər uğur qazanmış firmalar hesabına ödənilməsi üçün sərmayə qoyur. Risk kapitalının tətbiq etdiyi sığortalanma üsulu layihələrin mərhələlər üzrə maliyyələşdirilməsidir.

Vençur maliyyələşdirməsinin mahiyyəti kreditin borc qəbzləri (*veksel*) almaqla verilməsindən ibarətdir. Bu halda borc səhmlərə və ya yeni şirkətin səhmlərinin (ilk dövrlərdə bəlkə də ümumiyyətlə gəlirləri olmayan səhmlərin) alınmasına konversiya edilir. Vençur maliyyələşdirməsinin mənbələri: risk kapitalının qeyri-rəsmi bazarı, peşəkar vençur kapitalı. Peşəkar vençur kapitalı bazarı adətən peşəkar səviyyədə idarə edilən investisiya pulu şəklində çıxış

edir. 1958-ci ildə ABŞ-da müvafiq qanun qəbul edildikdən sonra kiçik müəssisələrin yaradılması və inkişafını maliyyələşdirmək üçün xüsusi kapitalı, dövlət vəsaitlərini özündə birləşdirən kiçik investisiya şirkətləri yaradılmağa başlanmışdır.

VERBAL MÜQAVİLƏ – hüquqi və ya fiziki şəxslər arasında şifahi şəkildə bağlanmış müqavilə. Ölkəmizin praktikasında bu cür müqavilələrin praktik hüquqi qüvvəsi yoxdur və onlar müqavilə tərəflərinin üzərinə yalnız etik öhdəliklər qoyurlar. Verbal müqavilələrin pozulması bütün dünyada biznesdə pis əlamət hesab edilir.

VERDİYEV ƏHMƏD ÇOBAN OĞLU (1940-2001) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. Ə.Verdiyev 1974-cü ildə namizədlik, 1989-cu ildə doktorluq dissertasiyası müdafiə etmiş, 1992-ci ildə professor adına layiq görülmüş, 1999-cu ildə Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq İnformatizasiya Akademiyasının akademiki seçilmişdir. O, kənd təsərrüfatı iqtisadiyyatının problemlərini tədqiq etmişdir.



Professor Ə.Verdiyevin elmi-tədqiqat miqyası geniş və rəngarəngdir. Azərbaycan milli aqrar iqtisad elminin nəzəri-metodoloji məsələlərinin öyrənilməsi; kənd təsərrüfatının inkişaf konsepsiyası, sahə strukturunun formalaşdırılması; məhsulun kapital, fond və material tutumunun müəyyənləşdirilməsi, təsərrüfatçılığın iqtisadi mexanizminin yaradılması, sahələrarası kooperasiya və inteqrasiya əlaqələri; sahibkarlığın inkişafı, rəqabətqabiliyyətli təsərrüfatların inkişaf parametrlərinin müəyyənləşdirilməsi; aqrar bazarın formalaşdırılmasının iqtisadi mexanizmi və s. Ə.Verdiyevin elmi araşdırmalarının başlıca istiqamətləri olmuşdur. Professor Ə.Verdiyevin rəhbərliyi və bilavasitə iştirakı ilə "Bazar iqtisadiyyatı şəraitində aqrar-sənaye kompleksi sistemində təsərrüfatçılığın iqtisadi mexanizminin formalaşdırılmasının elmi əsasları" işlənib başa çatdırılmışdır. Alimin apardığı tədqiqatlar nəticəsində kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılması, kənddə sahibkarlığın inkişafı, maliyyə-kredit münasibətləri və investisiya siyasəti, resurslar bazarı, aqroservis xidmətinin təşkilinə dair təkliflər və tövsiyələr hazırlanmışdır. Həmin təklif və tövsiyələrdən bu gün də aqrar-sənaye kompleksinin inkişafını tənzimləyən qanunçuluq bazasının yaradılmasında, hökumət tərəfindən müvafiq normativ-hüquqi aktların qəbulunda və Kənd Təsərrüfatı Nazirliyinin müvafiq struktur bölmələrinin idarəçilik fəaliyyətində istifadə edilir.

Professor Ə.Verdiyevin beynəlxalq layihələrlə birgə apardığı tədqiqatlar onun elmi fəaliyyətinin əsas istiqamətlərindən biri olmuşdur. O, Avropa Birliyi Şurasının TACİS proqramı üzrə "Müstəqil Dövlətlər Birliyi ölkələrində ümumi aqrar bazarın yaradılması" layihəsinin Azərbaycan Respublikası üzrə məsləhətçi qrupuna rəhbərlik etmişdir. Onun rəhbərliyi altında "Müstəqil Dövlətlər Birliyi ölkələrində kənd təsərrüfatı və ərzaq məhsulları ticarətinin möhkəmləndirilməsi prosesinin müdafiəsi" mövzusunda elmi-tədqiqat işi aparılmış, hazırlanmış təkliflər layihənin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdir.

Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyasının üzvü kimi professor Ə.Verdiyevin elmi fəaliyyəti də diqqətəlayiqdir. Onun bilavasitə iştirakı ilə "Azərbaycan Respublikası Dövlət Aqrar İslahatı Komissiyasının, Naxçıvan Muxtar Respublikası, rayon və yerli aqrar islahatı komissiyalarının əsasnamələrinin layihələri" və "Kənd təsərrüfatı müəssisələrində əmlakın bölünməsi və onun bir hissəsinin bələdiyyə mülkiyyətinə verilməsi qaydaları" hazırlanmış, bu çox mühüm sənədlərdən aqrar islahat prosesində respublikanın bütün kənd təsərrüfatı müəssisələrində istifadə edilmişdir.

Professor Ə.Verdiyev "1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair" və "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyinə dair" Dövlət proqramlarının layihələrini hazırlayan işçi qrupunun üzvü, həmin layihələrin icraçı müəlliflərindən biri olmuşdur.

Ə.Verdiyev təşəbbüskar, yenilikçi, yüksək elmi təşkilatçılıq qabiliyyətinə malik, səmimi, obyektiv, prinsipial insan kimi respublika və yaxın xarici

ölkələrin iqtisadçıları arasında hörmət qazanmışdır. O, 30 illik elmi və pedaqoji fəaliyyəti müddətində həmişə radio və televiziyada, həmçinin, respublika dövri mətbuatında dövlətin aqrar siyasətini təbliğ etmişdir. 130-dan çox elmi əsərin müəllifidir. Onun rəhbərliyi altında 28 nəfər elmlər namizədi hazırlanmışdır.

1993-2001-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun direktoru vəzifəsində işləmişdir.

VERGİ – dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədi ilə vergi qanunvericiliyi əsasında müəyyən edilmiş vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödəniş.

VERGİ ÖDƏYİCİSİNİN, ALICININ, SİFARİŞÇİNİN VƏ YA HƏR HANSI ŞƏXSİN ADI – hüquqi şəxsin dövlət qeydiyyatına alınmış adı, fiziki şəxsin adı, atasının adı və soyadı.

VERGİ AGENTİ – müəyyən edilmiş qaydada vergini hesablamağa, onu vergi ödəyicisindən tutmağa və təyinatı üzrə köçürməyə borclu olan şəxs. Vergi ödəyicisi ilə eyni hüquq və vəzifələrə malikdir. Həm hüquqi, həm də fiziki şəxslər vergi agenti ola bilər.

VERGİ CƏNNƏTİ – vergi ödənişinin həcmini azaltmaq üçün kapitalın köçürüldüyü ölkə. Əsasən xarici müəssisələri cəlb etmək üçün vergiləri tamamilə ləğv etmiş və ya çox cüzi miqdarda vergitutma tətbiq edən ölkələr, yaxud ölkələrin müəyyən əraziləri vergidən yayınma və ya vergiləri az ödəmək üçün əsl "cənnət"dir.

VERGİ ÇƏTİRİ – cari və gələcək gəlirləri zərərlərin həcmi qədər azaltmaq yolu ilə onları vergidən qorumaq üçün əvvəlki illərin zərərlərinin sonrakı illərə aid edilməsi.

VERGİ ÇIXILMAQLA FAİZ DƏRƏCƏSİ *(after-tax interest rate)* – gəlirdən vergi tutulandan sonra faiz dərəcəsi.

VERGİ FƏRQİ – vergiləri orta faizlər üzrə ödəyən təşkilatlarda vergilərin tam ödənilməməsi və ya artıq ödənilməsi nəticəsində yaranan məbləğ.

VERGİ GÜZƏŞTLƏRİ – vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarına az (digər vergi ödəyiciləri ilə müqayisədə) məbləğdə vergi ödənilməsi imkanının verilməsi, vergi ödəməkdən azad etmə və ya möhlət verilməsi. Vergi güzəştləri mövcud qanunvericiliyə uyğun olaraq müəyyən edilir. Vergi güzəştləri dövlət tərəfindən aşağıdakı məqsədlər üçün istifadə oluna bilər: elmi-texniki tərəqqinin stimullaşdırılması, perspektiv istehsal sahələrinin sürətli inkişafı üçün; ekoloji tələblərə riayət edilməsi zəruriliyi ilə şərtlənən müəssisənin maliyyə yükünün yüngülləşməsi üçün; cəmiyyətin aztəminatlı təbəqələrinə sosial yardım üçün; müəyyən demoqrafik siyasətin aparılması üçün.

Ümumiyyətlə, vergi güzəştləri verilən zaman işgüzar və istehsal fəaliyyəti həvəsləndirilir. Vergi güzəştləri təmənnalı (ödəmə), müddətli, bildiriş xarakteri daşıyır. Vergi güzəştlərinin verilməsi formaları: vergi bazasının və ya vergi məbləğinin azalması, vergi dərəcələrinin endirilməsi; vergi kreditinin daxil olduğu məqsədli vergi güzəştləri. Ən mühüm vergi güzəştlərindən biri vergiyə cəlb olunmayan minimumdur (vergi obyektinin vergidən tam azad olan hissəsi). Vergi krediti – müəssisə (təşkilat) tərəfindən investisiya layihəsinin həyata keçirilməsi və ya dövlət, hakimiyyət tərəfindən bu və ya digər tələblərin reallaşması ilə əlaqədar vergi tədiyəsinin möhlətlə verilməsi kimi vergi güzəştidir. Vergi xidməti (müfəttişliyi) və ya hakimiyyət orqanları ilə kredit sazişinin bağlanması formasında verilir: burada vergi kreditinin təqdim olunması ölçüləri və müddəti, onun geri qaytarılma şərtləri, o cümlədən kreditə görə faiz dərəcələri razılaşdırılır.

VERGİ HÜQUQ NORMASI – vergi sahəsində səlahiyyətli dövlət orqanları tərəfindən müəyyən olunan ümumi davranış qaydaları. Məhz bu normalar vergi öhdəliklərinin yaranması və həyata keçirilməsini tənzimləyir. Vergi norması olmadan vergi ödəmək vəzifəsi "qanunla müəyyən olunmuş" sayıla bilməz.

VERGİ HÜQUQU – qanunvericilik yolu ilə təsbit edilmiş hüquqi normaların, aktların məcmusu. Bu norma və aktlarda vergilərin növləri, onların tutulma qaydası, vergilər üzrə öhdəliklərin yaranması, dəyişməsi, bu öhdəliklərə xitam verilməsi ilə əlaqədar yaranan münasibətlər müəyyən edilir. Konkret ölkədə vergilərin növlərini, onların tutulma qaydasını müəyyən edir və vergi öhdəliklərinə

Azərbaycan Respublikasının Vergi Məcəlləsi ümumi və xüsusi hissədən ibarət olmaqla 17 fəsil və 221 maddədən ibarətdir:

I-VII fəsilləri əhatə edən ümumi hissədə respublikanın vergi sistemi, tətbiq olunacaq vergilərin növləri, vergi orqanları və onların vəzifəli şəxslərinin, vergi ödəyicilərinin və vergi agentlərinin hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət, vergilərin hesablanması və ödənilməsinin ümumi prinsipləri və şərtləri öz əksini tapır.

Məcəllənin xüsusi hissəsində, VIII-XVII fəsillərdə isə tətbiq olunan vergilər və onların ödəyiciləri, vergi tutma obyekti, verginin dərəcəsi, vergidən azadolmalar və güzəştlər, gəlirlərin və xərclərin uçotunun prinsipləri və qaydaları, vergilərin hesablanması və ödənilməsi qaydaları təsbit edilmişdir.

Ümumi hissə

Fəsil I. Ümumi müddəalar – 14*,
Fəsil II. Vergi ödəyicisi. Vergi agenti – 5,
Fəsil III. Dövlət vergi orqanları – 12,
Fəsil IV. Vergi nəzarəti – 21,
Fəsil V. Vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət – 9,
Fəsil VI. Vergi orqanlarının qərarlarından (aktlarından) və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət verilməsi – 3,
Fəsil VII. Vergilərin ödənilməsi üzrə ümumi qaydalar – 28,

Xüsusi hissə

Fəsil VIII. Fiziki şəxslərin gəlir vergisi – 8,
Fəsil IX. Hüquqi şəxslərin mənfəət vergisi – 4,
Fəsil X. Fiziki şəxslərin gəlir vergisinə və hüquqi şəxslərin mənfəət vergisinə aid olan maddələr – 45,
Fəsil XI. Əlavə dəyər vergisi – 29,
Fəsil XII. Aksizlər – 14,
Fəsil XIII. Əmlak vergisi – 7,
Fəsil XIV. Torpaq vergisi – 6,
Fəsil XV. Yol vergisi – 4,
Fəsil XVI. Mədən vergisi – 5,
Fəsil XVII. Sadələşdirilmiş vergi – 4.

* - fəsillərin qarşısında qeyd olunan rəqəmlər maddələrin sayını göstərir.

Cədvəl 1

Vergi indikatorları

Ölkə	Ölkənin reytinqi	Ümumi sayı	Korporativ vergilər	Əmək vergiləri	Digər vergilər
Azərbaycan	63	18	1	12	5
Ermənistan	120	34	7	7	20
Belarus	63	18	1	13	4
Gürcüstan	4	4	1	0	3
Qazaxıstan	11	7	1	1	5
Qırğızıstan	163	52	5	12	35
Latviya	11	7	1	1	5
Litva	40	11	1	2	8
Moldova	158	48	1	28	19
Rusiya	29	9	1	2	6
Tacikistan	178	69	11	12	46
Özbəkistan	138	41	8	12	21
Ukrayna	183	135	5	108	22
Estoniya	17	8	1	0	7

Dünya Bankının və Beynəlxalq Maliyyə Korporasiyasının hesabatlarına əsasən, Azərbaycanda vergi bəyannamələrinin tərtib və təqdim edilməsi, eləcə də vergi ödəmələrinin aparılması üçün qanunvericì normalara riayət olunmasına sərf edilən orta vaxt göstəricisi istər Mərkəzi Asiya və Şərqi Avropanın orta göstəricisini, istərsə də orta dünya göstəricilərini qabaqlayır





Cədvəl 2

Vergi indikatorları

İndikator	Azərbaycan	Avropa və Mərkəzi Asiya	Orta dünya göstəricisi
Vergi ödəmələri (sayı)	18	37,9	28,5
Vaxt (saat)	225	382	277
Mənfəət vergisi (mənfəətdən, %-lə)	12,9	9,9	16
Əmək vergiləri və əmək haqqından sosial ayırmalar (mənfəətdən, %-lə)	24,8	20,8	16,2
Digər vergilər (mənfəətdən, %-lə)	2,3	11,1	12,6
Ümumi vergi dərəcəsi (mənfəətdən, %-lə)	40	41,8	44,8

Cədvəl 3


Vergi öhdəliklərinin yerinə yetirilməsi müddətlərinə görə ölkələrin reytinqi

Ölkə	Ölkənin reytinqi	Ümumi sərf olunan müddət	Korporativ vergilər	Əmək vergiləri	Digər vergilər
Azərbaycan	96	225	64	101	60
Ermənistan	166	500	132	205	163
Belarus	172	654	398	100	156
Gürcüstan	152	387	140	67	180
Qazaxıstan	68	188	75	70	43
Qırğızıstan	83	210	60	71	79
Latviya	128	290	31	165	94
Litva	61	175	32	85	58
Moldova	98	228	80	88	60
Rusiya	128	290	130	96	64
Tacikistan	91	224	80	48	96
Özbəkistan	79	205	66	69	70
Ukrayna	175	657	112	364	181
Estoniya	16	85	20	34	31

Cədvəl 4

Gəlirlərdən ümumi vergi yükünə görə ölkələrin reytinqi

Ölkə	Ölkənin reytinqi	Ümumi vergi yükü	Korporativ vergilər	Əmək vergiləri	Digər vergilər
Azərbaycan	94	40	12,9	24,8	2,3
Ermənistan	100	40,9	16,8	23	1,1
Belarus	157	62,8	20,2	39	3,6
Gürcüstan	14	16,5	14,3	0	2,2
Qazaxıstan	41	28,6	15,9	11,2	1,5
Qırğızıstan	171	69	6,2	19,5	43,3
Latviya	86	37,9	6	27,2	4,7
Litva	115	43,9	5,7	35,1	3,1
Moldova	47	31,3	0	30,6	0,7
Rusiya	132	46,9	9	32,1	5,8
Tacikistan	176	84,5	0	28,5	5,6
Özbəkistan	178	97,5	1,1	28,2	68,2
Ukrayna	152	57,1	12,2	43,3	1,6
Estoniya	154	58,6	8	39,4	11,2



münasibətdə münasibətləri tənzimləyir. Beynəlxalq vergi hüququ xarici obyektlə vergi münasibətlərinin tənzimləndiyi beynəlxalq hüququn bölməsi, beynəlxalq-hüquqi prinsiplərin kompleksidir. Beynəlxalq vergi hüququnun əsas mənbəyi könüllü, bərabərhüquqlu, ümumi qəbul edilən norma və qaydalara zidd olmayan beynəlxalq müqavilədir.

VERGİ XƏRCLƏRİ – vergilər üzrə qanunda nəzərdə tutulmuş güzəştlər müəyyən edildikdən sonra dövlətin çəkdiyi xərclər.

VERGİ QANUNVERİCİLİYİ – Azərbaycan Respublikasının vergi qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Vergi Məcəlləsindən və onlara uyğun olaraq qəbul edilmiş Azərbaycan Respublikasının qanunvericilik aktlarından ibarətdir. Aşağıdakılar istisna olunmaqla, vergi qanunvericiliyindən başqa digər qanunvericilik aktlarına vergitutma və vergi nəzarəti məsələləri daxil edilə bilməz: Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan vergi münasibətlərinə aid inzibati xətalar haqqında müddəalar; Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan vergi cinayətləri haqqında müddəalar; vergi öhdəliklərinin üstünlüyü haqqında müflisləşmə və iflas haqqında qanunvericilikdə nəzərdə tutulan müddəalar; büdcə qanunvericiliyində vergilərlə bağlı müddəalar; vergilər üzrə dövlət təminatlarının və müddətli güzəştlərin verilməsi ilə bağlı müddəalar; hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan sazişlərdə və ya qanunlarda nəzərdə tutulan müddəalar; ixrac məqsədli neft-qaz fəaliyyəti və xüsusi iqtisadi zonalar haqqında qanunlarda nəzərdə tutulan müddəalar.

VERGİ LİMANLARI – öz ərazisində vergi (və digər) güzəştləri təqdimatı hesabına xarici ölkələrdən ssuda kapitallarını fəal cəlb edən dövlətlər, kiçik sahəli ərazilər.

Sayı 70-dən çox olan bu cür vergi limanlarına Antil və Baham adaları, Honkonq və s. daxildir. Xarici kapital bu cür limanlara çox vaxt hədsiz vergilərdən sığınacaq axtarışı nəticəsində yönəldilir.

VERGİ MƏCƏLLƏSİ – dövlətin ali hakimiyyəti səviyyəsində qəbul edilən, vergi ödəyiciləri ilə dövlət və yerli özünüidarə orqanlarının vergi münasibətlərini tənzimləyən qanun-

verici normaların ümumi toplusu.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi Azərbaycan Respublikasında vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydalarını müəyyənləşdirir. Bu məcəllə ilə, eyni zamanda Naxçıvan Muxtar Respublikasında və bələdiyyələrdə vergitutmanın ümumi əsasları və vergilər müəyyən edilir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi 2000-ci il 11 iyul tarixli qanunla təsdiq edilmişdir və 2001-ci il yanvarın 1-dən qüvvədədir. Bununla, əvvəllər tətbiq edilən 13 vergi növündən 9 vergi növü təsbit olundu. Əksər vergi növləri üzrə dərəcələr aşağı salındı, aksizə cəlb olunan malların siyahısı azaldıldı, aksizlər yalnız neft və neft məhsulları, tütün məmulatları və spirtli içkilərə aid edildi.

VERGİ MƏQSƏDLƏRİ ÜÇÜN QARŞILIQLI SURƏTDƏ ASILI OLAN ŞƏXSLƏR – aralarındakı münasibətlər fəaliyyətlərinin iqtisadi nəticələrinə və ya onların təmsil etdiyi şəxslərin fəaliyyətinə bilavasitə təsir göstərə bilən fiziki şəxslər və (və ya) hüquqi şəxslər.

VERGİ NƏZARƏTİ – vergi ödəyicilərinin və vergitutma obyektinin uçotuna, habelə vergi qanunvericiliyinə riayət olunmasına vahid nəzarət sistemi. Vergi orqanları vergilərin tam və vaxtında yığılmasını təmini məqsədilə vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotunu aparmaqla, uçot və hesabat məlumatlarını yoxlamaqla, vergi ödəyiciləri və digər şəxslər arasında sorğu aparmaqla, gəlir əldə etməklə istifadə olunan binalara baxış keçirməklə və Vergi Məcəlləsi ilə müəyyən edilmiş digər formalarda vergi nəzarətini reallaşdırırlar.

VERGİ ÖDƏNİLƏNƏ QƏDƏR FAİZ DƏRƏCƏSİ *(before-tax interest rate)* – vergi tutulana qədər faiz dərəcəsi.

VERGİ ÖDƏYİCİSİ – Vergi Məcəlləsinə uyğun olaraq müəyyən edilmiş vergitutma obyektlərindən vergini ödəməli olan istənilən şəxs.

VERGİ PLANLAŞDIRMASI – hüquqi şəxsin fəaliyyətinin həyata keçirilməsinin və onun aktivlərinin yerləşdirilməsinin müxtəlif variantları arasında yaranan vergi öhdəliklərinin mümkün qədər aşağı səviyyəsinə nail olmağa yönəlmiş seçim. Vergi planlaşdırmasının əsasını qanunla müəyyən edilmiş bütün güzəştlərdən maksimum istifadəsi, habelə vergi orqanlarının mövqeyinin qiymətləndirilməsi, dövlətin vergi, büdcə və investisiya siyasətinin əsas istiqamətlərinin nəzərə alınması təşkil edir.

Vergi ödəyicilərinin fəaliyyət göstərmək, öz mənafelərini və mülkiyyət hüquqlarını müdafiə etmək hüquqları dövlət siyasəti, bəzi ölkələrdə isə həm də əsas hüquqi prinsiplərlə (məsələn, xüsusi mülkiyyətin toxunulmazlığı prinsipi ilə) qorunur.

Vergi planlaşdırması vergi ödəyicisinə münasibətdə cərimə sanksiyaları tətbiqini nəzərdə tutmur.

VERGİ SANKSİYASI – vergi qanunvericiliyinin pozulması faktı müəyyən edilərkən vergi yükünün artırılması ilə müşayiət olunan cərimə.

VERGİ SERTİFİKATI – dövlət istiqraz bileti. Onları istənilən vaxtda nağd pul vəsaiti ilə dəyişmək olar. Bu cür sertifikatlar faiz şəklində gəlir gətirir. Vergi sertifikatlarından vergilərin ödənilməsi üçün istifadə edildiyi halda onlara görə faiz dərəcəsi artırılır. Bu cür sertifikatların bir növü ehtiyat vergi sertifikatları adlanır.

VERGİ SİSTEMİ – dövlətin ərazisində tutulan vergilərin, yığımların, rüsumların, digər tədiyələrin, eləcə də onların qurulması formaları və metodlarının məcmusu. Müəyyən edilmiş qaydada tutulan vergi, rüsum və digər ödənişlərin məcmusu vergi sistemini təşkil edir. İstənilən dövlətin vergi sistemini formalaşdıran əsas elementlər aşağıdakılardır: vergi orqanları sistemi; vergi qanunvericiliyi sistemi, vergi siyasətinin prinsipləri; vergilərin büdcələr üzrə bölüşdürülməsi qaydası; vergi nəzarətinin forma və üsulları; vergi icraatının qaydaları, şərtləri və s.

VERGİ SİSTEMİNDƏ ELEKTRON XİDMƏT – Azərbaycan Respublikasında vergi inzibat-



Sxem 1

çılığının bütün səviyyələrində məlumat mübadiləsi korporativ şəbəkə sistemi üzərindən Azərbaycan Respublikasının Vergilər Nazirliyinin "Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi" (AVİS) vasitəsilə həyata keçirilir. AVİS 2006-cı ildən etibarən istifadəyə verilmişdir və onun əsas məqsədi büdcənin mədaxil hissəsinin tam və vaxtında formalaşdırılması, çevik və səmərəli vergi inzibatçılığının həyata keçirilməsi üçün effektli informasiya dəstəyinin təmin edilməsidir. Bu sistem vergiödəyiciləri ilə bilavasitə işləyən yerli vergi orqanlarının funksional fəaliyyətinin avtomatlaşdırılması, digər dövlət qurumları ilə inteqrasiya, eyni zamanda müxtəlif iqtisadi təhlillərin və proqnozlaşdırmanın aparılması imkanlarına malikdir. Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) Vergilər Nazirliyinin bütün strukturlarına vahid informasiya məkanında məlumatların saxlanılması və emalı imkanını verir. Sistemin əsas üstünlüklərindən biri digər qurumların informasiya sistemləri ilə (İdarələrarası Avtomatlaşdırılmış Məlumat Axtarış Sistemi, Baş Xəzinədarlıq, Dövlət Statistika Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Sosial Müdafiə Fondu, banklar) effektiv qarşılıqlı məlumatlar mübadiləsi imkanının olmasıdır.

Vergi inzibatçılığının inkişafında əlamətdar hadisələrdən biri də respublikada ilk dəfə elektron bəyannamələrin tətbiqinə başlanılması ilə əlaqədardır. Vergilər Nazirliyi tərəfindən Bəyannamə Tərtibatı Proqramının (BTP) hazırlanaraq vergi ödəyicilərinə pulsuz şəkildə paylanılması, vergi bəyannamələrinin elektron formada təqdim olunmasını təmin etmək üçün 2007-ci ildə e-taxes.gov.az – İnternet vergi İdarəsi vasitəsilə aşağıdakı elektron xidmətlərin göstərilməsi həyata keçirilir:

- ✓Elektron Bəyannamə *(e-Bəyannamə);*
- ✓Sahibkarlıq subyektlərinin "Bir pəncərə" prinsipi ilə dövlət qeydiyyatı *(o cümlədən, fərdi sahibkarların və yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron qeydiyyatı);*
- ✓ƏDV-nin depozit hesabı;
- ✓Banklarla elektron mübadilə *(Banklarla e-Mübadilə)*
- ✓Elektron vergi hesab-fakturası;
- ✓On-layn kargüzarlıq.

E-Bəyannamə sistemi vergi bəyannamələrinin elektron formada vergi orqanına göndərilməsini nəzərdə tutur:

- ✓bəyannamələrin off-layn rejimdə Bəyannamə Tərtibatı Proqramı (BTP) vasitəsilə

Cədvəl 1

Dünyanın 10 ən münasib vergi sistemi (2010)

№	Ölkə	Vergilərin ümumi sayı	Verginin ödənilməsinə sərf olunan vaxt (ildə, saat)	Tam vergi dərəcəsi (%-lə)
1	Maldiv adaları	1	0	9,1
2	Qatar	1	36	11,3
3	Honkonq (ÇXR)	4	80	24,2
4	BƏƏ	14	12	14,4
5	Sinqapur	5	84	27,9
6	İrlandiya	9	76	28,8
7	Səudiyyə Ərəbistanı	14	79	14,5
8	Oman	14	62	21,6
9	Küveyt	14	118	14,4
10	Kiribati	7	120	31,8

Cədvəl 2

Dünyanın 10 ən mürəkkəb vergi sistemi (2010)

№	Ölkə	Vergilərin ümumi sayı	Verginin ödənilməsinə sərf olunan vaxt (ildə, saat)	Tam vergi dərəcəsi (%-lə)
172	Panama	59	482	50,6
173	Yamayka	72	414	51,3
174	Mavritaniya	38	696	98,7
175	Qambiya	50	376	292,4
176	Boliviya	41	1080	78,1
177	Venesuela	70	864	56,6
178	Mərkəzi Afrika Respublikası	54	504	203,8
179	Konqo Respublikası	61	606	65,5
180	Ukrayna	99	848	58,4
181	Belarus	112	1188	117,5


Mənbə: Paying Taxes 2010

tərtib edilməsi və on-layn rejimdə İnternet Vergi İdarəsi vasitəsilə göndərilməsi (2007-ci il);

✓ sadələşdirilmiş verginin bəyannaməsinin BTP proqramından istifadə etmədən on-layn rejimdə İnternet Vergi İdarəsi vasitəsi ilə tərtib edilməsi və göndərilməsi.

Bu sistemin hesabına vergiödəyicisi vergi orqanına gəlmədən və vergi orqanının əməkdaşı ilə kontakta girmədən, tam şəffaf şəkildə, onun üçün rahat olan mühitdə və istədiyi zaman bəyannaməni tərtib edərək internet vasitəsilə təqdim etmək, öz şəxsi hesab vərəqəsinə baxa bilmək və büdcəyə olan borcları barədə məlumatlar əldə etmək imkanına malik olur. Eyni zamanda, E-Bəyannamə sistemi, vergi orqanı ilə vergiödəyicisi arasında əlaqələrin tamamilə şəffaflaşmasına gətirib çıxarmışdır.

Ölkəmizdə elektron bəyannamə sisteminin tətbiqi vergiödəyicilərində böyük maraq doğurmuş-


VERGİ MEXANİZMİ
iqtisadi və fiskal təsirin realizasiya üsullarını müəyyən edən, fəaliyyətdə olan vergi sisteminin metod və təşkilinin praktik alətləri, formaları və qaydaları məcmusu
Vergi mexanizminin elementləri
Vergi subyekti
Qanuna görə vergi ödəməsini etməli olan şəxs
Fiziki şəxslər
Fiziki şəxslər
Vergi daşıyıcısı
Son vergi ödəyicisi, verginin ödənilməsinə görə məsuliyyət daşıyan şəxs. Dolayı vergiqoymada vergi daşıyıcısı ilə subyekti üst-üstə düşmür.
Vergitutmanın obyekti
Miqdar və ya fiziki xarakteristikası olan obyekt vergiödəyicisində ödəmə məcburiyyəti yaradır
– işlərin, əmtəələrin satışı və xidmətlərin göstərilməsi üzrə əməliyyatlar;
– əmlak;
– gəlir, mənfəət;
– əmtəənin dəyəri;
– fəaliyyət növü.
Vergi bazası
Vergi tutulan obyektin dəyər, fiziki və yaxud digər xarakteristikası
Vergi dərəcəsi
Vergi vahidinə hesablanmış vergi həcmi
– mütərəqqi;
– reqressiv;
– proporsional;
– möhkəm.
Ödəmə vahidi
Vergi tarifi tətbiq olunan obyektin vergi ölçü vahidi
Pul vahidləri
Natural vahidlər
Ödəmə mənbəyi
Qəbul olunmuş qaydada ödəyənin gəlir növündən (və ya digər daxilolmalar) vergi tutulması həyata keçirilir
Vergi dövrü
Təqvim ili və ya ilin digər dövrünün sonuna əsasən müəyyən olunan vergi bazası və hesablamaları
– il;
– rüb;
– ay.
Vergi imtiyazları
Başqa ödəyicilərə nisbətən qanunla icazə verilmiş imtiyazlar
– vergini ödəməmək imkanı;
– tarifin aşağı salınması;
– vergi bazasından tutulmalar.
Vergi tutulmayan minimum
Qanunvericiliklə müəyyən olunmuş obyektin vergidən azad edilən minimum məbləği
Ödəmə üsulu
Hesablanması və vergi ödəməsinin əldə edilməsi üsulu
– mənbələrdən;
– kadastr;
– deklarasiya.

Sxem 2



Sxem 3

dur. Hazırda əlavə dəyər vergisi (ƏDV) ödəyicilərinin 99 faizindən, digər vergi ödəyicilərinin isə 90 faizindən çoxu bəyannamələrini elektron formada təqdim edirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2007-ci il 30 aprel tarixdə imzaladığı "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" Fərmana və 2007-ci il 25 oktyabr tarixdə imzaladığı "Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "Bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" Sərəncama uyğun olaraq sahibkarlıq subyektlərinin qeydiyyatının "Bir pəncərə" prinsipi üzrə təşkili Vergilər Nazirliyinə həvalə edilmişdir.

2007-ci il 29 dekabr tarixində Vergilər Nazirliyinin "Bir pəncərə" sisteminin təqdimatı keçirilmiş və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tədbirdə iştirak etmişdir. Elektron hökumətin əsas elementlərindən olan "Bir pəncərə" sistemi məlumatların bir mərkəzdə cəmləşdirilməsini, vergi qeydiyyatı da daxil olmaqla, iqtisadi strukturlarda aparılan bütün qeydiyyatların tamamilə sinxronlaşdırılmasını nəzərdə tutur.

Qeydiyyatın "Bir pəncərə" prinsipi üzrə aparılması sahibkarlıq sektoruna marağın güclənməsinə və biznesin inkişafına təkan vermişdir. Digər tərəfdən, "Bir pəncərə" sisteminin tətbiqi investisiya mühitini daha da yaxşılaşdırmış, sahibkarların dövlət qurumlarından asılılığını azaltmış, çoxpilləli qeydiyyat prosedurları ləğv olunmuş və sadələşdirilmişdir. Bu isə son nəticədə sahibkarlıq subyektlərinin cəmi bir neçə gündə qeydiyyata alınmasına və fəaliyyətə başlamasına imkan vermişdir.

"Bir pəncərə" sisteminin tətbiqi ilə qeydiyyat prosedurlarının sayı azalmış və vaxt itkisinin qarşısı alınmışdır.

"Bir pəncərə" prinsipinin tətbiqi ilə Azərbaycan Respublikasında kommersiya hüquqi şəxslərin qeydiyyatı prosedurlarının (biznesə başlama) sayı, prosedurlara sərf edilən müddət, o cümlədən sırf qeydiyyatın aparılmasına sərf edilən müddət azaldılmışdır.

"Bir pəncərə" prinsipi ilə qeydiyyata alınmış sahibkarlıq subyektləri barədə məlumatlar mərkəzləşdirilmiş şəkildə Dövlət Sosial Müdafiə Fonduna, Dövlət Statistika Komitəsinə və Dövlət Gömrük Komitəsinə ötürülür. Həmçinin bəzi fəaliyyət növləri üzrə qeydə alınmış sahibkarlıq subyektləri barədə məlumatlar müvafiq olaraq Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinə, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə və həmin nazirlik yanında Dövlət Baytarlıq və Dövlət Fitosanitar Nəzarəti Xidmətlərinə təqdim edilir.

Eyni zamanda, vergi orqanlarında qeydiyyata alınan fiziki şəxslərin təqdim etdikləri məlumatların onların şəxsiyyət vəsiqələrində göstərilən məlumatlarla üzləşdirilməsi məqsədilə Daxili İşlər Nazirliyinin məlumatlarından elektron qaydada istifadə olunması üçün Vergilər Nazirliyinə imkan yaradılmışdır.

Bu məqsədlə qeyd olunan təşkilatların hər biri ilə müvafiq razılaşmalar imzalanmışdır.

İqtisadi İnkişaf Nazirliyi ilə imzalanmış əməkdaşlıq haqqında razılaşmaya əsasən 2008-ci ilin dekabr ayından etibarən sahibkarlıq subyektlərinə nəzarət kitabçaları da "Bir pəncərə" sistemi vasitəsilə qeydiyyat zamanı təqdim edilir.


E-qeydiyyat sistemi 2011-ci il 23 may tarixli "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanının icrası ilə əlaqədar, ölkədə sahibkarlığın inkişaf etdirilməsi, əlverişli biznes mühitinin formalaşdırılması və biznesə başlama prosedurlarının sadələşdirilməsi məqsədilə "Bir pəncərə" prinsipinin davamı olaraq həyata keçirilən mühüm layihələrdən biridir. E-qeydiyyat sistemi vasitəsilə sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslərin vergi uçotuna alınması və kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatına alınması təmin edilir.

Azərbaycanda fiziki şəxslərin e-qeydiyyatının tətbiqinə 2011-ci ilin 1 iyul tarixindən başlanılmışdır. Fiziki şəxslər vergi orqanlarına getmədən, vaxt itkisinə yol vermədən Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində istifadəçi kodu, şifrə-parol və ya elektron imza vasitəsilə uçota alınırlar. E-qeydiyyatın tətbiqi nəticəsində onların vergi uçotuna alınmasına sərf edilən müddət iki gündən bir neçə dəqiqəyədək qısaldılmışdır.

Eyni zamanda kommersiya hüquqi şəxslərin e-qeydiyyatının tətbiq edilməsi məqsədilə Azərbaycan Respublikası Milli Məclisi 2011-ci il 30 dekabr tarixdə müvafiq qanunlara əlavə və dəyişikliklər etmişdir. Kommersiya hüquqi şəxslərin e-qeydiyyatının aparılmasına 2012-ci ilin fevral ayından başlanılmışdır. Hazırda hüquqi şəxslərin e-qeydiyyat prosedurları yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətləri əhatə etməklə sürətli və adi qaydada aparılır.


Sürətli e-qeydiyyat zamanı hüquqi şəxsin dövlət qeydiyyatı proseduruna sərf edilən müddət üç gündən bir neçə dəqiqəyədək qısaldılmışdır. Bu zaman cəmiyyətin yeganə təsisçisi özü, təyin etdiyi rəhbər və cəmiyyətin fəaliyyət sahəsi barədə məlumatları sistemə daxil edir və proqram tərəfindən generasiya edilən ərizə, nizamnamə və qərarı elektron imza ilə təsdiqləyir. Proses qeydiyyat orqanı tərəfindən dərhal şəhadətnamənin, reyestrdən çıxarışın və nizamnamənin e-imza ilə təsdiqlənməsi və təsdiq edilmiş sənədlərin cəmiyyətin elektron ünvanına göndərilməsi ilə başa çatır.

Adi e-qeydiyyat zamanı cəmiyyətin təsisçiləri tərəfindən sistemə daha geniş məlumat daxil



Sxem 4




American Chamber of
AMCHAM
Commerce in Azerbaijan




AZƏRBAYCANDA VERGİTUTMA: "YENİ VERGİ MƏDƏNİYYƏTİ NAMİNƏ"
18 Aprel 2012, Park İnn
TAXATION IN AZERBAIJAN: "FOR THE NEW TAX CULTURE"
18th April 2012, Park Inn
PASHA Bank
Deloitte.
KPMG
pwc
Ernst & Young
park inn



edilir və təsisçilərin seçimindən asılı olaraq proses bir-üç gün ərzində tam başa çatdırılır.

Məhdud məsuliyyətli cəmiyyətlərin e-qeydiyyatının tətbiq edilməsi biznesə başlama sahəsində ölkəmizdə aparılan uğurlu islahatların növbəti mərhələsidir. E-qeydiyyatın tətbiqi nəticəsində beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyi daha da möhkəmlənəcəkdir. Bu zaman istər qeydiyyat ərəfəsində, istərsə də qeydiyyatdan sonra yerinə yetirilən prosedurlar sadələşməklə sahibkarlıq subyektlərinin xeyli vaxt və vəsait qənaətinə səbəb olacaqdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 30 dekabr tarixli, 219 saylı qərarı ilə "Vergi ödəyicisinə verilmiş vergi hesab-fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydaları" təsdiq edilmiş və 2008-ci il 1 yanvar tarixdə qüvvəyə minmişdir.

Vergidən yayınma hallarının qarşısının alınması və ƏDV üzrə inzibatçılığın təkmilləşdirilməsi məqsədilə 2008-ci il 1 yanvar tarixdən ƏDV-nin depozit hesabının tətbiqinə və müvafiq proqram təminatının istifadəsinə başlanılmışdır.

ƏDV-nin depozit hesabı – ƏDV-nin mədaxili, uçotu, hərəkəti və dövlət büdcəsinə məxarici ilə bağlı əməliyyatlar aparılan vahid xəzinə hesabıdır.

Bu hesabın tətbiqi əsasən 2 istiqamətdə işlərin yerinə yetirilməsini nəzərdə tutur:

- ✓ƏDV-nin büdcəyə ödənilməsi, digər vergiödəyicilərinin sub-uçot hesablarına köçürülməsi, Dövlət Gömrük Komitəsinə ödənilməsi;
- ✓Digər vergilərin dövlət büdcəsinə ödənilməsi (yalnız ƏDV ödəyiciləri üçün).

Vergi qanunvericiliyinə görə mal (iş, xidmət) əldə edən şəxslər hesab-fakturada göstərilən malın dəyərini hesablaşma hesabına, hesablanmış ƏDV-ni isə ayrıca depozit hesabına, yəni satıcının ƏDV sub-uçot hesabına köçürürlər. Bu sistem ƏDV-nin hərəkəti və əvəzləşdirilməsi, habelə ƏDV üzrə dövlət büdcəsinə ödənişlə bağlı vergi ödəyicilərinin bütün əməliyyatları üzrə vergi orqanları tərəfindən səmərəli nəzarəti həyata keçirməyə imkan yaratmışdır.

Bununla da ƏDV-nin ödənilməsindən yayınmaya və bu vergi növünün əvəzləşdirilməsi üzrə qeyri-qanuni hallara qarşı yeni səmərəli sxemin tətbiq edilməsinə nail olunmuşdur.

Vahid depozit hesabının tətbiqi vergiödəyicilərinə banka getmədən başqa ödəyicilərə, büdcə və gömrük orqanlarına ödənişlərin həyata keçirilməsinə imkan vermiş, vergiödəyicilərinin ƏDV üzrə inzibati yükünün azaldılmasına da şərait yaratmışdır.

Azərbaycanda 2008-ci ildən tətbiq olunan bu sistem bir sıra beynəlxalq institutların və digər ölkələrin vergi administrasiyalarının ciddi marağına səbəb olmuşdur.

AVİS-in tətbiqi Vergilər Nazirliyinə digər dövlət strukturları və qurumlarla məlumat mübadiləsinin aparılması üçün geniş imkanlar yaratmışdır. Bu imkanlardan daha səmərəli istifadə etmək məqsədilə 2008-ci ildə Vergilər Nazirliyi ilə Mərkəzi Bank və banklar arasında "Elektron sənəd mübadiləsi" haqqında kollektiv saziş imzalanmışdır. Sazişdə bank idarələrinin elektron mübadiləyə qoşulma mexanizmi müəyyənləşdirilmişdir. Elektron məlumat mübadiləsi Azərbaycan Respublikası Mərkəzi Bankının Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sistemi – XÖHKS sistemi üzərindən aparılır. Saziş XÖHKS sisteminin üzvü olan bütün banklar üçün açıqdır.

Hazırda Vergilər Nazirliyi və bank idarələri arasında hesabların açılması üçün şəhadətnamə-dublikatlar, həmçinin hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması üçün sərəncamlar elektron qaydada banklara göndərilir.

Dövlətə vergi, rüsum, icarə haqqı və digər ödənişlərin elektron formada aparılması üçün Azərbaycan Respublikasının Vergilər Nazirliyi Mərkəzi Bankla birlikdə Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminin (KÖMİS) resurslarından istifadə edilməklə proqram interfeysləri, ötürüləcək məlumatların və istifadə olunacaq klassifikatorların formatları, habelə müvafiq internet servisləri hazırlanaraq vergiödəyicilərinin istifadəsinə verilmişdir. Belə ki, vergiödəyiciləri Vergilər Nazirliyinin internet portalından istifadə etməklə

plastik ödəniş kartları vasitəsilə internet üzərindən dövlət büdcəsinə ödənişləri həyata keçirə bilirlər.

ƏDV sahəsində vergi inzibatçılığının daha da müasirləşdirilməsi məqsədilə 2010-cu il yanvarın 1-dən etibarən elektron vergi hesab-fakturalarının tətbiqinə başlanılmışdır. Bu sistemin tətbiqi ilə təqdim edilmiş mallara, göstərilmiş xidmətlərə və görülmüş işlərə görə vergi hesab-fakturaları elektron formada təqdim edilir. Vergi inzibatçılığının şəffaflığı baxımından əhəmiyyətli olan bu sistem həm də vergiödəyiciləri üçün müsbət nəticə vermişdir.

Elektron vergi hesab-fakturaları vergi xidməti orqanları ilə vergiödəyiciləri arasında əlaqələrə keçidi elektron daşıyıcılar vasitəsilə təmin etmiş, vergi orqanlarının işini əhəmiyyətli dərəcədə asanlaşdırmış və vergi nəzarətini gücləndirmiş, eyni zamanda, vergiödəyicilərinin öz vaxtına və maliyyə vəsaitlərinə qənaət etməsinə imkan vermişdir. Elektron vergi hesab-fakturalarının tətbiqi nəticəsində kağız sərfiyyatı minimuma endirildiyindən il ərzində 20 tona yaxın kağıza qənaət edilmişdir. Eyni zamanda, bu sistemin tətbiqi saxta hesab-fakturalardan istifadə etmək cəhdlərinin də qarşısını birdəfəlik almışdır.

İqtisadi inkişaf səviyyəsinə görə yaxın dövlətlərlə müqayisədə Azərbaycanda ilk dəfə elektron vergi hesab-fakturalarının tətbiqi ölkəmizin hərtərəfli inkişafının əyani göstəricisi olmuşdur. Azərbaycan Respublikasının Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində Onlayn kargüzarlıq alt sistemi fəaliyyət göstərir. Bu sistem vətəndaşlar və vergiödəyiciləri ilə vergi orqanları arasında elektron sənəd mübadiləsinin aparılmasını təmin edir.

Onlayn kargüzarlıq alt sistemi Vergilər Nazirliyinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) daxili kargüzarlıq sisteminə inteqrasiya olunmuşdur. Ona görə də istifadəçilər göndərdikləri sənədin vergi orqanı daxilində hərəkətini onlayn rejimdə izləyə və icraçının telefonunu öyrənərək onunla birbaşa telefon əlaqəsi yarada bilər. Bu sistem üzərindən göndərilən ixtiyari sənəd rəsmi statusa malikdir. Sistem daxilində hər bir istifadəçi üçün "fərdi elektron qutu (e-Qutu)" ayrılmışdır. Vergi orqanlarından və digər ödəyicilərdən göndərilən və qəbul edilən sənədlər həmin e-Qutuda toplanılır.

Proqramda sənəd dedikdə aşağıdakılar başa düşülür: ərizə, şikayət, sorğu, təklif, təşəkkür məktubu və s.

VERGİ SİYASƏTİ – dövlət tərəfindən işlənib hazırlanmış, vergi sahəsində cəmiyyətin qarşısında duran bu və ya digər vəzifələri həyata keçirməyə yönəlmiş tədbirlər sistemi.

Vergi siyasətinin məqsəd və vəzifələri konkret iqtisadi şəraitdən asılıdır. Məqsəd və vəzifələri müəyyən edildikdən sonra dövlət onların həyata keçirilməsi üsullarını işləyib hazırlayır.

Vergi siyasətinin əsas məqsədi vergilərin mahiyyəti və funksiyalarından irəli gəlir və ümumi daxili məhsulun bir hissəsinin dövlət tərəfindən alınmasından və bu vəsaitlərin büdcə vasitəsilə yenidən bölüşdürülməsindən ibarətdir. Vergi siyasətinin həyata keçirilmə müddətindən, təsir dairəsindən, iqtisadi vəziyyətin dəyişməsinə reaksiyasından asılı olaraq müxtəlif formaları mövcuddur.

Vergi taktikası vergi sisteminə əlavə və dəyişikliklər edilməsi yolu ilə konkret bir dövrdə qarşıda duran məsələlərin həllini nəzərdə tutur.

Vergi strategiyası vergi sahəsində dövlətin uzunmüddətli kursunu müəyyən edir və irimiqyaslı məsələlərin həllini nəzərdə tutur.

Daxili vergi siyasəti bir ölkə və ya ərazi vahidi çərçivəsində həyata keçirilir və daxili məsələlərin həllini nəzərdə tutur.

Xarici vergi siyasəti ikiqat vergitutmanın aradan qaldırılmasına, müxtəlif ölkələrin vergi sistemlərinin yaxınlaşmasına, onların vahid şəklə salınmasına yönəldilir.

Vergi siyasəti diskresiyalı və qeyri-diskresiyalı ola bilər. Diskresiyalı baza o deməkdir ki, dəyişkən iqtisadi şəraitdən asılı olaraq vergi qanunvericiliyinə düzəlişlər edilir.

Diskresion vergi siyasəti vergi dərəcələri və ya vergitutmanın strukturu ilə manipulyasiya etmək barədə hökumətin qərarları əsasında həyata keçirilir. O, iqtisadi tənəzzülün tez bir zamanda aradan qaldırılması və tarazlıq vəziyyətinin saxlanılması üçün istifadə edilir. Bununla əlaqədar diskresion siyasəti tez-tez stabilləşdirici siyasət də adlandırırlar.

Qeyri-diskresion vergi siyasəti isə hökumətin qərarlarından asılı olmayaraq, avtomatik surətdə

həyata keçirilir. Bu, özünütənzimləmə rejimində işləyən mexanizmlərin – "quraşdırılmış özütənzimləyicilərin" köməyi ilə mümkün olur.

İqtisadiyyatın vəziyyətindən, iqtisadi inkişafın cari mərhələsində dövlətin üstün hesab etdiyi məqsədlərdən asılı olaraq vergi siyasətinin müxtəlif tiplərindən istifadəyə rast gəlinir. Vergi siyasətinin üç tipi birbirindən fərqləndirilir:

– maksimal vergilər siyasəti;
– optimal vergilər siyasəti;
– sosial yönümlü yüksək dərəcəli vergilər siyasəti.

Maksimal vergilər siyasəti zamanı dövlət yüksək vergi dərəcələri tətbiq etməklə, vergilərin sayını artırmaqla, vergi güzəştlərini ixtisar etməklə vətəndaşlardan mümkün qədər çox maliyyə vəsaitləri toplamağa çalışır. Təbiidir ki, belə vergi siyasəti ayrıca götürülmüş konkret vergiödəyicisi və ümumiyyətlə, cəmiyyət üçün iqtisadi inkişafa heç bir ümid yeri qoymur. Buna görə də belə siyasət bir qayda olaraq fövqəladə hallarda, məsələn, iqtisadi böhranlar, müharibələr zamanı həyata keçirilir. Belə siyasətin uzun müddət həyata keçirilməsi bir sıra mənfi nəticələrə gətirib çıxara bilər.

Optimal vergilər siyasəti zamanı dövlət sahibkarlıq fəaliyyətinin subyektləri üçün vergi yükünü yüngülləşdirir, onların inkişafına təkan verən əlverişli vergi mühiti yaradır. Bu isə dövlət xərclərinin azalmasına, ilk növbədə, sosial proqramların məhdudlaşdırılmasına səbəb olur.

Sosial yönümlü yüksək dərəcəli vergilər siyasəti həyata keçirilərkən dövlət kifayət qədər yüksək vergilər tətbiq etməklə, nəzərəçarpacaq dərəcədə sosial müdafiə proqramları işləyib hazırlayır. Bu zaman büdcə gəlirlərinin böyük hissəsi müxtəlif sosial fondların artırılmasına yönəldilir.

Müasir mərhələdə Azərbaycan Respublikasında bazar iqtisadiyyatının formalaşdırılması, onun dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində çevik vergi siyasəti həyata keçirilir. Bu siyasət vergi dərəcələrinin aşağı salınması və vergi güzəştlərinin azaldılması hesabına vergitutma bazasının genişləndirilməsinə, iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılmasına, hüquqi şəxslərlə fərdi sahibkarlar, rezident və qeyri-rezident vergiödəyiciləri arasında vergi yükünün bərabərləşdirilməsinə, kiçik və orta sahibkarlıq, biznes fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına və son nəticədə mövcud iqtisadi potensialın artırılmasına, əhalinin maddi rifahının yüksəldilməsinə yönəldilmişdir.

Azərbaycan Respublikasında həyata keçirilən vergi siyasətinin əsas istiqamətləri: respublikanın iqtisadi təhlükəsizliyinin təmin edilməsinə yönəldilən tədbirlərin həyata keçirilməsi; respublikanın ixrac potensialının inkişafının təmin edilməsi; daxili və xarici investisiyaların prioritet sahələrə cəlb edilməsinə əlverişli vergi mühitinin qurulması; vergi sisteminin vahid uçot-informasiya sisteminin yaradılması; vergi və qeyri-vergi ödənişlərinin yığılması səviyyəsinin artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi; vergiödəyicilərinin gəlirləri üzərində səmərəli nəzarət mexanizminin tətbiqi; vergi intizamına əməl olunması üzərində nəzarət sisteminin təkmilləşdirilməsi və vergi-hüquq pozuntusu hallarına görə məsuliyyət sisteminin daha da sərtləşdirilməsi; vergi xidməti orqanları əməkdaşlarının səmərəli fəaliyyət göstərməsi məqsədilə vergi orqanlarının maddi-texniki bazasının əhəmiyyətli dərəcədə möhkəmləndirilməsi və s.

VERGİ SPREDİ – verginin azalması məqsədilə fyuçers müqavilələrinin eyni zamanda alqı-satqısı.

VERGİ TƏTİLLƏRİ – müəyyən qrupa aid müəssisə və təşkilatların bu və ya digər vergini qanuni olaraq ödəmədiyi, qanunla müəyyən edilən müddət.


VERGİ YÜKÜ – vergiverənlərin üzərinə qoyulmuş iqtisadi məhdudiyyətlərin dərəcəsi, səviyyəsi. Bu məhdudiyyətlər vergilərin ödənilməsinə ayrılan vəsaitin başqa mümkün istifadə istiqamətlərindən yayındırılması deməkdir. Vergi yükünün vergiverənlər arasında bölüşdürülməsi iki prinsipə əsaslanır:

1) Verginin həmin vergi hesabına əldə edilən fayda ilə əlaqələndirilməsi. Məsələn, nəqliyyat vasitəsi üçün vergini nəqliyyat vasitələrinin sahibləri ödəyirlər. Belə yanaşma çox məhduddur. Belə ki, dövlət xərclərinin ayrı-ayrı növlərini (məsələn, işsizlik müavinəti) istifadəçilərin üzərinə qoymaq mümkün deyil.

2) Tədiyə qabiliyyətliliyi prinsipi. Bu prinsipə görə gəliri yüksək şəxsin ödəmə qabiliyyəti nə qədər yuxarı olarsa, onun üzərinə qoyulan vergi də bir o qədər çox olmalıdır.


Verginin aşağıdakı əlamətləri var
Xalqın qanuni olaraq seçdiyi nümayəndələr tərəfindən müəyyən edilir
Ancaq qanunverici prosesdə ictimai (ümumi) maraq daha dəqiq üzə çıxa bilər
Qanuni olaraq onun fiskin xeyrinə özgəninkiləşdirilmiş hissəsinin mülkiyyət hüququnu məhdudlaşdırır
Bu, mülkiyyət hüququnun konstitusiya səviyyəsində məhdudiyyətidir, sahibkara əmlakının fiska ötürülməsi üçün aktiv tədbirlərin görülməsi öhdəliyindən ibarətdir
Mülkiyyət hüquqlarını məhdudlaşdırır, ictimaiyyət tərəfindən şərtləşdirilmiş kimi qəbul olunur
Dövlət və ya bələdiyyələrin fəaliyyətinin maliyyə ehtiyaclarının ödənilməsinə yönəldilir. Dövlət və bələdiyyə büdcələrində vergi vəsaitlərinin qorunmasını təmin edir
Ümumi məcburi
Ödəmə etməyə məcbur olan şəxsin öz iradəsindən asılı olmayaraq yığılır
Fərdi əvəzsiz
Onun ödənilməsi, dövlətin ödəyici qarşısında heç bir hüquqi öhdəliklərini törətmir
Fərdi qaytarılmaz
Vergi ödəyicisinin vəsaitlərinin müvəqqəti alınmasına deyil, ödənilmiş pul vəsaitləri üzərində hüququnun tam dayandırılmasına xidmət edir
Pul formasına malikdir
Yalnız pul vasitəsilə ödənilir
Ümumilik, bərabərlik, uyğunluq prinsipləri əsasında qurulub
Cəmiyyətin bütün üzvləri cəlb olunur, ictimai xərclərin maliyyələşdirilməsində cəmiyyət üzvlərinin bərabər iştirakını nəzərdə tutur

Sxem 4


Vergi elementləri
Vergi-hüquq norması
Vergiödəyicisi
Təşkilat
Fiziki şəxslər
Verginin predmeti
Gəlirlər (mənfəət)
Vergiqoymanın obyektləri
Satılmış əmtəə, xidmət və işlərin dəyəri
Ayrı-ayrı fəaliyyət növləri
Xidmətlərin, işlərin, məhsulun əlavə dəyəri
Vergi bazası – obyektin vergisinin ölçülməsi vahidi
Təbii resurslardan istifadə olunması
Fiziki və hüquqi şəxslərin əmlakları
Əmlakın ötürülməsi
Qanunvericiliklə müəyyən edilmiş digər obyektlər
Vergi dərəcələri
Vergi bazasına görə hesablanmış vergilərin həcmi
Hesablanma qaydası
Vergi tutulmayan minimum
Vergi dərəcələrinin azaldılması
Verginin ödənilməsi müddəti
Obyektin müəyyən elementlərinin vergidən azad edilməsi
Vergi ödənilməsindən çıxılmalar
Vergi imtiyazları
Müəyyən şəxslərin və ya kateqoriyaların ödəmədən azad edilməsi
Ödəmə müddətinin dəyişdirilməsi, məqsədyönlü ödəmələr, o cümlədən vergi krediti, investisiya vergi krediti

Sxem 5

VERGİLƏR – dövlətin iqtisadi subyektlərdən tutduğu məcburi yığımlar. Vergilər dövlətin atributu, onun inhisarçı səlahiyyəti və mövcudluğu üçün zəruri şərtdir. Vergilər iki əsas funksiyanı yerinə yetirir: a) fiskal funksiya – dövlətin təqdim etdiyi ictimai nemətlərin yaradılması üçün dövlət xərcləri vergi daxilolmalarından maliyyələşdirilir; b) tənzimləyici funksiya – dövlət vergiləri yığıb xərcləməklə, əslində, milli gəliri yenidən bölüşdürür və bununla da iqtisadi subyektlərin ayrı-ayrı qruplarının tədiyə qabiliyyətli tələbatını artırır və ya azaldır. Kapital yığımı üçün stimulları gücləndirir və ya zəiflədir, ölkədə iqtisadi fəallığın səviyyəsinə və iqtisadi artım sürətinə təsir göstərir.

Bundan əlavə, vergilərin bölüşdürücü, nəzarətedici və inteqrasiyaedici funksiyalarını da qeyd etmək olar.

Ölkədə vergitutmanın ümumi səviyyəsi ölkənin ümumi daxili məhsulunda (ÜDM) konsolidə edilmiş dövlət büdcəsinin gəlirlərinin nisbi payı ("vergi yükü" göstəricisi) kimi hesablanır. Vergilərin sərəncamına daxil olduğu dövlət orqanlarının hakimiyyət iyerarxiyasında vəziyyətindən asılı olaraq vergilər aşağıdakı növlərə bölünür: federativ dövlətlərdə – federal vergilər (federal hökumət vergiləri), regional (federasiya subyektlərinin) vergiləri və yerli (bələdiyyə) vergilər; unitar dövlətlərdə – mərkəzi hökumət vergiləri və yerli (bələdiyyə) vergilər.

Vergiləri yığım, rüsum və digər ödənişlərdən fərqləndirən bir sıra əlamətlər mövcuddur. Onlar aşağıdakılardır: subyektin gəlirinin bir hissəsinin dövlətin xeyrinə özgəninkiləşdirilməsi; onun təyin edilməsinin və təsbit olunmasının qanuniliyi; onun vacibliyi; məcburi xarakter daşıması; pul formasında olması; əvəzsiz xarakter daşıması; mücərrəd ödəniş olması.

Tutulma üsuluna görə vergilər birbaşa və dolayı növlərə təsnif edilir. Birbaşa vergilər bilavasitə gəlirlərdən (gəlir vergisi) və əmlakın dəyərindən (əmlak vergisi) tutulur. Dolayı vergilər məhsulun və ya onun müxtəlif komponentlərinin qiymətinin bir hissəsi kimi hesablanır, haqqı istehlakçı tərəfindən ödənilən əmtəənin, işin, xidmətin qiymətinə və ya tarifinə daxil edilir.

Birbaşa vergilər – maddi sərvətlərin toplanması prosesində vergiödəyicilərinin gəlir və ya əmlakından bilavasitə tutulan vergilər. Buna görə də bu vergilərin dəqiq məbləği tutulma anında məlum olur. Birbaşa vergilərə torpaq vergisi, fiziki şəxslərdən tutulan gəlir vergisi, hüquqi şəxslərdən tutulan mənfəət vergisi və s. daxildir.

Birbaşa vergilər iki qrupa, birbaşa real vergilərə və birbaşa şəxsi vergilərə ayrılır. Birbaşa real vergilər vergi ödəyicisinin maliyyə vəziyyətindən və təsərrüfat fəaliyyətinin nəticəsindən asılı olmayaraq əmlakın, məhsulların və ya fəaliyyətin ayrı-ayrı növlərinə görə ödənilir. Bu zaman vergiödəyicisinin ödəniş qabiliyyətli olub-olmaması nəzərə alınmır. Birbaşa real vergilərə misal olaraq torpaq və əmlak vergisini qeyd etmək mümkündür.

Birbaşa şəxsi vergilər isə əldə edilmiş gəlirdən tutulur və vergiödəyicisinin faktiki ödəniş qabiliyyətini əks etdirir. Birbaşa şəxsi vergilərə misal olaraq fiziki şəxslərin gəlir vergisini, hüquqi şəxslərin mənfəət vergisini göstərmək olar.

VERGİLƏRİN İNDEKSASİYASI – gəlir vergisinin bəzi elementlərinin dəyişilməsidir (güzəştlər, vergiyə cəlb olunmayan minimum, imtiyazlar) ki, bu da istehlak mallarına və xidmətlərə qiymətlərin artırılmasının rəsmi indeksindən, əmək haqqı indeksindən və digər şəxsi gəlirlərdən asılıdır. Gəlirlərin belə indeksasiyası bəzi ölkələrdə tətbiqini tapmışdır.

VERGİ TUTULAN VAHİD – verginin obyektinin ölçü vahidi. Qüvvədə olan vergilərin, məcburi ödənişlərin, yığımların və rüsumların tutulması vaxtı qanunvericiliyə uyğun olaraq müəyyənləşir.

VERGİTUTMA BAZASI – vergitutma obyektinin vergi tutulan hissəsinin kəmiyyətcə ifadəsi. Əgər vergitutma obyekti gəlir və ya mənfəətdirsə, vergitutma bazası gəlir vergisinin və ya mənfəət vergisinin tətbiq olunduğu gəlirin və ya mənfəətin məbləğini ifadə edir.

VERGİTUTMA MƏQSƏDLƏRİ ÜÇÜN DİVİDEND – vergi qanunvericiliyində dividend dedikdə aşağıda göstərilən hallar müstəsna olmaqla, müəssisənin, təsərrüfat cəmiyyətinin, təsərrüfat birliyinin mənfəətinin, müvafiq olaraq bu müəssisənin sahibkarının (sahibkarlarının), yaxud təsərrüfat cəmiyyətinin, təsərrüfat birliyinin iştirakçılarının müəssisənin əmlakı üzə-



Azərbaycan Respublikası Vergilər Nazirliyinin Xüsusi Rejimli Vergi Xidməti Departamentinin yeni inzibati binası (2011-ci il)




İnzibati binanın qarşısında salınmış yeni park, nəqliyyatın yüksək sürətlə hərəkət etdiyi, çoxzolaqlı prospektin kənarında salındığı üçün onun yaradılması zamanı səs izolyasiyasına əsaslanan yaşıllıq və su sistemlərinin sintezindən istifadə olunmuşdur ki, bu da ekoloji tarazlığın qorunmasına və parkda insanların rahat istirahətinə xidmət edəcəkdir. Parkda xüsusi drenaj sistemi qurulmuş, torpaq örtüyü orqanik materiallarla zənginləşdirilmişdir.

Ən müasir memarlıq üslubunda inşa edilən və 1 hektara yaxın ərazini əhatə edən parkda "Suyun nağılı" fəvvarələr sistemi qurulmuşdur. Buradakı 75 metrlik 2 su güzgüsü gözəlliyi ilə diqqəti cəlb edir. Parkda suvarma işləri avtomatik damcı sistemi ilə həyata keçirilir. Xüsusi layihə əsasında qurulan işıqlandırma sistemi gecə saatlarında həm parka, həm də inzibati binanın fasadına xüsusi gözəllik verir.



Vergilərin funksiyası



Sxem 6

rində mülkiyyət hüququ və ya təsərrüfat cəmiyyətində, yaxud təsərrüfat birliyində iştirakı ilə əlaqədar ("Müəssisələrin, birliklərin, təşkilatların gəlirlərindən və mənfəətlərindən vergilər haqqında" Azərbaycan Respublikasının Qanunu) onlara ödənilən hissəsi nəzərdə tutulur: 1) müəssisə ləğv edildikdə onun nizamnamə fonduna səhmdarın (payçının) ödədiyi haqqı aşmayan həcmdə pul formasında və ya natural formada ödəmələr; 2) müəssisənin səhmdarlarına (payçılarına) səhmlər (paylar) şəklində ödəmələr. Bu şərtlə ki, belə ödəmələr müəssisənin nizamnamə fondunda səhmdarlardan (payçılardan) heç birinin iştirakının faiz payını (hissəsini) dəyişdirməsin.

Müəssisənin mənfəətlərində iştirakı nəzərdə tutan sazişlərdən (borc öhdəliklərindən) yaranan gəlirlər də dividendlərə bərabər tutulur.

VERGİTUTMA OBYEKTİ – subyektin vergini ödəmək vəzifəsini şərtləndirən hüquqi faktlar. Vergitutma obyekti gəlir, mənfəət, əmlak, torpaq, faydalı qazıntılar, təqdim edilmiş malların (işin, xidmətin) dəyəri və ya Vergi Məcəlləsi ilə müəyyənləşdirilən digər vergitutma ob-

yektləridir. Verginin hesablanması üçün verginin dərəcəsi vergitutma obyektinə tətbiq olunur.

VERGİTUTMA VAHİDİ – vergi bazasının kəmiyyətcə ifadəsi üçün istifadə olunan vergitutma miqyasının vahidi; məsələn, avtomobil nəqliyyatı vasitələrinin sahiblərindən tutulan verginin miqyası avtomobilin mühərrikinin gücüdür. Mənfəət və gəlirlərdən vergi tutularkən vergitutma vahidi qismində milli pul vahidi çıxış edir.

VERİFİKASİYA – material və sənədlərin həqiqiliyinin yoxlanılması.

VERİM NORMASI (ing. *rate of return*) – ayrıca götürülmüş müəssisədə istifadə olunan aktivlərə faiz nisbətində alınan mənfəət.

VERİMİN AZALMASI QANUNU – istehsalın həcminin, digərlərinin təsbit edilməsi zamanı bir dəyişən resursun dəyişilməsindən asılılığını göstərir; başqa sözlə, elə prinsipdir ki, burada dəyişən resursların ardıcıl bərabər artımı zamanı sabit resurslardan istifadənin hər hansı müəyyən səviyyəsindən yuxarı həddi həmin sabit resurslara əlavə olunur, sabit resursun son hədd məhsulu isə azalır.

Bu qanunun digər adları: "Son məhsuldarlıq həddinin azalması qanunu", "Dəyişən proporsiyalar qanunu"dur. Verimin azalması qanunu təsdiq edir ki, hər hansı bir istehsal amilindən istifadənin artması ilə (digərlərinin dəyişməzliyi şərti ilə) tez və ya gec elə bir səviyyəyə nail olunur ki, bu zaman dəyişkən amilin əlavə istifadəsi məhsul buraxılışının əvvəlcə nisbi, sonra isə mütləq həcminin aşağı düşməsinə gətirib çıxarır. Amillərdən birinin istifadəsinin artması (digərlərinin təsbit edilməsi şərti ilə) onun tətbiqinin mərhələlər üzrə aşağı düşməsinə gətirib çıxarır. Verimin azalması qanununu formalaşdırmağa dair əsas ideyalar C.Andersona məxsusdur. O, bu məsələni diferensial renta nəzəriyyəsi ilə bağlı işləyib hazırlamışdır. Anderson qaytarılmanın azalması qanununa torpağın məhsuldarlığının azalması qanunu kimi baxmışdır. Diferensial renta nəzəriyyəsi çərçivəsində azalan məhsuldarlıq qanunu D.Rikardo, T.Maltus, C.Mill və daha ümumi formada İ.Fon Tyunenin əsərlərində sonrakı inkişafını almışdır. Verimin azalması qanununun müasir dövrdə səslənməsi və geniş yayılması C.Klarkın əməyi ilə bağlıdır, onu "universal qanunların" üçündən biri kimi adlandırmışdır. Verimin azalması qanunu nəzəri cəhətdən heç vaxt ciddi göstərilməmişdir. O, eksperimental yolla aşkara çıxarılmışdır (əvvəlcə kənd təsərrüfatına, sonra isə digər sahələrə münasibətdə), mahiyyətcə, məhsul istehsalında formalaşan müxtəlif amillər arasında müəyyən proporsiyalara riayət olunmasının zəruriliyinə, bu amillərin mütləq qarşılıqlı əvəzlənməsinin olmamasına, onların ancaq müəyyən hədlərdə əvəz edilməsinə əsaslanır. Resurslardan birinin tətbiqinin həddən artıq artmasında təcəssüm olunan proporsiyaların pozulması resursların qarşılıqlı əvəz edilməsinin sərhədlərini çox tez poza bilər və nəticədə onun qeyri-səmərəli istifadəsinə gətirib çıxarar (əgər digər istehsal amilləri dəyişməz qalarsa). Verimin azalması qanunu mütləq deyil, nisbi xarakter daşıyır. Birincisi, o, tətbiq olunandan və istehsal amillərindən heç olmazsa biri dəyişməz qalarsa, qısamüddətli dövrdə fəaliyyət göstərir. İkincisi, texniki tərəqqi onun sərhədlərini daim artırır, yeni texnika və texnologiyaya keçid prinsipinin özünün saxlanması ilə dəyişən amilin səmərəliliyin azaldığının başlandığı nöqtəni üstələyir.

VƏ FAİZLƏR – belə səhmləri əldə edənlər həm səhmin dəyərini, həm də ona gələn faizləri alır.

VƏKALƏTLİ ƏMANƏT BANKI (ing. *trustee savings bank*) – əmanət və vəkalət əməliyyatlarını həyata keçirən bank. Böyük Britaniyada kooperativ bankların bir növüdür. Qarşılıqlı əmanət bankları kimi səhmdar kapitalına malik deyil, adətən, yerli hakimiyyət orqanları tərəfindən təyin edilən müvəkkillər şurası tərəfindən idarə olunur. Regional bankların fəaliyyəti London Klirinq Palatasının üzvü olan Mərkəzi Vəkalətli Əmanət Bankı tərəfindən koordinasiya olunur. Yerinə yetirilən əməliyyatların dairəsinə görə kommersiya əməliyyatlarına uyğun əməliyyatlar aparır: çek hesablarını tətbiq edir, kredit kartları buraxır, istehlak kreditlərinin və ipoteka ssudalarının verilməsi təcrübəsi ilə məşğuldur. Qarşılıqlı əmanət banklarında olduğu kimi, bu banklarda da ödənilən faizlər kommersiya banklarındakından aşağıdır.

VƏLİYEV AĞALAR İSRƏFİL OĞLU (1957) – Azərbaycan Respublikasının əməkdar



mühəndisi. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Sənaye və mülki tikinti fakültəsini bitirmişdir. 1976-cı ildən Yevlax dəmir-beton məmulatı zavodunda fəhlə, texnik-laborant, mühəndis, şöbə rəisi, baş mühəndis, direktor vəzifələrində çalışmışdır. 1991-ci ildən "Azəravtoyol" İstehsalat Birliyi Yevlax Körpütikinti Kombinatının baş direktoru, 1993-cü ildən Yevlax 2 saylı "Yoltəmirtikinti" trestinin rəisi, 1996-cı ildən "Azəraqrartikinti" Dövlət Şirkətinin prezidenti olmuşdur. 1998-ci ildən "Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədridir. Səhmdar Cəmiyyət respublikanın tikinti kompleksində oz dəstixətti və xususi çəkisi ilə seçilir və ölkədə aparılan geniş miqyaslı tikinti, quraşdırma, yenidənqurma işlərində yaxından iştirak edir.

Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvüdür. Azərbaycan–Sloveniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəridir. ATƏT-in Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin, Avstriya, Belarus, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü kimi iqtisadi qanunvericilik bazasının təkmilləşdirilməsi işində fəal iştirak edir.

VƏLİYEV TEYMUR SÜLEYMAN OĞLU (1926-2002) –



Azərbaycanın görkəmli iqtisadçı alimi, AMEA-nın müxbir üzvü (1983), əməkdar elm xadimi (1981). 1947-1951-ci illərdə K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda təhsil almışdır. Respublikada iqtisadiyyat üzrə doktorluq dissertasiyası müdafiə edən (1966) ikinci alimdir. 1966-1971-ci illərdə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun tədris işləri üzrə prorektoru, 1971-1992-ci illərdə ADU-nun siyasi iqtisad kafedrasının müdiri, 1977-1989-cu illərdə universitetin tədris işləri üzrə prorektoru, 1992-2000-ci illərdə yenidən Azərbaycan İqtisad Universitetinin elmi işlər üzrə prorektoru vəzifələrində çalışmış, 2000-2002-ci illərdə BDU-nun iqtisadiyyat kafedrasının professoru kimi fəaliyyət göstərmişdir. 350 çap vərəqi həcmində olan 200-ə qədər elmi əsərin müəllifidir. Onun elmi rəhbərliyi ilə 20 nəfərdən çox elmlər namizədi və doktoru hazırlamışdır.

Uzun müddət Azərbaycan Siyasi İqtisad (iqtisadi nəzəriyyə) elmi məktəbinə rəhbərlik etmiş, "Sovet respublikasının iqtisadi inkişaf səviyyələrinin tarazlaşması qanunauyğunluqları" (Bakı, 1969, 350 s.), "Sosialist ictimai ərazi əmək bölgüsü" (Bakı, 1976, 136 s.), "Yetkin sosializm iqtisadiyyatının dinamik inkişafı" (Bakı, 1983, 176 s.), "Azərbaycan iqtisadi fikir tarixi" (Bakı, 1996, 223 s.), "İqtisad elminin nəzəri əsaslarının tarixi təkamülü" (Bakı, 1999, 284 s.), "İnfrastrukturlar: mahiyyəti, təsnifatı və əhəmiyyəti" (Bakı, 2000, 169 s.) kimi fundamental monoqrafiyalar yazmışdır.

T.Vəliyevin elmi-tədqiqat istiqamətlərində istehsal münasibətləri, mülkiyyət kateqoriyası, onun formaları, reallaşdırılması obyekti və subyekti kimi ciddi elmi məsələlər də mühüm yer tutur. Təqdimatlarında qeyd olunur ki, məhz mövcud mülkiyyət forması ona adekvat istehsal münasibətlərinin əsasını təşkil edir, iqtisadi-sosial inkişafa dinamik qüvvə kimi katalizator gücü verir.

İqtisadi inkişaf səviyyələrinin tarazlaşmış qanunauyğunluqlarını aşkar etməklə o, bunları ədalətin, humanizmin əlaməti kimi xarakterizə etmişdir. Onun əmək bölgüsü haqqında mülahizələri o dövrün sosializm və bazar, sosializm və əmtəə-pul münasibətləri kimi aktual məsələlərinə aydınlıq gətirir. İqtisad elminin yeni prinsiplər və tələblər səviyyəsində inkişafının ilk təşəbbüskarlarından biridir. T.Vəliyevin diqqət mərkəzində duran mühüm elmi məsələlərdən biri də xalqımızın iqtisadi fikir tarixinin obyektiv araşdırılması olmuşdur. O, həmin sahədə tarixdə ümumbəşəri dəyərləri ilə məşhur olan mütəfəkkirlərimizin əsərlərində ifadə olunan iqtisadi fikirləri üzə çıxarmaq kimi nəcib elmi məqsədi qarşısına qoymuşdu. Alim öz həmkarları ilə birgə Azərbaycan iqtisadi fikir tarixinə həsr edilmiş iki monoqrafiyanın aparıcı müəlliflərindən biridir. Onlardan biri

1987-ci ildə rus dilində nəşr olunmuşdur. Həmkarı dosent A.Həsənovla yazdığı və 1996-cı ildə çapdan çıxan ikinci kitabda tarixi və məntiqi prinsipi rəhbər tutmaqla, iqtisadi ideyalar daha da dərinləşdirilmiş, müxtəlif tarixi mərhələlərdə xalqımızın iqtisadi, sosial həyat tərzi, mütərəqqi təkamül prosesi yüksək səviyyədə işıqlandırılmışdır. Çoxsaylı dərsliklərin, o cümlədən Azərbaycanda ilk "İqtisadi nəzəriyyə" dərsliyinin (1995) redaktoru və müəlliflərindən biri olmuşdur.

Uzun müddət bir sıra iqtisadi jurnalların, o cümlədən «Экономические науки» jurnalının redaksiya heyətinin üzvü (1972-1987) olmuşdur.

VƏLİYEV DÜNYAMALI ƏMİR OĞLU (1942) – Azərbaycanın iqtisadçı alimi, i.e.d.



1966-cı ildə BDU-nun iqtisadiyyat fakültəsini bitirmişdir.

1971-ci ildə AMEA-da "Müasir Türkiyənin dövlət borcları" mövzusunda namizədlik, 2010-cu ildə isə "Azərbaycanın qlobal maliyyə-iqtisadi mühitə inteqrasiyasının aktual problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 10 kitab və 100-dən çox məqalənin müəllifidir. Əsərlərində dünya iqtisadiyyatı, beynəlxalq maliyyə, qlobal iqtisadi inteqrasiya, Azərbaycanın xarici iqtisadi inkişaf strategiyası problemləri tədqiq olunmuşdur.

1971-ci ildən AMEA-nın Şərqşünaslıq İnstitutunda elmi işçi, şöbə müdiri, direktor müavini vəzifələrində çalışmış, 1995-ci ildən Azərbaycan Universitetində "Ümumi iqtisadiyyat" kafedrasının müdiridir.

VƏLİYEV VİLAYƏT MƏMMƏD OĞLU (1960) – Azərbaycan iqtisadçısı, i.e.d., prof.



1983-cü ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir.

1990-cı ildə "Neft-qaz çıxarmanın regional planlaşdırılması məqsədi ilə neft hasilatı və onun ehtiyat artımının optimal proqnozlaşdırılması" mövzusunda namizədlik, 2007-ci ildə "Qeyri-müəyyənlik və risk şəraitində karbohidrogen resurslarının mənimsənilməsi prosesinin iqtisadi-riyazi modelləşdirilməsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Respublikada və xaricdə nəşr olunmuş 70-dən çox elmi məqalənin müəllifidir. 6 elmlər namizədi hazırlamışdır. Hazırda Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun direktorudur.

VƏRƏSƏSİZ ƏMANƏT – varissiz sahibin ölümündən sonra qalmış əmanət.

VƏTƏNDAŞIN İŞƏDÜZƏLMƏ HÜQUQU – vətəndaşın işəgötürənlərə və pulsuz vasitəçilik xidməti göstərən məşğulluq mərkəzlərinə birbaşa müraciət etməklə iş yerini seçmək hüququ. İşəgötürmə vətəndaşla işəgötürən arasında əmək müqaviləsinin bağlanması yolu ilə həyata keçirilir. Əmək müqaviləsinin bağlanması qaydası və şərti müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

VƏTƏNDAŞLARA MƏXSUS TİKİLİLƏRİN SIĞORTALANMASI – yanğın, partlayış, ildırım vurması, sürüşmə, leysan, bədbəxt hadisə, istilik sisteminin, su kəməri şəbəkəsinin qəzası və s. nəticəsində tikililərin məhv olması və ya zədələnməsi zamanı əmlak sığortası növü.

VƏTƏNDAŞLARIN GƏLİRİ – ayrı-ayrı şəxslərin gəliri.

Vətəndaşların gəliri aşağıdakı mənbələr hesabına formalaşır:
– əmək haqqı;
– pensiyalar;
– təqaüdlər;
– dövlət müavinətləri;
– dividendlər;
– ev təsərrüfatı məhsullarının satışı.

Pensiyalar, təqaüdlər, müavinətlər və qanunvericilik yolu ilə müəyyən edilmiş bəzi başqa gəlirlər istisna olmaqla, vətəndaşların gəlirlərindən vergi tutulur, həmin vergilər hesabına dövlətin gəliri yaranır.

VƏZİFƏ – strukturun əsas təşkilati ünsürü kimi ştat vahidi və ya iş yeri. Vəzifə xarakteristikasında təminata uyğun iş yerində yerinə yetiriləcək xüsusi vəzifələr, onların yerinə yetirilməsi üçün səlahiyyətlər və bacarıqlar, həmçinin, xidməti iyerarxiyadakı yer göstərilir.

VƏZİFƏ MAAŞI – müəssisədə, dövlət idarəsində və digər təşkilatlarda yüksək vəzifə tutan şəxslərə ay ərzində ödənilməli əmək haqqının tarifi.

Vəzifə maaşı sabit məbləğ kimi müəyyən edilir və dəyişdirilə

bilməz. İşçinin aylıq vəzifə maaşından cərimələr, tutulmalar (məsələn, maddi məsul şəxs tərəfindən əskikgəlmələrin ödənilməsi üzrə) çıxıla bilər. İşçilərə vəzifə maaşından əlavə *mükafatlar da ödənilə bilər.*

Bütün dünyada vəzifə maaşı işçilərin əməyinin ödənilməsi üçün heç də ən səmərəli üsul hesab edilmir. Lakin vəzifə maaşı, əsasən, inzibati və idarəetmə heyətinə, büdcə sahəsinə aid işçilərə və bəzi başqalarına münasibətdə tətbiq edilir.

Azərbaycanda əməyin vəzifə maaşı kimi ödənilməsi indiyə qədər çox geniş yayılmışdır. Bu ondan irəli gəlir ki, SSRİ-də əmək haqqı bütün işçilərə aylıq maaş üzrə hesablanırdı. Buna görə də müəssisələrin çoxu, hətta bazar münasibətlərinə keçdikdən sonra da əmək haqqını adət üzrə bu qaydada ödəməkdə davam edirlər.

VƏZİFƏ TƏLİMATI – bu təlimata əsasən müəssisədə, firmada vəzifəli şəxsə müəyyən tapşırıqlar, işlər, vəzifələr yerinə yetirmək tövsiyə edilir.

Vəzifə təlimatı əmək kollektivində münasibətləri tənzimləməyə imkan verən sənədlərdən biridir. Vəzifə təlimatlarının işlənib hazırlanması hər bir işçinin vəzifələrinin əhatə dairəsini dəqiq müəyyən etməyə, ikiqat işdən (yəni eyni bir işin müxtəlif şəxslər tərəfindən yerinə yetirilməsindən) yaxa qurtarmağa, eləcə də istehsalın və məhsulun (işlərin, xidmətlərin) satışının bu və ya digər sahəsinə görə cavabdeh şəxsləri müəyyən etməyə imkan verir. Kollektivi onlarla, bəzən yüzlərlə işçidən ibarət olan *iri müəssisələrdə vəzifə təlimatları xüsusilə aktualdır.*

Qərb ölkələrində vəzifə təlimatlarında çox vaxt bu və ya digər vəzifəni tutan şəxsin riayət etməli olduğu əxlaqi-etik normalar da göstərilir.

VƏZİFƏLİ ŞƏXS – dövlət müəssisəsində çalışan və kifayət qədər yüksək vəzifə tutan, mühüm qərarlar qəbul etmək, hüquqi əhəmiyyətli tədbirləri həyata keçirmək səlahiyyətləri olan işçi.

Ümumi mülki hüququn bütün sahələrində istifadə edilən *"vəzifəli şəxs"* anlayışı həmin sahələrin hamısı üçün eyni məna daşıyır. Məsələn, cinayət hüququnda vəzifəli şəxs anlayışına vəzifə cinayətləri deyilən cinayətlərin xüsusi subyektləri daxildir.

Vəzifəli şəxslərə aşağıdakılar aiddir:

– nazirlik və idarələrin rəhbərləri, eləcə də onların yerli və mərkəzi hakimiyyət orqanlarındakı müavinləri;

– müəssisələr səviyyəsində direktorlar, şöbə rəisləri və digərləri.

VİDEO KONFRANSLAR – telefonla ikitərəfli ünsiyyətdir ki, video aparatının tətbiqi vasitəsilə video sırası ilə müşayiət olunur.

VİKRİ (VİCKREY) UİLYAM SPENSER (1914-1996) – Amerika iqtisadçısı, vergiqoyma, rifah səviyyəsi iqtisadiyyatı, qiymətqoyma, şəhər nəqliyyatı problemləri üzrə 8 kitabın, 150-dən çox məqalə və nəşrlərin müəllifidir.



1996-cı ildə "Asimmetrik informasiyaların mövcudluğu zamanı stimullar iqtisadi nəzəriyyəsinə fundamental töhfəyə görə" Nobel mükafatı laureatı adına (C.Mirrlislə birgə) layiq görülmüşdür.

1935-ci ildə Konnektikut ştatında yerləşən Nyu-Neyvendə Yel Universitetini bitirmiş, magistr (1937) və doktorluq (1947) dərəcəsini Kolumbiya Universitetində almışdır. Vergiqoyma problemləri üzrə ABŞ və digər ölkələrdə, həmçinin, BMT-də hökumət və digər təşkilatlarda dəfələrlə məsləhətlər vermişdir. Onun tədqiqatlarının predmeti tam informasiyanın (informasiya asimmetriyası) olmadığı şəraitdə hökumət, xüsusi şirkətlər, həmçinin istənilən təşkilatlar tərəfindən strateji qərarların öyrənilməsi olmuşdur. Vikri vergiqoymanın optimal səviyyəsinin tapılmasını özünün əsas vəzifəsi hesab etmişdir. O yazırdı ki, həmin səviyyə əməyə olan stimulları "boğmağa" deyil, işçiləri stimullaşdırmağa xidmət etməlidir. Ötən əsrin 40-cı illərinin axırlarında iqtisadi səmərəlilik və sosial bərabərliyin tələbləri arasında balansa nail olunan mütərəqqi vergiqoyma sisteminin təşkil edilməsini göstərən model qurmuş, vergiqoymanın optimal sisteminin yaradılması ilə bağlı olan iki fundamental problemi ilk dəfə olaraq dürüst göstərmişdir. 25 ildən sonra Mirris Vikrinin modeli bazasında optimal mütərəqqi vergiqoyma modelinin yaradılması ilə bağlı problem daha təkmil həllini tapmışdır.

Vikri iqtisadi stimulların işlənib

hazırlanmasında pioner olmuşdur. Onun tədqiqatlarının mühüm hissəsi müxtəlif növdən olan auksionların fəaliyyət mexanizminə toxunurdu və onun mühüm komponenti informasiya asimmetriyasıdır. Müəyyən növdən olan auksionlar üçün işlənib hazırlanmış, sosial cəhətdən arzu edilən stimullara çatmaq məqsədilə resursların bölgüsü mexanizminin təhlilinə Vikrinin fundamental yanaşmaları, verilən layihələrin potensial sponsorlar tərəfindən ödənişə həqiqi hazırlığını aşkara çıxarmaq, tələb olunanda müxtəlif ictimai layihələrin qiymətləndirilməsində sonrakı tətbiqini tapdı. Vikrinin əsərləri ictimai xidmətlər sferasında qiymətqoyma sahəsində də praktik əhəmiyyətə malik olmuşdur. Bu iqtisadi nəzəriyyədə yeni istiqamət formalaşdırmış, əsas komponenti informasiya asimmetriyası olan sığorta bazarları, kredit bazarları, auksionlar, firmanın daxili təşkili, vergiqoyma sistemi, sosial sığortanın daha dərin anlaşılmasına imkan vermişdir.

VİKSELEM MODELİ – ictimai nemətlərin verilməsinin təhlili ilə bağlı K.Vikselin tərəfindən təklif olunan könüllü mübadilə modeli.

Bu modelə görə: 1) hər bir ictimai nemət xüsusi vergi hesabına maliyyələşməlidir; 2) həmin nemətin hansı miqdarda verilməsi barədə cəmiyyətin bütün üzvlərinin yekdilliyi lazımdır. Həmçinin, fərdlər əvvəlcə verəcəkləri (ödəyəcəkləri) vergi barədə məlumatlandırılmalı, daha sonra isə nemətin verilmə səviyyəsi barədə məsələ həll olunmalıdır.

VİKSEL KNUT (1851-1926) – Viksel 1851-ci ildə Stokholmda orta sinfə aid ailədə anadan olmuşdur və həyatında ilk dərəcəni riyaziyyat üzrə 1876-cı ildə Upsala Universitetində almışdır. Sosial problemlərə olan marağı onu o dövrdə doğumun məhdudlaşdırılması nəzəriyyəsi adlanan neomaltusizmə, sonralar isə iqtisadi nəzəriyyənin öyrənilməsinə gətirmişdir. 1885-ci ildə Vikselə qalan kiçik miras ona iqtisadi nəzəriyyənin öyrənilməsi üçün nəinki İngiltərə, Fransa, Almaniya və Avstriyanı səyahət etməyə, həmçinin, o dövrün aparıcı islahatçıları ilə görüşməyə imkan vermişdir.



Tarix Knut Viksel qədər ziddiyyəti başqa bir iqtisadçı tanımamışdır. Viksel iqtisadçılar arasında Rikardo, Tünnen, Valras və Bem-Baverki özü üçün dörd avtoritet seçmişdir və öz həyatını ümumi müvazinət, Avstriya kapital, faiz və son həddi məhsuldarlığına əsaslanan bölüşdürmə nəzəriyyələrinin birləşdirilməsinə həsr etmişdir. Onun birinci işi olan "Dəyər, kapital və renta" (1893) kitabı, sadəcə, daha böyük "Siyasi iqtisad üzrə mühazirələr" kitabına (1901-1906) müqəddimə idi. Bu kitabdan əvvəl dövlət maliyyəsi sahəsinə aid "Maliyyə nəzəriyyəsi üzrə tədqiqatlar" (1896) və monetar iqtisadiyyat sahəsi üzrə digər işi "Faiz və qiymət" (1898) nəşr olunmuşdur.

1895-ci ildə o, vergi yükü haqqında dissertasiya yazaraq Upsala Universitetində doktor dərəcəsini almış, 1899-cu ildən 1916-cı ilə qədər burada dərs deyərək iqtisadi nəzəriyyə üzrə ilk üç kitabına birini də əlavə etmişdir – "Siyasi iqtisad üzrə mühazirələr".

Vikselin kitabları Kembric, Avstriya və Lozanna məktəblərinin mülahizələrini özündə birləşdirərək iqtisadi nəzəriyyəyə çoxsaylı düşəlişlər və təkmilləşmələr gətirmişdir. Onun faydalılıq haqqında irəli sürdüyü mülahizələr Cevonsun, Menqer və hətta, Valrasın fikirlərini təkmilləşdirmişdir, onun son həddi məhsuldarlığı haqqındakı fikirləri isə Uistid, Barone və Con Beyts Klarkın müvafiq fikirlərini üstələmişdir.

Viksel mükəmməl rəqabətin resursların effektiv yerləşdirilməsində müsbət roluna baxmayaraq, gəlirlərin "ədalətli" bölgüsünü təmin etmədiyini başa düşmüş ilk iqtisadçı idi.

Onun şah əsəri olan "Faiz və qiymətlər" kitabında Viksel Tukun qiymət səviyyəsi pulun kəmiyyəti ilə deyil, əmtəə və xidmətlərə ümumi xərclərlə ifadə olunan milli gəlirlə müəyyən edən qeyri-kəmiyyət pul nəzəriyyəsinə qayıdaraq əhəmiyyətli dərəcədə müasir makroiqtisadiyyatın əsaslarını qoymuşdur. Tukun arqumentasiyasından imtina edərək, Viksel köhnə kəmiyyət nəzəriyyəsinə yenilik gətirdi. Burada o, xərc axınlarını vurğulayaraq, pul kəmiyyətinin birbaşa kassa qalıqları vasitəsi ilə qiymətlərə təsirini faiz dərəcəsinin tərəddüdlərinin qiymətlərə dolayı təsirindən ayırmışdır.

Viksel 1926-cı ildə 74 yaşında vəfat etmişdi.

VİNDİKASİYA İDDİASI – cavabdehə yad, qanunsuz sahib olmadan öz əmlakını (əşyasını) tələb etmək haqqında mülkiyyətçinin iddiası, əmlakın geri qaytarılması haqqında sahib olan qeyri-mülkiyyətçiyə sahib olmayan mülkiyyətçinin iddiası. Bu halda mülkiyyətçi özünün başqası tərəfindən qanunsuz ələ keçirilmiş əmlakının geri alınmasını tələb edir. Bir sıra dövlətlərdə vindikasiya iddiasına əsasən mülkiyyətçi tərəfindən öz əmlakının tələb edib almaq qaydası ona əsaslanır ki, daşınmaz əmlakın sahibi onun mülkiyyətçisidir.

VİP (ing. *VİP, very inportant person*) – 1) Beynəlxalq münasibətlər sistemində "xüsusi əhəmiyyətli persona" ifadəsinin ixtisar edilmiş forması; məsələn, ali dövlət vəzifələrindən birini tutan şəxs, ictimai xadim və s. beynəlxalq etiketə görə, bu cür şəxslərin qəbul edilməsinin xüsusi qaydaları nəzərdə tutulur.

VİREMENT – bankın müştərisinin pul vəsaitlərinin bir hesabdan digər hesaba nağdsız köçürülməsi. Virementdən sığorta və təkrar sığorta müqavilələri üzrə hesablaşmalarda istifadə edilir.

VİRTUALLIQ – real obyektin ən yeni informasiya texnologiyaları və telekommunikasiya vasitələrinin köməyi ilə generasiya edilən, onunla fiziki əlaqəsi olmayan obrazı.

VİRTUAL BİRJA – informasiya texnologiyaları və telekommunikasiya vasitələri sayəsində istifadə olunan işgüzar əlaqələrin özü özünə xidmət edən sistemi. Bu sistemdə "oferta-aksept" rejimində əqdlərin rəs- miləşdirilməsi zamanı hər bir istifadəçi vasitəçilərsiz çıxış edir və göstərilən xidmətlər müqabilində faiz dərəcələri tətbiq olunmur.

VİRTUAL KOLLEKTİV – müəyyən spesifik xidmətlərə tələbat yarandıqda müvafiq mütəxəssislərin (insan qruplarının) potensial imkanlarının məqsədyönlü şəkildə, lazımi xidmətləri təqdim edə biləcək sistem kimi (təşkilat kimi fiziki kollektiv təsis edilmədən) birləşdirilməsi.

VİRTUAL KORPORASİYA – biznesin baza növünü, onun təchizatçılarını və istehlakçılarını əhatə edən işgüzar bazar mühiti. Onların fəaliyyəti informasiya və telekommunikasiya texnologiyası vasitəsi ilə inteqrasiya edilir və əlaqələndirilir.

VİRTUAL MAŞIN – bu konsepsiya ötən əsrin 60-cı illərinin sonunda ABŞ-ın Massaçusets ştatındakı Kembric Universitetində meydana gəlmişdir. Bu sistemlər bir kompüterin daxilində müxtəlif məqsədlər üçün yaradılmışdır və müxtəlif fərqli əməliyyat sistemləri ilə işləməyə imkan verir. Virtual maşın sistemlərini tətbiq edərək, kompüter daxilində "yeni kompüterlər" yaratmaq üçün əsas kompüterin sürətinin və operativ yaddaşının kifayət qədər böyük olması zəruri şərtlərdən biridir. Bu cür işləmək üçün kifayət qədər "güclü" kompüterə malik olmaq lazımdır.

VİRTUAL RESURS – intellektual resursların (biliklər, təcrübə və s.) virtual şəkildə, yəni onlarla fiziki əlaqəsiz istifadə edilə biləcək xüsusi növü.

VİRTUAL TƏŞKİLAT – müəyyən xassələrə və parametrlərə malik olan bütöv obyektin elementləri arasında münasibətlərin, funksional əlaqələrin elektronika vasitələri ilə imitasiya edilən sistemi. Arxitektorlar, dizaynerlər və proqramçılar bu sistemdən təşkilatçının niyyətlərini obrazlı şəkildə bədii təqdimatı üçün istifadə edirlər.

VİRTUAL ŞİRKƏT (ing. *virtual company*) – 1) təşkilatdır, virtual reallıqda, məsələn, internet şəbəkəsinin kibernetik fəzasında fəaliyyət göstərən şirkət. Belə şirkətin bütün istehsal fəaliyyəti prosesi məhz bu virtual reallıqda həyata keçirilir. Onun idarə edilməsi isə həm virtual fəzada, həm də real gerçəklikdə baş verir. Məsələn, maliyyə hesablaşmaları prosesi adi qaydada həyata keçirilir. İdarəetmənin bu üsulu ***paralel menecment*** adlanır. Virtual şirkətlər, məsələn, kompüter proqramlarının, bilavasitə toxunulmaqla hiss edilməyən ayrı-ayrı nemətlərin alqı-satqısı sahəsində, konsaltinqdə, həmçinin, reklam biznesində fəaliyyət göstərir; 2) iri layihənin icrası müddətinə müvəqqəti yaradılmış, çox vaxt təşkilati baxımdan rəsmiləşdirilməmiş, bir sıra şirkətlərin istehsal, maliyyə və intellektual qüvvələrini bir yerə cəmləşdirən müəssisə. İşgüzar fəallıq, güclərin birləşdirilməsi və qarşılıqlı təsir informasiyanın ötürülməsi, kompüter şəbəkələrinin tətbiqi ilə telekonfransların keçirilməsi vaxtı dəqiq koordinasiya hesabına əldə edilir.

VİRTUAL YADDAŞ – kompüter tərəfindən yerinə yetirilən proqramın ölçüsü, tətbiqi yad-

daş qurğusunun ölçüsündən böyük olduqda istifadə olunan müvəqqəti yaddaş. Məsələn, kompüterin tətbiqi yaddaş qurğusunun ölçüsünün cəmi 64 Mbayt olduğuna baxmayaraq, o 4 "Qbayt" qədər virtual yaddaşdan istifadə edə bilər.

VİRULENTLİK – ətraf mühitə təsir edən əlverişsiz amillərin məcmusu.

VİTRİN – satış üçün təqdim olunmuş müxtəlif predmetləri nümayiş etdirmək üçün şüşələnmiş yeşik, şkaf və ya pəncərə. Vitrin ticarət reklamının mühüm vasitəsi kimi ticarətdə geniş tətbiq edilir. Vitrinin tərtibatının əsasını təbii malın reklam nümayişi prinsipi təşkil edir. Bir qayda olaraq, vitrinin kompozision tərtibatının elementləri kimi istifadə edilən və ya mağazanın inventarı olan mal nümunələri satılmır.

VİTTE SERGEY YULİYEVİÇ (1849-1915) – holland mənşəli rus dövlət xadimi,



qraf (1905). 1892-ci ildə Rusiya imperiyasının Yollar və maliyyə naziri, 1903-cü ildə Nazirlər Kabinetinin, 1905-1906-cı illərdə Nazirlər Şurasının sədri işləmişdir. Şərab inhisarının tətbiqinin (1894), qızıl monometallizminin tətbiqi ilə nəticələnən pul islahatının (1897), Sibir dəmir yolu tikintisinin təşəbbüskarı olmuşdur. Stolıpinin aqrar islahatlarının bəzi müddəalarını işləmişdir, məşhur 1905-ci il 17 oktyabr manifestinin müəllifidir.

VIZER FRIDRIX FRAYXERR FON (1851-1926) – avstriya iqtisadçısı, avstriya



məktəbinin nümayəndəsi. 1883-cü ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1883-1902-ci illərdə Paris Universitetinin professoru olmuşdur. 1903-1926-cı illərdə Vyanada K.Mengerin kafedrasına rəhbərlik etmişdir. 1917-1918-ci illərdə Avstriya-Macarıstan İmperiyasında ticarət naziri işləmişdir.

Elmi fəaliyyətinin əsas hissəsini avstriya məktəbinin ideyalarının əsaslandırılması təşkil edir. O marjinalizmin bir çox ideyalarına ad və izah verdiyinə görə məşhurlaşmışdır. İlk dəfə olaraq məhz o "son faydalılıq", "Hossenin birinci qanunu" kimi terminləri iqtisadi ədəbiyyatlara gətirmişdir.

VİZER QANUNU – bu, istənilən əşyanın real dəyəri və faydalılığıdır, digər resurslardan hazırlana biləcək digər əşyaların əldə olunmayan faydalılığıdır ki, bu, əşyanın alınmasına sərf olunur. Bu prinsipə müvafiq olaraq, rəqabət aparan şirkətlərin istehsal amilləri hər bir istehsala əlverişli olan kəmiyyəti məhdudlaşdırır. Həmçinin, sözügedən istehsalda məhsulun qiyməti bu amillərdən alternativ yolla istifadə nəticəsində əldə qiymətlilərin məbləğindən aşağı ola bilməz. F.Vizer hesab edirdi ki, məsrəflər, faydalılıq kimi qurbanlar gətirir.

F.Vizer dövlətin iqtisadiyyata fəal hərəkətlərinin tətbiqinə qarşı çıxırdı. Alim insanları öz mülkiyyətlərini qorumağa çağırırdı. Həmçinin, o, xüsusi mülkiyyəti özünü doğruldan yeganə mümkün təsərrüfatçılıq forması hesab edirdi.

VOSTRO HESABLARI – valyuta əməliyyatlarının mühasibat uçotunda, bank və ya digər təşkilatlardakı depozitdə dollar (və ya digər valyuta) aktivləri olan xarici müxbir bankların hesabları. "Nostro" hesablarından fərqli olaraq, hərfi mənada, bu termin "sizin hesabınız" deməkdir.

WWW (WORLD WİDE WEV) – "Ümumdünya hörümçək toru" adlanıb, internet vasitəsilə ötürülən sənədlərdən ibarətdir. Ümumdünya Torunun **(WWW)** əsasını lazımi sənədlərin ünvanlarını göstərən əla-



qələr sistemi təşkil edir. Əlaqənin yaradılması texnologiyalarından asılılığı aradan qaldırmaq məqsədilə "WWW" üçün xüsusi ünvan sistemi "URL" (universal ünvan göstəricisi) sənədin adı ilə birgə ona çatma protokolunu da göstərir.

Y

YAQUBOV SAKİT MƏMMƏDİ OĞLU (1953) – Azərbaycan iqtisadçısı, i.e.d., prof.



1980-ci ildə Moskva İqtisadi-Statistika İnstitutunda "Heyvandarlıqda əmək məhsuldarlığının iqtisadi-statistik tədqiqi" mövzusunda namizədlik, 1993-cü ildə həmin institutda "Azərbaycanda heyvandarlığın inkişafının statistik qiymətləndirilməsi metodologiyası və təhlili" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

S.Yaqubov statistika üzrə Azərbaycan Respublikasında ikinci elmlər doktorudur. O, 120 çap vərəqi həcmində 100 elmi və metodik əsərin, o cümlədən 2 monoqrafiya, 1 dərslik və 4 dərs vəsaitinin müəllifidir.

2000-ci ildən Azərbaycan Dövlət İqtisad Universitetində kafedra müdiridir.

YALANÇI SAHİBKARLIQ – kredit almaq, rüsumlardan azad olmaq və ya digər əmlak mənfəəti əldə etmək, yaxud qadağan edilmiş fəaliyyəti gizlətmək məqsədi ilə sahibkarlıq fəaliyyətini həyata keçirmək niyyəti olmadan müəssisə və ya digər hüquqi şəxsin yaradılması.

YAN TƏSİR – bir şəxsin əməllərinin başqalarının maddi rifahına təsiri.

YANACAQ SƏNAYESİ – müxtəlif yanacaq növlərinin çıxarılması və emalı ilə məşğul olan sənaye sahələrinin məcmusu. Yanacaq sənayesinə neftçıxarma, neftayırma, qazçıxarma, qazayırma, torf və şist sənayesi daxildir. Yanacaq sənayesi ağır sənayenin ən mühüm sahələrindən biridir. Azərbaycan Respublikası keçmiş SSRİ-nin yanacaq sənayesinin, xüsusilə də neftçıxarma və neft emalı sənayesinin formalaşmasında müstəsna rol oynamışdır. SSRİ 1941-1945-ci illər müharibəsində Bakı nefti olmasaydı, faşizm üzərində qələbə çala bilməzdi.


Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkənin yanacaq sənayesində yeni mərhələ başlanmış, onun ölkənin iqtisadi yüksəlişində, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya edilməsində rolu əhəmiyyətli dərəcədə artmışdır.

YANACAQ-ENERGETİKA KOMPLEKSİ – enerji resurslarının hasilatı və onların müxtəlif enerji növlərinə çevrilməsini reallaşdıran istehsal və xidmət sahələri məcmusu. Yanacaq-enerji kompleksinə karbohidrogenlər hasilatı, emalı, elektroenergetika və onunla bağlı saxlama, nəql, təchizat infrastrukturu daxildir. Mühüm sosial-iqtisadi multiplikator rolunu oynayan, yüksək investisiya tələb etməsi ilə fərqlənən yanacaq-enerji kompleksinin hər bir ölkənin enerji təhlükəsizliyinin əsasında dayanaraq makroiqtisadi göstəricilərinin formalaşmasında, sosial-rifah səviyyəsinin yüksəlişində əhəmiyyəti daim genişlənir. Hazırda dünya iqtisadiyyatında Yanacaq Energetika Kompleksinin investisiya tələbləri 1 trilyon ABŞ dollarından çoxdur.

"YANAN" PULLAR – iqtisadiyyatın müəyyən sahəsində daha yüksək (çox vaxt spekulyativ) mənfəət əldə etmək imkanı yarandıqda iqtisadiyyatın bir sahəsindən digərinə köçürülə biləcək pul vəsaitləri.


"Yanan" pullardan çox vaxt fond bazarında bu və ya digər qiymətli kağızların dəyərini artırmaq, yaxud azaltmaq məqsədilə spekulyativ oyunlar zamanı istifadə edilir. Bundan əlavə, xərcini qısa müddətdə çıxarmaq dərəcəsi yüksək olan qısamüddətli investisiya layihələrinin maliyyələşdirilməsində də "yanan" pullardan istifadə etmək olar.

Dünya yanacaq-enerji balansının strukturu



Qrafik 1

Dünya yanacaq-enerji balansı strukturunun qiymətləndirilməsi



Qrafik 2

Cədvəl 1

Azərbaycanda 2000-2008-ci illər dövründə neft hasilatı və emalı gücü arasında nisbət

Göstəricilər	İllər						
	2000	2002	2003	2005	2006	2007	2008
İstehsal, mln. ton	14,02	15,33	15,38	22,21	32,27	42,59	44,7
Emal, mln. ton	8,3	6,3	6,3	7,4	7,5	7,	7,37
Emal gücü, mln.ton ildə	20	20	20	20	20	20	20
Nisbət: güc/mədən	1,43	1,31	1,3	0,9	0,62	0,47	0,45
Hasilat və emal arasında fərq, mln. ton	5,71	9,16	9,04	14,73	24,72	35,06	37,33

"Yanan" pulların əsas xarakteristikası onların yüksək mobilliyidir. Bu cür pullar iqtisadiyyatın bir sahəsindən digərinə, eləcə də qısa müddətdə maksimum mənfəət qazanmaq üçün ölkənin və dünyanın müxtəlif regionları üzrə sürətlə hərəkət edir. "Yanan" pullar uzunmüddətli və yüksək məsrəf tələb edən layihələrin əsası ola bilməz.

YANĞINDAN VƏ DİGƏR KORTƏBİİ HADİSƏLƏRDƏN SIĞORTALANMA – tikililərin, avadanlığın, məhsulun, xammalın, materialların, ev əmlakının və digər maddi dəyərlərin müxtəlif sığorta növləri kompleksi. Onu çox zaman "yanğından sığortalanma" adlandırırlar; belə ki, sığortaçının məsuliyyəti ilkin olaraq yalnız yanğından itkilər ilə məhdudlaşır. Keçmiş SSRİ-də 1921-ci il oktyabrın 6-da qəbul edilmiş qanunvericilik aktına görə xüsusi təsərrüfatların yanğından sığortalanması nəzərdə tutulurdu. Sonra sığortalanan əmlakın dairəsi genişləndi və sığorta təminatının səviyyəsi yüksəldi. Tədricən kortəbii hadisələrdən sığorta növləri genişləndi: ildırım vurması, partlayış, zəlzələ, fırtına, leysan, dolu, sürüşmə tufan və s. Bununla əlaqədar "odlu sığorta" termini əvəzinə "oddan və digər kortəbii hadisələrdən sığortalanma" termini işlənməyə başladı.



Qaz-turbin elektrik stansiyası

Sığorta fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu 2007-ci il 25 dekabr tarixində, İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında Azərbaycan Respublikasının Qanunu 2010-cu il 11 may tarixində, İcbari sığortalar haqqında Azərbaycan Respublikasının Qanunu

Geotermal enerji






Nüvə enerjisi yaradan mexanizm

İstilik ES





Yüksəkgərginlikli elektrik xətləri



Külək turbinləri (alternativ enerji)



Elektrik xətləri

2011-ci il 24 iyun tarixində qəbul olunmuşdur. Bu qanunların müvafiq maddələrində yanğından və digər fövqəladə hadisələrdən sığortalanmanın qaydaları öz əksini tapmışdır.

YANĞINDAN VƏ TƏBİİ FƏLAKƏTLƏRDƏN SIĞORTALANMA – həcminə görə vahid və ya yaxın sığorta məsuliyyətində birləşən əmlak sığortası növlərinin məcmusu.

"YANILMALAR" NƏZƏRİYYƏSİ (ing. *random-walk theory*) – bu nəzəriyyədə qiymətli kağızların qiymətlərinin dəyişməsi hər hansı, hətta, əvvəlki dəyişikliklərlə əlaqədar olmayan səbəblər üzündən baş verə bilər. Bu, həmin dəyişmələrin proqnozlaşdırılmasını qeyri-mümkün edir.

"Yanılmalar" nəzəriyyəsinin tətbiqi

Konyunkturanın proqnozlaşdırılması üzrə mütəxəssislərin əleyhdarları bu nəzəriyyədən istifadə edərək qiymətli kağızların qiymətlərinin cari və gələcək dəyişmələri barədə həmin qiymətlərin əvvəlki dəyişmələri əsasında verilən proqnozların səhv olmasını sübut etməyə çalışırlar.

YANLIŞ MALİYYƏ HESABATLARI (ing. *fraudulent financial reporting*) – maliyyə hesabatlarının istifadəçilərini aldatmaq məqsədilə qabaqcadan düşünülmüş təhriflərdən, maliyyə hesabatlarında məbləğlərin və açıqlanan məlumatların göstərilməməsi kimi səhvlərdən ibarətdir.

YAPON İQTİSADİ MODELİ – İkinci Dünya müharibəsində viran olmuş Yaponiya iqtisadiyyatı sonralar nəinki dirçələ



Cədvəl 1

***Yaponiya iqtisadiyyatının bəzi inkişaf planları*[1]**

Planın adı və əhatə etdiyi dövr	Qarşıya qoyulan məqsəd
İqtisadi özünütəminetmənin beşillik planı (1956-1960-cı illər)	İqtisadi müstəqilliyə nail olunması, tam məşğulluğun təmin edilməsi
Yeni uzunmüddətli iqtisadi plan (1958-1962-ci illər)	İqtisadi artımın yüksək həddə çatdırılması, həyat səviyyəsinin yüksəldilməsi, tam məşğulluğa nail olunması
Milli gəlirin iki dəfə artırılması planı (1961-1970-ci illər)	İqtisadi artımın yüksək həddə çatdırılması, həyat səviyyəsinin yüksəldilməsi, tam məşğulluğa nail olunması
Ortamüddətli iqtisadi plan (1964-1968-ci illər.)	Ölkənin inkişafındakı uyğunsuzluqların ləğv edlməsi
Rifah dövləti yaradılması üçün beşillik plan (1992-1996-cı illər)	Həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması
Struktur islahatlarına dair iqtisadi və sosial plan (1996-2000-ci illər)	Ölkənin iqtisadi və sosial strukturunda əsaslı islahatların həyata keçirilməsi

[1]Mənbə: Индикативное планирование: теория и пути совершенствования. СПб., 2000, с.38-39.

bildi, həm də dünyada rəqabətə davamlı iqtisadiyyat kimi tanındı. Səbəb Yaponiyanın uğurla reallaşdırılan iqtisadi inkişaf modeli idi.

Ötən əsrin 40-cı illərinin ortalarında Yaponiya inkişaf etmiş nəhəng hərbi sənaye kompleksinə malik idi. Burada hərbi diktatura qurulmuşdu, demokratik azadlıqlar, demək olar ki, yox idi. Həmkarlar ittifaqları qadağan olunmuş, bürokratiya hökmranlıq edir, **dövlət nəzarəti və mərkəzləşdirilmiş planlaşdırma mövcud idi.** Eyni zamanda, inhisarlaşmanın yüksək səviyyəsi, əsas məhsul növlərinin qiymətlərinə nəzarət və çoxişlənən malların qıtlığı vəziyyəti daha da mürəkkəbləşdirirdi. İkinci Dünya müharibəsində məğlubiyyətə uğramış Yaponiya öz torpaqlarının 52 faizini itirmişdi və ərazisi 368,5 min kvadrat kilometr, əhalinin sayı 75 milyon nəfər idi.

Adalarda kənd təsərrüfatı ilə məşğul olmaq üçün əlverişli şərait yox idi. Çoxsaylı dağlar, dağ silsilələri, şiş qayalar, dərin uçurumlar yapon adalarının böyük hissəsini yaşamaq üçün əlverişsiz edirdi. Ümumiyyətlə, ölkə ərazisinin 60 faizinin dağ və vulkan zonalarından ibarət olması kənd təsərrüfatının inkişafı üçün ciddi problemlər yaradırdı.

İkinci Dünya müharibəsində məğlubiyyət Yaponiya üçün bir tərəfdən bütün müstəmləkə torpaqlarının itirilməsi, ağır işğal rejiminin tətbiqi, süni surətdə yaradılmış stereotiplərin və ideoloji dəyərlərin dəyişməsi idisə, digər tərəfdən yeni həyatın başlanğıcı, hər şeyin "yenidən qurulması" demək idi.

Maraqlıdır ki, yaponlar hər şeyi müharibənin üzərinə atmadılar. Onları qayğılandıran əsas məsələlərdən biri ərzaq probleminin necə həll ediləcəyi idi. Bu problemin həlli dövlətə inamın bərpası, ölkə əhalisinin böyük hissəsinin həyat səviyyəsinin və məşğulluğunun təmin edilməsi demək idi. Axı Yaponiyanın fəal əhalisinin yarısı aqrar sektorda məşğul idi. Məhz ona görə də müharibədən sonrakı Yaponiyanın dirçəlişinə yönəlmiş tədbirlər sistemində ilk addım kimi torpaq islahatına başlamaq nəzərdə tutulmuşdu. Qeyd edək ki, Yaponiya üçün torpaq məsələsi həmişə xüsusi spesifikaya malik olmuşdur. Bu, yuxarıda qeyd edildiyi kimi, ərazinin kiçikliyi, dağlıq rayonların üstünlük təşkil etməsi, yaşayış üçün əlverişli olmaması ilə bağlıdır. İslahat üzərində iş 1945-ci ilin ikinci yarısında başlanmışdı. Həmin il dekabr ayının 9-da ABŞ qərargahı Yaponiya İmperator hökumətinə Memorandum təqdim etdi. Bu Memorandum sonralar "Kəndlilərin azad edilməsi haqqında Direktiv" adını aldı. Sənəddə aşağıdakı müddəaları əhatə edən islahatın layihəsi nəzərdə tutulmuşdu:

– yerində olmayan (torpaqla məşğul olmayan) mülkiyyətçilərin torpaqlarının kəndlilərə verilməsi;

– torpaqların işləməyən mülkiyyətçilərdən münasib qiymətlərlə satın alınması;

– gəlirlərə uyğun illik üzvlük haqları ödəməklə, icarəçilərin torpaq almaq imkanlarının təmin edilməsi üçün tədbirlər həyata keçirilməsi;

– qiymətlərin sabitləşdirilməsi;

– kənd təsərrüfatı kooperativlərinin yaradılması və onların fəaliyyətinin dəstəklənməsi;

– təkmilləşdirilmiş texnikanın yayılması.



Bu sənədin fərqli cəhəti ondan ibarət idi ki, burada ilk dəfə olaraq ABŞ-ın mövqeyi rəsmi surətdə ifadə olunmuşdu. Əlbəttə, amerikalıları bu addımı atmağa vadar edən təkcə yoxsul



yapon kəndlilərinə qayğı deyildi. Ölkədə kommunist qüvvələrinin mövqeyinin gücləndiyi bir vaxtda amerikalıların ölkə üzərində nəzarəti itirməsi təhlükəsi vardı.

1946-cı il martın 15-də Yaponiya hökuməti islahat layihəsini təqdim etdi. Layihənin əsasını 1945-ci ilin dekabrında qəbul edilmiş qanun təşkil edirdi. Amma həmin sənədə qarşı çıxanlar da oldu. İlk növbədə, 1946-cı ilin fevralında Kəndlilər İttifaqının təsis qurultayı qanunu kəskin tənqid etdi. Lakin İkinci Dünya müharibəsindən qalib çıxmış ölkələrin daxil olduğu İttifaq Şurasının fəaliyyəti bu məsələnin tənzimlənməsində həlledici rol oynadı. Şurada SSRİ tərəfindən torpaq məsələsi qaldırıldı. Sosializm və kapitalizm sistemləri arasında mövcud olan antaqonist ziddiyyətlər ilk dövrlərdə özünü o qədər də açıq büruzə vermirdi.

1946-1950-ci illərdə Yaponiyada mahiyyəti aşağıdakılardan ibarət olan ikinci torpaq islahatı həyata keçirildi: torpaqda işləyən fermerlərə torpaq üzərində mülkiyyət hüquqları verildi, icarəçi olmaq istəyənlərin vəziyyətinin yaxşılaşdırılması üçün tədbirlər müəyyənləşdirildi. **İslahat nəticəsində ölkədə icarənin köhnə mülkədar sisteminə son qoyuldu, icarə haqları xeyli aşağı düşdü, kənddə sosial vəziyyət yaxşılaşdı, müharibə vaxtı didərgin düşmüş minlərcə qaçqının xeyli hissəsi öz yurdlarına qayıtdı, kənd təsərrüfatı kooperativləri yenidən quruldu, onlara nəzarət xeyli yumşaldıldı. Fermerlərin sığortalanması sistemi formalaşdı, torpaqdan istifadənin yaxşılaşmasına, aqrar mədəniyyətin inkişafına xidmət edən assosiasiyalar yaranmağa başladı. İstehsalın inkişafı, onun infrastrukturunun təkmilləşdirilməsi işləri genişləndirildi.**



Bununla belə aqrar sektora dövlətin sərt nəzarəti hələ də qalırdı, çünki sosial ədalətsizlik hallarının güclənməsi meyilləri özünü göstərirdi. Bu elə dövr idi ki, 3 milyondan artıq insan tələfatı verən Yaponiyanın iqtisadiyyatı dağılmış vəziyyətdə idi. İtkilərin ümumi məbləği 64,3 milyard iyena idi ki, bu da ümumi milli sərvətin dörddə bir hissəsini təşkil edirdi. Dağıdılmış tikililərin ümumi dəyəri, hesablamalara görə, 22,2 milyard iyena və ya bütün itkilərin məbləğinin 1/3 hissəsindən çox idi.

Yaponiya kəskin böhran keçirirdi. 1946-cı ildə kapitalizm dünyasının sənaye məhsulunda

onun payı 1,7 faiz azalaraq Kanada və İtaliyadan sonra 7-ci yerə düşmüşdü.

Yaponiyanın əsas iqtisadi rəqibi olan ABŞ İkinci Dünya müharibəsindən sonra həm Yaponiya bazarında, həm də Sakit Okean regionunun bazarlarında öz mövqelərini möhkəmləndirmək üçün yapon istehsalçılarını sıxışdırıb çıxarmağı özünün vacib vəzifəsi sayırdı. Bu da nəzərə alınmalıdır ki, İkinci Dünya müharibəsindən qalib çıxan SSRİ ilə ABŞ bir-biri ilə qarşıdurma vəziyyətində idilər. Həmin dövlətlərin münasibətlərini gərginləşdirən səbəblərdən biri də o idi ki, ABŞ-ın Çin barəsində planları iflasa uğramışdı. Bütün bu ziddiyyətli amillərə baxmayaraq, Yaponiyada dövlətin siyasi quruluşu saxlanıldı ki, bu da iqtisadiyyatın dirçəlməsində mühüm rol oynadı.

Yaponiyanın iqtisadi inkişafına təkan verən amillərdən biri o oldu ki, sənayeçilərlə hökumət arasında isti münasibətlər qorunub saxlanıldı. Bu isə sənayeçilərin itkilərinin hökumət tərəfindən kompensasiya edilməsinə dair bir sıra tədbirlərin həyata keçirilməsi ilə nəticələndi. Müharibədə təslim olmaq haqqında qərarın qəbul edildiyi gün – 1945-ci il avqustun 14-də hökumət "Ordunun və başqa təşkilatların əlində olan hərbi materiallarla bağlı fövqəladə tədbirlər haqqında" qərar qəbul etdi. Qərara görə, 100 milyard iyena məbləğində maddi dəyərlər hərbi sənaye kompleksinin şirkətləri arasında bölüşdürüldü. Bu, yapon inhisarçılarına böyük hədiyyə idi. **1946-cı ilin iyulunda parlamentdə qə-**










bul edilmiş hökumətin iqtisadi proqramında sənayenin mühüm sahələrinə əsas diqqət yetirilməsi (energetika problemi-nin həlli məqsədilə kömür istehsalının artırılması, kənd təsərrüfatı üçün gübrə istehsalının artırılması və s.), iqtisadiyyatın dirçəlməsinə yönəldilmiş şəxsi təşəbbüslərə güclü maliyyə dəstəyi göstərilməsi (sənayeyə kömək üçün Yaponiya Bankı xətti ilə kapital qoyuluşlarına kreditlərin verilməsi), iş yerlərinin yaradılması üçün maliyyə vəsaitlərinin ayrılması, müharibə dövrü dağıntılarının bərpası üzrə müəssisələrin, ictimai işlərin təşkili məsələləri ön plana çəkildi.



Yaponiya inkişaf modelində sənayenin baza sahələrinə xüsusi diqqətin yetirilməsi, bunun üçün dövlət tərəfindən güclü maliyyələşdirmə tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulurdu. Hökumət iqtisadi fəallığı artırmaq üçün nəzarətsiz qiymət artımından ehtiyat etmədən pul emissiyasını artırır və hesab edirdi ki, ölkəni xilas etmək üçün bu, hökmən lazımdır. O, iqtisadi böhrandan çıxmağın yolunu, inflyasiyaya məhəl qoymadan, istehsal həcmlərinin artmasında görürdü. Baxmayaraq ki, bu zaman ən çox zərərçəkənlər xırda istehsalçılar olurdular. Bir müddətdən sonra parlamentdə Sosialist Partiyası qələbə qazandı. Lakin onun yeritdiyi siyasət ölkədə iqtisadi vəziyyəti daha da gərginləşdirdi. Əlbəttə, hökumətin belə tez-tez dəyişməsi ölkə iqtisadiyyatına mənfi təsir göstərirdi. Müharibədən sonra iqtisadiyyata dəyən zərbələrdən biri dağıdılmış sənaye idisə, digər zərbə sənaye müəssisələrində qalan sənaye avadanlıqlarının ABŞ-a təzminat ödənişləri hesabına müsadirəsi

idi. Beləliklə, Yaponiya iqtisadiyyatı dəyərli sənaye avadanlıqlarının total müsadirəsi kimi böyük təhlükə ilə qarşı-qarşıya qalmışdı. Hökumət başa düşürdü ki, ölkədə iqtisadi vəziyyəti normallaşdırmaq lazımdır. **Bu istiqamətdə ilk addım kimi vergi yükünün azaldılmasına üstünlük verildi.**

Yaponiya məğlub edildikdən sonra ölkənin inkişafı ilə bağlı qərarların qəbulunda ikihakimiyyətlilik özünü göstərirdi. Belə ki, real siyasi və iqtisadi qərarlar həm Amerika ordusunun işğal qərargahı, həm də müharibədən sonra fəaliyyət göstərən Yaponiya hökuməti tərəfindən qəbul edilirdi. **Bu cür ikitirəlik yeni problemlər yaradırdı. Məsələn, Yaponiya hökuməti iri konsernləri iqtisadiyyatın lokomotivləri hesab edirdisə, Amerika siyasətçiləri bu nəhəngləri nəinki Yaponiya, həm də bütün dünya üçün fəlakətlər mənbəyi hesab edirdilər. Yaponiyanın güclü hərbi sənaye kompleksindən gələcəkdə aqressiv istifadə etməməsi üçün Amerika qərargahı iri inhisarçı konsernlərin (dzaybasu) ləğv edilməsi məqsədini qarşıya qoydu və onların hissə-hissə satılmasına dair bir sıra tədbirlər həyata keçirdi. Yaponiyanın iki iri ticarət şirkəti – Mitsui və Mitsubisi yüzlərlə struktura bölündü.**

Rus alimi N.N.Drujinin "Япония: экономическое чудо" kitabında qeyd edir ki, bütövlükdə Yaponiyada aparılan islahatları qiymətləndirərkən belə nəticəyə gəlmək olar ki, müharibədən sonra mərkəzləşdirmənin aradan



Nissan zavodu

qaldırılması siyasəti öz bəhrələrini verdi və bir çox istehsal inhisarları öz yerini artan iştirakçılar arasında yaranan rəqabətə verdi. Bazar qapanmadı. Bütövlükdə Yaponiyada bir sıra antiinhisar tədbirlərinin həyata keçirilməsi nəticəsində səmərəli rəqabət mübarizəsi başlandı ki, bu da sürətli iqtisadi artıma zəmin yaratdı.

Dünyada ABŞ-ın iştirakı ilə baş verən hadisələr Yaponiyada da sənaye istehsalının inkişafına güclü təkan verdi. ABŞ 1950-ci ildə BMT-nin bayrağı altında Koreyada müharibəyə başladığı zaman Yaponiyanın hərbi ixracının 2/3 hissəsi bu müharibə ilə bağlı idi. Nəticədə 1951-ci ilin sonlarında Yaponiyada sənaye məhsulunun həcmi müharibədən əvvəlki səviyyəyə çatdı, 2 il sonra isə iqtisadi artım 50 faizi ötdü. 1955-ci ildə Yaponiya Ticarət və Tariflər haqqında Baş Müqaviləyə (QATT) qoşuldu.

Artıq Yaponiyada inkişafın əla-







qələndirilməsi siyasəti məqsədyönlü xarakter aldı. Hökumət konseptual iqtisadi planların işlənib hazırlanmasına üstünlük verdi. 1955-ci ildə birinci beşillik plan qəbul edildi. Rəsmi adı "İqtisadi müstəqilliyin əldə edilməsinin beşillik planı" olan bu plan 1956-1960-cı illəri əhatə edirdi. Onun başlıca məqsədləri iqtisadi müstəqilliyə və məşğulluğun artımına nail olmaq idi. Bu vəzifələrin yerinə yetirilməsini təmin etmək üçün ölkənin sənaye bazasının gücləndirilməsi, regionların inkişafına kömək göstərilməsi, milli iqtisadiyyatın formalaşdırılması, daxili bazarın qorunması, yeni texnologiyaların tətbiqinin genişləndirilməsi, qiymətlərin sabitləşdirilməsi və resurslardan qənaətlə istifadə edilməsi məsələləri ön plana çəkildi.

İqtisadçılar Yaponiyanın iqtisadi inkişafını aşağıdakı mərhələlərə bölürlər:

XX əsrin ayrı-ayrı dövrlərində Yaponiyada orta iqtisadi artım sürəti aşağıdakı kimi olmuşdur:

50-ci illər – 14,9%
60-cı illər – 11,3%
70-ci illər – 4,5%
80-ci illər – 3,8%
90-cı illər – 1,8%.

– müharibədən sonrakı islahatlar – 1946-1952-ci illər;
– yüksək inkişaf mərhələsi – 1953-1973-cü illər;
– enerjidaşıyıcılarının qiymətlərinin artması, dünya iqtisadiyyatına çıxış – 1974-1989-cu illər.

Ötən əsrin 90-cı illərinin iqtisadi böhranı işsizliyin müəyyən dərəcədə artması ilə nəticələnmişdi. İndinin özündə də bu rəqəm, beynəlxalq ekspertlərin

hesablamalarına görə yüksəkdir (4-4,2%). Ümumiyyətlə, Yaponiyada və digər Asiya ölkələrində muzdlu əməklə məşğul olanlar arasında işsizlik səviyyəsi adətən aşağı olur. Bunun səbəbi başqa amillərlə yanaşı, sosial əməkdaşlıq ənənələrinin qorunub saxlanması, iş yerlərində tədris işinin yüksək səviyyədə təşkili ilə bağlıdır. Yaponiya iri korporasiyaların güclü fəaliyyət göstərdiyi "Keyreuu" adlanan qrupun əsasını təşkil edir ki, burada da mülkiyyət və kontrakt münasibətlərinə üstünlük verilir. Yaponiyada iri biznes ilə kiçik biznes arasında qarşılıqlı əlaqə digər ölkələrə nisbətən daha yüksək səviyyədə formalaşıb və ildən-ilə güclənir. Burada vacib məqamlardan biri də ondan ibarətdir ki, əhalinin əmanətə qoyduqları gəlirlər bütün gəlirlərin 15-20%-ni təşkil edir və bankların resurslarının formalaşmasında mühüm mənbə rolunu oynayır. Yaponiyada dövlətə məxsus olan 13 bank fəaliyyət göstərir. Bunların sırasına İxrac-İdxal Bankı, Yaponiya İnkişaf Bankı, kiçik sahibkarlığa xidmət edən bir neçə xüsusi ixtisaslaşdırılmış dövlət bankı daxildir. Bu fakt onu göstərir ki, dövlət bütün bankların özəlləşdirilməsini məqsəd kimi qarşıya qoymamalıdır.

Dövlət özünün düşünülmüş iqtisadi siyasətində pul-kredit, vergi, gömrük-tarif mexanizmlərindən uğurla istifadə edir, infrastruktur sektoru, təhsil, elmi-tədqiqatlar və digər bir neçə sahədə öz mühüm rolunu saxlayır. Yaponiya hərbi xərclərə digər inkişaf etmiş ölkələrə nisbətən az büdcə vəsaiti ayıran ölkələrdən sayılır. Dövlət büdcəsinin ÜDM-ə nisbəti 25-27% arasında tərəddüd edir. Bir müddət, xüsusilə də 1990-cı illərin ortalarında yaranmış büdcə kəsiri nəticəsində ölkənin xarici borcları artmağa meyil etdi.

XXI əsrin birinci onilliyində dünyanın ən qabaqcıl və inkişaf etmiş ölkələrindən biri kimi tanındı, yaşayış səviyyəsi yüksək olan bir dövlətə çevrildi. Bu fenomeni təhlil edərkən belə nəticəyə gəlmək olar ki, düşünülmüş iqtisadi siyasət, ölkə əhalisinin mentaliteti, tarixi ənənələrə sadiqlik, beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıqda milli maraqların, iqtisadi təhlükəsizliyin ön plana çəkilməsi – bütün bunlar Yaponiyanın indi də 2008-2010-cu illərdə Yaponiyada baş vermiş dağıntılara, dünya maliyyə böhranının fəsadlarına baxmayaraq dünyanın aparıcı ölkələri sırasında olmasını təmin etmişdir.


YARARLILIQ MÜDDƏTİ – elə vaxt və ya müddətdir ki, onun ərzində əmtəə (mal), əşya, xidmət öz xassələrini fəaliyyətini və istifadəsini təmin edən ölçüdə saxlayır.

YARDARLIQ – torpağın qədimdə icarəyə verilən forması: icarə haqqı torpaq mülkiyyətçisinə məhsulla (bəzən məhsulun yarısı və daha çox hissəsi qədər) ödənilirdi.

YARMARKA (alm. *Yahrmark* – illik bazar) – 1. Əsasən topdansatış ticarət və sərgidə nümayiş etdirilən nümunə üzrə əmtəələrin satın alınması üçün sənaye və ticarət təşkilatlarının, kommersantların, sənayeçilərin dövri olaraq təşkil etdikləri iclaslardır. 2. Əmtəələrin müəyyən yerdə dövri olaraq təşkil olunmuş müzakirəsi və bazarı. Avropada X əsrdən məlumdur. Yarmarka əsasən xalq toplantılarının, böyük kilsə bayramlarının kəsişdiyi yerdə, eləcə də çox qorunan və ən az vergiyə cəlb olunacaq yerlərdə təşkil olunurdu. Yarmarkanın mahiyyəti XI və XII əsrlərdə daha da artdı. XVIII əsrin sonuna kimi Avropanın şərq və qərb hissələri arasında bütün ticarət mübadiləsi yarmarkanın köməyilə baş verirdi. XIV və XV əsrlərdə Brügge, XVI əsrdə isə Lion şəhəri yarmarkanın mərkəzinə çevrildi. XVI əsrdə Medina-del-Kampo (İspaniya) və Antverpen



Leypsiq yarmarkasının yeni əraziləri



Yarmarkaya (Leypsiq) giriş qapıları – iki qat "M" (alm. Doppel-M) yarmarkasının simvolu



1800-cü ildə Leypsiq yarmarkasında ticarət

şəhəri (Belçika) beynəlxalq yarmarka və kredit mərkəzi oldu. XVIII əsrdə hələ XIII əsrdən Leypsiqdə məşhur yarmarka beynəlxalq əhəmiyyət kəsb edirdi. XIX əsrdə ticarət münasibətlərinin genişlənməsi və daxili vergi rüsumlarının ləğv edilməsi, xüsusilə dəmir yollarının çəkilməsi, əmtəələrin yeridilməsi təhlükəsizliyinin artması, nəhayət, kommivoyajerlərin əmələ gəlməsi ilə yarmarkalar tənəzzülə uğradı və onların əksər hissəsi bağlandı. Əmtəələrin bilavasitə satışı əvvəlcə nümunə üzrə, sonra standart üzrə satışla əvəz olundu. Bir çox iri yarmarkalar əmtəə nümunələrinin sərgisinə çevrilirdi ki, burada ticarət əmtəə birjasında olduğu kimi aparılırdı. Öz inkişafı ilə Leypsiq yarmarkası hər şeydən əvvəl əlverişli coğrafi mövqeyinə, yerli tacir enerjisinə, eləcə də ticarət edən polyak və rus tacirlərinə verilən güzəştlərə borcludur. Yalnız bir çox yarmarkalar, o cümlədən Leypsiq yarmarkası ümumi iştirakı bölə bilmədilər. XIX əsrdə Leypsiq yarmarkası tədricən nümunələr üzrə əmtəə bazarına çevrildi. Burada yarmarka müzaidəsi zamanı təşkil olunan sənaye sərgiləri və daimi əmtəə nümunələri sərgisi keçirilirdi.

Yarmarkalar hələ ötən əsrin ikinci yarısından başlayaraq elmi-texniki konqreslərin və simpoziumların keçirilməsi ilə müşayiət olunurdu. Elə Leypsiq yarmarkası da 1969-cu ildə universal yarmarkadan çoxsahəli yarmarkaya çevrildi və yalnız işgüzar dairələrin görüş yerinə yox, həm də elmi-texniki və iqtisadi informasiya sahəsində

beynəlxalq mərkəz kimi qəbul olundu. Müasir yarmarkalar üçün isə ümumi universal yarmarkalardan sahə, çox zaman texniki, geniş istehsal malları yarmarkalarına keçid meyli xarakterikdir.

Hazırda beynəlxalq yarmarkaların əsas fəaliyyət istiqamətləri Beynəlxalq Yarmarkalar İttifaqı (BYİ) tərəfindən nizamlanır. Bu təşkilat beynəlxalq yarmarkaların işinin daha da səmərəli təşkili və beynəlxalq yarmarkaların daha da inkişaf etdirilməsi məqsədilə 1925-ci ildə Parisdə yaradılmışdır.

YARYOMENKO YURİY VASİLYEVİÇ (1935-1996) – iqtisad elmləri doktoru (1978),



SSRİ EA-nın müxbir üzvü (1987), Rusiya EA-nın akademiki (1991), Rusiya EA-nın İqtisadiyyat şöbəsinin akademik-katibinin müavini (1992) olmuşdur. MDU-nun İqtisadiyyat fakültəsini və Pekin Universitetini bitirmişdir. 1960-1973-cü illərdə SSRİ Dövlət Plan Komitəsinin Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda şöbə müdiri, 1973-1986-cı illərdə laboratoriya müdiri, direktor müavini, 1986-1988-ci illərdə Elmi-Texniki Tərəqqinin İqtisadiyyatı və Proqnozlaşdırılması İnstitutunun direktoru, 1991-ci ildə SSRİ prezidentinin iqtisadi məsələlər üzrə müşaviri işləmişdir. Sosial-iqtisadi inkişafın proqnozlaşdırılmasının nəzəriyyəsi və metodologiyası, sahələrarası modelləşdirmə, struktur investisiya siyasətinin konkret istiqamətlərinin işlənib hazırlanması onun tədqiqatlarının əsasını təşkil edir.

YAŞ AKKUMULYASİYASI – bir sıra yaşlarda, daha çox 0 və 5 rəqəmləri ilə qurtaran yaşlarda qonşu yaşlara nisbətən daha çox adamların sayının və ya demoqrafik hadisələrin toplanması. Sorğu zamanı yuvarlaqlaşdırma nəticəsində yaşın bilərəkdən və ya təsadüfən sistematik təhrifi baş verir. Əhalinin yuvarlaq (akkumulyasiya olunan say) və digər yaşlarda hadisələrin sayının nisbətini xarakterizə edən xüsusi göstəricilərin köməyi ilə ölçülür. Güclü yaş akkumulyasiyası zamanı statistik müşahidə yolu ilə alınmış yaş tərkibi haqqında məlumatlar, adətən, yuvarlaqlaşdırılmış və qonşu yaşlardakı ədədlərin həqiqi nisbətinin bərpası üçün səlisləşdirilir. Ədədlərin akkumulyasiyası göstərilən səbəblər nəticəsində təkcə yaş üzrə bölünməyə görə yox, həm də vaxtın digər xüsusiyyətlərinə, məsələn, nikahın davamlılığına, verilən ərazidə yaşama davamiyyətinə və s. görə də baş verə bilər.

Orta yaş – əhalinin yaş strukturunun, yaxud demoqrafik hadisələrin yaş üzrə bölüşdürülməsinin təxmini ümumiləşdirilmiş xarakteristikası. Orta yaş əhalidə, yaxud nəsildəki bütün insanların, həmçinin həmin demoqrafik hadisə baş vermiş insanların yaşlarının (məsələn, nikaha daxil olanların orta yaşı, boşananların orta yaşı) orta hesabı kimi hesablanır. Orta hesab kəmiyyət kimi, müşahidə və ya hadisə anına olan insan – ilin ümumi sayını insanların, yaxud hadisələrin müvafiq sayına bölməklə tapılır. Əgər bölgü yaş intervalı üzrə verilibsə, onda intervalın ortası yaşın qiyməti hesab olunur. Kiçik yaşlarda ölümün azalması orta yaşı aşağı salır, böyük yaşlarda isə onu artırır. Faktiki mövcud əhalidə demoqrafik hadisələr baş verdikdə, orta yaş göstəriciləri də demoqrafik proseslərin əvvəlki dinamikasının oxşar təsirinə məruz qalır. İki və bir neçə əhali qrupu müqayisə edildikdə, bu proseslərin təsirini ayırmaq çətin olduğu üçün orta yaş göstəricisi nadir hallarda tətbiq olunur.

YAŞAYIŞ MİNİMUMU – insanın sağlamlığını və həyat fəaliyyətini qoruyub saxlamağa imkan verən minimum zəruri istehlak xərclərinin dəyəri. Başqa sözlə, yaşayış minimumu – minimum istehlak səbətinin dəyəri və icbari ödənişlərin cəmindən ibarət sosial normadır.

İstehlak səbətinin, eləcə də məcburi ödənclərin dəyər və məbləğidir.

Yaşayış minimumundan əhalinin yaşayış səviyyəsinin, minimum əmək haqqının, minimum pensiya, təqaüd və müavinətin, aztəminatlı vətəndaşlara sosial dövlət yardımının qiymətləndirilməsi və büdcənin təyini zamanı istifadə olunur.

Adambaşına tələb olunan yaşayış minimumu mütəmadi olaraq istehlak səbətinə əsasən təyin edilir. Əmək haqqının və qocalığa görə pensiyanın miqdarı yaşayış minimumuna əsasən tənzimlənir.

Bəzi ölkələrdə (məsələn, Rusiyada) yaşayış minimumu hər

Cədvəl 1

Azərbaycanda 2006-2012-ci illərdə yaşayış minimunun dəyişməsi dinamikası

İllər	Adambaşına düşən yaşayış minimumu	Əmək qabiliyyətli əhalinin yaşayış minimumu	Pensiyaçıların yaşayış minimumu	Uşaqların yaşayış minimumu
2012	108	116	84	87
2011	95	102	72	76
2010	87	96	68	72
2009	84	92	65	69
2008	70	79	55	59
2007	64	70	49,7	52,4
2006	58	61	45	47

rüb mərkəzləşdirilmiş metodika, bütövlükdə ölkə və ayrı-ayrı regionlar üzrə istehlak nemətlərinin minimal toplusu (ərzaq, sənaye malları və xidmətlər) və onların qüvvədə olan qiymətləri əsasında təyin edilir. Yaşayış minimumu əhalinin hər nəfəri üzrə və əsas demoqrafik qruplar: əmək qabiliyyətli əhali, yaşlılar və uşaqlar üzrə hesablanır. Mərkəzdə və yerlərdə bu hesabatın bir neçə mərhələdə aparılması nəzərdə tutulur. Birinci mərhələ – elmi cəhətdən əsaslandırılmış minimal qidalanma normaları üzrə ərzaq dəstinin hesablanması (ərzaq səbəti); ikinci mərhələ – ölkə üzrə və ya regionlar üzrə orta qiymətlər hesabından natural ərzaq normalarının qiymətləndirilməsi; üçüncü mərhələ – qalan xərclərin – sənaye malları, dava-dərman, mənzil haqqı və kommunal xidmətlərin haqqı. Gəlir səviyyəsi ən aşağı ailələrin ümumi xərclərində onların nisbi payları nəzərə alınmaqla sosial yardıma və pulsuz sosial xidmətlərə ehtiyac olub-olmadığını müəyyən etmək üçün istifadə edilir. Statistikada, elmi araşdırmalarda və proqnozlarda yaşayış minimumu yoxsulluq həddi hesab olunur. Gəlirləri yaşayış minimumu üzrə zəruri istehlak səviyyəsini təmin etməyən əhali yoxsullara aid edilir.

YAŞAYIŞ MİNİMUMU BÜDCƏSİ – şəxsin minimum yaşayışını təmin edəcək maddi nemətlərin dəyər ifadəsi, vergilər və digər məcburi ödənişlərin məcmusu. Ünvanlı sosial yardımların tətbiqi ilə əlaqədar olaraq istifadə olunur.

YAŞAYIŞ MİNİMUMUNU MÜƏYYƏN EDƏN ƏMƏK HAQQI – bu, əmək haqqının elə ölçüsüdür ki, qanunvericilikdə təsbit olunan müəyyən göstəricidən aşağı ola bilməz.

Təqaüd və əmək ödənişlərinin minimal ölçülərini, həmçinin AR vətəndaşlarına sosial ödənişlər və digər müavinətlərin ölçüsünü müəyyən edən zaman yaşayış minimumunun nəzərə alınması zəruridir.

Yaşayış minimumunun dəyəri qiymətlərin dəyişilməsini əks etdirməli və əhaliyə ödənişlərin indeksasiyası zamanı nəzərə alınmalıdır.

"YAŞIL KART" – avtomobil nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığorta



örtülməsinin (ödəməsinin) qarşılıqlı tanışması haqqında və beynəlxalq avtonəqliyyat daşımalarında meydana çıxan zərərlərin tənzimlənməsi üzrə qarşılıqlı yardımın göstərilməsi haqqında saziş.

"YAŞIL KART" SİSTEMİ – avtomobil nəqliyyatı vasitələrinin xarici sahibləri tərəfindən zərərçəkmişlərə dəyən zərərin ödənilməsi problemlərini həll etmək üçün 1953-cü il yanvarın 1-dən Avropada Vahid Mülki Məsuliyyətin İcbari Sığortası haqqında Saziş ("Yaşıl kart") fəaliyyət göstərir. Bu sazişə nəinki Avropanın, həm də Asiyanın və Afrikanın 40-dan artıq ölkəsi qoşulmuşdur. Bu Sazişin adı "Yaşıl kart" – "Beynəlxalq Avtosığorta kartı"nın rəsmi adı olan sənədin rəngi ilə əlaqədardır. Bu sənəd avtonəqliyyat vasitələrinin sahiblərinə verilir və sığortalının gəldiyi ölkə şəraitində fəaliyyət göstərən və nəqliyyat vasitəsi sahibinin sığorta faktını təsdiq edən sığorta polisinin ekvivalentidir.

"YAŞIL KARTLAR" SİSTEMİ ÜZRƏ AVTOMOBİL NƏQLİYYATININ VƏ AVTONƏQLİYYAT MƏSULİYYƏTİNİN SIĞORTASI – dünyanın əksər inkişaf etmiş və digər ölkələri Beynəlxalq "Yaşıl kartlar" İttifaqının üzvləridir. Sığorta sənədi həqiqi olan, İttifaqın üzvü olan ölkənin sığorta cəmiyyəti tərəfindən verilən "Yaşıl kart"dır ("Green Card"). Bu ölkələrin sığorta təşkilatları sənədlərin tərtib olunmasının aparılmasını və "Yaşıl kart"ı verən sığorta təşkilatı tərəfindən zərərin tərtib edilməsi və ödənilməsi üzrə məsrəflərin və xərclərin sonradan kompensasiyası ilə "Yaşıl kart" sahibləri tərəfindən üçüncü şəxslərə dəymiş ziyanın ödənilməsini öz öhdəsinə götürür.

YATAQLARIN KƏŞFİ, NEFT VƏ QAZIN HASİLATI İLƏ ƏLAQƏDAR RİSKLƏRİN SIĞORTALANMASI – bu risklərin sığortalanmasının əmələ gəlməsi elmi-texniki tərəqqi ilə sıx əlaqədardır. Müasir qazma qurğuları təkcə mürəkkəb qazma avadanlığından yox, əksər hallarda həm də elektrik enerjisinin hasil edilməsi üzrə qurğuları, anbar və yaşayış binalarını, ehtiyat hissələri, yanacağı, ərzağı, içməli suyu, xilasedici vasitələri və s. daşıyan platformalara əsaslanan kompleks mühəndis qurğularından ibarətdir. Sığorta nöqteyi-nəzərdən qazma qurğuları hər şeydən əvvəl risklərin və sığorta məbləğinin nəhəng kumulyasiyasını (cəmləşməsini) nəzərdə tutur.

YAZIÇILARIN SIĞORTALANMASI – 1980-ci illərin əvvəllərində inkişaf etmiş ölkələrdə, ilk növbədə, ABŞ-da yeni sığorta növü tətbiq edildi: böhtan, təhqir və plagiatda təqsirləndirildiyinə görə müəlliflərə (və nəşriyyatlara) qarşı mümkün məhkəmə proseslərinin maliyyə riskindən onların qorunması. Əgər belə prosesdə müəllif və ya nəşriyyat günahkardırsa, sığortaçı onların ödədiyi cərimə və kompensasiyaların ödənilməsi öhdəliyini üzərinə götürür. Sığortanın əmələ gəlməsi yazıçılara və nəşriyyatlara qarşı iddia hallarının xeyli yayılması ilə əlaqədardır. Sığortanın dəyəri kitabın qiymətinə daxil olur və ya müəllifin qonorarından çıxılır.

YEM BALANSI – mövcud yem ehtiyatı ilə yemə olan tələbatın müqayisəsi. Yem balansını hesablayan zaman yem istehsalını yemlərə olan tələbatdan 15-20% artıq nəzərdə tutmaq lazımdır.

Hər təsərrüfatda möhkəm yem bazasının yaradılması və malqaranın iqtisadi cəhətdən əlverişli tam keyfiyyətli yemləndirilməsi üçün yem balansının böyük əhəmiyyəti var.

"YENİ AGENTLƏR" – kiçik biznesi əhatə edən özüməşğul əhali.

YENİ İQTİSADİ PARADİQMA – iqtisadi fəaliyyətin mühüm cəhətlərini ifadə edən anlayışlar sistemi şəklində təcəssüm olunmuş elmi nəzəriyyə. Buraya ilkin konseptual sxemlər, iqtisadi problemlərin və onların həllinin qoyuluş modelləri, iqtisad elmində müəyyən tarixi dövrdə tətbiq edilmiş tədqiqat modelləri daxildir. Hazırda dünya elmində üstünlük təşkil edən iqtisadi paradiqma XIX əsrin sonu – XX əsrin əvvəllərində A.Smit, D.Rikardo, K.Marks, A.Marşall, L.Valras, C.Keyns, M.Fridman və başqa alimlərin əsərlərinin təsiri ilə formalaşmışdır. Bu nəzəriyyə artıq iqtisadi və sosial tərəqqinin tələblərini təmin etmir. Buna görə də bir sıra ölkələrdə və bütövlükdə dünya birliyi miqyasında alimlərin qarşısında mühüm bir problem – XXI əsrdə yeni iqtisadi paradiqmanı yaratmaq problemi durur. Bu problemin mühüm tərkib hissəsi ilk növbədə müasir iqtisad elminin dünyada iki ən mühüm isti-

qamətini – kapitalizmin inkişafının iki alternativ modelinə xas olan ziddiyyətləri ifadə edən keynsçilik və neoklassizm istiqamətlərini uzlaşdırmaqdan ibarətdir:
– dövlətin iqtisadiyyata təsirindən istifadə etməklə;
– bazarın tənzimlənməsi mexanizmi əsasında.

YENİ İQTİSADİ SİYASƏT (YİS) (Новая Экономическая Политика – НЭП) – SSRİ-də 1921-1924-cü illərdə həyata keçirilən və hərbi kommunizm siyasətini əvəz etmiş iqtisadi siyasət. NEP iqtisadiyyatı dirçəltmək məqsədilə bazar münasibətlərindən istifadə etmək cəhdi idi. Bu nisbətən uğurlu siyasət 1925-ci ildə başa çatdı. Vətəndaş müharibəsi və xarici hərbi müdaxilə başa çatandan sonra ölkədə yaranmış bütün iqtisadi və siyasi şərait yeni iqtisadi siyasətə keçməyi tələb edirdi. Bu siyasət dinc təsərrüfat quruculuğuna istiqamətlənmiş bazar iqtisadiyyatına keçidin özünəməxsus əlaməti idi.

1922-1924-cü illərdə xalq maliyyə komissarı Q.Y.Sokolnikovun rəhbərliyi ilə həyata keçirilmiş və xüsusi əhəmiyyətə malik pul islahatı yeni iqtisadi siyasətin uğurlu tədbirlərindən biri hesab edilir. Bu pul islahatının uğuru əslində sənaye və kənd təsərrüfatı mallarının "qiymət qayçıları"nın ləğv edilməsindən asılı idi. 1926-cı ilə qədər iqtisadiyyat bərpa edildi və ölkənin xalq təsərrüfatı sosialist qaydaları üzrə yenidən qurulmağa başladı.

YENİ KEYNSÇİLİK – müharibədən sonrakı inkişaf şəraitində bazar təsərrüfatının dövlət tənzimlənməsi konsepsiyasını əsaslandıran keynsçiliyin modifikasiyası, başqa sözlə, metodoloji baza kimi Keynsin birləşmiş nəzəriyyələrinin, müasir iqtisadi fikirlərinin sırasıdır.

Yeni keynsçilik 1950-ci illərin yarısında formalaşmış və 1970-ci illərin sonuna qədər Qərbin inkişaf etmiş ölkələrinin əsas iqtisadi siyasət konsepsiyası olaraq qalmışdır. Yeni keynsçiliyin əsas nümayəndələri E.Hansen, Y.Domar, C.Robinson, N.Kaldor və başqaları olmuşlar.



E.Hansen *C.Robinson* *N.Kaldor* *Y.Domar*

Müharibədən sonrakı ilk onillikdə başlanan elmi-texniki inqilab (ETİ) və o dövrdə təsərrüfatın inkişafında mühüm dinamizm göstərən sosialist ölkələri ilə kəskin rəqabət şəraitində Qərbin inkişaf etmiş ölkələrinin iqtisadi siyasətlərində ön plana iqtisadi artımın çevikliyinin təmin edilməsi məsələsi çıxdı. Bununla belə, Keynsin nəzəriyyəsi bütövlükdə iqtisadi təhlilin qısamüddətli dövrü çərçivəsində iqtisadiyyata statistik yanaşma ilə fərqlənirdi, burada əsas makroiqtisadi parametrlər dəyişməz qalırdı. Yeni keynsçiliyin əksinə olaraq, əsas diqqəti iqtisadi dinamikliyə və iqtisadi tsikl nəzəriyyəsinə yetirirdi.

Yeni keynsçilik metodologiyası Keyns tərəfindən işlənmiş makroiqtisadi yanaşmaya əsaslanır. O cümlədən o, məcmu tələb, təklif, yığım, investisiyalar, milli gəlir və s. kimi məcmu xalq təsərrüfatı kəmiyyətlərindən istifadə edir. Bunlar da milli iqtisadiyyatın fəaliyyətinin əsas kəmiyyət asılılığını ayırmağa imkan verir. Lakin yeni keynsçilik statistik yanaşmaya qarşı tənqidlə çıxış etdi və Keynsin əsərlərində göstərilən uzunmüddətli dinamika elementlərinə üstünlük verdi.

Yeni keynsçilik çərçivəsində tam məşğulluğun təmin edilməsinə istiqamətlənmiş iqtisadiyyatın dövlət tənzimlənməsi nəzəriyyəsindən uzunmüddətli artım siyasətinin əsaslandırılmasına keçid baş verir.

Yeni keynsçilik Keynsin bazar təsərrüfatının makroiqtisadi tarazlığın avtomatik tətbiqinə qadir olmaması haqqında başlanğıc fərziyyəsini bölüşdürür, lakin ağırlıq mərkəzini böhranın təhlilindən bütövlükdə tsiklin mexanizminin yenidən qurulmasına keçirir. Bu, səmərəli tələb haqqında Keyns nəzəriyyəsinin inkişafı yolu ilə edilir, onun bazasında tsiklik dəyişikliklər yaradan iqtisadiyyatın makroiqtisadi komponentlərinin qar-

şılıqlı fəaliyyətinə baxılırdı. Ümumi milli məhsulun (ÜMM) faktiki səviyyəsinin potensial məhsuldan kənarlaşması səmərəli tələbin dəyişilmə nəticəsi kimi şərh edilirdi (Harrod artımın bu iki növü ilə yanaşı, sahibkarlıq artımını da ayırırdı). Bu proseslər iqtisadi inkişafın "uzun dalğalar" nəzəriyyəsi ilə qovuşurdu. Dövlət tərəfindən tələbin müntəzəm idarə edilməsi siyasəti əsaslandırılırdı.

"İqtisadi artım nəzəriyyəsi" (Harrod, Domar) milli gəlirin artım amilləri problemini, onun müddətliliyini, dinamik tarazlığını təmin edən şərtləri qarşıya qoydu. Bu nəzəriyyəyə əsasən "öz özünü saxlayan artım", uzunmüddətli perspektivdə əmək məhsuldarlığının çevikliyi ilə, həmçinin, "kapital-məhsul" münasibətlərinin daimiliyi və milli gəlirdə mənfəətin payı ilə təmin edilir. İnvestisiyalar və milli gəlir dinamikasının qarşılıqlı asılılığı xüsusilə tədqiq olunurdu. Bu məqsədlə multiplikatorun və akseleratorun qarşılıqlı əlaqəsinə əsaslanan kumulyativ proses nəzəriyyəsi işlənib hazırlanmışdı. Əsas nəticə odur ki, faktiki iqtisadi artım potensial artımla spontan (özözündən) olaraq üst-üstə düşə bilər, bu isə dövlətin müdaxiləsini zəruri edir.

Yeni keynsçilik ETT problemlərinə xüsusi diqqət yetirirdi. Belə ki, texniki inkişaf növləri və texnikanın göstəriciləri problemi işlənib hazırlanmışdı. Elmi tədqiqatların dövlət tərəfindən maliyyələşməsi və stimullaşması, yeni texnikanın tətbiqi, iqtisadiyyatın strukturunun yenidən qurulmasının zəruriliyi haqqında nəticəyə gəlinmişdir.

YENİ KEYNSÇİLİK NƏZƏRİYYƏSİ – 1980-ci illərin ortalarında yaranmışdır. Bu nəzəriyyənin nümayəndələri Amerika iqtisadçıları C.Akerlof, O.Blançard, N.Menkyu və başqalarıdır. Yeni keynsçilik nəzəriyyəsi yeni klassik nəzəriyyənin bir sıra prinsiplərini rədd edir.

Yeni keynsçilər yeni klassik nəzəriyyənin belə bir müddəasını əsassız hesab edirlər ki, faiz dərəcəsinin və real əməkhaqqının müəyyən səviyyəsində işçilər əmək təklifini seçməkdə sərbəstdirlər. Onlar vurğulayırlar ki, iqtisadi durğunluq və tənəzzül kimi ekstremal şəraitdə fəhlələrin arzu etdikləri iş müddətini seçmək imkanı olmur. Bu şəraitdə onlar əmək təklifinin müəyyən həcmi ilə, o cümlədən öz istəklərinə rəğmən razılaşmağa məcburdurlar. Yeni keynsçilər yeni klassiklərin qiymətlərin və əməkhaqqının çevikliyi barədə fərziyyəsini rədd edirlər. Yeni klassiklərin fikrincə, bu çeviklik iqtisadiyyatda sabit tarazlığın saxlanmasını təmin edir. Yeni keynsçilər əmtəə bazarlarında qiymətlərin uyğunlaşmasının ləng olması barədə postulatı dəstəkləyir və belə hesab edirlər ki, məcmu tələb və məcmu təklif amillərinin tarazlaşma vəziyyətinə çatması ləng gedir. Yeni keynsçilər belə hesab edirlər ki, iqtisadiyyat tarazlıq vəziyyətinə ləng çatdığına görə istehsal güclərindən tam istifadə edilməməsi və işsizlik uzun müddət mövcud ola bilər. Halbuki yeni klassik nəzəriyyədə iqtisadi resurslardan tam istifadə edilməməsi yalnız müstəsna qısa dövr ərzində davam edə bilər.

YENİ KLASSİK İQTİSADİ MƏKTƏB – qiymətlərin çevikliyi və pulun neytrallığı haqqında klassik modelin ilkin müddəalarına əsaslanaraq iqtisadi tərəddüdləri təhlil edən elmi məktəb. Yeni klassik məktəb nəzəriyyəsi müxtəlif nəzəriyyələrin özünəməxsus sintezi: iqtisadi tərəddüdlər, real iqtisadi tsikl, rasional gözləmələr, o cümlədən Lukasın tənqid nəzəriyyəsi. Adətən, qiymətlərin çevik olduğu bütün qısamüddətli iqtisadi modelləri bu nəzəriyyəyə aid edirlər. Yeni məktəbin əsas nümayəndələri K.Menger, F.Vizer, E.Bem-Baverk, U.Cevons, L.Valras, V.Pareto, C.Klark, A.Marşall, bu nəzəriyyənin müasir nümayəndələri isə C.Hiks, F.Hayek, C.Mil və R.Soloudur.

Yeni klassik nəzəriyyə iqtisadi qanunauyğunluqların aşkar edil-



C.Akerlof



O.Blançard



N.Menkyu

məsi üçün aparılan təhlildə mürəkkəb riyazi aparatdan istifadə edir.

Ümumiyyətlə, əsas iqtisadi məktəblərin nümayəndələrinin makroiqtisadi proseslərə baxışları əlaqəli şəkildə inkişaf etmişdir. Bu baxımdan aparıcı məktəblərin əsas müddəalarının müqayisəli təhlili aşağıdakı cədvəldə verilmişdir (bax: cədvəl 1).

YENİ MÜSTƏMLƏKƏÇİLİK – imperialist dövlətləri tərəfindən Asiyanın, Afrikanın və Latın Amerikasının suveren, in-

Cədvəl 1

Yeni iqtisad məktəblərin əsas müddəaları

Göstəricilər	Neoklassik məktəb	Keynsçi məktəb	Monetaristlər
Subyektlərin motivasiyası	Rasional gözləmələr	Subyektiv motivasiya	Adaptiv gözləmələr
Pul	Pulun müstəqil dəyəri yoxdur, o, hesablaşma vahididir	Sərvətdir	Pul aktiv növlərindən biridir
Bazarların qarşılıqlı əlaqəsi	Bazarlar bir-biri ilə əlaqədə deyil	Bazarlar qarşılıqlı əlaqədədir	Uzunmüddətli dövrdə bazarlar neytraldır, qısamüddətli dövrdə pul bazarının dəyişməsi ilkindir
Subyektlərin fəaliyyətinin motivasiyası	Daha çox gəlir əldə edilməsi. Subyektlər rasional fəaliyyət göstərirlər	İnstitusional və psixoloji amillərin əhəmiyyəti böyükdür	
Qiymətlər	Çevikdir	Çevik deyillər (institusional amillərin təsiri)	Çevikdir
İqtisadiyyat	Təkmil rəqabət iqtisadiyyatı	Özütənzimlənən deyil	İdeal bazara yaxınlaşdırılmalıdır
İstehsal amilləri	Qarşılıqlı əvəzlənəndirlər	Qarşılıqlı əvəzlənən deyillər	Qarşılıqlı əvəzlənəndirlər
Dövlət siyasətinin istiqamətləri	Dövlət yalnız nağd pulun emitenti, vergi yığandır	Büdcə-vergi və kredit-pul. Məqsəd məcmu tələbi həvəsləndirməkdir	Kredit-pul (prioritet istiqamət). Məqsəd məcmu təklifi həvəsləndirməkdir
Məşğulluq	Tam məşğulluq mövcuddur	Natamam məşğulluq, məcburi işsizlik	Təbii işsizlik – iqtisadiyyat üçün normal hadisə
İqtisadiyyatda müvazinət	Real sektorun bütün bazarları daim müvazinətdədir	Müvazinət anidir, o daha çox istisnadır	Müvazinət tam məşğulluq vaxtı əldə olunur. Müvazinətsizlik dövlətin fəaliyyətindən doğur
Tənzimləyicilər	Qiymətlər, əmək haqqı, faiz dərəcəsi	Dövlət siyasəti (dövlətin əmtəə və xidmətlər alışı, vergilər)	Pul kütləsi

kişaf etməkdə olan ölkələrinə zorla qəbul etdirilən qeyri-bərabər hüquqlar (iqtisadi və siyasi) münasibətlər sistemi; inkişaf etməkdə olan ölkələrin xalqlarının asılılığı və üstüörtülü şəkildə imperialist istismarı formasında saxlanılmasına yönəldilmiş dünya imperializmi strategiyası. Sistem kimi, yeni müstəmləkəçilik imperializmin müstəmləkə sisteminin dağılması, dünya sosialist sisteminin yaranması və inkişafı nəticəsində birbaşa müstəmləkə hökmranlığı, demək olar ki, tam ləğv edilən zaman yaranmışdır. Yeni müstəmləkəçiliyin ideoloji əsasını yeni müstəmləkəçilik nəzəriyyələri təşkil edir. Yeni müstəmləkəçiliyin əsas ideoloji silahı antikommunizmdir.

Siyasət sahəsində milli azadlıq hərəkatının artmasının, imperialist dövlətləri tərəfindən öz torpaqlarının itirilməsi labüdlüyünün nəticəsi kimi yaranan yeni müstəmləkəçilik, müstəmləkə və yarımmüstəmləkə ölkələrə siyasi müstəqilliyin "könüllü" verilməsi idi.

Yeni müstəmləkəçiliyin əsas ideoloji fəaliyyət istiqaməti kommunizm təhlükəsinin aradan qaldırılması idi. Yeni müstəmləkəçiliyin xarakterik xüsusiyyəti beynəlxalq iqtisadi birliklərin ("Ümumi bazar", Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Valyuta Fondu və s.) zəif inkişaf etmiş ölkələrə ekspansiyasıdır.

Yeni müstəmləkəçilik siyasəti müstəmləkəçilik sisteminin dağılması şəraitində öz forma və metodlarını dəyişən "ənənəvi" müstəmləkəçiliyin birbaşa davamıdır.

YENİ MÜŞTƏRİLƏRİN AXTARIŞI İLƏ MƏŞĞUL OLAN TİCARƏT AGENTLƏRİ – ticarət heyəti. Onların vəzifələri perspektiv alıcılığın müəyyən edilməsi və onlara mal satmaq yolu ilə yeni müştərilərin əldə edilməsidir.

YENİ TEXNİKA VƏ TEXNOLOGİYA RİSKLƏRİNİN SIĞORTALANMASI – iki istiqamətə ayrılır: birinci istiqamət texnikanın, qurğuların, texnologiyanın, texnoloji xətlərin sıradan çıxması işinin pozulması, məhv olması zamanı onların sığortalanmasıdır. İkinci istiqamət texniki və texnoloji yeniliklərin tətbiqi və ya onlarda baş verən dağılmalarla, dayanmalarla yaranan gözlənilməz və qeyri-əlverişli nəticələrdən sığortalanmadır.

YENİ SƏNAYE ÖLKƏLƏRİ (YSÖ) – iqtisadi inkişafın və sənayeləşmənin yüksək sürəti, əsaslı struktur dəyişiklikləri və dünya bazarlarına çıxış sayəsində dünya transformasiya prosesinə fəal qoşulmuş, inkişaf etməkdə olan ölkələr.

Yeni sənaye ölkələri sənayeləşmədə sanballı uğurlar qazanmış, emal sənayesi məhsullarının ixracını əhəmiyyətli dərəcədə genişləndirmiş və bir sıra göstəricilər üzrə inkişaf etmiş ölkələrin aşağı eşelonuna yaxınlaşan inkişaf etməkdə olan ölkələr qrupudur. BMT-nin təsnifatına görə, YSÖ qrupuna Argentina, Braziliya, Honkonq, Malaziya, Sinqapur, Tayvan, Cənubi Koreya, Meksika və s. aiddir.

Yeni sənaye ölkələri iki fərqləndirici cəhətlə səciyyəvidir: birincisi, inkişaf etməkdə olan başqa ölkələrlə müqayisədə əhalinin hər nəfərinə düşən ümumi daxili məhsulun (ÜDM) nisbətən yüksək səviyyəsi; ikincisi, ixracın strukturunda xammalın deyil, sənaye məhsullarının üstünlük təşkil etməsi.

Yeni sənaye ölkələri sənayenin sürətli inkişafının gedişində dövlət iqtisadi tənzimləmənin spesifik metodlarından, ilk növbədə, elmi-texniki tərəqqinin (ETT) əsas istiqamətlərinə uyğun gələn və milli iqtisadiyyatların ixrac meylini təmin edən sahələrinin dəstəklənməsinə yönəlmiş səmərəli sənaye siyasəti mexanizmlərindən istifadə etmişlər. Yeni sənaye ölkələrinin sürətlə modernləşməsi təsərrüfatın təşkilinin müasir formalarını həmin ölkələrin milli ənənələrə əsaslanan və sosial-iqtisadi tərəqqinin ümumdünya meyillərinə qarşı həssas sosial təsisatları ilə üzvi şəkildə birləşməsi sayəsində mümkün olmuşdur. Şərqi Asiya regionu və Latın Amerikası ölkələrinin bir qismi YSÖ sırasına aid edilir. YSÖ-nün iki qrupu vardır: birinci eşelon (Şimal-Şərqi Asiya modeli) və ikinci eşelon (Cənub-Şərqi Asiya modeli). Yeni sənaye ölkələrinin birinci eşelonuna dörd "əjdaha" aid edilir: Cənubi Koreya, Tayvan, Sinqapur və Honkonq. Bu qrupa daxil ölkələrin səciyyəvi cəhəti ictimai və özəl təşəbbüslərin sıx inteqrasiyası, dövlət, korporasiya və bazar tənzimləməsinin sıx inteqrasiyasıdır. Dövlət uzunmüddətli iqtisadi strategiya və məqsədyönlü sənaye siyasəti işləyib hazırlamaq və reallaşdırmaq yolu ilə kapital yığımının, texnoloji prosesin, struktur

dəyişikliklərinin elə artım sürətini və əmək məhsuldarlığının elə artımını təmin edə bilmişdir ki, təkcə bazar mexanizmlərinə əsaslanmaqla nisbətən qısa müddətdə (iyirmi-otuz ildə) bu nəticələrə nail olmaq mümkün deyil.

Davamlı iqtisadi artım, adekvat sosial siyasət, ali təhsil sisteminin sürətli inkişafı sosial bərabərsizliyin yumşaldılması, gəlirlərin artması, əhalinin müxtəlif təbəqələrinin və qruplarının həyat standartlarının əhəmiyyətli dərəcədə yüksəldilməsi üçün şərait yaratmışdır. Davamlı siyasi-iqtisadi inkişaf üçün baza olan orta sinfin formalaşması sürətlənmişdir. Məsələn, Cənubi Koreyada və bu qrupa daxil olan başqa ölkələrdə onların inkişafının konkret tarixi şərait ilə müəyyən edilən fərqlərə baxmayaraq, müasir qarışıq cəmiyyətin təşəkkülü və postsənaye inkişaf yoluna qədəm qoymaq üçün ilkin şəraitin təməli qoyulmuşdur. Bu qrupa daxil olan ölkələrin ikinci eşelonunda – Malaziya, Tailand və İndoneziyada da baş verən sənaye transformasiyası prosesləri çox cəhətdən oxşardır, hərçənd bu eşelonda həmin hadisələr zaman etibarı ilə xeyli geri qalmışdır. Yeni sənaye ölkələrinin şimal qrupundan fərqli olaraq Şərqi-Asiya regionunun cənub hissəsində daha liberal siyasətdən istifadə edilmiş, birbaşa dövlət müdaxilə tədbirləri sistemindən daha çox makroiqtisadi, maliyyə və pul-kredit siyasəti metodlarına, ticarətin liberallaşdırılmasına və birbaşa xarici investisiyalara üstünlük verilmişdir. Sənayeləşmənin idxalı əvəz edən mərhələsinin uzun müddət davam etməsi bu ölkələrin spesifikası, həmin mərhələnin ilkin səviyyəsi ilə izah edilir. Regionun şimalında artıq qərarlaşmış həyat səviyyəsinə yaxınlaşmaq üçün bu ölkələr investisiya və ixracın stimullaşdırılmasını, struktur irəliləyişlərini davam etdirməklə təbii resurslarla və ya aşağı ixtisaslı ucuz işçi qüvvəsi ilə əlaqədar sahələrin çərçivəsindən kənara çıxmaq və daha yüksək ixtisaslı və daha texnoloji parametrlərlə fərqlənən sahələrin növbəti nəslini yaratmaq məsələlərini həll etməlidirlər.

Şərqi Asiyanın yeni sənaye ölkələri müxtəlif ölkələrdə və dünyanın müxtəlif regionlarında müxtəlif dərəcədə təzahür etmiş və genişlənərək qlobal böhrana çevrilmiş kəskin maliyyə böhranının mənbəyi olmuşdur. Bu böhran iqtisadi inkişafın həm Şimal-Şərqi Asiya modelinin, həm də Cənub-Şərqi Asiya modelinin zəif cəhətlərini üzə çıxarmışdır. İqtisadiyyatın həddən artıq sürətli inkişafı, "pis" kreditlər əsasında bank sisteminin həddən artıq genişlənməsi, investisiya fəaliyyətinin hədsiz geniş vüsət alması, spekulyativ xarici kapitaldan asılılıq bu cür zəif yerlərə aiddir. Böhran həmin ölkələri iqtisadi inkişaf modellərini dəyişdirmək, struktur islahatların, o cümlədən dövlət iqtisadi tənzimləmə metodları və formaları sahəsində islahatların yeni mərhələsinə keçid zərurəti qarşısında qoymuşdur.

Latın Amerikası bölgəsindəki yeni sənaye ölkələrinə Latın Amerikası regionunun sosial və texnoloji modernləşmə yoluna qədəm qoymuş və təbii, tarixi və sosial-siyasi şəraitin həddən artıq müxtəlifliyi səbəbindən "qovub çatma sənayeləşdirilməsi"nin müxtəlif pillələrində olan ölkələr aiddir. Braziliya, Çili, Meksika, Uruqvay, Argentina bu yolda daha çox irəliləmişlər. Ümumiyyətlə, Latın Amerikası ölkələrinin ixrac istehsalatlarının idxal edilən kapital əmtəələri ilə təchizatı üçün tələb olunan zəruri vəsaitin yoxluğu üzündən onların sənayeləşmənin idxalı əvəzləyən mərhələsində uzun müddət olması səciyyəvi haldır. Sənaye inkişafı ziqzaq xarakterli olmaqla, irəli çıxmış ölkələrin (1980-ci illərdə Braziliya, Meksika) geriləmə məqamları ilə yadda qalmışdır.

1990-cı illərin əvvəlləri bu ölkələrin inkişafında tamamilə yeni mərhələ idi: onlar ənənəvi idxalın əvəz edilməsi siyasətindən yeni, açıq iqtisadiyyat strategiyasına keçirdilər. Şərti adı "effektiv transformasiya", "sosial ədalət şəraitində iqtisadi transformasiya" olan bu strategiyanın reallaşdırılması aparıcı ölkələrin (Braziliya, Çili, Meksika) dünyada baş verən sosial-iqtisadi tərəqqinin tələblərinə uyğun struktur dəyişiklikləri həyata keçirmələrinə imkan verir. Latın Amerikası ölkələrinin sosial strukturunun spesifik xüsusiyyəti burada çox dərin sosial diferensiasiya olmasıdır: hakim elita ilə ən yoxsul əhali kütlələri arasında yaranmış uçurum bu ölkələr üçün səciyyəvi olan siyasi, iqtisadi və sosial qeyri-sabitliyi şərtləndirir. 1990-cı illərin əvvəllərində həyata keçirilən yeni liberal islahatlar şəraitində orta sinfin zəifliyi

üzündən yoxsullar və varlılar arasında fərqlər nəinki azalmamış, hətta artmışdır. Buna baxmayaraq, iqtisadi islahatların real əmək haqqının artmasına, sosial sferanın inkişafına yönəlmiş sosial siyasət tədbirləri ilə tamamlandığı, inflyasiya ilə mübarizədə uğurlar qazanıldığı ölkələrdə müəyyən milli barışıq tədbirlərinə nail olunmuşdur. Bu, həmin ölkələrin postsənaye inkişafı yoluna qədəm qoyması üçün perspektiv imkanlar yaradır.

YENİ TARİXİ MƏKTƏB – nəzəri iqtisad elminin faktiki olaraq xalq təsərrüfatı tarixi ilə əvəz edilməsinə aparan iqtisadi hadisələrin tarixi şərhini vurğulayan burjua iqtisadi fikrinin istiqaməti. XIX əsrin son – üçüncü qərinəsində – XX əsrin birinci qərinəsində əsasən Almaniyada inkişaf etmişdir. Bu məktəbin nümayəndələrinə Q.Şmoller, L.Brentano, K.Büxer, V.Zombart, Q.Knapp, A.Şpiqof (Almaniya), F.Simiand (Fransa), A.Toynbi, R.Toni, U.Kannigem, K.İnqrem, U.Eşli (Böyük Britaniya), S.Vitte (Rusiya) daxildir. "Yeni tarixi məktəb" üçün xarakterik cəhət iqtisadi qanunların obyektiv xarakterinin və iqtisadi prosesləri izah etməyə qadir ümumi iqtisadi nəzəriyyənin özünün imkanının inkar olunmasıdır. Onun nümayəndələri milli iqtisadi nəzəriyyə konsepsiyasını rəhbər tuturlar. Bu nəzəriyyənin predmeti, onların nöqteyi-nəzərincə, müxtəlif xalqların iqtisadi inkişafının müxtəlif, təkrar olunmayan yollarının və formalarının öyrənilməsindən ibarətdir. Bu konsepsiyanı yalnız konkret tarixi metodun digər ictimai və bir sıra təbiət elmləri, o cümlədən etika, psixologiya, sosiologiya, etnoqrafiya, antropologiya, siyasi elmlər, eləcə də biologiya, coğrafiya və s. elmlər əsasında işləyib hazırlamaq olar. "Yeni tarixi məktəb" öz tənqidini birinci növbədə ingilis klassik məktəbinə və marksizm iqtisadi təliminə yönəltmişdir. "Yeni tarixi məktəb"in ideoloji göstərişi iki nəticəyə gətirib çıxarmışdır: birincisi, üstün olaraq orta əsr keçmiş Almaniyaya aid olan vahid, lokal iqtisadi hadisələrin təsviri ilə məhdudlaşaraq, prinsipcə geniş nəzəri ümumiləşdirmələrdən imtina edirdi. Ümumiləşdirmələr təsərrüfat tarixini səthi sxemləşdirmədən irəli getmədi. Büxer, məsələn, burada 3 mərhələni ayırır: natural ev təsərrüfatı, əmtəə-pul münasibətlərinin rüşeymləri olan şəhər təsərrüfatı və nəhayət, inkişaf etmiş bazar münasibətləri olan xalq təsərrüfatı. İkincisi, "Yeni tarixi məktəb" gənc kapitalist ölkələrində burjuaziyanın praktik problemlərinin həllinə, hər şeydən əvvəl, dünya bazarında hökmranlıq edən Britaniyadakı milli iqtisadiyyatın qorunmasına yönəldilmişdir. "Yeni tarixi məktəb" milli kapitala münasibətdə proteksionizm siyasətinin zəruriliyi, habelə, iqtisadiyyatın səmərəli inkişafının vacib şərti kimi dövlətin iqtisadiyyata müdaxiləsinin həlledici rolu haqqında təlimi ingilis klassik siyasi iqtisad konsepsiyasına qarşı qoydu. "Yeni tarixi məktəb" əməklə kapital arasında sinfi ziddiyyətlərin kəskinləşməsini zəiflətməyə cəhd göstərərək, fəhlə məsələsi deyilən məsələyə xüsusi diqqət yetirdi. Bu məqsədlə 1872-ci ildə Paris kommunasının süqutundan sonra "Sosial siyasət ittifaqı" yarandı. Bu ittifaqın vəzifəsinə cəmiyyətdə sosial-iqtisadi və siyasi sabitliyin təmin edilməsinə səbəb olan sosial islahatların işlənib hazırlanması daxil idi. Onun həllində "Yeni tarixi məktəb"in nümayəndələri arasında iki istiqamət müəyyən edilmişdi. Birinci istiqamət konservativ meyili idi və alman monarxiyasının sosial qanunvericiliyinə yönəlmişdi. Burada qeyd olunurdu ki, "fəhlə məsələsi" onun əsas maraqlarının hüquqi cəhətdən tərtib edilməsi yolu ilə, o cümlədən icbari ibtidai təhsilin tətbiqi, qadın və yeniyetmələrin əməyinin dövlət tənzimlənməsi sistemi, yaşa və əlilliyə görə pensiya sistemi və s. tətbiqi nəticəsində həll oluna bilər. İkinci istiqamət liberal meyilli idi və "fəhlə məsələsi"ni yalnız əməyin mühafizəsi haqqında qanunvericiliyin inkişafında yox, həm də başlıca olaraq fəhlələrin mənafelərini fəal müdafiə edən həmkarlar ittifaqlarında fəhlələrin təşkilində görürdü. "Sosial siyasət ittifaqı" proqramının işlənib hazırlanmasında universitet professorları başlıca rol oynadılar. Bununla əlaqədar olaraq bu proqram kadeter sosializmi, yəni "kafedral sosializm" adını aldı. Qeyd etmək lazımdır ki, Almaniyanın kansleri Otto Bismark "fəhlə məsələsi"nə dair öz siyasətinin əsasını bu proqramında qoydu.

"Yeni tarixi məktəb" iqtisadiyyatın tarixinə dair faktiki mate-

rialın yığılmasına, eləcə də onun şərhinə dair geniş yanaşmanın inkişafına təsir göstərdi.

YENİ TEXNİKA VƏ TEXNOLOGİYA RİSKLƏRİNİN SIĞORTALANMASI – iki istiqamətə ayrılır. Birinci istiqamət – texnikanın, qurğuların, texnologiyanın, texnoloji xətlərin sıradan çıxması, işinin pozulması, məhv olması zamanı onların sığortalanmasıdır. İkinci istiqamət – texniki və texnoloji yeniliklərin tətbiqi ilə və ya onlarda baş verən dağılmalarla, dayanmalarla və s. ilə yaranan gözlənilməz hadisələrdən sığortalanmadır.

"YENİ VAXT" HESABINA ƏQD – yeni hesablaşma dövründən əvvəlki iki gün ərzində fond birjasında bağlanan əqd. Əqd üzrə ödənişi növbəti hesablaşma gününə qədər təxirə salmağa imkan verir.

YENİDƏN SIĞORTA – riskin sığortalanması üzrə sığortaçılar arasındakı münasibətlərin məcmusu. Öz üzərinə imkanlarından artıq həcmdə risk qəbul edən sığortaçı riskin bir hissəsini başqa sığortaçıya ötürür. Onlar arasındakı münasibətlər müqavilə ilə rəsmiləşdirilir. Müqaviləyə görə, tərəflərdən biri, yəni yenidən sığortalanan, yaxud sedent riskin və deməli, mükafatın müvafiq hissəsini başqa tərəfə, yəni yenidən sığorta edənə, yaxud sessionariyə ötürür. Sonuncu, sığorta halı baş verdikdə, riskin öz üzərinə qəbul etdiyi hissəsini ödəməyi öhdəsinə götürür. Riskin ötürülməsi üzrə əməliyyatlar bəzən sessiya adlanır. Öz növbəsində yenidən sığorta riskin bir hissəsini başqa bir sığorta şirkətinə ötürə bilər. Belə olduqda, yenidən sığortalayan retrosedent rolunda çıxış edir, yeni sığorta şirkəti retrosessionari, riskin ötürülməsi əməliyyatı isə retrosessiya adlanır. Yenidən sığorta münasibətləri iki növ müqaviləni nəzərdə tutur: miqyasdan asılı olmayaraq qəbul edilmiş bütün risklərin sığorta müqaviləsi və ayrı-ayrı risklərin yenidən sığortası müqaviləsi. İcbari yenidən sığorta şirkətin bütün risklərinin yenidən sığortaya məcburi qəbul edilməsi haqqında sessionari (hüquq, mülkiyyət və s. ötürülən şəxs; təkrarsığortada riskin bir hissəsini götürən təkrarsığortaçı) ilə müqavilənin bağlanılmasını nəzərdə tutur. Fakültativ yenidən sığorta ayrı-ayrı risklərin sığortasından imtina edilməsinin mümkünlüyünü nəzərdə tutur. Yenidən sığortanın başqa bir növü icbari və fakültativ yenidən sığortanın kombinasiya edilməsini nəzərdə tutur. Yenidən sığorta XIX əsrin sonlarında Almaniyada yaranmışdır.

YENİDƏN TƏŞKİL – müəssisənin təşkilati və idarəetmə strukturunun dəyişilməsi, əsas vəsaitlərin və istehsal potensialının əvvəlki kimi qalması.

Yenidən təşkil müəssisənin inkişafında həyat tsikli mərhələlərindən biridir. Təşkilatın təsərrüfat fəaliyyəti zəiflədikdən sonra onun səmərəli fəaliyyətini təmin etdirmək məqsədilə o, yenidən təşkil edilir. Bundan sonra fəaliyyətin sabitləşməsi və yüksəliş baş verməlidir.

YENİLİKÇİLƏR – bazarda peyda olduqdan dərhal sonra yeni malların əldə edilməsinə hazır olan alıcılar.

YENİLİYİN HƏYAT TSİKLİ – yeni ideyanın yarandığı, onun yeni məhsullarda praktik təcəssüm etdiyi andan həmin məmulatların mənəvi köhnəlməsinin başlanmasına, onların praktik tətbiqinin xeyli azalmasına və istehsaldan çıxarılmasına qədər davam edən dövr.

Yeniliyin həyat tsiklinin mərhələləri:

– ideyanın yaranması, ixtiranın əmələ gəlməsi;

– elmi tədqiqatlar və araşdırmalar aparılması, niyyətin həyata keçirilməsinin mümkünlüyünü yoxlamaq üçün eksperimentlər;

– istehlak bazarında yeni əmtəə növünün yaranması, ona tələbin formalaşması (artması);

– bazarda həmin malın bolluğunun yaranması;

– malın satış həcminin azalması və onun yeni, daha müasir mal tərəfindən tədricən sıxışdırılması. Bəzən yeniliyin həyat tsikli başqa bir formula ilə xarakterizə edilir: "elm – eksperiment – istehsal – tətbiq".

YENİLİKLƏRİN VİDEO BURAXILIŞI – ictimai əhəmiyyətli hadisələrin işıqlandırılması, onlar televiziyalara videokasetdə, video şəbəkələr üzrə və ya peyk əlaqəsi ilə göndərilir.

YERLİ BÜDCƏ – yerli idarəetmə orqanlarının gəlirləri və xərcləri smetası, yaxud bütövlükdə yerli hakimiyyət və idarəetmə orqanlarının sərəncamında olan inzibati-ərazi vahidlərinin gəlirləri və xərclərinin məcmusu. Yerli büdcələr cari məsrəflər büdcəsi və müxtəlif funksional məna kəsb edən və öz gəlir mənbələrinə malik olan kapital məsrəfləri büdcələrinə bölünür. Formal olaraq, dövlət

büdcəsindən əlahiddəliyi ilə fərqlənir, lakin onların büdcə səlahiyyətləri mərkəzi hökumətin aktları ilə müəyyənləşir. Federativ dövlətlərdə mərkəzi və regional (yerli) idarəetmə səviyyələri arasında hüquq və vəzifələrin konstitusion bölgüsü fəaliyyət göstərir. Qeyri-mərkəzləşdirilmiş tipdə federativ dövlətlərin (Kanada, Avstriya) yerli büdcələri mərkəzləşdirilmiş tipli dövlətlərin və ya unitar dövlətlərin strukturlarına nisbətən gəlirlərin alınmasında və vəsaitlərin xərclənməsində daha geniş səlahiyyətlərə malikdir.

Yerli büdcələrin gəlirləri dörd əsas mənbədən əmələ gəlir: 1) vergilər; 2) qeyri-vergi gəlirləri; 3) mərkəzi büdcədən dotasiyalar, subsidiyalar; 4) istiqrazlar.

Yerli vergiqoymadan əldə olunan gəlirlər və dövlət büdcəsinin gəlirləri sürətlə artmışdır. Keçən əsrin son illərində qeyri-vergi gəlirlərinin artması meyli müşahidə olunmuşdur.

Yerli büdcələrin gəlirlərinin strukturu vəsait daxilolmalarının əsas mənbələrinin müxtəlif nisbəti zamanı formalaşır. Vergilərdən əldə olunan gəlirlər ən mühüm gəlirlərdən biridir (ABŞ-da yerli vergilər yerli büdcələrin resurslarının 65%-ni təşkil edir), hərçənd ki, o, yerli büdcələrin heç də həmişə əsas mənbəyi ola bilmir (Almaniyada yerli büdcə daxilolmalarının 31%-i yerli vergilərin payına düşür).

Qərb ölkələrinin yerli büdcələrində qeyri-vergi gəlirləri əhəmiyyətli dərəcədə az rol oynayır (bu maddə üzrə yerli büdcə daxilolmaları 10-25% hədlərində tərəddüd edir).

Qərb ölkələrinin yerli büdcələrinin maliyyələşməsinin əsas mənbəyi dövlət subsidiyaları və dotasiyalarıdır. Bütövlükdə, onlar yerli büdcələrin gəlirlərinin 25-50%-ni təşkil edir.

Yerli büdcələrin xeyrinə dövlət transfertləri üç formada: 1) vergi daxilolmalarının yenidən bölgüsü; 2) ümumi və xüsusi təyinatlı subsidiya – dotasiya; 3) xüsusi məqsədli subsidiyalar (subvensiyalar) vasitəsi ilə həyata keçirilir.

Federativ dövlətlərdə subsidiyalar həm mərkəz, həm də federasiyanın üzvləri (subyektləri) tərəfindən verilir. Vəsaitlərin bu cür yenidən bölgüsü sistemi fiskal federalizm adlanır.

Yerli büdcələrin maliyyələşməsində istiqrazların rolu, adətən, məhdud olur. Çox zaman iri yerli inzibati orqanlar – federasiya üzvləri, şəhərlər, əyalətlər istiqrazlar buraxmaq hüququna malik olur. İstiqrazlar istər həmin inzibati ərazi bölgüsündə, istərsə də digər mahalda (dairədə), ölkədə və ya beynəlxalq kredit mərkəzində yerləşə bilər. Yerli hakimiyyət orqanlarının xarici istiqrazları (borcları) məhdud yerləşmə dairəsinə malikdir. Yerli büdcənin məxaric hissəsi öz məqsədli təyinatına görə əsaslı vəsait qoyuluşları üçün nəzərdə tutulan kapital məsrəflərinə, cari məsrəflərin, eləcə də borc öhdəliklərinin ödənilməsi xərclərinə bölünür. Ümumi büdcə xərclərinin 60%-dən (ABŞ, Yaponiya, Almaniya) 20%-i (Fransa) yerli büdcələrin payına düşür. Bununla belə, Almaniyada ümumi daxili məhsula (ÜDM) nisbətdə yerli ehtiyaclar üçün xərclərin səviyyəsi 10%-dən aşağıdır. ABŞ-da oxşar məqsədlər üçün məsrəflərin payı ÜDM-in 8,6%-ni təşkil edir.

Yerli büdcələrin xərclərinin kəmiyyəti ölkənin sosial-iqtisadi həyatında onların rolunu sübut edir. Yerli büdcələrin resursları təhsilin, səhiyyənin, sosial təminatın maliyyələşməsinə yönəldilir. Belə ki, bələdiyyə orqanlarına düşən ümummilli xərclərin payı 1980-ci illərdə təxminən 50% təşkil etmişdir. Səhiyyənin bütün xərclərinin 60%-ə qədəri yerli büdcələrin payına düşürdü. Yerli büdcələr polis və yanğınsöndürmə xidmətinə, sanitar xidmətinə, kanalizasiyaya, su təchizatına, yerli reklama, kitabxanalara çəkilən xərcləri maliyyələşdirir. Sosial və iqtisadi infrastruktur xərclərinin maliyyələşməsi ilə bağlı kapital məsrəfləri əsasən istiqrazların hesabına həyata keçirilir. İstiqrazlara görə faiz ödənişləri üzrə xərclər xidmətlərin göstərilməsi dəyərinə daxil olur. Bütövlükdə, istiqrazlara görə faiz ödənişlərinə və yerli borcun kapital məbləğinin ödənilməsinə sərf edilən yerli büdcə vəsaitləri müxtəlif ölkələrdə yerli büdcə xərclərinin 10-15%-ə qədərini təşkil edir.

YERLİ GƏLİR – "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa görə, dövlət büdcəsində müəyyən edilən normativlər əsasında ayrı-ayrı şəhər və rayonlar üzrə formalaşan gəlir.

YERLİ XƏRC – "Büdcə sistemi haqqında" Azərbaycan

Respublikasının Qanununa görə, büdcə təsnifatına uyğun olaraq maliyyələşdirilməsi yerli gəlirlər və mərkəzləşdirilmiş gəlirlərdən ayrılan vəsait hesabına həyata keçirilən xərclər.

YERLİ İNVESTOR – ölkə vətəndaşları, təsisçisi (təsisçiləri) və ya nizamnamə fondundakı payın 50%-dən çoxu ölkə vətəndaşlarına məxsus hüquqi şəxslər.

YERLİ ÖDƏNİŞLƏR – tətbiqi qaydası müvafiq qanunla müəyyən edilən, habelə yerli rəy sorğularının nəticələri əsasında həyata keçirilən məqsədli layihələrin maliyyələşdirilməsi üçün hüquqi və fiziki şəxslərin ödədikləri könüllü birdəfəlik ödənişlər. Bu ödənişlər hüquqi və fiziki şəxslər tərəfindən qanunvericiliklə nəzərdə tutulmuş vergi öhdəlikləri yerinə yetirildikdən sonra onların sərəncamında qalan mənfəət və gəlirlər hesabına ödənilir.

YERLİ VERGİLƏR (BƏLƏDİYYƏ VERGİLƏRİ) – tutulması mexanizmləri və dərəcələri vergi qanunvericiliyi ilə müəyyən edilən, bələdiyyələrin qərarlarına əsasən tətbiq olunan, bələdiyyələrin ərazilərində ödənilən və bələdiyyə büdcəsinə daxil olan vergilər.

YIĞIM ƏMANƏTİ – əmanətin doldurulması imkanı ilə banklara köçürülən əmanət. Bu zaman qoyulan məbləğə müəyyən faiz hesablanır; adətən, əmanətin minimum məbləği və müddəti müəyyən edilir.

YIĞIM (QƏNAƏT) – əhalinin cari istehlak ehtiyacları üçün istifadə edilməyən pul gəlirlərinin bir hissəsidir. Öz iqtisadi təbiətinə görə yığım gəlirlərin alınması prosesinin və onların istifadə edilməsinin uyğunluğu nəticəsində əmələ gəlir. Bütövlükdə pul yığımları öz hərəkətini bu və ya digər səbəblərə görə ləngidən pul vəsaitlərinin tədavülündə olan bir hissəsidir.

Yığımın məqsədləri, səbəbləri, ölçüləri, yığılma formaları, qorunub saxlanması və reallaşması iqtisadi, sosial, demoqrafik və psixoloji amillərdən asılıdır. Yığım iki aspektdə nəzərdən keçirilir: bir tərəfdən pulun funksiyasıdır, digər tərəfdən əhalinin alıcılıq fondunun formalaşması ilə əlaqədar istehlakçıların potensial tələbidir. Yığım əmanətlər, istiqrazlar, payçı qaytarılan haqları, "əhalinin əllərində" (nağd pulun qalığı kimi) və s. formalarda qorunub saxlanır. Yığım həcminin, illik təxmini (istiqamətli) hesablanması əhalinin gəlirləri, onun əmtəə və xidmətlərin alınmasına çəkilən xərclər nəzərə alınmaqla aparılır, gəlirlərlə xərclər arasında fərq kimi hesablanır. Əmtəə və xidmətlərin tələb və təklifi arasında disbalans şəraitində "artıq", "məcburi" yığımlar formalaşır ki, bunlar da mübadilə prosesində artıq pul kütləsini əks etdirir.

YIĞIM FONDU – milli gəlirin geniş təkrar istehsal, qeyri-istehsal fondlarının genişləndirilməsi, eləcə də dövlət resurslarının və dövlət ehtiyatlarının yaradılması üçün istifadə edilən hissəsi. Yığım fondu maddi-əşya tərkibinə görə istehsal vasitələrindən və istehlak predmetlərindən ibarətdir. Yığım fondunun tərkibi əsas istehsal fondları (binalar, tikililər, maşın və avadanlıqlar, işçi və məhsuldar heyvanlar) və qeyri-istehsal təyinatlı fondlardan (mənzil fondu, maarif, səhiyyə, mədəniyyət, elm, idarəetmə və başqa sahələrdə istifadə edilən binalar, tikililər və avadanlıq) ibarətdir. Maddi dövriyyə vəsaitlərinin artması xammal və material, yanacaq və hazır məhsul ehtiyatlarının artmasında ifadə olunur. Yığım fonduna daxil olan tərkib hissələrin sosial-iqtisadi məzmunu və forması yığım qanunlarının mülkiyyət və təsərrüfatçılıq formalarının, bazar iqtisadiyyatı şəraitində, planlı bölgü sistemində və başqa iqtisadi sistemlərdə fəaliyyətindən asılıdır.

Yığım fondunun ən mühüm mənbəyi izafi məhsuldur. Məhz izafi məhsulun hesabına əsas fondların, maddi dövriyyə vəsaitlərinin, ehtiyatların və başqa elementlərin daxil olduğu kapital (investisiya resursları) artımı baş verir. Yığım fondunun yaranmasında əvəzləmə fondu o halda iştirak edir ki, elmi-texniki inqilab (ETİ) prosesində fiziki və mənəvi baxımdan köhnəlmiş istehsal vasitələri və texnologiyalar yeni, daha mükəmməl, daha yüksək məhsuldarlığa malik olan istehsal vasitələri və texnologiyalarla əvəz edilsin.

Yığım fondunun həcmi və artım sürəti yığım fondunun milli gəlirə nisbətini ifadə edən yığım normasından asılıdır. Yığım normasının artması yığımın həcminin və iqtisadi artım tempinin artmasına gətirib çıxarır. Lakin bu halda milli gəlirin qalan hissəsi hesabına istehlak fondu yaranır. Bu vəziyyətdə hər bir konkret dövrdə yığım normasının əsaslandırılmamış halda

artırılması istehlak fondu ilə ziddiyyət yaradır, istehlak səviyyəsinin artırılması imkanını məhdudlaşdırır. Yığım ilə istehlak arasında bu ziddiyyəti aradan qaldırmaq üçün əməyin məhsuldarlığı, kapital qoyuluşlarının səmərəliliyi və fond verimi artırılmalı, material tutumu azaldılmalı, istehsal daha intensiv olmalıdır. İstehsalın səmərəliliyinin artırılması nəticəsində istehlakı artırmaq və milli gəlirdə yığım normasını azaltmaq kimi 2 ziddiyyətli məsələni eyni vaxtda həll etməyə imkan yaranır.

YIĞIM QANUNU – 1. Təsərrüfat fəaliyyətindən əldə olunan mənfəətin bir hissəsi onun miqyasının genişlənməsinə, investisiyalara yönəldilir. Pul vəsaitləri tamamilə istehlaka buraxılan halda iqtisadi artım ləngiyə və ya hətta olmaya bilər. Bütövlükdə ölkə iqtisadiyyatının geniş təkrar istehsalını təmin edən yığımın olmaması zamanı o, dayanıqlığını və rəqabət qabiliyyətini itirir.

Kapitalın yığım nəzəriyyəsi makroiqtisadiyyat sahəsində müasir müəyyənliklər üzrə formalaşan təkrar istehsal nəzəriyyəsinin hissəsi kimi müəyyən olunur və siyasi iqtisadın müxtəlif məktəblərində aparıcı istiqamət sayılır. 2. İnsanlar öz tələblərini gəlirlərin artmasına nisbətən daha böyük sürətlə artırırlar. Real gəlirin məcmu halında artımı nisbətində investisiyalar da artır. İnkişaf etməkdə olan ölkələr maliyyə və investisiyalar sahəsində yığımın həyata keçirilməsində böyük imkanlara malikdir. Bunun köməyilə onlar yüksək həyat tərzinə nail olmuşlar. Bu da ÜDM-in böyük bir hissəsini investisiyalar üçün ayırmağa imkan verir. İnkişafdan geri qalmış ölkələr maliyyələşmə üçün kapital çatışmazlığı hiss edirlər.

YIĞIM NORMASI – əldə edilmiş gəlirin ümumi həcmində yığımlar kimi, kapital qoyuluşları kimi ayrılmış vəsaitlərin nisbi payı. Makroiqtisadi nəzəriyyə baxımından yığım norması ölkənin ümumi milli gəlirinin həcmində dövlət tərəfindən qarşıya qoyulmuş strateji məqsədlərə nail olmaq üçün sərmayə qoyulan vəsaitin nisbi payını əks etdirir. Yığım norması dövlətin həyata keçirdiyi investisiya siyasətindən asılı olaraq kifayət qədər geniş diapazonda (10 faizdən 40 faizə qədər) dəyişə bilər. Bəzən yığımların, investisiyaların bu və ya digər sahəyə yönəldilməsindən asılı olaraq istehsal və qeyri-istehsal normalarını fərqləndirirlər.

YIĞIM VƏ TUTUŞDURMA ANLAYIŞI – mühasibatlıq təcrübəsində standart prinsipi (SSAP). Böyük Britaniyada mənfəəti hesablayarkən tətbiq olunan bu prinsipə görə, hər hansı gəlir həmin gəlirin əldə edilməsi prosesində çəkilmiş xərclərlə müqayisə edilir. SSAP-2 həmin prinsipi bir qədər dəyişdirərək onu aşağıdakı kimi ifadə edir: "Gəlirlər və xərclər toplanır (yəni pul vəsaitlərinin alındığı və ya ödənildiyi anda deyil, gəlirlərin qazanıldığı və ya xərclərin çəkildiyi anda tanınır), onlar bir-biri ilə elə müqayisə edilir ki, bu müqayisə onların qarşılıqlı əlaqəsini müəyyən etməyə imkan verir. Müvafiq məbləğlər isə müəyyən dövr üçün mənfəət və zərərlər haqqında hesabatlarda əks olunur. Bu gəlirlər və mənfəət qazanılmış gəlir üçün çəkilmiş xərclərin hesabatına daxil edilməklə müvafiq dəyərlər və xərclərlə müqayisə olunur".

Şirkətlər haqqında 1985-ci ildə qəbul edilmiş Akta əsasən yığım anlayışı hüquqi cəhətdən tanınmışdır, çünki hesabat ili ilə eyni maliyyə ilinin bütün daxilolmaları və tədiyələri pul vəsaitlərinin daxilolma və ya köçürülmə vaxtından asılı olmayaraq hesablanmalıdır.

YIĞIM VAHİDİ – qrup annuitet fondunun bir hissəsi; bu hissənin qiyməti fondun ümumi məbləğinin yığım vahidlərinin miqdarına bölünməsi yolu ilə təyin edilir. Bu termin, adətən, annuitet yığım dövründə istifadə olunur.

YIĞIMA MEYİL (və ya pul vəsaitlərinin yığımına olan tələbat) – obyektiv və subyektiv xarakterli bir sıra amillərin təsiri ilə, istehlak davranışının iqtisadi və psixoloji amillərinin fəaliyyəti ilə müəyyən olunur.

Sosial-iqtisadi amillər (istehsalın, tələbatın və istehlak tələbinin səviyyəsi, əhalinin gəlirlərinin səviyyəsi və diferensiallaşması, əhalinin yaş fərqi və s.) yığımın (qənaətin) formalaşmasının motivlərini və istiqamətini müəyyən edir. Tələbatların və istehlak tələbinin artması ilə tələbatların dairəsi mürəkkəbləşir və artır ki, bunlar da yalnız pul vəsaitlərinin müəyyən səviyyəsinin formalaşması zamanı ödənilə bilər. Bu isə mədəni-məişət təyinatlı uzunmüddətli istifadəli bahalı malların (o cümlədən, yeni əmtəələrin) alınması,

istirahətlə, mənzilin (evin) tikintisi və ya alınması ilə bağlı xərclərin ödənilməsi üçün pul yığımlarının formalaşmasını tələb edir. Gəlirlərin səviyyəsinin diferensiallaşması yığımlara olan tələbatların səviyyəsini və onların formalaşmasının real mümkünlüyünü müəyyən edir. Psixoloji amillər – "qənaətcillik, xəsislik, sahibkarlıq" (C.Keynsə görə) və ya "sosial nüfuz hissi, ehtiyat hissi" (D.Düzenberriyə görə) əhalinin həyatının müxtəlif sosial-iqtisadi şəraitində yığımlara olan tələbatın formalaşmasına təsir göstərir.

YIĞIMCIL SIĞORTA – sığortanın digər növlərindən onunla fərqlənir ki, sığorta hadisəsinin baş verməsi ehtimalından asılı deyil. O, vaxtda ödəniləcək yığılmış, təsbit olunmuş məbləğ kimi müntəzəm sığorta haqlarının qaytarılması ilə onların ödənilməsini tələb edir. Buna misal olaraq həyatın və əmanətlərin sığortalanmasını göstərmək olar.

YIĞMA VAHİDİ – tərkib hissələri istehsalçı müəssisədə yığma əməliyyatlarının köməyi ilə öz aralarında birləşdirilməli olan məmulat.

YOXSULLUQ – pul, əmlak və s. ehtiyatlarla təminat səviyyəsi nisbətən aşağı olan və buna görə də özünün maddi və mənəvi tələbatlarının aşağı səviyyədə ödəyən əhalinin və ailənin vəziyyəti. Yoxsul əhalinin sayı və onun həyat səviyyəsi ölkənin inkişaf səviyyəsindən asılıdır. Yoxsulluğun sərhədləri, əhalinin şəxsi istehlak üçün ehtiyatlarla təminatının faktiki və normativ əsasları əsasında və uyğun olaraq, adamların maddi və mənəvi tələbatlarının ödənilməsi səviyyəsi ilə qiymətləndirilə bilər. Statistika təcrübəsində yoxsulluğun qiymətləndirilməsində müxtəlif metodlardan və onların kombinasiyalarından istifadə edilir: 1) **statistik** – əhalinin gəlirlər üzrə qruplaşdırılması əsasında (şəxsi ehtiyatların əsas tərkibi kimi); 2) **normativ** – maddi və mənəvi sərvət və xidmətlərin (natura və digər ifadəsində) istehlakının zəruri ictimai minimum normalarının müəyyən edilməsi əsasında; 3) **öz-özünü qiymətləndirmə metodu** – əhalinin xüsusi sorğu məlumatları əsasında. Yoxsulluq insan inkişafının imkanlarının genişləndirilməsi yolunda əsas maneələrdən biridir. Hazırda dünyanın müxtəlif ölkələrində bir milyarda yaxın insan yoxsulluqdan və doyunca yeməməkdən əziyyət çəkir. Buna görə də təsadüfi deyil ki, 2000-ci ilin sentyabr ayında Minilliyin Sammitində Birləşmiş Millətlər Təşkilatının üzvü olan 189 ölkə tərəfindən qəbul olunmuş Minilliyin Bəyannaməsində yoxsulluğun ifrat formaları ilə mübarizə inkişafın əsas məqsədləri siyahısında birinci göstərilmişdir. Yoxsulluğun müəyyən edilməsinin bir neçə yanaşması mövcuddur. İki ənənəvi yanaşma mütləq və nisbi yanaşma istisna olaraq, gəlir və ya istehlakla əlaqələndirilir. Müasir dünyada yoxsulluq anlayışı daha geniş məna kəsb etməyə başlamışdır. Buna görə də, "çoxşaxəli" yoxsulluğun şərhinə və ölçülməsinin metodlarına yeni yanaşma təklif olunur.

Azərbaycanda yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə yeni Dövlət Proqramı uğurla həyata keçirilir. Bu sahədə hökumət ümumi makroiqtisadi sabitliyi qorumaq, dinamik iqtisadi artımın davamlılığını təmin etmək, inflyasiya və milli valyutanın məzənnəsinin məqbul səviyyədə saxlamaq fikrindədir. 2010-cu ilin yekunlarına görə, Azərbaycanda yoxsulluğun səviyyəsi 2009-cu illə müqayisədə 1,8 faiz azalaraq 9,1 faiz təşkil etmişdir. 2010-cu ildə Azərbaycan insan inkişafının səviyyəsinə görə, dünyanın 169 ölkəsi arasında 2005-ci ildəki 101-ci yerə qarşı 67-ci yerə yüksəlmişdir. 2010-cu ilin yekunları üzrə Azərbaycan əhalisinin pul gəlirləri 2009-cu illə müqayisədə 13,3 faiz artaraq 25,6 milyard manat təşkil edib və ölkədə inflyasiyanın artım templərini (2010-cu ildə 5,7 faiz) qabaqlamışdır. Adambaşına gəlirlər 11,9 faiz artaraq 2866 manat təşkil etmişdir. Gəlirlərin ümumi həcmindən 70 faiz istehlaka, 8,6 faiz vergilərin, dövlət sosial sığortası və üzvlük haqlarının ödənilməsinə, 19,8 faiz isə əmanətlərin və kapitalın artırılmasına yönəldilmişdir.

2010-cu il ərzində Məşğulluq Xidməti orqanlarına müraciət etmiş 54 023 nəfərdən 39 922 nəfəri müvafiq qaydada qeydiyyata alınmışdır. Onlardan 28362 nəfəri münasib işlə təmin edilmiş, 3921 nəfəri isə peşə hazırlığı kurslarına cəlb olunmuşdur. Peşə hazırlığına cəlb olunanların 51 faizi, yəni 2000 nəfəri son illərdə Bakı, Naxçıvan şəhərlərində və Göyçay rayonunda istifadəyə verilmiş Regional Peşə Tədrisi Mərkəzlərində peşə kursu keçmişdir.

Gündəlik gəlirləri alıcılıq qabiliyyəti paritetinə (aqp) görə çevrilmiş 1 dollardan az olan əhalinin xüsusi çəkisi (Minilliyin bəyannaməsində əks olunmuş inkişaf göstəricilərindən) – 1993-cü ilin beynəlxalq qiymətlərinə görə 1,08 dollardan az gündəlik məbləğlə yaşayanların faizlə ifadə olunan hissəsi. Yoxsulluğun rəsmi səviyyəsi əhalinin hər nəfərinə günə 1 dollar düşən istehlak və ya gəlirin səviyyəsi ilə müqayisə edilir və şəxsi istehsal məhsullarının istehlakını və natural ifadədə gəlirləri də özündə birləşdirir. Yoxsulluğun bu həddi müxtəlif ölkə və rayonlarda alıcılıq qabiliyyətinin qeyd olunmuş səviyyəsini göstərir və çox vaxt "yoxsulluğun mütləq həddi" və ya "ifrat yoxsulluğun meyarı" adlandırılır.

Dünya Bankı davamlı olaraq gündə 1 dollarla qiymətləndirilən yoxsulluq səviyyəsini hesablayır. Belə qiymətləndirmələrin əsasını ev təsərrüfatlarının müayinəsi nəticəsində əldə olunmuş gəlir və ya istehlakın səviyyəsinə dair məlumatlar təşkil edir. Yoxsulluğun səviyyəsinin müəyyən edilməsi üçün, imkanlara görə istehlaka dair məlumatlar daha üstün hesab edilir. Gəlirlər haqqında məlumatlardan, istehlaka dair məlumatlar olmadığı hallarda istifadə edilir. İstehlakın, o cümlədən şəxsi istehlak məhsullarının və yaxud hər bir adamın gəlirlərinin göstəriciləri, həmçinin onların bölgü variantları ev təsərrüfatlarının müayinə məlumatları əsasında qiymətləndirilir. Adambaşına düşən gəlirin müəyyən edilməsi üçün istehlak və ya gəlir göstəriciləri həmin ev təsərrüfatlarının üzvlərinin sayına bölünür.

İstehlakın və gəlirlərin bölüşdürülməsi ev təsərrüfatlarının ölçüləri üzrə çəkili empirik (bölgüyə münasibətdə) Lorens əyrisinin tətbiq edilməsi ilə qiymətləndirilir. Bütün hallarda Lorens əyrisinin alınması üçün yoxsulluq həddi mövcud qiymətləndirmələr əsasında deyil, məlumatların ilkin mənbələri əsasında hesablanır. Bu və ya digər ölkədə yoxsulluğun səviyyəsi Dünya Bankının qiymətləndirmə məlumatlarından götürülmüş istehlak üzrə alıcılıq qabiliyyəti paritetinin mübadilə kursları haqqında son məlumatlardan istifadə etməklə, yerli valyuta ilə gündəlik gəliri 1 dollar olan yoxsulluq həddinin konvertasiyası yolu ilə qiymətləndirilir. Sonra müayinələrin keçirilməsi zamanı yoxsulluq həddinin beynəlxalq göstəricilərinin təshih edilməsi məqsədilə fəaliyyətdə olan qiymətlərlə münasibətdə yerli valyuta ilə ifadəsini tapan istehlak qiymətlərinin yerli indekslərindən istifadə edilir. Alıcılıq qabiliyyətinin paritetinə (AQP) əsaslanan beynəlxalq yoxsulluq həddi göstəricisi yalnız müxtəlif ölkələrdən alınan məlumatların müqayisə edilməsi üçün və yoxsulluq səviyyəsinin yekun qiymətləndirilməsini çıxarmaq üçün zəruridir. Bir çox ölkələrdə, həmçinin, ölkə üzrə yoxsulluq həddi müəyyənləşdirilir.

Yoxsulluğun gərginlik indeksi – kvadrata yüksəldilmiş və müvafiq region üzrə seçmədə ailələrin ümumi sayına daxil edilmiş aşağı gəlirin orta aralığı. Bu göstərici daha kasıb ailələrin gəlirlərinin kəsirini müəyyən edir.

Əhalinin yoxsul hissəsi (əhalinin milli yoxsulluq həddindən aşağı yaşayan hissəsinin faizi) – minilliyin bəyannaməsində əks olunmuş inkişaf göstəricilərindən biri – hər hansı bir ölkənin əhalisinin gəlirlərinin, bu dövlətin hökuməti tərəfindən müəyyən edilmiş rəsmi yoxsulluq həddindən (və ya hədlərindən) aşağı olan hissəsi. Milli yoxsulluq həddi adətən müxtəlif ölçülü və müxtəlif tərkibli ev təsərrüfatlarına uyğun olan diapazon qismində müəyyən olunur. Rəsmi yoxsulluq həddi müəyyən edilmədiyi hallarda, onu ailə üzvlərinin təminatı üçün zəruri gəlir səviyyəsi kimi ya ərzaq məhsullarının minimum dəsti, ya da ərzaq üstəgəl ilkin zəruri predmetlər kimi müəyyənləşdirmək olar.

Ev təsərrüfatlarının gəlirlərinin (və ya istehlakının) səviyyəsinin və onların bölüşdürülməsi variantlarının qiymətləndirilməsi də ev təsərrüfatlarının müayinələrinə əsaslanır. Sonra müxtəlif növ ev təsərrüfatlarının gəlirləri onların tərkibindən asılı olaraq bu növ ev təsərrüfatları üçün nəzərdə tutulmuş yoxsulluq həddi ilə müqayisə edilə bilər. Yoxsulluq həddinin ailənin böyük üzvünün gəlirinin ekvivalenti formasında və ya hər hansı digər oxşar göstərici formasında müəyyən edildiyi hallarda ev təsərrüfatlarının gəlirləri də eyni əsasda hesablanmalıdır. Ev təsərrüfatlarının gəlirini İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatında (İƏİT) tətbiq edilən ekvivalentliyin ye-

nidən baxılmış şkalası ilə ev təsərrüfatlarının bir böyük üzvünün gəlirinə ekvivalent kimi, ya da ekvivalentliyin hər hansı digər şkalasından istifadə etməklə hesablamaq olar (yuxarıda qeyd olunan şkalaya uyğun olaraq, ev təsərrüfatlarının 16 yaşdan yuxarı üzvünə 1 qiyməti, ev təsərrüfatlarının 16 yaşdan yuxarı olan bütün digər üzvlərinə 0,5 qiyməti, 16 yaşa çatmamış bütün digər üzvlərinə isə 0,3 qiyməti verilir). Sonra ev təsərrüfatlarının gəlirləri onun "ekvivalentlik əmsalı üzrə hesablanmış" (məsələn, İƏİT-in şkalası üzrə ev təsərrüfatının iki yaşlı üzvü 1,5 ekvivalent ala bilər) üzvlərinin sayına bölünür və nəticə adambaşına düşən gəlirin miqdarını verir.

Əhalinin qida kalorisi minimum səviyyədən aşağı olan hissəsi (minilliyin bəyannaməsində əks olunmuş inkişaf göstəricilərindən) – əhalinin kalori üzrə qida rasionunun normal həyat fəaliyyəti üçün vacib minimumdan aşağı olan faizini əks etdirir. Bu göstəricini həm də əhalinin tam qidalanmamasından əziyyət çəkən hissəsini faizlə ifadə edən geniş yayılmış tam qidalanmama göstəricisi də adlandırırlar. Əhalinin tam qidalanmayan (aclıqdan əziyyət çəkən) hissəsinin hesablanması digər dəqiqləşdirmələrlə yanaşı, qidaların onların kaloriliyi üzrə bölüşdürülməsi xarakterinin dəqiqləşdirilməsini, həmçinin ərzağın (milli və dünya statistika məlumatları əsasında) mövcudluğunun ümumi vəziyyətinin və ərzaq əldəetmənin mümkünlüyündəki qeyri-bərabərliyin (ev təsərrüfatları müayinələrinin milli məlumat bazası əsasında) öyrənilməsini nəzərdə tutur. Hesab edilir ki, belə bölüşdürmə birbaşa və qeyri-bərabərdir. Əhalinin qida kalorisi minimum səviyyədən aşağı hissəsinin müəyyən edilməsində loqarifmik normal funksiya və yaxud ayırma nöqtəsi tətbiq edilir. Ayırma nöqtəsi müxtəlif həddibüluğa çatmış qrupların kalori tələblərindən asılı olan adambaşına orta rəqəm qismində və hər yaş qrupu üzrə verilmiş əhali hissəsi üçün hesablanır.

YOXSULLUQ ASTANASI – minimum gəlirin rəsmi təsbit olunmuş ölçüsü.

YOXSULLUQ DƏRƏCƏSİ – əhalinin ümumi sayında gəlirləri yoxsulluq həddi adlandırılan mütləq səviyyədən aşağı olan faizi.

YOXSULLUQ HƏDDİ – fərdin və ailənin normal həyatı və həyat fəaliyyəti üçün vəsait çatışmazlığının həddi. Yoxsulluq həddi insanın və ya ailənin müəyyən dövr ərzində pul gəlirlərinin səviyyəsinə uyğun olaraq normativ aktlarla müəyyən edilir. Bu səviyyə insanın, ailənin yalnız fiziki yaşayış minimumunu təmin edir.

YOXSULLUQ İNDEKSİ – yoxsulluq həddinin orta çəkili kəmiyyətinin artım sürətini xarakterizə edən statistik göstərici. Yoxsulluq indeksi "yoxsulluq astanası"nı xarakterizə edən statistik göstəricidir.

YOXSULLUQ ZONASI – yoxsulların yüksək konsentrasiyalı ərazisi. Burada yoxsulluq əmsalı orta ölkə göstəricisindən də yüksəkdir.

YOL ÇEKİ – bu tədiyə sənədi əsasında turistlərə beynəlxalq valyuta və ya onların olduğu ölkədə dolanması üçün pul ilə təmin edilməsi məqsədilə olduqları ölkənin valyutası verilir. Kredit kartları və nağd pul ilə yanaşı, yol çeki malların və xidmətlərin haqqının ödənilməsi vasitəsidir. Yol çeki malların və xidmətlərin haqqının nağdsız ödənilməsi üçün bank tərəfindən öz əmanətçilərinə verilir.

"YOL KƏNARINDA" BAZAR – birjadankənar bazar, qiymətli kağızların fond birjasından kənarda alqı-satqısı.

YOL VERGİSİ – ölkə ərazisinə daxil olan və həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtomobil nəqliyyatı vasitələrinin sahibləri olan qeyri-rezident müəssisələrin və qeyri-rezident fiziki şəxslərin, habelə ölkə ərazisində mülkiyyətində və ya istifadəsində minik avtomobilləri, avtobuslar və digər avtomobil nəqliyyatı vasitələri olan şəxslərin bu ölkənin avtomobil yollarından istifadəyə görə ödədikləri vergi.

Xarici dövlətlərin avtonəqliyyat vasitələrindən yol vergisi həmin avtonəqliyyat vasitələri Azərbaycan Respublikasının gömrük ərazisinə daxil olan zaman gömrük orqanları tərəfindən tutulur və bir bank günü ərzində dövlət büdcəsinə keçirilir.

Azərbaycan Respublikasının ərazisində təqvim ilinin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan hüquqi şəxslər yol vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edir və həmin müddətədək hesablanmış vergini dövlət büdcəsinə ödəyirlər.

Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan fiziki şəxslər illik yol vergisini avtomobillər texniki baxışdan keçən zaman dövlət büdcəsinə ödəyirlər.

YOLDA OLAN PUL VƏSAİTLƏRİ – satılmış mala görə alıcılardan və sifarişçilərdən kassaya daxil olmuş mədaxilin əməliyyat günü başa çatdıqdan sonra bank bölməsinə, poçt bölməsinin kassasına ödənilmiş və ya bankın inkassatoruna təhvil verilmiş mədaxil.

"YOLUXMA MARŞRUTU" – alıcılarla və nəzərdə tutulan müştərilərlə əlaqələrin sahmana salınması ilə ticarət agentinin hərəkət istiqamətinin planlaşdırılması.

"YOLÜSTÜ" İSTEHLAKÇILAR – konkret malın bilavasitə məqsədli alıcısı kimi baxılmayan, amma onu özləri üçün cəzbedici hesab edə biləcək insanlar.

YORK-ANTVERPEN QAYDASI – gəmi sahibi ilə yük sahibi arasında gəminin və yükün dəyərinə müvafiq olaraq dəyəcək zərərin proporsional bölüşdürülməsi. 1950-ci ildə yeni dəyişikliklərlə qüvvəyə minib.

YULA İNDEKSİ – ekvivalent orta ölüm əmsallarının nisbəti.

YUNKTAD – Ticarət və İnkişaf üzrə BMT-nin Konfransı 1964-cü ildə Baş Assambleya orqanı qismində yaradılmışdır. Bu nümayəndəli çoxtərəfli ticarət-iqtisadi təşkilatdır. Onun üzvləri Rusiya da daxil olmaqla 193 dövlətdir. YUNKTAD-ın iqamətgahı Cenevrədədir (İsveçrə). YUNKTAD-a üzvlük BMT-nin istənilən üzv-dövləti üçün, BMT-nin ixtisaslaşmış müəssisələri və atom enerjisi üzrə Beynəlxalq agentliyin üzvləri üçün açıqdır. Onun əsas vəzifələri, hər şeydən əvvəl, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr tərəfindən beynəlxalq ticarəti genişləndirmək; beynəlxalq iqtisadi münasibətlərin inkişafı məsələləri üzrə tövsiyələr işləyib hazırlamaq; ticarətdə və onunla bağlı olan iqtisadi inkişaf aspektlərində hökumətlərin və regional iqtisadi qruplaşmaların siyasətlərinin razılaşma mərkəzi kimi çıxış etmək; beynəlxalq ticarət üzrə BMT-nin digər idarələrinin fəaliyyətinin əlaqələndirilməsinə yardım göstərməkdir.

ÜTT-nin yaradılması ilə bu təşkilatın ümumiyyətlə lazım olub-olmaması haqqında məsələlərdən aşkar danışmağa başladılar. Amma indi YUNKTAD-ın dünya birliyinə lazım olması haqqında anlaşmaya nail olunub; belə ki, bu təşkilat dünya iqtisadiyyatının inkişafı kontekstində ümumi ticarət-siyasi prinsipləri işləyib hazırlayır, ÜTT isə xalis ticarət məsələlərinə baxır.

YUNKTAD-ın sessiyalarında konsessusla qəbul olunan qərarlar hüquqi cəhətdən mütləq deyil. Amma artıq ikinci sessiyada həmrəylikla təqdir olundu ki, onlar "beynəlxalq ticarət üçün səmərəli olan hərə- kətlərə səbəb olmalıdır". Beləliklə, YUNKTAD sənədləri ÜTT-yə nisbətən formal olaraq daha az mütləq xarakter daşıyır. Belə sənədlərə, məsələn, inkişafa səbəb olan beynəlxalq ticarət münasibətlərinin və beynəlxalq siyasətin prinsipləri və dövlətlərin iqtisadi hüquq və öhdəliklərinin xartiyası aiddir.

Dünya mal dövriyyəsinin hissəsini təşkil edən hazır məhsul və yarımfabrikatlarla ticarət sahəsində YUNKTAD-ın mühüm tədbiri 1971-ci ildən fəaliyyət göstərən Ümumi preferensiyalar sistemidir (ÜPS). Bu sistem sənaye cəhətdən inkişaf etmiş bütün ölkələrin inkişaf etməkdə olan ölkələrlə qarşılıqlı olmayan əsaslarda ticarətində, yəni, sonuncular tərəfindən ticarət-siyasi güzəştləri tələb etmədən gömrük rüsumlarının aşağı salınmasını və ya ləğvini nəzərdə tutur. Bir çox donor-ölkələr belə preferensiyalardan müxtəlif formalarda istifadə etsələr də (malların ayrı-ayrı qruplarına və preferensiya alan ölkələrə münasibətdə), ÜPS iqtisadi cəhətdən geri qalan ölkələrin emal sənayesi məhsulunun ixracının genişləndirilməsinə yardımda böyük rol oynayır.

YUNKTAD-ın ali rəhbər orqanı üzv-ölkələrdən ibarət olan konfransdır. Konfransın sessiyaları, adətən, dörd ildən bir nazirlər səviyyəsində siyasətin əsas istiqamətlərinin müəyyən edilməsi və iş proqramı ilə bağlı olan məsələlərin həlli məqsədilə aparılır.

YUNKTAD-ın orqanı – ticarət və inkişaf üzrə Şura Konfransın sessiyaları arasındakı dövrdə təşkilatın işinin fasiləsizliyini təmin edir. YUNKTAD-ın fəaliyyətinin bütün sferası üzrə nəzarəti həyata keçirməkdən başqa o, makroiqtisadi siyasətin beynəlxalq nəticələrini, dünya ölkələrinin iqtisadiyyatlarının qarşılıqlı asılılığına səbəb olan məsələləri, həmçinin, ticarət və valyuta-maliyyə münasibətləri,

ticarət siyasəti, struktur dəyişikliklər və iqtisadi islahatlarla bağlı məsələləri nəzərdən keçirir. Şura hər il iki sessiya keçirir (yaz və payızda). O, İqtisadi və Sosial Şura vasitəsilə (EKOSOS) Baş Assambleyaya məruzələr təqdim edir.

Baş katibin rəhbərlik etdiyi YUNKTAD katibliyi BMT katibliyinin bir hissəsini təşkil edir. Onun tərkibinə siyasət və xarici münasibətlərin əlaqələndirilməsi, doqquz bölmə (xam məhsul, inkişaf etməkdə olan ölkələr arasında iqtisadi əməkdaşlıq və xüsusi proqramlar, qarşılıqlı asılılıq, transmilli korporasiyalar və investisiyalar, elm və texnika, nisbətən zəif inkişaf etmiş ölkələr, idarəetmə sahəsində xidmətlər və proqramların orperativ-funksional təminatı) daxildir. Katibliyə, həmçinin, EKOSOS-un iki yardımçı orqanı – beynəlxalq investisiyalar və transmilli korporasiyalar üzrə Komissiya və inkişaf məqsədilə elm və texnika üzrə Komissiya xidmət edir.

YURİSDİKSİYA – ədalət məhkəməsinə göndərilmə, yəni "iş məhkəmələlikdir". Gəmilərin və yüklərin dəniz polislərində, adətən, sığorta şərtlərindən irəli gələn məhkəmə mübahisələrinin həll olunduğu ölkənin adı göstərilir.

YUSİFZADƏ XOŞBƏXT BAĞI OĞLU (1930) – mühəndis-geoloq, geologiya-mineralogiya elmləri doktoru (1987), Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin geologiya, geofizika və yataqların işlənməsi üzrə birinci vitse-prezidenti.

1952-ci ildə Azərbaycan Sənaye İnstitutunu bitirmişdir. 1952-ci ildən "Neft daşları" NQÇİ-də geo-



loq, baş geoloq, 1970-ci ildən Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyində Baş direktorun müavini, eyni zamanda baş geoloq vəzifələrində işləmişdir. 1994-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidentidir.

127 elmi əsərin, o cümlədən 8 monoqrafiyanın, 4 ixtiranın müəllifidir.

İki "Qırmızı Əmək Bayrağı" və "Şərəf nişanı" ordenləri, 1982 və 1991-ci illərdə Azərbaycan Respublikasının Dövlət mükafatlarını almış, medallar və fəxri fərmanlarla təltif edilmişdir. "SSRİ-nin fəxri neftçisi", "Yer təkinin fəxri kəşfiyyatçısı" adlarına layiq görülmüşdür. Azərbaycan Respublikasının əməkdar mühəndisidir. Beynəlxalq Şərq Neft Akademiyasının akademiki və birinci vitse-prezidenti, Rusiya Beynəlxaq Mühəndislər Akademiyasının müxbir üzvüdür.

YÜKDAŞIMA STATİSTİKASI – müəyyən dövrdə və dinamikada yük (daşıma, nəqletmə, yerdəyişmə prosesində olan mal) daşımalarının həcmini öyrənən nəqliyyat statistikasının bir bölməsi. Daşıma sənədləri ilə rəsmiləşdirilən yüklərin daşınması müşahidə vahidi hesab edilir.

Ümumi və ayrı-ayrı yüklərin daşınmasını xarakterizə edən əsas göstəricilər sisteminə yüklərin göndərilməsi, gətirilməsi, daşınması, yük dövriyyəsi, yük daşınmasından əldə edilən gəlirlər, daşımaların uzaqlığı, daşımaların sıxlığı, çatdırılmanın davamlılığı və sürəti, orta gəlir dərəcəsi və s. daxil edilir. Əsas qruplaşdırma əlamətləri yükün təyinatı, nəqliyyatın növü, daşınma məsafəsinin uzaqlığıdır. Qoşalanmış yük əməliyyatları əmsalı – stansiyada orta hesabla bir yerli vaqonla yerinə yetirilən yük əməliyyatlarının sayı. Yük əməliyyatlarının sayının stansiyada bir və ya ikiqat əməliyyat aparan yerli vaqonların sayma olan nisbəti kimi hesablanır.

YÜK OPSİONU (ing. *cargo option*) – alıcının ödəniş üsulları, yükün boşaldılacağı limanlar və s. barədə opsion (alternativ variantlar arasında seçim etmək hüququ); satıcının təqdim edilən (satılan) malın miqdarını, malgöndərmə müddətlərini, yük partiyasının həcmini, yükboşaltma limanlarını və s. amilləri seçmək barədə opsion.

YÜK SAHİBLƏRİ QARŞISINDA AVİADAŞIYANLARIN MƏSULİYYƏT SIĞORTASI – bu haqda müqavilənin şərti sığortaçı tərəfindən aviadaşıyana müəyyən məbləğin ödənilməsini nəzərdə tutur ki, aviadaşıyan bu məbləği yükün yükdaşıyan tərəfindən qorunması zamanı (hava gəmisinin, yaxud təyyarənin bortunda, aerodromda olması zamanı və ya aerodromda, hər hansı digər bir yerdə hava gəmisinin enməsi zamanı) daşımaq üçün qəbul edilən yükün itməsi, məhv olması, əskik gəlməsi, zədələnməsi və ya xarab olması ilə törənən zərərə görə yük sahibinə ödəməlidir.

YÜKDAŞIMALARIN SIĞORTALANMASI – çox qədim zamanlardan yüklərin daşınmasını müşayiət edən risklər. Yüklərin sığortalanmasının xeyli yayılması XVIII-XIX əsrlərdə, ilk növbədə, dəniz ticarəti mərkəzlərində – Genuyada və Florensiyada baş vermişdir. Əmlak sığortasının geniş yayılmış növlərindən biri kimi daşınan yüklər xarakterinə, nəql edilməsi üsuluna, xalq təsərrüfatı maraqlarına görə fərqlənir. Xarakterinə görə daşınan yüklərin sığortalanmasının aşağıdakı növləri fərqləndirilir: başlıca yüklərin sığortalanması, maye, dənəvər, qabsız yüklərin sığortalanması, kənd təsərrüfatı və digər heyvanların sığortalanması, "qiymətli" əşyaların (qiymətli metalların, banknotların, sikkələrin) sığortalanması. Nəqletmə üsuluna görə aşağıdakılar ayrılır: hava nəqliyyatı ilə yükdaşıma zamanı yüklərin sığortalanması, daxili su yolları ilə daşıma üzrə yüklərin sığortalanması, kombinəedilmiş sığortalanma, poçt göndərişlərinin sığortalanması. Xalq təsərrüfatı maraqları nöqteyi-nəzərindən yüklərin sığortalanması aşağıdakı növlər üzrə təsnifləşdirilir: ixrac yüklərinin sığortalanması, idxal yüklərinin sığortalanması, daxili daşımaların sığortalanması, tranzit daşımaların sığortalanması.

YÜKLƏMƏ – sığortaçının sığorta əməliyyatlarının həyata keçirilməsinə ayrılan xərclərinin örtülməsi üçün istifadə olunur.

YÜKLƏNMƏNİN QİYMƏTLƏNDİRMƏ METODU – zəruri kəmiyyətdə ticarət heyətinə münasibətdə qərar qəbuletmə metodu.

YÜKLƏNMİŞ POLİS – malların yüklənməsi anından tədiyənin alınmasına qədər riskləri örtən polis.

YÜKLƏRƏ GÖRƏ QİSMƏN İTKİ – tam məhv hesab olmamış, sığorta ilə örtülmüş təhlükələrlə törədilən yüklərə görə hər bir itki qismən itki hesab olunur. Bir qayda olaraq, yüklər valyutalaşmış polislərə görə sığortalanır və buna görə də qismən itkilər sığorta məbləğinə müvafiq proporsiyada ödənilir.

YÜKLƏRİN SIĞORTALANMASI – o nəzərdə tutulur ki, yüklərin dəniz sığortası xarici ticarətlə əlaqədardır, beynəlxalq təcrübədə bu sığorta növü üzrə standart şərtlər işlənib hazırlanmışdır və ayrı-ayrı ölkələrdə bu şərtlərə müəyyən əlavələr və dəyişikliklər edilir. Yüklərin sığortalanmasının əsas şərtləri – "bütün risklərə görə məsuliyyətlə" sığortadır. Yüklərin sığortalanması – bura quruda, havada və su yolu ilə daşınan yüklər qəbul olunur. Sığorta müqaviləsi aşağıdakı şərtlərdən biri ilə bağlana bilər: 1) "qəza, fəlakət, bədbəxt hadisə" istisna olmaqla, zədələnməyə görə məsuliyyətsiz; 2) "qəza hallarına görə məsuliyyətlə"; 3) "bütün risklərə görə məsuliyyətlə".

YÜKLƏRİN TARİF NOMENKLATURASI – daşınan tədiyələrin ölçüsünü müəyyən etmək üçün tarif qrupları üzrə nəqliyyat tərəfindən daşınan ümumi istifadəli yüklərin bölgüsü. Hər bir qrupa eyni nəqliyyat xarakteristikalı yüklər daxildir ki, bu da onlara eyni tarif dərəcəsini tətbiq etməyə imkan verir.

YÜKSƏK TEXNOLOGİYA – geniş tətbiq sahəsinə malik olan, əvvəlki texnologiyalarla müqayisədə məsrəflərin və nəticələrin daha optimal nisbətini təmin edən və sosial sahəyə pozitiv təsir göstərən yeniliklərin zəncirvari reaksiyasına səbəb ola biləcək universal, çoxfunksiyalı, çoxməqsədli texnologiyanın şərti adı. Yüksək təsərrüfat relevantlığına malikdir. Dünya praktikasında yüksək texnologiyalara adətən mikroelektronika, kommunikasiya texnikası, biotexnologiyalar, yeni materialların, mikromexanikanın və hazırlanmasında fizika, kimya, mexanika və informatikanın ən yeni nailiyyətlərindən bilavasitə istifadə edilmiş istehsal texnologiyaları aid olunur.

Yüksək texnologiya istehsalda struktur dəyişikliklərinə səbəb olur: a) məhsuldar sistemlərə çevrilir; bazarda dəzgahlar deyil, maşın sistemləri təklif olunur, onlar detalların anbarlarda yığılması və uçotu da daxil olmaqla bütün yerdəyişmə və emal əməliyyatlarını təmin edir. Yüksək texnologiyalar arasında əsas yeri istehsal prosesini hissələrə bölməyə, sonra isə onu vahid şəbəkə şəklində əlaqələndirməyə imkan verən kommunikasiya texnikası tutur. Beləliklə, istehsal sistemlərinin çevikliyi, onların istehlakçıların daha spesifik tələblərini təmin etmək qabiliyyəti gerçəkləşir. Kommunikasiya texnikasının bu cür imkanlarından tam istifadə edilməsi məhsulun rəqabət qabiliyyətinin həlledici şərtidir; b) yüksək texnologiya əvvəllər avtonom şəkildə mövcud olan sahələr arasında sərhədləri aradan qaldırır. Yüksək texnologiyanın kombinə edilməsi sayəsində cid-

di sinergetik effekt əldə olunur; c) yüksək texnologiya bazarların və istehsalların beynəlmiləlləşməsinə gətirib çıxarır. Milli iqtisadiyyatların və ayrı-ayrı müəssisələrin avtargiyası getgedə nadir hallarda rast gəlinən bir hadisəyə çevrilir.

Lakin yüksək texnologiyanın sanballı potensialına baxmayaraq, istehsalda texniki dəyişikliklər çox vaxt kifayət qədər ləng gedir, makroiqtisadi irəliləyişlər isə gözləniləndən xeyli az olur. İş burasındadır ki, yeni texnologiyaların mənimsənilməsi təkcə texniki funksionallığın və qənaətcilliyin təmin edilməsini deyil, həm də əməyin təşkilində və işçilərin səviyyəsində qarşılıqlı razılaşdırılmış dəyişikliklərin, eləcə də iqtisadi və hüquqi mühitdə, təhsil sistemində və başqa sahələrdə dəyişikliklərin baş verməsini nəzərdə tutur. Yüksək texnologiyanın məşğulluğa təsiri birmənalı deyildir: innovasiya baxımından fəaliyyət sahələrində iş yerlərinin sayının artması meyli müşahidə olunmalıdır. Bir-birinə qarşı rəqabət aparan sahələrində isə əks vəziyyət yarana bilər. Lakin aşkardır ki, yüksək texnologiyaları başqalarından daha tez işləyib hazırlamağı və tətbiq etməyi, onun iqtisadi potensialından istifadəni bacarmış ölkə, sahə və ya müəssisə, heç şübhəsiz, bazarda üstünlüyə nail olur.

YÜKSƏK TƏHLÜKƏ MƏNBƏYİ OLAN MÜƏSSİSƏLƏRİN MƏSULİYYƏT SIĞORTASI – sığorta növlərinin məcmusu; bunların obyekti ətrafdakılar üçün təhlükə törədən fəaliyyətlə məşğul olması ilə əlaqədar üçüncü şəxslərə və ətraf mühitə dəymiş zərəri mülki qanunvericiliklə müəyyən olunmuş qaydada sığortalının (sığortalanmış şəxsin) öhdəlikləri ilə əlaqədar onun əmlak mənafeləridir (maraqlarıdır).

YÜZBAŞOVA GÜLŞƏN ZAHİD QIZI (1960) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1981-ci



ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. 1989-cu ildə "Müttəfiq respublika şəraitində yüngül sənaye istehsalının strukturu və onun səmərəliliyinin artırılması yolları" mövzusunda namizədlik, 2004-cü ildə isə "Azərbaycan sənayesinin restrukturizasiyası" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

5 fərdi və 5 kollektiv monoqrafiyanın, 80-dən çox elmi məqalənin müəllifidir. Sənaye strukturunun formalaşması, dəyişikliklərin dinamikası və gələcək inkişafının istiqamətlərinin müəyyən edilməsinin tədqiqi problemləri ilə məşğuldur. Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda şöbə müdiridir.

Z


ZAHİRİ EFFEKTLƏR (eksternaliyalar) (ing. *externalites*) – əmtəə və xidmətlərin istehsalı zamanı firmalara və istehlakçılara təsir göstərən effektlər; əqd hesabına yaranan xərclərin və ya səmərənin bir hissəsinin həmin əqdin həyata keçirilməsində iştirak etməyən şəxslərin hesabına aid olunması effektləri. Xərclərin (səmərələrin) bu hissəsi xarici, əqdin həyata keçirilməsi ilə bağlı bütün xərclər (səmərələr) ictimai, tam xərclərdən (səmərələrdən) xarici xərclər (səmərələr) çıxıldıqdan sonra qalan hissə isə xüsusi xərclər (səmərələr) adlanır. Beləliklə, aşağıdakı nisbətlər ödənilir:

$$MSC = MPC + MEC;$$
$$MSB = MPB + MEB,$$

Burada: *MSC(MSB)* – ictimai; *MPC(MPB)* – xüsusi; *MEC(MEB)* – isə xarici xərclərin (səmərələrin) ən yüksək qiymətləridir.

Mənfi və müsbət zahiri effektlər fərqləndirilir. Bunlardan birincisi xarici məsrəflərin, ikincisi isə xarici səmərələrin üçüncü şəxslərin hesabına aid edilməsi deməkdir. Ətraf mühitin çirkləndirilməsinə görə cərimə tutulmaması mənfi zahiri effektlərin klassik nümunəsidir. İstehsalı müsbət zahiri effektlər ilə bağlı olan *nemətlər* (MEB>0) kollektiv nemətlər (məsələn, ictimai park), MEB=0 şərtini ödəyən nemətlər isə özəl nemətlərdir.

ZAMAN – 1. Vaxt, müddət. Bir hadisənin, işin baş verdiyi və baş vermiş olduğu vaxtı, anı bildirir. 2. Fəlsəfədə: sonsuz inkişafda olan materiyanın, vaxtın davamı və ardıcıllığında təzahür edən ümumi obyektiv varlıq forması.



ZAMAN SIRALARININ TƏHLİLİ – (ing. *time-series analysis*) – tələbin proqnozlaşdırılması metodlarından biri. Əvvəlki satışın həcmi barədə məlumatların trendləri, tsiklik (məsələn, işgüzar fəallıq tsiklləri) və mövsümi dəyişiklikləri, eləcə də təsadüfi dəyişiklikləri səciyyələndirən komponentlərə ayrılmasına əsaslanır. Zaman sıralarının təhlili əvvəllər mövcud olmuş tələbin dəyişməsi səbəblərini aşkarlamağa imkan verir və gələcəkdə tələbi daha dəqiq proqnozlaşdırmağa kömək edir.

ZAMİN – öhdəsinə zaminlik götürən, zəmanət verən fiziki və hüquqi şəxs.

ZAMİN OLMAQ – birinin və ya bir işin məsuliyyətini öz üzərinə götürmək, zəmanət vermək.

ZAMİNKAR – üzərinə zəmanət götürən fiziki və hüquqi şəxs, zəmanətçi, zaminə götürən, zamin duran, zamin.

ZAMİNKARLIQ – başqasının verdiyi iltizamın yerinə yetirilməsi məsuliyyətini üzərinə götürmə, zamin olma; zaminlik.

ZAMİNLİK – zamin olma, məsuliyyəti öhdəsinə götürmə; zəmanət.

ZAVAL – 1. Ziyan, zərər, təbii fəlakət, bəla, müsibət, xətər, qorxu. 2. Yox olma (etmə), tələf olma (etmə), fənaya uğrama (uğratma), məhv olma (etmə); məhv.

ZAVAL VURMAQ – ziyan vurmaq, zay etmək, məhv etmək.

ZAVOD – iri sənaye müəssisəsi.

ZAVODÇULUQ – zavod işləri ilə məşğul olma, zavod saxlama.

ZAVODYANI – zavodun yanında, ətrafında olan.

ZAY – tələf olmuş, korlanmış, hədər olmuş.

ZAY MƏHSUL – keyfiyyəti pis olan məhsul, çıxdaş.

ZEYNALLI ƏLİSA TƏVƏKKÜL OĞLU (1950) – Azərbaycan iqtisadçısı, iqtisadiyyat üzrə fəlsəfə doktoru. 1972-ci ildən Dövlət Statistika Komitəsində çalışır.



1977-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. 1998-ci ildə "Aqrar-sənaye kompleksi sistemində iqtisadi hesabların tədqiqi və tətbiqi problemləri" mövzusu üzrə dissertasiya müdafiə etmişdir.

2000-2008-ci illərdə ölkənin ərzaq təhlükəsizliyi məsələlərinə dair illik statistik məcmuələr, rüblük bülletenlər hazırlamış, ölkə iqtisadiyyatının bir neçə aktual məsələləri üzrə tematik statistik müşahidələr təşkil etmişdir. Ölkənin ərzaq balanslarının işlənməsi üçün nəzəri-metodoloji qaydaların hazırlanması, təcrübəyə tətbiqi üzrə 2007-2010-cu illərdə fəal və səmərəli fəaliyyət göstərmişdir. Elmi yaradıcılığında qiymət və qiymətin əmələ gəlməsi, iqtisadi-statistik tədqiqatların təkmilləşdirilməsi və s. məsələlər üstünlük təşkil edir.

1998-2008-ci illərdə Rusiya, Türkiyə, Moldova, Almaniya, ABŞ-da kənd təsərrüfatı statistikası, ərzaq təhlükəsizliyi məsələləri üzrə beynəlxalq konfrans və təlim kurslarında iştirak etmişdir.

"Azərbaycan kənd təsərrüfatı coğrafiyasının müasir problemləri" (2005) adlı monoqrafiya, "Statistika: ümumi nəzəri məsələlər" və "Statistika: sosial-iqtisadi məsələlər" adlı dərs vəsaitlərinin (2011), habelə 100-dən çox elmi məqalənin müəllifidir.

ZEYNALOV VİDADİ ZEYNAL OĞLU (1959) – Azərbaycan iqtisadçısı, i.e.n. 1982-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir.



Təhsil aldığı müddətdə fakültə həmkarlar komitəsinin sədri, institut həmkarlar komitəsinin sədr müavini olmuşdur. 1982-ci ildən Respublika Maliyyə Nazirliyinin Mənzil Kommunal, Avtonəqliyyat, Yol təsərrüfatı və Rabitənin Maliyyələşdirilməsi İdarəsində iqtisadçı, böyük iqtisadçı vəzifələrində çalışmışdır. 1987-ci ildən Bakı şəhər Maliyyə İdarəsinin xalq təsərrüfatının maliyyələşdirilməsi şöbəsində rəis müavini, 1990-cı ildən həmin şöbənin rəisi, daha sonra isə idarənin rəis müavini, 1995-ci ildən Bakı şəhəri Maliyyə İdarəsinin rəisi vəzifələrində işləmişdir. 2000-ci ildən Azərbaycan Dövlət İqtisad Universitetində İnzibati-təsərrüfat işləri üzrə prorektor işləmiş, 2004-cü ildən indiyədək Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Aparatının rəhbəridir.

2004-cü ildən iqtisad elmləri namizədidir. "Dövlət qulluqçusu" medalı ilə təltif edilmişdir. Dövlət və bələdiyyənin maliyyə resurslarının iqtisadi səmərəliliyinin yüksəldilməsi və inkişafının idarə edilməsi, maliyyə-bank və poçt-bank xidmətlərinin təkmilləşdirilməsi məsələlərinə həsr edilmiş 2 monoqrafiya və 6 dərsliyin, 45-dən çox elmi əsərin müəllifidir.

ZEYTUN – subtropik bitkiçilikdə mühüm yer tutan kənd təsərrüfatının ən gəlirli sahələrindən biri. Yetişdirilməsi əziyyətli ağac olmasına baxmayaraq, zeytun ağacının ömrü 300-400 ildir. Zeytunçuluq təsərrüfatının təxminən 6000 yaşı olduğu bilinir. Bununla yanaşı aparılan arxeloji tədqiqatlarda Egey dənizindəki Santorini adasında 39000 illik zeytun ağacı tapılmışdır. Aparılan başqa bir arxeoloji tədqiqat İzmirin Urla rayonu yaxınlığında yerləşən antik Klazomenay şəhərinin o dövrün mühüm bir zeytun və zeytun yağı istehsalı mərkəzi olduğu göstərmişdir.



Dünyada təqribən 10 milyon hektar ərazidə 900 milyondan çox zeytun ağacı vardır. Bu ağacların 98%-i Aralıq dənizi sahilində yerləşən ölkələrin payına düşür.

Zeytun ağacının təkcə meyvəsi deyil, budağı, yarpağı və kökü istifadəyə yararlıdır.

Zeytun ağacı iqlim şəraitindən asılı olaraq bir il çox, bir il az məhsul verir. Məhsulun bol ol-



duğu illərdə dünya zeytun emalının 10%-i (1,3 milyon ton) Türkiyənin payına duşur.

Zeytun mühüm yağ mənbəyi olmaqla bərabər, tərkibində A, B, C vitaminləri, dəmir və kalsium olması baxımından da əhəmiyyət kəsb edir.

Zeytundan əldə edilən ən önəmli məhsul olan zeytun yağı dünyada ildə 1,6-2,6 milyon ton həcmində istifadə edilir və bunun 75-80 faizi istehsalçı dövlətlər tərəfindən istehlak edilir. Zeytun dünyanın subtropik ölkələrində çox qədimdən becərilən bitkidir. Meyvələrindən və onun yağından bir sıra xəstəliklərə, o cümlədən revmatizm, yanıq, göz xəstəliyi, mədə-bağırsaq xəstəliklərinə qarşı, həmçinin yeyinti məhsulu, xoş dadlı və ətirli ədviyyat kimi istifadə edilir. Son illər zeytun ağacının yarpaqlarından ürək-damar sistemi xəstəliklərinin müalicəsində, xüsusən hipertoniya xəstəliyində dəmləmə və duru spirtli ekstrakt formada qəbul edilir.

Zeytun bitkisi respublikamızda əsasən Abşeron yarımadasında, tək-tək halda Tərtər, Bərdə, Göyçay və Aran rayonlarının ərazisində əkilib becərilir.

Abşeron zeytunçuluğun inkişafı üçün ideal ərazi hesab olunur. İlk dəfə zeytun istehsalına Abşeronun Zığ zeytun sovxozunda başlanılmışdır ki, bu da 1949-1950-ci illərə təsadüf edir. Sonradan daha iki ixtisaslaşdırılmış təsərrüfat – 1 və 3 nömrəli zeytunçuluq sovxozları yaradılmışdır. Zeytun bağları başqa təsərrüfatlarda da – Maştağa Zəfəran sovxozu (Bilgəh kəndi) və Maştağa subtropik bitkilər sovxozunda yaradılmışdır.

1970-ci ildə Azərbaycanda zeytunçuluğun inkişafı istiqamətində kompleks tədbirlər planının həyata keçirilməsi barədə qərar qəbul edilmişdir. Bundan sonra ölkəmizdə təxminən 3000 hektar ərazini əhatə edən zeytun bağları salındı. 1988-ci ilin əvvəlinə olan məlumata görə respublikada zeytun bağlarının sahəsi 2,6 min hektar, o cümlədən məhsuldar sahə 1038 hektar olmuşdur.

Cədvəl 1

Dünyada zeytun yağı istehsalı və istehlakında ayrı-ayrı ölkələrin payı, fazilə (2010)

Ölkə	İstehsal	İstehlak	Hər adama düşən orta illik zeytun istehlakı (kq)
İspaniya	25	20	13,62
İtaliya	36	30	12,35
Yunanıstan	18	9	23,7
Türkiyə	5	2	1,2
Suriya	4	3	6
Tunis	8	2	9,1
Mərakeş	3	2	1,8
Portuqaliya	1	2	7,1
ABŞ	–	8	0,56
Fransa	–	4	1,34
Digər ölkələr			
Cəmi	100	100	





Cədvəl 2

Dünya üzrə zeytun yağı istehsalı, min ton ("Oil World"un hesablamalarına əsasən)

	2008	2009	2010	2011
Cəmi	2888	3288	3328	3353
AB	2108	2466	2465	2366
İspaniya	1125	1495	1487	1469
İtaliya	586	558	530	473
Portuqaliya	57	58	73	78
Mərakeş	92	152	140	129
Tunis	179	170	140	200
Suriya	142	163	193	220
Türkiyə	140	157	171	192

Zeytun bağlarının salınması üçün cənub və cənub-qərb yamaclar, hündürlüyü dəniz səviyyəsindən 300-350 metrdən yuxarı olmayan, hava cərəyanı ilə yaxşı təmin olunmuş düzən sahələr seçilir. Əhənglə zəngin, kifayət qədər rütubət saxlayan və hava keçirən orta və yüngül tərkibli boz və şabalıdı torpaqlar ən yaxşı torpaq hesab olunur. Zeytun kalsiuma tələbkar bitkidir. Odur ki, əhəngli (karbonatlı) torpaqlarda yaxşı boy atır. Yeraltı suların səviyyəsi yer səthinə 2 metrdən yaxın olmamalıdır.

Azərbaycan sortlarından – Azərbaycan zeytunu, Buzovna zeytunu, armudu zeytun, şirin zeytun, qara zeytun və s. öz keyfiyyətinə və məhsuldarlığına görə fərqlənir.

Sort xüsusiyyətinə, meyvələrin keyfiyyət göstəricilərinə və təsərrüfat istiqamətlərinə görə zeytun sortları üç qrupa bölünür: universal konserv, konserv-yağlıq, yağlıq.

Ötən əsrin 70-80-ci illərində istehsal olunmuş zeytun məhsulu əsasən Maştağa qəsəbəsində yerləşən konserv zavodunda, Hövsan qəsəbəsində yerləşən konserv zavodunda və "Azərsun" şirkətinin müəssisələrində emal edilirdi. İstehsal olunmuş zeytun yağı və zeytun konservləri MDB dövlətlərinə və Yaxın Şərq ölkələrinə də ixrac olunurdu.

Zeytun məhsullarının ixracından gələn valyutanın həcminin artırılması, ölkənin zeytun məhsullarına (o cümlədən, yağa) artan tələbatının ödənilməsinin vacibliyini və onun sağlamlığın qorunmasındakı faydalığını və di-

gər cəhətləri nəzərə alaraq zeytunçuluğun inkişaf etdirilməsi, daxili və xarici bazar üçün tələbata uyğun olaraq məhsul istehsalı həcminin artırılması qarşıda duran vəzifələrdən hesab edilir. Respublika Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2010-cu ilin yanvarına 1998-ci ilə nisbətən 0,6 min hektar sahədə zeytun bağları genişləndirilərək 1,9 min hektara, məhsul istehsalı isə 1,5 min tona çatdırılmışdır.

Zeytun sahələrini 3-5 min hektara çatdırmaqla illik məhsul istehsalını 8-10 min tona çatdırmaq mümkündür (bax: cədvəl 2).

ZEYTUNÇU – zeytun yetişdirməklə məşğul olan şəxs, təsərrüfat subyekti.

ZEYTUNÇULUQ – zeytunçunun işi, peşəsi, məşğuliyyəti; zeytun yetişdirmə işi.

"ZƏBT EDİLMƏKDƏN VƏ HƏBS EDİLMƏKDƏN AZADDIR" – dəniz sığortası şərtlərindən hərbi riski istisna edən qeyd-şərt. Dəniz polisinin bütün adi formalarında ehtiva olunur və müharibənin, hərbi əməliyyatların və düşmən hərəkətlərinin vurduğu zərərlərə görə sığortaçının məsuliyyətinin yoxluğunu qeyd edir. Yüklərin sığortalanması zamanı hərbi risklə bağlı məsuliyyət əlavə mükafata görə polis üzrə bərpa olunur.

ZƏFƏRAN (ing. *saffron*, frans. *safrane*) – dünyada nadir bitki növlərindən biri. Zəfəranı Şərqin kiçik möcüzəsi adlandırırlar. Təbiətin bu əfsanəvi və ecazkar bitkisinə dünyanın çox az ölkəsində rast gəlmək olar. Vegetativ yolla çoxaldılan zəfəranın



Asiyada 75-dən artıq, Azərbaycanda isə 6 növünə rast gəlinir. Dünyada ən zərif, ətirli, qiymətli bitki olan zəfəran Azərbaycanda – Abşeronun qədim Bilgəh kəndində bitir. Mütəxəssislər müəyyən etmişlər ki, Abşeron zəfəranı keyfiyyətinə, tərkib elementlərinə görə, xarici ölkələrdən gətirilən zəfərandan qiymətlidir. İran, Kəşmir, Suriya, Hindistan, Yunanıstan, İspaniya, Portuqaliya, Yaponiya və Çində qədim zamanlardan becərilir. XVI-XVII yüzilliklərdə bu bitki Cənubi və Qərbi Avropada da yayılmışdır.

Tərkibində 0,8% efir yağı, 3,1% rəngləyici maddə, 25,4% şəkər və 17 müxtəlif element, 27-dən çox müxtəlif üzvi birləşmə zəfərandan xalq təbabətində geniş istifadə olunur. Abşeron şəraitində zəfəran oktyabrın axırlarından noyabrın 20-dək çiçəkləyir. Çiçəklənmə dövrü, göründüyü kimi, torpağın və havanın nəmliyindən asılı olaraq təqribən 20 gün davam edir. Ona görə də zəfəran çiçəkləri, onun bütün çiçəklənmə dövründə hər gün səhər tezdən toplanır. Vaxtında yığılmadıqda açılmış çiçəklərin bitki üzərində iki gündən artıq qalması onun solub keyfiyyətini itirməsinə, məhsulun azalmasına səbəb olur. Zəfəranın bənövşəyi çiçəkləri, açıq-qırmızı, yaxud qırmızı telləri olur. Onun yığılıb, təmizlənməsi hədsiz zəhmət tələb edir. Bir kiloqram zəfəran əldə etmək üçün təxminən 80-100 min zəfəran bitkisindən 200 min çiçək toplamaq lazım gəlir. Təzə qurudulmuş zəfəran parlaq, tünd darçını – qırmızı rəngdə olmaqla, xoş və məstedici rayihə verir. Zəfərandan ürək-damar, qara-





ciyər, böyrək, öd kisəsi, baş-beyin, qıcolma, göyöskürək, göz və s. xəstəliklərinə qarşı istifadə edilir. Azərbaycan kulinariyasında müxtəlif xörək və şirniyyat məmulatı hazırlanmasında zəfərandan istifadə edilir.

Klassik ədəbiyyatımızda, xüsusilə N.Gəncəvinin əsərlərində müxtəlif meyvə bitkiləri ilə yanaşı, zəfəran, onun xassəsindən, tibbi əhəmiyyətindən maraqlı məlumatlara rast gəlinir.

Sənətşünas alimlər sübut etmişlər ki, dahi italyan rəssamı Leonardo da Vinçi hazırladığı rənglərə zəfəran da qatarmış. Bu da alınan rəngin şux sarı, özü də silinməz olmasını təmin edərmiş. Qədim Misirdə, İran, Babilistan, Midiya və Hindistanda zəfərandan müxtəlif dərmanlar və məlhəmlər hazırlamışlar.

Alman misirşünası və yazıçısı Ebers 1872-ci ildə tərkibinə zəfəranın da daxil olduğu 30 müxtəlif dərman resepti olan 3500 il bundan əvvələ aid əlyazma toplamışdır. "Ebers papirusları" adı ilə tanınan bu tibbi məlumatlarda göstərilir ki, zəfəran ürəyi möhkəmləndirir, ciyərləri yüngülləşdirir, ağrını azaldır, sarılıq, soyuqdəymə və bir çox xəstəliklərin müalicəsi üçün olduqca faydalıdır.

Orta əsr qaynaqlarının verdiyi bilgiyə görə, zəfəran Bakının beynəlxalq iqtisadi əlaqələrində çox uzaq keçmişdən başlayaraq əhəmiyyətli yer tutan məhsullarından idi. IX-X əsrlərə aid ərəbdilli mənbələrdə və sonrakı başqa Şərq və Qərbi Avropa mənbələrində qeyd olunur ki, mühüm əkinçilik, sənətkarlıq mərkəzi olan Azərbaycanda zəfəran yerli əhalinin ehtiyacını ödəməklə yanaşı, ipək, duz, neft və s. ilə bərabər xarici ölkələrə ən çox ixrac edilən məhsullardan biri idi. Orta əsrlərdə zəfəran istehsalına görə Azərbaycan nəinki Şərqdə, hətta demək olar ki, bütün dünyada şöhrət tapmışdı.

XVI əsrin sonlarında Rusiya bazarlarında Şirvandan gətirilən və yüksək keyfiyyəti ilə fərqlənən zəfəran xüsusi yer tuturdu. Mənbələrdən məlum olur ki, bir funt zəfəranın qiyməti 26 altun idi. Avropa ölkələri ilə Şərq ölkələri arasında Bakının tranzit ticarətinin mühüm məntəqələrindən birinə cevrilməsində, onun inkişafında və istehsalın artmasında zəfərandan alınan gəlirlərin də yeri var idi..

Xarici bazarlarda, xüsusilə Şərq ölkələrində və Avropada zəfəranın az olması, onun çox yüksək qiymətləndirilməsi və baha qiymətə satılması, Azərbaycanla Rusiya quberniyaları arasında dəniz və quru yolları ilə zəfəran daşınmasının mümkün olması XVIII-XIX əsrlərdən yerli əhalinin iqtisadiyyatında zəfərançılığın böyük əhəmiyyət qazanmasına şərait yaratdı. Belə ki, XIX əsrin 30-cu illərində Bakı əyalətində hər il 1000 puda qədər zəfəran istehsal olunur və İrana, Mərkəzi Rusiya, Tifilisə ixrac edilirdi.

Buna görə də hər yerdə şöhrət qazanan zəfəranın inkişafına ciddi fikir verilirdi, yerli əhali geniş sahələrdə zəfəran bağları salırdı. İqtisad elmləri doktoru, professor Mirağa Musayev keçmiş SSRİ-nin ən böyük və zəngin arxivlərindən sayılan Moskva, Sankt-Peterburq, Tiflis şəhərlərindəki arxiv materiallarını dərindən araşdırmış və tariximizin ticarətlə bağlı ən maraqlı səhifələrini aşkar etmişdir. O, həmin arxiv materiallarına əsaslanaraq yazdığı "X1X əsrdə Bakı şəhərinin ticarəti" adlı son dərəcə maraqlı tədqiqat əsərində qeyd edir: 1846-1850-ci illərdə Bakıdan dəniz nəqliyyatı ilə aparılan zəfəranın 88% -i, 1851-1855-ci illərdə 46,5% -i, 1858-ci ildə isə 43,2%-i İrana göndərilmişdi. Çox maraqlıdır ki, 1824-cü ildə zəfəran ixracından əldə edilən gəlir (508,8 manat) həmin ildə qara neftin ixracın-

Cədvəl 1

1824-1829-cu illərdə Bakıdan İrana ixrac edilən yerli məhsulların miqdarı

İllər	Qara neft		Duz		Zəfəran	
	pudla	əskinas manatla	pudla	əskinas manatla	pudla	əskinas manatla
1824	250.370	500.740	251.112	125.560	1.018	508.875
1825	155511	233.663	7.240	2.990	542	270.950
1826	112079	169.017	1.940	970	17	8.350
1827	183440	274.820	71.190	35.595	588	298.670
1828	235040	352.655	95.040	47.520	214	107.037
1829	302336	454.322	96.00	48.000	266	81.067
Orta illik miqdarı	206.643	330.871	87.087	43.439	441	210.825

Mənbə: M.Musayev, "X1X əsrdə Bakı şəhərinin ticarəti", Bakı, 1966, s.62

dan əldə edilən gəlirdən bir qədər (500,7 manat) artıq idi (bax: cədvəl 1).

Lakin Bakıda neft istehsalının inkişafı ilə əlaqədar ətraf kəndlərdə yaşayanlar neft mədənlərinə işə düzəlir, nisbətən yüksək maaş alırdılar. Bu müəyyən qədər Abşeron kəndlərində əkinçiliyin, o cümlədən, zəfəran yetişdirilməsinin inkişafında öz təsirini göstərirdi. Bu zaman zəfəran istehsalı xeyli zəifləmişdi. Tədqiqatdan görünür ki, ildən-ilə Bakıdan İrana aparılan zəfəranın da miqdarı azalmışdı. 1960-cı illərdə isə Bilgəh "Zəfəran" sovxozunun istehsal etdiyi zəfəranın miqdarı 100 kq-dan bir qədər çox olardı, sonrakı dövrlərdə bu 40-60 kq enmişdi. 1861-ci ildə İrana 293 pud zəfəran göndərildiyi halda (təxminən 4000 kq), 1870-ci ildə bunun miqdarı 57 pud olmuşdu. Bir sıra Şərq və Qərbi Avropa mənbələrində, xüsusilə XVIII əsrin əvvəllərində Bakıda olmuş fransız missionerlərindən Maz, Başu, Fleriu və s. öz xatirələrində yazırlar ki, Bakı Xəzər dənizinin sahilində yerləşir. Onun ətrafı yumşaq torpaqdan ibarətdir və zəfəranla çox zəngindir. Hər yerdə şöhrət qazanan Bakı zəfəranının becərilməsini genişləndirmək məqsədilə I Pyotrun əmri ilə zəfəranın kökləri təcrübədən keçirilmək üçün Peterburqa göndərilmişdi.

Ərəb müəllifi Əbu Cəfər ət-Təbərinin (839-923) verdiyi məlumata görə, 860-cı ildə xəlifə əl-Mütəfəkkil Bizans imperatoru III Mixailə qiymətli hədiyyə olaraq Şirvan vilayətində becərilən zəfəran göndərmişdir. Zəfəranı adətən qızıla bərabər tuturlar. Vaxt olub ki, onun hər teli pul əvəzinə, qızıl əvəzinə işlənib. Tərəzinin bir gözünə zəfəranı qoyublar, digərinə qızılı.



Keçmiş zamanlarda uzaq ölkələrə səfərə çıxanlar, tacirlər özləri ilə vəzndə yüngül, qiymətdə ağır zəfəran götürər, lazım gəldikdə onu satıb pul əldə edərdilər.

1896-cı ildə "Qafqaz Kənd Təsərrüfatı Cəmiyyəti"nin Bakıda təşkil olunmuş sərgisində bağçılıq məhsulları, o cümlədən zəfəran və ondan alınan sarı boyaq maddəsi nümayiş etdirilmişdir. Sərgiyə gələnlərə və sərgi iştirakçılarına zəfəran haqqında mühazirələr oxunur, təcrübə mübadiləsi aparılırdı.

1927-ci ildə təşkil edilmiş Bilgəh zəfəran sovxozunda zəfəran istehsalı sənaye təməli əsasında inkişaf etdirilmişdi. Abşeronda zəfəran bitkisi üzərində aparılan elmi-tədqiqatlar 1929-cu ildən Ümumittifaq Bitkiçilik İnstitutunun Mərdəkanda yerləşən şöbəsində hazırlanmışdır. 1933-cü ildən bu elmi-tədqiqatlar Ümumittifaq Elmi-Tədqiqat Ətirli Dərmanlar İnstitutunun Bilgəh kəndində təşkil etdiyi dayaq məntəqəsində davam etdirilmişdir.

Zəfəran 1978-ci ildə Bilgəh kəndində 116,5 ha sahədə becərilirdi. 1977-ci ildə 110 kq məhsul (qurudulmuş tel) yığılmışdır. Təəssüflə qeyd etmək lazımdır ki, 1990-cı ildən Abşeron torpağında Tanrının bizə bəxş etdiyi bu əvəzsiz nemətin – zəfəranın istehsalı kəskin surətdə azalmağa başlamışdır.

Abşeronda çox qədim zamandan becərilən bu bitkinin plantasiyaları və məhsuldarlığı azalaraq 2000-ci ildə yox dərəcəsinə çatmışdır. Belə ki, hesablamalardan aydın olur ki, Bilgəh "Zəfəran" sovxozunda becərilən zəfəranın quru tellərinin məhsulu 1995-ci il 1980-ci ilə nisbətən 11,8 dəfə, hər hektardan yığılan məhsul isə 3,1 dəfə azalmışdır (bax: cədvəl 2).

Zəfəran SSRİ dağılması ilə əlaqədar Bilgəh zəfəran sovxozu ləğv olunduqdan sonra yerli əhali arasında həyətlərdə çox az səviyyədə yetişdirilir. Bu gün bazarlarda xaricdən gətirilən zəfərana rast gəlirik, sözsüz ki, həmin zəfəranın keyfiyyəti Azərbaycan zəfəranının keyfiyyətindən qat-qat aşağıdır. Qiymətli və valyuta tutumlu bitki olan zəfəranın respublikamızda becərilməsi imkanı genişdir. Son vaxtlar zəfəran bitkisinin becərilməsinə diqqət artırılır. Zəfəran əkin sahələrinin və zəfəran istehsalının artırılması imkanları araşdırılır. Onun həm daxili, həm də xarici bazara çıxarılması üçün addımlar atılır. Mütəxəssislərin fikrincə Azərbaycan zəfəranı keyfiyyətinə görə dünya bazarında brend ola bilər.

Təranə Qurbanova

ZƏHMƏT – əmək.

ZƏHMƏT ÇƏKMƏK – bir şeyi əldə etmək üçün əmək sərf etmək, işləmək, çalışmaq.

ZƏHMƏT HAQQI – zəhmət (iş) müqabilində verilən haqq, muzd, əmək haqqı, maaş.

ZƏHMƏTLİ – zəhmət tələb edən, zəhmətlə başa gələn.

ZƏHMƏTSEVƏRLİK – zəhməti, işləməyi sevmə, çalışqanlıq.


ZƏHMƏTSİZ – zəhmət tələb etməyən, zəhmət istəməyən, asanlıqla başa gələn.

ZƏKA – bir şeyi tez anlama, tez dərk etmə, tez qavrama qabiliyyəti, zehin kəskinliyi, ağıl, fəhm, zehin.

ZƏLALƏT – zillət, əzab və əziyyət, çətinlik.

ZƏLALƏT ÇƏKMƏK – əziyyətlə, zillət içində yaşamaq, çətin dolanmaq, acı, ağır həyat keçirmək.

ZƏLZƏLƏ – aşağıdakı parametrlərə malikdir: 1) maqnituda – zəlzələ enerjisindən asılı olan təsbit olunmuş kəmiyyət; 2) intensivlik – zəlzələnin gücünün





2011-ci ildə dünyada təbii fəlakətlər nəticəsində 380 mlrd. dollar həcmində dəymiş zərərin 2/3-i həmin ilin fevralında Yeni Zellandiyada, martında isə Yaponiyada baş vermiş zəlzələlərin payına düşür.





2012-ci il mayın 7-də səhər saat 09.40 radələrində Zaqatala və Qax rayonlarında 7 bal gücündə zəlzələ qeydə alınıb. Daha sonra yeraltı təkanlar bir neçə dəfə təkrarlanıb.

Zəlzələ nəticəsində Zaqatala rayonunda 524 tikili uçub, 2052 tikili qəzalı vəziyyətə düşüb, 100 sosial obyektdə çatlar əmələ gəlib. Qax rayonunda da zəlzələ nəticəsində əhali və təsərrüfatlar ziyan çəkib. Azərbaycan prezidenti İlham Əliyev Zaqatala və Qaxda zəlzələdən ziyan çəkən kəndlərə baş çəkib, sakinlərlə görüşüb, təbii fəlakətin törətdiyi fəsadların aradan qaldırılması ilə bağlı konkret tapşırıqlar verib. Fövqəladə Hallar Nazirliyi tərəfindən rayonun zəlzələdən ziyan çəkən kəndlərində yüzlərlə çadır qurulub, həmin çadırlarda 1050 ailə yerləşdirilib. 1276 ailə isə yaxınlarının və qohumlarının evlərində yerləşib.

Zəlzələnin törətdiyi fəsadları aradan qaldırmaq üçün dövlət büdcəsindən Fövqəladə Hallar Nazirliyinə maliyyə vəsaiti ayrılıb, yeni bina və sosial obyektlərin tikintisi istiqamətində konkret işlər görülür.













1906-cı il (San-Fransisko)

Təbiət hadisələrindən yaranan itkilərin miqdarı 2010-cu ildə 152 mlrd. dollar olduğu halda 2011-ci ildə bu rəqəm 380 mlrd. dollara çatmışdır. 2001-2010-cu illərdə orta illik itki 113 mlrd. dollar olmuşdur



24 oktyabr 2011-ci il (Erkis şəhəri)



25 noyabr 2011-ci il (Tokio)



24 oktyabr 2011-ci il (Türkiyə)



14 noyabr 2011-ci il (Kanada)

Təbiət hadisələrindən sığortalanma 2010-cu ildəki 42 mlrd. dollara qarşı 2011-ci ildə 105 mlrd. dollar təşkil etmişdir

Dünya iqtisadiyyatına dəymiş zərər 2005-ci ilin göstəricisindən (220 mlrd. dollar) 1,7 dəfə çoxdur



29 may 2012-ci il (İtaliya)

subyektiv ölçüsü; 3) hiposentr zəlzələnin ocağının coğrafi koordinatları və dərinliyi; 4) episentr torpağın səthinə hiposentrin şaquli proyeksiyası.

Müasir elm zəlzələləri 3 tipə ayırır: denudasiya, vulkanik və tektonik zəlzələlər.

Denudasiya zəlzələləri zamanı torpağa süzülən su, onun bəzi hissələrini həll edir və özü ilə yuyub aparır. Yeraltı suların dağıdıcı fəaliyyəti asanlıqla həll olan süxurlarda (məsələn, daş, duz, gips, əhəngdaşı) və inkişaf etdiyi yerlərdə meydana çıxır. Bu suların yerində boşluqlar və ya mağaralar əmələ gəlir. Zaman keçdikcə həmin boşluqların tavan hissələri ağırlıq qüvvəsinin təsiri altında aşağı uçur və şiddətlə yerə dəyərək zəlzələnin əmələ gəlməsinə səbəb olur.

II tip zəlzələlər vulkanik fəaliyyətlə əlaqədardır. Hər bir partlayış zamanı müxtəlif böyüklükdə olan bərk püskürmə məhsulları atılır, kraterin dibi titrəyir. Püskürmədən əvvəl vulkan ətrafında hiss olunan müxtəlif yeraltı zərbələr bu qəbildəndir. Vulkanik zəlzələlərin səbəbləri üstdəki layların təzyiqinə üstün gələ bilməyən qazların partlamasından ibarətdir.

III tip zəlzələlər Yer qabığında qırışıqların və çatların əmələ gəlməsi ilə əlaqədardır. Tektonik zəlzələlər digər zəlzələ növlərindən yayıldığı sahənin böyüklüyü; əmələ gəldiyi parçalanma və pozulmaların böyük ölçüdə olması; əhəmiyyətli məsafədə zərbələrin eyni zamanda baş verməsi; zəlzələnin mərkəzinin müxtəlif, bəzən böyük dərinlikdə olması ilə fərqlənir. Zəlzələlərin ancaq əhəmiyyətsiz hissəsi vulkanizm, mağara tavanlarının uçması, şaxtalarda uçqunların baş verməsi ilə əlaqədardır. Demək olar ki, zəlzələlərin hamısı tektonik zəlzələlərdir. Yerin təkindəki daxili qüvvələr tədricən toplanır və hər hansı bir yerdə süxurların müqavimət qabiliyyətindən artıq olduqda, həmin süxurların birdən-birə parçalanması və ya çatlaması baş verir. Parçalanma, hər tərəfə yayılmaqda olan və öz yolunda rast gələn maddələri rəqsi hərəkətə gətirən elastik dalğalar yaradır. Süxurların ilk parçalanma yeri zəlzələnin mərkəzi olur. Mərkəzdə zəlzələ həmişə qısa müddətli olur. Ən güclü təkanlar belə bir neçə saniyə davam edir.

2011-ci il martın 11-də Yaponiyada baş vermiş zəlzələnin dünya iqtisadiyyatına vurduğu zərər 2011-ci ilin ilk yarımili üçün 265 milyard dollar qiymətləndirilmişdir. Ümumiyyətlə, zəlzələ və sunami 9 regiona təsir etmişdir. Zərər ən çox tikinti sahəsinə dəymişdir. Belə ki, təqribi hesablamalara görə yaşayış binalarının, ofislərin və istehsal obyektlərinin uçması nəticəsində dəymiş zərər 10,4 trilyon iyena (129 milyard dollar) təşkil etmişdir. Nəqliyyat infrastrukturuna dəyən zərər 2,2 trilyon iyena (27 milyard dollar) qiymətləndirilir. Müvafiq olaraq 1,9 və 1,3 trilyon iyena (24 və 16 milyard dollar) kənd təsərrüfatı və energetika itmişdi. 1995-ci ildə Kobedə baş vermiş zəlzələnin nəticəsinin aradan qaldırılması üçün 100 milyard dollar lazım olmuşdu. Lakin həmin zəlzələ sənaye tikililərini dağıtmışdı. "Merrill Lynch Bank of America"nın məlumatlarına görə, burada ÜDM-in 12%-i istehsal olunurdu. İndiki zəlzələ isə ÜDM-in 7%-i istehsal olunan ərazilərə toxunub. Hesablamalara görə, AES-də baş vermiş qəzalar zərərin məbləğini artıracaq və ona görə də sığorta ödəmələri 3 dəfə çox olacaqdır.

ZƏMANƏT (ing. *qurentee, warranty*) – 1. Öz kontragenti qarşısında digər şəxsin öhdəliklərinin yerinə yetirilməsinə görə zamin adlanan bir şəxsin sənədlə tərtib olunmuş zaminliyi. Zamin kimi hökumət orqanı (döv-




lət zəmanəti), kommersiya bankı (bank zəmanəti), iri müəssisə və s. çıxış edə bilər. Zəmanət verildiyi şəxsin öhdəliklərinin yerinə yetirilməməsi zamanı zamin, zəmanətdə göstərilən müddətdə bu öhdəliklərin yerinə yetirilməsini öhdəsinə götürməlidir.

Beynəlxalq ticarətdə miqdara, keyfiyyətə, qablaşmaya, markalanmaya və s. görə bütün iddiaları (iradları) öz üzərinə götürmək hazırlığı ilə yükdaşıyana yük göndərən tərəfindən verilən zəmanət məktubları təcrübəsi geniş yayılmışdır. Başqa sözlə, yük göndərən yükdaşıyana zərərin ödənilməsi zəmanətini verir ki, yükün markası, kütləsi, miqdarı və xarici vəziyyəti haqqında düzgün olmayan məlumatların konossamentə daxil olması nəticəsində yükdaşıyan bu zərərə məruz qala bilər. 2. Satılan (göndərilən) əmtəə və xidmətin keyfiyyətinə görə satıcının (məhsul göndərənin) məsuliyyətidir. Zəmanət əvvəla, alqı-satqı müqaviləsinin tələblərinə uyğun olaraq satıcının, əmtəənin alıcıya təqdimatı vəzifəsini, ikincisi, zəmanət müddətində satıcıya və hazırlayana əmtəələrin normal fəaliyyət göstərməsinin təmini vəzifəsini tələb edir. Lazımi keyfiyyətdə olmayan əmtəənin alıcıya təqdim edilməsi zamanı o, satıcıdan: ciddi və aradan qaldırılmayan defektlər aşkar edilərkən, alqı-satqı müqaviləsinin ləğv edilməsini və ya qeyri-kondisiyalı əmtəənin əvəzlənməsini; əhəmiyyətli olmayan və aradan qaldırılan defektlər aşkar edilərkən alış qiymətinin bərabər ölçüdə azaldılmasını, ağlabatan (düşünülmüş) müddətdə əmtəənin çatışmazlıqlarının təmənnasız aradan qaldırılmasını, əmtəənin çatışmazlıqlarının aradan qaldırılması üçün öz xərclərinin ödənilməsini tələb etmək hüququna malikdir. Nəzərə almaq lazımdır ki, zəmanət əmtəənin tərkib hissələrini, konstruktiv xüsusiyyətlərini təşkil edən və onun hazırlanması zamanı tətbiq olunan materialların keyfiyyətinə şamil edilir. Alıcı tərəfindən onun qanuni iddiaları irəli sürüləndən sonra, o (alıcı), defektlərin tam aradan qaldırılmasına qədər bütün alış dəyərinin ödənilməsini ləngitmək hüququna malikdir (əgər alıcı ilə satıcı arasında hesablaşmalar başa çatmayıbsa).

ZƏMANƏT BANKI – öz müştərilərinə görə zəmanət verən bank. Müştərilərin tapşırığına və hesabına görə, eləcə də müxbir bankların hesabına görə zəmanət verir.

ZƏMANƏT FONDU – tədiyyə qabiliyyəti marjasının hissəsi kimi müəyyən edilən sığortaçının tədiyyə qabiliyyəti göstəricisi.

ZƏMANƏT MƏKTUBU – zəmanət verənin müəyyən öhdəlikləri yerinə yetirməsi barədə yazılı şəhadəti. Bu öhdəliyin yerinə yetirilməsinə zəmanət verilən şəxsin xeyrinə tərtib olunur. Lakin zəmanət məktubunun



üçüncü şəxs tərəfindən verilməsi də istisna edilmir. Bu halda, əgər üçüncü şəxsin zamin durduğu şəxs (borclu) müəyyən öhdəlikləri yerinə yetirə bilməzsə, onda üçüncü şəxs həmin öhdəliyə görə müstəqil cavabdehlik daşıyır;
təqdim edilən məhsulun keyfiyyətinin alqı-satqı müqaviləsinin, tədarük kontraktının şərtlərinə uyğun olmasına yazılı şəkildə şəhadət verən sənəd.
Zəmanət məktubu *zəmanət öhdəliyi* də adlanır.

ZƏMANƏT MÜDDƏTİ – müvafiq normativ sənədlərdə nəzərdə tutulmuş zəmanət öhdəliklərinin qüvvədə olduğu müddət.

ZƏMANƏTÇİ – zəmanət verən şəxs, zamin olan adam, zamin.

ZƏMANƏTKAR – bax: zaminkar.

ZƏMANƏTLİ ARTIM SÜRƏTİ – iqtisadi artım bu sürətlə baş verdikdə, sahibkarlıq fəaliyyəti ilə məşğul olan aparıcı firmalar əvvəllər qəbul etdikləri investisiya qərarlarını məqsədəuyğun sayılır. Bu adekvat qərarların mahiyyəti ondan ibarətdir ki, kapital ehtiyatının həcmi əlavə məhsul istehsal edilməsi üçün zəruri ehtiyatların həcminə ideal dərəcədə uyğun olur.

Zəmanətli artım sürətinin müəllifi

Bu, ümumiləşdirilmiş makroiqtisadi proqnoz kəmiyyətini R.Harrod özünün işləyib hazırladığı dinamik tarazlığın riyazi modelində əsaslandırmışdır. Elmi texniki tərəqqi şəraitində bu kəmiyyət kifayət qədər uzun dövr ərzində təxminən eyni qalır.

ZƏMANƏTLİ ÇEK – bu qiymətli sənədin üzərində tədiyyəçi bankın aksepti olur – bank çekdə göstərilən məbləğdə pulun həmin məbləği alanın hesabına köçürməyə zəmanət verir. Burada bank aksepti bankın ödənilməli sənədləri ödəməyə razılıq verməsi, eləcə də bu tədiyyə sənədlərinin ödənilməsinin zəmanətli formasıdır. Zəmanətli çek akseptant bankın dərkənarı şəklində rəsmiləşdirilir.

ZƏMANƏTLİ DEPOZİT – fyuçers kontraktının qabaqcadan şərtləşdirilmiş hissəsinə bərabər olan ilkin beh məbləği.

Zəmanətli depozit müştərinin fyuçers kontraktını icra etmək niyyətini təsdiqləmək üçün istifadə olunur və satıcı şirkətə öz aktivlərini daha sürətlə dövr etdirmək imkanı verir. Nəticə etibarilə bu, şirkətin mənfəətini artırır. Bütün dünya birjalarında fyuçers kontraktları bağlanarkən bu cür zəmanətlər adi hal sayılır. Çox vaxt fyuçers kontraktı üzrə malın qiyməti sabit olmadığı və satıcının alıcı tərəfindən kontraktın icrasına inamının yoxluğu hallarında istifadə edilir.

ZƏMANƏTLİ ÖHDƏLİKLƏRƏ ƏSASLANAN ANDERRAYTİNQ – anderraytinq haqqında sazişin bu növündə anderrayterlər satışa buraxılmış bütün səhmləri almağa və sonra onları açıq bazarın iştirakçılarına satmağa hazır olduqlarını bildirirlər. Realizə edilməmiş qalan bütün səhmlərin haqqını anderrayterlər ödəyir və bu səhmlər onlarda saxlanılır.


ZƏMANƏTLİ SIĞORTA – könüllü əmlak sığortası növü; buna görə müəssisələrə, təşkilatlara, idarələrə, maddi və pul qiymətlərinin saxlanması, qorunması, mühafizəsi, qəbulu, buraxılması və daşınması ilə məşğul olan işçilərin cinayətkar hərəkətləri, diqqətsizlikləri və ya səhvləri nəticəsində yaranan itkilər ödənilir.

ZƏMANƏTLİ SIĞORTALANMIŞ OLMAQ İMKANI – sonradan həyatın sığortalanması və ya gələcəkdə tibbi müayinəsiz alınmış ödənişlərin artması hüququ.

"ZƏRBƏ ARDINCA ZƏRBƏ" – sığortaçıların fərdi məsuliyyət prinsipi. Nadir hallarda – iki gəminin toqquşması zamanı tətbiq olunur. Bu prinsip çox zaman avtomobillərin sığortalanması təcrübəsində də tətbiq edilir. Nəzərdə tutulur ki, əgər iki toqquşan avtomobilin dəyəri təxminən eynidirsə, onda hər bir sığortaçı digərinə iddia bildirməyərək, sığortalanmış avtomobilin təmirini ödəyir.

ZƏRƏR – 1. İtkilər, gözlənilməyən xərclər, əmlakın və pulların itirilməsi, tam alınmamış gəlir, ziyan. 2. Bir təsərrüfat subyektinin fəaliyyəti, hərəkətləri ilə başqa subyektlərə, yaxud təbiətə, ətraf mühitə, insanlara vurulan ziyandır. Zərərin aşağıdakı formalarını fərqləndirirlər: a) əmlak zərəri fiziki və hüquqi şəxslər tərəfindən zərər vurulması və ya onlara münasibətdə götürülmüş öhdəliklərin yerinə yetirilməsi səbəbindən əmlak itirməsidir; b) mənəvi zərər digər şəxslər tərəfindən hüquqazidd hərəkətlər etməklə, fiziki və hüquqi şəxslərə onların hüquqlarının pozulması, şərəf və ləyaqətinin təhqir edilməsi şəklində vurulan zərərdir.

Sığorta növləri üzrə zərərlilik göstəricisi (2011)



Sxem 1









ZƏRƏRÇƏKMİŞ – 1. Üçüncü şəxsdir ki, bununla sığorta hadisəsi baş verənə qədər, ümumiyyətlə, heç bir müqavilə münasibətləri olmamışdır. 2. Müqavilə münasibətlərinə görə tərəfdaşdır ki, həmin müqavilə münasibətləri çərçivəsində ziyana (zərərə) düşmüşdür.

ZƏRƏR ÇƏKMƏK – zərər etmək, maddi və mənəvi itki vermək, zərərə məruz qalmaq.

ZƏRƏR GƏTİRMƏK – bax: zərər vermək.

ZƏRƏR VERMƏK – ziyan vermək, zərərli olmaq.

ZƏRƏR VURMAQ – ziyan vurmaq, ziyan çəkməsinə səbəb olmaq.

ZƏRƏR VURULMA YERİNİN QANUNU (ing. *lex loci delicti commissi*) – hansı dövlətin ərazisində ziyan vurulmuşdursa, həmin dövlətin hüququnun tətbiq edilməli olması qaydası.

Bu kollizion bağlama vurulmuş ziyana görə yaranan öhdəlikləri (delikt öhdəliklər) tənzimləmək səlahiyyəti olan hüququ seçmək üçün istifadə edilir. Beynəlxalq turizmin və beynəlxalq nəqliyyat əməliyyatlarının genişlənməsi ilə əlaqədar, xarici elementlə mürəkkəbləşmiş delikt öhdəliklərin sayı artır. Bu isə həmin təhkimetmə düsturunun tətbiq sahəsini genişləndirir.

ZƏRƏRƏ DÜŞMƏK – 1) bax: zərər çəkmək; 2) məcburiyyət qarşısında pul xərcləməyə məcbur olmaq.

ZƏRƏRİN BÖLÜŞDÜRÜLDÜYÜ YENİDƏN SIĞORTA – yenidən sığortanın formalarından biri. Bu zaman yenidən sığorta mükafatının illik dərəcəsi sığorta edənin müəyyən dövr



(adətən 5 il) ərzindəki zərər ekssedentlərinin cəmi kimi müəyyən edilir.

ZƏRƏRİN EKSSEDENTİ – təkrar sığortadır ki, burada bir kateqoriya riski üzrə müəyyən edilmiş ölçüdən yüksək olan sığorta məbləğinin bir hissəsi ödənilir.

ZƏRƏRİN EKSSEDENTİ MÜQAVİLƏSİ – qeyri-proporsional təkrar sığorta örtülmənin (ödənişin) ən yayılmış forması olan, iri və görünməmiş zərərlərdən şirkətin sığorta portfellərinin müdafiəsi üçün xidmət göstərən özünəməxsus saziş növü. Bu müqavilənin şərtlərinə əsasən təkrar sığorta aləti o zaman qüvvəyə minir ki, eyni hadisənin fəaliyyətinin nəticəsi olan sığorta hadisəsi və ya sığorta hadisələri, seriya nəticəsində sığortalanmış riskə görə zərərin son məbləği şərtlənmiş məbləğdən yüksəkdir. Təkrar sığortaçıların bu məbləğdən yuxarı məsuliyyəti müəyyən limitlə məhdudlaşır.

ZƏRƏRİN ƏMLAKA YÖNƏLDİLMƏSİ, ÇEVRİLMƏSİ – borcu qaytarmamış şəxsin əmlakının müəyyən edilməsi, ona həbs qoyulması, satılması. Məqsəd – satışdan əldə olunan vəsaitlərin dəymiş zərər haqqında iddia qaldırmış kreditora ödənilməsidir.

ZƏRƏRİN HESABLANMASI – 1. Müxtəlif növ sığortada zərərin ödənilməsi zamanı sığorta təzminatının həcminin hesablanması. 2. Müəyyən edilmiş qayda üzrə sığorta edilənin irəli sürdüyü iddianın məbləğinin və sığortanın hesablanması.

ZƏRƏRİN MİNİMALLAŞMASI HALI – məhsulun qiymətinin orta dəyişkən məsrəflərlə, orta ümumi məsrəflər arasında tərəddüd etməsi halı.

ZƏRƏRİN ÖDƏNİLMƏSİ ÜZRƏ İDDİA – buna əsasən iddiaçı, dəymiş zərərin onun tələb etdiyi həcmdə pul məbləği şəklində, yaxud zərər dəymiş əmlakın bərpa edilməsi vasitəsilə ödənilməsini cavabdehdən tələb edir.

ZƏRƏRLƏR – 1. Təsərrüfat praktikasında pul formasında ifadə edilmiş itkilər, məxaricin mədaxildən artıq olması nəticəsində material və pul resursla-

rının azalması; mənfəətlərin və zərərlərin mühasibat uçotunda hesaba alınır. 2. Mülki hüquqda – hüquqları pozulmuş şəxsin pozulmuş hüquqlarının bərpa edilməsi üçün çəkdiyi və ya çəkməli olduğu xərclər. Onun əmlakının itirilməsi və ya zədələnməsi (real ziyan), eləcə də, əgər onun hüququ pozulmasaydı, bu şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi, lakin əldə etmədiyi gəlirləridir (əldən verilmiş səmərə). Əgər hüququ pozmuş şəxs bunun nəticəsində gəlir əldə etmişdirsə, hüququ pozulmuş şəxs başqa zərərlərin ödənilməsi ilə yanaşı, onun əldə etdiyi gəlirdən az olmayan məbləğdə əldən verilmiş səmərənin də ödənilməsini tələb etməyə haqlıdır.

ZƏRƏRLƏR DEPOSU – 1. Bildirilmiş, lakin ödənilməmiş sığorta hadisələri üzrə sığorta təzminatlarının, yaxud sığorta məbləğlərinin gələcəkdə ödənilməsi məqsədilə sığortaçılar tərəfindən yaradılan fondlar. 2. Təkrar sığorta müqavilələri üzrə yaradılan fondlar.

ZƏRƏRLƏRİN LƏĞVİ – əmlak və məsuliyyət sığortasında sığorta ödəmələrinin müəyyən edilməsi və ödənilməsi.

ZƏRƏRLİ – zərəri toxuna bilən, zərər verən, ziyanlı. Maddi, mənəvi itkiyə, zərərə, ziyana səbəb olan, zərərlə nəticələnən.

ZƏRƏRLİLİK – itkilərin cəminin (sığorta ödəmələrinin) toplanmış mükafatlara (haqlara) nisbəti, yaxud müəyyən dövr ərzində ödənilmiş itkilərin eyni dövrdə netto mükafata nisbəti, zərərli şeyin xassəsi, keyfiyyəti.

ZƏRƏRLİLİYİN EKSSEDENTİ – təkrar sığorta müqaviləsi və ya "Stop loss" müqaviləsi nəzərdə tutulur. Zərərliliyin ekssedenti müqaviləsinə görə, sığorta şirkəti zərərliliyin müqavilədə şərtlənmiş faizdən və ya onun ölçüsündən artıq olması zamanı işin keçməsinin ümumi nəticələrini müəyyən sığorta növlərinə görə müdafiə edir.

ZƏRƏRSİZ – zərər vurmayan, toxunmayan, zərəri olmayan, ziyansız. Məsələn, zərərsiz sifarişçi, müştəri, sövdələşmə və s.

ZƏRƏRSİZLƏŞDİRİLMİŞ – zərər vermək imkanından məhrum etmək.

ZƏRƏRSİZLƏŞDİRMƏK – zərərsiz hala gətirmək, zərər vermək imkanından məhrum etmək, bunun üçün qabaqlayıcı tədbirlər görmək.

ZƏRƏRSİZLİYİN TƏHLİLİ (ing. *break-even analysis*) – çox vaxt qrafik şəklində təsvir edilən, riyazi model bazasında nəzərdə tutulan biznesin mümkün nəticələrinin təhlili. Bu model istehsalın, satışın həcmindən asılı olaraq işgüzar fəallığın müxtəlif səviyyələrində gəlirlərin və xərclərin səviyyələrini təyin etməyə imkan verir. Bu halda qrafik üzərində istehsalın minimal həcmi kimi elə zərərsizlik nöqtəsi tapmaq olar ki, həmin həcmdə məhsulun satışından əldə edilən mədaxil sabit və dəyişən xərclərin cəminə dəqiq bərabər olacaqdır. Yəni bu nöqtədə əldə edilən gəlir xərcləri dəqiq ödəyəcəkdir.

ZƏRGƏRLİK – metalişləmə sənətinin başlıca sahəsi; zərgərin işi, sənəti, ixtisası.

Aparılan tədqiqatlardan aydın olmuşdur ki, bu sənət növü XVI-XVII əsrlərdə metaldan düzəldilmiş bədii sənət nümunələrinin ayrılmaz bir qolunu da zinət işləri təşkil edir. Bunlar əsas etibarı ilə qızıl və gümüşdən düzələrək həyatda qadın və kişi bəzəyi kimi istifadə edilirdi. Həmin zinət əşyalarının bəzədilməsində müxtəlif qiymətli daşlardan, o cümlədən firuzədən, yaqutdan istifadə olunurdu. Təsadüfi deyil ki, Nizami öz poemalarının birində: Firuzənin maviliyi özü ilə evimizə səadət gətirər, – deyir. Yaqut qaşı isə əksinə olaraq özündə ehtiras, qələbə hissiyyatlarını təmsil edirdi. Ümumiyyətlə, qiymətli metallardan düzəldilmiş qızıl-gümüş bəzəkləri gəzdirilməsi və geyilməsinə görə 4 hissəsə bölünür: 1) boyun bəzəkləri; 2) qol və barmaq bəzəkləri; 3) baş bəzəkləri; 4) libaslara bənd olunan bəzəklər.

1553-cü ilin aprel ayında Şamaxıda Abdulla xanın qonağı olmuş ingilis səyyahı və diplomatı Antoni Cenkinson, xanın libasını təsvir edərkən, orada gördüyü zərgərlik işlərinə valeh olduğunu qeyd etmişdir. Bu dövr Azərbaycan zərgərliyi haqda yüksək rəyə biz Don Juan və başqalarının da qeydlərində rast gəlirik.

XVI–XVII əsr Azərbaycan zərgərliyi barədə yazılı mənbələrdə çoxlu müsbət rəylərin olmasına baxmayaraq, faktiki materialların sayı olduqca azdır.

Bu əsrlərdə düzəldilmiş və dövrümüzə qədər gəlib çatmış zərgərlik nümunələri içərisində biz iki əsər haqqında danışacağıq. Bunlardan biri Gədəbəy rayonunda qazıntı işləri zamanı Səfəvi sikkələri ilə birlikdə aşkara çıxmış badam və nar dənələri formalı üstü naxışlı gümüş bo-

yunbağı, o birisi isə 1-ci Şah İsmayılın 1507-ci il tarixli qızıl kəməridir.

Şah İsmayılın qızıl kəməri xüsusilə maraqlıdır. Hazırda İstanbulda Topqapı sarayı muzeyində saxlanılan bu kəmər uzun illərdir ki, bir çox dünya alimlərinin diqqətini özünə cəlb etmişdir.

Haqqında bəhs etdiyimiz kəmər kişi kəmərlərinin ən zəngin və bəzəkli nümunələrindəndir.

Kəmər o qədər də böyük deyildir, təxminən 5x8 sm, biri digərinə meşin və qarmaqla bənd edilmiş qızıl hissəciklərindən ibarətdir. Bu hissəciklər şəbəkə üsulunda zərif nəbati ornamentlərlə bəzədilmişdir. Gül-çiçək və budaq rəsmlərindən təşkil olunmuş bu nəbati ornamentlər dövrün xalça, parça və qeyri sənət nümunələrində rast gəlinən bəzəkləri xatırladır.

Kəmərin ən gözəl hissəsini onun toqqası təşkil edir. Dairə formasında olan bu toqqada real bir səpgidə at belində ova çıxmış bir gənc və onu müşayiət edən bələdçi təsvir olunmuşdur.

Ova çıxmış gənc gödək qollu dəbdəbəli xələt geymiş, başına isə qızılbaşlara məxsus başlıq qoymuşdur. Başlığın yan hissəsinə onun yüksək rütbəyə mənsub olduğunu bildirən nişanə – lələk sancılmışdır.

Bütün bu səhnə təbiətin qoynunda, gül-çiçək açmış ağaclar fonunda təsvir edilmişdir.

Toqqa üzərindəki təsvirlər həm ümumi kompozisiya, həm də ayrı-ayrı motivləri ilə dövrün miniatür sənətindəki bəzi süjetləri xatırladır.

Araşdırmalar dekorativ tətbiqi sənətin ən qədim növlərindən biri olan zərgərliyin XIX əsrdən Bakıda daha çox inkişaf etməsini göstərir. Bakılıların həndəsi, nəbati, zoomorf elementlərlə işlədikləri daha zərif, daha yaraşıqlı nümunələri adlı-sanlı Avropa zərgərləri tərəfindən istər-istəməz qiymətləndirilib, Paris, Almaniya, Türkiyə, İsveçrə və Londonda keçirilən sərgilərdə nümayiş etdirilib yüksək yerə layiq biliniblər.

Orta əsrlərdə Azərbaycanda sənətkarlığın inkişafı üçün olduqca əlverişli şərait yaranmışdı. Arxeoloji qazıntı materiallarının araşdırılması bu dövrdə həm daxili bazarın, həm də başqa ölkələrdən karvanlarla gələn tacirlərin müxtəlif sənətkarlıq məmulatına tələbatının artmasını göstərir.

Zinət istehsal edən zərgərlik sənəti sırf şəhər sənətkarlığıdır və şəhərlərdə cəmləşmişdir.





Ən qədim zərgərlik nümunələrimizdən bir çoxu hazırda xarici muzeylərin incilərinə çevriliblər, onlar müxtəlif sərgilərdə nümayiş etdirilir, elmi kitablarda və kataloqlarda dərc olunurlar. Vaxtilə I Şah İsmayıla məxsus olan yaraşıqlı qızıl kəmər hazırda İstanbulda Topqapı muzeyində ekspozisiyanı bəzəyən əşyalardandır. Rus çarı Mixail Romanova hədiyyə edilmiş qızılla və daş-qaşla işlənmiş nadir qalxan indi Kremlin Silah Palatasında saxlanılır. Hazırda dünya üzrə qızıl hasilatının xeyli hissəsi zərgərlik və sənaye tələbatına sərf edilir (bax: cədvəl 1).



Ağahüseyn Babayev



Ağa Qəni oğlu Hüseynov

XX əsrin 30-50-ci illərində Bakının məşhur zərgərlərindən biri Bakının Buzovna kəndində doğulub boya-başa çatmış Ağahüseyn Mirzağa oğlu Babayev olub. O, zərgər-minasaz olmaqla bərabər, zərgərlik əşyalarında cəvahiratı xüsusi rəssam duyğusu ilə işlədirdi və həm də daşqaşların, bəzək məmulatının, əntiq malların nadir bilicisi idi. 1939-cu ildə Azərbaycanın Moskvada nəzərdə tutulmuş ongünlüyü ilə əlaqədar olaraq Mədəniyyət Nazirliyinin tapşırığına əsasən Opera və Balet teatrı tamaşalarında iştirak edən solist-aktyorlar üçün bir sıra dekorativ bəzək əşyalarının hazırlanmasında buzovnalı Ağahü-

Cədvəl 1

1989-2010-cu illərdə dünyada qızıla olan tələb, təklif və qiymət

	1 troya unsiyası qızılın dollarla orta qiyməti (oz):	Yataqlardan hasilat + qızıl qırıntıları, ton:	Əlavə etdilər (+), aldılar (-) mərkəzi banklar və xüsusi investorlar, ton:	Zərgərlik və sənaye tələbi (-), ton:	Balans (təklif – tələb), ton:		Zərgərlik və sənaye tələbinin hasilata nisbəti: %-lə	İnvestorların qızıla olan marağının hasilata nisbəti: %-lə
2001-2010:		**36580**	**-8270**	**-28310**		**2001-2010:**	**77,4%**	**22,6%**
2010	1224,50 $	4312	-1833	-2479	0	2010	57,5%	42,5%
2009	972,35 $	4257	-2123	-2134	0	2009	50,1%	49,9%
2008	871,96 $	3726	-1097	-2629	0	2008	70,6%	29,4%
2007	695,39 $	3450	-571	-2879	0	2007	83,4%	16,6%
2006	603,77 $	3615	-857	-2758	0	2006	76,3%	23,7%
2005	444,45 $	3439	-290	-3149	0	2005	91,6%	8,4%
2004	409,17 $	3318	-290	-3028	0	2004	91,3%	8,7%
2003	363,32 $	3537	-674	-2863	0	2003	80,9%	19,1%
2002	309,68 $	3425	-405	-3020	0	2002	88,2%	11,8%
2001	271,10 $	3502	-130	-3372	0	2001	96,3%	3,7%
1991-2000:		**30159**	**3192**	**-33351**		**1991-2000:**	**110,6%**	**-10,6%**
2000	279,10 $	3408	249	-3656	0	2000	107,3%	-7,3%
1999	278,60 $	3328	234	-3562	0	1999	107,0%	-7,0%
1998	294,10 $	3234	342	-3575	0	1998	110,6%	-10,6%
1997	331,30 $	3122	608	-3730	0	1997	119,5%	-19,5%
1996	387,87 $	3016	320	-3336	0	1996	110,6%	-10,6%
1995	384,08 $	2916	378	-3294	0	1995	113,0%	-13,0%
1994	384,14 $	2902	173	-3075	0	1994	106,0%	-6,0%
1993	359,18 $	2867	174	-3041	0	1993	106,1%	-6,1%
1992	343,45 $	2736	470	-3206	0	1992	117,2%	-17,2%
1991	362,26 $	2631	245	-2876	0	1991	109,3%	-9,3%
1990	383,59 $	2664	19	-2683	0	1990	100,7%	-0,7%
1989	380,79 $	2463	84	-2547	0	1989	103,4%	-3,4%



Qızıl toqqa (XIX əsr)



Kolye (XIX əsr)



Boğazaltı (XX əsr)



Toqqa (XIX əsr)




Qızıl kəmər (XIX əsr)



Boyunbağı (Naxçıvan XIX əsr)



Qızıl kəmər (XIX əsr)



Pialə zəng–sırğa (XIX əsr)

seyn Babayev də iştirak etmişdi. Böyük Vətən müharibəsindən sonra Ağahüseyn Babayev ekspert kimi Moskvaya dəvət olunub, reparasiya müqaviləsinə əsasən Almaniyadan gətirilən müxtəlif mallarla birgə zərgərlik məmulatının, çini qablar, saat və bir sıra başqa zərgərlik məhsullarının öyrənilməsində, qiymətləndirilməsində işləyən nümayəndələrə başçılıq etmişdi. Bundan əlavə, Moskvanın və Leninqradın əntiq mallar satılan dükanlarında zərgərlik əşyaların tarixini, keyfiyyətini, mübahisəli qiymətlərini dəqiqləşdirmək üçün yüksəkixtisaslı mütəxəssisə ehtiyac vardı. Bu mürəkkəb işlərin həllində Ağahüseyn Babayevin böyük xidməti olmuşdur. Ağahüseyn Babayev Moskvanın adlı-sanlı muzeylərində oldu və buradakı elmi işçilərin əliyüngüllüklə "şərq məmulatı" kimi göstərdikləri muzey eksponatlarının əslində məhz Azərbaycana xas olan üslubda işlənmələrini sübut edə bildi. O, Avropa zərgərlik fabriklərinin damğalarını tanıyan nadir sənətkarlardandı, xüsusilə "Faberje"nin müxtəlif illərdə istehsal etdiyi mallarının, müxtəlif ölkələrdə cilalanmış almazın, brilliyantın və ondan düzəldilmiş zinət əşyalarının bilicisi idi.

Maraqlıdır ki, ustad sənətkarın nəticəsi hazırda ABŞ-da tanınmış rəssamlardan biridir.

Ağa Hüseynov Moskvanın Surikov adına Dövlət İncəsənət İnstitutunu bitirmiş (1986) və beynəlxalq miqyasda tanınmağa başlamışdır. Hal-hazırda Nyu-York şəhərində yaşamasına baxmayaraq, o, Azərbaycanla sıx əlaqə saxlayır və 2011-ci ildə ölkəmizi 54-cü Venesiya Bienalesində təmsil etmişdir. Onun heykəlləri və kağız üzərindəki işləri İslam və Avropa mədəniyyətlərinin erkən elmi mənbələrindən ilhamlanır və əsərləri dünyanın müxtəlif nufuzlu sərgilərində nümayiş olunur (bax: kollaj 1, 2).

ZƏRGƏROV ƏBDÜLQAFUR ƏMİNULLA OĞLU (1929-1999) – Azərbaycanın



görkəmli iqtisadçı alimi. Moskvada Şərqşünaslıq İnstitutunun iqtisadyönümlü Ölkəşünaslıq ixtisası üzrə Yaxın Şərq fakültəsini bitirən Əbdülqafur Zərgərov bir müddət Azərbaycan SSR Nazirlər Sovetində elmi müəssisələr və ali məktəblər qrupunda məsləhətçi işlədikdən sonra SSRİ Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda aspirantura oxumuşdur.

Moskvada iqtisad elmləri üzrə namizədlik dissertasiyası müdafiə etdikdən sonra Bakıya qayıtmış, uzun müddət Respublika Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda baş elmi işçi, şöbə müdiri vəzifələrində çalışmışdır. Onun təxminən 30 il bundan əvvəl müdafiə etdiyi sənayedə işçi qüvvəsi probleminə həsr olunmuş doktorluq dissertasiyası keçmiş Sovetlər məkanında ən nadir tədqiqatlardan sayılırdı.

Ə.Zərgərovun rəhbərliyi ilə 70-ci illərdə hazırlanan statistik məcmuələr XX əsrdə Azərbaycan iqtisadiyyatının, onun ayrı-ayrı sahələrinin inkişaf dinamikasını öyrənmək üçün zəruri bir vasitə olaraq qalır. O, Azərbaycanda ictimai elmlər sahəsində elmi informasiya mərkəzinin yaradıcısıdır. Onun rəhbərlik etdiyi İctimai Elmlər üzrə Elmi Məlumat Mərkəzində filosof, şərqşünas, tarixçi, iqtisadçı, hüquqşünas və s. tədqiqatçılar üçün çox məzmunlu, vacib informasiyalardan istifadə etmək şəraiti yarandı. Alimlərimiz dünyada baş verən qlobal proseslərlə nəinki tanış olmaq, həmçinin onları ümumiləşdirmək, milli dövlət mənafeləri baxımından qiymətləndirmək imkanı da əldə etdilər.


Əbdülqafur Zərgərovun təşəbbüsü və prinsipial mövqeyi nəticəsində 1992-ci ilin yazında Elmlər Akademiyasının İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutu yaradılmışdır. O bu elm ocağında politoloji tədqiqatları əlaqələndirmək, qüvvə və imkanları səfərbər etməklə, siyasi institutların fəaliyyət prinsiplərini ayrıca bir elm – politologiya çərçivəsində konkret şəkildə öyrənməyi qarşıya məqsəd qoyurdu.

"İslam iqtisadiyyatı" adlı monoqrafiyası onun iqtisad elminə ən layiqli töhfələrindən biri kimi qiymətləndirilir. "İslamın torpağa və ondan istifadə edilməsinə münasibəti", "İslamın sərvətə və mülkiyyətə münasibəti", "Əməyə və əmək haqqına dair İslam konsepsiyası", "İslamın iqtisadi doktrinası", "Müsəlman ölkələrinin iqtisadi inteqrasiyası" və s. silsilə yazıları bu gün də olduqca dəyərli əsərlərdir və həmişə öz əhəmiyyətini saxlayacaqdır.

Ə.Zərgərov İslamın iqtisadi



(Kollaj 1)



(Kollaj 2)

doktrinasını bilməyi çox əhəmiyyətli saymışdır. O göstərirdi ki, son illərdə İslamın iqtisadi doktrinası "İslam iqtisadiyyatı" adlanan yeni modelin əsası kimi dünya ictimaiyyətində maraq doğurmuşdur. İslamın iqtisadi konsepsiyası İslam sistemi hüdudları daxilində əsaslandırılmış və dərk edilmiş azad fəaliyyət qaydalarının məcmusudur. İqtisadi fəaliyyət İslamın iqtisadiyyat haqqında özünəməxsus göstərişlərinə hörmət etməli, fərdin və cəmiyyətin maddi və mənəvi tələbatını ahəngdar şəkildə ödəməyə çalışmalıdır.



ZƏRURİ ƏMƏK – zəruri məhsul yaratmaq üçün maddi istehsal sahəsi işçilərinin sərf etdikləri əmək.

Zəruri əmək lazımi dərəcədə zəruri tələbatı ödəmək üçün işçi qüvvəsinin təkrar istehsalına sərf edilir. Zəruri əməyin sosial-iqtisadi xüsusiyyətləri hər bir ictimai iqtisadi formasiyada məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişaf səviyyəsi ilə müəyyən olunur. Zəruri əməyin yaratdığı və istehsal işçilərinin şəxsi istehlakına gedən zəruri məhsulun mütləq həcminin durmadan artımı təmin edilməli, izafi məhsul isə bütövlükdə cəmiyyətin və bununla da onun hər bir üzvünün tələbatının ödənilməsinə yönəlməlidir.

ZƏRURİ İŞ VAXTI – iş vaxtının bir hissəsi; bu vaxt ərzində maddi istehsal işçisi həyatının təkrar istehsalı üçün tələb olunan zəruri məhsul yaradır.

Zəruri iş vaxtı müddətində işçi həyat qüvvəsinin bərpasını, bacarığın hərtərəfli inkişafını, əmək qabiliyyəti olmayan ailə üzvlərinin saxlanmasını təmin edən maddi nemətlər yaradır. Bu səbəbdən zəhmətkeşlərin rifahı iş vaxtından istifadəni yaxşılaşdırmaqdan (əmək intizamına əməl edilməsindən, boşdayanmaların aradan qaldırılmasından və s.), əməyin intensivliyini ictimai normal səviyyəyə qaldırmaqdan və ən əsası isə əmək məhsuldarlığının yüksəldilməsindən birbaşa asılıdır.

ZƏRURİ MƏHSUL – maddi istehsal işçisinin yeni yaratdığı məhsulun bir hissəsi; işçinin həyatının saxlanması və normal təkrar istehsalı üçün nəzərdə tutulur.

Zəruri məhsul zəruri iş vaxtı müddətində istehsal olunur. Zəruri məhsulun həcmi və maddi məzmunu işçilərin maddi, sosial və mədəni tələbatının dəyişməsini və istehsalın ictimai şəraitini əks etdirir. Müxtəlif ictimai formasiyalarda zəruri məhsul da müvafiq sosial iqtisadi forma alır. Məsələn, belə hesab olunurdu ki, kapitalizmdə zəruri məhsul işçi qüvvəsinin əmtəə kimi təkrar istehsalının maddi əsasıdır və fəhlənin yeni yaratdığı məhsulun yalnız ödənilən hissəsinə müvafiqdir. Sosializmdə zəruri məhsul işçilərin təkrar istehsalının və şəxsiyyətin hərtərəfli inkişafının maddi əsası hesab edilirdi. Onun tərkibinə işçilərin və onların əmək qabiliyyəti olmayan ailə üzvlərinin şəxsi ehtiyaclarını ödəyən nemət və xidmətlər daxil edilirdi.

ZƏRURİ MÜXTƏLİFLİK QANUNU – idarə edən sistemin müxtəliflik dərəcəsi idarə olunan obyektin müxtəliflik dərəcəsindən az olmamalıdır. Təcrübədə bu o deməkdir ki, idarəetmənin obyekti nə qədər mürəkkəb olsa, onu idarə edən orqan da bir o qədər mürəkkəb olmalıdır.

ZİBİL – evlərdə, küçələrdə və s.-də yığılaraq onları zibilləndirən tör-töküntü, tullantı. Müasir dünyada istehsal, məişət tullantılarını emal etməklə bir çox məhsullar, o cümlədən enerji istehsal olunur.

ZİQİYMƏT – qiymətli, çox qiymətli, bahalı.

ZİLLƏT – çətinlik, ağır şərait, pis vəziyyət, ağır maddi ehti-

yac, yoxsulluq, məşəqqət. *Zillət çəkmək* – əziyyət içində yaşamaq, ağır vəziyyətdə olmaq, ehtiyac içində yaşamaq.

ZİNƏTÇİLİK – zinətçinin işi, peşəsi, sənəti.

ZİYAN – mülki hüquqda – zərərlərin bir növü, zərərlərin ödənilməsi barədə iddiaların təqdim edildiyi ana qədər çəkilmiş və ya pozulmuş hüquqların bərpa edilməsi üçün çəkiləcək xərclərdir (gələcək xərclər). Eləcə də əmlakın itirilməsi və zədələnməsi, pulun itirilməsi ilə əlaqədar yaranmış zərərlərdir; tam həcmdə alınmamış səmərə; zərər.

Ziyanın orta ölçüsü – riskin meydana gəlməsi ehtimalı ilə yanaşı, onun texniki xarakteristikasını ifadə edir.

ZİYANXOR – bax: ziyankar.

ZİYANKAR – ziyan verən, ziyan toxunduran, ziyançı, zərərverən, ziyan və zərərə səbəb olan.

ZİYANLI – bax: zərərli.

ZİYANLIQ – zərər, itki, tələfat, zərər.

ZOMBART (SOMBART) VERNER (1863-1941) – alman



iqtisadçısı. Zombart 1863-cü ildə Ermsleven şəhərində anadan olmuşdur. O, Berlin, Roma və Piza Universitetlərində hüququ, iqtisadiyyatı və tarixi öyrənmişdir. Şmoller və Adolf Vaqnerin rəhbərliyi altında dissertasiya yazaraq 1888-ci ildə Berlin Universitetində doktor dərəcəsini almışdır. İki il Bremen Ticarət Palatasında işlədikdən sonra o, akademik fəaliyyətini bərpa edərək, Breslau Universitetində 1906-cı ildə isə Berlin Ali Ticarət Məktəbində yer alır. 1917-ci ildən Berlin Universitetində müəllimləri Şmoller və Vaqnerin yerini tutur.

Zombartın metodologiyası özünəməxsus dualizmlə xarakterizə olunur ki, onun da mahiyyəti – hər bir ayrıca problemin tədqiqatının empirik və nəzəri hissələrinin bölgüsündən ibarətdir. Verner Zombart öz alimlik karyerasını 1890-cı ildə marksist kimi başlamış və 1930-cu illərdə kapitalizmin peyda olunmasına həsr olunmuş 7 kitab yazaraq onu nasist kimi başa vurmuşdur. Zombartın ilk kitablarından biri 1894-cü ildə işıq üzü görmüş Marksın "Kapital"ının 3-cü cildinə həsr olunmuşdur. İki il sonra Zombart promarksist xarakteri daşıyan sosializm və sosialist hərəkatı məqaləsini nəşr etdirmişdir. 1902-ci ildə Zombart fundamental "Müasir kapitalizm" əsərinin 1-ci iki cildini nəşr etdirmiş, 3-cü cild isə yalnız 1927-ci ildə işıq üzü görmüşdür. Bu kitabda Zombart sənaye kapitalizminin yaranmasını feodalizm dövründə "rasionalizm ruhunun" və "tamahkar yığımın" artması ilə izah edir və kapitalizmin qaçılmaz olaraq sosializmlə əvəz olacağını iddia edirdi. Onun axırıncı işlərindən biri "Yeni sosial fəlsəfə" kitabı idi və burada o, müasir dövrün sosial problemlərini "nasional-sosializm (yəni, nasizm) nöqteyi-nəzərindən" təhlil etməyə çalışırdı.

SÖZLƏRİN ƏLİFBA SİYAHISI

I CİLD

A

A, a....9
A/A SÖVDƏSİ....9
A QRUPU....9
"A" KATEQORİYASINA AİD SƏHMLƏR....9
ABALKİN LEONİD İVANOVİÇ....9
ABANDON....10
ABBASI....10
ABBASOV ƏLİ MƏMMƏD OĞLU....10
ABBASOV İBAD MUSA OĞLU....10
ABBASOV ALICAN BAYRAMƏLİ OĞLU....11
ABBASOV QƏZƏNFƏR ƏLİ OĞLU....11
ABBASOV VAHİD HACIBƏY OĞLU....11
ABDULLAYEV ŞİRZAD ƏYYUB OĞLU....12
ABDULLAYEV YAŞAR RƏHİM OĞLU....12
ABONEMENT....12
ABONEMENT ÖDƏNİŞİ....12
ABONENT....12
ABOVO....12
ABSENTEİZM....12
ABUNƏ DÖVRÜ....12
ABUNƏ SERTİFİKATI....12
ACASTER....12
ACINACAQLI İNDEKS....12
AÇIQ CƏMİYYƏT....12
AÇIQ ÇARTER....13
AÇIQ DEVALVASİYA....13
AÇIQ FAKTORİNQ....13
AÇIQ FOND....13
AÇIQ İQTİSADİYYAT....13
AÇIQ İNVESTİSİYA FONDU....15
AÇIQ İPOTEKA....15
AÇIQ KOVER....15
AÇIQLAMA....15
AÇIQ OLMAYAN ƏMANƏT....15
AÇIQ POLİS....15
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ....15
AÇIQ TENDER....15
AÇILMIŞ SƏHMLƏR....16
ADAMBAŞINA VERGİ....16
ADAM-GÜN....16
ADAM-SAAT....16
ADAPTİV GÖZLƏMƏLƏR NƏZƏRİYYƏSİ....16
ADDENDUM....16
ADƏT HÜQUQU....16
ADİ (NORMAL) ƏMƏLİYYAT DÖVRÜ....16
ADİ XƏRCLƏR....16
ADİ KONOSAMENT....16
ADİ QEYRİ-BƏRABƏR HƏYAT SIĞORTASI....17
ADİ ORTAQLIQ....17
ADİ SƏHM....17
ADIGÖZƏLOV FİKRƏT SALAM OĞLU....17
ADQ....18
ADLI ƏMANƏT....18
ADLI ƏMANƏT ÜZRƏ ƏMANƏTÇİ....18
ADLI İSTİQRAZ....18
ADMİNİSTRASİYA....18
ADMONİSİYA....18
ADRESANT....18
ADVALOR....18
ADVALOR PUL QAYDASI....18
AFFİDEVİT....18
AFFİLƏ EDİLMİŞ ŞİRKƏT....18
AFFİLƏ OLUNMUŞ ŞƏXSLƏR....18
AFFİLİASİYA....19
AFFİRMASİYA....19
A-FORFE....19

AFRİKA-ASİYA SIĞORTAÇILAR VƏ TƏKRAR SIĞORTAÇILAR FEDERASİYASI 19
AFRİKA BİRLİYİ TƏŞKİLATI (ABT)....19
AFYORA....20
AGENT....20
AGENT BANK....20
AGENT MÜQAVİLƏSİ....20
AGENTLƏŞMƏ....21
AGENTLİK....21
